**HACI FUAD NURULLAH**

# *İMAM ƏLİ (Ə):*
# İNSANLIQ MƏKTƏBİNİN USTADI



**قال رسول الله (صلى الله عليه وآله وسلم):علي مع القرآن والقرآن مع علي.**

**Peyğəmbər *(s)* buyurub: "Əli Quran ilə, Quran da Əli ilədir".**

**اللهم صل على محمد وال محمد وعجل فرجهم وارحمنا بهم ياكريم**
**اللهم احينا حياة محمد وآلِ محمد وامتنا مماتهم واحشرنا في زمرتهم**
**اللهم وثبتنا على حبهم وولايتهم وطاعتهم واللعن اعدائهم من الاولين والاخرين الى يوم الدين.**
**اللهم وثبتنا على حب ولاية امير المؤمنين واجعلنا من المتمسكين به وباهل بيته**
**بارك الله بكم واحسنتم على المشاركة الولائيه**
**جعلها الباري في ميزان حسناتكم رعتكم سيدة النساء عليها السلام.**

**Bu kitab Əhli-Beyt**
**aşiqlərinə ithaf olunur.**

Bu kitab Azərbaycan Respublikası **Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi**nin razılığı ilə çap olunmuşdur.
(Məktub № DK-605/M, 23.07.2015)

**Elmi redaktoru:**
***Vasim Məmmədəliyev***
akademik
Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin dekanı,
Qafqaz Müsəlmanları İdarəsinin Elmi-Dini Şurasının sədri

**Elmi məsləhətçilər:**
***İbrahim Quliyev***
Bakı İslam Universitetinin hədis müəllimi

***Şahlar Şərifov***
ilahiyyat elmləri üzrə fəlsəfə doktoru,
Bakı İslam Universitetinin İslam tarixi müəllimi

***Hacı Qabil Məşhədi Hüseyn oğlu Məcidov***
Əhli-beyt aşiqi

**Bədii redaktoru:**
***Əhliman Rüstəmov***
ilahiyyat üzrə araşdırmaçı,
Qafqaz Müsəlmanları İdarəsinin İctimaiyyətlə əlaqələr
və ailə məsələləri şöbəsinin aparıcı mütəxəssisi

**Hacı Fuad Nurullah. İmam Əli *(ə)*: İnsanlıq məktəbinin ustadı.**
Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2015, 544 s.

ISBN: 978 – 9952 – 490 – 22 – 0

©, F.Nurullah, 2015

# MÜNDƏRİCAT

ÖN SÖZ ..... 6
GİRİŞ ..... 8

**I FƏSİL. İMAM ƏLİNİN (Ə) HƏYATI VƏ FƏALİYYƏTİ ..... 13**
1.1. HƏZRƏT ƏLİNİN (Ə) HƏYATI VƏ NƏSİL ŞƏCƏRƏSİ ..... 14
1.2. HƏZRƏT ƏLİ (Ə) MƏKKƏ DÖVRÜNDƏ ..... 30
1.3. HƏZRƏT ƏLİ (Ə) MƏDİNƏ DÖVRÜNDƏ ..... 39
1.4. HƏZRƏT ƏLİ (Ə) DÖYÜŞ MEYDANLARINDA ..... 47
*1.4.1. Həzrət Əli (ə) Bədr döyüşündə* ..... 48
*1.4.2. Həzrət Əli (ə) Təbuk döyüşündə* ..... 51
*1.4.3. Həzrət Əli (ə) Ühüd döyüşündə* ..... 54
*1.4.4. Həzrət Əli (ə) Əhzab (Xəndək) döyüşündə* ..... 58
*1.4.5. Həzrət Əli (ə) Xeybər döyüşündə* ..... 61
*1.4.6. Həzrət Əli (ə) Məkkənin fəthində* ..... 64
*1.4.7. Həzrət Əli (ə) Cəməl döyüşündə* ..... 66
*1.4.8. Həzrət Əli (ə) Siffin döyüşündə* ..... 69
*1.4.9. Həzrət Əli (ə) Nəhrivan döyüşündə* ..... 71

**II FƏSİL. İMAM ƏLİ (Ə) ƏHLİ-BEYTİN (Ə) ÜZVÜ KİMİ ..... 75**
2.1. QURANİ-KƏRİMDƏ ƏHLİ-BEYT (Ə) MƏFHUMU ..... 76
2.2. HƏDİSİ-ŞƏRİFLƏRDƏ ƏHLİ-BEYT (Ə) MƏFHUMU ..... 97
2.3. ƏLİ BİN ƏBU TALİBİN (Ə) FƏZİLƏTLƏRİ ..... 108
2.4. HƏZRƏT ƏLİNİN (Ə) FƏZİLƏTLƏRİNİN FƏRQLİ CƏHƏTLƏRİ ..... 111
*2.4.1. Həzrət Adəmə (ə) nisbətdə Həzrət Əlinin (ə) fəziləti* ..... 111
*2.4.2. Həzrət İbrahimə (ə) nisbətdə Həzrət Əlinin (ə) fəziləti* ..... 114
*2.4.3. Həzrət Musaya (ə) nisbətdə Həzrət Əlinin (ə) fəziləti* ..... 116
*2.4.4. Həzrət Zəkəriyyaya (ə) nisbətdə Həzrət Əlinin (ə) fəziləti* ..... 117
2.5. XANIM FATİMƏNİN (Ə) FƏZİLƏTLƏRİ ..... 121
2.6. İMAM HƏSƏN (Ə) VƏ İMAM HÜSEYNİN (Ə) FƏZİLƏTLƏRİ ..... 123

III FƏSİL. **İSLAMDA İMAMƏT (XİLAFƏT) MƏFHUMU VƏ İMAM ƏLİNİN (Ə) İMAMƏTİ ..... 125**
3.1. İMAMƏT VƏ XİLAFƏT MƏFHUMU ..... 126
3.2. İMAMLARIN (Ə) TƏYİN OLUNMASI ..... 138
3.3. HƏZRƏT ƏLİNİN (Ə) PEYĞƏMBƏR (s) TƏRƏFİNDƏN TƏYİNİ ..... 142
3.4. QƏDİR-XUM HƏDİSİNİ NƏQL EDƏN DİGƏR QAYNAQLAR ..... 152
3.5. QƏDİR-XUM HAQQINDA ƏSƏR YAZAN ALİMLƏR ..... 160

3.6. HƏR İMAMIN (Ə) ÖZÜNDƏN SONRAKI İMAMI (Ə) TƏYİN EDİB TANITMASI ........ 166
3.7. ƏHLİ-BEYT (Ə) İMAMLARI (Ə) ELMLƏRİNİ PEYĞƏMBƏRDƏN (S) ALMIŞLAR ........ 167

**IV FƏSİL. İMAM ƏLİ (Ə) QURANİ-KƏRİMDƏ ........ 169**
4.1. İMAM ƏLİ (Ə) "ƏL-FATİHƏ" SURƏSİNDƏ ........ 170
4.2. İMAM ƏLİ (Ə) "ƏL-BƏQƏRƏ" SURƏSİNDƏ ........ 177
4.3. İMAM ƏLİ (Ə) "ALİ-İMRAN" SURƏSİNDƏ ........ 194
4.4. İMAM ƏLİ (Ə) "ƏN-NİSA" SURƏSİNDƏ ........ 222
4.5. İMAM ƏLİ (Ə) "ƏL-MAİDƏ" SURƏSİNDƏ ........ 240
4.6. İMAM ƏLİ (Ə) "ƏL-ƏNAM" SURƏSİNDƏ ........ 279
4.7. İMAM ƏLİ (Ə) "ƏL-ƏRAF" SURƏSİNDƏ ........ 288
4.8. İMAM ƏLİ (Ə) "ƏL-ƏNFAL" SURƏSİNDƏ ........ 301
4.9. İMAM ƏLİ (Ə) "ƏT-TÖVBƏ" SURƏSİNDƏ ........ 334
4.10. İMAM ƏLİ (Ə) "YUNUS" SURƏSİNDƏ ........ 354
4.11. İMAM ƏLİ (Ə) "HUD" SURƏSİNDƏ ........ 363
4.12. İMAM ƏLİ (Ə) "YUSUF" SURƏSİNDƏ ........ 371
4.13. İMAM ƏLİ (Ə) "ƏR-RƏD" SURƏSİNDƏ ........ 372
4.14. İMAM ƏLİ (Ə) "İBRAHİM" SURƏSİNDƏ ........ 377
4.15. İMAM ƏLİ (Ə) "MƏRYƏM" SURƏSİNDƏ ........ 381
4.16. İMAM ƏLİ (Ə) "YASİN" SURƏSİNDƏ ........ 383
4.17. İMAM ƏLİ "ƏR-RƏHMAN" SURƏSİNDƏ ........ 385
4.18. İMAM ƏLİ (Ə) "ƏN-NƏBƏ" SURƏSİNDƏ ........ 386
4.19. İMAM ƏLİ (Ə) "ƏL-BƏLƏD" SURƏSİNDƏ ........ 387
4.20. İMAM ƏLİ (Ə) "ƏL-BƏYYİNƏ" SURƏSİNDƏ ........ 388
4.21. İMAM ƏLİ (Ə) "ƏL-ADİYAT" SURƏSİNDƏ ........ 390
4.22. İMAM ƏLİ (Ə) "ƏL-ƏSR" SURƏSİNDƏ ........ 391
4.23. İMAM ƏLİ (Ə) "ƏL-KÖVSƏR" SURƏSİNDƏ ........ 392
4.24. İMAM ƏLİ (Ə) "ƏN-NƏSR" SURƏSİNDƏ ........ 393
4.25. İMAM ƏLİ (Ə) "ƏL-İXLAS" SURƏSİNDƏ ........ 394

**V FƏSİL. İMAM ƏLİ (Ə) HƏDİSİ-ŞƏRİFLƏRDƏ ........ 395**
5.1. İMAM ƏLİNİN (Ə) TƏRƏFDARI OLMAQ ........ 396
5.2. İMAM ƏLİ (Ə) ÖZÜNDƏN ƏVVƏLKİ XƏLİFƏLƏRİN DİLİNDƏ ........ 425
5.3. İMAM ƏLİ (Ə) TƏRƏFDARLARININ XÜSUSİYYƏTLƏRİ ........ 427

**VI FƏSİL. İMAM ƏLİNİN (Ə) "NƏHCÜL-BƏLAĞƏ" ƏSƏRİ ........ 433**
6.1. "NƏHCÜL-BƏLAĞƏ" HAQQINDA ELMİ TƏDQİQATLAR ........ 434
6.2. "NƏHCÜL-BƏLAĞƏ"DƏ ƏXLAQİ MƏSƏLƏLƏR ........ 438

6.3. "NƏHCÜL-BƏLAĞƏ"NİN İSLAM ELMİ-FİKİR TARİXİNDƏ ROLU ....... 454
6.4. "NƏHCÜL-BƏLAĞƏ"NİN ELMİ BAXIMINDAN TƏHLİLİ ........................ 458
6.5. İMAM ƏLİNİN (Ə) "DİVANÜŞ-ŞER" ƏSƏRİ ........................................ 459
6.6. İMAM ƏLİNİN (Ə) "QÜRƏRÜL-HİKƏM" ƏSƏRİNDƏN BƏZİ QISA KƏLAMLAR ........................................................................................... 465

**VII FƏSİL. İMAM ƏLİNİN (Ə) QƏZAVƏTLƏRİ ..................................................... 495**
7.1. İMAM ƏLİNİN (Ə) ELMİ ÜSTÜNLÜYÜ ............................................ 496
7.2. ALLAHIN YEGANƏLİYİ BARƏDƏ İMAM ƏLİNİN (Ə) QƏZAVƏTLƏRİ 498
7.3. ALLAHIN NİŞANƏSİ ........................................................................ 498
7.4. RAMAZAN AYINDA ŞƏRAB İÇMƏYİN CƏZASI .................................. 499
7.5. ƏDALƏTLİ BÖLGÜ .......................................................................... 499
7.6. DƏVƏLƏRİN BÖLGÜSÜ .................................................................... 500
7.7. ATMOSFER HAQQINDA .................................................................... 500
7.8. YERİN HƏRƏKƏTİ ........................................................................... 501
7.9. YERİN HƏRƏKƏTLƏRİ ....................................................................... 502
7.10. AY, GÜNƏŞ VƏ FƏLƏK .................................................................... 502
7.11. NÜCUM (ASTRONOMİYA) ÖYRƏNMƏK .............................................. 503
7.12. TƏBABƏT VƏ SAĞLAMLIQ ................................................................ 505
7.13. SƏRF VƏ NƏHV (MORFOLOGİYA VƏ SİNTAKSİS) ................................ 506
7.14. LÜĞƏTŞÜNASLIQ ........................................................................... 507
7.15. FƏSAHƏT VƏ BƏLAĞƏT .................................................................. 509
7.16. BƏSRƏ DİYARI ............................................................................... 509
7.17. BEYTÜL-MALIN BÖLÜŞDÜRÜLMƏSİ ................................................. 510
7.18. TÖVHİD VƏ ƏDLİN MƏNASI .............................................................. 511
7.19. QİYAMƏTDƏ CƏNNƏTİN YERİ .......................................................... 511
7.20. QƏZAVÜ-QƏDƏR ............................................................................. 512
7.21. XƏLİFƏ ÖMƏR BİN XƏTTAB İMAM ƏLİYƏ (Ə) İŞARƏ EDİR ............... 512
7.22. HƏR TƏRƏF ALLAHIN ÜZÜDÜR ......................................................... 513
7.23. SƏN BİZİM AXTARDIĞIMIZ ADAMSAN .................................................. 514
7.24. RUHUN MƏNASI ............................................................................... 516
7.25. ŞAHİD GƏTİRİLMƏSİ MÜMKÜN OLMAYAN HALLAR .............................. 516
7.26. GÖRMƏ, İYBİLMƏ VƏ DANIŞIQ QABİLİYYƏTİNİN YOXLANMASI...... 517
7.27. GÖRMƏ QABİLİYYƏTİNİN ZƏİFLİYİ ................................................... 517
7.28. HƏR İKİ GÖZÜN ZƏİFLİYİ ................................................................ 518
7.29. LAL ADAMIN AND İÇDİRİLMƏSİ ......................................................... 518

**VIII FƏSİL. İMAM ƏLİNİN (Ə) HİKMƏTLİ KƏLAMLARI .................................. 519**

NƏTİCƏ ...................................................................................................... 528
MƏNBƏLƏR VƏ İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI ........................... 531

# ÖN SÖZ

İmam Əli bin Əbu Talib *(ə)* təkcə dinlər tarixinin deyil, eyni zamanda dünya elmləri tarixinin də ən görkəmli və dahi nümayəndələrindən biridir. İmamın *(ə)* İslamdakı məqamını, Allah yanındakı üstünlüklərini bilmək, dərk etmək üçün Qurani-Kərimə və hədisi-şəriflərə diqqət yetirməyimiz kifayət edər.

Uca Rəbbimiz müqəddəs Quranda İmam Əlini *(ə)* Peyğəmbərin *(s)* canı ("Ali-İmran", 61), Əhli-Beyti *(ə)* ("əl-Əhzab", 33), məhəbbət qaynağı ("əş-Şura", 23) olaraq vəsf etmişdir. Bütün bu və ya digər qisimdən olan ayələr onu göstərir ki, İmamın *(ə)* üstünlüklərinin mütləq İlahi qaynağı vardır və onların inkar olunması yolverilməzdir.

Həmçinin, İmam Əli *(ə)* haqqında deyilmiş *"Onu ancaq möminlər sevər, ona ancaq münafiqlər nifrət edər"*, *"Onu sevmək atəşin odunu yandırdığı kimi, günahları yox edər"*, *"Mən elmin şəhəri, Əli isə qapısıdır"*, *"Elm on qisimdir. Onun doqquzu Əliyə, yerdə qalanı isə bütün insanlara verilmişdir. Əli o birini də insanlardan daha yaxşı bilir"* yüzlərlə, minlərlə belə hədis İmamın *(ə)* kimliyinin sübut edilməsi baxımından önəmlidir.

İmam Əli *(ə)*, haqqında ***"Onu çox qüvvətli olan öyrətdi"*** ("ən-Nəcm", 5) ayəsi nazil olan İslam Peyğəmbəri Həzrət Muhəmməd *(s)* kimi kamil bir ustadın hüzurunda və o Həzrətin *(s)* birbaşa təsiri ilə əvəzolunmaz bir şəxsiyyət kimi tərbiyə almış, böyümüşdür.

İmam Əli *(ə)* Peyğəmbərin *(s)* mübarək əxlaqı ilə cilvələnmiş, Rəsulullaha *(s)* dərin bağlarla bağlanmış və bu bağlar əbədiyyətə qədər qırılmayacaqdır.

İmam Əli *(ə)* Peyğəmbəri *(s)* anbaan izləmiş, o Həzrətin *(s)* əqidə və adətlərinin ardınca getmiş, davamçısı olmuş, qısa bir müddətdə Rəsulullahın *(s)* bütün davranış və hərəkətlərini, əxlaq və ədəbini əxz etmişdir.

Bütün bu deyilənləri nəzərə alaraq bildirmək istəyirəm ki, İmam Əlinin *(ə)* mübarək həyatını, İslam tarixindəki misilsiz fəaliyyətini öyrənmək və İslamdakı layiqli yerini müəyyən etmək müasir Azərbaycan ilahiyyatşünaslığının qarşısında duran ən mühüm, ən vacib məsələlərdən biridir. Çünki, İmam Əlinin *(ə)* elmi-dini şəxsiyyətini öyrənmək, elə İslamı öyrənmək deməkdir. Bu baxımdan Hacı Fuad Nurullahın qələmə aldığı "İmam Əli *(ə)*: İnsanlıq məktəbinin ustadı" adlı kitab diqqətəlayiq bir əsərdir, eyni zamanda

müasir cəmiyyətimizin elmi və dini təbəqəsi üçün son dərəcə aktualdır. Buna görə də kitabın mühüm elmi əhəmiyyət daşıdığını və xalqımız üçün faydalı olacağını düşünürəm. Əsrlərdən bəri İmam Əli *(ə)* aşiqləri kimi tanınan xalqımız bu kitabda indiyə kimi İmam *(ə)* haqqında qaranlıq qalan bəzi məsələlərlə yaxından tanış olacaq və Əmirəl-mömininin *(ə)* Allah yanındakı üstünlüklərini başa düşəcəklər. Bu səbəbdən də belə bir kitabın nəşr olunmasını məqsədəuyğun hesab edirik.

**Vasim Məmmədəliyev**
*akademik*

# GİRİŞ

Həzrət Əlinin *(ə)* Qurani-Kərimlə olan əlaqəsi möhkəm və qırılmazdır. Bu, Peyğəmbərin *(s)* hədislərində öz əksini tapmış, dövrümüzə mütəvatir və səhih yolla nəql olunmuşdur.

Qurani-Kərim nazil olduğu ilk vaxtdan etibarən Peyğəmbər *(s)* onu Həzrət Əliyə *(ə)* öyrədər və bu ayələrin təfsirini bütün incəliklərinədək başa salardı. Mötəbər mənbələrdə qeyd olunmuş **علّمه ألف باب من العلم** - *"Elmdən ona min qapı öyrətdi"* hədisi buna bariz nümunədir. Bundan əlavə, İbn Abbasdan nəql olunmuş **(كنّا نتحدّث أنَّ النبي (صلَّى الله عليه وآله وسلَّم) عهد إلى علي سبعين عهداً لم يعهد إلى غيره)** - "Peyğəmbər *(s)* Əli *(ə)* ilə yetmiş əhd etmişdir ki, bunların heç birini başqaları ilə etməmişdir" hədisi də o Həzrətin *(ə)* necə bir ali dərəcəyə çatdığını göstərməkdədir.

Peyğəmbər *(s)* Həzrət Əlinin *(ə)* yüksək elmi dərəcəyə çatdığına şəxsən şahidlik etmiş və bununla əlaqədar buyurmuşdur: **علي أعلم الناس بالكتاب والسُنّة**[1]، **علي مع القرآن والقرآن مع علي.**[2] - *"Əli insanlar içində Quran və Sünnəyə ən çox bələd olandır"*. Həmçinin, Rəsulullah *(s)* bəyan etmişdir: *"Quran Əli ilə, Əli də Quranladır"*.

Tarixin özü də şahiddir ki, Peyğəmbər *(s)* nazil olmuş hər bir ayəni Həzrət Əliyə *(ə)* yazdırardı. Bu haqda o Həzrətin *(ə)* özü belə bəyan etmişdir: **إنَّ كل آية أنزلها - على محمد (صلَّى الله عليه وآله وسلَّم) عندي بإملاء رسول الله وخط يدي).**[3] *"Muhəmmədə nazil olmuş hər bir ayə onun imlası, mənimsə xəttimlə yazılmışdır"*.

Bütün bunlar onu göstərir ki, Əli bin Əbu Talib *(ə)* Quranın hər bir ayəsinin mənasına, onun təfsir incəliklərinə mükəmməl bələd olan bir şəxs idi.

Həzrət Əli *(ə)* Quranın bütün xüsusiyyətlərini, hansı məkan və hansı zamanda nazil olduğunu bilirdi. O Həzrət *(ə)* özü buna işarə edərək buyururdu: **والله، ما نزلت آية إلاّ وقد علمت فيما نزلت وأين نزلت.**[4] - *"And olsun Allaha, elə bir ayə yoxdur ki, onun nə üçün və harada nazil olduğunu bilməyim!"*

Həzrət Əlinin *(ə)* elmi üstünlüyünə dəlil olan hədislərdən biri də buyurduğu *"Məni itirməzdən əvvəl məndən soruşun!"* hədisidir. Bu hədisi o Həzrətdən *(ə)* başqa heç bir şəxs iddia etməyib. Hədis mənbələrində İmam

---

[1] المعيار والموازنة ، 102.
[2] الصواعق المحرقة ، 76.
[3] آلاء الرحمن في تفسير القرآن ، 38.
[4] حلية الأولياء ،1 / 67.

Əlidən *(ə)* bu məzmunda çoxlu rəvayətlər nəql olunmuşdur. Məsələn, Əsbəğ bin Nübatə nəql edir ki, Həzrət Əli *(ə)* buyurmuşdur:

**روي عن الأصبغ بن نباتة أنَّه قال: لمَّا بويع أمير المؤمنين علي (عليه السلام) بالخلافة، خرج إلى المسجد فقال: (سلوني قبل أن تفقدوني؛ فوالله إنِّي لأعلم بالقرآن وتأويله من كل مُدَّعٍ علمه، فوالذي فلق الحبَّة وبرأ النَّسَمة لو سألتموني عن آية لأخبرتكم بوقت نزولها وفيمَ نزلت).**[5]

*"...Məni itirməzdən qabaq məndən soruşun! And olsun Allaha, mən, "Quranı və onun təfsirini bilirəm" deyəndən daha çox bələdəm ona! And olsun toxumu cücərdənə, əgər məndən bir ayə haqqında soruşsanız, onun hansı vaxt və nə üçün nazil olduğunu xəbər verərəm!"* Bu hədis müxtəlif yollarla nəql olunmuşdur.

Digər bir misal: Hakim Nişapuri (933-1014) "əl-Müstədrək" kitabında yazır: "Əli *(ə)* minbərdə uca səslə buyurdu: *"Məni itirməzdən qabaq məndən soruşun. Məndən sonra mənim kimi bir şəxsi tapmayacaqsınız ki, ondan soruşasınız"*.[6]

Yenə, başqa bir nümunə: İbn Kəsir (1301-1373) öz təfsir kitabında iki müxtəlif yolla Həzrət Əlidən *(ə)* belə nəql edir: *"Quran ayəsindən və Peyğəmbərin Sünnəsindən elə birini soruşmazsınız ki, mən onun düzgün cavabını verməmiş olum"*.[7]

Növbəti misal olaraq Mühibuddin Təbəri (1218-1295) "ər-Riyazun-nüzrət" kitabında yazır: "Həzrət Əli *(ə)* buyurmuşdur: *"(Ey camaat!) Məndən soruşun! Allaha and olsun ki, Qiyamət gününə qədər baş verəcək xəbərlərdən nəyi soruşsanız, mən onun cavabını verə bilərəm! Allahın kitabından soruşun! Allaha and olsun, onda elə bir ayə yoxdur ki, mən onun gecə, yoxsa gündüz, çöldə, yaxud dağda nazil olduğunu bilməmiş olum!"*[8]

Yenə də başqa bir nümunə kimi, Əbu Nəim İsfahani (948-1038) "Hilyətül-övliya" kitabında yazır ki, Həzrət Əli *(ə)* buyurdu: *"Allaha and olsun, elə bir ayə nazil olmamışdır ki, mən onun kimin barəsində və harada nazil edildiyini bilməmiş olum! Çünki, Rəbbim mənə çox böyük, geniş tutumlu qəlb və çox aşkar bəyan edən bir dil vermişdir"*.[9]

**ويقول (عليه السلام): ( سلوني عن كتاب الله، فإنَّه ليس من آيةٍ إلاّ وقد عرفت أبليلٍ نزلت أو بنهارٍ، في سهْلٍ أو جبلٍ...).**[10]

---

[5] مقدمة تفسير البرهان ، 16 .

[6] Hakim ən-Nişapuri, əl-Müstədrəku ələs-Səhiheyn, c. II, səh. 466, hədis № 3736. Zəhəbi bu hədisi səhih bilmişdir.

[7] İbn Kəsir öz təfsirində onu iki yolla nəql etmiş və demişdir: "Bu hədis müxtəlif yollarla nəql olunmuşdur".

[8] Muhib ət-Təbəri, ər-Riyazun-nəzrə, c. II, səh. 198.

[9] Əbu Nəim əl-İsfahani, Hilyətul-övliya, c. I, səh. 68.

[10] أنساب الأشراف ، 1 / 99.

Həzrət Əli *(ə)* özü buyurur: *“Məni itirməzdən qabaq məndən soruşun! Allahın kitabından soruşun! Agah olun, elə bir ayə yoxdur ki, onun nazil olma yerini bilməmiş olum, onun dağda, yaxud düzənlikdə, səhrada nazil olduğunu bilirəm, fitnələrdən, iğtişaşlardan soruşun! Elə bir fitnə yoxdur ki, mən onun kim tərəfindən icad olunduğunu və kimlərin bu fitnədə öldürüləcəyini bilməmiş olum”.*

Bu rəvayəti Əhməd bin Hənbəl (780-855) nəql edərək yazır: “O Həzrətdən *(ə)* bu kimi sözlər çox nəql olunmuşdur”.[11]

Həmçinin, nəql olunur ki, İmam Əli *(ə)* Peyğəmbərin *(s)* zirehli paltarını geyinərək o Həzrətin *(s)* qılıncını bağlamış, Rəsulullahın *(s)* əmmaməsini başına qoyaraq Kufə minbərində əyləşmiş və köynəyini qaldıraraq buyurmuşdur: *“Məni əldən verməzdən qabaq məndən soruşun! Çünki, mənim sinəmdə çoxlu elmlər vardır. Bu* (qəlbinə işarə edərək)*, elm ətrinin sandığıdır. Bu, Allah Peyğəmbərinin elminin şirəsidir. Bu, elə bir elmdir ki, Allahın Peyğəmbəri bir-bir onu mənim sinəmdə qərar vermişdir. Allaha and olsun, əgər mənim üçün elm kürsüsü qoyulsa və mən ona söykənsəm, mütləq, Tövrat əhlinin cavabını Tövrat əsasında, İncil əhlinin cavabını İncil əsasında verərəm! Belə ki, Allah Tövratı və İncili danışdırsa, bu ikisi “Əli sizin cavabınızı məndə nazil olanlarla verdi!” deyər. Allahın kitabını oxuduğunuz halda, dərindən düşünüb ağlınızı işə salmırsınızmı?!”*

Bu hədisi Şeyxülislam Həməvi əş-Şafei (1247-1322) “Fəraidüs-simteyn” kitabında Əbu Səidin nəqlinə əsasən qeyd etmişdir.[12]

İbn Həcər əl-Heysəmi (1494-1566) “əs-Səvaiq” kitabında Səid bin Müsəyyibin nəqlinə əsasən yazır: “Səhabələr arasında Əli bin Əbu Talibdən *(ə)* başqa heç bir şəxs *“məndən soruşun”* ifadəsini işlətməmişdir”.[13]

Bunu da qeyd edək ki, Həzrət Əlidən *(ə)* qabaq qardaşı və əmisi oğlu Həzrət Muhəmməd *(s)* dəfələrlə buyurardı: *“İstədiyiniz şey barəsində məndən soruşun!”* Yaxud, Rəsulullah *(s)* belə buyurardı: *“Soruşun, soruşun!”* Və ya bu cür xitab edərdi: *“Məndən soruşun, sizin soruşduğunuz hər bir şeyin cavabını bilirəm”*.[14]

Tarixdə bu iki böyük şəxsiyyətdən başqa elə bir adam tanımırıq ki, ən çətin və ən mürəkkəb suallar qarşında heç nədən çəkinməsin, elmi yığıncaq-

---

[11] Qunduzi əl-Hənəfi, Yənabiul-məvəddət, c. I, səh. 274, bab 14.

[12] Fəraidus-simiteyn”, c. I, səh. 341, hədis № 263, bab 63.

[13] Əhməd bin Hənbəl, Mənaqib, səh. 153, hədis № 220; Mühib ət-Təbəri, Riyazün-nəzrə, c. II, səh. 198 (və c. III, səh. 146); İbn Həcər, əs-Səvaiqul-muhriqə, səh.76.

[14] Əhməd bin Hənbəl, Mənaqib, səh. 153, hədis № 220; Muhib ət-Təbəri Riyazün-nəzrə, c. II, səh. 198; Səhihi-Buxari, c. II, səh. 46, c. VI, səh. 2660, hədis № 6864.

larda uca səs və şücaətlə *"Səluni"* - *"istədiyinizi məndən soruşun"* buyursun və bütün suallara doğru cavab versin.

Bu iki böyük insandan başqa heç kəs bu sözü dilinə gətirməmişdir, hər kəs dilinə gətiribsə, rüsvay olmuş, öz əli ilə üzündən cəhalət pərdəsini qaldırmışdır.[15]

**فعن ابن مسعود أنَّه قال: (إنَّ القرآن أنزل على سبعة أحرف، ما منها حرف إلاّ وله ظهر وبطن، وإنَّ عليَّ بن أبي طالب (عليه السلام) عنده من الظاهر والباطن).**[16]

İbn Məsud nəql edir: "Quran yeddi hərf üzrə nazil olmuşdur. Elə bir hərf yoxdur ki, onun bir zahiri, bir də batini mənası olmasın. Həqiqətən də Quranın zahiri və batini Əli bin Əbu Talibin *(ə)* yanındadır".

**وقال عبد الله بن عباس: )والله ، لقد أُعطي علي بن أبي طالب (عليه السلام) تسعة أعشار العلم، وأيُم الله لقد شارككم في العشر العاشر).**[17]

Abdullah bin Abbas nəql edir: "And olsun Allaha, Əli bin Əbu Talibə *(ə)* on doqquz elm verilmişdir ki, siz onun yalnız onda birinə şəriksiniz!"

Həzrət Əlinin *(ə)* Qurani-Kərim qarşısında ən böyük vəzifələrindən biri müqəddəs Kitabın bir araya toplanması olmuşdur. Görkəmli alimlərimiz, o cümlədən Seyid Mürtəza (öl.1044), Seyid Əbülqasım əl-Xoyi (1899-1992) və başqaları o Həzrətin *(ə)* məhz Peyğəmbərin *(s)* dövründə Quranı bir yerə cəm etdiyini yazırlar.

Mənbələrə görə, Həzrət Əli *(ə)* Quranı nazil olduğu ardıcıllıqla, təfsirini də həmin formada yazaraq bir araya toplamışdır. Bu haqda əl-Kəttani (1883-1962) yazır: [18]**- أنَّ علياً جمع القرآن على ترتيب النزول عقب موت النبي (صلَّى الله عليه وآله وسلَّم).** "Əli *(ə)* Quranı nazil olma ardıcıllığı ilə Peyğəmbərin *(s)* vəfatının ardınca toplamışdır".

**وعن محمد بن سيرين، عن عكرمة، قال: (عند بدء خلافة أبي بكر قعد علي بن أبي طالب في بيته يجمع القرآن، قال: فقلت لعكرمة: هل كان تأليف غيره كما أنزل الأول فالأول؟ قال لو اجتمعت الجنّ والإنس على أن يؤلِّفوه هذا التأليف ما استطاعوا).**[19]

Məhəmməd bin Sirin İkrimədən belə nəql edir: "Əbu Bəkrin xilafətə keçməsi zamanından Əli bin Əbu Talib *(ə)* öz evində oturub Quranı topladı. İkrimədən soruşdum: "Ondan başqası bu qayda ilə Quranı toplamışdımı?" Cavab verdi: "Əgər cinlər və insanlar bir araya toplansaydılar, bunu bacarmazdılar".

---

[15] Şahrudi, əl-Qədirin mühüm fəsilləri, səh. 543.

[16] الإتقان ، 4 / 233.

[17] ينابيع المودة ، 69.

[18] التراتيب الإدارية ، 1 / 46.

[19] الإتقان ، 1 / 57.

**وأضاف ابن أبي الحديد أنَّ علياً (عليه السلام) كان الوحيد الذي حفظ القرآن على عهد رسول الله (صلَّى الله عليه وآله وسلَّم): (اتفق الكل على أنّه كان يحفظ القرآن على عهد رسول الله ولم يكن غيره يحفظه، ثمَّ هو أول مَن جمعه).**[20]

İbn Əbil Hədid əş-Şafei yazır: (öl.1258) "Əli *(ə)* yeganə şəxsdir ki, Quranı Peyğəmbərin *(s)* dövründə əzbərləmişdir. Hamı müttəfiq fikirdədir ki, ondan başqa heç bir kəs Peyğəmbərin *(s)* dövründə Quranı əzbərləməmişdir. Həmçinin o, Quranı toplayan ilk şəxsdir".

Xətib Bağdadi (1002-1071) mötəbər sənədlərə istinad edən ravi İsmayıl bin Cəfərdən, o da İbn Abbasdan nəql edir ki, Quranda Əli bin Əbu Talib *(ə)* barəsində üç yüzdən çox ayə nazil olmuşdur.[21] Həmçinin, İbn Həcər və Şəblənci Həzrət Əli *(ə)* barədə üç yüz ayə məsələsini İbn Əsakirdən və İbn Abbasdan nəql etmişlər. Təbəri (838-923) və Əbu Nəim kimi bəzi qədim alimlər də "Ma nəzələ minəl-Quran fi Əli *(ə)*" adlı əsərlər yazmışlar.

Həzrət Əli *(ə)* Qurani-Kərimə bağlı olan biri idi. O Həzrət *(ə)* hər bir şəxsin də belə olmasını tövsiyə edərək buyurmuşdur:**ذَلِكَ الْقُرْآنُ فَاسْتَنْطِقُوهُ، ولَنْ عَنْهُ: أَلا إِنَّ فِيهِ عِلْمَ مَا يَأْتِي، والْحَدِيثَ عَنِ الْمَاضِي، ودَوَاءَ دَائِكُمْ، ونَظْمَ يَنْطِقَ، ولَكِنْ أُخْبِرُكُمْ مَا بَيْنَكُمْ.**[22] - *"Quranı dindirin. Əgər onu dindirməsəniz, o, danışmayacaq. Sizi ondan xəbərdar edirəm: Onda keçmiş və gələcəyə aid xəbərlər, xəstələrinizə şəfa və yaşamağınız üçün qayda-qanun vardır"*.

Hörmətli oxucu! Bizi bu kitabı yazmağa vadar edən məhz Həzrət Əlinin *(ə)* bu fəzilətləri oldu. Qurani-Kərimi vərəqlədikcə onun hər bir surəsində və bəzən hər bir ayəsində o Həzrətin *(ə)* şənini, fəzilət və üstünlüklərini gördüm. Beləliklə, kitabda ilkin İslam dövründən tutmuş bu günümüzədək əldə edə bildiyim mənbələrdən istifadə edərək hansı ayə və surənin Həzrət Əlinin *(ə)* haqqında nazil olduğunu dəqiqləşdirərək kitabda topladım. Qeyd etdiyim hər bir ayə və hədisin ərəbcə mətnini və bununla yanaşı mənbələrini də ərəbcə verməklə oxucunun işini asanlaşdırmış və onun qəlbində arxayınlıq əmələ gətirmiş olduğumu güman etdim.

---

[20] شرح نهج البلاغة ، 1 / 27.

[21] Xətib əl-Bağdadi, Tarixi-Bağdad, c. VI, səh. 22.

[22] نهج البلاغة ، الخطبة . 156

I FƏSİL

# İMAM ƏLİNİN (Ə) HƏYATI VƏ FƏALİYYƏTİ

## *1.1. HƏZRƏT ƏLİNİN (Ə) HƏYATI VƏ NƏSİL ŞƏCƏRƏSİ*

Əli bin Əbu Talib *(ə)* əziz Peyğəmbərimiz Həzrət Muhəmmədin *(s)* əmisi oğlu, kürəkəni və özündən sonra İslam ümmətinə təyin etdiyi xəlifəsidir. İyirminci babadan sonrakı əsli-nəsəb xəttinə gəldikdə isə nəsəb alimləri Peyğəmbərin *(s)* iyirminci babası olan Ədnanın Həzrət İbrahimin *(ə)* nəslindən olduğunu ittifaqla qəbul etmişlər. Ədnan ilə İbrahim *(ə)* arasında uzun zaman məsafəsi olmuşdur. Bəzi alimlər Peyğəmbərin *(s)* nəsəbini yeddi, bəzisi də doqquz nəsil Həzrət İsmailə *(ə)* bağlayırlar.[23]

İslami mənbələrdə rəvayət edildiyinə görə, Həzrət Əli *(ə)* həm ata, həm də ana tərəfindən Haşimi nəslinə birləşir. Atası Əbu Talib bin Əbdül-Müttəlib, anası isə Fatimə bint Əsəd bin Haşimdir. O Həzrət *(ə)* fil ilindən otuz il sonra doğulmuşdur. Bunu görkəmli hədis alimi Məhəmməd bin Yaqub əl-Küleyni (ö.941) məşhur "əl-Kafi" əsərində belə yazır:

**ولدعليه السلام بعدعام الفيل بثلاثين سنة،وأمه فاطمة بنت أسد بن هاشم بن عبدمناف، وهوأول هاشم يولد ههاشم مرتين.**

"Həzrət Əli *(ə)* fil ilindən otuz il sonra doğulmuşdur. Onun anası Fatimə bint Əsəd bin Haşim bin Əbdu Mənafdır. O, ilk Haşimi şəxsdir ki, iki tərəfdən də Haşimidir".[24]

Həzrət Əlinin *(ə)* doğumu haqqında Əllamə Məclisi (öl.1700) "Biharül-ənvar"[25] əsərində yazır:

**ذكر ابن عياش أن اليوم الثالث عشر من رجب كان مولد أميرالمؤمنين عليه السلام في الكعبة قبل النبوة باثنتي عشرة سنة .**
**وروي عن عتاب بن اسيد أنه قال: ولد أميرالمؤمنين علي بن أبي طالب عليه السلام بمكة في بيت الله الحرام يوم الجمعة لثلاث عشرة ليلة خلت من رجب، وللنبي صلى الله عليه وآله ثمان وعشرون سنة، قبل النبوة باثنتي عشرة سنة.**

"O, Hicrətdən iyirmi üç il qabaq, Rəcəb ayının on yeddisində (Miladi - on yeddi mart 599-cu ildə) Kəbədə dünyaya gəlmişdir".[26]

Həzrət Əlinin *(ə)* anası Haşimilərdən olan Fatimə bint Əsəddir və Besətdən əvvəl də Hənif dinində olmuşdur. O Həzrətin *(ə)* anasının Haşimi-

---

[23] Hacı Fuad Nurullah, İmam Hüseyn *(ə)*: Şəhidlik məktəbinin ustadı, Bakı, Nurlar, 2013, səh. 37.

[24] Küleyni, Üsuli-kafi, c. I, səh. 452.

[25] Əllamə Məclisi, Biharül-ənvar, c. 35, səh. 6-7.

[26] (مروج الذهب 2 ص 2 تأليف أبي الحسن المسعودي الهذلي، تذكرة خواص الأمة ص 7 سبط ابن الجوزي الحنفي، الفصول المهمة ص 14 إبن الصباغ المالكي، السيرة النبوية 1 ص 150، نور الدين علي الحلبي الشافعي، شرح الشفا ج 1 ص 151 الشيخ علي القاري الحنفي).

lərdən olması onu göstərir ki, Həzrət Əli *(ə)* həm ata, həm də ana tərəfdən Haşimilərdəndir. Bunu Əllamə Məclisi də adıçəkilən məşhur əsərində təsdiq etmiş və demişdir:

**أقول: قال الشهيد رحمه الله في الدروس: علي بن أبي طالب بن عبدالمطلب بن هاشم، وأبوطالب وعبدالله أخوان للابوين، وأمه فاطمة بنت أسد بن هاشم، وهو وإخوته أول هاشمي ولد بين هاشميين، ولد يوم الجمعة ثالث عشر شهر رجب، وروي سابع شهر شعبان بعد مولد النبي صلى الله عليه وآله بثلاثين سنة.**

Mötəbər mənbələrin nəqlinə görə, Həzrət Əli *(ə)* ikinci, yaxud üçüncü şəxsdir ki, İslamı qəbul etmişdir. O Həzrət *(ə)* Peyğəmbərdən *(s)* üç gün sonra Mədineyi-münəvvərəyə hicrət etmişdir. Hicrət hər mənasında Həzrət Əlinin *(ə)* şəxsində özünə yer tapmış əməllərdəndir. O Həzrət *(ə)* özünün məşhur xütbələrinin birində Allaha tərəf etdiyi hicrətinə işarə edərək buyurur: *"Xəbərdar olun! Məndən sonra kiçikboylu və yekəqarınlı, hər tapdığını yeyən və tapmadığını tələb edən birisi sizə hakimlik edəcəkdir*[27]*. Onu öldürün! O, sizə məni söyməyinizi və məndən uzaq olmağınızı əmr edəcəkdir. Söyüşə gəldikdə* (məcbur olduqda) *məni söyməkdən çəkinməyin. Çünki, sizin söyüşünüz mənim üçün zəkatdır. Ancaq məndən uzaq olmağa gəldikdə, bunu heç vaxt etməyin. Çünki, mən fitrət üzrə doğulmuşam, iman və hicrətdə hər kəsi ötmüşəm".*[28] Həzrət Əlinin *(ə)* bu kəlamı bir çox mötəbər qaynaqlarda nəql olunmuş və səhihliyinə heç bir şübhə yaranmamışdır. Lakin bəzi alimlər o Həzrətin *(ə)* bir qrup müsəlmandan sonra Mədinəyə hicrət etdiyini əsas götürərək buna şübhə ilə yanaşmışlar. Ancaq Həzrət Əlinin *(ə)* bu hədisi daha dərindən araşdırıldıqda onun əsas məğzi və mənası məlum olacaqdır. Belə ki, yuxarıdakı ayədə göstərildiyi kimi, hicrət daha geniş məna tutumuna malikdir. Burada o Həzrətin *(ə)* məqsədi heç də Məkkədən Mədinəyə köçməkdə ilk şəxs olmaq deyil, bəlkə də Allaha xatir hər bir şeyi tərk etməkdir. Çünki, hicrətin mənalarından biri də "tərk etmək", "uzaqlaşmaq" və "dostluq əlaqələrini qırmaq"dır. Allah isə hicrət edənləri hər mənası ilə öymüşdür. Yoxsa bir şəxsin təkcə məkan dəyişməsi ilə onun Allah yanında bu qədər ali dərəcəyə malik olması mümkünsüzdür.[29]

---

[27] Müaviyə bin Əbu Süfyana işarədir. Çünki, o, İslamda Əlini *(ə)* söyən və bunu adət halına salan ilk xəlifədir. Nəsainin nəqlinə görə, Peyğəmbər *(s)* onun haqqında buyurmuşdur: *"Allah onun qarnını doydurmasın"*. Bundan sonra o, nə yeyirmişsə doymazmış. Müaviyə bədəncə kiçikboylu, yekəqarın adam olmuşdur.

[28] Seyyid Məhəmməd Kazim Qəzvini, əl-İmam Əli minəl-məhdi iləl-ləhd, ikinci nəşri, Beyrut-1413/1993, səh. 45, Nəhcül-bəlağədən nəqlən.

[29] Geniş məlumat üçün bax: İbrahim Quliyev, Hədisi-şəriflərdə müqəddəs şəhərlərin tarixi, Bakı, Nurlar, 2012, səh. 218-220.

Həzrət Əlinin *(ə)* hicrətdəki mühüm rolunu önə çəkən Quran o Həzrətin *(ə)* haqqında belə bəyan edir: ***"O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı xatırlar, göylərin və Yerin yaradılması haqqında düşünər*** (və deyərlər)***: "Ey Rəbbimiz! Sən bunları boş yerə yaratmamısan! Sən paksan, müqəddəssən! Bizi Cəhənnəm odunun əzabından*** (Özün) ***qoru!"***[30]

Həzrət Əlinin *(ə)* atası Əbu Talib bin Əbdül-Müttəllib bin Haşim bin Əbdül-Mənaf, anası Fatimə bint Əsəd bin Haşim olmuşdur. Göründüyü kimi, Həzrət Əli *(ə)* həm ata, həm də ana tərəfdən Haşimi soyundandır. Əbu Talibin Həzrət Əlidən *(ə)* başqa daha üç oğlu olmuşdur. Əllamə Məclisi "Füsulul-muhimmə" əsərinə istinadən yazır:

**وقال علي بن محمد المالكي في الفصول المهمة: كان ولد أبوطالب طالبا ولا عقب له، وعقيلا وجعفرا وعليا، وكل واحد أسن من الآخر بعشر سنين، وأم هانئ واسمها فاختة وأمهم جميعا فاطمة بنت أسد.**

"Həzrət Əlinin *(ə)* atası Əbu Talibin hər biri biri-birindən on yaş böyük olan dörd oğlu olmuşdur: Talib, Əqil, Cəfər və Əli *(ə)*. Qızının adı isə Ümmi-Hanidir. Ümmi-Haninin əsl adı Faxitədir. Bu uşaqlar Fatimə bint Əsəddən doğulmuşlar".[31]

Bütün mötəbər mənbələrin məlumatlarına görə, Əbu Talib imanlı və Hənif dinində olan bir şəxs imiş. Ancaq təəssüflə qeyd etmək lazımdır ki, Həzrət Əlinin *(ə)* düşməni olan bəzi kimsələr yalandan hədis qondararaq, guya Əbu Talibin iman gətirməməsi məsələsini ortalığa atmış və bununla da müsəlmanlar arasına ixtilaf salmışlar. Lakin mötəbər qaynaqlar daha da obyektiv şəkildə araşdırıldıqda məlum olur ki, Əbu Talibin iman gətirməməsini rəvayət edən ravilər heç də hədis elminin prinsiplərinə cavab verməyən və bütün dövrlərdə yalançı kimi tanınan ravilərdir.[32] Görkəmli alim İbn Əsir yazır: "Əbu Talib gördü ki, Peyğəmbərlə *(s)* Əli *(ə)* namaz qılırlar və Əli *(ə)* Peyğəmbərin *(s)* sağ tərəfindədir, o zaman Cəfərə dedi: "Sən də onun sol tərəfində dur!" Cəfər qalxıb Əlinin *(ə)* sol tərəfində durdu. Əbu Talib bunu görcək sevindi və aşağıdakı şeiri dedi:

*Həqiqətən, Əli və Cəfər mənim arxamdır.*
*Zaman ötüb keçsə də, güvəndiyimdir.*
*Əminiz oğluna kömək edin, onu tək buraxmayın.*
*And olsun Allaha ki, mən onu tək buraxmaram!*

[30] "Ali-İmran", 191.
[31] Əllamə Məclisi, Biharül-ənvar, c. 35, səh. 7.
[32] Geniş məlumat üçün bax: İbrahim Quliyev, Hədisi-şəriflərdə müqəddəs şəhərlərin tarixi, Bakı, Nurlar, 2012, səh. 218-220.

Bundan başqa, Əbu Talibin Məkkə müşriklərinə xitabən dedikləri də çox əhəmiyyətlidir. O, demişdir: “And olsun Allaha, əgər onu öldürsəydiniz, heç birinizi sağ buraxmazdım və son gücümə qədər sizinlə vuruşardım!”[33]

Əllamə Məclisi belə nəql edir:

**قال جابر: فقلت يا رسول الله، الله أكبر! الناس يقولون: أبا طالب مات كافرا! قال: يا جابر الله أعلم بالغيب، إنه لما كانت الليلة التي اسري بي فيها إلى السماء انتهيت إلى العرش فرأيت أربعة أنوار فقلت: إلهي ماهذه الانوار؟ فقال: يا محمد هذا عبد المطلب وهذا أبوطالب وهذا أبوك عبدالله، وهذا أخوك طالب، فقلت: إلهي وسيدي فبمانالوا هذه الدرجة؟ قال: بكتمانهم الايمان وإظهارهم الكفر، وصبرهم على ذلك حتى ماتوا.**

Cabir deyir ki, Peyğəmbərə *(s)* dedim: “Ya Rəsulullah *(s)*! Allah böyükdür! İnsanlar deyirlər ki, Əbu Talib kafir ölüb?!” O Həzrət *(s)* buyurdu: *“Ey Cabir! Mən Merac gecəsində səmaya qalxdıqda Ərşin sonunda dörd nur gördüm və dedim: “İlahi, bu nurlar nədir?” Allah buyurdu: “Ya Muhəmməd! Bu, Əbdül-Müttəlib, bu, Əbu Talib, bu, atan Abdullah, bu isə qardaşın Talibin nurudur”. Dedim: “İlahi, bunlar nə ilə bu dərəcəyə yüksəliblər?” Allah buyurdu: “Onlar öz imanlarını gizlədib küfrlərini zahir etmək və ölənədək səbir etməklə”.*[34]

Həzrət Əlinin *(ə)* mövludu, yəni dünyaya gəlişi o biri qardaşlarının dünyaya gəlişindən fərqli olmuşdur. Bu doğuş maraqlı və mənəvi dəyişikliklərlə müşayiət olunmuşdur. Qeyd etdiyimiz kimi, o Həzrətin *(ə)* anası allahpərəst olmuş və İbrahim peyğəmbərin *(ə)* Hənif dinində həyat sürmüşdür. Bu qadın daim Allah dərgahına minacat etmiş və qarşıdakı doğuşun asan keçməsi üçün Allaha yalvarmışdır. Fatimə bu uşağa hamilə olduğu vaxt özünü İlahi nura qərq olmuş vəziyyətdə hiss etmiş, sanki bu körpənin başqa övladlardan fərqləndiyi barədə fələklərdən ilham almışdır.

**الدقاق عن الأسدي، عن النخعي، عن النوفلي، عن محمد بن سنان، عن المفضل، عن ثابت بن دينار، عن سعيد بن جبير قال :قال يزيد بن قعنب:كنت جالسا مع العباس بن عبد المطلب وفريق من عبد العزى بإزاء بيت الله الحرام إذ أقبلت فاطمة بنت أسد أم أمير المؤمنين عليه السلام وكانت حاملة به لتسعة أشهر، وقد أخذها الطلق، فقالت: رب إني مؤمنة بك وبما جاء من عندك من رسل وكتب، وإني مصدقة بكلام جدي إبراهيم الخليل، وإنه بنى البيت العتيق، فبحق الذي بنى هذا البيت وبحق المولود الذي في بطني لما يسرت علي ولادتي. قال يزيد بن قعنب: فرأينا البيت وقد انفتح عن ظهره ودخلت فاطمة فيه وغابت عن أبصارنا، والتزق الحائط، فرمنا أن ينفتح لنا قفل الباب فلم ينفتح، فعلمنا أن ذلك أمر من أمر الله عز و جل ثم خرجت بعد الرابع وبيدها أمير المؤمنين عليه السلام ثم قالت: إني فضلت على من تقدمني من النساء لان آسية بنت مزاحم عبدت الله عز وجل سرا في موضع لا يحب أن يعبد الله فيه إلا اضطرارا، وإن مريم بنت عمران هزت النخلة اليابسة بيدها حتى أكلت منها رطبا جنيا، وإني دخلت بيت الله الحرام فأكلت من ثمار الجنة وأرواقها فلما أردت**

[33] Məhəmməd bin Səd Katib əl-Vaqidi, ət-Təbəqatül-kübra, Beyrut-1975 m. cild I, səh. 202-203.
[34] Əllamə Məclisi, Biharül-ənvar, c. 35, səh. 15-16.

**أن أخرج هتف بي هاتف، يا فاطمة سميه عليا فهو علي، والله العلي الاعلى يقول: إني شققت اسمه من اسمي، وأدبته بأدبي، ووقفته على غامض علمي وهو الذي يكسر الأصنام في بيتي، وهو الذي يؤذن فوق ظهربيتي، ويقدسني ويمجدني، فطوبى لمن أحبه وأطاعه، وويل لمن أبغضه وعصاه.**

Şeyx Səduq və Qəttal Nişapuri nəql etmişlər ki, Yezid bin Qənəb demişdir: "Mən, Abbas bin Əbdül-Müttəlib və Əbdül-Üzza tayfasından olan bir qrup Allah Evinin kənarında əyləşmişdik. Əmirəl-mömininin *(ə)* anası Fatimə bint Əsəd doqquz aylıq körpəyə hamilə vəziyyətdə və doğuş ağrısı çəkə-çəkə deyirdi: *"Pərvərdigara, mən Sənə, peyğəmbərlərindən gələnə, Sənin tərəfindən nazil olmuş kitablara iman gətirmişəm. Cəddim İbrahim-Xəlilin sözlərini təsdiq edirəm. Bu qədim Evin bünövrəsini qoyan o, olmuşdur. Səni and verirəm bu Evi tikənin və bətnimdə olanın haqqına, bu doğuşu mənim üçün asan et!"* Yezid bin Qənəb deyir: "Biz öz gözümüzlə Kəbənin arxadan yarıldığını və Fatimənin Kəbəyə daxil olduğunu gördük. Fatimə gözdən itdikdən sonra divar yenidən birləşdi. Kəbənin qapısını açmaq istəsək də mümkün olmadı. Başa düşdük ki, bu, Allahın işidir. Dörd gün sonra Fatimə qucağında Əmirəl-möminin *(ə)* bayıra çıxdı və dedi: *"Mən keçmişdəki bütün qadınlardan üstünəm. Çünki, Asiya Allaha elə bir yerdə gizlin pərəstiş edirdi ki, həmin yerdə yalnız çarəsizlikdən pərəstiş edilməsi mümkün idi. İmran qızı Məryəmi Beytül-müqəddəsdə doğuş sancısı tutduqda ona nida edilir ki, bayıra çıxsın, ibadətgahda doğuş olmaz. Mən isə Allahın Evinə daxil oldum, Behişt meyvələrindən yedim, bayıra çıxmaq istədikdə nida gəldi ki, ya Fatimə, onun adını "Əli qoy". Nida gəldi ki, "Əliyyul-əla". Sonra yenə nida gəldi: "Mən ona Öz adımdan götürdüyüm ad qoydum, onu Öz ədəbimlə tərbiyə etdim, ona gizli elmlərimdən agahlıq verdim. Odur Mənim Evimdə bütləri sındıran! Odur Evimin damında azan deyən, Məni pak bilən! Xoş o kəsin halına ki, onu dost tutar, ona itaət edər, vay o kəsin halına ki, onu düşmən tutar və ona müxalif olar!"*[35]

İmam Əli *(ə)* Peyğəmbərlə *(s)* eyni nurdan yaradılmışdır. Bu haqda olan hədislərdə deyilir:

**روى أحمد بن حنبل في مسنده عن زاذان عن سلمان الفارسي قال: سمعت حبيبي رسول الله صلى الله عليه وآله يقول: كنت أنا وعلي نورا بين يدي الله قبل أن يخلق آدم بأربعة عشر ألف عام، فلما خلق الله تعالى آدم قسم ذلك النور جزئين: فجزء أنا وجزء علي .**

**وروى هذا الحديث ابن شيرويه في الفردوس، وابن المغازلي في المناقب، قالافيه: فلما خلق الله تعالى آدم ركب ذلك النور في صلبه، فلم يزل في شئ وأحد حتى افترقا في صلب عبدالمطلب، ففي النبوة وفي علي الخلاقة.**

**ورواه ابن المغازلي أيضا في طريق آخر عن جابر بن عبدالله عن النبي صلى الله عليه وآله وقال**

[35] Hacı Fuad Nurullah, İmam Hüseyn *(ə)*: Şəhidlik məktəbinin ustadı, Bakı, Nurlar, 2013, səh. 38.

**في آخره: حتى قسمه جزئين: فجعل جزأ في صلب عبدالله، وجزأ في صلب أبي طالب فأخرجني نبيا وأخرج عليا وصيا، فض: عن ابن عباس عن سلمان مثل رواية الفردوس.**

Əhməd bin Hənbəl "Müsnəd" əsərində Salman Farsidən belə nəql etmişdir ki, o, Peyğəmbərdən *(s)* belə eşidib: *"Allah mən və Əlinin nurunu Adəmi xəlq etməmişdən on dörd min il əvvəl yaratmışdır. Sonra o nuru iki hissəyə bölmüşdür: bir hissəsi mən, digər hissəsi isə Əlidir"*.[36]

Həzrət Əlinin *(ə)* Kəbədə doğulması bütün məzhəb alimlərinin qəbul etdiyi məşhur rəvayətdir. Bütün İslam müəllifləri bu hadisəni o Həzrətin *(ə)* fəzilətinə dəlil gətirmiş və Əlidən *(ə)* başqa bu fəzilətə nə əvvəlki, nə də sonrakı ümmətdən heç kəsin yetişmədiyini etiraf etmişlər. Əhli-sünnə məzhəbinin otuzdan artıq məşhur alimi yazdıqları əsərlərində Həzrət Əlinin *(ə)* Kəbədə doğulmasını qeyd etmişlər. Onlardan aşağıdakıları göstərmək olar:

1. Cəmaləddin Zərəndi əl-Hənəfi (öl.750 h), "Nəzmu dürəris-simteyn", səh. 80, Nəcəfül-əşrəf çapı.
2. Hafiz Əbu Abdullah ən-Nisaburi (öl.405 h), "Müstədrək aləs-Səhiheyn", cild III, səh. 483, Heydərabad çapı.
3. Əbu Abdullah Məhəmməd bin Yusuf əş-Şafei (öl.658 h), "Kifayətüttalib", səh. 26, 261.
4. İbrahim bin Məhəmməd əl-Həməvini əş-Şafei (öl.722h), "Fəraidüssimteyn", birinci hissə.
5. Məhəmməd bin Təlhə əş-Şafei (öl.562 h), "Mətalibüs-sual", səh. 11, Tehran çapı.
6. Əbdürrəhman əs-Səfuri əş-Şafei (öl.884 h), "Nüzhətül-məcalis", cild II, səh. 166.

Həmin hədislərin birində deyilir: "İmam Sadiqdən *(ə)* belə nəql olunur:

**وفي رواية شعبة عن قتادة، عن أنس، عن العباس بن عبد المطلب، ورواية الحسن ابن محبوب عن الصادق عليه السلام - والحديث مختصر - أنه انفتح البيت من ظهره ودخلت فاطمة فيه ثم عادت الفتحة والتصقت، وبقيت فيه ثلاثة أيام، فأكلت من ثمار الجنة، فلما خرجت قال علي عليه السلام: السلام عليك يا أبه ورحمة الله وبركاته، ثم تنحنح وقال: بسم الله الرحمن الرحيم قد أفلح المؤمنون. فقال رسول الله صلى الله عليه وآله: قد أفلحوا بك أنت والله أميرهم، تميرهم من علمك فيمتارون، وأنت والله دليلهم وبك والله يهتدون، ووضع رسول الله صلى الله عليه وآله لسانه في فيه، فانفجرت...**

*"...Kəbə yarıldı, Fatimə bint Əsəd ora daxil oldu. Kəbənin yarıldığı yer sonradan bağlandı. Fatimə orada üç gün qaldı və Cənnət meyvələrindən qidalandı. Elə ki, Fatimə oradan xaric oldu, Əli belə buyurdu: "Allahın salamı və bərəkəti olsun ey ata sənə!". Sonra o, boğazını arıtlayaraq buyurdu: "Bismillahir-rəhmanir-rəhim, möminlər artıq nicat tapmışlar". Bunu eşi-*

[36] Əllamə Məclisi, Biharül-ənvar, c. 35, səh. 24.

*dən Peyğəmbər buyurdu: "Möminlər səninlə nicat tapmışlar. Sən onların Əmirisən! Öz elminlə onları qidalandıransan! Sən onlar üzərində dəlilsən! Allah sənin vasitənlə onları hidayət edər!" Sonra Peyğəmbər dilini onun ağzına saldı və o, qidalandı".*[37]

Rəvayətlərdə Fatimə və Əbu Talibin allahpərəstliyi, müsəlman olması da bildirilir. Onlar Cahiliyyət dövründə də tək Allaha inanmış, övladlarına ad vermək üçün Allahın dərgahına üz tutmuş, Onun əmrini gözləmişlər. Fatimə bint Əsəd Peyğəmbər *(s)* üçün ana kimi olmuşdur. Fatimə Rəsulullaha *(s)* ilkin iman gətirənlərdən və Mədinəyə mühacirət edənlərdəndir. O, dünyasını dəyişdiyi vaxt Peyğəmbər *(s)* öz köynəyini Fatimə üçün kəfən etmiş, onun cənazəsinə namaz qılmış, qəbir sıxıntısından qurtulması üçün qəbrinə enmiş, ona təlqin buyurmuş və dua etmişdir.

"Biharul-ənvar"da Əbu Talibin Peyğəmbəri *(s)* mədh edən şeirləri nəql olunmuşdur. Bu şeirlərin məzmunundan görünür ki, o, İslamı qəbul etmişdir. Əbu Talib Həzrət Peyğəmbərə *(s)* xitabən deyir:

*Dəvətinlə mənə xeyir dilədin,*
*Dinlərin tacıdır gətirdiyin din.*

İmam Sadiqdən *(ə)* soruşdular: "Əbu Talibin kafir olduğu düzdürmü?" İmam *(ə)* buyurdu ki, yalan deyirlər. Kafir belə deyə bilərdimi:

*Musatək tanıdıq Muhəmmədi biz,*
*Kitablarda adı yazılmış səlis.*

Şeyx Süleyman Bəlxi "Yənabiul-məvəddət" kitabında Əbu Talib haqqında yazır: "Qüreyşin rəisi və böyüyü olan Əbu Talib Peyğəmbərin *(s)* himayəçisi və yardımçısı idi. O, Peyğəmbəri *(s)* çox sevirdi. Əbu Talib o Həzrətin *(s)* tərbiyəçisi olmuş, peyğəmbərliyini etiraf etmiş və Rəsulullahın *(s)* barəsində xeyli şeir qoşmuşdur".

Həzrət Əlinin *(ə)* Kəbədə dünyaya gəlməsi Bəni-Haşim üçün böyük iftixar oldu. Ərəb və əcəm şairləri bu barədə xeyli şeir yazmışlar. Seyyid Həmirinin bu mövzuda yazılmış bir neçə misrasını xatırlayaq:

*Anası müqəddəs Kəbə evində,*
*Gətirdi dünyaya oğlu Əlini.*
*Libası pakizə, özü pakizə,*
*Mövlud üçün seçdi eşq məhəllini.*[38]

---

[37] Əllamə Məclisi, Biharül-ənvar, c. 35, səh. 18.

[38] Şeirlər üçün bax: http://www.sibtayn.com saytına. (Bu paraqrafda adı çəkilən saytdan çox istifadə etmişik).

Həzrət Əlinin *(ə)* atası Əbu Talib Qüreyş tayfası arasında böyük hörmətə malik idi. O, övladlarının tərbiyəsinə ciddi yanaşır, onları təqva və fəzilətə sövq edirdi. Əbu Talib öz övladlarına uşaqlıq dövründən başlayaraq ərəb adət-ənənələri əsasında at çapma, güləş və oxatma təlim edirdi.

Həzrət Əlinin *(ə)* dünyaya Kəbədə göz açmaqla qazandığı iftixar nə keçmişdə kimsəyə nəsib olub, nə də gələcəkdə nəsib olasıdır. O Həzrətin *(ə)* dünyaya Kəbədə göz açması bütün İslam əhlinin etiraf etdiyi bir həqiqətdir. Necə ki, İbn Səbbağ Maliki "Füsulul-Mühimmə" kitabında deyir: "Həzrət Əlidən *(ə)* qabaq kimsə Kəbədə dünyaya göz açmamışdır. Bu fəziləti Allah-Təala yalnız Əliyə *(ə)* aid etmiş və bununla da xalqa onun uca məqamını göstərmişdir".

"Biharül-ənvar"ın IX cildində (səh. 9) Həzrət Əliyə *(ə)* ad qoyulması barədə yazılmışdır:

**قال يزيد بن قعنب: فرأينا البيت وقد انفتح عن ظهرهودخلت فاطمة فيه وغابت عن أبصارنا، والتزق الحائط، فرمنا أن ينفتح لنا قفل الباب فلم ينفتح، فعلمنا أن ذلك أمر من أمر الله عز و جل، ثم خرجت بعد الرابع وبيدها أميرالمؤمنين عليه السلام ثم قالت: إني فضلت على من تقدمني من النساء لان آسية بنت مزاحم عبدت الله عزوجل سرا في موضع لايحب أن يعبدالله فيه إلا اضطرارا، إن مريم بنت عمران هزت النخلة اليابسة بيدها حتى أكلت منها رطبا جنيا، وإني دخلت بيت الله الحرام فأكلتمن ثمار[39] الجنة وأرواقها، فلما أردت أن أخرج هتف بي هاتف، يا فاطمة سميه عليا فهو علي، والله العلي الاعلى يقول: إني شققت اسمه من اسمي، وأدبته بأدبي، ووقفته على غامض علمي، وهو الذي يكسر الاصنام في بيتي، وهو الذي يؤذن فوق ظهر بيتي، ويقدسني ويمجدني، فطوبى لمن أحبه وأطاعه، وويل لمن أبغضه وعصاه.**

Yezid bin Qənəb deyir: "Biz öz gözümüzlə Kəbənin arxadan yarıldığını və Fatimənin Kəbəyə daxil olduğunu gördük. Fatimə gözdən itdikdən sonra divar yenidən birləşdi. Kəbənin qapısını açmaq istəsək də mümkün olmadı. Başa düşdük ki, bu, Allahın işidir. Dörd gün sonra Fatimə əlində uşaqla bayıra çıxdı və dedi: *"Mən keçmişdəki bütün qadınlardan üstünəm. Çünki, Asya Allaha elə bir yerdə ibadət edirdi ki, həmin yerdə ancaq xaçpərəstin ibadət etməsi mümkündür. İmranın qızı Məryəmi Beytül-müqəddəsdə doğum sancısı tutdu, ona nida edildi ki, bayıra çıxsın, ibadətgahda doğuş olmaz. Mən isə Allahın Evinə daxil oldum, Cənnət meyvələrindən yedim, bayıra çıxmaq istədikdə nida gəldi ki, ya Fatimə, onun adını "Əli qoy"*. Nida gəldi ki, *"Əliyyul-Əla". Sonra Allah buyurdu: "Mən ona Öz adımdan götürdüyüm adı qoydum, onu Öz ədəbimlə tərbiyə etdim, ona gizli elmlərdən agahlıq verdim. Odur Mənim Evimdə bütləri qıran! Odur Evimin damında azan oxuyan, Məni pak bilən! Xoş o kəsin halına ki, onu dost tutar, ona itaət*

---

[39] بحار الانوار جلد: 31 من صفحه 9 سطر 5 إلى صفحه 17

*edər. Vay o kəsin halına ki, onu düşmən tutar və ona müxalif olar!”* Əbu Talib körpəni anasından alıb sinəsinə sıxdı, Fatimənin əlindən tutub Əbtəhə (Məkkə və Mina arasındakı yer) gəldi və Allah dərgahına üz tutaraq belə minacat etdi:

*Ey qaranlıq gecənin, parlaq ayın sahibi!*
*Öz hökmünü bəyan et, adlandır bu naibi.*
*Onlara cavab deyə qeybdən nida gəldi:*
*Pak övladınızı çağırın “Əli”,*
*Allah adındandır onun təməli.* [40]

Böyük hədis alimləri də öz kitablarında uyğun məsələyə toxunmuşlar. Məhəmməd bin Yusuf Gənci Şafei “Kifayətut-Talib” kitabında azca dəyişikliklə bu hadisəni nəql etmişdir.

Bəzi rəvayətlərdə nəql olunur ki, Fatimə bint Əsəd körpəsi dünyaya gəldikdən sonra onun adını Heydər qoymuş, bələyib Əbu Talibə verdiyi zaman bu ad barədə ona məlumat vermişdir. Sonradan Həzrət Əli *(ə)* Xeybər döyüşündə tanınmış yəhudi pəhləvanı Mərhəblə döyüşərkən o məluna xitabən belə buyurmuşdur:

*Anam “Heydər” qoymuş mənim adımı,*
*Bu şirin önündə duran oldumu?!*

İmamın *(ə)* adı Əli qoyulduğundan Heydər adı Həzrət Əlinin *(ə)* digər məşhur ləqəbləri olan Əsədullah, Mürtəza və Əmirəl-mömininin sırasına qatılmış, künyəsi isə Əbul-Həsən və Əbu-Turab olmuşdur.

Peyğəmbər (c) uşaqlıq dövründə atasını itirdiyindən babası Əbdül-Müttəlibin himayəsində yaşayırdı. Əbdül-Müttəlib dünyasını dəyişdikdən sonra oğlu Əbu Talib öz qardaşı oğlunu himayəyə götürdü.

Həzrət Əlinin *(ə)* anası Əbu Talibin zövcəsi Fatimə bint Əsəd Peyğəmbərə *(s)* mehriban bir ana kimi can yandırırdı. Belə ki, Fatimə dünyasını dəyişərkən Həzrət Muhəmməd *(s)* də Həzrət Əli *(ə)* kimi çox kədərləndi, Fatimə üçün cənazə namazı qıldı, onu öz köynəyinə bürüdü. Bu haqda Əllamə Məclisi yazır:

**ابن مسرور، عن محمد الحميري، عن أبيه، عن البرقي، عن أبيه، عن خلف بن حماد، عن أبي الحسن العبدي، عن الاعمش، عن عباية بن ربعي، عن عبدالله ابن عباس قال: أقبل علي بن أبي طالب عليه السلام ذات يوم إلى النبي صلى الله عليه وآله باكيا وهو يقول: (إنا لله وإنا إليه راجعون) فقال له رسول الله صلى الله عليه وآله: مه يا علي؟ فقال علي: يا رسول الله ماتت امي فاطمة بنت أسد، قال: فبكى النبي صلى الله عليه وآله ثم قال: رحم الله امك يا علي، أما إنها إن كانت لك اما**

[40] Əllamə Məclisi, Biharül-ənvar, c. 35, səh. 9.

**فقد كانت لي اما، خذ عمامتي هذه وخذثوبي، هذين فكفنها فيهما ومر السناء فليحسن غسلها، ولا تخرجها حتى أجئ فإلي أمرها.**
**قال: وأقبل النبي صلى الله عليه وآله بعد ساعة واخرجت فاطمة ام علي عليه السلام فصلى عليها النبي صلى الله عليه وآله صلاة لم يصل على أحد قبلها مثل تلك الصلاة، ثم كبر عليها أربعين تكبيرة ثم دخل إلى القبر فتمدد فيه، فلم يسمع له أنين ولا حركة، ثم قال: يا علي ادخل يا حسن ادخل ، فدخلا القبر، فلما فرغ مما احتاج إليه قال له: يا علي اخرج يا حسن اخرج، فخرجا ثم زحف النبي صلى الله عليه وآله حتى صار عند رأسها، ثم قال: يا فاطمة أنا محمد سيد ولد آدم ولا فخر، فإن أتاك منكر ونكير فسألاك من ربك ؟ فقولي : الله ربي، ومحمد نبيي، والاسلام ديني، والقرآن كتابي، وابنئ امامي ووليي، ثم قال: اللهم ثبت فاطمة بالقول الثابت، ثم خرج من قبرها وحثا عليها حثيات، ثم ضرب بيده اليمنى على اليسرى فنفضهما، ثم قال: والذي نفس محمد ببده لقد سمعت فاطمة تصفيق يميني على شمالي .**
**فقام إليه عمار بن ياسر فقال: فداك أبي وامي يا رسول الله صليت عليها صلاةلم تصل على أحد قبلها مثل تلك الصلاة، فقال: يا أبا اليقظان وأهل ذلك هي مني ، لقد كان لها من أبي طالب ولد كثير ولقد كان خيرهم كثيرا وكان خيرنا قليلا، فكانت تشبعني وتجيعهم، وتكسوني وتعريهم، وتدهنني وتشعثهم، قال: فلم كبرت عليها أربعين تكبيرة يا رسول الله؟ قال: نعم يا عمر التفت عن يميني فنظرت إلى أربعين صفا من الملائكة فكبرت لكل صف تكبيرة، قال: فتمد دك في القبر ولم يسمع لك أنين ولا حركة؟ قال: إن الناس يحشرون يوم القيامة عراة ولم أزل أطلب إلى ربي عزوجل أن يبعثها ستيرة، والذي نفس محمد بيده ماخرجت من قبرها حتى رأيت مصباحين من نور عند رأسها ومصباحين من نور عند يديها ومصباحين من نور عند رجليها، وملكيها الموكلين بقبرها، يستغفران لها إلى أن تقوم الساعة.**
**ضه: عن ابن عباس مثله، قال: وروي في خبر آخر طويل أن النبي صلى الله عليه وآله قال: يا عمار إن الملائكة قد ملات الافق، وفتح لها باب من الجنة، ومهدلها مهاد من مهاد الجنة، وبعث إليها بريحان من رياحين الجنة، فهي في روح وريحان وجنة ونعيم، و قبرها روضة من رياض الجنة.**

"Bir gün Əli bin Əbu Talib *(ə)* ağlaya-ağlaya Peyğəmbərin *(s)* yanına gəldi. O, *"Biz hamımız Allahdanıq və Ona tərəf dönəcəyik"* sözlərini deyirdi. Peyğəmbər *(s)* ondan *"nə baş verib?"* - deyə soruşduqda, Əli *(ə)* belə cavab verdi: *"Anam vəfat etdi"*. Bunu eşidən Peyğəmbər *(s)* ağladı və buyurdu: *"Allah anana rəhmət eləsin, ya Əli! O, sənin anan olan kimi, mənim də anam idi. Əmmaməmi və köynəyimi götür, onu kəfənlə..."*.[41]

Peyğəmbər *(s)* əmisi Əbu Talibin evində boya-başa çatdığından təşəkkür əlaməti olaraq ona müəyyən bir kömək göstərmək istəmişdir. Təsadüfdən Həzrət Əli *(ə)* altı yaşa daxil olan vaxt Məkkədə böyük bir qıtlıq yaranmış və böyük ailə sahibi olan Əbu Talib həmin qıtlıq zamanı bir sıra çətinliklərlə üzləşmişdir. Peyğəmbər *(s)* ailə ehtiyaclarını ödəməkdə çətinlik çəkən əmisinə yardım olaraq altı yaşlı Əlini *(ə)* himayəyə götürmüş və bu məqsədlə o

[41] Əllamə Məclisi, Biharül-ənvar, c. 35, səh. 71.

Həzrətin *(ə)* tərbiyəsi ilə məşğul olmağa başlamışdır. Beləliklə, Əbu Talib və Fatimə bint Əsədin himayəsi altında boya-başa çatmış Peyğəmbər *(s)* və zövcəsi Xanım Xədicə *(ə)* Həzrət Əli *(ə)* üçün mehriban ata-ana olmuşlar.

İbn Səbbağ "Füsulul-mühimmə" kitabında, Əllamə Məclisi isə "Biharul-ənvar"da belə yazır: "Bir vaxt Məkkədə qıtlıq oldu. Peyğəmbər *(s)* var-dövlət sahibi olan əmisi Abbas bin Əbdül-Müttəlibə təklif etdi ki, Əbu Talibi düşdüyü maddi sıxıntıdan çıxarmaq məqsədi ilə hərəsi onun oğlanlarından birini himayəyə götürsünlər. Abbas Peyğəmbərin *(ə)* bu təklifini həvəslə qarşıladı. Onlar Əbu Taliblə görüşdülər və təkliflərini ona bildirdilər. Əbu Talib dedi: "Əqil mənimlə qalsın, başqa nə bilirsinizsə edin". Abbas Cəfəri, Həmzə Talibi, Peyğəmbər *(s)* isə Əlini *(ə)* öz himayəsinə götürdü".

Bir məsələni də qeyd etmək zəruridir ki, Əbu Talibin övladları arasında Əlini *(ə)* o birilərlə müqayisə etmək olmazdı. Peyğəmbər *(s)* Əlini *(ə)* evinə apardıqdan sonra onların arasında xüsusi bir məhəbbət yarandı. Sanki bir zərrə günəşə qatılmış və ya bir damla dəryaya qovuşmuşdu. Haqqında ***"Onu çox qüvvətli olan öyrətdi"*** ("ən-Nəcm", 5) ayəsi nazil olan, özü də İlahi bir məktəbdə tərbiyə alan Peyğəmbər *(s)* kimi bir mürəbbi və müəllimə məhz Həzrət Əli *(ə)* kimi şagird və tələbə lazım idi. Buna görə də Həzrət Əli *(ə)* Peyğəmbəri *(s)* anbaan izləmiş, o Həzrətin *(s)* əqidə və görüşünün ardınca getmiş, qısa bir müddətdə Peyğəmbərin *(s)* bütün davranış və hərəkətlərini, əxlaq və ədəbini əxz etmişdir.

İnsanın həyatı bir neçə mərhələyə bölünür və o, hər bir həyat mərhələsində öz yaş tələblərinə əməl edir. Uşaqlıq dövrünün də özünəməxsus hərəkətləri vardır. Lakin Həzrət Əli *(ə)* bütün başqa uşaqlardan fərqli olaraq oyun ardınca getməmiş, əyləncələrdən çəkinmiş, elə uşaqlıq dövründən başlayaraq ali düşüncələrə qərq olmuş, o Həzrətin *(ə)* əməl və rəftarlarında mənəvi bir təkamül, ilahi əzəmətin bir nümunəsi müşahidə edilmişdir.

Həzrət Əli *(ə)* səkkiz yaşınadək Peyğəmbərin *(s)* himayəsində olmuş, sonra atasının yanına qayıtsa da bu qayıdış o Həzrətin *(ə)* Peyğəmbərlə *(s)* ünsiyyətinə mane olmamışdır. Həzrət Əli *(ə)* vaxtının çoxunu Peyğəmbərin *(s)* yanında keçirmiş, Peyğəmbər *(s)* də qəlbində toplanmış Əbu Talib məhəbbətini o Həzrətin *(ə)* qəlbində əks etdirmiş və Həzrət Əlinin *(ə)* tərbiyəsini öz əxlaqi fəzilətləri üzərində qurmuşdur. Bununla da Əli bin Əbu Talibin *(ə)* mübarək həyatının ilk on ili Peyğəmbərin *(ə)* pənahı və himayəsində ötüşmüşdür. Həmin ilkin təlim-tərbiyə nəticəsində Həzrət Əli *(ə)* Peyğəmbərin *(s)* İlahi dəvətlərini hamıdan qabaq qəbul etmiş, ömrünün sonunadək haqq və həqiqət yolunda fədakarlığa hazır olmuşdur. Beləliklə, Həzrət Əli *(ə)* ömrünün həssas olan ruhi və fiziki cəhətdən formalaşma dövrünü Muhəmməd

peyğəmbərin *(s)* evində və o Həzrətin *(s)* təlim-tərbiyəsi altında keçirmişdir. İslam tarixçiləri bu barədə yazırlar: "Bir il Məkkədə aclıq üz vermişdi. Bu zaman Peyğəmbərin *(s)* əmisi Əbu Talib böyük bir ailəyə başçılıq edir və onları çox çətinliklə dolandırırdı. Peyğəmbər *(s)* Bəni-Haşim tayfasının varlılarından olan digər əmisi Abbasa təklif etdi ki, Əbu Talibin dolanışığına kömək etmək məqsədilə hərəsi onun bir uşağını götürüb öz evində saxlasın. Abbas Peyğəmbərin *(s)* bu təklifi ilə razılaşdı. Beləliklə, Abbas Cəfəri, Peyğəmbər *(s)* isə Əlini *(ə)* öz öhdəsinə götürüb evlərinə apardılar. Peyğəmbər *(s)* Əlini *(ə)* öz öhdəsinə götürərkən buyurdu: *"O kəsi seçdim ki, Allah-Təala da onu mənim üçün seçmişdir"*. Həzrət Əli *(ə)* Həzrət Muhəmməd *(s)* peyğəmbər seçilənədək o Həzrətin *(s)* evində qaldı, peyğəmbərliyə seçildikdən dərhal sonra Rəsulullahın *(s)* peyğəmbərliyini təsdiq etdi və ardıcılı oldu".

Peyğəmbər *(s)* uşaqlıq illərini babası Əbdül-Müttəlibin vəfatından sonra əmisi Əbu Talibin evində keçirtdiyinə görə istəyirdi ki böyüdükdən sonra Əbu Talibin uşaqlarından birini öz öhdəsinə götürsün, bununla da əmisi Əbu Talibin və Fatimə Əsəd qızının onun yolunda çəkdikləri əziyyətin əvəzini versin. Peyğəmbərin *(s)* isə gözü Əbu Talibin uşaqları arasında yalnız Əlini *(ə)* tutmuşdu.

İmam Əli *(ə)* sonralar, özünün xəlifəlik dövründə "Qasiə" xütbəsində uşaqlıq illərinin tərbiyəsinə işarə edərək buyurmuşdur: *"Siz* (Peyğəmbərin *(s)* səhabələri) *mənim Peyğəmbərlə yaxın qohumluğumu və mənim onunla olan xas mövqeyimi yaxşı bilirsiniz. Bilirsiniz ki, mən uşaq olarkən Peyğəmbər məni öz qucağına alıb bağrına basar və məni öz yatağında yatızdırardı. Belə ki, mən onun bədəninə yapışaraq onun iyini hiss edərdim. O, mənə yemək yedizdirərdi. Mən anasının ardınca düşən uşaq kimi həmişə onun ardınca düşərdim. Peyğəmbər gündə bir əxlaqi məsələni mənə öyrədər və tapşırardı ki, ona riayət edim"*.

İslam Peyğəmbəri *(s)* Məscidun-Nəbidə olan zaman səhabə və dostlarını bir-birlərinə qardaş təyin etdi. Bu zaman Həzrət Əli *(ə)* tək qaldı, o Həzrət *(ə)* üçün qardaş təyin olunmadı. Həzrət Əli *(ə)* gözləri yaşla dolmuş halda Peyğəmbərin *(s)* hüzuruna gəlib buyurdu: *"Dostlarından hər biri üçün bir nəfər qardaş təyin etdiyin halda mənimlə bir kəsin arasında qardaşlıq əqdi bağlamadın"*. Böyük İslam tarixçilərinin yazdıqlarına görə, Peyğəmbər *(s)* Əli *(ə)* ilə olan əqidə və ideya bağlılığını bildirən tarixi kəlamını belə xitab eylədi: *"Sən həm bu dünyada, həm də Axirətdə mənim qardaşımsan. Məni peyğəmbərliyə seçən Allaha and olsun ki, səni yalnız özümə qardaş seçmək üçün axıra saxladım! Sən həm bu dünyada, həm də Axirətdə mənim*

*qardaşımsan”*.[42] Əminliklə deyə bilərik ki, bu kəlam Həzrət Əlinin *(ə)* Peyğəmbərlə *(s)* olan mənəviyyat, paklıq və dini məqsədlərlə bağlı olan ixlas və sədaqət mövqeyini aşkar şəkildə sübut edir.

İmanlı və iradəli insanların rəftar və əməlləri onların təfəkkür və əqidəsinin məhsuludur, öz doğma canından keçib fədakarlıq etmək ən imanlı insanlara xas olan xüsusiyyətdir. Əgər hər hansı bir insan bir şeyə olan imanını müəyyən bir həddə çatdırıbsa, hətta onu öz canı və malından üstün hesab edibsə, şübhəsiz ki, onun naminə canından belə, keçib bütün varlığını fəda edə bilər. Qurani-Kərim bu həqiqəti belə bəyan edir: ***“Möminlər yalnız Allaha və Peyğəmbərinə iman gətirən,*** (iman gətirdikdən sonra) ***heç bir şəkk-şübhəyə düşməyən, Allah yolunda malları və canları ilə vuruşanlardır! Məhz beləlı imanlarında sadiq olanlardır!”***[43]

Qüreyş başçıları belə bir məkrli qərar qəbul etdilər ki, hər qəbilədən bir nəfər seçilsin, gecə yarısı hamılıqla Peyğəmbərin *(s)* evinə hücum edib o Həzrəti *(s)* tikə-tikə doğrasınlar. Bununla da həm müşriklər Rəsulullahın *(s)* təbliğatından rahat olacaq, həm də Peyğəmbərin *(s)* ölümündə bütün ərəb qəbilələri iştirak edəcək və nəticədə Bəni-Haşim tayfası bu işdə şərik olan bütün qəbilələrlə mübarizəyə qalxıb intiqam ala bilməyəcəkdir. Allahın vəhy mələyi Peyğəmbəri *(s)* müşriklərin bu məkrli planından xəbərdar edib İlahi əmri o Həzrətə *(s)* çatdırdı: *“Gərək tez bir zamanda Məkkəni tərk edib, Yəsribə gedəsən”*. Müəyyən olunmuş gecə gəlib çatdı. Məkkəni qaranlıq bürümüşdü. Silahlı məmurların hərəsi bir tərəfdən Peyğəmbərin *(s)* evinə tərəf irəliləyirdi. Peyğəmbər *(s)* onların xəbəri olmadan müəyyən bir yolla evdən elə çıxmalı idi ki, baxanda o Həzrətin *(s)* evdə, öz yatağında yatmış olduğu təsəvvür edilsin. Bunun üçün canından keçən bir nəfər Peyğəmbərin *(s)* yatağında yatmalı və o Həzrətin *(s)* yaşıl örtüyünü üstünə çəkməli idi. Bununla da Rəsulullahı *(s)* qətlə yetirmək istəyənlər o Həzrətin *(s)* öz evində olduğunu yəqin edəcəkdilər. Nəticədə onların diqqəti yalnız Peyğəmbərin *(s)* evinə yönələcək, küçələrdə və Məkkədən çöldəki yollarda Rəsulullahın *(s)* şəhəri tərk etməsinə maneçilik törətməyəcəkdilər. Lakin kim öz şirin canından keçib Peyğəmbərin *(s)* yatağında yatacaqdı?! Belə fədakar insan yalnız Peyğəmbərə *(s)* hamıdan əvvəl iman gətirib, Besətin əvvəlindən pərvanə kimi o Həzrətin *(s)* başına dolanan bir şəxs olmalı idi. Bəli, bu alicənab, ləyaqətli şəxs Həzrət Əlidən *(ə)* başqası ola bilməzdi və belə bir şərəfli əməl ancaq Əliyə *(ə)* nəsib olmalıydı. Buna görə də İslam Peyğəmbəri *(s)* üzünü Həzrət Əliyə *(ə)* tutub buyurdu: *“Qüreyş müşrikləri*

[42] Foruqe vilayət.
[43] “əl-Hucurat”, 15.

*mənim qətlimə fərman vermiş və belə qərar almışlar ki, kütləvi şəkildə evimə hücum edib məni yataqda ikən öldürsünlər. Buna görə də Allah tərəfindən mənə əmr olunub ki, Məkkəni tərk edim. Gərək bu gecə mənim yatağımda yatıb o yaşıl örtüyə bürünəsən ki, onlar hələ də evdə olduğumu və yatağımda rahat yatdığımı təsəvvür edib məni təqib etməsinlər".*[44]

Həzrət Əli *(ə)* Peyğəmbərin *(s)* əmrinə qeyd-şərtsiz itaət etdi, gecə yarısına qədər Rəsulullahın *(s)* yatağında uzandı. Bayırda isə qılınca sarılaraq pusqu quran qırx nəfər qatil Peyğəmbərin *(s)* evini mühasirəyə almışdı. Qatillər tez-tez qapının deşiyindən içəri baxır, vəziyyəti nəzarət altında saxladıqlarını güman edir və düşünürdülər ki, Peyğəmbər *(s)* öz yatağındadır. Evi elə nəzarət altına almışdılar ki, hətta ən kiçik bir hərəkət belə, onların gözlərindən yayınmırdı. Fikirləşirdilər ki, Peyğəmbər *(s)* bu qədər güclü nəzarət altında evi heç vaxt tərk edə bilməz. Bir çox İslam tədqiqatçısı, həmçinin Peyğəmbərin *(s)* həyatını qələmə alan məşhur tarixçilər yazırlar ki, Rəsulullah *(s)* "Yasin" surəsini (səkkizinci və doqquzuncu ayələrini) oxuya-oxuya evi mühasirəyə alanların yanından elə keçdi ki, heç kimin bundan xəbəri belə, olmadı. Əlbəttə, adi bir zamanda bu işin baş verməsinin mümkünlüyü inkaredilməzdir. Üstəlik də, nə zaman Allah Öz peyğəmbərinə qeyri-adi və möcüzə yolu ilə nicat vermək istəsə, buna heç nə əngəl ola bilməz. Lakin dəlillər göstərir ki, Allah-Təala İslam Peyğəmbərinə *(s)* möcüzə yolu ilə nicat vermək istəmirdi. Buna görə də əgər Həzrət Əli *(ə)* Peyğəmbərin *(s)* yatağında yatmasaydı, o zaman Peyğəmbərin *(s)* də Saur mağarasında gizlənərək sonradan min bir zəhmətlə Mədinəyə yola düşməsi lazım gəlməzdi.[45]

Tədqiqat işimizin bu fəslindəki bütün mərhələlər İmam Əlinin *(ə)* həyatından yazılmış bir sıra sətirlərdən, olduqca nümunəvi və nəzərəçarpan hadisələrdən ibarətdir. Bir çox tarixçinin Qurani-Kərimdən sonra "ikinci" ən böyük kitab adlandırdığı "Nəhcül-bəlağə"də bütün bunlar geniş şəkildə qeyd olunmuşdur.

Həzrət Əlinin *(ə)* gördüyü unudulmaz, misilsiz və tarixi işlər sırasında vəhy Kitabının (Qurani-Kərimin) yazılmasını, bu Kitabın və tarixi-siyasi sənədlərin çoxunun tənzim edilməsini, eləcə də İslama dəvət və təbliğat məzmunlu məktubların yazılmasını və s. qeyd etmək olar. Həzrət Əli *(ə)* Quranın bütün ayələrini (istər Məkkədə, istərsə də Mədinədə nazil olan ayələri) Peyğəmbərin *(s)* sağlığında tam diqqətlə yazdığına görə vəhy katiblərindən və Quran hafizlərindən idi. Həmçinin, o Həzrət *(ə)* siyasi və tarixi sənədlərin,

[44] Foruqe vilayə.
[45] Həzrəti Əlinin *(ə)* həyatı.

o cümlədən təbliğ məktublarının tənzim olunmasında İslamın ilk katibi sayılırdı. İndi də bu tarixi-siyasi sənədlər və məktubların çoxu sirə kitablarında yazılıb saxlanmışdır. Hətta tarixi bir müqavilə olan "Hüdeybiyyə" sülhü Peyğəmbərin *(s)* imlası və Əlinin *(ə)* dəsti-xətti ilə yazılmışdır.

Həzrət Əlinin *(ə)* elmi və qələm xidmətləri qeyd olunanlarla qurtarmır. O Həzrət *(ə)* Peyğəmbərin *(s)* Sünnəsinin və əsərlərinin qorunub-saxlanmasında çoxlu səy etmişdir. Həzrət Əli *(ə)* müxtəlif vaxtlarda Peyğəmbərin *(s)* əhkam, fərizə, adab, Sünnə, qeybi xəbər və s. hadisələr barəsində olan kəlamlarını qeyd etmiş, nəticədə Peyğəmbərdən *(s)* eşitdiklərini altıcildlik kitab şəklində yazıb yadigar qoymuşdur. İmam Əli *(ə)* şəhid olduqdan sonra bu kitabların hamısı İmamın *(ə)* övladlarının əlində ən qiymətli bir xəzinə kimi saxlanılmış, din rəhbərləri başqalarına dəlil gətirmək lazım olanda bu kitablara istinad etmişlər.

Əgər hər hansı bir ictimai məsələdə şübhə edilərsə, yaxud o məsələni isbat etmək üçün təcrübəyə, dəlil və sübuta ehtiyac duyularsa, o zaman ictimai bağlılıq və ittihadın lüzumu, onun dolğun mənafeyi barəsində şəkkə yol verilməz. Qurani-Kərim də işlərin əsasını təşkil edən, müşavirə və fikir mübadiləsi aparan şəxsləri haqq axtaran və həqiqət görənlər kimi təqdim edir: ***"O kəslər üçün ki, Rəbbinin dəvətini qəbul edər*** (iman gətirər)***, namaz qılar, işlərini öz aralarında məsləhət-məşvərətlə görər, onlara verdiyimiz ruzidən*** (Allah yolunda) ***sərf edərlər"***.[46]

Rəsulullahın *(s)* dini o qədər gözəl və pakdır ki, Allah Öz Peyğəmbərini *(s)* bütün pis sifətlərdən uzaq etmişdir.

İslam dininin çoxlu ictimai əsasları vardır. Lakin "İslam qardaşlığı" dinimizin ən çoxşaxəli ictimai əsaslarından biridir. İslam Peyğəmbəri *(s)* bu qardaşlıq əlaqəsini möhkəmləndirmək üçün bacardıqca çox çalışmışdır. Peyğəmbərin *(s)* dininin gözəlliyi və bu dinin ictimai əsaslarının böyüklüyü daim o Həzrətin *(s)* əməlləri ilə müqayisə edilmişdir. Rəsulullah *(s)* ətrafdakılara istər ənsar olsun, istərsə də mühacir, hər zaman bir-biri ilə qardaş olmalarını və hər birinin də özü üçün bir nəfəri qardaş seçməsini buyurmuşdur. Bir çox hallarda iki mühacir bir-biri ilə, yaxud bir mühacir bir ənsarla qardaşlıq əqdi bağlamış və qardaşlıq rəmzi olaraq əllərini sıxmışlar. Lakin bu yolda siyasi-mənəvi bir qüvvə onların üzərinə kölgə salmışdır. İslam tarixçiləri və hədisşünasları yazırlar: "Bir gün Peyğəmbər *(s)* ayağa qalxıb dostlarına buyurdu: *"Allah yolunda bir-birinizlə* (iki-iki) *qardaş olun*". İslam Peyğəmbərinin *(s)* fərmanı ilə (həmin gün) bir-biri ilə qardaşlıq əqdi bağlayanların adları tarix kitablarında qeyd olunmuşdur. Məsələn, Əbu Bəkr

[46] "əş-Şura", 38.

Ömərlə, Osman Əbdürrəhman bin Ovflə, Təlhə Zübeyrlə, Ubeyy bin Kəb Abdullah bin Məsudla, Əmmar Huzeyfə bin Yəmanla, Salman Əbu Dərda ilə və s. qardaşlıq əqdi bağlamış və bu əqdlər Peyğəmbər *(s)* tərəfindən təsbit olunmuşdur. Bir neçə nəfərin arasında bağlanmış bu qardaşlıq əqdi Qurani-Kərimin İslam dünyasında elan etdiyi və bütün möminləri bir-birinin qardaşı hesab etdiyindən tam başqa bir qardaşlıqdır. Həmçinin, İslam Peyğəmbəri *(s) "Əli məndəndir, mən də Əlidənəm"* deməklə bir daha o Həzrətin *(s)* Əli *(ə)* ilə olan qardaşlığını bəyan etmişdir.

Qüreyş qəbilə başçılarının İslam tarixindəki mənfi rolları bir çox faktlarla öz təsdiqini tapmışdır. Belə ki, bu cahil insan toplusu hər vəchlə İslam Peyğəmbərinə *(s)* və o Həzrətin *(s)* İslam dinini təbliğ etməsinə mane olmuş, insanların təkallahlığa yönəlməsinin qarşısını almağa çalışmışlar. İmam Əli *(ə)* məhz belə bir dövrdə İslam dininin təşəkkül tapması üçün çalışmış, bu yolda misilsiz işlər görmüş, hətta canını fəda etməkdən belə, çəkinməmişdir. İmamın *(ə)* məqsədi Peyğəmbərdən *(s)* əmanət aldığı, eləcə də yenicə formalaşmağa başlayan İslam dinini olduğu kimi qoruyub saxlamaq, gələcək nəsillərə ötürmək və bu müqəddəs dindən gələcək nəsillərin bəhrələnməsini saxlamaq olmuşdur.

Qeyd etmək lazımdır ki, tədqiqat işində İmam Əlinin *(ə)* həyatını, şəxsi keyfiyyətlərini və İslam tarixindəki fəaliyyətini tam şəkildə əhatə edə bilməmişik. Çünki, nə elmi qüdrətimiz, nə də digər imkanlarımız buna yol vermədi. Lakin bacardığımız qədər o Həzrət *(ə)* barəsində layiqli söz deməyə çalışmışıq.

Bildiyiniz kimi, Həzrət Əli *(ə)* İslam tarixinin böyük hadisələrindən olan Bədr və Ühüd döyüşlərində, həmçinin məşhur Xeybər qalasının fəthində misilsiz şücaət göstərmişdir. Bu tarixi hadisələr hər biri ayrı-ayrılıqda böyük mövzular olduğu üçün biz bu mövzulara dərindən yanaşmayacaq, lakin qarşıdakı fəsillərdə hər birisi haqqında qısa da olsa, məlumat verəcəyik. Eyni zamanda, İmam Əlinin *(ə)* kəlamlar toplusu olan "Nəhcül-bəlağə" haqqında apardığımız araşdırmanı da sizlərin diqqətinə təqdim edəcəyik.

İslam Peyğəmbərinin *(s)* vəfatından sonra xəlifələrin və o Həzrətin *(s)* dostlarının bəzisinin müşkülləri həll etmək məqsədilə İmam Əliyə *(ə)* müraciət etmələrinin bir səbəbi də İmamın *(ə)* dərin elmi və ədalətli qəzavəti haqqında Peyğəmbərdən *(s)* eşitdikləri hədislər idi: "Ümmətin islami Sünnə və qəzavət qanunları barədə ən biliklisi Əli ibn Əbu Talibdir *(ə)*".[47] Onlar Peyğəmbərdən *(s)* eşitmişdilər ki, Rəsulullah *(s)* Zeyd bin Sabit, Ubeyy bin Kəb kimi şəxsləri tanış edəndə Həzrət Əli *(ə)* barəsində buyurmuşdur:

---

[47] Şeyx Abbas Qummi, Zibadətul-Əhadis.

*"Sizin içinizdə qəzavət üsullarını ən yaxşı bilən Əlidir"*. Peyğəmbərin *(s)* bu mübarək kəlamının sədası səhabələrin qulaqlarında idi ki, Rəsulullah *(s)* buyurdu: *"Mən elm şəhəriyəm, Əli isə onun darvazasıdır. Hər kəs bu şəhərə daxil olmaq istəsə, gərək həmin darvazadan gəlsin"*.[48] Belə olan halda xilafət və Peyğəmbərin *(s)* dostları öz müşküllərini niyə İmam Əli *(ə)* ilə həll etməməli və İmamın *(ə)* rəyinin nüfuzunu artırmamalı idilər. Halbuki, onlar şahid olmuşdular ki, Yəmən əhalisi Peyğəmbərə *(s)* "Bizə elə bir adam göndər ki, dini bizim üçün başa salsın, İslam qanunlarını bizə öyrətsin və Allahın Kitabı əsasında qəzavət etsin" - deyəndə Peyğəmbər *(s)* Həzrət Əliyə *(ə)* üz tutub buyurmuşdur: *"Ya Əli, Yəmənə tərəf yola düş, Allahın dinini onlara öyrət, onları İslam qanunları ilə tanış et və onların arasında Allah Kitabı ilə qəzavət et"*. Sonra Rəsulullah *(s)* əlini Həzrət Əlinin *(ə)* sinəsinə vuraraq buyurmuşdur: *"Get, Allahın sənin qəlbini haqqa hidayət etsin, sənin dilini səhv və xətadan saxlasın!"*[49]

Peyğəmbərin *(ə)* İmam Əli *(ə)* barəsində etdiyi dua elə qəbul olmuşdu ki, sonradan İmam *(ə)* buyurmuşdur: *"O zamandan indiyə kimi heç bir çətin məsələdə şəkk etməmişəm"*.[50]

## *1.2. HƏZRƏT ƏLİ (Ə) MƏKKƏ DÖVRÜNDƏ*

Məkkə Cahiliyyə mühitində Həzrət İbrahimin *(ə)* soyundan gələn və onun Hənif dinində olan bir ailədən doğulan Həzrət Muhəmmədin *(s)* vətəni idi. İslamda Məkkə dövrü dedikdə qırx yaşında bütpərəst cəmiyyəti həqiqi dinə dəvət etməsi üçün peyğəmbərliklə vəzifələndirilməsiylə yanaşı, Həzrət Muhəmmədə *(s)* inanan insanların on üç il boyunca öz dinlərini çətinliklə yaşadıqları, nəhayət azlıq təşkil etmələri və gücsüz olmaları səbəbindən öz yurdlarından - Məkkədən Mədinəyə hicrət etmələriylə bağlı bir dövr nəzərdə tutulur. Miladi 610-623 illərin arasında keçən islami təbliğin ilk mərhələsi məhz bu dövrdə baş vermiş, Qurani-Kərimin ilkin surə və ayələri məhz bu dövrdə nazil olmuşdur. Sonradan isə Məkkə dövrünün sonu yeni Hicri ilinin başlanğıcı olmuşdur. Deməli, İslamın Məkkə dövrü Peyğəmbərin *(s)* peyğəmbərliyi ilə başlayan dövrü əhatə edir.

Cəmiyyətinin cahil həyatından uzaq qalmaq və həqiqəti düşünmək üçün ilin müəyyən dövrlərində şəhərdən uzaqlaşan Peyğəmbər *(s)* yenə belə bir

---

[48] Həmin mənbə.
[49] Əli Əsğər Rizvani, Qədir-Xum, səh. 27.
[50] Geniş məlumat üçün bax: http://www.sibtayn.com saytına.

vəziyyətdə Hira mağarasında ikən Cəbrailın *(ə)* oxuduğu ***"Oxu, Rəbbinin adıyla oxu. O, insanı bir qan laxtasından yaratdı…"*** "Ələq" surəsinin ilk ayələrini dinlədi və peyğəmbərliklə vəzifələndirildi. Beləliklə, Həzrət Muhəmməd *(s)* əvvəllər bir kitab verilməmiş bütpərəst cəmiyyətə bu ilahi həqiqəti izah etməklə vəzifələndirildi. Özü isə o cəmiyyətdə o dövrə qədər sevilən, etibar edilən, alicənab və əmin birisiydi. Buna görə o Həzrətə *(s)* "Muhəmməd əl-Əmin" deyilirdi. Ən qiymətli əmanətlər başqasına deyil, məhz Həzrət Muhəmmədə *(s)* verilirdi.

Daha sonra Peyğəmbərimiz *(s)* Məkkədən çıxarıldı. ***"Ey*** (libasına) ***bürünüb sarınan*** (Peyğəmbər)***!"***; ***"Qalx*** (qövmünü Allahın əzabı ilə) ***qorxut!"***; ***"Öz Rəbbini uca tut!"***; ***"Libasını təmizlə*** (Nəfsini günahlardan pak et)***!"***[51] ayələri ilə birlikdə Həzrət Muhəmmədin *(s)* məşəqqətli Məkkə dövrü başladı. Peyğəmbər *(s)* əvvəlcə ən yaxın ətrafını xəbərdar etdi. Allahın Rəsuluna *(s)* ilk inananlar - zövcəsi Xanım Xədicə *(ə)*, evində qalan əmisi oğlu Həzrət Əli *(ə)* və xidmətçisi Zeyd oldu. Ətrafında toplanan bu müsəlmanlar da öz növbəsində Peyğəmbərə *(s)* köməkçi oldular, güvəndikləri yaxınlarını yeni dinlə tanış etdilər. İslamı dərk edənlər, zülm və ədalətsizliyə, haqsızlıq və əxlaqsızlığa qarşı olanlar bu yeni dinə inanır, ehtiraslı, zalım, mərhəmətsiz və əxlaqsız Məkkə zadəganları isə ona düşmən olurdular. Çünki, bu yeni din onların nizam-intizamını kökdən dəyişdirmək üçün gəlmişdi. Onlar dua etmək istədikləri zaman heç bir şeyi eşitməyən, görməyən, hətta özünə belə, faydası toxunmayan, əlləriylə yonduqları bütlərə, heykəllərə əl açırdılar. Yeni gələn din isə buyururdu ki, "hər şeyi yaradan, eşidən, görən, dua etdiyiniz zaman sizə kömək edəcək olan tək Allaha yönəlin. O, bütləri tərk edin". Məkkə zadəganları insanları ağa-kölə, zəngin-kasıb, idarə edən-idarə olunan, soylu-soysuz, kübar cəmiyyət-normal vətəndaş, qara-ağ qadın-kişi şəklində qruplara bölüb bir qismini digərlərindən üstün tuturdular. Yeni din isə bütün insanların tək bir şəxsdən yaradıldığını, üstünlüyün ancaq ürəklərdəki təqva duyğusu və Allah qorxusuyla əldə edilə biləcəyini elan edirdi. Onlar qız uşaqlarını rüsvayçı bir ləkə olaraq görərkən, yeni din qadınlara yaxşı davranılmasını əmr edirdi. Onlar zəif insanları kölə edib bazarlarda satarkən, köləsini bir heyvan kimi görüb ona işgəncə verərkən, yeni din "kölələriniz qardaşlarınızdır, öz yediyinizdən onlara da yedirin, geyindiyinizdən onlara da geyindirin, başınıza bir qara kölə belə, əmr seçilsə, ona itaət edin" deyirdi. Qısaca, yeni din cəmiyyəti hər cür çətinlikdən qurtarıb inananlara Allahın qarşısında qardaş olaraq səcdə etmələrini əmr edirdi.

---
[51] "əl-Müddəssir", 1-4.

İslam Məkkədə əvvəllər gizlicə yayıldı, etibarlı dostlar arasında danışıldı və özünə bir meydan əmələ gətirdi. Bu dövr üç il davam etdi. Dəvət gizli olmasına baxmayaraq, bu yeni dinin xəbəri qulaqdan-qulağa elə yayıldı ki, Məkkədə İslamın danışılmadığı bir ev qalmadı. Hətta Məkkə xaricinə də yayıldı, ətraf kəndlərdən birində oturan Əbuzər əl-Qəffari də bu yeni dini eşitdi, dərhal Məkkəyə gələrək Peyğəmbəri *(s)* tapıb müsəlman oldu.

Peyğəmbər *(s)* İslamı bu müddət ərzində ancaq etimad etdiyi kimsələrə təbliğ edirdi. Besətin 4-cü ilində isə bu ayə endi: ***"Və ən yaxın qohumlarını qorxut!"***[52] Artıq dəvət açıq şəkildə başlamışdı. Bunun üçün də insanları bir yerə toplamaq və İslamı təbliğ etmək lazım idi. Peyğəmbər *(s)* bu iş üçün Səfa dağını seçmiş, burada toplananlara özünü Allahın Rəsulu *(s)* olduğunu və o Həzrətə *(s)* itaət etmələrini bəyan etmişdir. Lakin Qüreyşin böyükləri Peyğəmbərə *(s)* istehza etmiş və bütpərəstlikdə qalmağı İslamdan üstün tutmuşdular.

Peyğəmbər *(s)* hər dəfə İslamı təbliğ etdikdən sonra Qüreyşin həqarətinə məruz qalmasına baxmayaraq, haqq yoldan çəkinmədi və bu məqsədlə ikinci bir toplantını Həzrət Əliyə *(ə)* tapşırdı. Həzrət Əli *(ə)* də bir ziyafət hazırlayıb yaxın qohumlarını dəvət etdi. Dəvətlilərin sayı qırx nəfərdən çox idi. Onların arasında Həmzə, Abbas, Əbu Ləhəb və Əbu Talib də vardı. Ziyafətin sonuna yaxın hər kəs yeyib-içdikdən sonra Peyğəmbər *(s)* ayağa qalxıb belə buyurdu: *"Ey Əbdül-Müttəlib oğulları! Mən sizə və bütün insanlara göndərilmişəm. İçərinizdən kimlər qardaşım və dostum olmaq üçün mənə beyət edər?"* Bu zaman heç kimdən səs çıxmadı. İçərilərində ən kiçik Əli *(ə)* idi. Həzrət Əli *(ə)* ayağa qalxdı, Peyğəmbər *(s)* o Həzrəti *(ə)* oturtdu. Həzrət Əli *(ə)* iki dəfə təkrar qalxdı və Peyğəmbər *(s)* də buna rəğmən o Həzrəti *(ə)* iki dəfə oturtdu. Üçüncü dəfə isə Rəsulullah *(s)* əlini Həzrət Əliyə *(ə)* uzatdı, o Həzrət *(ə)* kiçik olmasına baxmayaraq, Peyğəmbərə *(s)* beyət etdi və Rəsulullahın *(s)* qüvvətli qolu olacağını söylədi. Peyğəmbər *(s)* də Əliyə *(ə)* *"Qardaşımsan, vəzirimsən"* - deyə buyurdu.[53] Həzrət Əli *(ə)* sonradan bu hadisəni belə izah etmişdir: ***"Və ən yaxın qohumlarını qorxut!"***[54] *ayəsi nazil olan zaman Peyğəmbər məni çağırıb boynumdan tutdu və buyurdu: "Bu mənim qardaşım, vəsim və sizin içərinizdə olan xəlifəmdir. Onu eşidin və ona tabe olun". Bu zaman camaat ayağa qalxıb Əbu Talibə dedi ki, oğluna tabe oldun, onu sənə əmir təyin etdilər".*[55] O Həzrət *(ə)*

---

[52] "əş-Şuəra", 214.

[53] İbn Kəsir, əl-Bidayə vən-nihayə, c. VII, səh. 360.

[54] "əş-Şuəra", 214.

[55] Əllamə Məhəmməd bin Məhəmməd əl-Hüseyni, ət-Tibyan fi Ulumil-Quran, c. II; Məhəmməd bin Cərir ət-Təbəri, Tarixül-üməm vəl-müluk, mətbəətul-istiqamə, Misir-1357 h. c. II, səh. 321.

Rəsulullahla *(s)* olan əlaqəsi barədə belə rəvayət etmişdir: *"Kiçik bir dəvə balası necə anasının ardınca gedərsə və anasından heç ayrılmazsa, mən də elə hər zaman Peyğəmbərin yanında idim, ona uyar, onu təqib edərdim"*.[56]

Həzrət Əli *(ə)* İslam dinini Məkkədə yaymaq üçün Peyğəmbərə *(s)* çox kömək etmişdir. O Həzrətin *(ə)* hicrətdən əvvəlki həyatı barəsində qaynaqlarda kifayət qədər rəvayətlər vardır. Həmin rəvayətlərdən birinə görə, Peyğəmbərimizə *(s)* hicrət əmri "İsra" surəsinin bu ayəsi ilə verilmişdir: ***"De: "Ey Rəbbim! Məni daxil edəcəyin yerə*** (Mədinəyə) ***xoşluqla daxil et, məni çıxaracağın yerdən*** (Məkkədən) ***də xoşluqla çıxart. Öz dərgahından mənə kömək edə bilən bir dəlil ver!"*** (Mənə elə bir qüdrət ver ki, müşriklər və kafirlər həmişə onun qarşısında aciz qalsınlar!)***"***.[57]

Hicrət əmri gəldikdə bütün səhabələr tək-tək, cüt-cüt, qrup-qrup Mədinəyə doğru hərəkət etməyə başlamışdılar. Qüreyş də Həzrət Muhəmmədi *(s)* öldürmək kimi "Darün-Nədvə"də qorxunc bir qərar vermişdi. Peyğəmbəri *(s)* isə Rəbbi vəhy vasitəsilə hər şeydən xəbərdar edirdi. Artıq Rəsulullahın *(s)* hicrəti zamanı gəlib çatmışdı. Məkkədə isə Həzrət Əli *(ə)* və digər müsəlmanlar qalmışdı. Peyğəmbərin *(s)* nə vaxt Məkkədən çıxıb Mədinəyə gedəcəyini Həzrət Əlidən *(ə)* və bəzi yaxın səhabələrdən başqa heç kəs bilmirdi. Peyğəmbərə *(s)* hicrət üçün izin verildikdən sonra o Həzrət *(s)* Məkkədən Mədinəyə gedəcəyi barəsində Həzrət Əliyə *(ə)* xəbər verdi, özündən geri qalan və məkkəlilərə aid olan əmanətləri sahiblərinə təslim etməsini, sonra da gəlib onlara çatmasını əmr etdi. Peyğəmbər *(s)* o gecə özünə aid yataqda yatmasını Həzrət Əliyə *(ə)* bildirdi və bu barədə belə buyurdu: *"Mənim yatağımda yat və dincəl! Bu gələn ölüm işi yaşıl əbamdadır, yaxşıca bürün ona! Sənə onlardan xoşuna gəlməyən bir şey toxunmayacaqdır!"* Həzrət Əli *(ə)* yatağa girib əbaya büründü və yuxuya daldı. Peyğəmbər *(s)* də bu əbanın içində yatardı. Rəsulullah *(s)* bu surəni oxuyub evdən çıxdıqda Allah müşriklərə elə bir yuxu verdi ki, kimsə o Həzrəti *(s)* görmədi: ***"Biz onların önlərinə və arxalarına səәdd çəkib*** (gözlərini) ***bağlamışıq. Buna görə də*** (Allahın qüdrətinə dəlalət edən əlamətləri) ***görmürlər.*** (Kafirlərin qəlb gözü kor edilmiş, bütün iman yolları üzlərinə bağlanmışdır. Onlar zahirən görsələr də, mənən kordurlar)***"***.[58] Nəhayət, səhərə yaxın müşriklər Peyğəmbərin *(s)* evinin içərisinə baxıb o Həzrətin *(s)* yatağında Əlini *(ə)* Peyğəmbərin *(s)* əbasına bürünüb yatan gördüklərində dedilər: "Haradadır bu sahibin? Haradadır əmin oğlu?". Bu zaman Həzrət

---

[56] Nəhcül-bəlağə əsərinə istinadən.
[57] "əl-İsra", 80.
[58] Yasin, 9.

Əli *(ə)* buyurdu: *"Bilmirəm! Mənim bu barədə bir xəbərim yoxdur! Mən onun üzərində gözətçi deyiləm! Siz ona çıxıb getməsini əmr etdiniz, "bizdən ayrılıb get" dediniz, o da çıxıb getdi"*. Zalım müşriklər işin-işdən keçdiyini başa düşsələr də əsəblərini cilovlaya bilmədilər, bu üzdən Həzrət Əlini *(ə)* incitdilər, hətta Kəbə məscidində bir müddət həbsdə də saxladılar, lakin bir müddət sonra buraxdılar. Buna işarə olaraq ***"İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda*** (Allah rizası üçün) ***öz canını fəda edər. Allah Öz bəndələrinə qarşı çox mehribandır!"***[59] ayəsi nazil oldu.

Həzrət Əli *(ə)* üç gün ərzində işlərini bitirib Mədinəyə hicrət etdi. O Həzrət *(s)* kafirlərin basqınlarından qorunmaq üçün gündüzlər gizlənir, gecələr isə yol gedirdi. Beləliklə, təkbaşına, alovlar saçan qızmar səhralarda dörd yüz kilometrdən artıq yolu qət edən Həzrət Əli *(ə)* Mədinəyə çatdı. Peyğəmbər *(s)* Həzrət Əlinin *(ə)* gəlişini eşidərkən o Həzrətin *(ə)* yanına çağırılmasını istədi. Lakin Peyğəmbərə *(s)* bildirildi ki, Həzrət Əlinin *(ə)* ayaqları şişdiyindən və ayaqlarının dərisi üzülmüş olduğundan yeriməyə qüvvəsi yoxdur. Bu zaman Rəsulullahın *(s)* özü o Həzrətin *(ə)* yanına getmiş, Həzrət Əlinin *(ə)* iztirabını görmüş və müqəddəs əlləri ilə ayağındakı yaraları məsh etmişdir. Hətta Həzrət Əlinin *(ə)* bu fədakarlığı üzərinə ***"İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda*** (Allah rizası üçün) ***öz canını fəda edər. Allah Öz bəndələrinə qarşı çox mehribandır!"***[60]ayəsi nazil olmuşdur. Rəvayətə görə, Həzrət Əlinin *(ə)* acıları dərhal getmiş, yaraları sağalmış və o Həzrət *(ə)* şəhid olacağı günə qədər ayaqlarında bir daha ağrı hiss etməmişdir.

Göründüyü kimi, Peyğəmbər *(s)* ailəsi olan Haşimoğullarını özünə gələn dinə dəvətdən ötrü yemək süfrəsinə çağırsa da müşriklər o Həzrəti *(s)* lağ edərək dağılıb getdilər. Peyğəmbər *(s)* başqa bir gün Səfa təpəsinə çıxaraq bütün məkkəlilərə toplanmaları üçün çağırış etdi, toplandıqlarında onlardan belə soruşdu: *"Ey Qüreyş əhli! Sizə bu təpənin arxasında bir düşmən ordusu var və dərhal üzərinizə hücum edəcək desəm inanarsınızmı?"* Məkkəlilər cavab verdilər: "Bəli inanarıq. Çünki, bu günə qədər sənin yalanını eşitmədik". Peyğəmbər *(s)* buyurdu: *"O halda xəbəriniz olsun ki, irəlidə böyük bir əzab günü var..."*. Camaatdan bir səs yüksəldi: "Günümüzü zəhər etdin! Bizi bunun üçünmü çağırdın?...". Və yığıncaq yenə də dağıldı. Məhz bu andan yeni İslam dini ilə bütpərəstlik arasında şiddətli bir mübarizə başladı. Artıq Məkkədə "La ilahə illəllah" demək böyük bir cinayət idi. Ailələr parçalandı. Bu mübarizə yalnız şəhərdə deyil, evlərdə də vardı: ata müşrik-uşaq müsəlman,

[59] Bəqərə, 207.
[60] Bəqərə, 207.

ər müsəlman-həyat yoldaşı müşrik. Ardından evdən qovulmalar, boşanmalar, övladlıqdan rədd edilmələr, həbs etmələr, təzyiqlər, işgəncələr başladı. Bu mühitdə Peyğəmbərin *(s)* öndərliyindəki müsəlmanlar Zeyd bin Ərqəmin evini özlərinə mərkəz etdilər və gecələr orada görüşməyə başladılar. Ərqəmin evində yeni din öyrənilir, yeni gələn ayələr əzbərlənir, namaz qılınır, evindən qovulan, aç qalan, işgəncəyə uğrayan müsəlmanlara pənah verilir, ən çox da səbr etmək öyrədilirdi. Çünki, bu işgəncələr birgünlük deyildi.

Yeni dinin azadlıq gətirməsini yaxşı başa düşən və əvvəlki mövqelərini itirəcəklərini aydın dərk edən Məkkə müşrikləri bu gedişi dayandırmaq üçün yeni taktikalar hazırlayırdılar. Onlar əvvəlcə lağ etdilər və dedilər: “Bizim kimi soylu, zəngin kəslər var ikən Allah bunamı vəhy verdi”. Lakin lağ və ələsalmalara baxmayaraq, müsəlmanların sayında artım olduğunu görüncə müşriklər böhtana başladılar: “Bunun söylədiyi şeirdir, bu adam şairdir, kahinlik edir. Buna bir şeylər öyrədən vardır, ondan aldığı məlumatları bizə danışır. Əslində bunun söylədikləri yəhudi və xristian din adamlarından öyrənilmiş məlumatlardır”. Həqiqətdə isə müşriklər öz böhtanlarına özləri də inanmırdılar. Çünki, onlar Həzrət Muhəmmədi *(s)* çox yaxşı tanıyır və o Həzrətin *(s)* şair, kahin, nağıldanışan olmadığını da yaxşı bilirdilər. Elə buna görə də Məkkədə İslamın yayılması uğurla davam etdi və müşriklərin öz adamlarından bir qismi müsəlmanların cərgəsinə qatıldı.

Məkkənin müzakirə mərkəzi olan “Darün-Nədvə”də toplanan Qüreyşin böyükləri yeni hiylələr planlaşdırdılar, Peyğəmbərin *(s)* yanına gəldilər və barış üçün dedilər: “Ya Muhəmməd, sənin dərdin nədir? Cəmiyyətimizi darmadağın etdin. Əgər zənginlik istəyirsənsə, sənə istədiyin qədər mal yığaq. Məqsədin idarəçi olmaqdırsa, səni özümüzə öndər edək, rəhbər seçək. Qadın istəsən, Məkkənin ən gözəl qızlarını sənə ərə verək. Bu işdən imtina etməyin yetər ki, istədiyin sənin olsun”. Lakin Peyğəmbər *(s)* onlara qarşı dəqiq bir rəftarla belə buyurdu: *“Bir əlimə Ayı, digər əlimə Günəşi versəniz, mən bu iddiadan əsla imtina etmərəm. Çünki, mən bunu öz istəyimlə, arzumla etmirəm. Bunu Allah istəyir”*. Bundan sonra müşriklər qardaşı oğlunu razı salsın deyə, araya əmisi Əbu Talibi qoşdular. O, da eyni təkliflə gəldi, lakin Peyğəmbərin *(s)* qərarı qəti idi. Məkkə idarəçiləri Əbu Talibə bir xəbərdarlıq da etdilər: “Bundan sonra Muhəmmədi himayə etməkdən imtina et, onunla aramızdan çəkil”. Amma Əbu Talib qohumluq bağlarını qorumaqda və yeni dinin təbliğində Peyğəmbər *(s)* qədər qərarlı idi. Məhz buna görə də Peyğəmbərə *(s)* demişdi: “Sən işinə bax, oğlum. Mən həyatda olduğum müddətcə, heç kim sənə zərər verə bilməz”. Əbu Talib yaxşı niyyətli idi, lakin müsəlmanların hamısını qorumağa gücü çatmırdı. Məhz belə bir vaxtda mü-

səlmanlar Peyğəmbərin *(s)* əmisi Həmzənin dayağı ilə gücləndilər. Lakin işgəncələr davam edir, qəbiləsi və ya özü güclü olan müsəlmanlardan başqa hamı əzilirdi, xüsusilə də kölələr. Elə onlardan bir olan Yasir ailəsi də İslamın ilk şəhidlərindən oldu. Peyğəmbər *(s)* müsəlmanların bu işgəncələrdən xilası üçün onlara Məkkəni tərk etməyə icazə verdi,[61] müsəlmanlara *"Orada bir hökmdar var, kimsəyə haqsızlıq etməz, ora əmin bir yerdir. Allah başqa bir qapı açana qədər oraya gedin"* - deyə müsəlmanları Həbəşistana göndərdi. On bir kişi və dörd qadından ibarət ilk müsəlman dəstəsi Həbəşistana hicrət etdi. Böyük təfsir alimi əl-Vahidi "Zümər" surəsinin onuncu ayəsinin bu mühacirlər haqqında nazil olduğunu yazır. Mübarək ayədə Uca Rəbbimiz onlar haqqında belə buyurur: **"**(Ya Peyğəmbər! Mənim adımdan qullarıma) ***de: "Ey Mənim iman gətirən bəndələrim! Rəbbinizdən qorxun. Bu dünyada yaxşılıq edənlərə*** (Axirətdə) ***yaxşılıq*** (Cənnət) ***vardır. Allahın yeri genişdir*** (sizə bir çətinlik üz versə, başqa ölkələrə hicrət edə bilərsiniz)***. Yalnız*** (dünyada Allah yolunda çətinliklərə) ***səbir edənlərə*** (Axirətdə) ***saysız-hesabsız mükafat veriləcəkdir!"***

Hicrətə qatılanlar daha çox güclü müsəlmanlar idi. Məqsədləri müsəlmanlara yaxşı bir əsas hazırlamaq, İslamı yaymaq idi. Həbəşistana hicrət edənlərin orada yaxşı qarşılandıqları xəbəri Məkkəyə çatdığında məkkəlilər təlaşlandılar. Elə bu vaxt belə bir söz-söhbət çıxarıldı: "Bütün Məkkə əhli müsəlman oldu". Bu xəbər Həbəşistana çatınca mühacir müsəlmanlar geri döndülər, lakin Məkkə yaxınlığında həqiqəti öyrəndiklərində bir qismi təkrar Həbəşistana döndü, bir qismi də gizlicə Məkkəyə girdi.

Bir müddət sonra Məkkədən daha böyük bir karvan Həbəşistana ikinci hicrətə başladı. Onlar artıq yetmiş üç nəfərdən ibarət idilər.[62] İbn Abbasdan nəql olunan hədisə görə, onların haqqında "əl-Ənfal" surəsinin 74-75-ci ayələri nazil olmuşdur və həmin ayələrdə belə buyurulur:

**و الذين آمنوا وهاجروا وجاهدوا في سبيل الله والذين آووا ونصروا اولئك هم المؤمنونحقا لهم مغفرة ورزق كريم والذين آمنوا من بعد وهاجروا وجاهدوا معكم فاولئك منكم واولو الارحام بعضهم أولى ببعض في كتاب الله.**

***"İman gətirib*** (Məkkədən Mədinəyə) ***köçənlər, Allah yolunda cihad edənlər*** (mühacirlər) ***və*** (peyğəmbərlərlə mühacirlərə) ***sığınacaq verib kömək edənlər*** (ənsar) ***- məhz onlar həqiqi möminlərdir. Onları*** (Axirətdə) ***bağışlanma və tükənməz*** (gözəl, minnətsiz) ***ruzi gözləyir!"***; ***"Sonradan*** (Hüdeybiyyə sazişindən sonra, Məkkənin fəthindən əvvəl) ***iman gətirib***

[61] Əllamə Məclisi, Biharül-ənvar, c. 38, səh. 289.
[62] Əllamə Məclisi, Biharül-ənvar, c. 38, səh. 289.

***hicrət edənlər və sizinlə bərabər döyüşənlər*** (cihad edənlər) ***də sizdəndirlər. Qohumlar Allahın Kitabında*** (lövhi-məhfuzda və ya Quranda irs, varislik baxımından) ***bir-birinə daha uyğundurlar*** (yaxındırlar)***. Həqiqətən, Allah hər şeyi biləndir!*** (Məkkənin fəthinə qədər mühacirlər və ənsar qohumluq əlaqələrindən asılı olmayaraq bir-birinin varisi hesab edilirdilər. Məkkənin fəthindən sonra bu hökm ləğv olunub varislik hüququ yalnız qohumlara aid edildi)***”***.

Məkkə müşrikləri İslamın orada güclənməsindən narahatlıq keçirərək gedənləri geri gətirmək üçün hazırladıqları qiymətli hədiyyələrlə birlikdə iki nəfər elçini Həbəşistan kralı Nəcaşiyə göndərdilər. Elçilər həbəş kralının hüzuruna çıxdıqlarında əvvəlcə hədiyyələri verdilər, sonra da istəklərini açıqladılar: “Şəhərimizdən ölkənə qaçan bir qrup insan var, səndən onları bizə geri verməyini istəyirik”. Kral Nəcaşi isə ona sığınan insanların fikrini öyrənmədən “bəli” deyə bilməyəcəyini söylədi və müsəlman mühacirlər saraya çağırıldı. Orada danışan Peyğəmbərin *(s)* əmisi oğlu Cəfər özlərinin kölə və günahkar olmadıqlarını, azad bir insan olaraq bura gəldiklərini söylədi və bu elçilərin hansı haqla onları geri aparmaq istədiyini soruşdu. Cəfər belə danışdı: “Biz, cəhalət içində üzən, bütlərə tapınan, güclünün zəifi əzdiyi bir cəmiyyət idik. Allah aramızda ona güvəndiyimiz bir Peyğəmbər *(s)* göndərdi. O, bizi tək Allaha ibadət etməyə çağırdı, doğru söyləməyi, verdiyimiz sözə əməl etməyi, qohumluq tellərinə və qonşuluq haqlarına hörmət göstərməyi, pislikdən və qan tökməkdən çəkinməyi əmr etdi. Biz də ona və gətirdiklərinə inandıq. Buna görə də camaatımız bizə düşmən oldu, dinimizdən dönmək üçün bizə işgəncə etdilər. Biz də sənin ölkənə sığındıq”. Nəcaşinin, Cəfərdən İsa peyğəmbər *(ə)* haqqında nə düşündüklərini soruşması üzərinə o, “Məryəm” surəsindən bir hissə oxudu. Nəcaşi oxunan ayələrin İlahi bir qaynaqdan gəldiyini anladı və belə dedi: “Bu, İsanın gətirdiyi ilə eyni qaynaqdan gəlir”. Sonra Nəcaşi qüreyşli elçilərə “Gedə bilərsiniz, Allaha and içərəm ki, onları sizə təslim etməyəcəyəm!” - dedi. Məkkəli elçilər hədiyyələri də qəbul edilməyərək geriyə göndərildilər. Beləliklə, mühacir müsəlmanların bir qismi Mədinəyə hicrətə qədər orada qaldılar və daha sonra Mədinədə qurulan İslam dövlətinə hicrət edərək birbaşa Mədinəyə gəldilər.

Məkkəni idarə edənlər tətbiq etdikləri təzyiqlərdən bir nəticə ala bilmədilər. Həmçinin, Həmzə, Əbu Talib və Həzrət Əli *(ə)* kimi həm fiziki cəhətdən, həm də iman və təqva baxımından güclü müsəlmanlar bütləri heçə sayaraq açıqdan-açığa Kəbədə namaz qılmağa başlamışdılar. Buna görə də məkkəlilər özləri üçün ən əhəmiyyətli saydıqları qərarı verdilər: “Bundan

sonra Muhəmmədin qəbiləsi Haşimoğulları ilə bütün əlaqələr kəsiləcək, onlarla alış-veriş edilməyəcək, qız alınıb-verilməyəcəkdir”. Bu tətbiq “Haşimoğulları Muhəmmədi rədd etsin və ya o, bu peyğəmbərlik iddiasından imtina etsin” - deyə başladılmışdı. Sözügedən müqaviləni hər qəbilənin rəisi imzaladı və Kəbənin divarına asdılar. Lakin ayrı kimi görünən qəbilələr arasında qız alıb-verməlşərlə yeni qohumluqlar meydana gəldiyi üçün Haşimoğulları qəbiləsi tək qalmadı və boykotçu qəbilələrin bəzi üzvləri onlara gizlidən-gizliyə köməklərini davam etdirdilər. Qeyd etmək lazımdır ki, boykot tam tətbiq olunmasa da müsəlmanlar da çox çətin anlar yaşadılar. Belə ki, onlar qurumuş dəri parçalarını, ot və ağac qabıqlarını yemək məcburiyyətində qaldılar. Bütün bunlara baxmayaraq, qohumluq tellərinə böyük əhəmiyyət verən məkkəlilər üçün bu boykot qərarı üzqaraldan idi. Ona görə də üç il davam edən bu boykotun müsəlmanlarda bir süstlük əmələ gətirə bilmədiyini görən müşriklərin bir qismi istəmədən qatıldıqları bu boykotun qaldırılmasını istədilər və Kəbəyə asdıqları razılaşma mətnini oradan götürdülər. Müşriklər, eyni zamanda bir möcüzəyə də şahid oldular: *“İlahi, sənin adınla”* yazısından başqa bütün kağızı qurd və güvələr yemişdi. Lakin bu möcüzə də məkkəlilərə müsbət təsir etmədi. Əlbəttə, boykotun qaldırılmasıyla müsəlmanlar rahatlaşdılar. Ancaq Peyğəmbərin *(s)* zövcəsi Xanım Xədicənin *(ə)* və əmisi Əbu Talibin bir il içərisində ard-arda gələn vəfatları müsəlmanları hüznə qərq etdi və bu səbəbdən həmin ilə Peyğəmbər *(s)* “hüzn ili” adını verdi.

Əbu Talibin vəfatından sonra Peyğəmbər *(s)* artıq müşriklərin əməli hücumlarına uğradı. Rəsulullahın *(s)* mübarək başına toz-torpaq, leş, zir-zibil atdılar, məsciddə namaz qılarkən üzərinə içalat tulladılar və o Həzrəti *(s)* döydülər.

Peyğəmbər *(s)* övladlığa götürdüyü Zeydi yanına alaraq qonşu Taif şəhərinə getdi və İslamı onlara da eşitdirmək istədi. Çünki, Rəsulullah *(s)* yalnız məkkəlilərə deyil, aləmlərə rəhmət olaraq göndərilmişdi. Lakin o Həzrət *(s)* orada da eyni xarakterli insanları gördü. Taiflilər gələn qonağa lağ etdilər, Rəsulullahı *(s)* şəhərdən çıxana qədər daşladılar. Peyğəmbər *(s)* qan içində geri döndü. O zamanlar öz şəhərini bir dəfə tərk edən adam bir başqasının himayəsində olmadan geri dönə bilməzdi. Buna görə də Peyğəmbər *(s)* Məkkəyə müşrik Mütimin himayəsində girdi.

Məkkədə isə zülm dayanmamışdı. Peyğəmbər *(s)* İslamı ətraf qəbilələrə də izah edir və hər keçən gün müsəlmanların sayı artırdı. Hirada Cəbrailın *(ə)* ***“Oxu!”*** əmrindən artıq on il keçmişdi. Bir gecə Peyğəmbər *(s)* Allah tərəfindən Məkkədən götürülüb Qüdsə, oradan da göylərə çıxarıldı: ***“Bəzi ayə-***

***lərimizi*** (qüdrətimizə dəlalət edən qəribəlikləri və əcaiblikləri) ***göstərmək üçün bəndəsini*** (Peyğəmbər əleyhissəlamı) ***bir gecə*** (Məkkədəki) ***Məscidül-həramdan ətrafını mübarək etdiyimiz*** (bərəkət verdiyimiz) ***Məscidüləqsaya*** (Beytülmüqəddəsə) ***aparan Allah pak və müqəddəsdir. O, doğrudan da,*** (hər şeyi) ***eşidəndir, görəndir!"***[63]

Merac deyilən bu hadisədə Peyğəmbər *(s)* anlamaqda çətinlik çəkəcəyimiz, lakin Allahın bildirməsi ilə iman etdiyimiz bir çox möcüzələrlə qarşılaşdı, Sidrətül-Müntəhaya (göylərin ən ucqar nöqtəsinə) qədər yüksəldi. Rəsulullaha *(s)* Cənnət və Cəhənnəm göstərildi, bəzi əmrlər və İslamın bir qisim qaydaları verildi. Beş vaxt namaz da bu gecə vacib edildi.

Peyğəmbər *(s)* səhəri gün Merac hadisəsini izah etdikdə məkkəlilər o Həzrətin *(s)* havalandığına hökm edərək sevinclə bu xəbəri bir-birlərinə yaydılar. Bəziləri də müsəlmanların yanına qaçdı ki, bu "müjdə"ni onlara çatdırsın.

Məhz belə bir çətin şəraitdə İslam Peyğəmbəri *(s)* Həzrət Əliyə *(ə)* daha çox güvənmiş, bütün işlərində o Həzrətə *(ə)* üstünlük vermiş və hətta yuxarıda qeyd etdiyimiz kimi, Həzrət Əlinin *(ə)* öz yerində xəlifə olacağına işarə edib, bunu açıq-aşkar şəkildə bəyan etmişdir. Həmçinin, yuxarıda qeyd etdiyimiz kimi, Həzrət Əli *(ə)* hicrət əsasında da, hicrətdən sonrakı Mədinə dövründə də əsl qəhrəmanlıq nümayiş etdirmiş, bütün hallarda Rəsulullahın *(s)* sirdaşı və mühafizi olmuşdur.

## *1.3. HƏZRƏT ƏLİ (Ə) MƏDİNƏ DÖVRÜNDƏ*

Cahiliyyə ərəbləri hər il Həcc mövsümündə Kəbədə toplanar, Həcc ziyarətini yerinə yetirərdilər. Bu mövsümdə Məkkədə ticarət üçün yarmarka da qurulardı. Yenə belə bir Həcc mövsümündə Peyğəmbər *(s)* Məkkə xaricindən gələn insanları tək-tək görərək onlara İslamı izah edirdi. Rəsulullah *(s)* Mədinədən gələn bir qrup insana da yeni dini təbliğ etdi, onlar müsəlman oldular və Mədinəyə altı müsəlman qardaş olaraq döndülər.

Qısa müddətdə Mədinədə İslamın sorağı eşidildi və hər evdə bu din barəsində danışılmağa başlandı. O dövrdə Mədinədə iki böyük qəbilə yaşayırdı - Övs və Xəzrəc qəbilələri. Eyni zamanda, Mədinədə ayrıca yəhudilər də vardı. Mədinəlilər yəhudilərlə təmasda olduqlarından yaxınlarda bir Allah elçisinin - peyğəmbərin çıxacağını bilirdilər. Buna görə də İslamın yayılması Mədinədə daha sürətli oldu və mədinəli müsəlmanlar bir il sonra Məkkə-

[63] "əl-İsra", 1.

yə on iki adam olaraq təkrar gəldilər. Bu dəfə aralarında Övs və Xəzrəcin hər ikisindən də müsəlman vardı. İki düşmən qəbilə İslam sayəsində qardaş ola biləcək, düşmənliklər ortadan qalxacaqdı. Bu on iki müsəlman Məkkənin kənarında yerləşən "Əqəbə" adlı yerdə, gecə vaxtı Peyğəmbərlə *(s)* görüşdülər. Onlar Rəsulullaha *(s)* söz verdilər ki, Allaha heç bir şeyi şərik qaçmayacaq, oğurluq, zina və təcavüz etməyəcək, uşaqları öldürməyəcək, böhtan atmayacaq, haqdan ayrılmadığı müddətcə Peyğəmbərə *(s)* itaət edəcəklər. Bu hadisə İslam tarixinə "Birinci Əqəbə Beyəti" adıyla düşdü.

"Birinci Əqəbə Beyəti"nə qatılanlar Mədinəyə dönərkən Peyğəmbər *(s)* Həbəşistandan yeni dönən Müsəb bin Ümeyri də onlarla birlikdə göndərdi. Müsəbin vəzifəsi mədinəli müsəlmanlara dinlərini öyrətmək və İslamı digər mədinəlilərə çatdırmaq idi. O, Mədinədə on bir ay qaldı, Həcc mövsümünün əvvəlində Məkkəyə döndü və Rəsulullaha *(s)* birillik hesabatını bu cümlə ilə yekunlaşdırdı: "Ya Rəsulullah *(s)*, Mədinədə İslamın danışılmadığı bir ev qalmadı!"

Bir ay sonra Mədinədən yetmiş üç kişi və səkkiz qadından ibarət olan bir heyət Həcc ziyarəti münasibətiylə Məkkəyə gəldi və "İkinci Əqəbə Beyəti" reallaşdı. Mədinəyə döndükdən sonra müsəlman bir toplum olaraq üzərilərinə düşən məsuliyyətin böyüyəcəyini bilən İslam Peyğəmbəri *(s)* onları qrup-qrup təşkilatlandırdı və onlara on iki rəhbər seçildi - doqquzu xəzrəcli, üçü övslü. Bu beyətin mənasını onlardan biri digərlərinə belə izah etmişdir: "Siz qara, qırmızı - bütün insanlara döyüş açmağı göz önünə alırsınız. Buna görə də əgər mallarınız azaldığında və bəziləriniz öldürüldüyündə onu tərk edəcəyinizi düşünürsünüzsə, indidən buraxın. Əgər onu o zaman tərk etsəniz, bu əməliniz həm bu dünyada, həm də Axirətdə sizin rüsvay olmağınıza səbəb olar. Lakin əgər sözünüzdən dönməyəcəyinizi düşünürsünüzsə, onu alın. Çünki, Allaha and olsun, bu, həm bu dünya, həm də Axirət üçün qurtuluşdur!" Onların bu dərəcədə təhlükəli nəticələr doğuracaq beyəti isə bu demək idi: Peyğəmbər *(s)* və möminlər Mədinəyə hicrət edəcəklər, onlar da qonaq gələn qardaşlarını sonuna qədər müdafiə edəcəkdilər. Peyğəmbərin *(s)* istəyi dəqiq idi: *"Məni yoldaşlarınızı və uşaqlarınızı qoruduğunuz kimi, qoruyacaqsınız. Mən sizdənəm, siz də məndənsiniz. Döyüşdüyünüzlə döyüşər, barışdığınızla barışaram"*. Bütün bunların qarşılığında mədinəli müsəlmanların mükafatı Cənnət olacaqdı.

Bu görüşmə və beyətdən sonra məkkəli müsəlmanlar bir-iki, gizli-açıq Mədinəyə köçməyə başladılar. İslamın Mədinədə güclənib öz idarələri xaricində daha da inkişaf edəcəyindən qorxan məkkəli müşriklər bu köçü dayandırmağa qərar versələr də bacara bilmədilər. Artıq Məkkədə Peyğəm-

bərdən *(s)*, Həzrət Əlidən *(ə)* və yaxınlarından başqa çox müsəlman qalmamışdı. Bundan xəbərdar olan müşriklər son oyunlarını oynamağa çalışdılar, Peyğəmbəri *(s)* öldürməyə qərar verərək bir-birlərinə dedilər: "Muhəmməd Mədinəyə gedib adamlarının başına keçsə, vay halımıza! Ona bu fürsəti vermədən yox etməliyik". Lakin Cəbrailın *(ə)* bu sui-qəsdi xəbər verməsiylə Peyğəmbər *(s)* tədbirini gördü və evini əhatə etmiş təcavüzkarların arasından "Yasin" surəsini oxuyaraq çıxdı. Müşriklər isə Allahın bir möcüzəsi olaraq aralarından keçən Peyğəmbəri *(s)* görə bilmədilər. Bu hadisə "Leylətülməbit" adı ilə tarixə düşdü. Məhz bu anda Həzrət Əli *(ə)* Peyğəmbərin *(s)* yatağında yatmışdı.

"Leylətul-məbit"də Peyğəmbər *(s)* Həzrət Əliyə *(ə)* öz yatağında yatmağı təklifi etdikdə o Həzrət *(ə)* yalnız bir şey barəsində düşünürdü. Odur ki, soruşdu: *"Ya Rəsulullah, əgər mən sizin yerinizdə yatsam, siz sağ qalacaqsınızmı?!"* Rəsulullah *(s)* cavab verdi: *"Bəli, salamat qalacağam"*. Əli bin Əbi Talib *(ə)* xoşhallıqla torpağa düşüb səcdə etdi. Bu, İslamda baş verən ilk şükür səcdəsi idi. Yəqubi "Tarix" əsərində yazır: "O gecə Əli *(ə)* Peyğəmbərin *(s)* yatağında yatmışdı. Allah-Təala Cəbrailə *(ə)* və Mikailə *(ə)* belə vəhy etdi: *"Mən sizin ikinizdən birini ölümə məhkum etmişəm, hansı biriniz fədakarlıq edib özünü ölümdə qabağa salar?"* Hər ikisi həyatı, yaşamağı seçdilər. Vəhy gəldi: *"Niyə Əli kimi deyilsiniz? Onu Muhəmmədlə bərabər qərar verdim və birinin ömrünü digərindən çox etdim. Amma Əli ölümü seçdi və Muhəmmədin qalmasını üstün tutaraq onun yatağında yatdı ki, o, diri qalsın. Gedin onu düşmənlərindən qoruyun"*. Mələklərin hər ikisi Yerə endi. Biri Əlinin *(ə)* baş tərəfində oturdu ki, onu düşmənlərdən qorusun və daşlardan mühafizə etsin. Cəbrail *(ə)* buyururdu: *"Sənin kimilərə eşq olsun, ya Əbu Talibin oğlu! Allah yeddi Göyün mələklərinə səninlə iftixar etdiyini buyurur"*.

Təfsir alimləri etiraf edirlər ki, "Bəqərə" surəsinin 207-ci ayəsi məhz Peyğəmbər *(s)* Məkkədən Mədinəyə hicrət edərkən nazil olmuşdur:

**وَمِنَ النَّاسِ مَن يَشْرِي نَفْسَهُ ابْتِغَاء مَرْضَاتِ اللّهِ وَاللّهُ رَؤُوفٌ بِالْعِبَادِ.**

***"İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda*** (Allah rizası üçün) ***öz canını fəda edər. Allah Öz bəndələrinə qarşı çox mehribandır!"*** Bəli, hicrət zamanı Əli bin Əbu Talibin *(ə)* fədakarlığı məhz bu idi.

Peyğəmbər *(s)* Məkkədəki son işləri tamamlamaq üzrə Həzrət Əlini *(ə)* geridə buraxaraq Əbu Bəkrlə birlikdə Məkkəni tərk etdi. Ancaq məkkəlilər qaçırdıqları bu adamı öldürənə və ya gətirənə mükafat verəcəkləri barədə ətrafa xəbər saldılar. Rəsulullah *(s)* və Əbu Bəkr üç gün Məkkə yaxınlığın-

dakı bir mağarada gizləndilər, müşriklərin ümidlərinin tükənərək kəsildiyi bir anda mağaradan çıxıb Mədinəyə doğru yönəldilər. Peyğəmbər *(s)* bir sıra çətinliklərə baxmayaraq, özünü Mədinədə gözləyən müsəlmanlara çatdırdı, bununla da İslamın ilkin "Məkkə dövrü" sona yetdi və yeni bir dönəm olan "Mədinə dövrü" başladı.

İslamın təbliğ üsulunu Allah-Təala birbaşa Özü qoyur, Peyğəmbər *(s)* isə Uca Yaradanın inayətilə və mərhələ-mərhələ bu vəzifəni icra edirdi. Buna görə də Peyğəmbərin *(s)* bu üsulundan alınacaq əhəmiyyətli dərslər vardır və onları belə sıralamaq olar:

1) Peyğəmbər *(s)* müşrikləri əvvəlcə tək Allaha qulluğa çağırırdı. Cahiliyyə dövründə cəmiyyətin ən böyük azğınlığı birdən çox ilaha tapınmaq idi. Həzrət Muhəmməd *(s)* isə müşriklərə tək Allahdan başqa bütün bütlərdən xilas olmalarını buyururdu. Çünki, Allaha tam bir təslimiyyət olduqdan sonra Uca Yaradandan gələcək ilahi əmrləri qəbul etmək çətin olmazdı. Buna görə də Peyğəmbər *(s)* "La ilahə illəllah" mesajını önə çıxardı. Buradan çıxış edərək demək olar ki, bir dəvətçi dəvət edəcəyi cəmiyyətin ən əhəmiyyətli xəstəliyini təsbit edərək var gücünü o xəstəliyin sağalmasına verməlidir.

2) Peyğəmbərə *(s)* endirilən ayələr kafirlərin ən zəif nöqtələrini tuturdu. Həzrət Muhəmmədə *(s)* endirilən müqəddəs ayələr kafirlərin əl-qolunu bağlayır, inadçı olmayanların inanmaları üçün heç bir səbəb buraxmırdı. Məsələn, kainat hadisələrini nümunə verir və yonulmuş daşlara ibadət edənlərə buyururdu: *"Hər gün görüb dayandığınız bu qədər fövqəladə hadisələri yaradan Allaha boyun əyin"*. Bu, müsəlmanların hər bir dövrdə istifadə etmələri üçün lazım olan bir üsuldur.

3) Peyğəmbərin *(s)* gətirdiyi mesaj cəmiyyətdə qəbul edilən ən gözəl, ən cazibədar bir mesaj idi. Çünki, Qurani-Kərim şeirin rəvac etdiyi bu cəmiyyətə insan qabiliyyətini geridə buraxan bir şeir üslubuyla endirildi.

4) Peyğəmbərin *(s)* dəvəti əvvəlcə yaxınlardan, etibarlı insanlardan başlanaraq açıqlandı. İlk anda bütün bir cəmiyyətə təqdim edilmədi. Bu isə təbliğ ediləcək bir iddianın yayıla bilməsi üçün əvvəlcə özünə möhkəm bir zəminin, qabaqcıl işçilərin hazırlanmasının lazım olduğunu öyrədir. Həzrət Muhəmməd *(s)* Məkkədə fitrəti pozulmamış insanları digərlərindən ayrı tutaraq dəvətdə üstünlüyü onlara verdi. Deməli, dəvətçi tanıdığı və güvəndiyi insanların yanına getməli, uzun vədəli yola etibarsız, tanımadığı insanlarla çıxmamalıdır.

5) Müsəlmanlar zəif olduqları dövrlərdə kafirlərin bütün təzyiqlərinə səbir etdilər. Allah-Təala onlara bir müddət döyüş icazəsi vermədi. Yalnız Mədinədə möhkəm bir zəmin hazırlandıqdan sonra bu icazə verildi. Hərçənd

ki, müsəlmanlar Mədinədə azlıq içərisində olsalar da artıq bir cəbhədə toplana bilmişdilər. Məkkədə isə onlar darmadağın və gücsüz idilər, döyüş imkanları yox idi. Bir iddianın hazırlıq və təşkilatlanma mərhələsində düşmənlə hərəkəti qarşıdurmaya girməyib hər cür hazırlığı tamamlamağın lazım olduğu nəticəsinə məhz Peyğəmbərin *(s)* bu tətbiqi sayəsində gələ bilərik.

6) Peyğəmbər *(s)* gizli dəvət dövründə müqavimət göstərməyi bacaranları ətrafına yığdıqdan sonra açıq dəvət dövrünü başlatdı. Həzrət Muhəmməd *(s)* bu dövrdə qarşı tərəfin bütün təzyiq və işgəncələrinə baxmayaraq, inancından üz çevirmədi. Çünki, bu dövr açıq dəvət, gizli təşkilatlanma dövrü idi. Rəsulullah *(s)* gündüzlər kafirlərin qarşısına çıxıb *"Sizin tapındıqlarınız özlərinə belə, fayda verə bilməz. Gəlin bu səhv yoldan imtina edin"* - deyə onların səhvini üzlərinə vurur, gecələr isə Ərqəmin evində gizlicə toplanıb iş proqramını hazırlayır, dəvətin işçilərinə taktikalar verirdi. Bu tətbiq bizə, İslam dəvətinin əsas xüsusiyyətlərindən birini öyrədir - dəvət açıq, təşkilatlanma isə gizli edilməlidir, dəvət üçün də, təşkilatlanma üçün də kafirlərdən icazə alınmaz.

7) Müşriklər müzakirə mərkəzləri olan "Darün-Nədvə"də toplanar, qərar verərdilər. Onların Peyğəmbərə *(s)* etdikləri təkliflərin biri bu idi: "Bu iddiadan imtina et, səni rəhbər edək". Əlbəttə, Həzrət Muhəmməd *(s)* taktika xatirinə bunu edə bilər və gücü əlinə yığdıqdan sonra gətirdiyi dini onlara zorla mənimsədə bilərdi. Lakin İslam açıq bir din olduğu üçün Peyğəmbər *(s)* bu yola müraciət etmədi, işgəncələrə baxmayaraq, haqqı söylədi, iftira və qaragüruh mərkəzi olan "Darün-Nədvə"də bir yer tutmaq əvəzinə Ərqəmin evində öz islami məclisini yaratdı. Buradan da belə fikir hasil olur ki, İslam dəvətçiləri kafirlərin idarəsi daxilində hər hansı bir hərəkətə qatılmamalı, öz hərəkətlərinin proqramını özləri müəyyən etməlidirlər.

8) Müsəlmanların içərisindən güclü olanlar Məkkədə gücsüzlərlə tam həmrəy oldu, malını-mülkünü ortaya tökdülər. İslama inananlar qardaş oldular, dünya nemətləri, zənginliklər müəyyən əllərdə, kassalarda toplanmadı. Bir məqsəd vardı - Allahın dini azad olsun. Deməli, hər bir dövrdə müəyyən, lakin doğru, düzgün iddia ilə çıxış edənlər həmfikirləri ilə qardaş olduqlarını yaxından dərk etməli, varlılıqda və yoxsulluqda bərabər olmalı, hədəfə çatılana qədər dünya işlərindən imtina etməli idilər. İlkin müsəlmanlar da məhz belə etdilər.

9) Peyğəmbər *(s)* Məkkədə heç bir insana mövqeyinə görə üstünlük vermədi, kölələr və zənginləri, uşaqlar və qadınları o dövrə qədər görünməmiş şəkildə himayə etdi, yanına aldı. Həmçinin, Rəsulullah *(s)* İslamın güclənməsindən ötəri tanınmış adamların da müsəlman olması üçün məşğul oldu,

hətta bunun üçün dua belə, etdi. Peyğəmbərin *(s)* bu davranışından belə aydın olur ki, dəvətçi cəmiyyətin qabiliyyətli, üstsəviyyəli insanlarını öz iddiasına inandırmaq üçün onlara üstünlük verə bilər. Bu isə onun təkəbbürçülərə meyl etdiyi mənasını vermir.

10) Rəsulullaha *(s)* inananlarla ailələri arasında böyük qarşıdurmalar meydana gəldi, ailə telləri yerinə inanc telləri nəzərə alındı. Bu nümunəni mənimsəyən müsəlmanlar vaxt və yerindən asılı olmayaraq istənilən bir qohum-əqrəba qarşı-qarşıya gəldiyi zaman inanca görə hərəkət etməli, varlı ailənin uşağı olan Müsəb bin Ümeyr kimi lazım olduğunda, hətta ailəsini belə, tərk etməlidirlər. Həmçinin, müsəlmanların bir qisminin işgəncə mühitindən xilas olub daha yaxşı bir mühitdə olması üçün Həbəşistana hicrət etməsindən bu nəticə çıxarıla bilər - müsəlmanlar lazım olduqda qeyri-müsəlman olmasına baxmayaraq, insan haqları və hüquqlarına hörmət edilən bir ölkəyə hicrət edə bilərlər. Bu isə müsəlmanların həmin ölkəni dost seçmələri mənasını vermir.

11) Peyğəmbər *(s)* Taif səfərindən Məkkəyə dönəndə şəhərə müşrik Mütimin himayəsində girdi. Bu isə Rəsulullahın *(s)* müşriklərin əmrinə qatıldığı mənasında başa düşülə bilməz. Çünki, Həzrət Muhəmməd *(s)* dininə heç bir xətər vermədiyi halda Mütim o Həzrətə *(s)* bir insan kimi sahib çıxdı, Peyğəmbərdən *(s)* dini ilə əlaqədar əvəz istəmədi. Bu, yalnız qarşılıqsız edilən birköməkdir.[64]

Peyğəmbər *(s)* Mədinəyə hicrət etdiyi zaman burada Məkkədəki kimi bir dövlət yox idi. İki böyük ərəb qəbiləsi olan Övs və Xəzrəcdən basqa, burada bu qəbilələri bir-birinə qarsı savaşdıraraq varlıqlarını davam etdirən Bəni-Qaynuqa, Bəni-Nadir və Bəni-Qureyzə adlı üç yəhudi qəbiləsi də vardı. Ayrıca, bu yəhudi qəbilələri arasında da birlik yox idi. Bu anarxiya mühiti hər kəsi bezdirdiyi üçün bütün qəbilələr Abdullah bin Übeyyin Mədinədə rəhbər elan edilməsi qərarına gəlmişdilər. Hətta bunun üçün bir krallıq tacının düzəlməsi barədə sifariş belə, verilmişdi. Lakin hələ dövlət təşəkkül etməmişdi. Bu vəziyyət Peyğəmbərin *(s)* işini asanlaşdırdı. Rəsulullah *(s)* ilk iş olaraq yəhudilər və digər müşrik ərəblər də daxil olmaqla hər kəsi yığaraq hazırladığı Konstitusiya çərçivəsində bir dövlət qurulmasını həyata keçirdi. Əlli iki maddədən ibarət olan bu Konstitusiya hər kəsin haqq və məsuliyyətlərini ifadə edərkən, eyni zamanda idarənin müsəlmanların əlində olmasını da nəzərdə tuturdu.[65]

[64] Geniş məlumat üçün bax: http://www.islamiyet.gen.tr saytına.

[65] Bu Konstitusiyanın maddələri üçün bax: Məhəmməd Hamidullah, İslam Peyğəmbəri, İstanbul, 1981, c. I, səh. 221.

Mədinədə müsəlman əhalinin azlıqda olmasına baxmayaraq, qurulan dövlət İslam dövləti oldu və rəhbəri də Peyğəmbər *(s)* idi. Daha əvvəl Mədinədə bir dövlət qurulması isə Peyğəmbərin *(s)* İslam dövlətini qurmasını və müharibəyə girmədən, istədiyi kimi bu dövləti təşkilatlandırmasını asanlaşdırmışdı. Ancaq İslam dövlətinin qurulmasıyla rəhbərliyi əlindən gedən Abdullah bin Übeyy zahirən iman gətirmişdi. O, Mədinə İslam Dövlətini süquta uğratmaq üçün var gücüylə çalışırdı. Münafiqlərin lideri mövqeyində duran İbn Übeyy Mədinə dövrü boyunca müsəlmanları sıxıntıya salan nifaq hərəkətlərinin həyata keçməsində olduqca böyük rol oynamışdır.

Hər şeylərini tərk edərək Allah yolunda Məkkədən hicrət edən mühacirlərin Mədinədəki yaşayışlarını asanlaşdırmaq və onları ictimai həyata adaptasiya etmək üçün Peyğəmbər *(s)* hər bir mühaciri bir ənsarla qardaş elan etmiş və bu qardaşlıq bir-birinə mirasçı olmaq qədər irəli çıxarılmışdı. Bu hadisə tarixə "Muaxat" adıyla düşmüş və ənsarın Allah yolunda, din qardaşları üçün heç bir tərəddüd etmədən nə qədər böyük fədakarlıqda olduğunu bir daha ortaya qoymuşdur. Mədinədə Peyğəmbər *(s)* Həzrət Əlini *(ə)* özünə qardaş götürmüş, o Həzrət *(ə)* də öz tərbiyəsini bəşəriyyətin ilk müəllimi olan Həzrət Muhəmməddən *(s)* almışdır. Həzrət Əli *(ə)* həyatı boyu bir an belə, Peyğəmbərdən *(s)* ayrılmamış, hətta Həzrət Muhəmməd *(s)* dünya ilə vidalaşarkən o Həzrət *(ə)* son ana qədər Rəsulullahın *(s)* yanında olmuşdur. Həzrət Əli *(ə)* elm və hikməti Peyğəmbərdən *(s)* öyrənmiş, bu səbəbdən də Rəsulullahın *(s)* elm və hikmət şəhərinin qapısı və qardaşı olmasına ləyaqəti olmuşdur.

Əbu İsa ət-Tirmizi "Səhih" kitabında sənədi ilə İbn Ömərdən rəvayət edərək deyir: "Peyğəmbər *(s)* səhabələrini bir-birinə qardaş etdi. Bu zaman Əli *(ə)* gözləri dolmuş halda gələrək buyurdu: *"Ey Allahın Elçisi! Səhabələrini bir-birinə qardaş etdin. Amma məni bir kəslə qardaş etmədin"*. Peyğəmbər *(s)* buyurdu: *"Sən mənim həm dünyada, həm də Axirətdə qardaşımsan"*.[66] Hətta Peyğəmbər *(s)* Həzrət Əlini *(ə)* özündən hesab etmişdir. Necə ki, Buxari "Səhih" kitabında rəvayət edərək deyir: "Peyğəmbər *(s)* Əliyə *(ə)* buyurdu: *"Sən məndən, mən də səndənəm"*.[67]

Artıq Məkkədə yalnız bir camaat statusunda olan müsəlmanlar Mədinəyə hicrətlə dövlətlərini qurmuş, bu da İslamın təbliğ strategiyasında əhəmiyyətli dəyişikliklər etmişdir. Məkkə dövründə savaş fərdi hadisələrə etiraz edilməməklə yanaşı, ümumi mənada yasaqlanmışdır. Bu dövrün tələbi bunu zəruri etdiyi üçün Allah-Təala müşriklərə qarşı silahla cavab verilməsindən ötəri müsəlmanlara icazə verməmişdir.

---

[66] Səhihi-Tirmizi, c. II, səh. 299.

[67] Səhihi-Buxari. c. V, səh. 43, "Fəzailus-səhabə" kitabı.

"İkinci Əqəbə Beyəti"ndə İbn Abbasın - "Ya Rəsulullah *(s)*, icazə ver sənə əziyyət edən müşrikləri qılıncdan keçirək" deməsinə Peyğəmbər *(s)* belə cavab vermişdir: *"Hələ buna əmr olunmadıq, qardaşlarınızın yanına dönün"*.[68]

Hicrətlə birlikdə dövlətin qurulmasından dərhal sonra Allah-Təala möminlərə cihadı əmr etdi: ***"Zülmə məruz qaldıqlarına görə vuruşanlara*** (kafirlərə qarşı Allah yolunda döyüşməyə) ***izn verilmişdir. Allah onlara kömək etməyə, əlbəttə, qadirdir!"***[69]

Məkkəli müşriklər hicrətdən sonra vəziyyətin onların əleyhinə dəyişdiyini görüb mədinəlilərdən Peyğəmbəri *(s)* öldürmələrini, ən azından Mədinədən sürgün etmələrini istəyirdilər. Əks təqdirdə müşriklər Mədinəni işğal edəcəkləri ilə təhdid edirdilər. Buna görə də Peyğəmbər *(s)* Mədinədəki kiçik müsəlman cəmiyyətini təşkilatlandırmağa səy göstərir, sərhədləri dəqiqləşdirir, hələ ki, bir şəhər dövləti səviyyəsində olan bölgənin kənarında qalan və müsəlman olmayan qəbilələrlə ittifaq müqaviləsi bağlayaraq xaricdən gələ biləcək hər hansı bir təhlükəni qarşılayacaq əlverişli mühit hazırlamağa çalışırdı. Lakin burada əhəmiyyətli olan müsəlmanların planlarını müdafiə cəhdi deyil, islami təbliğin aktiv olaraq digər insanlara da yetişməsini sürətləndirmək idi. Bunun üçün hərbi gücün olması əsas şərt sayılırdı. Bu səbəbdən də hicrət yalnız məkkəli müsəlmanların Mədinəyə köçməsi ilə məhdudlaşmamış, harada olursa-olsun, iman edən hər kəsin Mədinəyə hicrəti vacib edilmişdir. Məkkənin fəthinə qədər etibarlı qalan bu hökm Məkkənin fəthindən sonra ortadan qaldırılmışdır.

Həzrət Əlinin *(ə)* Mədinə dövrü demək olar ki, o Həzrətin *(ə)* cihad etməsilə sıx bağlıdır. Məşhur İslam alimi İbn Əbil Hədid yazır: "Əli *(ə)* cihad edənlərin rəhbəridir. Məgər İslamda onsuz bir cihad olubmu? O, Peyğəmbərin *(s)* bütün qəzvələrində iştirak etmiş və müşrikləri möhkəmcə cəzalandırmışdır. Bədr döyüşündə öldürülən yetmiş müşrikin yarısı tək Əlinin *(ə)* payına düşür. Yerdə qalan yarısı isə mələklərin və digər müsəlmanların əli ilə öldürülmüşdür".[70] Əllamə Məclisi də "Biharül-ənvar" əsərində Peyğəmbərin *(s)* bütün düşmənlərindən yalnız Əlinin *(ə)* vasitəsilə intiqam alındığı fikrini irəli sürmüş və bunun üçün bir çox dəlillər ortaya qoymuşdur. Müəllif, həmçinin əsərində " **لينذر بأسا شديدا من لدنه** - ***"O,*** (Allah kafirləri) ***Öz dərgahından gələcək şiddətli bir əzabla qorxutmaq,***

[68] Əhməd bin Hənbəl, Müsnəd, c. III, səh. 462.
[69] "əl-Həcc", 39.
[70] Geniş məlumat üçün bax: İbrahim Quliyev, Hədisi-şəriflərdə müqəddəs şəhərlərin tarixi, Bakı, Nurlar, 2012, səh. 223-232.

***yaxşı əməllər edən möminlərə isə gözəl mükafata*** (Cənnətə) ***nail olacaqları ilə müjdə vermək üçün onu doğru-düzgün*** (Qiyamətə qədər bütün bəşəriyyətə haqq yolu göstərən bir nur) ***olaraq endirdi"*** ayəsindəki ***"şiddətli bir əzab"*** sözündən məqsədin İmam Əli *(ə)* olduğunu da qeyd etmişdir.[71]

## *1.4. HƏZRƏT ƏLİ (Ə) DÖYÜŞ MEYDANLARINDA*

Həzrət Əli *(ə)* Hicri doqquzuncu ildə baş vermiş Təbuk döyüşündən başqa bütün döyüşlərdə Peyğəmbərlə *(s)* birlikdə iştirak etmişdir. Döyüşlərdə göstərdiyi misilsiz rəşadət və şücaətə görə o Həzrətə *(ə)* "Zəyğəmül-ğəzavat" (savaşlar şiri) deyərdilər. Adıçəkilən səfərə çıxmamasının səbəbi isə Peyğəmbərimizin *(s)* Həzrət Əlini *(ə)* öz yerində Mədinədə xəlifə qoyması idi. Çünki, Peyğəmbər *(s)* münafiqlərin o Həzrətin *(s)* şəhərdə olmamasından sui-istifadə edərək dövlət çevrilişi etmələrini ehtimal edirdi. Həzrət Əli *(ə)* isə Peyğəmbərin *(s)* o Həzrəti *(ə)* döyüşə aparmadığını görüb bərk ağlamış və Rəsulullaha *(s)* belə səslənmişdir: *"Ya Rəsulullah, məni arvad-uşaqlamı qoyub gedirsən?!"* Peyğəmbər *(s)* də Həzrət Əlinin *(ə)* göz yaşlarını silmiş və aşağıdakı məşhur kəlamını buyurmuşdur: *"Razı deyilsən ki, Harunun Musaya olan nisbəti kimi mənə nisbət veriləsən? Lakin məndən sonra heç bir peyğəmbər olmayacaqdır"*.[72]

---

[71] Əllamə Məclisi, Biharül-ənvar, c. 36, səh. 21.

[72] Peyğəmbərin *(s)* *"Sən mənə nisbətdə Harunun Musaya olan nisbəti kimisən"* hədisində *"mənzilət"*in (məqamın) ümumiliyi var. Çünki, ürf də, lüğət də belə hallarda həmin məsələni deyir. Xüsusilə, "nübüvvət" məqamı istisna edildikdən sonra. Çünki, "nəss" onu ümuma aid edir. Amma hədisdə müxalifin "hədis müəyyən yerə aiddir" sözü iki cəhətdən inkar olunur: Birincisi, hədis öz-özlüyündə ümuma aiddir. Buna görə də onun işlənmə yeri (xüsusi olsa da belə) onu ümumiyyətdən çıxarmır. Çünki, "işlənmə yeri" sözün yalnız həmin yerə aid olmasına səbəb olmur. Belə ki, fiqh üsulu elmi mənbələrində bu, sübut olunmuşdur. Fərz edək ki, natəmiz (cünub) halında bir şəxs əlini "Ayətəl-Kürsi"yə vurarsa, sən ona "dəstəmazı və qüslü olmayan şəxs Quran ayələrinə əl vurmamalıdır" – desən, bu müəyyən bir məsələ deyildir. Əksinə, Quranın hər hansı bir yerinə əlini qoyarsa, haram iş görmüş olur, dəstəmazı və qüslü olmayan heç bir şəxs ona əl vurmamalıdır. Güman etmirəm, elə bir adam tapılsın ki, bunu yalnız "Ayətəl-Kürsi"yə aid etsin. Əgər xurma yeyən xəstəyə həkim şirin şey yeməyi qadağan etsə və desə ki, "yemə", bu, ərəb ürfü baxımından müəyyən bir məsələyəmi aiddir (yəni yalnız xurma yemə)?! Yoxsa bütün şirniyyat növlərinə? Allaha and olsun, mən güman etmirəm bir nəfər tapılsın ki, onu yalnız müəyyən bir şeyə aid etsin! Buna yalnız o şəxs razı olar ki, üsul məsələlərindən kənarda, lüğət qaydalarından xəbərsiz, ürfi anlayışa tamamilə biganə olsun. Habelə, "Mənzilət" hədisini işləndiyi yerə, yəni "Təbuk döyüşünə aid" edən şəxs bilməlidir ki, bu ikisinin arasında heç bir fərq yoxdur.
İkinci cəhət bundan ibarətdir ki, bu hədis Peyğəmbərin *(s)* mübarək dilindən yalnız Əlinin *(ə)* Təbuk döyüşündə olan xəlifəliyinə aid deyildir ki, müxaliflər bu hədisi Təbuk döyüşünə aid etsinlər. Peyğəmbərin *(s)* Əhli-Beytindən *(ə)* çatmış doğru xəbərlər sübut edir ki, bu şərəfli hədis başqa vaxtlarda da deyilmişdir. Tədqiqatçılar və elm əhli həmin məsələlərə müraciət etsinlər. Əhli-sünnə

Peyğəmbərin *(s)* müşriklər və İslam düşmənləri ilə apardığı savaşlarda Həzrət Əli *(ə)* bir çox ərəb qəhrəmanlarını öz qılıncı ilə dizi üstə çökdürmüşdür. Bu savaşlara misal olaraq Bədr, Ühüd, Bəni-Nəzir, Əhzab (Xəndək), Xeybər, Məkkənin fəthi, Hüneyn və Taif döyüşlərini göstərmək olar. Aşağıda bu döyüşlər barəsində qısa da olsa məlumat verməyə çalışacağıq.

### *1.4.1. Həzrət Əli (ə) Bədr döyüşündə*

Həzrət Əlinin *(ə)* ilk döyüşlərindən biri Bədr döyüşüdür. Bu döyüşün əsas səbəbi qüreyşlilərin müsəlmanları hicrətə məcbur etmələri və hicrətdən sonra müsəlmanların geridə qoyduqları mallarını ələ keçirmələri idi.[73] Qüreyşlilərə görə isə Bədr döyüşünün əsas səbəbi müsəlmanların onların karvanlarını ələ keçirmələri idi. Çünki, Məkkədəki hər ailənin Şamdan gələn karvanlarda bir hissə payı vardı.[74] Bu da qüreyşlilər arasında döyüş üçün səbəb meydana gətirməyə yetmişdi.

Hicrətdən sonra Mədinədə məskunlaşan və orada yaşayan müsəlmanlar geridə buraxdıqları mallarının müşriklər tərəfindən ələ keçirilməsinin əvəzini çıxmaq üçün Qüreyş karvanlarına hücumlar təşkil etdilər. Bu hücumların birində müsəlmanlar içində min dəvə və yarım milyon dirhəm dəyərində ticarət malı olan bir karvanı hədəf almaq istədilər. Peyğəmbər *(s)* bu səfər üçün ordunu yığdı və Bədrə gedərkən Rəvha qəsəbəsində bir quyu yanında namaz qıldı. Rəvha qəsəbəsində "Məscidi-Biri-Rəvha" adında bir məscid də inşa edilmişdi.[75] Toplanan 305 nəfər Peyğəmbərin *(s)* rəhbərliyi altında Bədr yaxınlarına gələrək karvanı gözləməyə başladı. Lakin karvana başçılıq edən Əbu Süfyan müsəlmanların karvanı gözlədiyini öyrəndi, buna görə də Məkkəyə xəbər göndərdi və karvanın yolunu dəyişdirdi. Xəbəri eşidən Məkkə müşrikləri Əbu Süfyanın təhlükənin sovuşduğunu çatdıran ikinci xəbərinə baxmayaraq, müsəlmanların üzərinə getməyə qərar verdilər, 950 nəfərlik şəxsi qüvvə ilə Bədrə doğru yola çıxdılar.

İki ordu qarşı-qarşıya gəldikdə, ərəb döyüşlərində ənənə halına gələn mübariz istəmək üçün tərəflərdən üç adam seçildi. Buna görə də İslam ordusundan Həmzə, Übeydə və Həzrət Əli *(ə)*, düşmən tərəfdən isə Ütbə, Übeydə bin Haris və Ütbə bin Rəbiyə qarşı-qarşıya gəldilər. Döyüş zamanı hər üç müsəlman qələbə çaldı. Əllamə Məclisi, Təbərsiyə istinadən yazır:

rəvayətçiləri də bu həqiqətin şahididir. Deməli, "hədis yalnız Təbuk döyüşünə aiddir" sözü sübutsuzdur. Bu, heç kəsə gizli deyildir (Bax: Şərafəddin Amili, "əl-Müraciət" kitabına).

[73] Hamidullah Muhəmməd, Hz. Peygamber'in Savaşları, Yeni Şafak, səh. 32.

[74] Suruç Salih, Peygamberimizin Hayatı, Nesil Yayınları, c. 2 səh. 15.

[75] Hicaz Albümü: Fotoğraflarla Kutsal Topraklar, Diyanet İşleri Başkanlığı, 2010.

**قال الطبرسي: قيل: نزلت في ستة نفر من المؤمنين والكفار تبارزوا يوم بدر، وهم: حمزة بن عبدالمطلب قتل عتبة بن ربيعة، وعلي بن أبي طالب قتل الوليد بن عتبة، وعبيدة بن الحارث بن عبدالمطلب قتل شيبة بن ربيعة، عن أبي ذر الغفاري و عطاء، وكان أبوذر يقسم بالله تعالى أنها نزلت فيهم، ورواه البخاري في الصحيح.**

"Görkəmli İslam alimi Təbərisiyə görə, Həzrət Əli *(ə)* Bədr döyüşündə Vəlid bin Ütbəni, Şeybəni, As bin Səid bin Ası, Hənzələ bin Əbu Süfyanı, Təimə bin Ədini, Nofəl bin Xuveylidi və digərlərini öldürmüşdür".[76] Yalnız Əbu Cəhl öldürüldükdən sonra məkkəlilər dağılışdılar.[77]

Sonradan düşmən tərəfindən kim meydana çıxdısa, Həzrət Əlinin *(ə)* qılıncını ağuşuna aldı. Beləliklə, Həzrət Əlinin *(ə)* qəhrəmanlıqları sayəsində Bədr döyüşü müsəlmanların qələbəsi ilə başa çatdı. Düşmənin yetmişdən çox döyüşçüsü qətlə yetirildi, yetmişdən çoxu isə əsir alındı. Abbas bin Əbdül-Müttəlib və Əqil bin Əbu Talib də əsirlər arasında idilər. Onlar fidyə verməklə azad oldular və İslamı qəbul etdilər. Tarixçilərin yazdığına görə, düşmənlərin yarıdan çoxu Həzrət Əlinin *(ə)* qılıncı ilə dünyasını dəyişmişdi. O Həzrətin *(ə)* qətlə yetirdiyi düşmənlər arasında As bin Səid, Hənzələ bin Əbu Süfyan, Umeyr bin Osman kimi Qüreyş başçıları da vardı.

Nəhayət, müharibə müsəlmanların xeyri və müşriklərin məğlubiyyəti ilə başa çatdı. Müsəlmanlar Mədinəyə qələbə ilə döndülər. Həzrət Əlinin *(ə)* adı misilsiz bir şücaətə malik şəxs kimi dildən-dilə gəzdi. O Həzrətlə *(ə)* düşmənçilik etmək, hətta düşüncələrdən belə, keçmirdi.

Xatırladaq ki, Bədr döyüşü iki dəfə olmuşdur. Bu döyüşlər tarixə "Kiçik Bədr döyüşü" və "Böyük Bədr döyüşü" adıyla düşmüşdür.

Birinci Bədr döyüşü haqqında yazırlar ki, Quruz bin Cabir müşrikləri ətrafına toplayaraq Mədinə yaxınlığına qədər gəlib kəndlərdən birinə hücum edərək mal-qaranı yığıb apardı. Bundan xəbər tutan Peyğəmbər *(s)* Zeyd bin Harisi Mədinədə qoyub mühacirlərin bir hissəsiylə yola çıxdı. Bu qəzvədə İslam bayrağını Həzrət Əli *(ə)* tutmuşdu. Müsəlmanların Səfvan adlı məntəqəyə çatdığını eşidən Quruz bin Cabir götürdüyü qənimətləri buraxaraq qaçdı. Səfvan Bədr quyuları yaxınlığında yerləşdiyi üçün bu qəzvəyə İslam tarixində "Birinci Bədr qəzvəsi" deyilir.[78]

Bədr döyüşü ilə bağlı Quranda keçən mübarək ayələr aşağıdakılardır:

**"**(Ya Rəsulum!) ***Həqiqətən, siz Bədrdə*** (düşmənə nisbətən az və) ***zəif olduğunuz halda, Allah sizə yardım etdi.*** (Allaha) ***şükür edən olmaq üçün Allahdan qorxun!"***;

---

[76] Əllamə Məclisi, Biharül-ənvar, c. 36, s. 22.
[77] Suruç Salih, Peygamberimizin Hayatı, Nesil Yayınları., c. 2 səh. 35.
[78] Geniş məlumat üçün bax: Şahlar Şərifov, İslam Tarixi, Bakı, Nurlar, 2013.

***"O zaman sən möminlərə deyirdin: "Rəbbinizin üç min mələk endirərək imdadınıza yetişməsi sizə kifayət etməzmi?".***[79]

***"Ey iman gətirənlər! Ehtiyatı əldən verməyib silahınızı götürün və*** (düşmənə qarşı cihada) ***ya dəstə-dəstə, ya da hamınız bir yerdə çıxın!".***[80]

***"Əgər siz*** (Ühüd müharibəsində) ***yara aldınızsa, o biri*** (kafir) ***dəstə də*** (Bədr müharibəsində) ***o cür yara aldı. Biz bu günləri*** (bu hadisələri) ***insanlar arasında növbə ilə dəyişdiririk ki, Allah iman gətirən şəxsləri*** (başqalarından) ***ayırd etsin və içərinizdən şəhidlər*** (şahidlər) ***seçsin. Allah zülmkarları sevməz!".***[81]

***"Allah bu köməyi sizə yalnız sizin üçün bir müjdə və ürəkləriniz sakit olsun deyə etmişdi. Qələbə yalnız Allahdandır. Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!"***;

***"O vaxt*** (Bədr vuruşunda) ***Öz tərəfindən*** (köməyindən) ***arxayınlıq əlaməti olaraq, Allah sizi xəfif bir uyğuya daldırmış, sizi*** (çirkdən-pasdan) ***təmizləmək*** (və ya dəstəmaz almaq)***, Şeytanın vəsvəsəsini sizdən çıxartmaq, ürəklərinizi*** (qələbəyə inamla) ***doldurmaq və*** (quma batmasın deyə) ***ayaqlarınızın altını möhkəm etmək üçün göydən üstünüzə yağış yağdırmışdı"***;

"(Ya Peyğəmbərim!) ***Xatırla ki, o zaman Rəbbin mələklərə belə vəhy edirdi: "Mən də sizinləyəm. Möminlərə qüvvət*** (mətanət) ***verin. Mən kafirlərin ürəklərinə qorxu salacağam. Onların boyunlarını vurun, bütün barmaqlarını*** (əl-ayaqlarını) ***doğrayın!"***;

***"Bu onların Allaha və Onun Peyğəmbərinə qarşı çıxmalarına görədir. Kim Allaha və Onun Peyğəmbərinə qarşı çıxsa,*** (bilsin ki,) ***Allah*** (ona) ***şiddətli əzab verər"***;

***"Hələ ki, bunu*** (dünyadakı bu əzabı) ***dadın. Kafirləri, üstəlik Cəhənnəm əzabı da gozləyir"***;

***"Ey iman gətirənlər! Kafirlərlə bir yerə toplaşdıqları vaxt rastlaşsanız, dönüb onlardan qaçmayın!"***;

"(Düşməni aldatmaq məqsədilə yalandan özünüzü qaçan kimi göstərib) ***təkrar döyüş üçün bir tərəfə çəkilən və ya*** (kömək məqsədilə müsəlmanlardan ibarət) ***başqa bir dəstəyə qoşulan istisna edilməklə, kim belə bir gündə düşmənə arxa çevirib qaçarsa, sözsüz ki, Allahın qəzəbinə uğramış olar. Onun məskəni Cəhənnəmdir. Ora nə pis dönüş yeridir"***;

"(Ey möminlər Bədrdə) ***onları*** (kafirləri) ***siz öldürmədiniz, Allah öldürdü.*** (Ya Peyğəmbərim! Düşmənlərin gözünə bir ovuc torpaq) ***atdığın***

[79] "Ali-İmran", 123-124.
[80] "ən-Nisa", 71
[81] "Ali-İmran",140

***zaman sən atmadın, Allah atdı. Allah bununla möminləri*** (qənimət əldə etmək və zəfər çalmaq üçün) ***yaxşı bir imtahandan keçirtdi. Allah*** (hər şeyi) ***eşidəndir, biləndir!”***;

***“Bu*** (hadisələr) ***bir həqiqətdir. Allah, sözsüz ki, kafirlərin hiyləsini zəifləndəndir!”***;

**“**(Ey müşriklər!) ***Əgər siz*** (Kəbənin örtüklərinə yapışıb dua edərək) ***qələbə istəyirsinizsə, artıq sizə zəfər*** (möminlərin qələbəsilə Allahın əleyhinizə olan hökmü) ***gəldi. Əgər*** (küfrdən və Peyğəmbərə qarşı müharibə aparmaqdan) ***əl çəksəniz, bu sizin xeyrinizə olar. Yox, əgər təkrar*** (müharibəyə) ***qayıtsanız, Biz də qayıdarıq. Dəstəniz nə qədər çox olsa da, sizdən heç bir şeyi*** (Allahın bəlasını, əzabını) ***dəf edə bilməz. Allah, həqiqətən, möminlərlədir!”***[82]

### *1.4.2. Həzrət Əli (ə) Təbuk döyüşündə*

Mənbələrin yazdığına görə, Peyğəmbərə *(s)* xəbər çatdı ki, Rum imperiyası Bəlqa adlı yerdə böyük qoşun toplayaraq müsəlmanlara hücum etmək istəyir. İsti yay havası və meyvələrin təzə yetişən dövrü olduğundan əhali evdə əyləşib istirahət etmək istəyirdi. Xəzinədə (beytül-mal) də bir şey gözə çarpmırdı. Peyğəmbər *(s)* adəti üzrə heç vaxt yürüş edəndə məqsədin nədən ibarət olduğunu qabaqcadan deməzdi. Lakin Rəsulullah *(s)* Təbuk döyüşündə qarşıya çıxan çətinliklərə görə elan etdi ki, rumlular üzərinə döyüşə gediləcək. Bu zaman əhali içərisindən bir dəstəsi dedi: “İndi istidir, bu isti fəsildə getməyin!” Həmin dəstə Quranın bu ayəsilə tənbeh edildi: **“**(Təbuk döyüşündə iştirak etməyib) ***arxada qalanlar*** (münafiqlər) ***Allahın Rəsuluna qarşı çıxaraq*** (evdə) ***oturub qalmalarına sevindilər, Allah yolunda malları və canları ilə cihad etmək istəmədilər və*** (möminlərə)***! “Bu istidə döyüşə çıxmayın!” - dedilər.*** (Ya Peyğəmbərim!) ***De: “Cəhənnəm odu daha istidir!” Kaş biləydilər!”***[83]

Təbuk döyüşündə iştirak etməyənlər bir neçə qrupa bölünürlər. Onlar aşağıdakılardan ibarətdirlər:

**1. Şəhvətpərəstlər**

Peyğəmbər *(s)* münafiqlərdən olan Cədd bin Qeysi döyüşə çağırdıqda o, qadınpərəst olduğunu bəhanə gətirərək ordudan yayındı. Bu zaman Qurani-Kərimin “Tövbə” surəsinin 49-cu ayəsi nazil oldu. Ayədə buyurulur: ***“Onlardan*** (münafiqlərdən) ***“Mənə*** (döyüşə getməməyə) ***izn ver, məni fit-***

[82] “əl-Ənfal”, 10-19.
[83] “ət-Tövbə”, 81.

***nəyə salma!" – deyənlər də var. Bilin ki, onlar*** (özləri) ***fitnəyə düşmüşlər. Şübhəsiz ki, Cəhənnəm kafirləri bürüyəcəkdir!"***

**2. Münafiqlər**

Bəzi münafiqlər də özləri döyüşə getməməklə yanaşı, digərlərini də döyüşə getməkdən yayındırmağa çalışırdılar. Onlar havanın isti olmasını bəhanə gətirərək ordudan yayınırdılar. Münafiqlərin bu bəhanəsinə cavab olaraq Qurani-Kərimin "Tövbə" surəsinin 81-ci ayəsi nazil oldu: **"**(Təbuk döyüşündə iştirak etməyib) ***arxada qalanlar*** (münafiqlər) ***Allahın Rəsuluna qarşı çıxaraq*** (evdə) ***oturub qalmalarına sevindilər, Allah yolunda malları və canları ilə cihad etmək istəmədilər və*** (möminlərə)***! "Bu istidə döyüşə çıxmayın!" - dedilər.*** (Ya Peyğəmbərim!) ***De: "Cəhənnəm odu daha istidir!" Kaş biləydilər!"***

Bəzi münafiqlər də bizanslıların həddən artıq güclü olduğunu deyərək müsəlmanları döyüşə getməkdən çəkindirirdilər.[84]

**3. Ağlayanlar**

Bəzi səhabələr də var idi ki, onlar həqiqətən döyüşdə iştirak etmək istəsələr də heç bir vəsaitləri olmadığı üçün döyüşə gedə bilmirdilər. Bu şəxslərə İslam tarixində "ağlayanlar" deyilir və onların haqqında Qurani-Kərimin "Tövbə" surəsinin 92-ci ayəsində belə buyurulur: **"**(Döyüşə getməyə minikdən ötrü) ***yanına gəldikdə: "Sizin minməyiniz üçün bir heyvan tapmıram" – deyərkən*** (cihad yolunda) ***sərf etməyə bir şey tapa bilmədikləri üçün kədərdən gözlərindən yaş axa-axa geri dönənlərdə də heç bir günah yoxdur!"***

**4. Məhsul yığanlar**

Səmimi-qəlbdən İslamı qəbul edən Kəb, Hilal və Mürarə kimi bəzi səhabələr də məhsullarını toplamadıqları üçün belə qərara gəlirlər ki, məhsulu toplayıb qurtardıqdan sonra Mədinədən çıxıb orduya qoşulsunlar. Qurani-Kərimin "Tövbə" surəsinin 118-ci ayəsində onların barəsində belə buyurulur: ***"Həmçinin*** (Təbuk döyüşündən) ***geri qalmış üç nəfərin də*** (tövbələrini qəbul etdi)***. Belə ki, dünya onlara dar olmuş, ürəkləri*** (qəm-qüssədən) ***təngə gəlib sıxılmışdı. Onlar Allahdan*** (Allahın əzabından) ***yalnız Onun Özünə sığınmağın mümkün olduğunu başa düşdülər. Allah onlara*** (əvvəlki hallarına) ***qayıtmaq üçün tövbə nəsib etdi və tövbələrini qəbul buyurdu. Şübhəsiz ki, Allah tövbələri qəbul edəndir, rəhmlidir!"***

Döyüşdən qayıtdıqdan sonra Peyğəmbər *(s)* və müsəlmanlar bir müddət onlarla danışmırlar.

---

[84] Məğazeyi Vaqidi, 3-cü cild, səh. 1003.

**5. Fədakar möminlər**

Bəzi möminlər özləri döyüşə gedə bilməsələr də onlar ordunun toplanmasında yaxından iştirak etmişlər.[85]

Bu qəzvədə İslam qoşunun 30000 nəfərdən ibarət olduğu qeyd edilmişdir. Müsəlmanlar Təbuk döyüşünə qədər apardıqları müharibələrdə bundan yüksək sayda qoşuna malik olmamışdılar. Bu yürüşdə Peyğəmbər *(s)* Həzrət Əlini *(ə)* öz yerinə canişin təyin etmiş ki, o Həzrətin *(s)* işlərini yerinə yetirsin. Bunu nəzərdən qaçırmayan münafiqlər də demişlər ki, Peyğəmbər *(s)* Əlini *(ə)* özü ilə aparmaq istəmir. Həzrət Əli *(ə)* bu xəbəri eşidəndə Peyğəmbərə *(s)* şikayət etmiş, Peyğəmbər *(s)* isə belə buyurmuşdur: *“Mən səni öz yerimə xəlifə təyin etdim. Səninlə mənim aramda olan münasibət Harunla Musa arasında olan münasibət kimidir. Sadəcə olaraq məndən sonra peyğəmbər gəlməyəcək”.*

İslam qoşunu susuzluqdan əziyyət çəksə də Təbuka çatdı, lakin rumluların döyüşə hazırlaşmaları xəbəri yalan çıxdı.

Təbuk müharibəsi Peyğəmbər *(s)* hələ sağ ikən müsəlmanlarla qeyri-müsəlmanlar arasında baş vermiş sonuncu döyüş idi, ardınca bütöv Ərəbistan İslama təslim oldu. Hər qəbilədən nümayəndələr gəlib onların İslam dinini qəbul etmələri barədə istəklərini Peyğəmbərə *(s)* çatdırdılar. Təxminən, bütün qəbilələr müsəlman olmuşdular. Ona görə də həmin il İslam tarixində “Sənətul-vufud”, yəni həmrəylik, birlik ili adlanmışdır.[86]

Peyğəmbərimiz *(s)* Təbuk döyüşündə aşağıdakı xütbəni oxumuşdur:

**أَيّهَا النّاسُ، أَمّا بَعْدُ، فَإِنّ أَصْدَقَ الْحَدِيثِ كِتَابُ اللّهِ، وَأَوْثَقَ الْعُرَى كَلِمَةُ التّقْوَى، وَخَيْرَ الْمِلَلِ مِلّةُ إِبْرَاهِيمَ عَلَيْهِ السّلَامُ، وَخَيْرَ السّنَنِ سُنَنُ مُحَمّدٍ، وَأَشْرَفَ الْحَدِيثِ ذِكْرُ اللّهِ، وَأَحْسَنَ الْقَصَصِ هَذَا الْقُرْآنُ، وَخَيْرَ الْأُمُورِ عَوَاقِبُهَا، وَشَرّ الْأُمُورِ مُحْدَثَاتُهَا، وَأَحْسَنَ الْهُدَى هُدَى الْأَنْبِيَاءِ، وَأَشْرَفَ الْقَتْلِ قَتْلُ الشّهَدَاءِ، وَأَعْمَى الضّلَالَةِ الضّلَالَةُ بَعْدَ الْهُدَى، وَخَيْرَ الْأَعْمَالِ مَا نَفَعَ، وَخَيْرَ الْهُدَى مَا اُتّبِعَ، وَشَرّ الْعَمَى عَمَى الْقَلْبِ، وَالْيَدَ الْعُلْيَا خَيْرٌ مِنْ السّفْلَى، وَمَا قَلّ وَكَفَى خَيْرٌ مِمّا كَثُرَ وَأَلْهَى، وَشَرّ الْأُمُورِ الْمَعْذِرَةُ حِينَ يَحْضُرَ الْمَوْتُ، وَشَرّ النّدَامَةِ يَوْمُ الْقِيَامَةِ. وَمِنْ النّاسِ مَنْ لَا يَأْتِي الْجُمُعَةَ إلّا نَذْرًا، وَمِنْهُمْ مَنْ لَا يَذْكُرُ اللّهَ إلّا هُجْرًا، وَمِنْ أَعْظَمِ الْخَطَايَا اللّسَانُ الْكَذُوبُ، وَخَيْرَ الْغِنَى غِنَى النّفْسِ، وَخَيْرَ الزّادِ التّقْوَى، وَرَأْسَ الْحُكْمِ مَخَافَةُ اللّهِ، وَخَيْرَ مَا أُلْقِيَ فِي الْقَلْبِ الْيَقِينُ وَالِارْتِيَابَ مِنْ الْكُفْرِ. وَالنّيَاحَةَ مِنْ عَمَلِ الْجَاهِلِيّةِ، وَالْغُلُولَ مِنْ جَمْرِ جَهَنّمَ، وَالسّكْرَ كَنّ مِنْ النّارِ، وَالشّعْرَ مِنْ إبْلِيسَ، وَالْخَمْرَ جِمَاعُ الْإِثْمِ، وَالنّسَاءَ حِبَالَةُ الشّيْطَانِ، وَالشّبَابَ شُعْبَةٌ مِنْ الْجُنُونِ، وَشَرّ الْمَكَاسِبِ كَسْبُ الرّبَا، وَشَرّ الْمَأْكَلِ مَالُ الْيَتِيمِ. وَالسّعِيدَ مَنْ وُعِظَ بِغَيْرِهِ، وَالشّقِيّ مَنْ شَقِيَ فِي بَطْنِ أُمّهِ، وَإِنّمَا يَصِيرُ أَحَدُكُمْ إلَى مَوْضِعِ أَرْبَعَةِ أَذْرُعٍ وَالْأَمْرَ إلَى آخِرِهِ، وَمِلَاكَ الْعَمَلِ خَوَاتِمُهُ، وَالرّبَا رِبَا الْكَذِبِ. وَكُلّ مَا**

[85] Geniş məlumat üçün bax, Şahlar Şərifov, İslam Tarixi, Bakı, Nurlar nəşriyyatı, səh. 49-50.

[86] İslam Tarixi və təhlillər, Təbuq qəzvəsi bölümü.

**هُوَ آتٍ قَرِيبٌ، وَسِبَابَ الْمُؤْمِنِ فُسُوقٌ، وَقَتْلَ الْمُؤْمِنِ كُفْرٌ، وَأَكْلَ لَحْمِهِ مِنْ مَعْصِيَةِ اللّٰهِ، وَحُرْمَةَ مَالِهِ كَحُرْمَةِ دَمِهِ. وَمَنْ يَتَأَلّ عَلَى اللّٰهِ يُكَذّبْهُ، وَمَنْ يَعْفُ يَعْفُ اللّٰهُ عَنْهُ، وَمَنْ يكظم الغيظ أْجُرْهُ اللّٰهُ، وَمَنْ يَصْبِرْ عَلَى الرّذيّةِ يُعَوّضْهُ اللّٰهُ، وَمَنْ يَتّبِعْ السّمْعَةَ يُسَمّعْ اللّٰهُ بِهِ، وَمَنْ يَصْبِرْ يُضَاعِفْ اللّٰهُ لَهُ، وَمَنْ يَعْصِ اللّٰهَ يُعَذّبْهُ اللّٰهُ. اللّٰهُمّ اغْفِرْ لِي وَلأُمّتِي، اللّٰهُمّ اغْفِرْ لِي وَلِأُمّتِي، أَسْتَغْفِرُ اللّٰهَ لِي وَلَكُمْ.**

Peyğəmbərin *(s)* on dörd illik dəvəti dövründə o Həzrətin *(s)* məntiqi və əsaslı moizələri azğın və bütpərəst ərəb qəbilələrinə təsir etmədiyindən Allah-Təala tərəfindən cihad hökmü gəldi. Rəsulullahın *(s)* hicrətin ikinci ilindən doqquzuncu ilinədək olan həyatı dövründə kafirlər, müşriklər və Ərəbistan yəhudiləri ilə səksəndən çox döyüş, qital oldu. Bu döyüşlərdən bəzilərində Peyğəmbər *(s)* şəxsən özü iştirak edir və o Həzrətin *(s)* iştirak etdiyi belə döyüşlər "ğəzavat" adlanırdı.

Səd bin Əbu Vəqqas belə nəql edir: "Rəsulullah *(s)* Təbuk səfərinə çıxanda Əlini *(ə)* geridə (Mədinədə) qoymuşdu. Əli *(ə)* Peyğəmbərə *(s)* buyurdu: *"Ey Allahın Elçisi, siz məni uşaqların və qadınların arasındamı qoyursunuz?!"* Peyğəmbər *(s)* isə cavabında belə buyurdu: *"Sən Harunun Musa yanında aldığı yeri, mənim yanımda almaqdan razı deyilsənmi? Bu fərqlə ki, məndən sonra peyğəmbər yoxdur!"*[87]

### *1.4.3. Həzrət Əli (ə) Ühüd döyüşündə*

Ühüd Mədinənin təqribən 6 kilometrliyində yerləşən böyük və məşhur dağdır. Adının həmin dağla bağlı olduğu Ühüd döyüşü Miladi tarixlə 625-ci ilin mart ayının 23-də (Hicri 3-cü il, Şəvval ayının 3-ü) Mədinədəki müsəlmanlarla məkkəli Əbu Süfyanın ordusu arasında baş vermişdir. Bu yer hazırda Ərəbistanın şimal-qərbində yerləşir.

Qüreyşin hörmət və izzətinin aradan getməsi ilə nəticələnmiş Bədrin məğlubiyyəti yeni bir döyüş üçün şərait yaratmışdı. Çünki, Bədrdə qətlə yetirilənlərin ailələri, İkrəmə bin Əbu Cəhl, Səfvan bin Üməyyə kimiləri hələ də Məkkədə əzadarlıq içində idilər. İntiqam hissi ilə alışıb-yanan bu fasiq adamlar Məkkə camaatını müsəlmanlarla döyüşə təhrik edirdilər. Qüreyş kafirlərinə başçılıq edən Əbu Süfyan bin Hərb xalqı ətrafına toplayıb onları müharibəyə səsləyirdi. O, hətta öz var-dövlətini bu müharibəyə sərf etmək üçün hazırlıq apardığını da bildirirdi.

Ütbənin qızı və Əbu Süfyanın arvadı olan Hind bir qrup başqa qadınlarla yanaşı, xalqı da Bədrdə öldürənlərin qanını almağa çağırırdı. Bu yolla Əbu Süfyan beş min süvari toplayıb onları silahlandırdı və Mədinəyə doğru

[87] Buxari, Məğazi 78, Fəzailul Əhzab 9; Müslüm, Fəzailul Əhzab 31 (2404); Tirmizi, Mənaqib (3731).

üz tutdu. Məsələdən xəbər tutan Peyğəmbər *(s)* dərhal səhabələrini toplayıb əhvalatı onlara danışdı. Rəsulullah *(s)* bildirdi ki, şəhərdə qalıb müdafiə olunmaq lazımdır. Lakin bəziləri düşmənlə şəhərdən kənarda savaşmaq, hətta onlara hücum etmək əzmində olduqlarını söylədilər. Nəhayət, müsəlmanlar döyüşə hazır oldular. Peyğəmbər *(s)* şəxsən özü döyüş libası geyindi, yeddi yüzə yaxın döyüşçü ilə birlikdə savaşa hazır oldu və Həzrət Əlini *(ə)* bayraqdar təyin etdi.

Rəsulullah *(s)* Ühüdə çatdıqda qəfil və arxadan hücumların qarşısını almaq üçün əlliyə yaxın döyüşçünü Abdullah bin Cübeyrin başçılığı altında münasib bir mövqedə gizlətdi. Peyğəmbərin *(s)* bunu öncədən görməsi çox düzgün və müdrik bir qərar idi. Çünki, Əbu Süfyan da Xalid bin Vəlidi, Abdullah bin Cübeyrin dəstəsindən dörd qat artıq qüvvə ilə pusquda qoymuşdu. Müşriklərin pusquda duran dəstəsi qoşunlar vuruşmağa başladığı vaxt arxadan müsəlmanlara hücum etməli idi.

Döyüş başladı və Qüreyş döyüşçülərinin çoxu Həzrət Əlinin *(ə)* qılıncı ilə Cəhənnəmə vasil oldu. Əbu Süfyanın bayraqdarı Təlhə bin Əbu Təlhə olduqca güclü bir adam idi və ona Nəbşul-Kəsibə (döyüşçülərin qoçu) deyirdilər. Bu şəxs Həzrət Əli *(ə)* ilə qarşı-qarşıya çıxdı, o Həzrət *(ə)* Təlhə bin Əbu Təlhənin başından elə bir zərbə vurdu ki, məlunun gözləri hədəqəsindən çıxdı və nərə çəkib həlak oldu. Sonra müşriklərin bayrağını Təlhənin qardaşı götürdü. O, da öldürüldü.

Peyğəmbərin *(s)* əmisi Həmzə də böyük rəşadətlə vuruşur, düşmən sıralarını pərən-pərən salırdı. Qüreyş döyüşçülərinin ardıcıl qətlə yetirilməsi artıq düşmən qoşununda çaxnaşma saldı. Müsəlmanlar düşməndən çox az olmalarına baxmayaraq, onlara əzmlə qalib gəldilər və bu üzdən müşriklər qaçmağa üz tutdular.

Bu arada müsəlmanlardan bir qrupu düşməni izləyir, digər bir qrupu isə meydandan qənimət toplayırdı. Peyğəmbər *(s)* iki ordunun qarşılaşdığı Ühüd dağındakı dar bir keçidin hər iki tərəfinə öz oxçularını yerləşdirmişdi. Məkkəlilər Ühüd dağının ətrafında gəzişərək müsəlmanlara hücum etməyin əlverişli şəraitini öyrənmək istəyirdilər. Onların planını başa düşən Peyğəmbər *(s)* oxçularına *"xəbər verilmədən yerinizi tərk etməyin"* əmrini vermişdi. İki tərəfin qüvvələri Ühüd dağının ətəklərində qarşılaşdı. Müsəlmanların təsirli hücumları ilə Məkkə ordusu geri çəkilməyə başladı. Bunu görən oxçular müharibənin qazanıldığını sanaraq yerlərini tərk etdi və məkkəlilərin buraxdıqları qənimətləri yığmağa başladılar. Bundan faydalanan Xalid bin Vəlidin rəhbərliyi altında olan qüvvələr oxçuların tərk etdiyi keçiddən müsəlmanlara qarşı hücum etdi və orada qalan bir neçə nəfəri də qətlə yetirdilər.

Daha sonra düşmənlər müsəlmanlara arxadan hücum etdilər, qaçmaqda olan qüreyşlilər isə Xalidin sədasını eşidib yenidən döyüş meydanına geri döndülər. Beləliklə, müsəlmanlar hər iki tərəfdən hücuma məruz qaldılar, eyni zamanda sayca az olduqlarından və araya da təfriqə düşdüyündən əldə olunmuş qələbəni qoruyub saxlaya bilmədilər. Bir sözlə, müsəlmanlar qaçmağa üz tutdular. Döyüşdə Peyğəmbərin *(s)* əmisi Həzrət Həmzə qəhrəmancasına şəhid oldu. Əbu Süfyanın arvadı, Müaviyənin anası Hindin göstərişi ilə Həmzənin ciyərini çıxardılar. Məlun Hində Həzrət Həmzəyə olan nifrəti səbəbindən onun ciyərini dişlərinə salıb vəhşicəsinə gəmirməyə başladı və o gündən etibarən ona “ciyəryeyən” adı verildi. Bu döyüşdə Peyğəmbər *(s)* özü başından yaralandı və mübarək dişi sındı.

Qeyd etmək lazımdır ki, Ühüd döyüşündə Həzrət Əli *(ə)* və başqa iki nəfərdən başqa Rəsulullahı *(s)* qoruyan yox idi. Belə ki, o Həzrət *(ə)* müşriklərin Peyğəmbərə *(s)* olan hücumlarının qarşısını şir kimi alır, onları pərənpərən salırdı. Pərvanə şəmin başına dolandığı kimi, Həzrət Əli *(ə)* də Rəsulullahın *(s)* ətrafında dövrə vururdu.

Həzrət Əlinin *(ə)* Ühüd döyüşündəki fədakarlığı o Həzrətin *(ə)* mübarək və şərəfli ömür tarixində parlaq bir səhifədir. Bu səhifənin qızılı sətirlərindən Cəbrailın *(ə)* o Həzrət *(ə)* haqqındakı nidaları ucalır: *“Zülfüqardan başqa qılınc, Əlidən başqa gənc yoxdur”*.

Şeyx Müfid İkrimədən, İkrimə isə Həzrət Əlidən *(ə)* belə nəql edir ki, o Həzrət *(ə)* buyurmuşdur: *“Ühüd savaşında Peyğəmbərin ətrafındakı adamlar qaçdılar. Özümdə həmin vaxtadək hiss etmədiyim bir hal gördüm. Onun qarşısında dayanıb qılınc çalırdım. Bir dəfə geri çevriləndə onu görmədim. Öz-özümə dedim ki, Peyğəmbər qaçmaz. Onu öldürülənlər arasında da tapmadım. Mənə elə gəldi ki, o, bizim aramızdan səmaya qalxıb. Qılıncımın qınını sındırıb özümə dedim ki, Peyğəmbərin müdafiəsi üçün bu qılıncla öldürülənədək vuruşacağam. Düşmənə hücum etdim, onlar mənim qılıncımın qarşısından qaçdılar. Qarşımda açılan yolda Peyğəmbərin huşsuz halda yerə yıxıldığını gördüm. Başının üstündə dayandım. Mübarək gözlərini açdı, mənə tərəf baxıb buyurdu: “Ya Əli, camaat nə etdi?!” Ərz etdim ki, ya Rəsulullah, onlar kafir oldular və düşmənə arxa çevirib səni tənha buraxdılar! Peyğəmbər düşmən qoşunundan bir dəstənin ona doğru gəldiyini gördü və mənə buyurdu: “Ya Əli, onları məndən uzaqlaşdır!” Mən həmin dəstəyə hücum edib sağa-sola qılınc çaldım. Onlar qaçmağa üz tutdular. Peyğəmbər buyurdu: “Ya Əli, səmadan öz tərifini eşidirsənmi?! Rizvan adlı mələk nida edir: “La səyfə illa Zulfuqar və la fəta illa Əli”. Sevincimdən gözlərim yaşardı və bu nemətə görə Allaha şükür etdim”.*

Həzrət Əlinin *(ə)*, həmçinin bir neçə nəfərin sabitqədəmliyi və dözümü nəticəsində müşriklər gözlərini Mədinədən çəkib Məkkəyə döndülər. O Həzrət *(ə)* özü ağır yaralansa da Peyğəmbəri *(s)* gözdən qoymadı, Rəsulullahın *(s)* əlini və üzünü yumaq üçün sipərində su hazırladı. Peyğəmbər *(s)* əl-üzünü yuduqdan sonra buyurdu: *"Öz Peyğəmbərinin üzünü qana bulaşdıran qövm Allahın qəzəbinə gəlsin!"*

Nəhayət, müharibə qovğası yatdı, müsəlmanlardan yetmiş nəfər həlak oldu, qalanları isə qaçdı. Bu döyüşdə misilsiz fədakarlıqlarına görə yalnız Həzrət Əli *(ə)* əsl qəhrəman sayılırdı. Çünki, o Həzrətin *(ə)* mübarək bədəninə endirilən sarsıdıcı zərbələrin hər biri bir qəhrəmanın qədd-qamətini sındıra bilərdi və bu çoxsaylı yaralar hamını heyrətə salmışdı. Qılıncların doğradığı iyirmi altı yaşlı bu gənc hələ də sağ idi. Əlbəttə ki, Həzrət Əlini *(ə)* diri saxlayan böyük ruhu və xalis imanı idi. O Həzrət *(ə)* bu döyüşün bütün çətinliklərinə razılıqla səbir edirdi.

Peyğəmbər *(s)* Mədinəyə qayıtdı. Xanım Zəhra *(ə)* əlində bir qab su atasını qarşıladı. Həzrət Əli *(ə)* isə qolları dirsəyədək qana batmış halda gəlib çatdı, Zülfüqarı Xanım Fatiməyə *(ə)* verdi və buyurdu: *"Bu gün məni təsdiq etmiş bu qılıncı al"*.

*Götür bu qılıncı saxla Fatimə.*
*Onun günahı yox, mənimsə qorxum.*
*Çalışdım Peyğəmbər, Allah yolunda.*
*Əbdud-Dar qanıdır qılıncda baxın.*

Peyğəmbər *(s)* Xanım Fatiməyə *(ə)* buyurdu: *"Ya Fatimə, götür qılıncı, ərin öz borcunu əda etdi! Allah-Təala onun qılıncı vasitəsilə Qüreyş böyüklərini məğlubiyyətə uğratdı"*.

Ühüd döyüşündə müsəlmanların məğlubiyyətinin əsas səbəbi onların kiçik bir intizamsızlığı və Peyğəmbərin *(s)* göstərişinə diqqət etməmələri oldu. Lakin böyük və acı bir təcrübə əldə olunmuşdu. Gələcək üçün bu təcrübə böyük bir ibrət idi. Quranda da bu məsələyə belə işarə olunur: **"**(Ühüd müharibəsində) ***siz onları Allahın iznilə əzib-qırdığınız zaman, Allah sizə verdiyi vədinə sadiq çıxdı. Lakin O*** (Allah) ***sevdiyiniz şeyi*** (zəfər və qəniməti) ***sizə göstərəndən sonra isə zəiflik göstərdiniz və*** (sizə verilmiş) ***əmr barəsində bir-birinizlə mübahisə edərək*** (Peyğəmbərə) ***qarşı çıxdınız. İçərinizdən bəziləri dünyanı, bəziləri isə Axirəti istəyirdi. Sonra Allah sizi sınamaq üçün geri döndərdi. Əlbəttə, O, sizi əfv etdi. Çünki, Allah möminlərə qarşı lütfkardır!"***[88]

[88] "Ali-İmran", 152.

### *1.4.4. Həzrət Əli (ə) Əhzab (Xəndək) döyüşündə*

Xəndək müharibəsi Miladi tarixlə 31 mart 627-ci ildə baş vermişdir. Bu, Məkkə müşrikləri ilə müsəlmanlar arasında olan üçüncü və son müharibədir. Sözügedən müharibə öz adını müsəlmanların qorunmaq üçün qazdıqları xəndəkdən almışdır. Xəndək müharibəsində müsəlmanların 3000 döyüşçüsü, müşriklərin isə 10000 döyüşçüsü və 600 atlısı vardı. Müsəlmanlar bu müharibədə Həzrət Əlinin *(ə)* rəşadət və şücaəti hesabına üzüağ çıxdılar və mütləq qalibiyyət qazandılar.

Məkkəli müşriklər Ühüd döyüşündə yetərli bir zəfər qazana bilməmişdilər. Eyni zamanda, bu döyüşdən sonra müsəlmanlar Mədinənin şərq və qərbinə səfərlər edərək Məkkə karvanlarının Misirə, eləcə də Suriya və İraqa doğru yolunu kəsmişdilər. Bu üzdən məkkəlilər baş verəcək növbəti müharibəyə ciddi surətdə hazırlaşmışdılar. Onlar öz ordularını təchiz etmək və sayını çoxaltmaq üçün Kinanə, Tihamə, Qətəfan, Fəzarə, Bəni-Əsəd və Nəcd qəbilələrindən də muzdlu əsgərlər toplamışdılar.

Məkkəli müşriklərin hərəkətə keçdiyini xəbər alan müsəlmanlar öncəliklə savaş üçün strateji mövqe tutmağın lazım olduğunu müşavirə etdilər. Onlar açıqda savaşmağın qeyri-mümkünlüyünü nəzərə alaraq qorunmaq üçün müdafiə planının hazırlanmasına və bunun üçün Salman Farsinin təklifiylə Mədinənin bəzi strateji yerlərində xəndəklər qazılmasına qərar verdilər.[89] Həmçinin, müsəlmanlar qadın və uşaqların da zərər görməmələri üçün onları şəhərdəki bəzi qüllələrə yerləşdirdilər.

Sal dağında qərargah quran müsəlmanlar kiçik qruplara ayrılaraq xəndəyi qorumağa və müşriklərin xəndəkdən keçə bilmələrinə əngəl olmağa çalışacaqdılar. Buna görə də onlar xəndək ətrafında mövqe tutmuşdular. Hər iki qoşun bir neçə gün xəndək ətrafında üzbəüz dayandı. Bəzən bir-birlərinə daş və ox atırdılar. Nəhayət, Qüreyş cəngavərlərindən olan, müşriklərin içərisində ərəb aləmində öz şücaəti ilə tanınan və min pəhləvana müqabil hesab edilən Əmr bin Əbdüvəd bir neçə döyüşçüylə birlikdə xəndəyin dar hissəsindən adlayıb keçə bildi.

Əmr xəndəyi keçən kimi döyüşmək üçün mübariz istədi. O məlunun qorxunc nərəsi fəzada yayılan kimi ürəklərə qorxu düşdü və müsəlmanlar təlaşlanmağa başladılar. Çünki, o zamana qədər bütün Ərəbistanda Əmrin qarşısına çıxa biləcək birisi tapılmırdı. Onun mübariz istəmək çağırışı ikinci dəfə eşidildi: "Deyirsiniz ki, sizlərdən kim öldürülsə, Cənnətə gedəcək. Məgər aranızda Cənnətə getmək istəyən yoxdurmu?"

[89] Tarixi-Təbəri c. I, səh. 1465.

Nəhayət, Peyğəmbər *(s)* sükutu pozdu və buyurdu: *"Bu bütpərəstin şərini İslam ümmətinin üzərindən kim götürə bilər?"* Hamı nəfəsini çəkib durmuşdu, kimsədən səs çıxmırdı. Bu vaxt Həzrət Əli *(ə)* ayağa qalxdı və ərz etdi: *"Ya Rəsulullah, mən!"* Peyğəmbər *(s)* buyurdu: *"Səbr et, olsun ki, başqa bir könüllü də tapıla"*. Lakin kimsə bu ərəblə üzbəüz gəlmək istəmirdi. Peyğəmbər *(s)* sualını bir daha təkrar etdi. Yenə də Rəsulullahın *(s)* çağırışına Həzrət Əli *(ə)* cavab verdi. Peyğəmbər *(s)* buyurdu: *"Ya Əli, bu şəxs Əmr bin Əbdüvəddir!"* Həzrət Əli *(ə)* ərz etdi: *"Mən də Əli bin Əbu Talibəm"*. Peyğəmbər *(s)* Həzrət Əlinin *(ə)* başına əmmamə qoydu, kəmərinə qılınc bağladı və buyurdu: *"Get, Allah səni qorusun!"* Sonra Peyğəmbər *(s)* başını qaldırıb riqqətlə buyurdu: *"Pərvərdigara, bu döyüş meydanında əmim oğlunu tənha qoyma!"*

Əmr rəcəz oxuyaraq müsəlmanları döyüşə çağırırdı. Bu vaxt Həzrət Əli *(ə)* pusqudan ovunun üstünə sıçrayan qəzəbli şir kimi sürətlə Əmrə doğru hərəkət etdi, düşmənin rəcəzinə ədəblə cavab verdi. Özünü adlı-sanlı ərəb qəhrəmanı sayan Əmr Həzrət Əliyə *(ə)* həqarətlə baxdı və dedi: "Məgər səndən başqa Cənnət istəyən yoxdur? Mən sənin atan Əbu Taliblə dost idim. Səni əlimdə qanadları qırılmış quş tək çırpınan görmək istəmirəm. Məgər bilmirsənmi ki, mən Əmr bin Əbdüvədəm, böyük ərəb qəhrəmanıyam?!"

Həzrət Əli *(ə)* buyurdu: *"Mən səni əvvəlcə tövhid və İslama dəvət edirəm. Əgər bunu qəbul etmirsənsə, gəldiyin yolla geri qayıt, Peyğəmbərlə döyüşdən çəkin"*.

Əmr dedi: "Mən öz ata-babamın yolundan (bütpərəstlikdən) əl götürmərəm. Əgər döyüşsüz geri qayıtsam, Qüreyş qadınları mənə istehza edər".

Həzrət Əli *(ə)* buyurdu: *"Onda atdan düş, vuruşaq. Mən səni Allah yolunda öldürmək istəyindəyəm"*.

Əmr qəzəbləndi, atdan düşdü və Həzrət Əli *(ə)* ilə üzbəüz dayananda Peyğəmbər *(s)* buyurdu: *"İmanla küfr mübarizəyə qalxmışdır"*. Bu, doğrudan da belə idi, hətta Həzrət Əli *(ə)* bütünlüklə imanın özü idi. Əgər həmin gün Həzrət Əli *(ə)* olmasaydı, İslamdan əsər-əlamət belə, qalmazdı. Əmr də şirk və küfrün nümayəndəsi, Qüreyşin gözünün işığı sayılırdı.

Nəhayət, bu iki mübariz bir-birinə elə hücum etdi ki, toz-duman havaya qalxdı. Ətrafdakılar onları aydın görə bilmirdi. Əmrin zərbəsi Həzrət Əlinin *(ə)* sipərini ikiyə böldü və o Həzrətin *(ə)* başı yaralandı. Lakin Həzrət Əlinin *(ə)* cavab zərbəsi Əmrin həyatına son qoydu, anındaca o Həzrətin *(ə)* təkbir səsi göyə ucaldı. Bu səs Əmrin ölümündən xəbər verirdi və Əmrin ölümü də Qüreyşin qəti məğlubiyyəti demək idi. Sonradan Əmr bin Əbdüvədin bacısı bu döyüş haqqında belə bir şeir oxumuşdur:

*İki şir döyüşdü, hər biri taysız.*
*Sanki buludlardan zərbə yağırdı.*
*Ya Əli, beləsin yendirməmişdin!*
*Əlbət ki, bu uğur başqa uğurdu.*

Qüreyş öz qəhrəmanının məğlubiyyətindən sonra xar və rüsvay oldu. Həzrət Əli *(ə)* Əmrin başını Peyğəmbərin *(s)* hüzuruna gətirdiyi vaxt Rəsulullah *(s)* buyurdu: *"Xəndək günü Əlinin zərbəsi Səqəleynin ibadətindən əfzəldir"*. Bəziləri isə Peyğəmbərin *(s)* belə buyurduğunu nəql edirlər: *"Xəndək günü Əlinin Əmrə vurduğu qılıncın mükafatı cin və insin ibadət mükafatından üstündür"*.[90] Bu hədisin ərəb qaynaqlarındakı mətni aşağıdakılardan ibarətdir:

**منهم العلامة عضد الدين الإيجي في (المواقف) (ص 617 ط اسلامبول) قال:**
**قال النبي عليه السلام يوم الأحزاب: لضربة علي خير من عبادة الثقلين. ومنهم العلامة فخر الدين الرازي في (نهاية العقول ف ي دراية الأصول) (ص 114، النسخة المخطوطة) قال: قال رسول الله صلى الله عليه وسلم يوم الأحزاب: لضربة علي يوم الخندق أفضل من عبادة الثقلين. ومنهم العلامة التفتازاني في (شرح المقاصد) (ج 2 ص 220 ط الاستانة): روى الحديث بعين ما تقدم عن (المواقف). ومنهم العلامة الكركي في (نفحات اللاهوت (ص 91 ط -) قال: يقول النبي صلى الله عليه وسلم: إن ضربته (أي ضربة علي) تعدل عمل الثقلين إلى يوم القيامة. ومنهم العلامة القندوزي في ينابيع المودة) (ص 95 وص 137 ط اسلامبول) قال: وفي المناقب عن حذيفة بن اليمان رضي الله عنه قال: قال رسول الله صلى الله عليه وسلم: ضربة علي يوم الخندق أفضل من أعمال أمتي إلى يوم القيامة. ومنهم العلامة المولوي الدهلوي في (تجهيز الجيش) (ص 407 مخطوط) روى الحديث بعين ما تقدم عن (المواقف). ومنهم العلامة بهجت أفندي في (تاريخ آل محمد) (ص 57) روى الحديث بعين ما تقدم عن (نهاية العقول.)**
**روى عنه جماعة من أعلام القوم: منهم الحاكم النيسابوري في (المستدرك) (ج 3 ص 32 حيدر آباد الدكن) قال: حدثنا لؤلؤ بن عبد الله المقتدري في قصر الخليفة ببغداد، ثنا أبو الطيب أحمد بن إبراهيم بن عبد الوهاب المصري بدمشق، ثنا أحمد بن عيسى الخشاب بتنيس، ثنا عمرو بن أبي سلمة، ثنا سفيان الثوري عن بهز بن حكيم عن أبيه عن جده قال: قال رسول الله صلى الله عليه وآله وسلم: لمبارزة علي بن أبي طالب لعمرو بن عبدود يوم الخندق أفضل من أعمال أمتي إلى يوم القيامة. ومنهم الحافظ الخطيب البغدادي في (تاريخ بغداد) (ج 13 ص 19 ط السعادة بمصر) قال: أخبرنا الطاهري، حدثنا لؤلؤ بن عبد الله القيصري، حدثنا أبو إسحاق إبراهيم بن محمد النصيبي الصوفي بالموصل، حدثنا أبو عبد الله الحسين بن الحسن ابن شداد، قال: حدثني محمد بن سنان الحنظلي، حدثني إسحاق بن بشر القرشي عن بهز بن حكيم: فذكر الحديث بعين ما تقدم عن (المستدرك) سندا ومتنا. ومنهم العلامة أخطب خوارزم في (مقتل الحسين) (ص 45 ط الغري) قال: أخبرنا الإمام الحافظ أبو الفتح عبد الواحد بن الحسن الباقرچي، أخبرناأبو عبد الله محمد بن محمد الجويني قال: قرأت على أبي الحسن علي بن أحمد الواحدي، أخبرنا عبد الرحمان بن حمدان السعدي، أخبرنا**

[90] Hədisi Hakim Nişapuri "Msütədrək ələs-Səhiheyn" əsərində (III cilddə) nəql etmişdir.

لؤلؤ القيصري فذكر الحديث بعين ما تقدم عن (تاريخ بغداد) سندا ومتنا. ومنهم العلامة المذكور في (المناقب) (ص 64 ط تبريز). روى الحديث فيه أيضا بعين ما تقدم عنه في (مقتل الحسين). ومنهم العلامة الحمويني في (فرائد السمطين) (مخطوط) قال: أنبأنا شيخنا عمير الموفق عن المؤيد محمد المعري، أنا عبد الرحمن بن حمدان السعدي، نبأ لؤلؤ القصري، نبأ أبو إسحاق إبراهيم بن محمد العصر العوفي بالموصل، نبأ أبو عبد الله الحسين بن الحسن بن داد، حدثني محمد بن سباب الحنظلي، نبأ إسحاق بن سد القرشي عن سهر بن حكيم فذكر الحديث بعين ما تقدم عن (المستدرك) إلا أنه ذكر بدل كلمة عمل أمتي: أعمال أمتي. ومنهم العلامة الذهبي في (تلخيص المستدرك) المطبوع بذيل المستدرك (ج 3 ص 32 ط حيدر آباد الركن). روى الحديث بعين ما تقدم عن (المستدرك). ومنهم العلامة التفتازاني في (شرح المقاصد) ج 2 ص 220 ط الاستانة) روى الحديث بعين ما تقدم عن (فرائد السمطين). ومنهم العلامة الدشتكي في (روضة الأحباب) (ص 327 النسخة المخطوطة عندنا). روى الحديث بعين ما تقدم عن (المستدرك). ومنهم العلامة الدهلوي في (تجهيز الجيش) (ص 163 ط نول كشور). روى الحديث عن علي بعين ما تقدم عن (المستدرك). ومنهم العلامة البدخشي في (مفتاح النجا) (ص 26). روى الحديث من طريق الحاكم بعين ما تقدم عنه سندا ومتنا.
الحديث الثاني حديث ابن مسعود:
روى عنه القوم: منهم العلامة الآمرتسري في (أرجح المطالب) (ص 481 ط لاهور) قال: عن ابن مسعود رضا، قال: قال رسول الله صلى الله عليه وسلم: لمبارزة علي بن أبي طالب لعمرو بن عبد ود يوم الخندق أفضل من عمل أمتي إلى يوم القيامة. أخرجه الديلمي في (فردوس الأخبار).
قال العلامة ابن أبي الحديد في (شرح نهج البلاغة) (ج 4 ص 344 طبع مصر) فأما الخرجة التي خرجها يوم الخندق إلى عمرو بن عبدود، فإنها أجل من أن يقال جليلة، وأعظم من أن يقال عظيمة، وما هي إلا كما قال شيخنا أبو الهذيل وقد سأله سائل: أيما أعظم منزلة عند الله علي أم أبو بكر فقال: يا ابن أخي والله لمبارزة علي عمروا يوم الخندق، تعدل أعمال المهاجرين والأنصار وطاعاتهم كلها تربى عليها فضلا عن أبي بكر وحده. وقد روى عن حذيفة بن اليمان ما يناسب هذا بل ما هو أبلغ منه.
الباب الثامن والعشرون في قول رسول الله صلى الله عليه وآله وسلم عند مبارزة علي مع عمرو: برز الإيمان كله إلى الشرك كله.
رواه القوم: منهم العلامة ابن أبي الحديد في (شرح النهج) (ح 4 ص 344 ط مصر) قال: وجاء في الحديث المرفوع أن رسول الله صلى الله عليه وآله وسلم قال ذلك اليوم حين برز إليه (يعني علي إلى حرب عمرو): برز الإيمان كله إلى الشرك كله.

## *1.4.5. Həzrət Əli (ə) Xeybər döyüşündə*

Xeybər qalasının fəthi İslam tarixində ən önəmli hadisələrdən biridir. Xeybər qalasında yəhudilər yaşayırdılar. Onlar bəzən müsəlmanlar üçün təhlükələr törədir və hətta onlara qarşı təbliğatlar da aparırdılar. Peyğəmbər *(s)* qalanın fəthi üçün bir neçə dəfə səhabələrdən göndərsə də heç bir nəticə verməmiş və onlar əliboş geri dönmüşdülər. Yəhudi döyüşçülərilə kim-

sə bacara bilmirdi. Belə uğursuzluqlar nəticəsində müsəlmanların ruhdan düşdüyünü görən Peyğəmbər *(s)* buyurdu: *"Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, Allah və Peyğəmbəri onu dost tutur, o, da Allah və Onun Peyğəmbərini dost bilir. O, bir kəsdir ki, həmişə hücum etmişdir və Allah onun əliylə açılış etməyincə döyüş meydanından qaçmamışdır"*. Peyğəmbərin *(s)* bu sözləri hamını təəccübləndirdi: görən sabah qələbə çalacaq kəs kim idi? Nəhayət, vəd olunmuş gün gəlib çatdı. Peyğəmbər *(s)* buyurdu: *"Əli haradadır?"* Dedilər ki, Həzrət Əlinin *(ə)* gözləri ağrıyır. Rəsulullah *(s)* buyurdu: *"Onu buraya gətirin"*. Müsəlmanlar o Həzrətin *(ə)* çadırına gedib Peyğəmbərin *(s)* əmrini çatdırdılar. Həzrət Əli *(ə)* dərhal yerindən qalxdı və Rəsulullahın *(s)* xidmətinə tələsdi. Peyğəmbər *(s)* Əlidən *(ə)* halını soruşdu. Həzrət Əli *(ə)* bildirdi ki, başı və gözləri ağrıyır. Peyğəmbər *(ə)* Həzrət Əlini *(ə)* qucaqladı və ağzının mübarək suyundan o Həzrətin *(ə)* gözlərinə çəkdi. Həzrət Əli *(ə)* özündə dərhal bir yüngüllük hiss etdi və ömrünün sonunadək bir daha nə başağrısı, nə də gözağrısı görmədi. Peyğəmbər *(s)* buyurdu: *"Ya Əli, bizim sərkərdələrin əlindən bir iş gəlmədi! Hələ də Xeybər qalası fəth olunmamışdır. Bu iş yalnız sənin əlinlə həyata keçəsidir"*. Həzrət Əli *(ə)* Rəsulullahdan *(s)* yəhudilərlə nə vaxtadək döyüşməyin lazım gəldiyi barədə soruşdu. Peyğəmbər *(s)* buyurdu: *"Allahın birliyini və mənim peyğəmbərliyimi təsdiq edənədək onlarla vuruş"*.

Həzrət Əli *(ə)* ovuna qarşı arxayınlıqla hərəkət edən şir tək Xeybər qalasının divarlarına yaxınlaşdı, İslam bayrağını yerə sancdı və adamlarını divarların fəthi üçün hazırladı. Bu vaxt Xeybərin şücaətli döyüşçülərindən bir qrupu çıxıb o Həzrətin *(ə)* və dəstəsinin üzərinə hücum etdi. Şiddətli döyüş başladı. Həzrət Əli *(ə)* bir neçə hücumla yəhudiləri qaçmağa məcbur etdi. Düşmən döyüşçüləri özlərini qalaya çatdırıb qapıları bağladılar. Şücaəti ilə tanınan qala rəisi Haris Həzrət Əlinin *(ə)* qalaya daxil olmasının qarşısını almaq istədi. Lakin o Həzrət *(ə)* bir zərbə ilə onun həyatına son qoydu. Bu vaxt Harisin qardaşı, qalanın ən adlı-sanlı döyüşçüsü Mərhəb Xeybəri qardaşının qanını almaq üçün meydana atıldı. O, qəribə bir pəhləvan idi, iki zireh geyinər və bir neçə əmmamənin üzərindən polad dəbilqə qoyardı. Dəbilqədə dəyirman daşına oxşar daş yerləşdirdiyindən qılınc zərbələri onun başına təsir etməzdi. Bu şəxslə Həzrət Əli *(ə)* arasındakı döyüşdə İslam qəhrəmanının onun başına endirdiyi zərbəsi bütün zirehlərini yarıb başını ikiyə böldü. Mərhəb yerə yıxılıb qanına qəltan oldu. Müsəlmanların təkbir sədası göyə ucaldı. Yəhudilər qəti məğlubiyyətə uğrayıb qəm dəryasında batdılar. Mərhəb qətlə yetirildikdən sonra qaladan başqa bir döyüşçü çıx-

dı. O da öldürülənlərin üçüncü qardaşı Yasər idi və şücaətdə qardaşlarından geri qalmazdı. Yasər yubanmadan Həzrət Əliyə *(ə)* hücum etdi. Lakin o Həzrətin *(ə)* bir zərbəsi ilə yerə yıxılıb canını tapşırdı. Yəhudilər bu dəfə qalanın qapılarını bağlamağa məcbur oldular. Həzrət Əli *(ə)* öz fövqəladə qüvvəsi ilə qalanın qapılarını tərpədib kənara atdı. Beləliklə, Xeybərin ən möhkəm iki qalası fəth edildi.

Şeyx Müfid Əbdüllah Cədəlidən belə nəql edir: "Əmirəl-möminin *(ə)* deyirdi: *"Xeybərin qapısını çıxardıqdan sonra onu özümə sipər edib yəhudilərlə döyüşdüm. Onları məğlub etdikdən sonra qapını qala ətrafında qazılmış xəndəyin üzərinə qoyub onun üzərindən keçdim. Müsəlmanlar da xəndəyi adladılar. Geri qayıdan zaman həmin qapını yetmiş müsəlman güclə qaldırdı"*.

Şair bu barədə belə yazır:

*Yəhudla amansız savaş zamanı,*
*Qaldırdı Xeybərin ağır qapısın.*
*Qapını qaytaran yetmiş kişinin,*
*Hamı aşkar gördü işdə cəfasın.*

Xeybər döyüşündə Həzrət Əlinin *(ə)* savaşı, qalaların fəthi, adlı-sanlı yəhudi döyüşçülərinin məğlub edilməsi, xüsusilə də qala darvazasının o Həzrət *(ə)* tərəfindən çıxarılıb atılması bir daha sübut edir ki, bəşər tarixində kimsədə belə bir hünər görünməmişdir. Bu, məşhur hadisə barəsində bir çox qəsidələr qoşulmuşdur. İbn Əbilhədid bir qəsidədə deyir:

*Qırx dörd əlin aça bilmədiyini,*
*Ey qoparıb atan qəhrəman Əli!*

Xeybər döyüşü başa çatdıqdan sonra Peyğəmbər *(s)* yəhudilərin istəyi ilə onlarla sülh bağladı. Bundan sonra heç bir tələb olmadan və yəhudilərin razılığı ilə Fədək bağları Peyğəmbərə *(s)* bağışlandı və yəhudilər var-dövlətlərinin yarısını Peyğəmbərə *(s)* göndərdilər. Fədək Peyğəmbərin *(s)* özünə, digər qənimətlər isə müsəlmanlara çatdı.

Xeybərdən geri dönərkən itaətsizlik göstərən bəzi yəhudi qəbilələri də tənbeh olundu. Beləcə, müsəlmanlar yəhudilərin fitnələrindən xilas oldular və Mədinə şəhərində əmin-amanlıq bərpa edildi.[91]

[91] Geniş məlumat üçün bax: http://ehliwie-samux.com/3597-xeyber-doyushu.html (24.02.2015) saytına.

### *1.4.6. Həzrət Əli (ə) Məkkənin fəthində*

İslam ordusu müxtəlif kiçik və böyük döyüşlərdə sınaqdan keçdikdən, say baxımından böyüdükdən sonra Hicri səkkizinci ildə Peyğəmbər *(s)* Məkkəyə doğru hərəkət edib anadan olduğu və Qüreyşin işgəncələrilə hicrətə məcbur edildiyi şəhəri - Məkkəni tabe etmək qərarına gəldi.

Rəsulullah *(s)* Məkkədə olduğu on üç il ərzində Qüreyş müşriklərini tövhid və allahpərəstliyə dəvət etmişdir. Lakin bu dəvətlərdən nəinki müsbət nəticə hasil olmamış, hətta doğru yola dəvət edilən məkkəlilər Peyğəmbərə *(s)* olmazın əzab-əziyyətini vermişdilər. Peyğəmbərin *(s)* hicrətdə olduğu bütün dövr ərzində isə Məkkə müşrikləri müsəlmanlarla qarşıdurma vəziyyətində idilər. Bir vaxt Məkkədən qorxu içində çıxmış mühacir müsəlmanlar artıq Peyğəmbərin *(s)* arxasınca, qalib vəziyyətdə, qüdrət və əzəmətlə Məkkəyə doğru hərəkət edirdilər.

Bəzi müsəlmanlar fikrə gedib işin sonundan qorxsalar da Peyğəmbər *(s)* onları qələbə ilə müjdələyirdi. Çünki, Allah-Təala Rəsulullaha *(s)* göndərdiyi ayədə qələbə vəd etmişdi: ***"And olsun ki, Allah-Təala Öz Peyğəmbərinin*** (Məkkə fəthi) ***röyasının çin olduğunu təsdiq etdi.*** (Ey möminlər!) ***Siz, inşaallah, əmin-amanlıqla,*** (bəziniz) ***başınızı qırxdırmış,*** (bəziniz saçınızı) ***qısaltmış halda və*** (müşriklərdən) ***qorxmadan Məscidülhərama daxil olacaqsınız...".***[92] Məkkənin fəthindən qabaq nazil olmuş "Nəsr" surəsində də Məkkənin fəthi və həmin şəhər əhalisinin müsəlman olması haqqında məlumat verilir.

Peyğəmbərin *(s)* əsl məqsədi bu idi ki, Məkkənin fəthi Allah Evinə hörmət əlaməti olaraq döyüşsüz və qansız həyata keçsin. Ona görə də Rəsulullah *(s)* hərəkət vaxtını hamıdan gizli saxlamış, bu işdə yalnız Həzrət Əli *(ə)* ilə məsləhətləşmişdi. Çünki, Qüreyş bu işdən xəbər tutsaydı, işin gedişi başqa cür ola bilərdi. Lakin bir qədər sonra səhabələrdən bir neçəsi məsələdən xəbər tutdu. Hatəb adlı mühacir Məkkədə qohum-əqrəbası olduğundan Peyğəmbərin *(s)* məqsədi barədə Qüreyş müşriklərinə məlumat vermək istədi və bu səbəbdən yazdığı gizli məktubu Məkkəyə gedən bir qadınla göndərdi. Allah-Təala Öz Peyğəmbərini *(s)* bu məsələdən xəbərdar etdi. Rəsulullah *(s)* Həzrət Əli *(ə)* və Zübeyri qadının arxasınca göndərdi, onlar da qadına çatıb məktubu ondan aldılar.

Peyğəmbər *(s)* Hicri səkkizinci il, Ramazan ayının əvvəllərində mühacir və ənsardan ibarət on iki minlik ordu ilə Mədinədən çıxdı. Rəsulullah *(s)*

[92] "əl-Fəth", 27.

öz qoşunu ilə Məkkə yaxınlığına çatdığı vaxt Abbas bin Əbdül-Müttəlib qüreyşliləri İslam ordusunun çoxluğu və təchizatı ilə qorxutmaq üçün Məkkəyə tələsdi. Məkkə əhalisi Peyğəmbərin *(s)* gəlişindən qismən də olsa xəbərdar idi. Bu səbəbdən də Əbu Süfyan daha çox məlumat toplamaq üçün Məkkədən çıxdı və yolda Abbasla rastlaşdı. Abbas bin Əbdül-Müttəlib müsəlmanların çoxluğunu və İslam ordusunun yüksək döyüş əzmini Əbu Süfyana nəql etdi. O, bu işin acı nəticəsini Əbu Süfyanın nəzərinə çatdırıb onu təslim olmağa razı saldı. Əbu Süfyan çarəsizlik ucbatından bu təkliflə razılaşdı və Abbasın himayəsi ilə əzəmətli İslam qoşununun arasından keçib Peyğəmbərin *(s)* xidmətinə getdi. Bir qədər söhbətdən sonra Əbu Süfyan İslamı qəbul etdi.

Bu, həmin Əbu Süfyan idi ki, iyirmi bir il müddətində Qüreyş kafirlərini Peyğəmbərə *(s)* qarşı təhrik etmişdi. İndi isə İslamın əzəməti qarşısında təslim olurdu. O, nizamlı və qüdrətli İslam ordusunu heyranlıqla seyr edir, öz keçmişinə görə həyəcan keçirir və bağışlanacağını intizarla gözləyirdi. Qurani-Kərimin bildirdiyi kimi, Peyğəmbər *(s)* böyük mərhəmət sahibi idi. O Həzrət *(s)* Əbu Süfyanı Məkkəyə göndərdi və bildirdi ki, İslamı qəbul edənlər amanda qalacaqlar.

Peyğəmbər *(s)* əvvəlcə bayrağı Səd bin İbadəyə vermişdi. Lakin sonradan Sədin Məkkə əhli ilə sərt davranacağını nəzərə alaraq bayrağı ondan alıb Həzrət Əliyə *(ə)* verdi. Müsəlman qoşunu böyük əzəmət içində Məkkəyə daxil oldu. Peyğəmbər *(s)* Məkkənin qapısı qarşısında dayandı və buyurdu: *"La ilahə İlləllah, Vəhdəhu Vəhdəh, Sədəqə vədəhu və Nəsərə Əbdəhu"*. Bu, tövhid və allahpərəstlik şüarlarının Məkkədə aşkar səsləndiyi ilk gün idi. Həmin gün Bilalın azan nidası Kəbənin üstündən bütün Məkkə fəzasını bürüdü. Müsəlmanlar Peyğəmbərə *(s)* iqtida edib namaz qıldılar. Sonra Rəsulullah *(s)* cəza və intiqam gözləyən Məkkə əhlinə üz tutaraq buyurdu: *"Haqqınızda nə deyir, nə güman edirsiniz?"* Dedilər: "Sözümüz yaxşılığadır, yaxşılıq ümidindəyik. Kərimin qardaşı və Kərimin qardaşı oğlusan. Bizim üzərimizdə qüdrətə çatmısan". Peyğəmbər *(s)* onların bu sözlərindən riqqətə gələrək buyurdu: *"Mən qardaşım Yusufun dediyini deyirəm"*. O Həzrət *(s)* sonra əlavə etdi: *"Gedin, hamınız azadsınız"*.

Bu ümumi əfv Məkkə əhalisinin əhval-ruhiyyəsinə yaxşı təsir etdi və onların qəlbində qeyri-ixtiyari olaraq Peyğəmbərə *(s)* qarşı məhəbbət hissi yaratdı. Sonra Peyğəmbər *(s)* bütün bütlərin qırılması haqqında göstəriş verdi və Həzrət Əli *(ə)* ilə birlikdə Kəbəyə daxil oldu. Bütün bütlər və bütpərəstlik əlamətləri məhv edildi, qırılaraq Kəbədən bayıra atıldı.

Bəli, Həzrət Əlinin *(ə)* sifətlərindən biri də bütsındıran olması idi. Belə ki, o Həzrət *(ə)* xalq arasında bütpərəstlik əlamətlərini müşahidə etməyə heç bir zaman dözməmiş, Peyğəmbərin *(s)* göstərişi ilə Hobəl kimi böyük bütü və digərlərini aşırıb, müqəddəs Kəbə məkanını bütpərəstlik çirkabından təmizləmişdir.[93]

### *1.4.7. Həzrət Əli (ə) Cəməl döyüşündə*

"Cəməl" sözü ərəb dilində "dəvə" mənasını verir. Tarixə Cəməl döyüşü kimi düşən bu hadisə Peyğəmbərin *(s)* zövcəsi Xanım Aişənin dəvəsi ətrafında baş verdiyi üçün bu adla tanınmışdır. Döyüş Miladi tarixlə 656-cı ilin noyabr ayında Həzrət Əli *(ə)* ilə Xanım Aişə və onun tərəfdarları arasında Bəsrədə baş vermiş, bəzi qaynaqlarda isə Bəsrə və ya Nakisin[94] döyüşü kimi də qeyd edilmişdir.

Cəməl döyüşü müsəlmanlar arasındakı ilk vətəndaş müharibəsi olmuşdur. Bu döyüş Həzrət Əlinin *(ə)* mütləq qalibiyyəti ilə nəticələnmiş, Xanım Aişənin əsas müttəfiqlərindən və döyüşün başlıca səbəbkarlarından olan Təlhə bin Übeydullahla Zübeyr bin Əvvam öldürülmüşdür. Xanım Aişə isə Həzrət Əli *(ə)* tərəfindən Mədinəyə göndərilmişdir.

Qeyd etmək lazımdır ki, Cəməl döyüşündə hər iki tərəfdən xeyli sayda müsəlman tələf olmuşdur.

Xəlifə Osman bin Əffanın öldürülməsindən sonra (656-cı ildə) müsəlmanların çoxu İmam Əlinin *(ə)* xəlifəliyini qəbul etmişdi. Hətta xilafətə namizədlərdən olan Zübeyr bin Əvvam və Təlhə bin Übeydullah da o İmama *(ə)* beyət etmişdilər. Lakin sonradan onlar İmam Əlinin *(ə)* xilafətindən istədikləri payı ala bilmədiklərindən və öldürülən xəlifənin qisasını almaq bəhanəsiylə Xanım Aişəyə qoşularaq onu İmama *(ə)* qarşı üsyana təhrik etmişdilər. Mənbələrə görə də Cəməl döyüşünün əsas səbəbi Zübeyrlə Təlhənin Kufə və Bəsrəyə vali olmaq istəkləri olmuşdur. Həzrət Əli *(ə)* onların bu istəyinə müsbət cavab vermədikdə ikisi də Həcc ziyarətini bəhanə edərək Məkkəyə gəlmiş və Xanım Aişəyə qoşulmuşdular.

İmam Əli *(ə)* xəlifə seçilən kimi ilk olaraq əvvəlki xəlifə Osman bin Əffanın zəngin, dikbaş və heç bir dini məlumatı olmayan qohumlarını, yəni

[93] Geniş məlumat üçün bax: http://www.besiret.az/details/feth; http://ceferiler.com/tarix/isalam-tarixi/3879-mekkenn-feth.html; http://islamadogru.biz/index.php?newsid=111 saytlarına.

[94] "Nakisin" ərəb sözü olub, "əhdlərini sındıranlar" mənasını bildirir. Həzrət Əliyə *(ə)* beyət etdikdən sonra bir dəstə beyətini sındırıb o Həzrətin *(ə)* üstünə qoşun çəkdi. Təlhə və Zübeyr onlara başçılıq edirdi.

Üməyyə oğullarını dövlət işlərindən uzaqlaşdırmağa başladı. Onlar müsəlmanların beytül-malını istədikləri kimi qarət edib dağıdırdılar. Əslində III Xəlifə Osman bin Əffanın öldürülməsinin səbəb də məhz bu idi. Məsələn, Suriya valisi Müaviyə bin Əbu Süfyan illərdən bəri idi ki, Suriyada müsəlmanların malını istismar edirdi. Onun bu işindən bir neçə dəfə III Xəlifəyə şikayət edilsə də Müaviyə yenə də etdiyindən əl çəkmirdi. Bir başqa nümunə isə Kufə valisi Vəlid bin Üqbənin içkili halda ikən müsəlmanlara sübh namazını bir neçə rükət artıq qıldırması idi.

Yeni xəlifə seçilən İmam Əli *(ə)* bunları əsas götürərək Üməyyə oğullarını dövlət idarəsindən uzaqlaşdırmaqla məşğul idi ki, Məkkədə Xanım Aişənin qiyam xəbərini aldı. Xanım Aişə 30000 nəfərlik qüvvə ilə Bəsrəyə doğru yola düşdü. Onun Bəsrəni seçməkdə məqsədi Xəlifə Osman bin Əffanın tərəfdarlarının orada daha çox olması idi. Buna görə də İmam Əli *(ə)* Bəsrə valisi İbn Hüneyfə məktub yazaraq üsyançılarla şəxsən görüşməsini və döyüşün başlanmasının qarşısını almasını buyurdu. Lakin bəsrəlilər xəyanət edərək İbn Hüneyfi Xanım Aişəyə təslim etdilər. Çarəsiz qalan İmam *(ə)* 10000 nəfərlik ordunu Malik Əştərin sərkərdəliyi altında onların üzərinə göndərdi və özünün Mədinədən əlavə qüvvə ilə gələcəyini ərz etdi. İki gündən sonra İmam Əli *(ə)* komandanlığı altında 10000 nəfərlik əlavə qüvvə ilə Malik Əştərə qoşuldu. Beləcə, İmam *(ə)* 20000 nəfərlik ordusu ilə Xanım Aişənin qarşısına çıxdı.

III Xəlifənin öldürülməsi və yerinə İmam Əlinin *(ə)* xəlifə seçilməsilə birlikdə Əməvi-Haşimi mübarizəsi yenidən başladı. Şam valisi Müaviyə öldürülən qohumu Xəlifə Osmanın qanını İmam Əlidən *(ə)* tələb edərək onun ölümündə İmamı *(ə)* günahlandırdı.[95]

Vəzifədən götürülən və çoxu da Əməvi sülaləsindən olan valilər İmam Əliyə *(ə)* qarşı əks reaksiyalarını göstərdilər. Bunun üzərinə Şam valisi Müaviyə üsyan bayrağını qaldırdı, əhalini hiddətə gətirmək üçün öldürülən xəlifənin qanlı köynəyini məsciddə nümayiş etdirdi. Misir valisi Əmr bin As vəzifəsindən ayrılaraq Müaviyənin yanına, Şama getdi.[96]

Müaviyə Cəməl döyüşünə birbaşa qatılmasa da döyüşdən əvvəl İmam Əliyə *(ə)* qarşı qiyam qaldırdıqları üçün Təlhə və Zübeyrə məktublar yazmışdı.

Əslində mənbələr obyektiv şəkildə araşdırıldıqda Xanım Aişənin Xəlifə Osmanın öldürülməsindən əvvəl onun barəsində "O (Osman) Quranın hök-

---

[95] Geniş məlumat üçün bax: Sarıçam İbrahim, Emevi-Haşimi İlişkileri, Ankara, Türkiye Diyanet Vakfı Yayınları, 1997.

[96] Həmin mənbə.

münü tapdalamışdır" dediyi, lakin III Xəlifənin öldürülüb yerinə İmam Əlinin *(ə)* seçildiyini eşitdikdə "məzlum olaraq öldürülmüşdür" söylədiyi məlum olur.[97]

Təlhə və Zübeyr isə Xəlifə Osman həyatda ikən həmişə onu tənqid etmiş və onun əleyhinə olmuşdular. Yuxarıda qeyd etdiyimiz kimi, onların ikisi də əvvəllər İmam Əliyə *(ə)* beyət etmiş, lakin umduqları valilik vəzifəsini ala bilmədiklərindən İmama *(ə)* qarşı bədrəftar olmuşdular. Bu vaxt İmam Əli *(ə)* ilk əks-reaksiyanın Müaviyədən gəldiyi üçün ona qarşı hərbi hazırlıq görürdü. Lakin Xanım Aişə və digərlərinin Bəsrəyə getdiklərini xəbər aldıqda onların şəhərə girmələrinə mane olmaq üçün dərhal hərəkətə keçdi. Ancaq gec idi, bəsrəlilər Xanım Aişənin yanında yer almışdılar.[98] Bütün bunlara baxmayaraq, Cəməl döyüşündə Xanım Aişənin ordusu məğlubiyyətə uğradı və on mindən artıq müsəlman öldürüldü. İmam Əli *(ə)* Bəsrə camaatını öz ölülərini dəfn etməyə dəvət etdi. Təbərinin nəql etdiyinə görə,[99] İmam *(ə)* Bəsrə və Kufə əhalisindən olan nakisinlərə meyit namazı qıldı, öz dostlarından şəhid olanlara da namaz qıldı və hamısını böyük bir qəbirdə torpağa tapşırdı. Sonra İmam Əli *(ə)* əmr etdi ki, camaatın bütün mal-dövlətini (hökumətə məxsus olan əlamətli silahlardan başqa) özlərinə qaytarsınlar və buyurdu: *"Ölü müsəlmanın malından heç bir şey o biri müsəlmana halal deyildir"*. İmamın *(ə)* dəstəsindən bəziləri təkid edirdilər ki, nakisinlərlə müşriklər kimi rəftar edilsin. Lakin İmam *(ə)* belə buyurdu: *"Məgər sizlərdən kim Aişəni qənimət kimi qəbul etməyə hazırdır?"*

İmam Sadiq *(ə)* İslam fiqhində "baği" kimi qeyd olunan bu kəslərin hökmünü belə bəyan edir: *"İmam Əli Bəsrə əhlini onların fitnə-fəsadlarına və itaətdən çıxdıqlarına görə öldürdü, lakin onların mal-dövlətinə əl vurmadı. Çünki, müşrikin hökmü baği* (adil İmamın *(ə)* əleyhinə üsyan və itaətsizlik edən) *müsəlmanın hökmündən fərqlidir. İslam əsgərləri küfr və şirk mühitində hər şeyi ələ keçirsələr, onlara halaldır, lakin İslam mühitində olan şeylər heç vaxt halal olmaz. Həqiqətən, Peyğəmbər Məkkə əhlinə minnət qoyduğu kimi, İmam Əli də onlara minnət qoymuşdur"*.[100]

---

[97] Bax: əvvəlki mənbəyə.
[98] Bax: Hasan. Ortaçağ Tarihi ve Uygarlığı, Ankara, Nobel Yayın Dağım, 2002.
[99] Tarixi-Təbəri, c. II, səh. 534.
[100] Döyüş haqqında geniş məlumat almaq üçün http://www.al-shia.org saytına müraciət edin.

### *1.4.8. Həzrət Əli (ə) Siffin döyüşündə*

Siffin döyüşü Miladi tarixlə 657-ci ilin may ayında Əli bin Əbu Taliblə *(ə)* Suriya valisi Müaviyə bin Əbu Süfyan arasında Siffində baş vermiş və öz adını da oradan götürmüşdür. Siffin günümüzdə Suriyanın Raqqa şəhərinin şərqində yerləşən bir yerdir.

Təxminən üç ay davam edən və ən şiddətli dövrü 26-28 iyulda (657-ci ildə) baş verən bu döyüşdə xeyli sayda insan öldürülsə də bir nəticəyə gəlinməmişdir. Hətta hər iki tərəfin razılığı ilə qurulan hakim heyətindən də bir nəticə hasil olmamışdır. Siffin döyüşü İslam tarixi baxımından Həzrət Əlinin *(ə)* müsəlman aləmindəki nüfuzunu sarsıtmağa çalışan, eyni zamanda o Həzrəti *(ə)* küfrdə ittiham edən xəvaric adlı qrupun meydana gəlməsinə səbəb olan bir hadisə olmuşdur.

Məlum olduğu kimi, II Xəlifə Ömər bin Xəttab (634-644) tərəfindən Suriya valisi təyin edilən Müaviyə bir qrup qiyamçılar tərəfindən qətlə yetirilən III Xəlifə Osman bin Əffanın (644-656) qohumu idi. Müaviyə öz siyasi məqsədini həyata keçirmək, xilafətə sahib olmaq və İmam Əlinin *(ə)* İslamdakı məqamını heçə endirmək üçün Xəlifə Osman bin Əffanın qətlində İmamın *(ə)* əli olduğunu düşünürdü. O, bunu bəhanə edərək İmam Əliyə *(ə)* qarşı üsyana başladı. İmamın *(ə)* üsyanı yatırtmağa çalışması isə Siffin döyüşü deyilən uzunmüddətli müharibəyə səbəb oldu.

İmam Əli *(ə)* Cəməl döyüşündən sonra 657-ci ilin yanvar ayında Bəsrədən Kufəyə döndü. İmamın *(ə)* müharibə və qırğına yol verməmək səyləri müvəffəqiyyətsiz oldu. Nəticədə İmam Əli *(ə)* İslam dövlətinin rəhbərlik mərkəzini Mədinədən Kufəyə köçürdü. Bunun səbəbi isə Kufədə İmamın *(ə)* tərəfdarlarının daha çox olması və Kufənin daha strateji mövqeyə malik olması idi. İmam Əli *(ə)* Kufədə yığdığı ordu ilə Müaviyənin idarəsi altındakı Suriya əyalətini tutdu. Beləliklə, iki ordu Fərat sahilindəki Siffin ərazisində qarşı-qarşıya gəldi.

Aylarla sürən kiçik qarşıdurmalar, baş verən ara-sıra sakitliklər və meydan müharibələri sonda bu döyüşün zirvə nöqtəsinə - Qurani-Kərimin nizələrə taxılmasına səbəb oldu. Belə ki, Müaviyənin əsgərləri döyüşü uduzduqlarından hiylə işlədərək mizraqlarının ucuna Quranı taxmışdılar ki, bununla vəziyyəti öz xeyirlərinə dəyişsinlər. Əmr bin Asın hiyləsilə həyata keçən bu iş axırda öz "bəhrəsini" verdi, döyüşü udmaq ərəfəsində olan İmam Əli *(ə)* məcburiyyət qarşısında qalaraq Qurana "əsaslanan" bir hakim heyətinin ya-

radılmasına razı oldu və Əbu Musa əl-Əşərini nümayəndə olaraq təyin etdi. Əmr bin As isə Müaviyəni təmsil edirdi.

Qeyd etmək lazımdır ki, İmam Əlinin *(ə)* şiddətli etirazına baxmayaraq, fikrini səlis ifadə etməyi bacarmayan Əbu Musa əl-Əşərinin qoşun tərəfindən nümayəndə seçilməsi İmamın *(ə)* işini bir az da ağırlaşdırmışdı. Belə ki, Həzrət Əli *(ə)* onlara buyurdu: *"Əbu Musanı hökumətə vali etmənizi məsləhət görmürəm. O, Əmr bin Asın qarşısında çox zəifdir"*. O Həzrət *(ə)* buna qədər Əbu Musanı Kufə valiliyindən də azad etmişdi. Lakin Həzrət Əlinin *(ə)* qoşununa soxularaq Quran səhifələrini qaldırmaqla danışıqlara getməyi tələb edənlər, eləcə də bu danışıqlarda Əbu Musa əl-Əşərinin nümayəndə kimi seçilməsini əvvəlcədən planlaşdıranlar sonda hərəkətə keçərək Müaviyəyə vassallıq etdilər. Beləliklə, o Həzrətin *(ə)* da gözlədiyi kimi, bu danışıqlar Müaviyənin xeyrinə nəticələndi.

Siffin döyüşünün ən acı nəticələrindən biri də xəvaric qrupunun (xaricilik təriqəti) meydana gəlməsi oldu. Həmin radikal qrupun kiçik bir qismi Hərurə kəndinə çəkildiyi və burada toplaşdığına görə sonradan onlar Həruriyyə olaraq adlandılar.

Beləliklə, 658-ci ilin may ayında Müaviyə Suriyadakı tərəfdarlarının bir qismi tərəfindən xəlifə elan edildi. Bununla da Müaviyənin nüfuz sahəsi bugünkü İraq və Hicaza (Səudiyyə Ərəbistanının qərbi) qədər genişləndi, İmam Əlininki *(ə)* isə Kufəyə doğru daralmağa başladı. Elə bunun nəticəsi idi ki, İmam Əli bin Əbu Talib *(ə)* Siffin döyüşündən dörd il sonra (661-ci ildə) xəvaric tərəfindən şəhid edildi. Bundan sonra Müaviyənin qarşısında xəlifəliyini elan etməsi üçün heç bir maneə qalmadı və o, Əməvi xanədanının ilk xəlifəsi oldu.

Müaviyə ilə Əbuzər əl-Qəffari arasında III Xəlifə Osman bin Əffanın xilafəti dövründə baş vermiş hadisə bir daha onun dünyaya, dünya malına həris olduğunu və beytül-malı israf etdiyini deməyə əsas verir. O zaman Əbuzər Müaviyəyə etiraz etmiş və Xəlifə Osman onu Mədinəyə dəvət etdikdən sonra ər-Rəbəzəyə sürgün etdirmişdir. Vəhəb oğlu Zeyddən nəql olunur: "Rəbəzədən ötəndə Əbuzəri görüb soruşdum: "Nəyə görə səni bu yerə göndəriblər?" Cavab verdi: "Şamda idik, Qurandan ***"...(Ya Rəsulum!) Qızıl-gümüş yığıb onu Allah yolunda xərcləməyənləri şiddətli bir əzabla müjdələ!"***[101] - ayəsini oxudum. Müaviyə dedi: "Bu, bizə aid deyil, Əhli-kitabın haqqında nazil olub". Mənsə söylədim: "O, həm bizim, həm də onların haqqında nazil olub".[102]

[101] "ət-Tövbə", 34.

[102] Səhih-Buxari, c. VI, səh. 146. "Kitabut-təfsir", "Tövbə" surəsi, 34-cü ayənin təfsiri" babı.

Müaviyə və köməkçisi Əmr bin As o şəxslərdəndir ki, Peyğəmbər *(s)* onların haqqında buyurmuşdur: *"İlahi, onların ikisini də fitnə ilə devir, onları alt-üst et və Cəhənnəmə at"*.[103]

### *1.4.9. Həzrət Əli (ə) Nəhrivan döyüşündə*

Nəhrivan döyüşü Həzrət Əlinin *(ə)* xəvariclə apardığı döyüşdür. Xəvaric isə o Həzrətin *(ə)* dəstəsindən ayrılaraq nə Həzrət Əlini *(ə)*, nə də Osman bin Əffanı xəlifə olaraq qəbul etməyən bir qrup idi. İslamın ən radikal qruplarından olan xəvaric yalnız öz təriqətlərindən olanları qəbul edir, böyük günah edənlərin kafir olduğuna, onların və digərlərinin qətlinin lazım olduğuna hökm edirdilər.

Siffin döyüşündə ortaya çıxan xəvariclər bir ara tez-tez üsyan edərək Əməvi dövləti üçün təhlükəli olmuşdular. Onların əksəriyyəti bədəvilərdən ibarət idi.

Qeyd etmək lazımdır ki, Nəhrivan savaşında xəvaric məğlub olmuş və böyük itki vermişdir. Həzrət Əlinin *(ə)* ən qəddar düşməni olan xəvaric sonda İbn Mülcəmin vasitəsilə o Həzrəti *(ə)* şəhadətə yetirmişdir.

İmam Əlidən *(ə)* ayrılaraq əvvəlcə Hərurədə, sonra isə Nəhrivanda toplanan və Abdullah bin Vəhb ər-Rasibi əl-Əzdini özlərinə xəlifə seçən xəvaric müsəlman dünyasında qısa bir zamanda terror havası əsdirməyə başladı. Xəvaric qruplarına qatılmayan, liderlərini xəlifə olaraq tanımayan, İmam Əli *(ə)* və Osman bin Əffanı kafir elan edib lənətləməyən hər bir müsəlmanı kafir sayır və onları qəddarcasına öldürürdü. İlk başlanğıcda xəvaricin sayı on iki min civarında idi. İmam Əlinin *(ə)* səyləri nəticəsində onların böyük bir hissəsi üsyandan imtina edərək İmamın *(ə)* tərəfinə keçmiş, geridə isə dörd min nəfəri qalmışdı. Bütün xəbərdarlıqlara baxmayaraq, öz təcavüzkar hərəkətlərini davam etdirmələri sonda İmam Əlinin *(ə)* xəvaricin üzərinə getməsinə səbəb olmuşdu.

Nəhrivanda Həzrət Əlinin *(ə)* ordusuyla xəvaric arasında baş verən savaş o Həzrətin *(ə)* şəxsi rəşadəti və əvəzedilməz şücaəti nəticəsində xəvaric üçün tam bir məğlubiyyətlə nəticələndi. Mötəbər tarixi rəvayətlər bu savaşdan yalnız səkkiz-on xəvaricin qaça bildiyini bildirir. Məğlubiyyətdən sonra həyatda qalmağı bacaran xəvaricin azsaylı üzvləri müxtəlif yerlərə getdi və getdikləri yerlərdə sonradan çoxlu sayda xarici qruplar meydana gətirdilər.

---

[103] Müsnədi-Əhməd, c. IV, dar ihyaət-türas, ərəbi çapı, səh. 421.

Xəvaric Əməvilər və Abbasilər dövründə də çoxlu üsyana bais olmuş, xeyli müsəlmanın qanını axıtmışdır.[104]

Şəhristaniyə görə, bütün xəvaric yalnız bu üç nöqtədə vahid görüşdədir:

1. İmam Əli *(ə)* və Osman bin Əffanı, Siffindəki hakimləri - Əmr bin As və Əbu Musa əl-Əşəri - Cəməl savasına qatılan Xanım Aişə, Təlhə və Zübeyri kafir qəbul etmək;
2. Böyük günah işləyən kimsəni Cəhənnəmdə əbədi olaraq qalacaq kafirlərdən saymaq;
3. Zalım dövlət başçısına qarsı üsyanı vacib qəbul etmək.

İlk xəvaricdən sonra xaricilik təriqəti çoxlu sayda qola ayrılmışdır. Həmin qollar bunlardır: Əzrəqilər, Nəcadat, Süfriyyə, Əcaridə, İbadiyyə və Səbibiyyə.

Məşhur İslam alimi Əllamə Məclisinin yazdığına görə, Müaviyə bin Əbu Süfyan Siffin döyüşünə 120000 nəfərlik ordu çıxarmışdır. O, ordunun sağ cinahına əl-Hümeyr və Hövşəbi, sol cinaha Əmr bin As və Həbib bin Məsləməni, mərkəzi hissəyə isə Zəhhak bin Qeys əl-Fəhri və Əbdürrəhman bin Xalid bin Vəlidi qoymuşdur. Həzrət Əli *(ə)* Müaviyəyə sifariş göndərib o Həzrətlə *(ə)* təkbətək döyüşməyi təklif etsə də Müaviyə qorxusundan döyüşə getməmişdir.

Bu arada bir faktı da vurğulamaq lazımdır ki, Siffində qırx dəfə şiddətli döyüş olmuş və hər dəfə iraqlılar qalib gəlmişdir.

Əllamə Məclisi ilk döyüşün Malik Əştərlə Həbib bin Məsləmənin, ikincinin əl-Mərqalla Əvər əs-Sələminin, üçüncü döyüşün Əmmarla Əmr bin Asın, dördüncünün Məhəmməd Hənəfiyyə ilə Übeydullah bin Əmrin, beşinci döyüşün Abdullah bin Abbasla Vəlid bin Üqbənin, altıncının isə Səid bin Qeyslə əl-Həmirin arasında olduğunu yazır.

O, həmçinin Əmr bin Asın İmam Əlinin *(ə)* müqabilinə gələrək İmamla *(ə)* döyüşmək istədiyini, lakin qorxusundan geriyə qaçdığını, İmam Əlinin *(ə)* onu döyüş meydanında qovub az qala öldürəcəyi məqamda Əmrin qorxudan yerə uzanaraq şalvarını sıyırıb eyib yerlərini göstərdiyini və nəticədə İmamın *(ə)* həya edib üzünü çevirərək getməsiylə Əmrin canını qurtardığını da qeyd etmişdir.

Beləliklə, xaricilik təriqəti Siffin deyilən yerdə İmam Əli *(ə)* ilə Müaviyə bin Əbu Süfyan arasında döyüşün şiddətləndiyi zamanda ortaya çıxmışdır. Bu savaş nəticəsində Müaviyə döyüşün ağrısını dadmış, qaçmağa üz tutmuşdur. Ancaq onun yaxın köməkçisi Əmr bin Asın hiyləgər planı olan “ha-

[104] Geniş məlumat üçün bax: Təbəri, Tarix, c. VI, səh. 29.

kim təyin etmə" düşüncəsi ona bu çətin vəziyyətdən qurtarmağa kömək olmuşdur.

Müaviyənin ordusu Qurani-Kərimi "hakim təyin etmək" bəhanəsiylə nizələrin ucuna taxıb havaya qaldırdılar. İmam Əli *(ə)* isə aralarında Allah-Təala hökm verənə qədər döyüşməkdə israrlı idi. Bu hadisəni İbn Əsir belə yazır: "Əmr bin əl-As iraqlıların onların üzərinə şiddətlə hücuma keçdiyini və müharibənin onların əleyhinə dəyişdiyini gördükdə öldürülməkdən qorxmuş və Müaviyəyə belə demişdir: "Sənə bir xüsusu xatırlatmamı istərsənmi ki, bizim aramızı birləşdirsin, onları isə ikiyə bölsün və aralarına ayrılıq salsın?" Müaviyə "Bəli, istəyirəm, nədir bu?" - deyə soruşduqda Əmr belə cavab vermişdir: "Quran səhifələrini havaya qaldıraq və onları Quranın hökmlərinə dəvət edərək aramızda bu hökmlərin hakim olmasını tələb edək. Əgər onların bir qismi bu hiyləyə aldanmaz və bu hökmü qəbul etməzsə, digər bir qismi isə buna yanaşmaq istəyəcək və Quran hökmünə boyun əyməyi qəbul edəcəkdir. Beləliklə, aralarına ayrılıq düşmüş olacaq. Onlar Quran hökmlərinə müraciət etməyi qəbul etsələr, biz bir müddət savaşmaqdan nəfəs almış olarıq".

Sonra Müaviyənin ordusu Quran səhifələrini mizraqlarının uclarına taxmış və qarşı tərəfə belə səslənmişlər: "Bu, Allahın Kitabının hökmüdür. Bizim və sizin aranızda qoy bu Kitab hökm versin! Şam sərhədlərini şamlılardan, İraq sərhədlərini isə iraqlılardan başqa kim qoruya bilər?" Düşmən ordusu bu şəkildə qışqırmağa başlayanda İmam Əlinin *(ə)* ətrafında olan bəzi şəxslər demişlər: "Allahın Kitabına razılıq etməyimiz lazımdır". İmam *(ə)* dərhal buyurmuşdur: *"Ey Allahın bəndələri! Haqqınızı tələb etməyə davam edin, səmimiyyətinizi və bağlılığınızı sürdürün. Düşməninizə qarşı döyüşməyə davam edin. Mən Müaviyəni, Əmri, İbn Əbu Muaytı, Həbibi, İbn Əbu Sərhi və Zəhhakı çox yaxşı tanıyıram. Onların dinlə və Quranla heç bir əlaqəsi yoxdur. Mən onları sizdən daha yaxşı bilirəm. Onlar uşaq ikən də son dərəcə pis, şər idilər. Böyüdükdən sonra da pislik və şərliklərini davam etdirdilər. Sizə təəssüflər olsun, aldanmayasınız! Vallah bu Quran səhifələrini sırf sizi aldatmaq və sizə tələ qurmaq üçün havaya qaldırmışlar!"*

İmam Əlinin *(ə)* bu mübarək sözləri üzərinə ətrafındakı bəzi adamlar belə demişlər: "Allahın Kitabına dəvət edilib də ona razılıq etməmək bizə yaraşmaz və bunu qəbul edə bilmərik". İmam *(ə)* isə onlara buyurmuşdur: *"Mən Allahın dininə, Allahın Kitabına dönənə qədər onlarla savaşacağam. Çünki, onlar Allaha qarşı üsyan etmiş, Allahın əmrlərinə baş qaldırmış, Onun əhdini və əmrini unudaraq Kitabına müxalifət etmişlər"*. İmam Əlinin *(ə)* bu sözlərinə qarşı çıxıb sonradan xəvaric qrupunu təşkil edən Misar

bin Fədəki ət-Təmimi və Zeyd bin Hüsayn, eləcə də onlara tabe olan bəzi Quran hafizləri isə bu sözləri söyləmişlər: “Ya Əli! Allahın Kitabına razılıq et. Sən buna dəvət edildiyin halda razılıq etməzsənsə, biz səni bu qarşımızdakı qövmün arasına qatıncaya qədər oraya sürüyər və Əffan oğlu Osmana etdiyimizin eynisini sənə də edərik”.[105]

Bütün İslam məzhəblərinin mötəbər qaynaqlarında xaricilik təriqətinin ortaya çıxması barədə Peyğəmbərin *(s)* qabaqcadan xəbər verməsi və onların o Həzrət *(s)* tərəfindən lənətlənməsi haqqında səhih hədislər vardır. Əllamə Məclisi “Biharül-ənvar” əsərində “Xəvaricin öldürülməsi və onların küfrü barədə Peyğəmbərin *(s)* dedikləri” adlı fəsil açmış və burada mövzu ilə əlaqəli çoxlu sayda hədis nəql etmişdir. Həmin hədislərdən aşağıdakıları qeyd etmək olar:

Əli bin Əbi Talib *(ə)* rəvayət edir: *“Peyğəmbər buyurdu: “Ya Əli, Allah mənə əmr etdi ki, səni özümə qardaş və vəsiyyətlərimi icra edən götürüm! Sən mənim qardaşım, vəsiyyətlərimi icra edən, həyatımda və ölümümdən sonra xəlifəmsən. Hər kəs sənə tabe olsa, mənə tabe olmuşdur. Hər kəs sənə arxa çevirsə, mənə arxa çevirmişdir. Hər kəs sənə qarşı küfr etsə, mənə qarşı küfr etmişdir. Hər kəs sənə zülm etsə, mənə zülm etmişdir. Ya Əli, sən məndənsən, mən də səndənəm! Ya Əli, səni Nəhr əhli öldürəcəkdir!” Dedim: “Ya Rəsulullah! Nəhr əhli kimlərdir?” Buyurdu: “Ox yaydan çıxan kimi İslamdan çıxanlar”.*[106]

Şəhristani xəvaricin meydana gəlməsi barədə Peyğəmbərin *(s)* qabaqcadan xəbər verməsini belə yazır: “Allah Rəsulunun *(s)* *“Elə kəslər çıxar ki, namazlarının yanında namazınız, oruclarının yanında orucunuz kiçik görülər. Lakin imanları boğazlarından aşağı keçməz”* buyruğunun onlar haqqında olduğu söylənmişdir. Onlar Allah Rəsulunun *(s)* haqlarında belə buyurduğu zındıqlardır: *“Bu adamın* (Zülxuveysiranın) *soyundan elə bir qrup çıxar ki, oxun yaydan atılması kimi, dindən atılıb çıxarlar”.*[107]

Yenə də, Peyğəmbər *(s)* xəvaric barəsində buyurmuşdur: *“Xəvaric Cəhənnəm itidir”.*[108]

Həmçinin, Əbu Hüreyrənin yanında xəvaricdən danışılarkən Rəsulullah *(s)* buyurmuşdur: *“Onlar yaranmışların ən şəridir. Onların ilki Zülxuveysira, sonuncuları isə Züssüdyədir”.*[109]

---

[105] İbn əl-Əsir, əl-Kamil fit-Tarix tərcüməsi, Bahar Yayınları, c. III, səh. 295.

[106] Biharül-ənvar, c. XXXIII, səh. 196.

[107] Məhəmməd bin İsmayıl əl-Buxari, Səhihül-Buxari, darül-fikir, İstanbul-1401/1981, Tövhid-23.

[108] Biharül-ənvar, c. XXXIII, səh. 196.

[109] Abdullah bin Məhəmməd bin Əbu Şeybə əl-Kufi, Müsənnəf fil-Əhadis vəl-Asar, I çap, darulfikir, Beyrut-1409/1989, c. VIII, səh. 729.

II FƏSİL

# İMAM ƏLİ (Ə) ƏHLİ-BEYTİN (Ə) ÜZVÜ KİMİ

## *2.1. QURANİ-KƏRİMDƏ ƏHLİ-BEYT (Ə) MƏFHUMU*

Qurani-Kərimdə üç yerdə "Əhli-beyt" kəlməsinə rast gəlinir.[110] Bu ifadənin Qurandakı mənası həmin kəlmə haqqındakı ümumi anlayış və ərəb cəmiyyətinin o dövrdə həmin kəlmədən nə anlaması barədə işarələr verən əhəmiyyətli bir dəlildir.

Quranda ilk olaraq qeyd olunan ayə Həzrət İbrahimlə *(ə)* bağlı hekayədə keçən ayədir. Bu ayə Allahın göndərdiyi iki mələklə İbrahim *(ə)* və xanımının arasındakı dialoqdan bəhs edir. *"*(Mələklər ona) ***dedilər: "Allahın əmrinə*** (əmr etdiyi bir işə) ***təəccübmü edirsən? Ey ev əhli! Allahın bərəkəti və mərhəməti üstünüzdə olsun. Allah təriflənib şükür olunmağa, öyülüb mədh edilməyə layiqdir!"*** (Allahın bütün işləri bəyənilmişdir. O, tükənməz və əvəzsiz nemət, ehsan və kərəm sahibidir!)***".***[111]

Mübarək ayədə ***"ev əhli"*** (Əhli-beyt) deyə xitab edilən şəxsin Həzrət İbrahimin *(ə)* xanımı olması barədə İslam alimləri həmfikirdirlər.

Əhli-sünnə müfəssirləri bu ayənin şəxsin xanımının da onun Əhli-beytindən sayılacağının dəlili olduğu fikrini irəli sürmüşlər. İmamiyyə müfəssirləri isə Həzrət İbrahimin *(ə)* xanımının onun Əhli-beyti olduğu iddiasını irəli sürmüş və bunu Saranın İbrahimin *(ə)* əmisi qızı olması ilə əlaqələndirmişlər. Yəni, Həzrət İbrahimin *(ə)* xanımı Saraya Əhli-beyt olaraq xitab edilməsi Saranın İbrahimin *(ə)* xanımı olmasına görə yox, əmisinin qızı olmasına görədir. Bu qrupdan olan müfəssirlərə görə, şəxsin xanımı Əhli-beyti ola bilməz.

Əhli-İmamiyyədəki digər fərqli bir fikrə görə isə ayədə keçən "Əhli-beyt" ifadəsinin təkcə İbrahim peyğəmbərin *(ə)* xanımına aid olmasını iddia etmək doğru sayılmaz. Çünki, ərəb qrammatikasına əsasən, ərəbcə "əs-səlamu aleykum", yəni "salam olsun sizə" sözü qadınlara deyil, sayı üçdən az və ya çox olan kişilərə aid işlənir. Buna görə də mələklərin dediyi bu söz ya İbrahim peyğəmbərin *(ə)* həyat yoldaşına (Saraya) deyilməmiş, ya da Saradan əlavə İbrahim peyğəmbərə *(ə)* və yaxud da sonradan onlara qoşulacaq digər bir kişiyə - İshaqa *(ə)*, Yaquba *(ə)* və hətta İsmailə *(ə)* də aid edilmişdir.[112]

"Əhli-beyt" kəlməsinin keçdiyi növbəti ayələr bunlardır: ***"O,*** (Musanın Məryəm, yaxud Gülsüm adlı) ***bacısına: "Onun dalınca get!*** (Əhvalatdan xəbər tut!)***" - dedi. O da*** (saraya yol tapıb Fironun adamları onun kim olduğunu) ***hiss etmədən uzaqdan-uzağa*** (Musanı) ***gördü";***

[110] Mustafa Öz, "Ehli-Beyt", DİA, c. X, səh. 498

[111] "Hud", 73.

[112] Hacı İlqar İsmayılzadə, Əhli-Beyt Quran və Hədis Baxımından, Beynəlxalq İslam Elmləri Akademiyası Nəşri, Qum 2007, səh. 249-250; ər-Rəddül-kəbir əla məzaimi-İlahi əz-Zəhir, Beyrut, 1431/2010, c. I, səh. 74.

***“Bundan*** (anası saraya gəlməmişdən) ***qabaq Biz ona*** (Musaya) ***süd analarını*** (özgə qadınların döşünü əmməyi) ***qadağan etmişdik.*** (Musanın bacısı Firon əhlinə) ***belə dedi: “Sizin üçün o uşağa süd verməyi*** (ona baxmağı) ***təmin edəcək, həm də ona qarşı xeyirxah olacaq*** (onunla yaxşı davranacaq) ***bir ailəni*** (ev əhlini) ***sizə nişan verimmi?”***[113]

Bu ayədə “Əhli-beyt” kəlməsi Həzrət Musanın *(ə)* ailəsi və ev əhlini ifadə etmək üçün işlədilmişdir.[114] Bu mövzuda müfəssirlər arasında hər hansı bir fikir ayrılığı yoxdur.[115]

Quranda “Əhli-beyt” kəlməsinin keçdiyi üçüncü və ən son, lakin mövzumuza daha çox uyğun gələn “Əhzab” surəsinin 33-cü ayəsi olan “Təthir”dir. Bu ayənin önəmi onun Peyğəmbərin *(s)* Əhli-Beytinin *(ə)* kimlər olması barədə bizə dəqiq məlumat verməsindədir.

İmamiyyə müfəssirləri bu ayəni dəlil gətirərək Peyğəmbərin *(s)* xanımlarının o Həzrətin *(s)* Əhli-Beytdən *(ə)* olmadığı qənaətindədirlər. Buna görə də istər İmamiyyə, istərsə də Əhli-sünnə müfəssirləri ən çox bu ayənin üzərində dayanmışlar.

Digər tərəfdən Əhli-Beytin *(ə)* əhəmiyyətinin qaynağı qəbul edilən bu ayə onlardan hər cür maddi və mənəvi pisliyin uzaqlaşdırılmasının Allah tərəfindən olduğunu göstərir.[116] Ayədə buyurulur: ***“... Siz ey*** (Peyğəmbərin) ***ev əhli! Allah sizdən çirkinliyi*** (günahı) ***yox etmək və sizi tər-təmiz*** (pak) ***etmək istər!”***[117]

“Təthir” ayəsinə istinad edən Cəfərilərin görüşləri belədir:

1. Bu ayədə ifadə edilən ***“ev əhli”*** - Əhli-Beyt *(ə)* kəlməsi sadəcə Peyğəmbərə *(s)*, İmam Əli *(ə)* və Xanım Fatiməyə *(ə)*, eləcə də İmam Həsən *(ə)* və İmam Hüseynə *(ə)* aiddir:

a. Peyğəmbərin *(s)* İmam Əli *(ə)* və Xanım Fatiməni *(ə)*, həmçinin İmam Həsən *(ə)* və İmam Hüseyni *(ə)* əbası altına alması “Təthir” ayəsinin məhz bu müqəddəslərə *(ə)* aid olduğunu bildirir.

b. Heç bir səhih və mötəbər hədisdə Peyğəmbərin *(s)* həyat yoldaşları və ya Əhli-Beytindən *(ə)* başqa birisi ilə belə rəftar edib onları da “Təthir” ayəsinin bir nümunəsi kimi təqdim etməsinə rast gəlinmir.

c. Peyğəmbərin “Ali-əba *(ə)*” üçün “Təthir” ayəsinin sözləri ilə dua edib bu ayəni oxuması həqiqətdə ayədə bəyan edilmiş Əhli-Beytin *(ə)* mənasını açıqlayan sübutlardan sayılır.

---

[113] “əl-Qəsəs”, 11-12.
[114] Mustafa Öz, “Ehli-Beyt”, DİA, c. X, səh. 498.
[115] Təbərsi, Məcməül-bəyan, c. VII, səh. 332-333.
[116] Əhli-Beyt Quran və Hədis Baxımından, səh. 208.
[117] “əl-Əhzab”, 33.

2. Əhli-Beyt *(ə)* ifadəsi Rəsulullahın *(s)* xanımlarına aid deyildir. Məlum olduğu kimi, Peyğəmbər *(s)* bu ayə nazil olduqdan sonra İmam Əli *(ə)*, Xanım Fatimə *(ə)*, eləcə də İmam Həsən *(ə)* və İmam Hüseyni *(ə)* yanına çağıraraq əbasını bu müqəddəslərə *(ə)* bürümüş və buyurmuşdur: *"İlahi! Bunlar mənim Əhli-Beytimdir"*. Ümmü Sələmə Peyğəmbərdən *(s)* "Ya Rəsulullah *(s)*! Mən də Əhli-Beytdən *(ə)* sayılırammı?" - deyə soruşduqda o Həzrət *(s)* belə buyurmuşdur: *"Sən yaxşı yoldasan və yaxşılığa doğrusan"*.

Əgər "Təthir" ayəsi Peyğəmbərin *(ə)* həyat yoldaşlarına aid olsaydı, o zaman Rəsulullah *(s)* həyat yoldaşlarını da sözügedən ayənin nümunələri kimi tanıdar və hətta Ümmü Sələməni də onlardan qərar verərdi. Deməli, hədis və rəvayətlər də "Təthir" ayəsinin Peyğəmbərin *(s)* həyat yoldaşlarına aid olmadığını təsdiqləyir.

3. "Təthir" ayəsi Əhli-Beytin *(ə)* məsumiyyəti (günahsızlığı) üçün tutarlı bir dəlildir. Bu dəlil Əhli-sünnə və Əhli-imamiyyə qaynaqlarında keçən rəvayətlərə əsaslanır. Belə ki, Peyğəmbər *(s)* buyurur: *"Mən, Əli, Həsən, Hüseyn və Hüseynin nəslindən olan doqquz* (İmam *(ə) pak və məsum* (günahsız) *insanlarıq"*. Bu haqda digər bir hədisdə yenə də Peyğəmbər *(s)* buyurur: *"Məndən sonra gələcək İmamların sayı Bəni-İsrail imamlarının sayı kimi on iki nəfər olacaq. Onlar əmanətdar, təqvalı və məsumdurlar"*.[118] Bunu məntiqi olaraq belə də izah etmək olar:

a. Allah-Təala insanları hidayət etmək üçün Öz peyğəmbərlərini *(ə)* göndərmiş və onlar üçün canişinlər təyin etmişdir.

b. Peyğəmbərlər *(ə)* və onların canişinləri bilərəkdən və ya səhvən günah və səhvə yol verərlərsə, xalqın onlara qarşı olan etibarı əldən gedər.

c. Peyğəmbərlər *(ə)* və ya onların canişinləri İlahi göstərişləri xalqa çatdırmaqda səhvə və unutqanlığa yol versəydilər, o zaman xalq hidayət olunmaq əvəzinə yolunu azardı. Bu isə Allahın elçiləri olan peyğəmbərlərin *(ə)* və Onun səmavi kitablarının göndərilməsi fəlsəfəsi ilə ziddir.

ç. Allahın vəhdaniyyətini qəbul edənlərin sağlam məntiqi hökmünə əsasən, peyğəmbərlər *(ə)* və canişinlərinin məsum[119] olması labüddür.

4. İmamət və Əhli-Beyt *(ə)* arasında qırılmaz bir əlaqə vardır və İmamlar *(ə)* məsumdurlar:

a. Qurani-Kərimin bütün zaman və məkanlara aid olması. Quran elmlərinin əsas mövzularından biri də "Cəry və İntibaq"dan, yəni Qurani-Kərimin bütün zamanlar, millətlər və məkanlara aid olmasından ibarətdir. Bu qaydaya əsasən, müqəddəs Kitab yalnız müəyyən bir zaman, millət və məkana

---

[118] Əhli-Beyt Quran və Hədis Baxımından, səh. 241.

[119] Həmin mənbə, səh. 227-228.

aid deyil, əksinə bütün zaman, millət və məkanlara aiddir. Bu barədə İmam Sadiq *(ə)* buyurur: *"Quran diri və ölməzdir. Quran gecə və gündüz, Günəş və Ay kimi cərəyandadır. Quran bizim əvvəlki nəsillərimiz üçün cərəyanda olduğu kimi, sonrakı nəsillərimiz üçün də olacaqdır"*.[120]

b. Qurani-Kərimin təvili. Quran elmlərindən olan mühüm mövzulardan biri də Quranının "təvil"indən ibarətdir. "Təvil" ərəb sözü olub lüğətdə bir sözün öz zahiri mənasından incə (və batini) bir mənaya qayıtmasına deyilir. Burada Quranın təvilindən söz açmağın əsas məqsədi onun qeyd olunmuş ikinci mənasından (hər bir ayənin zahiri deyil, batinini aydınlaşdırmaqdan) ibarətdir.

c. Qurani-Kərimin zahiri və batini mənaları. Quran elmlərində mühüm mövzulardan biri də Qurani-Kərimin zahiri və batini mənalarından ibarətdir. Quranın zahiri mənası dedikdə, ayələrindən ilk baxışda bələd olunanlardır. Lakin onun sonrakı anlamları isə Quranın batini mənası adlanır. Bu isə heç də Quran ayələri və mənalarının bir-biriylə ziddiyyətdə olması mənasında deyildir. Bu barədə Qurani-Kərimdə belə bəyan olunur: ***"...Biz Quranı sənə hər şeyi (***dini hökmləri, halal-haramı, günah və savabı) ***izah etmək üçün, müsəlmanlara*** (və ya Allahın vəhdaniyyətini qəbul edən bütün insanlara) ***da bir hidayət, mərhəmət və müjdə olaraq nazil etdik!"***[121]; ***"Biz bu Quranda insanlar üçün hər cür məsəl çəkib*** (mənasını) ***onlara izah etdik..."***.[122]

Bu və ya digər ayələrdən belə anlaşılır ki, Allah-Təala Qurani-Kərimdə hər bir mövzudan söz açmışdır.

"Təthir" ayəsi nazil olduğu zaman, Əhli-Beytdən *(ə)* yalnız beş nəfər hazır olduğu üçün həmin ayə ilk növbədə bu müqəddəslərə *(ə)* şamil edilir. Lakin Quranın təvili, batini mənasına, onun bütün zaman və məkanlara aid olmasına görə isə bu ayə Əhli-Beytdən *(ə)* sayılan digər məsum İmamlara *(ə)* da aiddir".[123]

Müfəssirlər ilk olaraq bu ayənin beş nəfər haqqında - Peyğəmbər *(s)*, İmam Əli *(ə)*, Xanım Fatimə *(ə)*, İmam Həsən *(ə)* və İmam Hüseyn *(ə)* - nazil olduğunu söyləyən səhabələrdən nəql olunan mütəvatir rəvayətləri əsas götürürlər.

Ayədə ərəb dilində kişilər üçün ***"kum - كُمْ"*** əvəzliyi işləndiyindən Peyğəmbərin *(s)* xanımlarının bu kəlməyə aid olmadığı iddia edilmişdir.

Həmçinin, "Təthir" ayəsi kişilərə məxsus olan ***"ənkum və yutahhirakum"*** formasında bəyan edilmiş, Əhli-Beytin *(ə)* Allahın iradəsilə paklanma-

[120] Həmin mənbə, səh. 276.
[121] "ən-Nəhl", 89.
[122] "əl-İsra", 89.
[123] Əhli-Beyt Quran və Hədis Baxımından, səh. 276-280.

sı xüsusi şəkildə vurğulanmış, sonra isə Peyğəmbərin *(s)* həyat yoldaşlarına işarə edilərək onlara ***"vəzkurnə"***, yəni "yad edin" deyə göstəriş verilmişdir. Bütün bunlar isə "Təthir" ayəsinin Peyğəmbərin *(s)* həyat yoldaşlarına deyil, məhz çoxu kişilərdən ibarət olan Əhli-Beytinə *(ə)* aid olduğunu göstərir.

"Təthir" ayəsinin sonunda zikr olunmuş ***"təthiran"*** sözü ərəb qrammatikasına əsasən, ayədə bəyan edilən paklaşdırmaya təkid göstərən məsdərdir. Ona görə də "Təthir" ayəsi Əhli-Beytin *(ə)* hər növ maddi və mənəvi, aşkar və gizli sayılan günah, eyib, nöqsan və çirkinliklərdən uzaq olduğuna dəlalət edir.[124]

İbn Həcər əl-Əsqəlani adıkeçən ayənin təfsiri haqqında yazır:

**وفي ذكر البيت معنى اخر لان مرجع أهل بيت النبي صلى الله عليه و سلم إليها لما ثبت في تفسير قوله تعالى انما يريد الله ليذهب عنكم الرجس أهل البيت قالت أم سلمة لما نزلت دعا النبي صلى الله عليه و سلم فاطمة وعليا والحسن والحسين فجللهم بكساء فقال اللهم هؤلاء أهل بيتي الحديث أخرجه الترمذي وغيره ومرجع أهل البيت هؤلاء إلى خديجة لان الحسنين من فاطمة وفاطمة بنتها وعلي نشا في بيت خديجة وهو صغير ثم تزوج بنتها بعدها فظهر رجوع أهل البيت النبوي إلى خديجة دون غيرها.**

"Əslində "beyt" ləfzinin qeyd edilməsinin başqa bir mənası da vardır. Çünki, Peyğəmbərin *(s)* Əhli-Beytinin *(ə)* çatdığı yer odur - Xanım Xədicədir *(ə)*. Necə ki, Uca Allahın ***"... Siz ey*** (Peyğəmbərin) ***ev əhli! Allah sizdən çirkinliyi*** (günahı) ***yox etmək və sizi tər-təmiz*** (pak) ***etmək istər!"***[125] buyruğunun təfsiri ilə əlaqədar olaraq Ümmü Sələmə belə demişdir: "Bu ayə nazil olduqda Peyğəmbər *(s)* Fatiməni *(ə)*, Əlini *(ə)*, Həsən *(ə)* və Hüseyni *(ə)* çağırdı. Onların üzərini bir paltar ilə örtərək *"Ey Rəbbim! Bunlar mənim Əhli-Beytimdir"* - deyə buyurdu". Bu hədisi Tirmizi və başqaları da rəvayət etmişlər. Bütün Əhli-Beytin *(ə)* sığınacağı yer isə Xanım Xədicədir *(ə)*. Çünki, Həsənlə *(ə)* Hüseyn *(ə)* Xanım Fatimənin *(ə)* övladlarıdır. Xanım Fatimə *(ə)* də Xanım Xədicənin *(ə)* qızıdır. Həzrət Əli *(ə)* isə Xanım Xədicənin *(ə)* evində kiçik yaşlarından etibarən böyümüş, o Xanımın *(ə)* vəfatından sonra da qızıyla evlənmişdir. Beləliklə, ***"ev əhli"***nin, yəni Əhli-Beytin *(ə)* Peyğəmbərin *(s)* xanımları arasında bir başqasına deyil, yalnız Xanım Xədicəyə *(ə)* aid olduğu fikri ortaya çıxmaqdadır".[126]

İmam Zəhəbi yazır:

**وفي فاطمة وزوجها وبنيها نزلت: إنما يريد الله ليذهب عنكم الرجس أهل البيت ويطهركم تطهيرا فجللهم رسول الله صلى الله عليه وسلم بكساء وقال: اللهم هؤلاء أهل بيتي.**

---

[124] Həmin mənbə, səh. 209-211.

[125] "əl-Əhzab", 33

[126] İbn Həcər əl-Əsqəlani, Fəthül-Bari, c. VII, səh. 138.

"Fatimənin *(ə)* əri və oğulları haqqında bu ayə nazil oldu: ***"...Siz ey*** (Peyğəmbərin) ***ev əhli! Allah sizdən çirkinliyi*** (günahı) ***yox etmək və sizi tər-təmiz*** (pak) ***etmək istər!"*** Sonra Peyğəmbər *(s)* onları əba (kisa) ilə örtdü və buyurdu: *"Ey Rəbbim! Bunlar mənim Əhli-Beytimdir"*[127]

İbn Cövzi yazır:

**وفي المُراد بأهل البيت هاهنا ثلاثة أقوال: أحدها: نساء النبي صلى الله عليه وسلم ، قاله ابن عبّاس وعكرمة. فإن قيل: فكيف قال: (عَنكُم) قيل: لأن رسول الله صلى الله عليه وسلم فيهنّ، فغلّب المذكّر. والثّاني: رسول الله صلى الله عليه وسلم وعلي وفاطمة والحسن والحسين. قاله أنس وعائشة وأمُّ سلمة. والثّالث: أنّهم أهل رسول الله صلى الله عليه وسلم وأزواجُه، قاله الضحّاك. وقال الزّجاج: نساؤه والذين هم آله.**

"Əhli-Beytdən *(ə)* məqsədin kim olduğu mövzusunda üç görüş vardır: Birinci görüşə görə, bu, "Peyğəmbərin *(s)* qadınları"dır ki, o barədə İbn Abbas və İkrimədən rəvayət edilmişdir. İkincisinə gəlincə, bu, "Peyğəmbər *(s)*, Əli *(ə)*, Fatimə *(ə)*, Həsən *(ə)* və Hüseyndir *(ə)*" ki, o barədə Aişə, Ümmü Sələmə və Ənəs bin Malik fikir söyləmişlər. Üçüncü görüşə görə isə bu, "Peyğəmbərin *(s)* ailəsi və xanımları"dır ki, o haqda da Zəhhak fikir demişdir".[128]

Həmçinin, İbn Cövzi "Kəşfül-müşkil" əsərində yazır:

**قيل: عُنِيَ بأهل البيت هنا النبي صلى الله عليه وسلم وعلي وفاطمة والحسن والحسين عليهم السلام، رواه الخدري. عن النبي صلى الله عليه وسلم أنه قال "نَزَلَتِ الآيَة فِي خَمْسٍ: فِيَّ وَفِي علي وحَسَنٍ وحُسَينٍ وَفَاطِمَةَ." وهو قول جماعة من الصحابة.**

"Deyilmişdir ki, Əhli-Beyt *(ə)* Peyğəmbər *(s)*, Əli *(ə)*, Fatimə *(ə)*, Həsən *(ə)* və Hüseyndir *(ə)*. (Əbu Səid) əl-Xudri Peyğəmbərdən *(s)* belə rəvayət etmişdir: *"Bu ayə beş adam - mən, Əli, Fatimə, Həsən və Hüseyn haqqında nazil olmuşdur"*. Bu, səhabələrin fikridir".[129]

Qurani-Kərimdə Əhli-Beytin *(ə)* fəzilətini bildirən ən mühüm ayələr isə bunlardır:

**1. "Təthir" ayəsi**

Müqəddəs ayədə buyurulur:

**اِنَّمَا يُرِيدُ اللّٰهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ اَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا**

***"... Siz ey*** (Peyğəmbərin) ***ev əhli! Allah sizdən çirkinliyi*** (günahı) ***yox etmək və sizi tər-təmiz*** (pak) ***etmək istər!"***[130] Əhli-Beytin *(ə)* müsəlmanlar arasındakı yerini müəyyənləşdirən ən önəmli dəlil Qurandakı bu ayədir.

[127] əz-Zəhəbi, Tarixül-İslam, c. III, səh. 44.
[128] İbni Cövzi, Kəşfül-Muşkil, c. IV, səh. 418.
[129] Məkki bin Əbu Talib, əl-Hidayə ila buluğun-nihayə, c. IX, səh. 5834.
[130] "əl-Əhzab", 33.

Bu ayəyə bağlı olaraq Peyğəmbər *(s)* bəzi tətbiqatlar etmiş, istər məfhumun açıqlanmasına, istərsə də Əhli-Beytin *(ə)* vəziyyətinə dair diqqəti cəlb edən mənalar vermişdir. Burada üzərində dayanılan əsas xüsus ayədə keçən ***"rics* - رِجْسٌ"** kəlməsidir. Çünki, ayədə Allahın onlardan ***"rics"***in qaldırılmasını istəməsi bildirilməkdədir.

Ayədə Allah-Təala günahlar üçün ***"rics"*** (kir), təqva üçün ***"təhərə"*** (təmizlik) kəlmələrini işlətmişdir.[131]

Uca Allah şəxsən onlarla maraqlanır, onları təmizləmək, pislikdən uzaq tutmaq istəyir.[132]Əgər belədirsə, onda ***"rics"***in qaldırılmasının istənilməsi nəyi ifadə edir? Əhməd bin Məhəmməd Fəyyumi bu haqda yazır: ***"Rics"*** çirkinlik deməkdir. Nəqqaş isə onun murdar mənasında olduğunu bildirir".

Rağib əl-İsfahani bu barədə yazır: ***"Rics"*** sözü çirkin bir şeyə deyilir və dörd növdür: (İnsan) təbiəti(nin) çirkin saydığı, ağlın çirkin saydığı, şəriətin çirkin saydığı və bunların hamısının (təbiət, ağıl və şəriətin) çirkin saydığı şeylər".[133]

***"Rics"***ə misal olaraq meytəni (şəriət qaydası ilə başı kəsilməyən və ya öz-özünə ölən heyvanı) qeyd etmək olar".[134]

Qurani-Kərimdə ***"rics"*** sözü aşağıdakı məfhumlara aid edilmişdir:

- spirtli içki, qumar, büt və əzlam (fal oxları);[135]
- nifaq (ikiüzlülük);[136]
- küfr və inamsızlıq;[137]
- murdar, axıdılmış qan və donuz əti.[138]

Qeyd olunan ayələrə əsasən, Quranda işlənən ***"rics"*** sözünü iki qrupa bölmək olar:

1. Maddi çirkinlik: donuz, qan və s.
2. Mənəvi çirkinlik: küfr, nifaq və s.

Ayənin mütləq formada işləndiyini, ***"rics"*** sözünün əlif -ا və lamla-ل (ümumiyyət bildirən artikl) bəyan olunduğunu nəzərə alaraq demək olar ki, ***"rics"*** sözü maddi və mənəvi, həmçinin aşkar və gizli olmasından asılı olmayaraq hər növ günah, eyib, nöqsan və çirkinliklərə şamildir.[139]

---

[131] Muhammed Ali es-Sabuni, Safvetüt Tefasir, tərc. Sadreddin Gümüş, Nedim Yılmaz, Ensar neşriyat, İstanbul, 1995, c. V, səh. 84.

[132] Seyyid Kutub, Fi zılal-il Kuran, tərc. Heyət, Dünya yayıncılık, İstanbul, 1991, c. VIII, səh. 323.

[133] Rağib əl-İsfəhani, Müfrədati-əlfazil-Quran, səh. 342.

[134] Muammer Ertan, "Rics", ŞİA, c. V, səh. 261.

[135] "əl-Maidə", 90.

[136] "ət-Tövbə", 95.

[137] "əl-Ənam", 125; "əl-Əraf", 71.

[138] "əl-Ənam", 145.

[139] İlqar İsmayılzadə, Əhli-Beyt Quran və Hədis Baxımından, səh. 208.

Bununla yanaşı, bu söz haram, çirkin hərəkət, əzab, lənət və küfr mənalarını da əhatə edir. Quranda doqquz yerdə keçən ***"rics"*** kəlməsinin əzab mənasına gəldiyi ifadə edilərkən "Təthir" ayəsindəki bu kəlmənin maddi və mənəvi pislik mənasına gəldiyi mövzusunda müfəssirlər ortaq fikrə sahibdirlər.

Bu ayə Əhli-Beytin *(ə)* fəzilətinin qaynağıdır. Ayənin ***"innəmə - إنما"*** ədatı ilə başlaması Allahın Əhli-Beytdən *(ə)* pisliyin qaldırılmasını dilədiyini göstərir. Bu söz ərəb qrammatikasına əsasən, özündən sonrakı cümlədəki həsri bildirmək üçün işlənir və dilimizdəki "yalnız" ədatını əvəz edir. "Təthir" ayəsi də ***"innəmə"*** sözündən sonra bəyan olunduğuna görə bu ayədən iki həsr əldə etmək olar:

1. Allahın Əhli-Beytdən *(ə)* günah və nöqsanları uzaqlaşdırmaqda olan iradəsinin həsri;

2. Günah və nöqsanlardan uzaqlaşıb ismət sahibi olmağın məhz Əhli-Beytə *(ə)* aid olması.[140]

Bu ayənin nazil olmasından sonra Peyğəmbər *(s)* ən yaxınları olan İmam Əli *(ə)*, Xanım Fatimə *(ə)*, İmam Həsən *(ə)* və İmam Hüseyni *(ə)* çağıraraq üzərilərinə bir örtük örtmüş, özü də içərisinə girərək *"Ey Rəbbim! Bunlar mənim Əhli-Beytimdir. Mənə vəd etdiyini onlar üçün də vəd et. Onları hər cür nöqsandan qoru və tər-təmiz et"* - deyə dua etmişdir. Bu haqda aşağıdakı hədis qaynaqlarında keçən hədislərə baxaq:

Abdullah bin Cəfər bin Əbu Talib belə nəql edir: "Peyğəmbər *(s)* ilahi rəhmət mələyinin nazil olduğunu gördükdə buyurdu: *"Yanıma çağırın! Yanıma çağırın!"* Səfiyyə dedi: "Ya Peyğəmbər *(s)*, kimi çağıraq?!" Rəsulullah *(s)* buyurdu: *"Əhli-Beytimi - Əlini, Fatiməni, Həsəni və Hüseyni"*.[141] Bu rəvayət Ümmü Sələməyə aiddir.[142]

Həmçinin, rəvayət edilən hədisə istinad edərək yalnız adları çəkilən müqəddəslərin *(ə)* və Peyğəmbərin *(s)* Əhli-Beytdən *(ə)* olduğu məlum olur. Buna görə də ayənin mənasına tam müvafiq olduğu üçün bu dəlil qəbul edilməlidir.

**2. "Məvəddət" ayəsi**

Ayədə Allah-Təalanın buyruğu belə bəyan edilir:

**ذٰلِكَ الَّذِي يُبَشِّرُ اللّٰهُ عِبَادَهُ الَّذِينَ اٰمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ قُلْ لَا اَسْـَٔلُكُمْ عَلَيْهِ اَجْرًا اِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبٰى وَمَنْ يَقْتَرِفْ حَسَنَةً نَزِدْ لَهُ فِيهَا حُسْنًا اِنَّ اللّٰهَ غَفُورٌ شَكُورٌ**

[140] İlqar İsmayılzadə, Əhli-Beyt Quran və Hədis Baxımından, səh. 206-207.

[141] Hakim Nişapuri, əl-Müstədrək, c. III, səh. 147.

[142] Təfsiri-Süyuti, c. III, səh. 198-199; Sünəni-Tirmizi, c. XIII, səh. 248; Müsnədi-Əhməd, c. VI, səh. 306; Üsdul-qabə, c. IV, səh. 29, c. II, səh. 297; İbn Həcər, Təhzibüt-təhzib, c. II, səh. 297; Sünəni-Beyhəqi, c. II, səh. 150.

***“Allah iman gətirib yaxşı əməllər edən bəndələrinə bununla müjdə verir.*** (Ya Peyğəmbər!) ***De: “Mən sizdən bunun*** (risaləti təbliğ etməyimin) ***müqabilində qohumluq məhəbbətindən*** (Əhli-beytə sevgidən) ***başqa bir şey istəmirəm. Kim bir yaxşı iş görərsə, onun yaxşılığının savabını*** (mükafatını) ***artırarıq!” Həqiqətən, Allah bağışlayandır, qədirbiləndir!*** (Şükrün və itaətin, gözəl əməllərin əvəzini verəndir!)***”***.[143]

***“Məvəddət - مَوَدَّةٌ“*** kəlməsi ***“əl-vudd - الْوُدُّ“*** sözündən götürülüb. Məşhur ərəb alimləri, o cümlədən Rağib əl-İsfəhani və Əhməd bin Məhəmməd Fəyyumi bu sözün məhəbbət və sevgi mənasında olduğunu bildirmişlər.[144]

Ayədə keçən ***“qurba - قُرْبَى“*** kəlməsi isə ***“qurb - قُرْبٌ“*** sözündən götürülüb, yaxınlıq və qohumluq mənasını daşıyır. Rağib İsfəhani bu barədə yazır: ***“Qurb”*** (yaxınlıq) kəlməsi ***“bud - بُدٌّ“*** (uzaqlıq) kəlməsinin antonimidir. Bu kəlmə məkan, zaman, nisbət, yaxınlıq, riayət və qüdrət mənalarında işlənir”.[145]

Müxtəlif qaynaqlarda Əhli-Beytin *(ə)* fəzilət və üstünlüyünün qaynağı olaraq ifadə edilən bu ayənin mövzuyla birbaşa əlaqəsinin olduğu məlumdur. Məkkədə nazil olan “Şura” surəsindəki ayədə belə buyurulmuşdur: ***“Allah iman gətirib yaxşı əməllər edən bəndələrinə bununla müjdə verir.*** (Ya Peyğəmbər!) ***De: “Mən sizdən bunun*** (risaləti təbliğ etməyimin) ***müqabilində qohumluq məhəbbətindən*** (Əhli-beytə sevgidən) ***başqa bir şey istəmirəm. Kim bir yaxşı iş görərsə, onun yaxşılığının savabını*** (mükafatını) ***artırarıq!” Həqiqətən, Allah bağışlayandır, qədirbiləndir!*** (Şükrün və itaətin, gözəl əməllərin əvəzini verəndir!)”.[146]

Göründüyü kimi, həm ləfz, həm də məna olaraq ayənin Əhli-Beytlə *(ə)* əlaqəsi vardır. Buna görə də mətndə keçən ***“məvəddət”*** kəlməsindən ötrü İslam istilahında “Məvəddət” adıyla məşhur olan bu ayə Əhli-Beytin *(ə)* fəziləti üçün dəlil göstərildiyi hər yerdə verilmiş, istilahın ayrılmaz parçası halına gəlmişdir.

Zəməxşəri “Məvəddət” ayəsinin təfsirində yazır ki, rəvayətə əsasən, bu ayə nazil olanda soruşdular: “Ya Rəsulullah *(s)*! Məhəbbəti bizə vacib olan yaxınların kimlərdir?” Peyğəmbər *(s)* buyurdu: *“*(Onlar) *Əli, Fatimə və onun iki oğlanlarıdır* (Həsən *(ə)* və Hüseyn *(ə)*”.[147]

İmam Əlidən *(ə)* nəql olunan rəvayət də buna dəlalət edir. İmam *(ə)* buyurur: *“Peyğəmbərə xalqın mənim haqqımda həsəd etdiklərindən şikayət*

[143] “əş-Şura”, 23.
[144] Rağib əl-İsfəhani, Müfrədat, səh. 860.
[145] Həmin mənbə, səh. 663.
[146] “əş-Şura”, 23.
[147] İbn Kesir, Kurani-Kerim Tefsiri, c. XIII, səh. 7099.

*etdikdə, Allahın Rəsulu buyurdu: "Sən dörd nəfərdən biri olmağına razı deyilsənmi? Behiştə daxil olan ilk şəxs mən, sən, Fatimə, Həsən və Hüseyn olacaqdır. Həyat yoldaşlarımız sağ və sol tərəfimizdən, övladlarımız isə onların ardından gələcəklər".*

Yuxarıda qeyd etdik ki, adıçəkilən ayədə ***"yaxınlarım"*** ifadəsindən məqsəd Əhli-Beytdir *(ə)*. Bu mövzu barəsində bütün qaynaqlarda hədislər mövcuddur və həmin hədislər ən azından məşhur səviyyəsinə çatmışdır.

Ayənin təfsiri haqqında İmamiyyə təfsir və hədis kitablarında dəyişik yollardan bir çox hədis rəvayət edilmişdir. Bu hədisləri İmam Rza *(ə)*, İmam Hadi *(ə)* və İmam Əsgərinin *(ə)* səhabələrindən olan Himyəri (öl. 300 h/q.), İmam Məhəmməd Təqinin *(ə)* səhabələrindən olan Bərqi (öl. 274 h/q.), Əli bin İbrahim əl-Qumi, Firat bin İbrahim əl-Kufi, Küleyni və Müfid kimi mühəddislər, təfsirçilər rəvayət etmişlər.

Abdullah bin Cəfər əl-Himyəri "Qürbul-isnad" kitabında yazır:

**هارون بن مسلم قال: وحدثني مسعدة بن صدقة قال: حدثنا جعفر، عن آبائه: أنه لما نزلت هذه الآية على رسول الله صلّى الله عليه وآله: (قُل لا أسئلُكم عَليهِ أجراً إلا المَودَّةَ في القُربى) قام رسول الله صلّىالله عليه وآله فقال: "أيها الناس إن الله تبارك وتعالى قد فرض لي عليكم فرضاً، فهل أنتم مؤدوه؟ قال: فلم يحبه أحد منهم، فانصرف فلما كان من الغد قام فيهم فقال مثل ذلك، ثم قام فيهم فقال مثل ذلك في اليوم الثالث، فلم يتكلم أحد. فقال: يا أيها الناس، إنه ليس من ذهب ولا فضة ولا مطعم ولا مشرب. قالوا: فألقه إذاً. قال: "إن الله تبارك وتعالى أنزل عليّ (قُل لا أسئلكم عليه أجراً إلاَ المَودَّةَ في القُربى) فقالوا: أما هذه فنعم فقال أبو عبد الله: فو الله ما وفى بها إلا سبعة نفر: سلمان، وأبو ذر وعمار والمقداد بن الأسود الكندي، وجابر بن عبد الله الأنصاري، ومولى لرسول الله صلّى الله عليه واله يقال له الثبيت، وزيد بن أرقم.**

"Mən Harun bin Müslimdən, o, Məsədə bin Sədəqədən, o, Cəfərdən *(ə)* - İmam Cəfər Sadiq *(ə)* - o da atasından rəvayət edib buyurdu ki, ***"...Mən sizdən bunun*** (risaləti təbliğ etməyimin) ***müqabilində qohumluq məhəbbətindən*** (Əhli-beytə sevgidən) ***başqa bir şey istəmirəm..."*** [148] *ayəsi nazil olunca Peyğəmbər ayağa qalxaraq belə buyurdu: "Ey insanlar! Allah üzərinizə mənimlə əlaqədar bir vacib yükləmişdir. Onu yerinə yetirməzsinizmi?" Onlardan kimsə Peyğəmbərin bu sualına cavab vermədi. Bunun üzərinə Peyğəmbər ayrılıb getdi. Sonrakı gün təkrar danışmaq üçün ayağa qalxdı və eyni sözlər söylədi. Üçüncü gün də bənzər sözlər söylədi. Heç kim cavab vermədi. Bunun üzərinə Peyğəmbər buyurdu: "Ey insanlar! Sizə yüklənən yük qızıl, gümüş, yemək və içəcək deyil". İnsanlar dedilər: "Elə isə məsuliyyətimizi bildir". Peyğəmbər buyurdu: "Allah mənə* ***"...Mən sizdən bunun*** (risaləti təbliğ etməyimin) ***müqabilində qohumluq məhəbbətindən***

[148] "əş-Şura", 23.

(Əhli-beytə sevgidən) ***başqa bir şey istəmirəm..."*** *ayəsini endirdi". İnsanlar dedilər: "Əgər məsələ budursa, asandır".* Sonra Əbu Abdullah *(ə)* - İmam Cəfər Sadiq *(ə)* - buyurdu: *"Allaha and olsun ki, sözündə ancaq yeddi adam dayana bildi ki, onlar da bu kəslər idi: Salman, Əbuzər, Əmmar, Miqdad bin Əsvəd əl-Kindi, Cabir bin Abdullah əl-Ənsari, Peyğəmbərin məvalisi Sabit və Zeyd bin Ərqəm".*[149]

Bu ayənin təfsiri haqqında bir başqa hədisi Küleyninin müəllimi Əli bin İbrahim əl-Qumi öz təfsir kitabında belə rəvayət etmişdir:

**حدثني أبي عن ابن أبي نجران عن عاصم بن حميد عن محمد بن مسلم قال: سمعت أبا جعفر عليه السلام يقول في قول الله " قل لا أسألكم عليه أجرا إلا المودة في القربى يعني في أهل بيته .**

"Atam mənə İbn Əbi Nəcrandan, o, Asim bin Hümeyddən, o da Məhəmməd bin Müslimdən belə nəql etdi: "Əbu Cəfərdən *(ə)* - İmam Baqir *(ə)* - ***"...Mən sizdən bunun*** (risaləti təbliğ etməyimin) ***müqabilində qohumluq məhəbbətindən*** (Əhli-beytə sevgidən) ***başqa bir şey istəmirəm..."***[150] ayəsi haqqında belə buyurduğunu eşitdim: *"Yəni, Əhli-Beytim üçün".*[151]

Bu hədisin də sənədində yer alan ravilərin hamısı siqə (etibarlı) və isnadı müttəsildir (ardıcıldır).

Qeyd etdiyimiz kimi, "Məvəddət" ayəsinin təfsirində bütün məzhəblərin qaynaqlarında hədislər çoxdur. Bu haqda İbn Əbu Xatəm, Təbərani, Hakim, Təbəri və Əhməd kimi mühəddislər İbn Abbas, İmam Həsən *(ə)* və İmam Səccaddan *(ə)* müxtəlif sənədlərlə hədislər rəvayət etmişlər.

Heysəmi "Məcməüz-Zəvaid" adlı əsərində nəql edir:

**عن أبي الطفيل قال: خطبنا الحسن بن علي بن أبي طالب فحمد الله وأثنى عليه وذكر أمير المؤمنين عليا رضي الله عنه خاتم الأوصياء ووصي الأنبياء وأمين الصديقين والشهداء ثم قال وأنا من أهل البيت الذين افترض الله عز و جل مودتهم وولايتهم فقال فيما أنزل الله على محمد صلى الله عليه و سلم: قل لا أسألكم عليه أجرا إلا المودة في القربى.**

Əbu Tüfeyl dedi: "Həsən bin Əli *(ə)* insanlara xütbə söylədi. Allaha həmd və səna etdikdən sonra *"Nəbilərin qəyyumu, siddiqlərin və şəhidlərin əmini şəhid oldu"* - deyə Əmirəl-möminin Əlini *(ə)* yad etdi və belə buyurdu: *"Mən Allahın məhəbbətini vacib etmək üçün Həzrət Məhəmmədə endirdiyi* ***"...Mən sizdən bunun*** (risaləti təbliğ etməyimin) ***müqabilində qohumluq məhəbbətindən*** (Əhli-beytə sevgidən) ***başqa bir şey istəmirəm..."***.[152] *ayəsində bildirilən Əhli-Beytdənəm".*

---

[149] Himyəri, Qurbul-isnad, səh. 113-114, hədis № 254.

[150] "əş-Şura", 23.

[151] Əli bin İbrahim əl-Qumi, Təfsiri-Qumi, c. II, səh. 275-276.

[152] "əş-Şura", 23.

Hədisi nəql etdikdən sonra Heysəmi deyir:

**ورواه احمد باختصار كثير واسناد احمد وبعض طرق البزار والطبراني في الكبير حسن.**

"(Bu hədisi) Əhməd ixtisarla rəvayət etmişdir. Əhmədin sənədi, Bəzzarın bəzi təriqləri və Təbəraninin "əl-Möcəmül-kəbir"dəki təriqi həsəndir".

Həmçinin, Peyğəmbərin *(s)* belə buyurduğu nəql olunmuşdur: *"Cənnət Əhli-Beytimə zülm edən və Əhli-Beytimə görə məni incidənlərə haram olmuşdur"*.

Peyğəmbər *(s)* digər bir hədisində belə buyurur:

**قال رسول الله صلى الله عليه وآله وسلم ((ألا ومن مات على حب آل محمد، مات شهيداً،ألا ومن مات على حب آل محمد، مات مغفورا له، ألا ومن مات على حب آل محمد، مات تائبا، ألا ومن مات على حب آل محمد، مات مؤمنا مستكمل الإيمان، ألا ومن مات على حب آل محمد، بشره ملك الموت بالجنة ،ثم منكر ونكير، ألا ومن مات على حب آل محمد، يزف إلى الجنة كما تزف العروس إلى بيت زوجها، ألا ومن مات على حب آل محمد، جعل الله زوار قبره ملائكة الرحمة، ألا ومن مات على حب آل محمد، مات على السنة والجماعة، ألا ومن مات على بغض آل محمد جاء يوم القيامة مكتوب بين عينيه (آيس من رحمة الله) ألا ومن مات على بغض آل محمد، مات كافرأ، ألا ومن مات على بغض آل محمد، لم يشم رائحة الجنة)).**

*"Hər kim Ali-Muhəmmədin məhəbbəti ilə ölsə, şəhid kimi ölmüşdür"*;

*"Agah olun! Hər kim Ali-Muhəmmədin məhəbbəti ilə ölsə, tövbə etmiş halda ölər"*;

*"Agah olun! Hər kim Ali-Muhəmmədin məhəbbəti ilə ölsə, imanı kamilləşmiş mömin kimi ölər"*;

*"Agah olun! Hər kim Ali-Muhəmmədin məhəbbəti ilə ölsə, ölüm mələyi, sonra münkər və nəkir ona Behişt müjdəsi verər"*;

*"Agah olun! Hər kim Ali-Muhəmmədin məhəbbəti ilə ölsə, gəlin bəy evinə aparılan kimi* (hörmətlə) *Behiştə aparılar"*;

*"Agah olun! Hər kim Ali-Muhəmmədin məhəbbəti ilə ölsə, Allah-Təala onun qəbrini mələklər üçün ziyarətgah edər"*;

*"Agah olun! Hər kim Ali-Muhəmmədin məhəbbəti ilə ölsə, Sünnə və camaat əsasında ölmüşdür"*;

*"Agah olun! Hər kim Ali-Muhəmmədin düşmənçiliyi ilə ölsə, Qiyamət günü alnında "Allahın rəhmətindən naümid" sözü yazılan halda gələr"*;

*"Agah olun! Hər kim Ali-Muhəmmədin düşmənçiliyi ilə ölsə, kafir halında ölmüşdür"*;

*"Agah olun! Hər kim Ali-Muhəmmədin düşmənçiliyi ilə ölsə, Behiştin ətrini dadmaz"*.[153]

[153] Carullah Zəməxşəri, Təfsirul-Kəşşaf, darül-kutubil-elmiyyə, Beyrut, 1995, c. IV, səh. 213-214; Qunduzi əl-Hənəfi, Yənabiul-məvəddət, c. I, səh. 21; İbn Həcər əl-Heysəmi, əs-Səvaiqül-mühriqə, səh. 232.

**3. “Mübahilə” ayəsi**

“Mübahələ” ərəb sözü olub, hər hansı bir şeyi öz başına qoymaq və azadlığa buraxmaq mənasını verir. Bu sözün hərfi mənalarından biri də dişi heyvanın döşündən balası rahat qidalansın deyə onu bağlamayıb azad buraxmaqdan ibarətdir. Belə bir dişi heyvan ərəb dilində “bahil” adlanır. “Bahil” sözünün lüğəvi mənası isə “qarğış etmək” anlamına işarədir.

Dini istilah kimi bu söz hər hansı bir fərdi, ictimai, dini və s. işlərdə bir-biri ilə ixtilaf edən iki nəfər və ya iki dəstənin bir-birinə Allah dərgahından qarğış etməsini və yalançı (zülmkar) şəxsi və ya dəstənin rüsvay və Allahın əzabına düçar olmasını diləməsinə deyilir.[154]

Mübahilə hadisəsi Peyğəmbərin *(s)* nəcranlı xristianlarla görüşməsi və onları mübahələyə (qarğışa) çağırmasıdır.[155] Peyğəmbərin *(s)* Həzrət İsa *(ə)* haqqındakı həqiqətləri qəbul etməyən nəcranlı xristianları[156] qarğışa çağırmaq istədiyindən həmin ayə “Mübahilə” ayəsi kimi başa düşülür.[157]

İslam Peyğəmbəri *(s)* müqəddəs dini təbliğ üçün ətrafdakı qəbilə və dəstələrə göndərdiyi məktublardan birini də Nəcranda yaşayan xristianlara göndərmişdir. Buna görə də hicrətin 9-cu ilində nəcranlılar qəbilə başçıları ilə Mədinəyə gəlmişdilər. Onlar Peyğəmbərdən *(s)* İsanın *(ə)* atasının kim olduğunu soruşmuş,[158] Rəsulullah *(s)* isə cavab verməmişdir.[159] “Ali-İmran” surəsinin ilk 80 ayəsinin bu hadisədən sonra nazil olduğu bildirilir.[160] Nazil olan bu ayələrdən birisinə - **“**(İsanın Allahın qulu və peyğəmbəri olması barədə) ***sənə göndərilən elmdən*** (məlumatdan) ***sonra buna*** (İsanın əhvalatına) ***dair səninlə mübahisə edənlərə de: “Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı, biz də qadınlarımızı, siz də qadınlarınızı, biz də özümüzü, siz də özünüzü*** (bura) ***çağıraq! Sonra*** (Allaha) ***dua edib yalançılara Allahın lənət etməsini diləyək!”***[161] uyğun olaraq Peyğəmbər *(s)* onları mübahələyə çağırmışdır.[162] İslam tarixi qaynaqlarında bu hadisədən sonra

---

[154] Əhli-Beyt Quran və Hədis Baxımından, səh. 288-289.
[155] Taberi, Tefsiri-Taberi, c. I, səh. 256.
[156] M.Ali Haşimi, Kuranda Resulullah, tərc. Nurettin Yıldız, Risale yayınevi, İstanbul, tarixsiz, səh. 92.
[157] Heyət, Kuran Yolu Türkçə Meal ve Tefsir, Diyanet İşleri Başkanlığı yayınları, Ankara, 2006, c. I, səh. 589.
[158] İbn Kesir, Kurani Kerim Tefsiri, c. IV, səh. 1266.
[159] İbni Hişam, İslam Tarihi, Sireti İbni Hişam, tərc. Hasan Ege, Kahraman yayınları, İstanbul, 2001, c. II, səh. 291.
[160] Muhammed Hamidullah, İslam Peygamberi, tərc. Salih Tuğ, V baskı, İrfan yapımcılık ve ticaret, İstanbul, 1993, c. I, səh. 620.
[161] “Ali-İmran”, 61.
[162] İsmail Hakkı Bursevi, Ruhul Beyan, tərc. Heyət, Erkam yayınları, İstanbul, 2005, c. III, səh. 139-140.

Rəsulullah *(s)* yanına İmam Əlini *(ə)*, Xanım Fatiməni *(ə)*, İmam Həsən *(ə)* və İmam Hüseyni *(ə)* alaraq[163] onlarla mübahələyə getmişdir.[164]

Qaynaqların hamısında nazil olan ayə ilə nəql edilən hadisə bir-biri ilə əlaqələndirilmiş, ayədəki ləfzlərdən ***"əbnaənə"*** ilə İmam Həsən *(ə)* və İmam Hüseynin *(ə)*, ***"nisaənə"*** ilə Xanım Fatimənin *(ə)* və ***"ənfusənə"*** ilə İmam Əlinin *(ə)*[165] nəzərdə tutulduğu bildirilmişdir.[166]

İbn Kəsirin təfsirində də ayədəki ləfzlərdən məqsədin Əli *(ə)*, Fatimə *(ə)*, Həsən *(ə)* və Hüseyn *(ə)* olduğu göstərilir.[167]

"Mübahilə" ayəsi İmam Həsən *(ə)* və İmam Hüseynin *(ə)* Peyğəmbərin *(s)* oğulları olmasına dəlalət edir. Rəsulullah *(s)* oğullarını çağıracağını vəd etdikdə Həsənlə *(ə)* Hüseyni *(ə)* çağırmışdır. Allah-Təala "Ənam" surəsinin 84 - 85-ci ayələrində İbrahim peyğəmbərin *(ə)* övladlarını sayarkən İsa peyğəmbəri *(ə)* də xatırlamışdır. Həzrət İsanın *(ə)* İbrahim peyğəmbərə *(ə)* ata tərəfdən deyil, ana tərəfindən bağlı olduğu məlumdur. O halda bu ayə bir kəsin qızının oğlunun öz oğlu yerində olduğuna da dəlalət etməkdədir. Peyğəmbərin *(s)* bu mübahiləyə İmam Həsənlə *(ə)* İmam Hüseyni *(ə)* aparmasının hikmətinə gəldikdə isə məlumdur ki, bu İmamların *(ə)* Allah dərgahında məqamları ucadır. Bundan başqa, Peyğəmbərin *(s)* uşaqlarını və nəvələrini o mübahiləyə aparması və onlara *"Siz də mənim duama amin deyin"* buyurması kafirləri son dərəcədə qorxutduğu kimi, Peyğəmbərin *(s)* özünün tam haqlı olduğuna güvəndiyinin də qüvvətli bir dəlilidir.[168]

Zəməxşəri bu ayə ilə İmam Əli *(ə)*, Xanım Fatimə *(ə)*, İmam Həsən *(ə)* və İmam Hüseynin *(ə)* fəzilətlərinin ən gözəl şəkildə ortaya qoyulduğu fikrindədir.[169]

**4. "İkmal" ayəsi**

Bu mübarək ayə Əhli-Beytin *(ə)* vilayəti haqqında nazil olanlardandır. Allah-Təala ayədə belə bəyan edir:

**الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الْإِسْلَامَ دِينًا**

***"...Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi*** (Məkkənin fəthi, İslamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyət dövrünün bir

---

[163] Celaleyn, Tefsiri Celaleyn, tərc. Ali Rıza Kaşeli, Fatih Enes Kitabevi, İstanbul, 1997, c. I, səh. 211.

[164] Razi, Tefsiri Kəbir Məfatihul Ğayb, tərc. Heyət, Akçağ yayınları, Ankara, 1994, c. VI, səh. 370-371.

[165] Sünəni-Tirmizi, Təfsirül-Quran, 7.

[166] Əhli-Beyt Quran və Hədis Baxımından, səh. 296.

[167] İbn Kesir, Kurani Kerim Tefsiri, c. IV, səh. 1271.

[168] Mahmud Ustaosmanoğlu, Ruhul-Furkan Tefsiri, Siraç Kitabevi, İstanbul, 1991, c. III, səh. 571.

[169] Zəməxşəri, Təfsirül-Kəşşaf, c. I, səh. 363.

sıra zərərli adətlərinin aradan qaldırılması və i. a.) ***tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim...”***.[170]

Bu ayənin yuxarıda söylədiyimiz kimi, Qədir-Xumda, İmam Əlinin *(ə)* vilayətinin elanından sonra nazil olduğu bütün məzhəblərin qaynaqlarında səhih hədislərlə sabitdir. Həmin hədislərdən bəziləri aşağıdakılardır:

Hədis və təfsir alimlərindən olan Firat bin İbrahim əl-Kufi, Əyyaşi, Qumi və Küleyni başda olmaqla bir çoxları bu ayənin Qədir-Xumda nazil olduğuna dair hədislər rəvayət etmişlər. Küleyninin rəvayət etdiyi hədisdə nəql olunur:

**علي بن إبراهيم، عن ابيه، عن ابن أبي عمي، عن عمر بن اذينة، عن زرارة والفضيل بن يسا، وبكير بن أعين ومحمد بن مسلم وبريد بن معاوية وأبي الجارود جميعا عن أبي جعفر (عليه السلام) قال: أمر الله عزوجل رسوله بولاية علي وأنزل عليه " إنما وليكم الله ورسوله والذين آمنوا الذين يقيمون الصلاة ويؤتون الزكاة " وفرض ولاية أولي الامر، فلم يدروا ما هي، فأمر الله محمدا (صلى الله عليه وآله) أن يفسر لهم الولاية، كما فسر لهم الصلاة، والزكاة والصوم والحج، فلما أتاه ذلك من الله، ضاق بذلك صدر رسول الله (صلى الله عليه وآله) وتخوف أن يرتدوا عن دينهم وأن يكذبوه فضاق صدره وراجع ربه عزوجل فأوحى الله عزوجل إليه " يا أيها الرسول بلغ ما أنزل إليك من ربك وإن لم تفعل فما بلغت رسالته والله يعصمك من الناس " فصدع بأمر الله تعالى ذكره فقام بولاية علي (عليه السلام) يوم غدير خم، فنادى الصلاة جامعة وأمر الناس أن يبلغ الشاهد الغائب.**

“…Ömər bin Üzeynə Zürarədən, Füzeyl bin Yəsar, Bükeyr bin Əyən, Məhəmməd bin Müslim, Büreyd bin Müaviyə və Əbülcaruddan, onlar da Əbu Cəfərdən *(ə)* - İmam Baqir *(ə)* - belə rəvayət etmişlər: *“Allah Peyğəmbərinə Əlinin vilayətini əmr etdi və ona bu ayəni endirdi:* ***“Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki,*** (Allaha) ***namazı qılır və rükuda olduqları halda zəkat verirlər”***.[171] *Ayrıca, bu, əmr sahibinin vilayətini vacib qıldı. Lakin müsəlmanlar bunun nə demək olduğunu anlamadılar. Bunun üzərinə Allah Həzrət Muhəmmədə namazı, zəkatı, orucu və Həcci açıqladığı kimi, vilayəti də açıqlamasını əmr etdi. Bu əmr Allah tərəfindən gəldikdə Peyğəmbərin qəlbi həmin əmrin qarşısında daraldı, bunu duyan bəzi kimsələrin dinlərindən dönmələrindən və özlərinə yalan satmalarından dolayı təşviş keçirdi. Rəsulullahın qəlbi bu təşvişlə sıxıldığından Rəbbinə müraciət etdi. Allah Peyğəmbərə bu ayəni nazil etdi:* ***“Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni*** (Quranı) ***təbliğ et. Əgər*** (bunu) ***etməsən,*** (Allahın) ***risalətini*** (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) ***yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq...”***.[172] *Bundan sonra Peyğəmbər Allahın əmrini açıq bir şə-*

---

[170] “əl-Maidə”, 3.
[171] “əl-Maidə, 55.
[172] “əl-Maidə”, 67.

*kildə bəyan etdi, Qədir-Xum günündə Əlinin vilayətini elan etdi. Bu səbəblə insanları camaat namazına çağırdı və hazır olanların orada olmayanlara bunu çatdırmasını əmr etdi:*

**قال عمر بن اذنية: قالوا جميعا غير أبي الجارود – وقال أبوجعفر (عليه السلام): وكانت الفريضة تنزل بعد الفريضة الاخرى وكانت الولاية آخر الفرائض، فأنزل الله عزوجل "اليوم أكملت لكم دينكم وأتممت عليكم نعمتي" قال أبوجعفر (عليه السلام): يقول الله عزوجل: لا انزل عليكم بعد هذه فريضة، قد أكملت لكم الفرائض.**

Ömər bin Üzeynə nəql edir: "Əbu Caruddan başqa hamısı deyib: "Əbu Cəfər *(ə)* - İmam Baqir *(ə)* - belə buyurdu: *"Vaciblər bir-birlərinin ardınca nazil olardı. Vilayət fərzlərin ən sonuncusudur. Allah bu ayəni endirdi:* ***".... Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi*** (Məkkənin fəthi, İslamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyət dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i. a.) ***tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim...".***[173] *Yaradan bu ayədə bizə bunları buyurur: Bundan sonra üzərinizə hər hansı bir vacib enməyəcəkdir. Artıq sizin üçün vacibləri kamala yetişdirdim".*[174]

Xatırladaq ki, bu hədisin sənədindəki bütün ravilər siqədir (etibarlı), isnadı isə müttəsildir. Əllamə Məclisi "əl-Kafi"nin şərhi olan "Miratul-üqul" kitabında hədis haqqında yazır:

**الحديث الرابع: حسن**

"Dördüncü hədis: həsəndir".[175]

Həmçinin, Şeyx Hadi ən-Nəcəfi bu hədisi "Mövsuat əhadisi Əhli-Beyt *(ə)*" adlı kitabında "əl-Kafi"dən nəqlən rəvayət etdikdən sonra deyir:

**الرواية صحيحة الإسناد**

"Rəvayətin sənədi səhihdir".[176]

Adıçəkilən ayənin Qədir-Xum günü nazil olduğuna dair İbn Mordəveyh, Xətib əl-Bağdadi, İbn Əsakir kimi təfsir və hədis alimləri Əbu Hüreyrə və Əbu Səid əl-Xudridən dəyişik sənədlərlə hədislər rəvayət etmişlər. Xətib Bağdadi belə nəql edir:

**عبد الله بن علي بن محمد بن بشران أنا علي بن عمر الحافظ أنا أبو حبشون بن موسى بن ايوب الخلال نا علي بن سعيد الرملي نا ضمرة بن ربيعة القرشي عن ابن شوذب عن مطر الوراق عن شهر بن حوشب عن ابي هريرة قال من صام يوم ثماني عشرة من ذي الحجة كتب له صيام ستين**

[173] "əl-Maidə", 3.

[174] Küleyni, əl-Kafi, c. I, səh. 173-174, hədis № 4.

[175] Əllamə Məclisi, Miratul-üqul, c. III, səh. 250.

[176] Şeyx Hadi ən-Nəcəfi, Mövsuat əhadisi Əhli-Beyt *(ə)*", c. VIII, səh. 415, hədis № 10368.

**شهرا وهو يوم غدير خم لما اخذ النبي (صلى الله عليه و سلم ) بيد علي بن أبي طالب فقال ألست ولي المؤمنين قالوا بلى يا رسول الله قال من كنت مولاه فعلي مولاه فقال عمر بن الخطاب بخ بخ لك يا ابن أبي طالب أصبحت مولاي ومولى كل مسلم فأنزل الله عز و جل " اليوم أكملت لكم دينكم " ومن صام يوم سبعة وعشرين من رجب كتب له صيام ستين شهرا وهو أول يوم نزل جبريل بالرسالة**

"…Şəhr bin Həvşəb Əbu Hüreyrədən belə nəql etdi: "Hər kim Zülhiccənin on səkkizində oruc tutarsa, qarşılığında Allah ona altmış ay oruc tutmuş kimi savab yazar. O gün Qədir-Xum günüdür, o gün Peyğəmbər *(s)* Əli bin Əbu Talibin *(ə)* əlindən tutaraq belə buyurdu: *"Mən möminlərin vəlisi deyiləmmi?"* Hazır olanlar: "Bəli, eləsən ey Allahın Rəsulu *(s)*!" deyə cavab verdilər. Rəsulullah sözünün davamında *(s) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır"* - deyə buyurdu. Ondan sonra Ömər bin Xəttab belə dedi: "Təbrik edirəm, təbrik edirəm səni, ey Əbu Talibin oğlu! Sən mənim və bütün müsəlmanların ağası oldun". Daha sonra ***"Bu gün dininizi sizin üçün kamil etdim…"*** ayəsi nazil oldu. Kim Rəcəb ayının iyirmi yeddisində oruc tutarsa, ona altı ayın orucunun savabı yazılar. Bu gün Cəbrailin *(ə)* Həzrət Muhəmmədə *(s)* ilk vəhyi gətirdiyi gündür".[177]

Bu hədisi İbn Mordəveyh öz isnadı ilə, İbn Əsakir isə öncə Xətib əl-Bağdadidən nəqlən, daha sonra isə iki dəyişik sənədlə Əbu Hüreyrədən rəvayət etmişdir.[178] Lakin təəssüflər olsun ki, bu hədisi öz təfsir kitablarında rəvayət edən İbn Kəsir və Süyuti Əbu Hüreyrə hədisinin zəif olduğunu iddia etmişlər. Süyuti bu haqda yazır:

**وأخرج ابن مردويه والخطيب وابن عساكر بسند ضعيف عن أبي هريرة.**

"İbn Mordəveyh, Xətib əl-Bağdadi və İbn Əsakir zəif isnadla Əbu Hüreyrədən rəvayət etmişlər".[179] Əllamə Əmini özünün məşhur "əl-Ğədir" kitabında bu iddiaya belə cavab vermişdir:

**قلنا: إن كان مراده من عدم الصحة غميزة في الاسناد ففيه أن رواية أبي هريرة صحيحة الاسناد عند أساتذة الفن، منصوص على رجالها بالتوثيق ، وسنفصل ذلك عند ذكر صوم الغدير.. وإن كان يريد عدم الصحة من ناحية معارضتها لما روي من نزول الآية يوم عرفة فهو مجازف في الحكم البات بالبطلان على أحد الجانبين ، وهب أنه ترجح في نظره الجانب الآخر لكنه لا يستدعي الحكم القطعي ببطلان هذا الجانب كما هو الشأن عند تعارض الحديثين ، لا سيما مع إمكان الجمع بنزول الآية مرتين كما احتمله سبط ابن الجوزي في تذكرته ص 18 كغير واحدة من الآيات الكريمة النازلة غير مرة واحدة ومنها البسملة النازلة في مكة مرة وفي المدينة أخرى وغيرها مما يأتي.**

---

177 Xətibtib əl-Bağdadi, Tarix əl-Bağdad, c. IX, səh. 222.

178 Bax: İbn Əsakir, Tarixi-Diməşq, c. 42, səh. 233-234.

179 Süyuti, əd-Durrul-mənsur, "Maidə" 3-ün təfsiri

"Süyutiyə cavabən deyirik ki, əgər Süyutinin "səhih deyildir" sözündən məqsədi hədisin sənədinin zəif olduğudursa, onun bu sözü doğru deyildir. Çünki, Əbu Hüreyrənin rəvayəti bu sahədəki ustadların yanında sənədi səhih bir hədisdir. Həmin hədisin sənədindəki ravilər onlara görə etibarlı ravilərdir. Qədir orucunu qeyd etdiyimizdə bu mövzunu müfəssəl olaraq açıqlayacağıq... (Yox) əgər Süyuti "səhih deyildir" sözündən bu rəvayətin "İkmal" ayəsi Ərəfə günündə nazil oldu" deyən rəvayətlə zidd olduğunu qəsd edirsə, o zaman o iki tərəfdən birinin batil olduğuna qəti hökm verməklə dəlilsiz danışmış olur. İki tərəfdən birinin onun nəzərində doğru olduğunu fərz etsək belə, bu, digər tərəfin batil olduğuna qəti hökm verməyi labüd etməz. Çünki, iki hədis bir-birlərinə zidd gəldikdə, yozum belədir. Xüsusilə ayənin iki dəfə nazil olmasına ehtimal verməklə hər iki rəvayəti də qəbul etmək mümkün olursa, belə etmək lazımdır. Çünki, Sibt bin Cövzi bu ehtimalı vermişdir. Məsələn, "Bəsmələ" kimi bir çox ayə bir dəfə Məkkədə, bir dəfə Mədinədə və digər yerlərdə nazil olmuşdur".[180]

Əllamə Əmini daha sonra "Qədir günü orucunun hədisi" bölümündə bizim başda Əbu Hüreyrədən rəvayət etdiyimiz hədisin sənədini araşdırmış və hədisin sənədindəki ravilərin hamısının etibarlı ravilər olduğunu ortaya qoymuşdur. İndi də həmin hədisin sənədindəki ravilərə baxaq:

1. Hədisin ilk ravisi Əbu Hüreyrədir. Məlum olduğu kimi, o, böyük səhabədir və ən çox (5374) hədis nəql edən ravidir. Onun hədisləri Buxari və Müslimin "Səhih"lərində daha çoxdur.

2. Şəhr bin Hövşəb hədisin ikinci ravisidir və bu sözləri Əbu Hüreyrədən rəvayət edən ravidir. Zəhəbi onun haqqında yazır:

**شهر بن حوشب أبو سعيد الأشعري الشامي ، مولى الصحابية أسماء بنت يزيد الأنصارية . كان من كبار علماء التابعين.**

"Şəhr bin Hövşəb Əbu Səid əl-Əşəri əş-Şami. Səhabədən Əsma bin Yezid əl-Ənsarinin məvalisi, tabeunun böyük alimlərindəndir".

**روى حرب الكرماني ، عن أحمد بن حنبل : شهر ثقة ، ما أحسن حديثه**
**وقال الترمذي : قال محمد – يعني البخاري – : شهر حسن الحديث.**

Hərb əl-Kirmani Əhməd bin Hənbəldən rəvayət edir ki, Şəhr siqədir (etibarlıdır), hədisləri həsəndir.

Tirmizi deyir: "Buxari belə dedi: "Şəhr həsənül-hədisdir (gözəl hədis rəvayət edən)".[181]

---

[180] Əllamə Əmini, əl-Qədir, c. I, səh. 236-237.
[181] əz-Zəhəbi, Siyər, c. IV, səh. 374.

3. Mütəhhər əl-Vərraq hədisin üçüncü ravisidir. O, Şəhr bin Hövşəbin Əbu Hüreyrədən aldığı hədisi rəvayət edən ravidir. Zəhəbi onun haqqında deyir:

**مطر الوراق**
**الإمام الزاهد الصادق، أبو رجاء بن طهمان الخراساني.**

"Mütəhhər əl-Vərraq imam, zahid, sadiq Əbu Rəca bin Təhman əl-Xorasani".

**قال يحيى بن معين: صالح**
**قال الخليل بن عمر بن إبراهيم : سمعت عمي عيسى يقول : ما رأيت مثل مطر الوراق ، في فقهه وزهده وقال مالك بن دينار : رحم الله مطرا الوراق ، إني لأرجو له الجنة.**

Yəhya bin Məin deyir: "Salehdir".

Xəlil bin Ömər bin İbrahim deyir ki, İsanın belə dediyini eşitdim: "Fiqh və zöhd mövzusunda Mütəhhər əl-Vərraq mislində birisini görmədim".

Həmçinin, Malik bin Dinar deyir: "Allah Mütəhhər əl-Vərraqa rəhmət etsin, onun üçün Cənnəti arzulayıram".[182]

Mütəhhər əl-Vərraq, eyni zamanda Buxari və Müslimin ravilərindəndir.

4. Əbdürrəhman bin Şövzəb hədisin dördüncü ravisidir. Zəhəbi onun haqqında bu məlumatı verir:

**عبد الله بن شوذب البلخي، ثم البصري، الإمام، العالم أبو عبد الرحمن، نزيل بيت المقدس.**

"Əbdürrəhman bin Şövzəb əl-Bəlxi, sonra Bəsri, imam, əllamə, Əbu Əbdürrəhman Beytül-muqəddəsdə yaşamışdır".

**وثقه أحمد بن حنبل وغيره.**

Əhməd bin Hənbəl və başqalarına görə etibarlıdır (siqədir).[183]

5. Zəmrə bin Rəbiə hədisin beşinci ravisidir. Zəhəbi onun haqqında deyir:

**ضمرة بن ربيعة الإمام الحافظ القدوة ، محدث فلسطين ، أبو عبد الله الرملي.**

"Zümrə bin Rəbiə imam, hafiz, Fələstinin mühəddisi, Əbu Abdullah ər-Rümeli".

**وقال ابن معين والنسائي : ثقة**
**وقال أبو حاتم : صالح**
**وقال ابن سعد : كان ثقة**

İbn Məin və Nəsai deyir: "Siqədir (etibarlıdır)".

Əbu Hatim deyir: "Salehdir".

İbn Səd deyir: "Siqədir (etibarlıdır)".[184]

---

[182] əz-Zəhəbi, Siyər, c. V, səh. 453.
[183] əz-Zəhəbi, Siyər, c. VI, səh. 92.
[184] əz-Zəhəbi, Siyər, c. IX, səh. 326-327.

6. Əli bin Səid ər-Rümeli hədisin altıncı ravisidir və etibarlı biridir. İbn Həcər əl-Əsqəlani onun haqqında belə deyir:

**علي بن أبي حملة مولى قريش شيخ ضمرة بن ربيعة القرشي الحمصي أبو علي الرملي**

"Əli bin Əbu Həmlə… Əbu Əli ər-Rümeli.

**ما علمت به بأساً ولا رأيت أحداً إلى الآن تكلَّم فيه، وهو صالح الأمر، ولم يُخرج له أحدٌ من أصحاب الكتب الستّة مع ثقته.**

Mən onun haqqında heç pis bir şey eşitmədim və heç kimsədən onun haqqında yaxşı olmayan şey duymadım. O, saleh və siqə (etibarlı) birisidir".[185]

7. Həbşun bin Musa hədisin yeddinci ravisidir və o da etibarlı ravidir. Zəhəbi onun haqqında belə deyir:

**حبشون ابن موسى بن أيوب الشيخ ، أبو نصر البغدادي الخلالوكان أحد الثقات**

"Həbşun bin Musa bin Əyyub əş-Şeyx Əbu Nəsr əl-Bağdadi əl-Xəllal siqə (etibarlı) birisidir".[186]

8. Əli bin Ömər əd-Dəraqutni hədisin səkkizinci ravisidir. O, böyük hədis imamlarındandır və "Sünəni-Dəraqutni" adlı hədis kitabının müəllifidir.

9. İbni Büşran hədisin doqquzuncu ravisidir və etibarlı bir ravidir. Zəhəbi onun haqqında bu məlumatı verir:

**ابن بشران الشيخ العالم المعدل، المسند، أبو الحسين، علي بن محمد بن عبد الله بن بشران بن محمد بن بشر، الأموي البغدادي .قال الخطيب: كان تام المروءة، ظاهر الديانة، صدوقا ثبتا**

"İbn Büşran, Şeyx, Müsnəd, Əbülhüseyn Əli bin Məhəmməd bin Abdullah bin Büşran bin Məhəmməd bin Bişr əl-Əməvi əl-Bağdadi. Xətib (əl-Bağdadi) deyir: "Mürüvvətli, dindar, sadiq, (sabitqədəmdir) zabit".[187]

Göründüyü kimi, bu hədisin sənədindəki bütün ravilər rical elminə görə siqə (etibarlı) və fəzilət sahibi ravilərdir. Yoxsa İbn Kəsir və Süyutinin dediyi kimi, bu sənəd zəif deyildir. Üstəlik, Əbu Hüreyrənin hədisi sadəcə bir sənədlə rəvayət edilməmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, Xətib əl-Bağdadi bu hədisi bir sənədlə və İbn Əsakir də Xətib əl-Bağdadidən nəqlən rəvayət etməsinə bərabər olaraq iki dəyişik sənəd də qeyd etmişdir. Biz bu üç sənəddən sadəcə birisini incələdik və sənədindəki bütün ravilərin etibarlı olduğunu gördük. Belə olduğu təqdirdə İbn Kəsir və Süyuti necə olur ki, bu hədislərin zəif olduğunu iddia edir?!

---

[185] əz-Zəhəbi, Mizanül-etidal, c. II, səh. 224.
[186] əz-Zəhəbi, Siyər, c. XV, səh. 316.
[187] əz-Zəhəbi, Siyər, c. XVII, səh. 312.

**5. "Salavat" ayəsi**

Əhli-Beytin *(ə)* fəzilət və üstünlüyünün qeyd edildiyi qəbul edilən digər bir hədis isə "Salavat" hədisidir. Bu hədis Quranda ***"Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salavat göndərirlər*** (xeyir-dua verirlər)***. Ey iman gətirənlər! Siz də ona salavat göndərib*** (onun üçün salavat deyib) ***layiqincə salamlayın!*** (Allahummə səlli əla Muhəmmədin və ali Muhəmməd. Əssəlamu əleykə əyyuhənnəbi və rəhmətullahi və bərəkatuhu - deyin!)*"*[188] ayəsinə bağlı olaraq qeyd edilir. Bu ayə nazil olduqda müsəlmanlar Peyğəmbərin *(s)* yanına gələrək "Ya Peyğəmbər *(s)*! Sənə necə salavat gətirək?" - deyə soruşmuşlar. Peyğəmbər *(s) "Ey Rəbbim, İbrahimə və onun ailəsinə salavat etdiyin kimi Muhəmmədə və onun ailəsinə də salavat et! Sən Həmidsən, Məcidsən"* - deyə buyurmuşdur.[189]

Salavat kəlməsinin üzərində müxtəlif fikirlər var. Lakin ümumi fikrə görə, Allahın salavatı rəhmət və bəndəsinin şənini ucaltmaq, mələklərin salavatı Peyğəmbərin *(s)* şənini ucaltmaq, möminlərə rəhmət diləmək mənasındadır. Möminlərin salavatı isə dua mənasına gəlməkdədir.[190] Başqa bir görüşə görə, Allahın Peyğəmbərə *(s)* salavatı mələklərin yanında Rəsulullahı *(s)* öyməsidir. Mələklərin Peyğəmbərə *(s)* salavatı isə duadır.[191] Ayədə keçən ***"salam"*** kəlməsinin iki mənası vardır: birincisi, hər növ xəta, qüsur və əskiklikdən uzaq olmaq. İkincisi, sülh içərisində olmaq və başqasına qarşı çıxmaqdan çəkinmək. O halda Peyğəmbərə *(s)* salam əmri bu mənaya gəlir: Rəsulullahın *(s)* yaxşılıq və təhlükəsizliyi içərisində olun, Peyğəmbərə *(s)* qarşı çıxmaqdan çəkinin və səmimi şəkildə o Həzrətə *(s)* boyun əyin.

Əhli-imamiyyədə bütün təşəhhüdlərdə Ali-Muhəmmədə *(s)* salavat oxumaq vacib qəbul edilmişdir.[192] İmam Şafeinin bu mövzuda söylədiyi şeir məşhurdur.

*Ey Əhli-Beyti Rəsulullah!*
*Allahın Quranda endirdiyi ilə sizə sevgi fərzdir.*
*Bu, sizin uca fəzilətiniz üçün kifayətdir.*
*Sizə salavat gətirməyənin namazı yoxdur.*[193]

---

[188] "əl-Əhzab", 56.
[189] Səhihi-Müslim, Salat, 65-66.
[190] Mevdudi, c. IV, səh. 450.
[191] İbn Kesir, Kurani Kerim Tefsiri, c. XII, səh. 6578.
[192] Ahmet Özel, "Al", DİA, c. II, səh. 306.
[193] Varol, Kavramsal Boyut, səh. 157.

## *2.2. HƏDİSİ-ŞƏRİFLƏRDƏ ƏHLİ-BEYT (Ə) MƏFHUMU*

Əhli-Beytin *(ə)* fəzilətilə bağlı bir çox rəvayət mövcuddur. "Səqəleyn" ("Siqleyn") hədisi[194] və Qədir-Xum hadisəsi onlardan biridir.

"Səqəleyn" Əhli-Beytin *(ə)* önəm və yerini bildirən məşhur bir hədisdir. Bu rəvayət İslamın bütün mötəbər qaynaqlarında vardır. Müsəlmanlar bu hədislə Əli bin Əbu Talibin *(ə)* imamət və xilafət haqqına sahib olduğunu bildirirlər.[195]

Görkəmli tarix alimi Yəqubi "Maidə" surəsinin 3-cü ayəsinin nazil olmasından sonra Peyğəmbərin *(s)* Məkkədən hərəkət etdiyini və Zülhiccə ayının on səkkizinci günü Qədir-Xum[196] deyilən yerdə ayağa qalxıb Həzrət Əlinin *(ə)* əlindən tutaraq *"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır!*[197] *Ey Rəbbim, ona dost olana dost, düşmən olana düşmən ol!"*[198] – deyə buyurduğunu nəql edir.[199]

---

[194] Sünəni-Tirmizi, c. XIII, səh.199, mənaqibu Əhli-beytin-Nəbi fəsli; Əllamə Hindi, Kənzül-ümmal, c. I, səh. 48; Səhihi-Müslim, fəzailu-Əli bin Əbi Talib fəsli; Müsnədi-Əhməd, c. IV, səh. 336; Sünəni-Darimi, c. II, səh. 431; Sünəni-Beyhəqi, c. II, səh. 148, c. VII, səh. 130; Əllamə Seyyid Mir Hamid Hüseyn əl-Hindi "Səqəleyn" hədisi haqqında yazır: "Bu hədisi iki yüzdən artıq müsəlman alimi nəql edib (Hədisüs-Siqleyn, Qahirə, 1374/1955, səh. 9).

[195] Bu haqda "Hədisi-şəriflərdə müqəddəs şəhərlərin tarixi", Bakı, 2012, kitabına müraciət edə bilərsiniz.

[196] İbn Kesir, el-Bidaye, c. V, səh. 365.

[197] Tirmizi, Mənaqib, 46. Bu haqda bax: Abdurrahman bin Muhammed bin Haldun Hadrami, Mukaddime, tərc. Halil Kendir, Yeni Şafak yayınları, c. I, səh. 278-284.

[198] İbn Kesir, el-Bidaye, c. V, səh. 369.

[199] Qədir-Xum Məkkə ilə Mədinə arasında, Cühfə yaxınlığında yerləşir. Qaynaqlardakı rəvayətlərə görə, Peyğəmbər *(s)* Vida həccindən dönərkən burada dayanmışdır. Rəsulullah *(s)* insanlar dağılışıb getmədən bir yerə toplayaraq onlara xitab etmişdir. Peyğəmbər *(s)* xütbəsində *"Allah mənə* ***"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni*** (Quranı) ***təbliğ et. Əgər*** (bunu) ***etməsən,*** (Allahın) ***risalətini*** (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) ***yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq..."*** ("əl-Maidə", 67) *ayəsini endirdi. Cəbrail mənə Rəbbimdən bu əmri gətirdi ki, "Əli bin Əbi Talib mənim qardaşım, xəlifəm və məndən sonra İmamdır. Ey insanlar! Allah onu sizə vəli və İmam olaraq təyin etdi, ona itaət etməyi vacib etdi. Ona müxalifət edən zərərə, hörmət edən isə mərhəmətə nail olacaqdır. Dinləyin və itaət edin! Allah mövlanız, Əli isə İmamınızdır. İmamət ondan sonra onun nəslindən Qiyamətə qədər davam edəcəkdir"* - deyə buyurdu. Təfsir əhlinə görə, "Maidə" surəsinin yuxarıda qeyd etdiyimiz ayəsi İmam Əli *(ə)* haqqında nazil olmuşdur (Təbərsi, Məcməul-Bəyan, c. III, səh. 291). Peyğəmbər *(s)* öncə canişinlik məsələsini camaata çatdırmaqdan çəkinmiş və gecikdirmişdir. Lakin "Təbliğ" ayəsi nazil olduqdan sonra bu mətləbi camaata çatdırmağı nəzərə almışdır. Buna görə də ayədə ***"Allah səni insanlardan qoruyacaq"*** – deyə buyurulmuşdur. Bunun üzərinə Peyğəmbər *(s)* *"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır!"* buyurmuşdur. Bunun ardından da ***"....Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi*** (Məkkənin fəthi, İslamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyət dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i. a.) ***tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim..."*** ("əl-Maidə", 3) ayəsini oxuduğunu mənbələr qeyd edir. Bu ayə ilə Peyğəmbərin *(s)* İmam Əli *(ə)* haqqındakı sözünü bir-birinə bağlayırlar (İsmayılzadə, Əhli-Beyt, səh. 31-32). Təbərsinin təfsirində bu ayənin nazil olmasından sonra Peyğəmbərin *(s)* belə buyurdu-

Görkəmli İslam alimi İbn Kəsir əş-Şami Peyğəmbərin *(s)* Qədir-Xumda söylədiyi bu hədisə gülünc bir yozum verir. Buna səbəb olan hadisə isə belədir: "Peyğəmbər *(s)* Əlini *(ə)* Yəmənə təbliğ üçün göndərmişdi. Orada və dönüşdə səhabələrlə Əli *(ə)* arasında bəzi məsələlər yaşandı. Bunu eşidən Peyğəmbər *(s) "Ey insanlar, Əlini günahlandırmayın! Çünki, o, Allah yolunda günahlandırılmayacaq qədər dəqiqdir"* - deyə buyurdu. Ancaq bu sözlər yetərli olmadı. Bəlkə də bunu bir neçə nəfər eşitmişdi. Bu səbəblə çətinlik yenə də davam etdi.

Vida həccindən Mədinəyə qayıdarkən dəstələrdən biri Peyğəmbərə *(s)* Əlidən *(ə)* şikayət etdikdə Peyğəmbərin *(s)* üzünün ifadəsi dəyişdi və buyurdu: *"Mən möminlərə özlərindən daha yaxın deyiləmmi?"* Oradakılar təsdiqlədikdə Rəsulullah *(s) "Mən kimin rəhbəriyəmsə, Əli də onun rəhbəridir"* - deyə əlavə etdi.[200] İnsanlar Qədir-Xumda toplandıqdan sonra Peyğəmbər *(s)* İmam Əlinin *(ə)* əlindən tutdu və sözlərini təkrarladı. Beləliklə də bu məsələ həll edilmiş oldu".[201]

Zeyd bin Ərqəmdən nəql edildiyinə görə, Peyğəmbər *(s)* Qədir-Xum deyilən yerdə ayağa qalxdı və buyurdu: *"Sizin aranızda iki qiymətli əmanət qoyub gedirəm"*. Rəsulullah *(s)* sonra *"Diqqət edin insanlar! Mən də bir bəşərəm, Rəbbimin Elçisinin* (Əzrail) *gəlməsi və mənim də onun dəvətini qəbul etməyim yaxınlaşdı. Mən sizin aranızda iki qiymətli əmanət qoyub gedirəm. Onlardan biri Allahın Kitabıdır. Onda mütləq nur və hidayət vardır. Siz Allahın Kitabına möhkəm sarılın. Digəri isə Əhli-Beytimdir. Onlara sarıldığınız zamanadək əsla yolunuzu azmazsınız"* – deyə buyurdu və üç dəfə *"Əhli-Beytim haqqında sizə Allahı xatırladıram"* – deyə təkrar etdi.[202]

Yuxarıdakı mənaları özündə ehtiva edən "Səqəleyn" hədisi aşağıdakı fərqli formada müxtəlif qaynaqlarda öz əksini tapmışdır. Həmin hədislərin burada qeyd edilməsini lazım bildiyimizdən və bunun da İmamiyyənin bu məsələdəki etiqadının doğru olduğunu sübut etmək istədiyimizdən onları ərəbcə qaynaqlardan olduğu kimi qeyd edirik. Belə ki, Peyğəmbər Əhli-Beytini *(ə)* Nuhun *(ə)* gəmisinə bənzədərək onların haqqında buyurmuşdur:

**ألا انّ مثل أهل بيتي فيكم مثل سفينة نوح من ركبها نجى ومن تخلّف عنها غرق.**

ğu nəql edilir: *"Dinin kamilləşməsi, nemətin tamamlanması və Allahın mənim risalətimdən və məndən sonra Əli bin Əbi Talibin rəhbərliyindən razı qaldığı üçün Allah daha böyükdür"* (Təbərsi, Məcməül-bəyan, c. III, səh. 207). Bu kimi hadisələrlə İmam Əlinin *(ə)* xəlifəliyi irəli sürülür.

[200] Əhməd Səbri Həmədani, İslamda Cəfəri Məzhəbi və İmam Cəfər Sadiqin *(ə)* Buyruqları, tərc. Mustafa Əliyev, Ağanəcəf Həmidov, Bakı-Elm-1991, 55.

[201] İbn Kəsir, əl-Bidayə, c. V, səh. 366. Xatırladaq ki, İbn Kəsir İbn Teymiyyənin tələbəsi olmuşdur və Əhli-Beytə *(ə)* qarşı olan fikirlərində öz ustadının davamçısıdır.

[202] Səhihi-Müslim, Fəzailüs-səhabə, 44.

*“Agah olun! Əhli-Beytim sizin aranızda Nuhun gəmisi kimidir. Ona minən nicat tapar, ondan uzaqlaşan isə qərq olar”.*[203]

**انّما مثل أهل بيتي فيكم كمثل سفينة نوح من ركبها نجى و من تخلّف عنها غرق ، و انّما مثل أهل بيتي فيكم مثل باب حطة في بني إسرائيل من دخله غفر له.**

*“Əhli-Beytim sizin aranızda Nuhun gəmisi kimidir. Ona minən nicat tapar, ondan uzaqlaşan isə qərq olar. Əhli-Beytim sizin aranızda İsrail övladının Hittə qapısı kimidir. Hər kəs oradan daxil olsa, bağışlanar”.*[204]

**النجوم أمان لأهل الأرض من الغرق وأهل بيتي أمان لأُمّتي من الاختلاف ، فإذا خالفتها قبيلة من العرب اختلفوا فصاروا حزب ابليس.**

*“Ulduzlar Yer əhlini batmaqdan qoruduqları kimi, Əhli-Beytim də ümmətimi ixtilafa düşməkdən qoruyar. Ərəb qəbilələrindən hansı biri onlarla ixtilafa düşsə, Şeytanın dəstəsindən olar”.*[205]

“Səqəleyn” hədisindən anladıqlarımızı qısaca bu şəkildə ifadə etmək olar:

1) Bu hədis Əhli-Beytin *(ə)* məsum olduğunu göstərir.

2) Bu hədis Əhli-Beytin *(ə)* Qurandan ayrılmazlığına dəlalət edir.

Bu iki mənanı belə xülasə etmək olar ki, Qurani-Kərim və Əhli-Beyt *(ə)* bir-birindən ayrılmaz olan bir varlıqdır. Çünki, Peyğəmbər *(s)* əshabına ikisini birdən vəsiyyət etmişdir. Quran Allah kəlamıdır, xətadan uzaqdır, yəni məsumdur. Elə isə onun ayrılmaz bir parçası olan Əhli-Beyt *(ə)* də məsumdur. Beləcə, onlarla bağlı icma meydana çıxmışdır. Bunlardan hər ikisinə birdən tabe olmaq lazımdır. Yalnız birinə tabe olmaq doğru deyildir. Çünki, Peyğəmbər *(s)* yalnız birinə deyil, ikisinə birdən tabe olmağı əmr etmişdir.

3) Bu hədis Əhli-Beytin *(ə)* Qiyamət gününə qədər Quranın yanında olduğunu bildirir. Dövrlər içərisində bu ikisinin birgə olmadığı bir zaman yoxdur.[206]

Peyğəmbər *(s)* bu hədisiylə əshabına və müsəlmanlara Əhli-Beyti *(ə)* xüsusunda diqqətli olmalarını tapşırmışdır. “Səqəleyn” hədisi istər Kitab (Quran) və Əhli-Beytə *(ə)*, istərsə də Kitab və Sünnəyə sarılmağı ifadə edən rəvayətdir.

Lakin təəssüflər olsun ki, bu rəvayətlə əlaqəli bəhs ediləcək digər bir xüsus bəzi hədis qaynaqlarında bu rəvayətə bənzər digər bir rəvayətin fərqli şəkildə nəql edilməsidir. Belə ki, ilk dövr qaynaqlarında Peyğəmbərin *(s)* Vida həcci əsnasında verdiyi Vida xütbəsində

[203] Hakim Nişapuri, Müstədrək ələs-səhiheyn, c. III, səh. 151.
[204] Cəfər Sübhani, əl-Əqaidül-İslamiyyə, səh. 56, səfinə hədisi.
[205] İbn Həcər əl-Heysəmi, əs-Səvaiqül-mühriqə, XI fəsil, səh. 91, 142.
[206] Cemal Safuoğlu, Gadir-i Hum Meselesi, AÜİFD, XXVI, 469.

**عن إبن عباس: مرفوعاً: إني قد تركت فيكم ما إن اعتصمتم به فلن تضلوا أبداً كتاب الله وسنة نبيه (صلى الله عليه وآله).**

*"Sizin aranızda iki şey qoyub gedirəm, onlara sarıldığınız müddətcə yoldan azmayacaqsınız. Bunlar Allahın Kitabı və Rəsulunun Sünnəsidir"* - deyə buyurduğu nəql edilməkdədir.[207]

Bu barədə başqa bir rəvayət isə belədir: "Peyğəmbər *(s) "Allaha qarşı təqvalı olmanızı, başınızda həbəşli kölə olsa belə, onun əmrlərini dinləyib itaət etməyinizi tövsiyə edirəm. Çünki, məndən sonra həyatda qalanlar bir çox ixtilaflar görəcəklər. Elə isə sizə Sünnəmi və hidayət üzrə olan Xüləfayi-raşidinin sünnəsini xatırladıram, bunlara tabe olun"* - deyə buyurdu".[208]

Lakin bu rəvayətlərin heç biri hədis elminin qaydalarına cavab verməmədiyindən zəif hesab olunur. Belə ki, "Allahın Kitabı və Peyğəmbərin Sünnəsi" hədisi ən qədim hədis əsərlərindən olan Malik bin Ənəsin "Müvəttə" əsərində sənədsiz olaraq rəvayət olunub. Məlum olduğu kimi Malik adıçəkilən əsərində bəzən "Peyğəmbərdən *(s)* mənə çatmışdır ki…" formasında hədislər qeyd edib. O, belə hədislərində sənədə (isnada) riayət etmədiyindən belə hədislər zəif hesab olunur.

Bundan əlavə, qeyd olunan hədisin sənədindəki ravilər də hədis elminin üsullarına cavab vermir. Çünki, hədisin sənədindəki İkrimə əl-Mərmi yalançılıqda ittiham olunmaqla yanaşı, həm də xaricilikdə ittiham olunur. Həmçinin, sənəddə yer alan ravilərdən biri olan Əbu Üveys və onun oğlu İsmayıl bin Əbu Üveys də yalançılıqda ittiham olunublar.

Hakim Nişapuri adıkeçən əsərində Əbu Hüreyrə təriqi ilə belə nəql edir:

**إني قد تركت فيكم شيئين لن تضلوا بعدهما أبداً كتاب الله وسنتي ولن يفترقا حتى يردا عليّ الحوض.**

*"Mən sizin aranızda iki şeyi tərk edirəm. Siz onlardan sonra heç vaxt yolunuzu azmazsınız: Allahın Kitabı və Sünnəm. Onlar hovuzun kənarında mənə yetişənədək bir-birlərindən ayrılmazlar".*[209] Bu hədisin sənədində olan Saleh bin Musa ət-Təlhinin zəif ravi olması haqqında sünni alimləri də müttəfiq fikirdədirlər. Belə ki, onun haqqında İbn Muin deyir: "O, etibarlı və bir şey deyil". Əbu Hatim isə onun haqqında "Onun hədisləri inkar edilir və güvənilən şəxslərə qarşı müxalif hədislər nəql edir" sözünü demişdir. Buxari onun barəsində "Hədisləri inkar ediləndir", Nəsai isə "Hədisləri yazılmaz" demişdir.

---

[207] Səhihi-Buxari, İtisam bil-Kitab vəs-Sunnə, 1; Müstədrəki-Hakim, c. I, səh. 93.
[208] Sünəni-Tirmizi, Elm, 16; Sünəni-Əbu Davud, Sünnə, 6.
[209] Müstədrəki-Hakim, c. I, səh. 93.

Xətib Bağdadinin rəvayət etdiyi hədisin sənədində Seyf bin Ömər ət-Təmimi adlı ravi keçir.[210] Bu ravi haqqında mənbələr "məşhur yalançı və hədis uydurucusu" ifadələrini işlədirlər. Əbu Hatim onun haqqında "hədisləri tərk edilər", Əbu Davud "bir şey deyil", İbn Hibban isə "uydurma xəbərlər nəql edir" sözlərini ifadə edirlər. Hətta İbn Hibban onun haqqında yazır: "O, hədis uydurur və zındıqlıqda ittiham olunur". Dəraqutni isə onun barəsində "hədisləri tərk edilir" sözünü işlətmişdir.

Əbu Şeyxin yuxarıdakı hədisi nəql edərkən[211] sənəddə qeyd etdiyi Hişam bin Salman adlı ravi də uydurmaçıdır. Onun haqqında İbn Hibban yazır: "Onun hədisləri tərk edilər, o, güvənilən şəxslərə qarşı münfərid olaraq rəvayətlər edir". Həmçinin, bu hədisin sənədində Yezid ər-Rəqqaşi adlı zəif ravi də vardır ki, bütün rical alimləri - "Onun hədislərinə güvənmək olmaz. Çünki, o, tənə edilmişdir" deyirlər.

Hədis qaynaqlarında nəql edilən rəvayətlərdə olduğu kimi, "Qədir-Xum" rəvayətində də diqqəti cəlb edən xüsus "Muvalat" hədisi deyə adlandırılan Peyğəmbərin *(s) "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır! Ey Rəbbim, ona dost olana dost, düşmən olana düşmən ol!"* kəlamı ilə əlaqələndirilmiş olmasıdır.

Yenə də, "Səqəleyn" hədisinin "Mənzilə" hədisi olaraq adlandırılan *"Əlinin mənim yanımdakı yeri Harunun Musanın yanındakı yeri kimidir"*[212] kəlamı ilə əlaqələndirildiyi məlum məsələdir.[213] Bu haqda Cəfər Sübhani belə yazır: "Qurani-Kərim buyurduğu kimi, Musanın *(ə)* dövründə Harun *(ə)* peyğəmbərlik,[214] xilafət[215] və vəzirlik[216] məqamlarına sahib olmuşdur. Qeyd etdiyimiz "Mənzilə" hədisi İmam Əlinin *(ə)* peyğəmbərlikdən başqa Harunun *(ə)* bütün digər məqamlara sahib olduğunu isbat edir. Təbii ki, əgər məqsəd İmam Əlinin *(ə)* peyğəmbərlikdən başqa bütün məqamlara sahib olması olmasaydı, onda peyğəmbərliyi istisna etməyə heç bir ehtiyac qalmazdı".[217]

Müxtəlif mətnlərlə nəql olunmuş "Səqəleyn" hədisini sadəcə Əhli-Beyti *(ə)* sevmək və onlara ehtiram etmək kimi təfsir etmək dolğun məna verməz. Əsas məna budur ki, bu hədislərə əsasən, Əhli-Beytin *(ə)* əmrlərinə itaət etmək və onların yolunu getmək vacibdir.

---

[210] Xətib əl-Bağdadi, əl-Fiqh vəl-mütəfəqqih, c. I, səh. 94.
[211] Əbu Şeyx, Təbəqatül-mühəddisin bil-İsbahan, c. II, səh. 288.
[212] Səhihi-Buxari, Məğazi, 4415; Sünəni-Tirmizi, Mənaqib, 46.
[213] Varol, Kavramsal Boyut, səh. 141.
[214] "Məryəm", 53.
[215] "əl-Əraf", 142.
[216] "Taha", 29.
[217] Ustad Cəfər Sübhani, İslamda Əqidə Əsasları, tərc. Elşən Mustafa oğlu, Bakı, Qələm, 2003, səh. 122-123.

Yenə də, bu hədislərə əsasən, Əhli-Beytin *(ə)* Qurani-Kərimlə birlikdə zikr edilməsi Qurana ehtiram göstərib öpərək onu yuxarı başa qoymaq deyil, daim ona müraciət etmək və bu Kitabda qeyd olunan əmrlərə tabe olmaqdır. Beləliklə, zikr olunan hədislərdə Qurandan məqsəd ona itaət etməkdirsə, Əhli-Beytdən *(ə)* məqsəd də bu məsumlara *(ə)* itaət etməkdir.

Həmçinin, bu hədislərdə göstərildiyi kimi, Peyğəmbərin *(s)* tərk etdiyi "Səqəleyn"ə olduğu kimi əməl olunmaqla insanın zəlalətdən uzaq olacağı bildirilir.

Nəql olunan bütün hədislərdən görünür, bu iki əmanət - Qurani-Kərim və Əhli-Beyt *(ə)* - bir-birindən heç zaman ayrılmayacaqdır.[218]

"Mənzilə" hədisi adıyla məşhur olan rəvayət isə belədir: "Peyğəmbər *(s)* Təbuk səfərinə[219] gedərkən Əhli-Beyti *(ə)* qorumaq və münafiqlərin dövlət çevrilişinə yol verməmək üçün Həzrət Əlini *(ə)* Mədinədə öz yerinə qoymuş, o Həzrət *(ə)* də da buna rəğmən *"Ya Peyğəmbər! Məni qadın və uşaqlarla birlikdəmi buraxırsan?"* - deyə kədərini ifadə etmişdir.[220] Bunu eşidən Peyğəmbər *(s)* *"Mənim yanımda Harunun Musanın yanındakı yeri kimi bir mövqedə olmağa razı deyilsənmi? Ancaq məndən sonra nəbi gəlməyəcəkdir"*[221] – deyə buyurmuş və Həzrət Əlinin *(ə)* İslamdakı məqamını bildirmişdir".[222]

Hədisdən də göründüyü kimi, Peyğəmbərin *(s)* *"Sən mənim yanımda Harunun Musanın yanındakı yeri kimisən"* - deyə buyurması Həzrət Əlinin *(ə)* Rəsulullahdan *(s)* sonra xəlifə olmasını bəyan edir.

Nəticə olaraq "Səqəleyn" hədisinin müsəlmanlar üçün nə ifadə etdiyi mövzusunda bunları söyləmək mümkündür:

- Bu hədisdə Əhli-Beytə *(ə)* tabe olmağın lazımlığı söylənərkən Əhli-Beytin *(ə)* də kimlər olduğu xüsusu yaddan çıxarılmamalıdır.
- Əhli-Beytin *(ə)* zəlalət üzərində icma etməyəcəyi bir həqiqətdir. İslam ümmətinin ittifaq etdiyi bir xüsusda onların ixtilaf etmələri qeyri-mümkündür.
- Əhli-Beytdən *(ə)* kimlərə baxılarsa-baxılsın, bu məsumların *(ə)* Kitab və Sünnəyə uyğun hərəkət etdiklərini görərik.

---

218 Seyyid Məhəmməd Səid Təbatəbai əl-Həkim, Əqidə Axtarışında, tərc. İsrafil Məmmədli, 313 N, Bakı 2009, c. I, səh. 187-188.

219 Təbuk səfəri haqqında daha geniş məlumat üçün bax: Mahmud Sami Ramazanoğlu, Tebük Seferi, Erkam yayınları, İstanbul, 1984.

220 Adem Apak, Anahatlarıyla İslam Tarihi (Hz. Muhammed Dönemi), Ensar neşriyat, İstanbul, 2006, c. I, səh. 274-275.

221 Səhihi-Buxari, Məğazi, 4415; Sünəni-Tirmizi, Mənaqib, 46.

222 İbn Kesir, el-Bidaye, c. V, səh. 70.

- Hədislə Peyğəmbərin *(s)* Həzrət Əlini *(ə)* İmam və xəlifə təyin etdiyi düşüncəsinin əqli və nəqli izahı aydın olur.

İsa bin Abdullah bin Malik, Ömər bin Xəttabdan belə nəql edir: "Peyğəmbərin *(s)* belə buyurduğunu eşitdim: *"Ey camaat, mən yaxın zamanlarda sizin aranızdan gedəcəyəm! Qiyamətdə siz də gəlib mənə qovuşacaqsınız.* (Burada Peyğəmbər *(s)* onlara Quran və Əhli-Beytin *(ə)* hüquqlarına riayət etmək barədə çoxlu tövsiyələr etdi). Ömər deyir: "Mən, ey Allahın Rəsulu *(s)*, Əhli-Beytin kimlərdir? - deyə soruşdum. O Həzrət *(s)* buyurdu: *"Mənim Əhli-Beytim Əli, Fatimə, onların iki övladı və Hüseynin nəslindən olan doqquz nəfər əməlisaleh İmamlardır. Onlar mənim itrətim, ətim və qanımdır".*[223]

Peyğəmbər *(s)* buyurmuşdur: *"Allahı sizi nemətlərilə bəslədiyi üçün sevin. Məni Allahı sevdiyiniz üçün sevin. Əhli-Beytimi də məni sevdiyiniz üçün sevin".*[224]

Yəmən səfərindən qayıtdıqları zaman Həzrət Əlidən *(ə)* Peyğəmbərə *(s)* şikayət etmişdilər. Peyğəmbər *(s)* buyurdu: *"Mənə əziyyət etdiniz"*. Onlar "Sənə əziyyət verməkdən Allaha sığınırıq, ya Peyğəmbər *(s)*" dedikdə Rəsulullah *(s)* buyurdu: *"Kim Əliyə əziyyət edərsə, mənə əziyyət etmiş olar".*[225]

Yenə də, Peyğəmbər *(s)* buyurmuşdur:

*"Allaha and içərəm ki, Əhli-Beytə ancaq Cəhənnəmə girəcək olanlar nifrət edər".*[226]

*"Əhli-Beytim sizin üçün Nuhun gəmisi kimidir. Kim ona minərsə xilas olar, kim də ondan geri qalarsa həlak olar".*[227]

*"Sizin ən xeyirliniz mənim əhlimə ən xeyirli olanlarınızdır".*[228]

*"Kim məni, Həsən və Hüseyni, onların atasını və anasını sevərsə, Qiyamət günü mən onunla birlikdə olaram".*[229]

*"Əli məndən, mən də Əlidənəm".*[230]

*"Həsən və Hüseyn Cənnət gənclərinin ağasıdır".*[231]

*"Həsən və Hüseyn dünyada ikən qoxuladığım iki reyhanımdır".*[232]

---

[223] Şeyx Səduq, Amali, səh. 124; Amali-Şeyx Tusi, səh. 352.
[224] Sünəni-Tirmizi, Mənaqib, 46.
[225] Əhməd bin Hənbəl, Müsnəd, c. III-IV, səh. 483.
[226] Əbu Abdullah Hakim ən-Nişapuri, əl-Müstədrək ələs-Səhiheyn, Beyrut, tarixsiz, c. IV, səh. 252.
[227] Həmin mənbə, c. III, səh. 151.
[228] Həmin mənbə, c. III, səh. 311.
[229] Sünəni-Tirmizi, Mənaqib, 46.
[230] Həmin mənbə.
[231] Həmin mənbə.
[232] Səhihi-Buxari, Fəzailu Əshabin-Nəbi, 26.

Ənəs bin Malikdən belə nəql olunur: “Fatiməylə *(ə)* Həsən *(ə)* qədər Peyğəmbərə *(s)* bənzəyən kimsə yox idi”.[233]

Büreydədən nəql edilən bir rəvayətdə Peyğəmbərə *(s)* ən sevimli qadının Fatimə *(ə)*, kişinin isə İmam Əli *(ə)* olduğu bildirilmişdir.

Misvər bin Məhrəmdən nəql edildiyinə görə Peyğəmbər *(s)* *“Fatimə məndən bir parçadır. Kim onu sevindirərsə məni sevindirmiş, kim də onu incidərsə məni incitmiş olar”* – deyə buyurmuşdur.[234]

İmam Əli *(ə)* bir gün Peyğəmbərə *(s)* *“Hansımızı daha çox sevirsən, qızın Fatiməni, yoxsa ərini?”* - deyə soruşunca, Peyğəmbər *(s)* *“Fatiməni səndən daha çox sevirəm, ancaq sən də mənim yanımda ondan daha əzizsən”* - deyə cavab vermişdir.[235] Xanım Aişədən “Hansı qadın Peyğəmbərə *(s)* daha sevimli idi?” - deyə soruşulanda Aişə demişdir: “Fatimə”. “Bəs kişilərdən?” - deyə soruşulunca Xanım Aişə “Fatimənin əri!” - deyə cavab vermişdir.[236]

Peyğəmbərin *(s)* Xanım Fatimə *(ə)*, İmam Əli *(ə)* və övladlarına verdiyi dəyəri göstərən digər bir rəvayət isə “Kisa” hədisidir.[237] Hədis belədir: “Peyğəmbər *(s)* xəstələndiyi əsnada Xanım Fatimənin *(ə)* çox üzgün olduğunu görmüş, buna rəğmən *“Ya Fatimə! Dünya qadınlarının, bu ümmətin qadınlarının və möminlərin xanımlarının rəhbəri olmağa razı deyilsənmi?”* - deyə buyuraraq o Xanımın *(ə)* kədərini yüngülləşdirəcək müjdələr vermişdir.[238]

Xanım Aişədən nəql edilən bir rəvayətdə belə deyilir: “Peyğəmbər *(s)* bir gün Fatiməylə *(ə)* birlikdəykən qulağına bir şey söylədi. Fatimə *(ə)* ağlamağa başladı. Bunun ardından Peyğəmbər *(s)* təkrar onun qulağına bir şey də söylədi. Bu dəfə isə Fatimə *(ə)* gülümsədi.[239] Fatimədən *(ə)* Peyğəmbərin *(s)* nə söylədiyi soruşulduqda *“Peyğəmbərin sirrini ifşa etmərəm”* - deyə buyurdu. Peyğəmbərin *(s)* vəfatından sonra o gün nə söylədiyi təkrar soruşulduqda Fatimə *(ə)* *“Peyğəmbər ilk olaraq qulağıma hər il Cəbraillə Quranı bir dəfə oxuduqlarını, ancaq həmin il iki dəfə oxuduqlarını və əcəlinin yaxınlaşdığını hiss etdiyini söylədi.*[240] *Bu səbəblə ağlamağa başladım. Bunun ardından Peyğəmbər təkrar qulağıma əyilərək “Ya Fatimə! Bu ümmətin və möminlərin xanımlarının rəhbəri olmağa razı deyilsənmi?” buyurduqda isə xoşuma gəldi və gülümsədim”* - deyə buyurmuşdur”.[241]

---

[233] Əhməd bin Hənbəl, Müsnəd, c. IV, səh. 164.
[234] Sünəni-Tirmizi, Mənaqib, 46.
[235] Varol, Kavramsal Boyut, səh. 193.
[236] Sünəni-Tirmizi, Mənaqib, 46.
[237] Səhihi-Müslim, Fəzailüs-Səhabə, 44.
[238] Həmin mənbə.
[239] Əhməd bin Hənbəl, Müsnəd, c. V-VI, səh. 282.
[240] Həmin mənbə.
[241] Səhihi-Müslim, Fəzailüs-Səhabə, 44.

Sözügedən hədis digər bir rəvayətdə *“Əhlimdən ilk mənə qovuşacaq olan sənsən”* şəklində də keçməkdədir.[242]

Bu rəvayətlər Peyğəmbərin *(s)* Xanım Fatiməyə *(ə)* olan sevgisini və o Xanıma *(ə)* verdiyi dəyəri ifadə edərkən, eyni zamanda Xanım Fatimənin *(ə)* də atasına olan sevgisini ifadə etməkdədir. Belə ki, Xanım Aişədən nəql edilən bir rəvayətdə yeriməsi, oturması, durması, danışması, qısacası bütün hərəkətləri Peyğəmbərə *(s)* ən çox bənzəyənin Xanım Fatimə *(ə)* olduğu bildirilmişdir.[243] Xanım Aişədən gələn başqa rəvayətlərdə Peyğəmbərin *(s)* Xanım Fatimənin *(ə)* yanına girdiyi zaman Fatimənin *(ə)* ayağa qalxdığı və Rəsulullahı *(s)* qarşılayıb, *“Xoş gəldin!”* - deyə salamladığı bildirilmişdir. Xanım Aişənin “Fatimədən daha doğru sözlü bir kimsə görmədim” dediyi də nəql edilir.[244]

Nəql edilən bir rəvayətdə Xanım Fatimə *(ə) “Mən bir gün Aişənin yanında ikən Peyğəmbər gəldi və mənə “dünya qadınlarının heç birinin qarşılaşmadığı bir xəbərlə qarşılaşacaqsan. Ancaq səbirdə onların ən aşağısı olma” buyurdu və həmin il vəfat etdi”* - deyə buyurmuşdur.[245] Xanım Fatimə *(ə)* Peyğəmbərin *(s)* vəfatından sonra altı ay yaşadı və vəfat etdi. Vəfatından sonra Peyğəmbərə *(s)* Əhli-Beytindən *(ə)* ilk qovuşan da məhz Xanım Fatimə *(ə)* oldu.[246]

İbn Qəyyim isə Xanım Fatimə *(ə)* haqqında belə yazır: “Peyğəmbərin *(s)* bütün uşaqları özündən öncə vəfat etmişdir. Sadəcə qızı Xanım Fatimə *(ə)* özündən sonraya qalmışdır. Allah onun səbri, qazandıqları ilə fəzilət və dərəcəsini yüksəltmişdir.[247] Peyğəmbər *(s)* də onu *“dünya qadınlarının ən fəzilətlisi”* olaraq qiymətləndirmişdir”.[248]

Əhli-Beytin *(ə)* digər insanlardan üstün tutulmasının səbəblərindən biri, heç şübhəsiz ki, onların elmi cəhətdən hər kəsdən üstün olmalarıdır. Bunun misalını biz aşağıdakı səhih hədisdə də görə bilərik.

Səlim bin Qeys rəvayət edir: “Əbu Talib oğlu Əli *(ə)* Siffindən qayıdarkən biz məsciddə oturmuşduq. O, əyləşən kimi onu dövrəyə aldıq. Bir

---

242 Həmin mənbə.

243 Sünəni-Tirmizi, Mənaqib, 46.

244 Kutluay, Siyer-u Sahabe, Kilim Matbaası, İstanbul 2005, c. III, səh. 296.

245 Taberi, Taberi tefsiri, c. III, səh. 264.

246 Sünəni-Tirmizi, Cihad vəs-Siyər, 52; İbn Kesir, el-Bidaye, c. V, səh. 511.

247 Xanım Fatimə *(ə)* haqqında daha geniş məlumat üçün bax: Fedakar Kızmaz, “Hz. Fatıma”, ŞİA, c. II, səh. 152-156; Hacı Cemal Öğüt, Fatimeyi-Zəhra, Gülün Gülü, tərc. Tərlan Fərəcullayev, İpək Yolu nəşriyyatı, Bakı, 2007.

248 Peyğəmbərin *(s)* qızları və nəvələri haqda daha geniş məlumat üçün bax: Mustafa Eriş, Peygamberimizin Kızları ve Kız Torunları.

şəxs ondan soruşdu: "Ey möminlərin Əmiri *(ə)*, əshabın haqqında bizə xəbər ver". O Həzrət *(ə)* buyurdu: *"Soruş"*. Həmin şəxs uzun bir qissəni qeyd etdikdən sonra o Həzrət *(ə)* buyurdu: *"Allahın Rəsulunun uzun bir söhbətindən sonra belə dediyini eşitdim: "Allah mənə əshabımdan dördünü sevməyi əmr etmişdir. Cənnətin onların eşqində olduğunu mənə xəbər vermişdir". Soruşdular: "Onlar kimlərdir, ey Allahın Rəsulu?" O Həzrət buyurdu: "Əbu Talib oğlu Əli". Sonra sakitlik çökdü. Yenə soruşdular: "Onlar kimlərdir?" Buyurdu: "Əbu Talib oğlu Əli". Sonra sakitlik çökdü. Yenə də soruşdular: "Onlar kimlərdir?" Buyurdu: "Əbu Talib oğlu Əli və onunla olan üç şəxs. Onda dörd xüsusiyyət vardır. O, insanların İmamı, rəhbəri, höccəti və hidayət edənidir. O, insanları heç vaxt dindən çıxarmaz, zəlalətə salmaz və* (Cahiliyyə) *adətlərinə qaytarmaz. Onunla birlikdə olanlar Salman, Əbuzər və Miqdaddır". Sonra Peyğəmbər məni çağırtdırıb min kəlmə öyrətdi ki, hər kəlmədən min qapı açılırdı"*. Bundan sonra İmam Əli *(ə)* buyurdu: *"Nə istəyirsinizsə, məndən soruşun. And olsun Allaha! Mən Tövratı Tövrat əhlindən, İncili İncil əhlindən, Zəburu Zəbur əhlindən, Quranı da Quran əhlindən daha yaxşı bilirəm. Məndən Quran haqqında soruşun. Həqiqətən, Quranda hər bir şey, əvvəldən axıradək olan xəbərlər bəyan edilib. Onun yozumunu Allah və elmdə dərin olanlardan başqa kimsə bilməz. Peyğəmbər onlardan biridir. O, bildiklərini yalnız mənə öyrətmişdir"*. Bundan sonra İmam *(ə)* **"**(İsrail övladının) ***peyğəmbəri onlara dedi: "***(Talutun) ***padşahlıq əlaməti*** (Musaya verilən) ***sandığın sizə gəlməsidir. Onun içində*** (sizin üçün) ***Rəbbinizdən bir arxayınlıq, rahatlıq*** (mənəvi bir qüvvə, səbat)***, həmçinin Musa və Harun nəslindən qalan şeylər*** (Musanın əsası, Tövratın bəzi lövhələri, bir az qüdrət halvası və s.) ***vardır. Onu mələklər gətirəcək. Əgər siz möminsinizsə, onda sizin üçün*** (Peyğəmbərin verdiyi xəbərin doğruluğunu təsbit edən) ***qəti dəlil vardır"***[249] ayəsini oxudu və buyurdu: *"Mənim Peyğəmbərə olan nisbətim Harunun Musaya olan nisbəti kimidir"*.[250]

Həmçinin, İmam Əli *(ə)* hədislərinin birində buyurmuşdur: *"Ey insanlar! Biz hikmət evi, rəhmət açarları, imamların ağası və xitabətin əsasıyıq. Allah bizimlə mükafat, bizimlə cəza verər. Hər kəs biz Əhli-Beyti sevsə, onun yaxşılığı ən böyük şəkildə ödənər, haqq-hesab tərəzisində işi yüngül olar. Onun əməlləri məqbul, günahları isə bağışlanmış olar. Hər kəsin bizə qarşı nifrəti olsa, onun İslamı ona fayda verməyəcək"*.[251]

---

[249] "əl-Bəqərə", 248.
[250] Əllamə Məclisi, Biharül-ənvar, c. XXVI, səh. 64.
[251] Həmin mənbə, c. XXVI, səh. 260.

İmam Rza *(ə)* səhih bir sənədlə İmam Əlidən *(ə)* belə nəql edir: *"Biz Əhli-Beyt heç bir şəxslə müqayisə olunmarıq. Quran bizdə nazil olub və biz risalətin mədəniyik"*.[252]

Peyğəmbər *(s)* buyurmuşdur: *"Həsənlə Hüseyn məndən və atalarından sonra Yer əhlinin ən fəzilətli, ən üstün şəxsləridir. Onların anaları da Yer əhli qadınlarının ən üstünüdür"*.[253]

Həmçinin, o Həzrət *(s)* digər hədislərinin birində belə buyurub: *"Ya Əli! Sən bəşəriyyətin ən xeyirlisisən, sənin haqqında yalnız kafirlər şəkk-şübhə edərlər"*.[254]

Əbuzər belə rəvayət edir: "Allahın Rəsulu *(s)* Əli bin Əbi Talibə *(ə)* baxıb buyurdu: *"Bu, əvvəlkilərin və sonrakıların, Yer və Göy əhlinin ən xeyirlisidir. Bu, siddiqlərin və vəsilərin rəhbəridir"*.[255]

İmam Cəfər Sadiq *(ə)* səhih bir sənədlə belə nəql edir: *"Bir yəhudi Peyğəmbərin yanına gəlib oturdu və dedi: "Ya Muhəmməd! Sən üstünsən, yoxsa, Musa? Halbuki, Allah onunla danışmış, ona Tövratı nazil etmiş, dənizi yaran əsanı ona vermiş, kölgələnməsi üçün bulud göndərmişdir". Peyğəmbər cavabında buyurdu: "Adəm xətaya düçar olduqda tövbəsinin qəbul olması üçün buyurdu: "Ey Rəbbim, mən səni Muhəmməd və Ali-Muhəmmədin xatirinə and verirəm ki, məni bağışlayasan!". Bundan sonra Allah onu bağışladı"*.[256]

İmam Əli *(ə)* buyurur: *"Peyğəmbərdən soruşdum: Ya Rəsulullah! Sən üstünsən, yoxsa Cəbrail?" O Həzrət buyurdu: "Ya Əli! Allah Öz peyğəmbərlərini müqərrəb mələklərindən üstün etmişdir. Məni də bütün peyğəmbərlərindən üstün və fəzilətli qərar vermişdir. Məndən sonra isə səni və sülbündəki İmamları üstün və fəzilətli qılmışdır. Həqiqətən, mələklər bizim və bizi sevənlərin xidmətçiləridir. Ya Əli! Ərşi daşıyan və onun ətrafına dolanan mələklər bizim vilayətimizə iman gətirənlər üçün istiğfar diləyirlər. Ya Əli! Əgər mən olmasaydım, Allah Adəmi, Həvvanı, Cənnəti, Cəhənnəmi, göyləri və Yeri yaratmazdı. Mən necə mələklərdən üstün olmayım, halbuki onlardan qabaq Allahı tanımışıq, Onu təsbih etmiş, Ondan başqa heç bir ibadət ediləcək məbudun olmadığını təsdiq etmiş və Onu müqəddəs tutmuşuq..."*.[257]

İmam Cəfər Sadiq *(ə)* buyurur: *"Peyğəmbər Meraca gedəndə namaz vaxtı daxil oldu. Cəbrail azan və iqamə oxuduqdan sonra buyurdu: "Ya Muhəmməd, önə keç!" Peyğəmbər buyurdu: "Qabağa sən keç". Cəbrail bu-*

---

[252] Həmin mənbə, c. XXVI, səh. 269.
[253] Həmin mənbə, c. XXVI, səh. 272; Şeyx Səduq, Üyunil-əxbar, səh. 222.
[254] Biharül-ənvar, c. XXVI, səh. 308.
[255] Həmin mənbə, c. XXVI, səh. 309.
[256] Həmin mənbə, c. XXVI, səh. 319.
[257] Həmin mənbə, c. XXVI, səh. 335.

*yurdu: "Allah Adəmi yaradıb ona səcdəni bizə vacib etdiyindən Adəm övladının önünə keçmərəm".*[258]

Əbuzər əl-Qəffari rəvayət edir: "Peyğəmbər *(s)* buyururdu: *"Cəbrail və İsrafil bir-birlərinə qarşı fəxr etdilər. İsrafil ərz etdi: "Mən səndən üstünəm". Cəbrail isə buyurdu: "Sənin məndən üstün olmağına səbəb nədir?" İsrafil ərz etdi: "Mən Ərşi daşıyan səkkiz mələyin, üfürüləcək Surun sahibiyəm. Mən Allaha mələklərin ən yaxınıyam". Cəbrail buyurdu: "Mən səndən daha xeyirliyəm". İsrafil soruşdu: "Məndən üstün olmağına səbəb nədir?" Cəbrail buyurdu: "Mən Allahın vəhyinin əmanətdarı, Onun peyğəmbərlərinin elçisi, tutulan Ayın və Günəşin sahibiyəm. Allah məhv etdiyi ümmətləri yalnız mənim əlimlə məhv etmişdir". Onlar bunu Allaha ərz etdikdə, Allah buyurdu: "Sakit olun. And olsun izzəti-cəlalıma, Mən elə bir şəxs yaratmışam ki, o, sizin ikinizdən də daha xeyirli və fəzilətlidir!" Onların ikisi də soruşdu: "Ey Rəbbimiz! Bizdən xeyirlisin yaratmısan, axı bizi nurdan yaratmısan?" Allah buyurdu: "Bəli". Sonra O, onların gözlərindəki pərdəni götürüb buyurdu: "Baxın Ərşin yuxarı hissəsinə". Onlar baxdıqda, gördülər ki, orada "Allahdan başqa Allah yoxdur" kəlamı, bir də Muhəmməd, Əli, Fatimə, Həsən və Hüseynin adları yazılıb. Cəbrail buyurdu: "Ey Rəbbim, Səni and verirəm onların haqqına ki, məni onlara xidmətçi edəsən!" Allah buyurdu: "Sən onlara xidmətçi təyin olundun".*

Əbuzər rəvayət edir ki, sonra Peyğəmbər *(s)* buyurdu: *"Cəbrail biz Əhli-Beytdəndir və bizim xidmətçimizdir".*[259] Belə olduğu halda kim özünü Əhli-Beytdən *(ə)* üstün saya bilər?!

## *2.3. ƏLİ BİN ƏBU TALİBİN (Ə) FƏZİLƏTLƏRİ*

Həzrət Əli *(ə)* sadəcə Peyğəmbər *(s)* həyatda olarkən üzərinə aldığı məsuliyyətlər və göstərdiyi fəaliyyətlərlə deyil, həm də Rəsulullahın *(s)* vəfatından sonra cərəyan edən hadisələrdə tutduğu vəzifəsi ilə də İslam tarixinin önəmli şəxsiyyətlərindən biri olmuşdur. Əli bin Əbi Talib *(ə)* Peyğəmbərin *(s)* əmisi oğlu, qızı Fatimənin *(ə)* əridir.[260] Anası Fatimə bint Əsəd bin Haşim bin Əbdu Mənafdır, yəni o Həzrət *(ə)* həm ana, həm də ata tərəfdən Haşimidir.[261]

[258] Həmin mənbə, c. XXVI, səh. 338, Şeyx Səduq, İləlüş-şərae, səh. 14.

[259] Biharül-ənvar, c. XXVI, səh. 344-345; İrşadül-qülub, səh. 214; Kənzu camiül-fəvaid, səh. 483.

[260] Heyət, "Hz. Aliyyul-Murteza", İslam alimleri Ansiklopedisi, Türkiye Gazetesi, İstanbul, tarixsiz, c. I, səh. 103.

[261] Küleyni, Üsuli-kafi, tərc. Məhəmməd Baqir Kəmrayi, Üsvə nəşriyyatı, Tehran, 1372, c. III, səh. 300.

Həzrət Əli *(ə)* Mürtəza və Heydər kimi məşhur ləqəblərin sahibidir. Mürtəza "Allahın razı olduğu şəxs" mənasında işlədilən bir ləqəbdir və o Həzrət *(ə)* bu ləqəbi Xeybər savaşı əsnasında Peyğəmbərin *(s) "Sabah bayrağı elə birisinə verəcəyəm ki, Allah onu, o da Allahı sevir"* mübarək kəlamıyla almışdır.[262] Heydər isə "Aslan" mənasındadır.

Həzrət Əlinin *(ə)* künyəsi övladlarına nisbətlə Əbul-Həsən və Əbul-Hüseyn olmuşdur. Bundan əlavə, bir künyəsi də (torpaq atası) Əbu Turabdır.[263] O Həzrətin *(ə)* nəzərində Əbu Turab künyəsindən daha xoş bir ad yox idi.[264] Həzrət Əli *(ə)* Peyğəmbərin *(s)* Məkkədə doğulmasından otuz il sonra dünyaya gəlmişdir.[265]

Peyğəmbərin *(s)* əmisi Əbu Talib çox övlada sahib olmaqla yanaşı, maddi baxımdan da çətin vəziyyətdə olmuşdur. Bu səbəblə Peyğəmbər *(s)* əmisinə kömək etmək və yanında yetişdirmək üçün kiçik Əlini *(ə)* yanına almışdır.[266] Həzrət Əli *(ə)* beş yaşından hicrətə qədər Rəsulullahın *(s)* yanında böyümüşdür.[267]

Həzrət Əlinin *(ə)* Məkkədə İslamın ilkin dövrlərində yeni dinin təbliği və inkişafı üçün göstərdiyi səylər Mədinədə İslam dövlətinin yaranması zamanı üzərinə aldığı siyasi və idarəçilik vəzifələrilə, eləcə də bu yöndə göstərdiyi misilsiz fədakarlıqlarla davam etmişdir. O Həzrət *(ə)* bu mövzuda əshabın digərlərindən fərqli olaraq üzərinə düşəni daha mükəmməl şəkildə yerinə yetirmiş, Allah və Peyğəmbər *(s)* tərəfindən dəfələrlə öyülmüşdür.

Ümumi olaraq rəvayətlərdən alınan nəticə budur ki, Həzrət Əli *(ə)* ilk müsəlman olan şəxs kimi qəbul edilməkdədir. Zeyd bin Ərqəm "İlk müsəlman olan Əlidir *(ə)*" deyərkən İbn Abbas da "Xədicədən *(ə)* sonra ilk müsəlman olan şəxs Əlidir *(ə)*" demişdir.[268]

Yenə də, o Həzrətin *(ə)* doqquz və ya on yaşlarında İslamı zahir etməsinədək bütlərə sitayiş etmədiyi rəvayət edilməkdədir.

Peyğəmbər *(s)* ***"Və ən yaxın qohumlarını qorxut...."***[269] ayəsinin nazil olmasından sonra Əbdül-Müttəlib oğullarını bir yeməyə dəvət etmiş və onlara Allahın bir olduğunu, özünün Allahın Elçisi olaraq göndərildiyini və bütlərə

---

[262] Səhihi-Müslim, Fəzailüs-Səhabə, 44.

[263] Mustafa Necati Bursalı, Allahın Arslanı, Evliyalar Sultanı Hazreti Ali, Çile yayınları, İstanbul, 1975, səh. 108.

[264] Kutluay, Siyer-u Sahabe, Kilim Matbaası, İstanbul -2005, c. III, səh. 290.

[265] Küleyni, Üsuli-kafi, c. III, səh. 300.

[266] İhsan Süreyya Sırma, İslami Tebliğin Mekke Dönemi ve İşkence, Umut Matbaacılık, İstanbul,-1996, səh. 40.

[267] Mahmud Sami Ramazanoğlu, Hazreti Aliyyul-Murteza, Erkam yayınları, İstanbul-1985, səh. 8.

[268] Varol, Kavramsal Boyut, səh. 196.

[269] "əş-Şuəra", 214.

sitayiş etməmələrini buyurmuşdur. Rəsulullah *(s)* bu dəvətində onların etirazı ilə qarşılaşmış, əmisi Əbu Ləhəb isə o Həzrətə *(s)* təhqirlər yağdırmışdır. Onların belə mövqeyi qarşısında Həzrət Əli *(ə)* ayağa qalxmış, *"dəvətini mən qəbul edirəm, ya Rəsulullah!"* - deyərək daha ilk günlərdən etibarən bu mövzudakı səy və cəsarətini ortaya qoymuşdur.[270] Bunun da nəticəsində Peyğəmbər *(s)* o Həzrəti *(ə)* özündən sonra ümmətə İmam və xəlifə təyin etmişdir.

Həzrət Əli *(ə)* İslamı təbliğ etmək üçün ilk günlərdən Peyğəmbərin *(s)* yanında olmuş və hər sahədə Rəsulullaha *(s)* dəstək vermişdir. Məkkədə yeni nazil olan İslam dinini araşdırmaq və məlumat əldə etmək üçün gələn insanlardan biri olan Əbuzər əl-Qəffari Həzrət Əli *(ə)* ilə rastlaşmış, o Həzrət *(ə)* onu üç gün qonaq etmiş, üçüncü gün Peyğəmbərlə *(s)* görüşən Əbuzər müsəlman olmuşdur.[271]

Yenə də, bir gün Peyğəmbər *(s)* Həzrət Əlini *(ə)* mübarək çiyinlərinə almış, Kəbənin üstündə olan bütləri endirmişdir. Sonradan o Həzrət *(ə)* bu hadisəni belə nəql etmişdir: *"Peyğəmbər məni çiyinlərinə aldı. O anda səmanın ən üst nöqtəsinə çata biləcəyimi hiss etdim. Kəbənin divarına gəldik və orada olan bütləri aşağı atdım. Hamısı da parça-parça olmuşdu. Sonra Peyğəmbərin çiyinlərindən endim və insanların bizi görməsindən qorxduğumuz üçün bir yerdə dərhal evə qayıtdıq"*.[272]

Həzrət Əli *(ə)* eyni şəkildə Məkkə dövründə hər cür sıxıntı və çətinlik anında Peyğəmbərin *(s)* yanında olmuş, Həbəşistana edilən hicrətlərə də qatılmamışdır.

O Həzrət *(ə)* Rəsulullahın *(s)* Mədinəyə hicrəti əsnasında Peyğəmbərin *(s)* yatağında yataraq canını təhlükəyə atmaqda tərəddüd göstərməmişdir. Peyğəmbər *(s)* hicrət edərkən Əliyə (ə) belə buyurmuşdur: *"Yatağımda yat! Bu əbamı da üstünə ört. Qorxma! Sənə heç nə olmayacaqdır"*.[273] Həzrət Əli *(ə)* də bunu tərəddüd etmədən qəbul etmişdir. Peyğəmbər *(s)* Məkkədən ayrıldıqdan sonra Həzrət Əli *(ə)* üç gün Məkkədə qalmış, Rəsulullahın *(s)* o Həzrətə *(ə)* verdiyi əmanətləri sahiblərinə təhvil verdikdən sonra Mədinəyə hicrət etmişdir. Hicrətdən sonrakı ilk günlərdə Mədinədə müsəlmanlar arasında edilən qardaşlıq zamanı Həzrət Əlinin *(ə)* Peyğəmbərlə *(s)* qardaş olduğu ifadə edilmişdir.[274]

---

[270] Kutluay, Siyer-u Sahabe, Kilim Matbaası, İstanbul 2005, c. I, səh. 393-394.

[271] Səhihi-Buxari, Mənaqibul-Ənsar, 63; Səhihi-Müslim, Fədailus-Səhabə, səh. 44.

[272] Kurucan, Mercan, səh. 225.

[273] Bəkir Buraq, Elm və Qəhrəmanlıq Timsalı Həzrəti Əli, tərc. Tağı Tağıyev, Xəzər nəşriyyatı, Bakı -2009, səh. 24.

[274] Səhihi-Tirmizi, Mənaqib, 46; Mustafa Necati Bursalı, Cennetle Müjdelenen On Sahabi, Çile yayınları, İstanbul-1976, 81.

Hicrətin ikinci ilində müsəlmanlarla müşriklər arasında ilk dəfə olaraq edilən Bədr və sonrakı müharibələrdə Həzrət Əli *(ə)* yenə ön cərgələrdə olmuşdur.

Həzrət Əlinin *(ə)* Xanım Fatiməylə *(ə)* evliliyi Bədr müharibəsindən (624-cü ildən) sonra olmuşdur.[275] Bu hadisə o Həzrətin *(ə)* Peyğəmbərin *(s)* evində olmaq və Rəsulullahın *(s)* tərbiyəsi altında yetişmək üstünlüyü ilə yanaşı, İslam Peyğəmbərinin *(s)* əziz kürəkəni olmaq şərəfinə də sahib olduğunu göstərir. Belə ki, Rəsulullah *(s)* Xanım Fatiməyə *(ə)* *"Səni Əhli-Beytimdən mənə ən sevimli olanla nikahladım"* - deyə buyuraraq Həzrət Əliyə *(ə)* olan sevgisini ifadə etmişdir.[276]

## *2.4. HƏZRƏT ƏLİNİN (Ə) FƏZİLƏTLƏRİNİN FƏRQLİ CƏHƏTLƏRİ*

Hər kəsə yaxşı məlumdur ki, Həzrət Əli *(ə)* səhabələr içində fəzilətcə ən üstün, Peyğəmbərə *(s)* yaxınlıq baxımından hamısından daha yaxındır. Bu fikri sübut edəcək çoxlu sayda hədis vardır. Əsərin bu hissəsində mötəbər mənbələrə istinad edərək Həzrət Əlinin *(ə)* bəzi fəzilətlərini keçmiş peyğəmbərlərin *(ə)* fəzilətləri ilə müqayisəli şəkildə təhlil edəcək və o Həzrətin *(ə)* fəzilət baxımından əziz Peyğəmbərimizdən *(s)* başqa, bütün bəşəriyyətdə fərqli fəzilətə sahib bir şəxs olduğunun şahidi olacağıq. Bunun üçünsə ən doğru və ən mötəbər qaynaq Qurani-Kərimdir ki, Allah burada bəzi peyğəmbərlər *(ə)* haqqında məlumatlar vermiş, onların fəzilətlərini qeyd etməklə yanaşı, bəzi hallarda tərki-övla (əlanı tərk etmək) etdiklərini də diqqətdən qaçırmamışdır. Şübhəsiz ki, əqidəmizə görə, bütün peyğəmbərlər *(ə)* məsumdurlar və hər növ günahdan uzaq olmuşlar. Şeytan heç bir halda onları günaha şövq edə bilməmişdir. İndi isə Həzrət Əlinin *(ə)* və o Həzrətin *(ə)* Əhli-Beytinin *(ə)* digər peyğəmbərlərin *(ə)* fəzilətləri ilə müqayisəsinə diqqət yetirək.

### *2.4.1. Həzrət Adəmə (ə) nisbətdə Həzrət Əlinin (ə) fəziləti*

Allah-Təala Qurani-Kərimdə Həzrət Adəm *(ə)* haqqında belə buyurur:

**"**(Sonra) ***Biz*** (Adəmə) ***dedik: "Ey Adəm, sən zövcənlə*** (Həvva ilə) ***Cənnətdə qal və hər ikiniz oradakı meyvələrdən, istədiyiniz kimi, bol-bol yeyin, yalnız bu ağaca*** (buğdaya) ***yaxın gəlməyin! Yoxsa*** (özünüzə) ***zülm edənlərdən olarsınız"***;

---

[275] Bərki, Kəskioğlu, səh. 252.
[276] Varol, Kavramsal Boyut, səh. 198.

**"**(Lakin) ***Şeytan onları azdırıb*** (buğdadan yedizdirməklə nemətlər içində) ***olduqları yerdən uzaqlaşdırdı. Biz də*** (Adəmə, Həvvaya və Şeytana)***! "Bir-birinizə düşmən kəsilərək*** (buradan kənar olub Yer üzünə) ***enin! Yerdə sizin üçün müəyyən vaxta qədər*** (ömrünüzün axırınadək) ***sığınacaq və yaşayış*** (dolanacaq) ***vasitələri var" - dedik".***[277]

***"Ey Adəm! Sən zövcənlə birlikdə Cənnətdə sakin ol. Hər ikiniz istədiyiniz yerdən*** (Cənnət meyvələrini dərib) ***yeyin, ancaq bu ağaca*** (buğdaya və ya üzüm tənəyinə) ***yaxınlaşmayın, yoxsa*** (özünüzə) ***zülm edənlərdən olarsınız!"***;

***"Şeytan*** (Adəmin və Həvvanın) ***örtülü ayıb*** (övrət) ***yerlərini özlərinə göstərmək məqsədilə onlara vəsvəsə verib dedi: "Rəbbiniz sizə bu ağacı yalnız mələk olmamağınız və ya*** (Cənnətdə) ***əbədi qalmamağınız üçün qadağan etmişdir!"***;

***"Həm də onlara: "Mən, əlbəttə, sizin xeyirxah məsləhətçilərinizdənəm" - deyə and içdi"***;

***"Beləliklə,*** (Şeytan) ***onları batil sözlərlə aldatdı*** (onları aldadaraq uca yerlərdən, yüksək mərtəbələrdən aşağı endirdi). (Adəm və Həvva) ***ağacın meyvəsindən daddıqda ayıb yerləri*** (gözlərinə) ***göründü. Onlar Cənnət*** (ağaclarının) ***yarpaqlarından*** (dərib) ***ayıb yerlərinin üstünü örtməyə başladılar. Rəbbi onlara müraciət edib buyurdu: "Məgər sizə bu ağacı*** (ağaca yaxınlaşmağı) ***qadağan etməmişdimmi? Şeytan sizin açıq-aşkar düşməninizdir, deməmişdimmi?".***[278]

***"...Beləliklə, Adəm Rəbbinin əmrindən çıxdı, amma mətləbinə yetmədi...".***[279]

Qeyd etdiyimiz ayələrdə Allah-Təala Həzrət Adəmin *(ə)* tərki-övla etdiyini dəfələrlə bəyan etmiş və onun Allahın əmrindən çıxdığını bildirmişdir. Lakin "Təthir" ayəsinə[280] baxdığımızda Həzrət Əli *(ə)* başda olmaqla Əhli-Beytin *(ə)* Həzrət Adəm *(ə)* və zövcəsindən fərqli olduğu üzə çıxır. Belə ki, ayədə keçən ***"ancaq bu ağaca*** (buğdaya və ya üzüm tənəyinə) ***yaxınlaşmayın, yoxsa*** (özünüzə) ***zülm edənlərdən olarsınız!"*** ifadəsi ilə ***"Siz ey*** (Peyğəmbərin) ***ev əhli! Allah sizdən çirkinliyi*** (günahı) ***yox etmək və sizi tər-təmiz*** (pak) ***etmək istər!"***[281] ayəsini müqayisə etdikdə Əhli-Beytin *(ə)* hər növ zülmdən və asilikdən uzaq olduğu məlum olur.

---

[277] "əl-Bəqərə", 35-36.
[278] "Əl-Əraf", 19-22.
[279] "Taha", 121.
[280] "əl-Əhzab", 33.
[281] "əl-Əhzab", 33.

Həmçinin, Həzrət Əlinin *(ə)* şəninə nazil olmuş ***“Onlar öz iştahaları çəkdiyi*** (özləri yemək istədikləri) ***halda*** (və ya Allah rizasını qazanmaq uğrunda) ***yeməyi yoxsula, yetimə və əsirə yedirərlər”***; **“**(Və sonra da yedirtdikləri kimsələrə belə deyərlər:) ***“Biz sizi ancaq Allah rizasından ötrü yedirdirik. Biz sizdən*** (bu ehsan müqabilində) ***nə bir mükafat, nə də bir təşəkkür istəyirik”***[282] ayələrlə Həzrət Adəm *(ə)* və zövcəsi haqqında nazil olmuş yuxarıdakı ayələr müqayisəli təhlil olunduqda mətləbimiz son dərəcə aydın və isbatlı olacaqdır. Həmin mübarək ayələrdə Qurani-Kərim Əhli-Beytin *(ə)* barəsində söhbət açaraq bu məsumların *(ə)* fədakarlıq və təqvanın ən üstün mərtəbəsinə malik olmalarını göstərir. Müqəddəs Kitab bu məsumları *(ə)* misal çəkir ki, bütün nəsillər onların əməllərini təkrarlayıb, onların yolunda hərəkət etsinlər. Bu mübarək ayələrin nazil olduğu tarixi şəraitə baxdıqda məlum olur ki, Əhli-Beyt *(ə)* nə qədər yüksək məqama malik olub və ilahi rabitələrlə Allaha bağlanmışdır. Behiştlə mükafatlanan onlardır. Hər kim də onlara bağlanıb, onların yolunda hərəkət etsə, onlarla birlikdə Cənnətdə olacaqdır.

Xatırladaq ki, “İnsan” surəsinin təfsiri haqqında görkəmli təfsirçi Carullah əz-Zəməxşəri yazır: “İbn Abbas nəql etmişdir: “Bir gün Həsən *(ə)* və Hüseyn *(ə)* xəstələnmişdilər. Peyğəmbər *(s)* bir dəstə müsəlmanla onlara baş çəkməyə gəldi və Həzrət Əliyə *(ə)* müraciət edərək buyurdu: *“Ya Əbəl-Həsən! Kaş uşaqlarının şəfa tapması üçün nəzir edəsən”*. Həzrət Əli *(ə)* Rəsulullahın *(s)* bu təklifini məmnuniyyətlə qəbul etdi, üstəlik Xanım Fatimə *(ə)* və xidmətçiləri Fizzə də uşaqların sağalacağı təqdirdə üç gün oruc tutmağı nəzir etdilər. Uşaqlar şəfa tapıb sağaldılar, lakin o günlərdə Həzrət Əlinin *(ə)* evində iftar etmək üçün ərzaq yox idi. Odur ki, o Həzrət *(ə)* gedib Xeybər yəhudilərindən olan Şəmun adlı bir nəfərdən üç sa (ölçü vahidi) miqdarında arpa borc aldı. Xanım Fatimə *(ə)* arpanın üçdən bir hissəsini üyüdüb un etdi və ailə üzvlərinin sayı qədər kökə bişirdi. İftar vaxtı kökələri süfrəyə qoyub yeməyə hazırlaşdıqları vaxt bir fəqir qapını döyüb evdəkilərə belə dedi: “Sizə salam olsun, ey Muhəmmədin *(s)* Əhli-Beyti *(ə)*! Mən bir müsəlmanam, fəqirəm, mənə yemək verin. Allah sizi Cənnət süfrələrindən yedizdirsin”. Bu sözləri eşidən Əhli-Beyt *(ə)* fədakarlıq edib süfrədə olan kökələrin hamısını ona verdilər. Özləri isə bir içim su ilə iftar edib gecəni keçirdilər. Sabahısı gün ac olduqları halda yenə oruc tutdular. Axşam iftar etmək üçün süfrə başına yığışmışdılar ki, bir yetim qapıya gəlib yemək istədi. Yenə də süfrədə olan yeməkləri o yetimə verdilər və özləri ac qaldılar.

---

[282] “əl-İnsan”, 8-9.

Üçüncü gün də qapıya bir əsir gəlib yemək istədi və bir daha bu məsumlar *(ə)* iftar etmək üçün hazırladıqları yeməklərini o əsirə verdilər. Ertəsi gün Həzrət Əli *(ə)* oğlanları Həsən *(ə)* və Hüseynlə *(ə)* birlikdə Peyğəmbərin *(s)* hüzuruna getdilər. Peyğəmbər *(s)* onların aclıqdan titrədiklərini görüb buyurdu: *"Sizi bu halda görmək mənim üçün çox ağırdır"*. Sonra Rəsulullah *(s)* onlarla birlikdə Xanım Fatimənin *(ə)* evinə getdi. Peyğəmbər *(s)* gördü ki, qızı Fatimə *(ə)* acından zəifləmiş və gözləri çuxura düşmüş halda mehrabda ibadət edir. Bu mənzərəni müşahidə edən Rəsulullah *(s)* olduqca narahat olmuşdu ki, Cəbrail *(ə)* nazil oldu və buyurdu: *"Ya Muhəmməd! Allah səni belə bir Əhli-Beytin olduğu üçün təbrik edir"*. Sonra Cəbrail *(ə)* yuxarıda qeyd olunan "İnsan" surəsini Peyğəmbərə *(s)* nazil etdi. Təfsirçilər təkidlə bildirirlər ki, bu ayələr Əhli-Beyt *(ə)* - Əli *(ə)*, Fatimə *(ə)*, Həsən *(ə)* və Hüseyn *(ə)* - barəsində nazil olmuşdur. Təkcə bu haqda nəql olunan rəvayətlərdə cüzi fərqlər görünür. Bu rəvayətləri Əbu Həmzə Somali, Həsən bin Həsən, Əta bin Abbas və bir az fərqlə başqaları da Əhli-Beyt *(ə)* haqqında nəql etmişlər. Beləliklə, bu ayələr Əhli-Beytin *(ə)* Allahın məxsus və seçilmiş bəndələri olmasına dəlalət edir və Allah tərəfindən onların Behiştə daxil olduqlarına müjdə verilir".[283]

Görkəmli fəqih və hədisşünas Hafiz Kənci əş-Şafei yuxarıdakı hadisədə bəhs edilən fəqirin Cəbrail *(ə)*, yetimin Mikail *(ə)*, əsirin isə İsrafil *(ə)* olduğunu qeyd etmişdir.[284]

### *2.4.2. Həzrət İbrahimə (ə) nisbətdə Həzrət Əlinin (ə) fəziləti*

Uca Allah İbrahimin *(ə)* qissəsində belə bəyan edir: "(Ya Rəsulum!) ***Xatırla ki, İbrahim: "Ey Rəbbim, ölüləri nə cür diriltdiyini mənə göstər!" – dedikdə*** (Allah)***: "Məgər*** (ölüləri diriltməyimə) ***inanmırsan?" – buyurmuşdu.*** (İbrahim:) ***"Bəli, inanıram, lakin ürəyim xatircəm*** (arxayın) ***olmaq üçün*** (soruşdum)***" - deyə cavab vermişdi.*** (Bu zaman Allah ona) ***buyurmuşdu: "Dörd cür*** (cins) ***quş götürüb*** (səhv salmamaq üçün) ***onlara diqqətlə bax,*** (onları parçalayaraq bir-birinə qatandan) ***sonra hər dağın başına onlardan bir parça at, sonra onları çağır, tez yanına gələcəklər. Bil ki, Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!"***[285]

Göründüyü kimi, Həzrət İbrahim *(ə)* bir qrup ölünün (və ya leşin) yanından keçdiyi zaman Allahın onları necə diriltməsini Ondan rica edir və

---

[283] Təfsirül-kəşşaf, c. IV, səh. 197.
[284] Kifayətüt-talib, səh. 345.
[285] "əl-Bəqərə", 260.

buna etiqadının olmasına baxmayaraq, qəlbinin aram olmasını istəyir. Onun bu istəyi buna bənzəyir ki, bir şəxs hakimin necə hökm verməsini bilir, lakin o hökmün necə verildiyini əyanı görmək istəyir. Görkəmli təfsirçi Alusi adıçəkilən ayənin təfsirində yazır: "İbrahim *(ə)* dini işlərində şəkk-şübhəyə düşməmişdir - bu işdən Allaha sığınaraq - onun məqsədi ölülərin necə dirilməsini əyani olaraq görmək olmuşdur".[286] Ayənin ümumi mənasından bu da bəlli olur ki, Həzrət İbrahimi *(ə)* bu məsələdə vəsvəsəlik bürümüşdür. Lakin Həzrət Əli *(ə)* başda olmaqla heç bir Əhli-Beyt *(ə)* mənsubundan belə bir halın baş verməsi nəql olunmamışdır. Hətta İmam Əli *(ə)* *"Bütün pərdələr götürülsə belə, Əbu Talib oğlunun imanı artıb-azalmaz"* - deyə buyurmuş və bununla da özünün Həzrət İbrahimdən *(ə)* fərqli fəzilətə sahib olduğunu bəyan etmişdir.

Bütün bu deyilənlərdən əlavə, ***"Həqiqətən, İbrahim də onun yolu ilə gedənlərdən*** (Nuhun firqəsindən) ***idi"***[287] ayəsinin təfsirində nəql olunmuş hədislər də mətləbimizi isbatlamaqdadır. Belə ki, görkəmli təfsir alimləri, o cümlədən Təbəri (öl.923), Qürtubi (öl.1272) və başqaları Həzrət İbrahimin *(ə)* haqqında buyurulmuş ***"onun yolu ilə gedənlərdən*** (Nuhun firqəsindən) ***idi"*** ifadəsini Muhəmməd peyğəmbər *(s)* və Əhli-Beytin *(ə)* yolu ilə, onların tərəfdarları kimi təfsir etmişlər.

Təbəri adıçəkilən ayənin təfsirində yazır: "Ərəb dilçiləri bu ayəyə "İbrahim *(ə)* Muhəmmədin *(s)* tərəfdarlarından idi" kimi məna vermişlər".[288]

Qürtubi isə bu cümləni olduğu kimi əl-Kəlbi və əl-Fərraya (761-822) istinadən belə yazır: "əl-Kəlbi və əl-Fərra "İbrahim *(ə)* Muhəmmədin *(s)* tərəfdarlarından idi" deyir".[289]

Xatırladaq ki, Fəxrəddin ər-Razi (1149-1209) və Alusi də ayənin yuxarıdakı mənalarda olduğu qənaətindədirlər.

Əllamə Bəhrani İmam Sadiqin *(ə)* buyurduğu ***"Həqiqətən, İbrahim də onun yolu ilə gedənlərdən*** (Nuhun firqəsindən) ***idi"*** *ayəsinin mənası "Əlinin tərəfdarlarından idi, onun yolunu gedənlərdən idi"* hədisinə istinad edərək yuxarıda adları çəkilən görkəmli təfsirçilərin fikirlərini bir az da qüvvətləndirmişdir.

Deməli, Həzrət Əli *(ə)* həqiqətən də Ali-Muhəmmədin *(ə)* bir üzvüdür, bu hədis adıçəkilən təfsirçilərin görüşləri ilə tam uyğundur və bütün bu deyilənlər o Həzrətin *(ə)* fəzilətcə hər kəsdən fərqli olduğunu sübut edir.

---

[286] Ruhul-məani, c. III, səh. 26.
[287] "əs-Saffat", 83.
[288] Təfsiri-Təbəri, c. XXIV, səh. 68.
[289] Təfsiri-Qürtubi, c.XV, səh. 91.

### *2.4.3. Həzrət Musaya (ə) nisbətdə Həzrət Əlinin (ə) fəziləti*

Allah-Təala Musanın *(ə)* əhvalatını belə bəyan edir:

***“***(Musa) ***odun yanına gəlib çatdıqda vadinin sağ tərəfində olan mübarək*** (bərəkətli) ***yerdəki ağacdan belə bir nida gəldi: “Ya Musa! Aləmlərin Rəbbi olan Allah Mənəm!”***;

***“Əsanı*** (yerə) ***at!”*** (Musa əsanı yerə atdı)***. O, əsanın ilan kimi qıvrıldığını gördükdə dönüb qaçdı, heç dala da baxmadı.*** (Biz ona belə buyurduq:) ***“Ya Musa! Bəri gəl, qorxma! Sən əmin-amanlıq içindəsən!”***;

***“Əlini qoynuna qoy ki, əlin*** (oradan) ***eyibsiz-qüsursuz, ağappaq*** (parlaq bir nur kimi) ***çıxsın. Əlini*** (qanadını) ***özünə tərəf çək*** (yenidən qoynuna qoy) ***ki,*** (ilanın, yaxud əlinin parıltısının səni bürüdüyü) ***vahimə çəkilib getsin. Bu, Firona və onun əyanlarına qarşı sənin Rəbbindən olan iki möcüzədir. Onlar, həqiqətən,*** (Allahın itaətindən çıxmış) ***fasiq bir tayfadırlar!”*** (Musa birinci dəfə əlini qoynuna qoyub çıxartdıqda o, baxanlara bir nur kəsilib gözlərini qamaşdırar, onları qorxuya salar, ikinci dəfə qoyub çıxartdıqda isə adi halına düşərdi)***”***;

***“***(Musa) ***dedi: “Ey Rəbbim! Mən onlardan bir nəfəri öldürmüşəm, qorxuram ki, onlar da məni öldürələr”.***[290]

Yuxarıdakı ayənin təhlilindən belə məlum olur ki, Həzrət Musa *(ə)* öz ailəsi və sürüsü ilə birlikdə Mədyəndən qayıdarkən yolu itirmiş və uzaqda yanar bir od gördüyü zaman ondan gətirmək üçün oda tərəf getmişdir. O, oda yaxınlaşan zaman Rəbbi onu vadinin sağ tərəfindən çağırmış və yuxarıdakı ayəni ona nida etmişdir. Musanın *(ə)* əsası Allahın möcüzəsi ilə əjdahaya çevrildikdə Həzrət Musa *(ə)* onu atıb qaçmış və Allah onu ***“Ya Musa! Bəri gəl, qorxma! Sən əmin-amanlıq içindəsən!”*** - deyə çağırmışdır. Bütün bu deyilənlər onu göstərir ki, Həzrət Musa *(ə)* Allahın möcüzəsi qarşısında səcdəyə qapanmaq əvəzinə ondan qorxmuş və Allah ona qorxmağı qadağan etmişdir. Bundan əlavə, Həzrət Musanın *(ə)* Allahın sözünün müqabilində canını təhlükəyə atmaq istəməməsi və ***“Ey Rəbbim! Mən onlardan bir nəfəri öldürmüşəm, qorxuram ki, onlar da məni öldürələr”* -** deməsi ilə “Təthir” ayəsinin müqayisəsi onu göstərir ki, Həzrət Əli *(ə)* başda olmaqla Əhli-Beyt *(ə)* hər növ şəkk-şübhədən, vəsvəsəlikdən və qorxudan uzaq olmuşdur.

Həmçinin, Həzrət Əlinin *(ə)* Peyğəmbərin *(s)* bütün təhlükəli tapşırıqlarına tərəddüdsüz və qorxu bilmədən əməl etməsi o Həzrətin *(ə)* fəzilətinin

[290] “əl-Qəsəs”, 30-33.

digərlərindən fərqli olduğunu göstərir. Məsələn, Həzrət Əlinin *(ə)* ağır müharibələrin birindən salamat çıxdıqdan sonra Peyğəmbərin *(s)* yanına gedərək *"Ey Allahın Rəsulu, mən niyə şəhid olmadım?!"* - deyə soruşması o Həzrətin *(ə)* ölməz fədakarlığının bariz nümunəsidir. Xüsusilə də Peyğəmbərin *(s)* Məkkədən Mədinəyə çıxdığı gecədə Həzrət Əlinin *(ə)* Rəsulullahın *(s)* yerində yatması və nəticədə o Həzrətin *(ə)* haqqında ***"İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda*** (Allah rizası üçün) ***öz canını fəda edər. Allah Öz bəndələrinə qarşı çox mehribandır!"***[291] ayəsinin nazil olması Həzrət Əlinin *(ə)* fərqli fəzilətə sahib olmasından xəbər verir.

### *2.4.4. Həzrət Zəkəriyyaya (ə) nisbətdə Həzrət Əlinin (ə) fəziləti*

Qurani-Kərim Həzrət Zəkəriyyanın *(ə)* sonsuzluq qorxusundan Allaha dua etməsini belə bəyan edir:

**"**(Zəkəriyyaya) ***Rəbbinə gizlicə dua edib yalvardığı zaman"***;

***"Belə demişdi: "Ey Rəbbim! Artıq sümüyüm sustalmış, başım ağappaq ağarmışdır. Ey Rəbbim! Sənə dua etməklə heç vaxt naümid olmamışam.*** (Nə dua etmişəmsə, qəbul olunmuşdur)***"***;

***"Mən özümdən sonra gələn qohum-əqrəbamdan*** (yerimə keçəcək əmioğlularımın və digər vərəsələrimin məsləkimi ləyaqətlə davam etdirməyəcəyindən) ***qorxuram. Zövcəm də ki, qısırdır. Buna görə də mənə Öz dərgahından bir oğul*** (vəli) ***bəxş et ki,"***.[292]

Həzrət Zəkəriyya *(ə)* Bəni-İsrailin əzəmətli peyğəmbərlərindən olmuş, yaşı ötsə də heç bir övladı olmamış, insanların gözündən uzaq gizli bir şəkildə Allaha dua etmiş və bununla özünün sonsuzluqdan qorxduğunu bəyan etməklə yanaşı, qəlbindəki övlad məhəbbətini də büruzə vermişdir. Həzrət Zəkəriyyanın *(ə)* bu duasının nəticəsi olaraq Allah ona Yəhyanı *(ə)* əta etmişdir. Hətta Allah-Təala ona Yəhyanın *(ə)* olacağını xəbər verdiyi zaman **"**(Zəkəriyya) ***dedi: "Ey Rəbbim! Zövcəm doğmayan bir qadın, mən də qocalıb əldən düşmüş*** (sümüyü sustalmış bir kişi) ***ikən mənim necə oğlum ola bilər?"***[293] **-** deməklə Həzrət Zəkəriyya *(ə)* bu işə öz təəccübünü gizlətməmiş, bunun üçün Allahdan bir möcüzənin olmasını da istəmişdir: **"**(Zəkəriyya) ***dedi: "Ey Rəbbim! Mənim üçün*** (ürəyim arxayın olsun deyə, bu barədə) ***bir əlamət müəyyən et!..."***[294]. Bunun cavabında isə **"...**(Allah)

---

[291] "əl-Bəqərə", 207.
[292] "Məryəm", 3-5.
[293] "Məryəm", 8.
[294] "Məryəm", 10.

***buyurdu: "Əlamətin budur ki, sən sağlam ikən üç gün-üç gecə adamlarla danışa bilməyəcəksən!"***[295]

Bu mübarək ayəni Həzrət Əlinin *(ə)* haqqında nazil olmuş ayələr və varid olmuş hədislərlə müqayisə edərkən görürük ki, o Həzrət *(ə)* heç vaxt Allahın qəzasından boyun qaçırmamış, canını və övladlarını Allah yolunda fəda etməklə yanaşı, baş verəcək möcüzələrə də əlavə dəlil istəməmişdir. Şübhəsiz ki, Həzrət Zəkəriyyanın *(ə)* da cavabı inkar növündən deyil. Çünki, belə şeylər uca olan nübuvvət məqamının ziddinədir. Lakin onun belə davranması Əllamə Təbatəbainin də açıqladığı kimi, Zəkəriyyanın *(ə)* bəşəri duyğularının nəticəsidir.[296]

Həmçinin, heç bir tarixi məlumatda Əhli-Beytin *(ə)* Həzrət Zəkəriyyanın *(ə)* əhvalına uyğun şəkildə davranması qeyd edilməyib. Buna görə də "Təthir" ayəsi Əhli-Beytin *(ə)* qəlbən sakitlik və ruhən yəqinlik baxımından hər bir kəsdən fərqli olmasına tutarlı bir dəlildir.

"Ali-İmran" surəsində qeyd edilən və təfsir əhlinin yanında "Mübahilə" ayəsi kimi tanınan **"**(İsanın Allahın qulu və peyğəmbəri olması barədə) ***sənə göndərilən elmdən*** (məlumatdan) ***sonra buna*** (İsanın əhvalatına) ***dair səninlə mübahisə edənlərə de: "Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü*** (bura) ***çağıraq! Sonra*** (Allaha) ***dua edib yalançılara Allahın lənət etməsini diləyək!"***[297] ayəsi Əhli-Beytin *(ə)* duasının mütləq mənada və tərəddüdsüz qəbul edildiyini bəyan etmişdir. Mərhum Əllamə Təbatəbai öz təfsirində bu ayə barəsində bəhs etdikdən sonra mübahilədə iştirak edənlərin Peyğəmbər *(s)*, Əli *(ə)*, Fatimə *(ə)*, Həsən *(ə)* və Hüseyndən *(ə)* ibarət olduğunu bəyan edərək yazır: "Hədis nəql edənlərin hamısı, o cümlədən Müslüm, Tirmizi və bu kimi böyük hədis kitabları yazan alimlər də onu öz kitablarında yazaraq təsdiq etmişlər".

Ayədə maraqlı faktlardan biri odur ki ***"özümüz"*** kəlməsində Quran Həzrət Əlini *(ə)* Peyğəmbərin *(s)* özü kimi hesab etmişdir. Mübahilə öncəsi Peyğəmbər *(s)* buyurur: *"Mən dua edim, siz də "amin" deyin"*. Bu zaman xristianların başçısı belə deyir: "Ey məsihilər! Mən elə nurlu çöhrələr görürəm ki, əgər onlar Allahdan bir dağın məhv olmasını istəsələr, Allah bunu edər. Əgər onlarla mübahilə etsəniz həlak olarsınız və Yer üzündə bircə nəfər belə, məsihi qalmaz!" Beləliklə, məsihilər mübahilə etməkdən imtina edərək məğlub olur, vergi verməklə İslam dövlətinin himayəsində və öz dinlərində qalırlar.

---

[295] "Məryəm", 10.

[296] əl-Mizan, c. XIV, səh. 14.

[297] "Ali-İmran", 61

Bu hadisə İslamın haqq din olduğunu, Peyğəmbərin *(s)* haqq peyğəmbər olduğunu bir daha təsdiqlədi və məsihilər də bunu etiraf etdilər. Deməli, yenə də bu fikir təsdiqlənir ki, Peyğəmbərin *(s)* Əhli-Beyti *(ə)* Əli *(ə)*, Fatimə *(ə)*, Həsən *(ə)* və Hüseyndən *(ə)* ibarətdir.

Həmçinin, mübarək ayədəki ***"qadınlarımız"*** ifadəsi də onu göstərir ki, Peyğəmbərin *(s)* Əhli-Beytinə *(ə)* daxil olan yeganə qadın Xanım Fatimədir *(ə)*.

Digər tərəfdən, ***"özümüz"*** ifadəsinin işlənməsi və Peyğəmbərin *(s)* mübahiləyə özü ilə yanaşı Həzrət Əlini *(ə)* də gətirməsi bu iki şəxsin bir can kimi olduğunu göstərir.

Ayədəki ***"oğullarımız"*** ifadəsi isə İmam Həsənlə *(ə)* İmam Hüseynin *(ə)* Peyğəmbərin *(s)* balaları, nəslinin davamçıları olduğuna işarə edir. Şübhəsiz ki, bu, bir daha Həzrət Əlinin *(ə)* fəzilətlərinin fərqli cəhətə malik olmasının bariz nümunəsidir.

Bundan başqa, Həzrət Əlinin *(ə)* insanların əməllərinə şahid olması o Həzrətin *(ə)* hər kəsdən fərqli fəzilətə sahib olmasından xəbər verir. Belə ki, Uca Allah Qurani-Kərimdə "(Ya Rəsulum!) ***Kafirlər: "Sən peyğəmbər deyilsən!" - deyirlər.*** (Onlara) ***belə cavab ver: "Mənimlə sizin aranızda*** (doğruluğuma) ***Allahın və Kitabı bilənlərin*** (Tövratı, İncili bilən mömin yəhudi və xaçpərəstlərin, yaxud Qurana bələd olan mömin müsəlmanların və ya lövhi-məhfuzdan xəbərdar olan Cəbrailin) ***şahid olması yetər!"***[298] buyurmaqla Həzrət Əlinin *(ə)* fərqli fəzilətlərini izhar etmişdir. Çünki, bu ayənin təfsirində ümmətin bütün təfsirçiləri ***"Kitabı bilənlərin"*** ifadəsində məqsədin məhz Həzrət Əli *(ə)* olduğunu bəyan etmişlər.

Görkəmli fəqih və hədisşünas Əllamə Qunduzi əl-Hənəfi yazır: "Abdullah bin Əta nəql edir ki, o, İmam Baqirlə *(ə)* birlikdə məsciddə oturubmuş. Bu zaman Abdullah bin Salam adlı birisi gəlib və ayədəki ***"Kitabı bilənlərin"*** ifadəsində məqsədin kim olduğunu soruşub. İmam *(ə)* buyurub: *"Həqiqətən, ayədəki məqsəd Əli bin Əbu Talibdir"*.[299]

Yuxarıda qeyd etdiklərimizi Həzrət Əli *(ə)* ilə Səsəə arasında baş verən bir söhbətlə bitiririk. Belə ki, Səsəə o Həzrətə *(ə)* ərz etdi: "Sən fəzilətcə Adəmdən *(ə)* fərqlisənmi?" Həzrət Əli *(ə)* cavabında buyurdu: *"İnsanın özünü tərif etməsi çirkin bir şeydir. Lakin Rəbbimin nemətlərini anlatmaq baxımından söyləyirəm, bəli, mən Adəmdən fərqli fəzilətə sahibəm"*. Səsəə soruşdu: "Ya Əmirəl-möminin *(ə)*, hansı dəlilə görə?!" O Həzrət *(ə)* buyurdu: *"Adəm üçün buğdadan başqa Cənnətdə bütün rəhmət, rahatlıq və nemət hazırlanmışdır. Adəm isə nəhy edilməsinə baxmayaraq, buğdadan yemiş,*

---

298 "ər-Rəd", 43.

299 Qunduzi əl-Hənəfi, Yənabiül-məvəddə, 30-cu fəsil. Təfsiri-Qurtubu, c. IX, səh. 339.

*bununla da Cənnət və Haqqın rəhmətindən çıxmaq kimi bir addım atmışdır. Lakin Allah-Təala mənə buğdanı yeməyi qadağan etməməsə də mən istək və iradəmlə, həm də dünyanı əhəmiyyətli bilmədiyimdən buğdanı yemədim"*.

Həzrət Əlinin *(ə)* bu qiymətli kəlamı o Həzrətin *(ə)* kəramət və fəzilətinin Allah qatında zöhd və təqva ilə olduğuna işarədir!

Ardından Səsəə soruşdu: "Sən fəzilətcə Nuhdan *(ə)* fərqlisənmi?" Həzrət Əli *(ə)* buyurdu: *"Bəli"*. Səsəə soruşdu: "Hansı dəlilə görə?" Həzrət Əli *(ə)* buyurdu: *"Həzrət Nuh öz qövmünü Allaha dəvət etdikdə onlar itaət etmədilər, üstəlik o Həzrətə çoxlu əziyyət verdilər, zülm etdilər. Sonda Nuh onlara qarğış edib dedi: "Ey Rəbbim, Yer üzündə kafirlərə bir diyar belə qoyma* (yəni onların hamısını həlak elə)*!" Lakin mən Xatəmül-ənbiyadan sonra bu ümmətdən qat-qat artıq əzab-əziyyət görməyimə baxmayaraq, onlara qarğış etmədim və tamamilə səbr etdim"*.

O Həzrətin *(ə)* bu kəlamı bəlalara qarşı səbri çox olan bir kimsənin haqqının ən yaxın məxluq olduğuna işarədir!

Səsəə soruşdu: "Sən fəzilətcə İbrahimdən *(ə)* fərqlisənmi?" Həzrət Əli *(ə)* buyurdu: *"Bəli"*. Səsəə sual etdi: "Dəliliniz nədir?" Həzrət Əli *(ə)* buyurdu: *"İbrahim Allah-Təaladan "Ey Rəbbim, ölünü necə dirildirsən?!" - deyə soruşdu. Allah-Təala "İnanmırsan?" - deyə buyurdu. İbrahim dedi: "İnanıram, ancaq* (onu görməklə) *qəlbimin əmin olmasını istəyirəm". Lakin mənim imanım elə bir yerə çatmışdır ki, hətta əgər bütün hicablar qaldırılsa belə, zərrə qədər yəqinimdə artım olmaz"*.

Bu ifadə Həzrət Əlinin *(ə)* dərəcə və məqam ucalığının "həqqül-yəqin" mərtəbəsinə yetişdiyi üçün o Həzrətin *(ə)* yəqinlik məqamına çatdığına işarədir!

Səsəə soruşdu: "Sən fəzilətcə Musadan *(ə)* fərqlisənmi?" Həzrət Əli *(ə)* buyurdu: *"Bəli"*. Səsəə soruşdu: "Hansı dəlilə görə?" Həzrət Əli *(ə)* buyurdu: *"Allah-Təala Həzrət Musanı Fironu dəvət etmək üçün Misirə göndərdikdə Musa Rəbbinə belə dedi: "Ey Rəbbim, mən onlardan bir nəfəri öldürdüm, onların məni öldürəcəklərindən qorxuram! Qardaşım Harun dil baxımından məndən daha fəzilətlidir. Onu da mənimlə bərabər sözlərimi təsdiq edəcək bir yardımçı olaraq göndər. Çünki, onların məni yalanlayacaqlarından qorxuram". Atası, qardaşı, əmisi, dayısı və yaxın əqrəbasını öldürdüyüm bir çox insanın olmasına baxmayaraq, Peyğəmbər Allah tərəfindən məni "Bəraət" surəsinin ilk ayələrini Məkkədə - Kəbənin üzərində Qüreyş kafirlərinə oxumağım üçün vəzifələndirdikdə qorxmayıb əmrə itaət etdim. Təkcə getdim, vəzifəni yerinə yetirib "Bəraət" surəsinin ayələrini onlara açıqladıqdan sonra geri döndüm"*.

Bu kəlam Həzrət Əlinin *(ə)* fəzilətlərinin fərqli, Allaha təvəkküllə olduğuna və təvəkkülü çox olanın da fərqli fəzilətə sahib olduğuna işarədir!

Səsəə soruşdu: "Sən fəzilətcə İsadan *(ə)* fərqlisənmi? Həzrət Əli *(ə)* buyurdu: *"Bəli"*. Səsəə sual etdi: "Hansı dəlilə görə?" Həzrət Əli *(ə)* buyurdu: *"Cəbrail Məryəmin yaxasına üfürdükdən sonra o, Allahın qüdrəti ilə hamilə oldu. Doğum zamanı gəldikdə Məryəmə belə vəhy olundu: "Bu evdən* (Beytül-müqəddəsdən) *bayıra çıx. Çünki, bu ev ibadət evidir, doğum evi deyil!" Bu səbəbdən də Məryəm Beytul-müqəddəsdən bayıra çıxıb çöldə, quru bir xurma ağacının altında İsanı dünyaya gətirdi. Lakin anam Əsəd qızı Fatimənin Məscidül-həramda doğum sancısı başladıqda o, Kəbənin Rəbbinə yalvararaq belə dedi: "İlahi, bu Evin və bu Evi bina edənin haqqı hörmətinə bu doğum sancısını mənim üçün asanlaşdır!" Bu an Evin divarı aralandı və anamı "Ya Fatimə, Evə gir!" - deyə qeybi bir nida ilə Evin içinə dəvət etdilər. Daha sonra anam içəri girdi və mən Allahın Evi olan Kəbədə dünyaya gəldim"*.

Bu qiymətli kəlam ilk növbədə Həzrət Əlinin *(ə)* şərəfinin soy və doğumunun təmizliyinə görə olduğuna, o Həzrətin *(ə)* mübarək ruhunun, nəfsi və bədəninin daha təmiz olduğundan daha üstün olduğuna işarədir! Bütün bunlara görə də bu hədis Həzrət Əlinin *(ə)* fəzilətlərinin fərqini bəyan edir.

## *2.5. XANIM FATİMƏNİN (Ə) FƏZİLƏTLƏRİ*

Ümmül-Həsəneyn Xanım Fatimə bint Muhəmməd əz-Zəhra *(ə)* Peyğəmbərin *(s)* soyunu davam etdirən qızıdır. Bəzi mənbələrə görə, o Xanım *(ə)* Besətdən təxminən bir il əvvəl (609-cu ildə), İbn Səd[300] ilə bir qrup tarixçiyə görə, Qüreyşin Kəbəni yenidən inşası əsnasında (605-ci ildə),[301] Şeyx Müfidin "Hədaiqür-riyaz" əsərindəki məlumatına görə isə Besətdən iki il əvvəl (608-ci ildə) Məkkədə doğulmuşdur.

Bəzi qaynaqlarda Xanım Fatimənin *(ə)* Xanım Aişədən beş yaşa qədər böyük olduğu yazılır.[302]

Bacıları Zeynəblə Rüqiyyədən kiçik, Ümmü Gülsümdən isə böyük olduğu deyilsə də Xanım Fatimənin *(ə)* Peyğəmbərin *(s)* ən kiçik qızı olması barəsindəki görüş daha doğru hesab edilir.[303]

---

[300] İbn Səd, ət-Təbaqatül-kubra, darüs-sadir, Beyrut, tarixsiz, səh. 19.

[301] Əllamə Məclisi. Biharül-ənvar, Beyrut, 1403/1983, c. X, səh. 10, hədis № 12.

[302] İbn Həcər əl-Əsqəlani, əl-İsabə fi təmyizis-Səhabə, darül-kütubil-elmiyyə, Beyrut-1415/1995, səh. 54.

[303] Həmin mənbə, səh. 648.

Əllamə Məclisiyə görə, Xanım Fatimə *(ə)* Besətin beşinci ilində doğulub və bu, ən məşhur görüşdür.[304] Əllamə Məclisi o Xanımın *(ə)* adının Fatimə mənası haqqında yazır: "Peyğəmbər *(s)* buyurmuşdur: *"Qızımın Fatimə adlanmasının səbəbi onun və onu sevənlərin Cəhənnəm odundan uzaq olmalarına və ondan qorunmalarına görədir"*.[305]

Xanım Fatimənin *(ə)* Zəhra adlanmasının səbəbi haqqında Əban bin Təğlib deyir: "Bu haqda İmam Sadiqdən *(ə)* soruşdum. İmam *(ə)* belə buyurdu: *"Çünki, o, gündə üç dəfə İmam Əli üçün nura qərq olurdu, onun bu nuru namaz halında daha çox zahir olurdu…"*.[306]

Həmçinin, İmam Sadiqdən *(ə)* gələn digər bir məşhur rəvayətə görə, Xanım Fatimə *(ə)* namaz halında duranda üzünün nuru səma əhlini nurlandırdığı üçün belə adlanıb.[307]

Xanım Fatimənin *(ə)* Ümmul-Həsən, Ümmul-Hüseyn, Ümmul-Əimmə və Ümmi-Əbiha adlı künyələrilə yanaşı, əl-Hirə, əs-Seyyidə, əl-Əzra, əl-Həvra, Məryəmül-Kübra, göy aləmində isə ən-Nuriyyə, əs-Səmaviyyə və əl-Haniyə adlı ləqəblərinin də olduğu rəvayət edilməkdədir.[308]

Peyğəmbər *(s)* Xanım Fatiməylə *(ə)* Həzrət Əlini *(ə)*, həmçinin uşaqları Həsənlə *(ə)* Hüseyni *(ə)* əbasının altına alaraq *"Ey Rəbbim! Bunlar mənim Əhli-Beytimdir. Onları pisliklərdən qoru və özlərini pak et"* - deyə dua etmişdir.

Xanım Fatiməylə *(ə)* əlaqədar əhəmiyyətli xüsuslardan biri də Peyğəmbərin *(s)* nəslinin məhz o Xanımın *(ə)* uşaqları vasitəsiylə davam etməsidir. Buna görə də Peyğəmbər *(s)* buyurmuşdur: *"Həsən və Hüseyn Cənnət cavanlarının ağasıdır"*.[309]

Xanım Fatimənin *(ə)* Quran və hədisdə çoxlu sayda fəziləti vardır. Hədis alimləri Peyğəmbərin *(s)* Həzrət Əlini *(ə)*, Xanım Fatiməni *(ə)*, kiçik Həsən *(ə)* və Hüseyni *(ə)* əbasının altına alaraq - ***"... Siz ey*** (Peyğəmbərin) ***ev əhli! Allah sizdən çirkinliyi*** (günahı) ***yox etmək və sizi tər-təmiz*** (pak) ***etmək istər!"***[310] mənasındakı ayəni oxuduğunu qəbul edirlər.

Bu deyilənlərdən əlavə, ötən səhifələrdə Əhli-Beyt *(ə)* haqqında qeyd etdiyimiz bütün ayələrdə Xanım Fatimənin *(ə)* olduğu şübhəsizdir. Buna görə də bu barədə mövzunu uzatmaq istəmirik.

---

304 Əllamə Məclisi, Biharül-Ənvar, Beyrut, 1403/1983, c. X, səh. 7.
305 Həmin mənbə, səh. 12.
306 Həmin mənbə, səh. 11.
307 Həmin mənbə, səh. 12.
308 Həmin mənbə, səh. 16-17.
309 Əhməd bin Hənbəl, Müsnədi-Əhməd, Misir çapı, tarixsiz, səh. 64; Heydər Əli bin Məhəmməd əş-Şərvani, Mənaqibu Əhlil-Beyt *(ə)*, mətbəətü mənşuratil-islamiyyə, 1414 h/q, səh. 243.
310 "əl-Əhzab", 33.

Peyğəmbər *(s)* Xanım Fatimənin *(ə)* haqqında danışdığı uzun-uzadı bir hədisinin sonunda belə buyurmuşdur:

*"Allah Fatimənin nurunu qəndil kimi yaradıb Ərşin ortasından asmış, onun vasitəsilə yeddi qat Yeri və yeddi qat Göyü işıqlandırmışdır"*;

*"Allah Fatimənin qəzəblənməsi ilə qəzəblənir, o, razı qalanda Allah da razı qalır"*;

*"Allah qadınlar içərisindən dörd nəfəri seçmişdir: Məryəm, Xədicə, Asiya və Fatimə"*.

## *2.6. İMAM HƏSƏN (Ə) VƏ İMAM HÜSEYNİN (Ə) FƏZİLƏTLƏRİ*

İmam Həsən *(ə)* və İmam Hüseynin *(ə)* doğumundan sonra Peyğəmbərin *(s)* nəvələrinin qulaqlarına azan oxuduğu və hər biri üçün iki əqiqə qoç qurbanı kəsdiyi nəql edilməkdədir.[311]

Həmçinin, hər ikisi üçün Peyğəmbərin *(s)* Xanım Fatiməyə *(ə)* onların saçlarını kəsib ağırlığı qədər gümüş sədəqə verməyi əmr etdiyi və o Xanımın *(ə)* da buna əməl etdiyi bildirilmişdir.[312]

Bərra bin Azib bir gün kiçik Həsəni *(ə)* Peyğəmbərin *(s)* çiyinlərində oturan görmüş və Rəsuli-Əkrəmin *(s)* o Həzrət *(ə)* üçün *"Ey Rəbbim, mən onu sevirəm, Sən də onu sev!"* - deyə buyurduğunu nəql etmişdir.[313]

İmam Həsənin *(ə)* Peyğəmbərə *(ə)* ən çox bənzəyən şəxs olduğu müxtəlif rəvayətlərə mövzu olmuşdur.[314]

Rəsulullah *(s)* Həsən *(ə)* və Hüseyn *(ə)* haqqında *"Bunlar mənim oğullarım və qızımın oğullarıdır"*;[315] "*Ey Rəbbim, mən onları sevirəm, Sən də onları sev!*;[316] *"Onları sevəni də sev!"* - deyə buyurdu və bunu üç dəfə təkrarladı.[317]

Rəsulullahın *(s)* əmisi İbn Abbas o Həzrət *(s)* xəstələndiyi vaxt yanına gəlmişdi. Həzrət Əli *(ə)*, Xanım Fatimə *(ə)*, Həsən *(ə)* və Hüseyn *(ə)* də içəri daxil oldular. İbn Abbas dedi: "Ya Peyğəmbər *(s)*, bunlar sənin oğullarındır!" Peyğəmbər *(s)* buyurdu: *"Bəli, əmi, onlar sənin də oğullarındır!"* Ab-

---

[311] Həmin mənbə, c. IV, səh. 103.

[312] Kutluay, Siyer-u Sahabe, Kilim Matbaası, İstanbul 2005, c. III, səh. 315-316.

[313] Səhihi-Buxari, Fəzaliu əshabin-Nəbi, 26.

[314] İmam Həsən *(ə)* haqqında daha geniş məlumat üçün bax: Ethem Ruhi Fığlalı, "Hasan", DİA, c. XVI, səh. 282-85; Talat Sakallı, "Hasan b. Ali b. Ebi Talib", ŞİA, c. II, səh. 348-352.

[315] Həmin mənbə.

[316] Əhməd bin Hənbəl, Müsnəd, c. V-VI, səh. 369.

[317] Həmin mənbə, c. I-II, səh. 331.

bas dedi: “Mən onları sevirəm”. Peyğəmbər *(s)* buyurdu: *“Sənin onları sevdiyin kimi, Allah da səni sevsin”.*[318]

Peyğəmbər *(s)* buyurmuşdur: *“Həsən və Hüseyn Cənnət gənclərinin iki seyyidi, əfəndisidir”;*[319] *“Həsən və Hüseyni sevən məni sevmiş, onlara kin bəsləyən də mənə kin bəsləmiş olur”.*[320]

İmam Həsən *(ə)* Müaviyənin xəlifəliyi dövründə, 669-670-ci ildə gizli bir şəkildə, xəlifə Müaviyənin casuslarının sui-qəsdi nəticəsində şəhid edilmişdir.[321]

İmam Hüseyn *(ə)* isə Müaviyənin oğlu Yezidin dövründə və onun əmri ilə 680-ci ildə Kərbəlada şəhid edilmişdir.[322]

Peyğəmbər *(s)* İmam Hüseynin *(ə)* qatilləri haqqında buyurmuşdur:

**قال رسول الله )ص :(ان قاتل الحسين بن علي عليهما السلام في تابوت من نار عليه نصف عذاب أهل الدنيا وقد شدت يداه ورجلاه بسلاسل من نار منكس في النار حتى يقع في قعر جهنم وله ريح يتعوذ أهل النار إلى ربهم من شدة نتنه وهو فيها خالد ذائق العذاب الأليم مع جميع من شايع على قتله كلما نضجت جلودهم بدل الله عز وجل عليهم الجلود حتى يذوقوا العذاب الأليم لا يفتر عنهم ساعة ويسقون من حميم جهنم فالويل لهم من عذاب الله تعالى في النار.**

*“Hüseyn bin Əlinin qatili atəşdən bir tabutun içində olar. Dünya əhlinin əzabının yarısı onadır. Onun əlləri, ayaqları atəşdən zəncirlə bağlanar və Cəhənnəmdə bir çuxura salınar. Cəhənnəm əhlinin şiddətli qoxusundan ötəri Rəblərindən sığındıqları bir külək vardır. O, bu ağrıdıcı əzabda daimi qalacaq. İmam Hüseynin qətlinə qatılan hər kəs də onunla birlikdə olacaq. Onların dərilərinin hər yanmasından sonra Allah kədərli əzabı dadmaları üçün dərilərini başqasıyla dəyişdirər və onların əzabları yüngülləşdirilməz. Onlara Cəhənnəmin həmim adlı içkisindən içirilər. Allahın əzabına düçar olduqlarından ötəri vay olsun onlara!”*[323]

---

[318] Süleyman bin Ahmet bin Eyyub eş-Şami el Lahmi Taberani, Mucemus-Sağir, tərc. İsmail Mutlu, Mutlu yayıncılık, İstanbul 1996, c. I, səh. 90.

[319] Əhməd bin Hənbəl, Müsnəd, c. I-II, səh. 288; Sünəni-İbn Macə, Müqəddimə, 11.

[320] Əhməd bin Hənbəl, Müsnəd, c. I-II, səh. 288.

[321] İrfan Aycan, Saltanata Giden Yolda Muaviye Bin Ebi Süfyan, Ankara Okulu yayınları, II baskı, Ankara 2001, 149.

[322] Həzrət Hüseyn *(ə)* haqqında daha geniş məlumat üçün bax: İbrahim Quliyev, Hədisi-şəriflərdə Müqəddəs Şəhərlərin tarixi, Bakı, Nurlar, 2012.

[323] Şeyx Səduq Üyuni-əxbarir-Rza *(ə)*, c. II, səh. 51, bab 31, hədis № 178.

III FƏSİL

# İSLAMDA İMAMƏT (XİLAFƏT) MƏFHUMU VƏ İMAM ƏLİNİN (Ə) İMAMƏTİ

## *3.1. İMAMƏT VƏ XİLAFƏT MƏFHUMU*

Xilafət İslam hökmlərini tətbiq etməkdə Allah və Peyğəmbəri *(s)* tərəfindən məsul olan şəxs(lər)in hakimiyyətidir. İslam rəhbərliyinin həm nəzəri, həm də praktik baxımdan özünəməxsus bu mövqeyi ümumiyyətlə "xəlifəlik" və ya "xilafət" deyə adlandırılmaqdadır. Bu mövqeyə gələ bilmək üçün müəyyən xüsusiyyətlərə sahib olmaqla yanaşı, bundan ötrü müəyyən yol da lazımdır.

Terminoloji lüğətdə xilafət - başqasının yerinə onun adına vəzifə yerinə yetirmək deməkdir.[324] Xəlifə isə başqası tərəfindən öz adına iş görmək üzrə vəzifələndirilən şəxsə deyilir.[325] Başqasının adına vəzifə yerinə yetirməyin və ya qərar qəbul etməyin isə bir neçə səbəbi vardır. Ya əvəzinə vəzifə yerinə yetirilən kimsənin aciz olması, ya da xəlifə olaraq təyin edilən kimsənin dəyərini yüksəltmək məqsədi güdülmüşdür.[326] Əvəzinə vəzifə yerinə yetirilən kimsənin hazır olmaması və ya ölümü vəziyyətində xilafət Peyğəmbərin *(s)* risalətindən başqa qalan vəzifələrini daşımaq deməkdir.

İslam hüquqçuları "xilafət" terminindən, ümumiyyətlə Peyğəmbərin *(s)* yerinə keçmək mənasında istifadə etmişlər. Həqiqətən də xilafət şəriəti Allahdan təbliğ edən Peyğəmbərin *(s)* yerinə keçib dini qorumaq və dünya işlərini nizama salmaq deməkdir,[327] ən yüksək başçılıq vilayətidir ki, bu da dini qorumaq və dünya işlərini tənzimləmək mövqeyidir. Bu mövqeyə gətirilənə xəlifə adı verilir.

Bu mövqeyə keçən şəxs cəmiyyəti idarə etməkdə Peyğəmbərə *(s)* xələf olmuşdur. Bu səbəblə onlara "Peyğəmbərin *(s)* xəlifəsi" deyilmişdir, lakin yalnız "xəlifə" demək də kifayət edər. Peyğəmbərin *(s)* hədislərində "xilafət" və onunla eyni kökdən törəyən sözlər yerinə görə termin mənasıyla, yerinə görə də lüğəvi mənasıyla istifadə edilmişdir.[328]

Xəlifəyə "Allahın xəlifəsi" də demək caizdir. Çünki, Qurani-Kərim **"**(Ey insanlar!) ***Sizi Yer üzünün varisləri*** (xəlifələri) ***təyin edən, verdiyi nemətlər xüsusunda sizi sınamaq üçün dərəcələrə görə birinizi digərinizdən üstün edən Odur"***[329] - deyə bəyan edir.

[324] İbn Teymiyyə, Məcmuül-fətava, c. XXXV, səh. 43, əl-Kəttani, ət-Təratibül-idariyyə, c. I, səh. 2.
[325] İbn Həzm, əl-Fisal, c. IV, səh. 107.
[326] Rağib əl-İsfəhani, əl-Tədris fi qəribil-Quran, səh. 156.
[327] İbn Xəldun, Müqəddimə, səh. 191.
[328] Səhihi-Buxari, Məğazi, 37.
[329] "əl-Ənam", 165.

Allahın əmrləri nəzərə alınmadan qurulan rəhbərliklər heç bir zaman "xilafət" adına layiq görülə bilməz. Buna görə də Quran bu məsələni belə bəyan etmişdir:

***"Sizi Yer üzünün varisləri edən*** (bir-birinizin yerinə gətirən) ***Odur. Küfr edənin küfrü öz əleyhinə olar*** (zərərini özü çəkər)***. Kafirlərin küfrü Rəbbi yanında onlara qəzəbdən başqa bir şey artırmaz. Kafirlərin küfrü*** (Axirətdə) ***onların ancaq ziyanını artırar!"***;[330]

***"Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə - yalnız Mənə ibadət edərlər, heç nəyi Mənə şərik qoşmazlar deyə - onları özlərindən əvvəlkilər kimi Yer üzünün varisləri edəcəyini*** (İsrail övladını Yer üzündə kafirlərin yerinə gətirdiyi kimi, onları da müşriklərin yerinə gətirəcəyini)***, onlar*** (möminlər) ***üçün onların Allahın Özü bəyəndiyi dinini*** (İslamı) ***möhkəmləndirəcəyini*** (hər tərəfə yayacağını) ***və onların qorxusunu sonra əmin-amanlıqla*** (arxayınçılıqla) ***əvəz edəcəyini vəd etmişdir. Bundan sonra küfr edənlər, şübhəsiz ki,*** (Allahın itaətindən çıxmış) ***əsl fasiqlərdir!"***[331]

Deməli, burada əhəmiyyətli olan bu uca mövqeyin vəzifələrinin yerinə yetirilməsidir. Bunlar isə Allahın hökmlərini mütləq ölçü qəbul etmək, saleh əməl işləmək, Allaha qarşı çıxmamaq və küfrə düşməməkdir. Özündə bu xüsusiyyətlər olmayan heç bir rəhbərlik islami xüsusiyyət qazana bilməz, islami anlayışlarla əlamətləndirilə bilməz.

Xəlifəlik mövqeyinə keçən kimsə üçün "xəlifə" adı qədər istifadə edilmiş ikinci bir ünvan da vardır ki, o da "imam"dır. İmam - sözünə və ya davranışlarına boyun əyilən kimsə deməkdir.[332]

İmamət də termin olaraq "dini, dünyəvi və istənilən bir mövzuda ən yüksək başçılıq" deməkdir.[333]

İmamət inancı tövhid, peyğəmbərlik və məad inancları kimi, müsəlmanların əqidəsinin bir hissəsini meydana gətirməkdədir. Həmçinin, digər əqidəvi mövzular kimi, imamət mövzusu da həm Quran, həm də Sünnə ilə sabitdir. Bu mövzuda Peyğəmbərdən *(s)* mütəvatir yolla rəvayət edilən *"İmamını tanımadan ölən Cahiliyyə ölümü üzrə ölmüşdür"* hədisidir ki, o da bütün qaynaqlarda dəyişik səhih sənədlərlə rəvayət edilmişdir.

İmamiyyə əqidəsinə görə, imamət əqidədəndir, imamları *(ə)* Allah təyin edib, Peyğəmbər *(s)* də bunu insanlara çatdırıb[334] və insanların bu məsumlara *(ə)* itaət etməsini əmr edib. Digər İslam məzhəbləri isə əksinə, imamə-

---

[330] "əl-Fatir", 39.
[331] "ən-Nur", 55.
[332] Rağib əl-İsfəhani, əl-Tədris fi qəribil-Quran, səh. 24.
[333] əl-Cürcani, Şərhül-məvaqif, səh. 602.
[334] Bu bölümdə Məkarim Şirazinin mövzu ilə əlaqəli fikirlərini sitat olaraq götürmüşük.

tin əqidədən olmadığını, xəlifələri Allahın təyin etmədiyini və xilafət işinin ümmətin seçimi ilə olduğunu deyirlər. Bu mövzu barədə Cəfərilərlə digər məzhəblər arasında fikir mübadilələri aparılmış və Cəfərilər öz dəlilləri baxımından həm Qurana, həm də Sünnəyə söykənmişlər.

Yenə də, İmamiyyə əqidəsinə görə, xilafət dedikdə Əhli-Beytin *(ə)* ümməti idarə etməsi, cihad əmrləri verməsi, İslam ümmətini idarə edib ümmətin xeyri üçün lazımlı qərarlar qəbul etməsi, xəzinəni nəzarətdə saxlaması, dövləti idarə etməsidir. Həmçinin, xilafət imamların *(ə)* insanlara əqidə, fiqh, Sünnə, təfsir, qısaca dinlərini öyrətməsidir. Buna görə də imamət mövzusu zəruri və lazımlıdır, eyni zamanda insanların bu mövzuda Ali-Muhəmməddən *(ə)* olan hidayət imamlarına *(ə)* tabe olmaları lazımdır.

Böyük İslam alimi Mürtəza Mütəhhəri "əl-Maidə" surəsinin 67-ci ayəsinin təfsirində yazır: "Təfsir əhlinə görə bu nazil olan sonuncu surədir. Təfsir edilən ayə isə o zaman nazil olmuşdur ki, Peyğəmbər *(s)* on üç il Məkkədə, on il də Mədinədə Allahın göstərişlərini yerinə yetirmişdir və bu ayə onun son əmrinin yerinə yetirilməsi idi. Əhli-Beyt *(ə)* davamçısı sual verir ki, əgər Peyğəmbər *(s)* bu ayəni elan etməsəydi, onda Peyğəmbərin *(s)* indiyə qədər etdikləri puç olardı? Yəni, bu elə mövzudur ki, əgər bəyan edilməsəydi, onda imamət mövzusu yarımçıq qalardı və Peyğəmbərin *(s)* gətirdiyi şəriət puç olardı. Bu mövzu bu qədər mühümdür. Bu baxımdan adıçəkilən surənin 3-cü ayəsi onu göstərir ki, həmin günü elə bir hadisə baş vermişdir ki, bununla din kamil olmuş və o, Allahın bəşərə əta etdiyi nemət hesab edilmişdir. Bu elə bir şeydir ki, o, olmadan İslam, İslam ola bilməz. Biz Əhli-Beyt *(ə)* davamçıları deyirik ki, bu, Qədir-Xum hadisəsidir ki, onunla din kamil olmuşdur. Ayənin nazil olmasına diqqət edən zaman görürük ki, bu haqda bir deyil, onlarla hədis vardır və bu hədislər ayənin Qədir-Xum gününə işarə etdiyini sübut edir. Deməli, bu ayənin mənası odur ki, islami cəmiyyətin kənarında olan kafirlər (dininizi aradan apara bilmədikləri üçün) məyusdurlar və onların tərəfindən hər hansı bir təhlükə yoxdur. Yəni, özünüzdən qorxun, ey müsəlman cəmiyyət! Bundan sonra əgər təhlükə olarsa, deməli, siz özünüz İslam nemətilə pis rəftarda olmuş, o nemətə küfr etmişsiniz. Ondan lazımi istifadəni etməmişsiniz. Nəticədə mənim sizin haqqınızdakı qanunum icra olunar".

Ustad Mütəhhəri bu fikirdədir ki, *"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır!"* hədisi elə bir hədisdir ki, onu heç kəs inkar edə bilməz. Çünki, bu hədis bir çox mötəbər tarix kitablarında bəyan edilmişdir. İslama dair ən qədim tarix kitabı Yaqubinin əsəridir və üçüncü Hicri (IX Miladi) ilində, təxminən, Məmunun hökumətindən (813-833) sonra, Mütəvəkkilin

(848-861) zamanında yazılmışdır. Bu, ancaq tarix kitabıdır və orada hədis yoxdur. Bu kitabda da Qədir-Xum hadisəsi bəyan edilmişdir.

Qədir-Xum hadisəsi xalq ədəbiyyatında da öz yerini tutmuşdur. Çünki, hər bir əsrdə baş verən hadisələri şairlər qələmə alardılar. Əllamə Əmini yazır ki, əgər Qədir-Xum hadisəsi dördüncü əsrdə baş veribdirsə, birinci, ikinci və üçüncü əsrin şairləri onun haqqında niyə yazırdılar. Hər bir əsrdə görürük ki, şairlər həmin əsrə aid hadisələri bəyan edirlər. Ona görə də bu hədisi inkar etmək olmaz."[335]

Bütün bu deyilənlərə əsasən, bunu da əlavə etmək lazımdır ki, Cəfərilər İmam Əlinin *(ə)* Peyğəmbərdən *(s)* sonra xilafətə Allah tərəfindən təyin edildiyini qəbul edir və digər şəxslərin xəlifəliyini qanunsuz hesab edirlər.

Eyni zamanda, Cəfərilər Peyğəmbərdən *(s)* sonra hakimiyyətdə olmuş və İslam tarixində "Raşidi xəlifələri" ünvanı ilə tanınmış şəxslərin səhabə təbəqəsinin böyüklərindən olduğunu nəzərə alaraq onların barəsində hər hansı bir ixtilaf yaradacaq nalayiq sözlərin deyilməsini də rəva görmürlər. Hətta bu məsələ Əhli-Beyt *(ə)* imamlarının *(ə)* davranışlarında da özünü bariz şəkildə göstərmişdir.

Lakin bunu da qeyd etmək lazımdır ki, Peyğəmbərdən *(s)* sonra özlərini "Peyğəmbərin xəlifəsi" adlandıran Əməvilər (661-750) və Abbasilər xilafəti (750-1258) Cəfərilər tərəfindən tənqid edilən və hətta bir çox məsələlərdə ittiham olunan "xilafət" quruluşudur. Biz həmin xilafət tarixinə nəzər saldıqda bu görüşün necə də doğru olduğunun şahidi oluruq.

Cəfəri məzhəbinin əqidəsinə görə, imamət dinin əsaslarından biridir və onun inkarı kamil imana dəlalət etmir. Çünki, imamət Allah tərəfindən təyin edilən bir vəzifədir və müsəlmanların ona etiqad bəsləməsi dinin zəruri məsələlərindəndir. Cəfəri məzhəbinin imamətə etiqad bəsləməsi, onu dinin əsaslarından bilməsi səmavi bir göstəriş olduğu üçün bu barədə kifayət qədər Quran ayələri və məsumların *(ə)* hədisləri vardır. Buna görə də cəsarətlə demək olar ki, adıçəkilən məzhəbin bu görüşü mənimsəməsi heç bir siyasi əhəmiyyət daşımayıb, bu, əslində İlahi bir əmrdir. Bunu aşağıdakı ayələrdə və onların səhih təfsirlərində də görmək olar. Belə ki, Allah-Təala imamət haqqında buyurmuşdur:

**إِنَّمَا وَلِيُّكُمُ اللَّهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُواْ الَّذِينَ يُقِيمُونَ الصَّلاةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ.**

***"Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki,*** (Allaha) ***namaz qılır və rükuda olduqları halda zəkat verirlər"***;[336]

---

[335] Bax: www.cəfərililər.com.

[336] "əl-Maidə", 55.

**حُرِّمَتْ عَلَيْكُمُ الْمَيْتَةُ وَالدَّمُ وَلَحْمُ الْخِنْزِيرِ وَمَا أُهِلَّ لِغَيْرِ اللّهِ بِهِ وَالْمُنْخَنِقَةُ وَالْمَوْقُوذَةُ وَالْمُتَرَدِّيَةُ وَالنَّطِيحَةُ وَمَا أَكَلَ السَّبُعُ إِلاَّ مَا ذَكَّيْتُمْ وَمَا ذُبِحَ عَلَى النُّصُبِ وَأَن تَسْتَقْسِمُواْ بِالأَزْلاَمِ ذَلِكُمْ فِسْقٌ الْيَوْمَ يَئِسَ الَّذِينَ كَفَرُواْ مِن دِينِكُمْ فَلاَ تَخْشَوْهُمْ وَاخْشَوْنِ الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الإِسْلاَمَ دِينًا فَمَنِ اضْطُرَّ فِي مَخْمَصَةٍ غَيْرَ مُتَجَانِفٍ لِّإِثْمٍ فَإِنَّ اللّهَ غَفُورٌ رَّحِيمٌ.**

***"...Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi*** (Məkkənin fəthi, İslamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyət dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i.a.) ***tamamladım və sizin üçün İslamı bəyənib seçdim...";***[337]

**يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ وَإِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَاللّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ إِنَّ اللّهَ لاَ يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ.**

***"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni*** (Quranı) ***təbliğ et. Əgər*** (bunu) ***etməsən,*** (Allahın) ***risalətini*** (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) ***yerinə yetirmiş olmazsan...".***[338]

Cəfəri məzhəbinin təfsir alimlərinə görə, bu ayələr imamətlə bağlı nazil olub imamətin Peyğəmbər *(s)* tərəfindən insanların nəzərinə çatdırılmasını göstərir.

İmamət vəzifəsi Allah tərəfindən təyin edilən bir vəzifə olduğundan onun təyini də Allah tərəfindən olmalıdır. Bu məsələni Qurani-Kərim xüsusi şəkildə vurğulamaqdadır:

**وَجَعَلْنَاهُمْ أَئِمَّةً يَهْدُونَ بِأَمْرِنَا وَأَوْحَيْنَا إِلَيْهِمْ فِعْلَ الْخَيْرَاتِ وَإِقَامَ الصَّلَاةِ وَإِيتَاء الزَّكَاةِ وَكَانُوا لَنَا عَابِدِينَ.**

***"Biz onları əmrimizlə*** (insanları) ***doğru yolu göstərən imamlar*** (rəhbərlər) ***etdik. Biz onları xeyirli işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər";***[339]

**وَنُرِيدُ أَن نَّمُنَّ عَلَى الَّذِينَ اسْتُضْعِفُوا فِي الْأَرْضِ وَنَجْعَلَهُمْ أَئِمَّةً وَنَجْعَلَهُمُ الْوَارِثِينَ.**

***"Biz isə istəyirdik ki, o yerdə zəif düşüb əzilənlərə*** (İsrail oğullarına) ***mərhəmət göstərək, onları*** (xeyirxah işlərdə) ***öndə gedənlər və*** (Fironun mülkünə) ***varislər edək";***[340]

**وَإِذِ ابْتَلَى إِبْرَاهِيمَ رَبُّهُ بِكَلِمَاتٍ فَأَتَمَّهُنَّ قَالَ إِنِّي جَاعِلُكَ لِلنَّاسِ إِمَامًا قَالَ وَمِن ذُرِّيَّتِي قَالَ لاَ يَنَالُ عَهْدِي الظَّالِمِينَ.**

[337] "əl-Maidə", 3.
[338] "əl-Maidə", 67.
[339] "əl-Ənbiya", 73.
[340] "əl-Qəsəs", 5.

**“**(Ya Rəsulum!) ***Yadına sal ki, İbrahimi öz Rəbbi bir neçə sözlə*** (bəzi əmrləri ilə) ***imtahana çəkdiyi zaman o,*** (Allahın əmrlərini) ***tamamilə yerinə yetirdi.*** (Belə olduqda Allah ona:) ***“Səni insanlara imam*** (dini rəhbər, başçı) ***təyin edəcəyəm” - dedi.*** (İbrahim isə:) ***“Nəslimdən necə?” - deyə soruşdu.*** (Allah onun cavabında:) **“**(Sənin nəslindən olan) ***zalımlar mənim əhdimə*** (imamlığıma) ***nail olmazlar” - buyurdu”.***[341]

Həmçinin, imamətə dair çoxlu mütəvatir hədislər də vardır ki, onlardan bir neçəsini aşağıda qeyd etmək olar:

*“İslam beş rükn üzərində qurulmuşdur: namaz, zəkat, oruc, Həcc və vilayət. Vilayətə çağırıldığı qədər digərlərinə çağırış yoxdur”.*[342]

*“Əli məndəndir, mən də ondanam. O, məndən sonra hər bir möminin və möminənin ixtiyar sahibidir”.*[343]

*“Qiyamət qopanadək din davam etməz, ta ki, sizə on iki nəfər xəlifə xəlifəlik edənədək. Onların hamısı Qüreyşdəndir”.*[344]

*“On iki xəlifə olacaqdır ki, hamısı da Qüreyşdəndir”.*[345]

Bu və ya digər rəvayətlərdən belə məlum olur ki, həqiqətən də imamət mühüm dini anlayışlardan və İmamiyyə əqidəsinə görə, dinin əsaslarındandır. Həmçinin, burada incə bir məqam da diqqəti çəkməkdədir. Belə ki, bəzi İmamiyyə alimlərinə görə, imamət anlayışı dinin deyil, məzhəbin əsaslarındandır. Bu fikri məşhur alim Ayətullahul-üzma Seyyid Hüseyn Fəzlullah təsdiq etməkdədir. Alimə görə, əgər imamət dinin əsaslarından olarsa, bu halda onu qəbul etməyənlər və ona etiqad bəsləyənlər dindən çıxmış hesab edilməlidirlər. Buradan belə anlaşılır ki, əgər imamət məzhəbin əsası olarsa, deməli imaməti qəbul etməyən başqaları da müsəlman hesab edilməlidirlər, onlar yalnız məzhəbin xaricindədirlər. Bu görüşü, həmçinin müasir dövrün digər böyük alimi Ayətullahul-üzma Məkarim Şirazi də qəbul etməkdədir. Şübhəsiz ki, bu, ən doğru fikirdir.

Lakin bu deyilənlərə baxmayaraq, İslamın digər məşhur alimləri imaməti məzhəbin deyil, məhz dinin əsaslarından qəbul etmiş və bunu sübut edəcək kifayət qədər dəlilə müraciət etmişlər. Onların arasında Küleyni “əl-Kafi”, Şeyx Müfid isə “Əvailul-Məqalat” əsərində imaməti dinin əsaslarından bilmiş və onun Allah tərəfindən insanlara vacib edildiyini önə çəkmişlər.

İslam Peyğəmbəri *(s)* xütbələrinin birində buyurmuşdur: *“Hər kəs öz dövrünün imamını tanımadan ölsə, Cahiliyyət dövrünün ölümü ilə ölmüş-*

[341] “əl-Bəqərə”, 124.
[342] Küleyni, Üsuli-kafi, c. II, səh. 21-22.
[343] Sünəni-Tirmizi, c. II, səh. 297.
[344] Səhihi-Müslim, c. VI, səh. 4.
[345] Səhihi-Buxari, c. VIII, səh. 127.

*dür".*[346] İbn Hibban (öl.965) bu hədisə belə izah verir: "Peyğəmbərin *(s)* sözündəki məna budur ki, hər kəs insanları Allahın yoluna dəvət edən imamının olduğuna etiqad etməsə, Cahiliyyət ölüsü kimi ölmüş olur".[347]

Bu hədis imamətin İslamda zəruri məsələ kimi ortaya çıxdığını və Peyğəmbər *(s)* tərəfindən Allahın əmri vasitəsilə təbliğ edildiyini göstərir. Bundan əlavə, aşağıda qeyd edəcəyimiz hədis də imamın *(ə)* digər insanlardan daha üstün olduğunu önə çəkir. Hədis belədir: "Peyğəmbər *(s)* qızı Fatiməyə *(ə)* belə buyurdu:

**أبوك خير الأنبياء ، وبعلك خير الأوصياء، وأنت سيدة نساء العالمين، وولدك الحسن والحسين (عليهما السلام) سيّدا شباب أهل الجنّة، وأبوهما خير منهما.**

*"Sənin atan peyğəmbərlərin, ərin isə vəsilərin ən xeyirlisidir. Sən bütün aləmlərin qadınlarının rəhbərisən. Oğlanların Həsən və Hüseyn Cənnət cavanlarının ağasıdır. Onların atası isə onların ikisindən daha xeyirlidir".*[348]

İmamət yalnız zahiri bir iqtidar və rəhbərlik mövqeyindən ibarət deyil, əksinə çox ülvi, mənəvi və ruhani bir mövqedir. Buna görə də imam *(ə)* İslam dövlətini idarə etməklə yanaşı, insanların dini və dünya işlərini də öz idarəsi altına almalı, onları istiqamətləndirməlidir. Bununla da imam *(ə)* insanların düşüncə və fikrini, eləcə də daxili dünyasını hidayət edər, Peyğəmbərin *(s)* şəriət və Sünnəsini hər cür sapma və pozulmadan qoruyar, Peyğəmbərin *(s)* peyğəmbərliklə vəzifələndirilməsi səbəbi olan Allahın məqsəd və məramlarını dəqiqləşdirər.

Həzrət İbrahim *(ə)* nübuvvət və peyğəmbərlik yolunu qət edib müxtəlif imtahanları müvəffəqiyyətlə geridə buraxdıqdan sonra Allah-Təala ona uca imamət mövqeyini bağışlamaqda və İbrahim Xəlil *(ə)* də bu böyük mövqenin soyundan gələn övladlarına verilməsini istədikdə Uca Yaradan İbrahim peyğəmbərə *(ə)* ***"bu böyük mövqeyə zalımlarla günahkarların çata bilməyəcəyi"*** xatırladılmışdır: "(Ya Rəsulum!) ***Yadına sal ki, İbrahimi öz Rəbbi bir neçə sözlə*** (bəzi əmrləri ilə) ***imtahana çəkdiyi zaman o,*** (Allahın əmrlərini) ***tamamilə yerinə yetirdi.*** (Belə olduqda Allah ona:) ***"Səni insanlara imam*** (dini rəhbər, başçı) ***təyin edəcəyəm" - dedi.*** (İbrahim isə:) ***"Nəslimdən necə?" - deyə soruşdu.*** (Allah onun cavabında:) "(Sənin nəslindən olan) ***zalımlar mənim əhdimə*** (imamlığıma) ***nail olmazlar" - buyurdu"***[349] – deyə nida etdi.

---

[346] Əhməd bin Hənbəl, Müsnədi-Əhməd, darül-fikir, Beyrut, tarixsiz, c. IV, səh. 96.
[347] Əlauddin Əli bin Bəlban İbn Hibban əl-Farsi, Səhihi-İbn Hibban, II nəşri, 1414/1993, c. VII, səh. 49.
[348] Qunduzi əl-Hənəfi, Yənabiül-məvəddə, səh. 434, 436.
[349] "əl-Bəqərə", 124.

Belə bir mövqe və dərəcənin zahiri bir hökumətlə (siyasi dövlət qurub iqtidarın başına keçməklə) xülasə edilə bilinməyəcəyi, yalnız bundan ibarət olmayacağı açıq-aşkar ortadadır. Deməli, imamətin daha əvvəl də açıqladığımız şəkliylə təfsir edilib aydın olmayacağı halda yuxarıdakı ayə dəqiq bir məna ifadə etməyəcək.

Ulul-əzm peyğəmbərlərin *(ə)* hamısı imamət mövqeyinə sahib olmuşdurlar. Onlar təbliğlə vəzifələndirilmiş olduqlarını yalnız təbliğ etməklə kifayətlənməmiş, eyni zamanda bunların həyata keçməsi sahəsində çoxlu iş görmüş, həqiqətin yerinə yetirilməsini təmin etmiş, insanların həm maddi, həm də mənəvi öndəri olmuşlar.

Həzrət Muhəmməd *(s)* isə peyğəmbərliyinin başlanğıcından etibarən uca imamət və ilahi rəhbərlik mövqeyini daşımaqda idi. Yəni, o Həzrətin *(s)* etdiyi Allahın əmrlərini yalnız təbliğ edib gerisinə qarışmamaq deyildi. Buna görə də imamət xətti Peyğəmbərdən *(s)* sonra Rəsulullahın *(s)* soyundan gələn məsum imamlar *(ə)* vasitəsiylə davam etmiş və İslamın doğru yolu əsla kəsilməmişdir.

Daha əvvəl də imamət məsələsində verdiyimiz tərif və açıqlamadan aydın olacağı üzrə bu mövqeyə çata bilməyin olduqca ağır şərtləri vardır. Belə ki, imam həm təqva (bu təqva heç bir zaman günaha bulaşmayacaq), həm də elm və məlumat baxımından dinin bütün əmr və hökmlərinə nöqsansız şəkildə vaqif olacaq, istənilən zaman, məkan və şərtlər daxilində insanların dini və dünyəvi məsələlərini, çətinliklərini üzərinə götürəcək, eyni zamanda bu çətinliklərə Allahın hökmləri çərçivəsində ən mükəmməl həlləri gətirə biləcək biri olmalı və bu şərtləri daşıya bilməlidir.

İmam *(ə)* hər növ günah və səhvdən uzaq olmalıdır. Çünki, yuxarıdakı ayənin təfsirində bildirilən həqiqətdən əlavə, günahsız olmayan birisinin "qətiliklə və heç şübhəsiz etibarlı" ola bilməyəcəyi də ortadadır. Belə birisindən dinin dəyişməz əsasları və fürui (ikinci dərəcəli) məsələləri tam bir etibarla (yüzdə yüz doğru olduğundan əmin olunaraq) əldə edilə bilinməyəcək. Bu, onunla əlaqədardır ki, imamın *(ə)* hərəkət və təqrirləri ilə yanaşı, sözlərinin də şəri höccət və dəlil olduğuna inanmaqdayıq.

İmam *(ə)* əsla yeni bir şəriət və İslamda olmayan yeni bir qayda gətirməz, əksinə onun vəzifəsi İslam şəriəti və İslam Peyğəmbərinin *(s)* Sünnəsini qorumaq, bu dinin təbliğ və təlimiylə məşğul olaraq insanları ona hidayət etməkdir.

Biz imamın *(ə)* İslamın üsul və füruatının hamısına, İslam hökm və qanunlarına, Quranın məna və təfsirinə tam mənasıyla vaqif olmasının zəruri olduğuna inanırıq. Onun bu elmlərə bələd olmasının dini bir ölçüsü vardır. Çünki, bütün bunlar Peyğəmbərdən *(s)* ona çatmışdır.

Bəli, insanlar belə bir elmə və belə bir imama *(ə)* tamamilə güvənə bilərlər. Onlar İslamın həqiqətlərini anlaya bilməkdən ötəri tam bir təslimiyyətlə imama *(ə)* müraciət edib məsələlərinin həlli üçün ona söykənə bilərlər.

İmamət məsələsi Allahdan gəldiyindən, səmavi bir məsələ olduğundan onun Allah tərəfindən təyini də zəruridir.[350]

Biz imam *(ə)* (təbiəti ilə peyğəmbərin *(ə)* canişini) olan şəxsin mənsus olmasının (vəhylə bildirilməsi), yəni şəxsən peyğəmbərin *(ə)* nəssi, təyini və özündən əvvəlki imamın *(ə)* da bunun təyini ilə təyin edilməsinin lazım olduğuna inanırıq. Başqa bir deyimlə, imam *(ə)* da eynilə peyğəmbər *(ə)* kimi (şəxsən peyğəmbər *(ə)* vasitəsiylə) Allah tərəfindən təyin edilər. İbrahim peyğəmbərin *(ə)* imamətiylə əlaqədar ayədə də bəyan edildiyi üzrə imamı *(ə)* Allah-Təala Özü təyin etməkdədir: (Belə olduqda Allah ona:) ***"Səni insanlara imam*** (dini rəhbər, başçı) ***təyin edəcəyəm" - dedi"***.[351]

Onsuz da bir insanın məsumluq dərəcəsinə qədər təqvalı olub-olmadığını, İslamın hökm və əsaslarını heç yanılmadan, səhvə qapılmadan bütün təfsilatı ilə tam və nöqsansız olaraq bilib-bilmədiyini Allah və Rəsulundan *(s)* başqa kimsənin təyin edə bilməsi mümkün deyildir. Məhz bu səbəbdən biz məsum imamın *(ə)* bir qrup insan və ya insan kütləsi tərəfindən seçilməsi şəklində təyin edilə bilinməyəcəyinə inanmaqdayıq.

Əhli-Beyt *(ə)* imamları *(ə)* Allahın əmri üzrə Peyğəmbər *(s)* tərəfindən təyin edilmişlər. Bunu məşhur "Səqəleyn" hədisi də təsdiq etməkdədir. Görkəmli hədis alimi Müslim bin Həccac "Səhihi-Müslim"[352] əsərində belə nəql edir: "Peyğəmbər *(s)* Məkkəylə Mədinə arasındakı Qədir-Xum deyilən yerdə insanlara bir xütbə oxudu, sonra da *"Mən yaxında aranızdan ayrılacağam"* - deyə buyurdu: *"Aranızda ağır və çox qiymətli iki əmanət qoyub gedirəm. Birincisi Allahın Kitabıdır ki, onda nur və hidayət vardır... Digəri isə Əhli-Beytimdir. Əhli-Beytim haqqında Allahı unutmamanızı sizə tövsiyə edirəm"*. O Həzrət *(s)* bu cümləni üç dəfə təkrar etdi".

Eyni məzmun digər görkəmli hədisşünas Məhəmməd bin İsa ət-Tirmizinin "Səhihi-Tirmizi"[353]əsərində də keçməkdədir: *"...Bu ikisinə möhkəmcə sarılsanız, əsla yolunuzu itirməz, sapmazsınız"*.

Adıçəkilən hədis "Sünəni-Darimi",[354] "Xəsaisi-Nəsai",[355] Müsnədi-Əhməd[356] və digər mötəbər qaynaqlarda keçməkdə, mütəvatir həddində nəql

[350] Cəfər Sübhani, əl-Əqidətül-islamiyyə, Qumul-müqəddsə, səh. 184.
[351] "əl-Bəqərə", 124.
[352] Səhihi-Müslim, darü ihyait-türasil-ərəbi, Beyrut, tarixsiz, c. VII, səh. 122.
[353] Sünəni-Tirmizi, darü ihyait-türasil-ərəbi, Beyrut, tarixsiz, c. II, səh. 307.
[354] c. II, səh. 432.
[355] səh. 20.
[356] c. III, səh. 14.

olunmaqdadır. Həmçinin, bu rəvayətlərdən aydın olur ki, Peyğəmbər *(s)* bir dəfə deyil, müxtəlif məkanlarda və müxtəlif münasibətlərdə bu hədisi dəfələrlə təkrar buyurmuşdur. Bu barədə başqa məşhur bir hədisi də qeyd etməyi lazım bilirik. Belə ki, "Səhihi-Buxari", "Səhihi-Müslim", "Səhihi-Tirmizi", "Sünəni-Əbu Davud", "Müsnədi-Hənbəl", "Biharül-ənvar" və digər böyük qaynaqlarda həmin hədis belə keçir:

**لا يزال الإسلام عزيزاً إلى اثني عشر خليفة.**

*"Hamısı Qüreyşdən olan on iki xəlifə sizi idarə edənə və Qiyamət olana qədər İslam dini baqi qalacaq".*[357]

**عن جابر بن سمرة قال : سمعت رسول الله يقول : يكون اثنا عشر أميرافقال كلمة لم أسمعها ، فقال أبي : أنّه قال : كلّهم من قريش.**

Cabir bin Səmürə nəql edir: "Peyğəmbərdən *(s)* belə eşitdim: *"On iki əmir olacaqdır"*. Sonra bir kəlmə buyurdu ki, mən onu eşitmədim. Atam mənə dedi: "Peyğəmbər *(s)* buyurur ki, *"Onların hamısı Qüreyşdəndir"*.[358]

**يكون لهذه الأُمّة اثناعشر خليفة.**

*"Bu ümmətin on iki xəlifəsi olacaqdır"*.[359]

Səhabə Cabir bin Səmürənin Rəsulullahdan *(s)* bu haqda rəvayət etdiyi hədisi Buxari və Müslim başda olmaqla bir çox alim rəvayət etmişdir. Hədis belədir (ifadə Müslimindir):

**حَدَّثَنَا أَبُو بَكْرِ بْنُ أَبِي شَيْبَةَ حَدَّثَنَا أَبُو مُعَاوِيَةَ عَنْ دَاوُدَ عَنْ الشَّعْبِيِّ عَنْ جَابِرِ بْنِ سَمُرَةَ قَالَ قَالَ النَّبِيُّ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ لَا يَزَالُ هَذَا الْأَمْرُ عَزِيزًا إِلَى اثْنَيْ عَشَرَ خَلِيفَةً قَالَ ثُمَّ تَكَلَّمَ بِشَيْءٍ لَمْ أَفْهَمْهُ فَقُلْتُ لِأَبِي مَا قَالَ فَقَالَ كُلُّهُمْ مِنْ قُرَيْشٍ**

"…Cabir bin Səmura belə rəvayət etdi: "Mən Peyğəmbəri *(s)* *"İslam on iki xəlifəyə qədər əziz olmaqda davam edəcəkdir"* buyurarkən eşitdim. Sonra bir kəlmə söylədi ki, onu anlamadım və atama "Nə söylədi?" - deyə soruşdum. Atam dedi: "Peyğəmbər buyurdu: *"Hamısı Qüreyşdəndir"*.[360]

Abdullah bin Məsuddan Əhməd bin Hənbəl "Müsnəd" adlı kitabında rəvayət etmişdir:

---

[357] Səhihi-Müslim, c. VI, səh. 3.

[358] Səhihi-Buxari, c. IX, səh. 101, "kitabül-əhkam", fəsil-51.

[359] Əhməd bin Hənbəl, Müsnəd, c. V, səh. 86, 108.

[360] Səhihi-Müslim, Əmirlik kitabı, hədis № 1821, Bu hədis bu qaynaqlarda da dəyişik sənədlərlə səhabə Cabir bin Səmürədən rəvayət edilmişdir: Buxari, "əs-Səhih", hökmlər kitabı, vərasət babı, hədis № 6711, Tirmizi, "Sünən", fitnələr kitabı, hədis № 2223, Əbu Davud, "Sünən", Mehdi kitabı, hədis № 4279.

**حَدَّثَنَا حَسَنُ بْنُ مُوسَى ، حَدَّثَنَا حَمَّادُ بْنُ زَيْدٍ ، عَنِ الْمُجَالِدِ ، عَنِ الشَّعْبِيِّ، عَنْ مَسْرُوقٍ ، قَالَ : كُنَّا جُلُوسًا عِنْدَ عَبْدِ اللَّهِ بْنِ مَسْعُودٍ ، وَهُوَ يُقْرِئُنَا الْقُرْآنَ، فَقَالَ لَهُ رَجُلٌ : يَا أَبَا عَبْدِ الرَّحْمَنِ ، هَلْ سَأَلْتُمْ رَسُولَ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ : كَمْ تَمْلِكُ هَذِهِ الْأُمَّةُ مِنْ خَلِيفَةٍ ؟ فَقَالَ عَبْدُ اللَّهِ بْنُ مَسْعُودٍ : مَا سَأَلَنِي عَنْهَا أَحَدٌ مُنْذُ قَدِمْتُ الْعِرَاقَ قَبْلَكَ ، ثُمَّ قَالَ : نَعَمْ ، وَلَقَدْ سَأَلْنَا رَسُولَ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ ، فَقَالَ : " اثْنَا عَشَرَ ، كَعِدَّةِ نُقَبَاءِ بَنِي إِسْرَائِيلَ.**

“…Məsruq dedi ki, Abdullah bin Məsudun yanında oturmuşduq və o, bizə Quran oxuyurdu. Birisi ona belə dedi: “Ey Əbu Əbdürrəhman! Peyğəmbərdən *(s)* soruşdunuzmu ki, ondan sonra ümmətində neçə nəfər xəlifə gələcək?” Abdullah bin Məsud dedi: “Mən İraqa gəldiyimdən bəri bu sorğunu məndən sadəcə sən soruşdun. Bəli, Peyğəmbərdən *(s)* soruşduq, buyurdu ki, *“On iki kişi İsrail oğullarının nəqibləri kimidir”*.[361]

Abdullah bin Məsuddan rəvayət edilən bu hədisi İbn Həcər və Süyuti səhih bilmişdir. İbn Həcər “Səhihi-Buxari”yə yazdığı şərhdə bu hədisi rəvayət etdikdən sonra deyir:

**بسند حسن**

“İsnadı həsəndir”.[362]

Böyük hədis alimləri imamətn son dərəcə vacib və dinin əsaslarından olduğunu nəzərə alaraq yazdıqları əsərlərində “**باب من مات لا يعرف إمامه** İmamını *(ə)* tanımadan ölən kimsə babı” adı altında xüsusi fəsil açmış və mövzunu bütün təfərrüatı ilə orada incələmişlər.

Məşhur hədis alimi əl-Bərqi səhih bir sənədlə belə nəql edir:

**عنه عن أبيه عن النضر بن سويد عنيحيى الحلبي عن بشير الدهان قال قال أبو عبد الله (ع) قال رسولالله (ص) من مات و هو لا يعرف إمامه مات ميتة جاهلية فعليكم بالطاعة قدر أتيم أصحابعلي و أنتم تأتمون بمن لا يعذر الناس بجهالته لنا كرائم القرآن و نحن أقوام افترضالله طاعتنا و لنا الأنفال و لنا صفو المال.**

“…İmam Cəfər Sadiq *(ə)* buyurub: *“Peyğəmbər buyurdu: “Bir imamı olmadan ölən kimsə, Cahiliyyə ölümü ilə ölmüşdür”.*

**عنه، عن ابن فضال، عن حماد بن عثمان، عن أبي اليسع عيسى بن السرى، قال: قال أبو عبد الله عليه السلام. ان الأرض لا تصلح الا بالإمام، ومن مات لا يعرف إمامه مات ميتة جاهلية، وأحوج ما يكون أحدكم إلى معرفته إذا بلغت نفسه هذه وأهوى بيده إلى صدره يقول: لقد كنت على أمر حسن.**

Həmçinin, İmam *(ə)* yenə buyurub: *“Yer üzü imamsız islah olmaz və kim imamı tanımadan ölürsə, Cahiliyyə ölümü ilə ölmüşdür”*.

[361] Əhməd bin Hənbəl, Müsnəd, c. VI, səh. 321, hədis № 3781.
[362] İbn Həcər, Fəthul-bari, c. XIII, səh. 212.

**عنه، عن أبيه، عن النضر، عن يحيى الحلبي، عن حسين بن أبي العلاء، قال: سألت أبا عبد الله عليه السلام عن قول رسول الله صلى الله عليه وآله: " من مات ليس له إمام مات ميتة جاهلية " فقال: نعم، لو أن الناس تبعوا علي بن الحسين عليهما السلام وتركوا عبد الملك بن مروان اهتدوا، فقلنا: من مات لا يعرف إمامه مات ميتة جاهلية، ميتة كفر؟ – فقال: لا، ميتة ضلال.**

"...Hüseyn bin Əbu Əla deyir: "İmam Sadiqdən *(ə)* Peyğəmbərin *(s)* *"Bir imamı olmadan ölən kimsə, Cahiliyyə ölümü ilə ölmüşdür"* hədisi haqqında soruşdum. İmam *(ə)* buyurdu: *"Bəli, əgər insanlar Əli bin Hüseynin imamətinə tabe olub, Əbdülməlik bin Mərvanı tərk etsəydilər, o zaman doğru yolda olardılar"*. Biz dedik: "İmaməti tanımadan ölən kimsə Cahiliyyə ölüsü kimi ölər, bu, kafir meyitidir?" İmam *(ə)* buyurdu: *"Xeyr, azğın ölüdür"*.

**عنه، عن محمد بن علي، عن علي بن النعمان النخعي، قال حدثني الحارث بن المغيرة النضري قال: سمعت عثمان بن المغيرة يقول: حدثني الصادق، عن علي عليهما السلام قال: قال رسول الله صلى الله عليه وآله: من مات بغير إمام جماعة مات ميتة جاهلية، قال الحارث بن المغيرة: فلقيت جعفر بن محمد عليهما السلام، فقال: نعم، قلنا: – فمات ميتة جاهلية؟ – قال: ميتة كفر وضلال ونفاق.**

"...Peyğəmbərin *(s)* buyurduğu *"Bir imamı olmadan ölən kimsə, Cahiliyyə ölümü ilə ölmüşdür"* üzərinə Cəfər bin Məhəmmədə *(ə)* dedim: "Cahiliyyə ölümü nə deməkdir?" İmam *(ə)* buyurdu: *"Cahiliyyədən məqsəd küfr, nifaq və sapıqlıqdır"*.

**عنه، عن ابن محبوب، عن عبد الله بن غالب، عن جابر بن يزيد الجعفي، عن أبي جعفر عليه السلام قال: لما أنزلت. " يوم ندعو كل أناس بإمامهم " قال المسلمون: يا رسول الله ألست إمام الناس كلهم أجمعين؟ – فقال رسول الله صلى الله عليه وآله: أنا رسول الله إلى الناس أجمعين ولكن سيكون بعدي أئمة على الناس من أهل بيتي من الله، يقومون في الناس فيكذبونهم ويظلمونهم أئمة الكفر والضلال وأشياعهم، ألا فمن والاهم واتبعهم وصدقهم فهو مني ومعي وسيلقاني، ألا ومن ظلمهم وأعان على ظلمهم وكذبهم فليس مني ولا معي وأنا منه برئ**

"İbn Məhbub mənə Abdullah bin Qalibdən, o, Cabir bin Yezid əl-Cufidən, o da Əbu Cəfərdən *(ə)* - İmam Baqir *(ə)* - rəvayət edib dedi: ***"Bir gün*** (Qiyamət günü) ***bütün insanları öz imamları*** (ardınca getdikləri rəhbərləri, yaxud peyğəmbəri və ya əməl dəftərləri) ***ilə birlikdə*** (hüzurumuza) ***çağıracağıq..."***[363] *ayəsi nazil olduqda müsəlmanlar dedilər: "Ya Rəsulullah, sən bütün insanların imamı deyilsən?!" Peyğəmbər buyurdu: "Mən Allah tərəfindən bütün insanlara göndərilmiş bir elçiyəm. Ancaq məndən sonra Allah tərəfindən mənim Əhli-Beytimdən insanlara imamlar göndəriləcəkdir. Onlar insanlar arasında ortaya çıxacaq, insanlar tərəfindən yalanla-*

[363] "əl-İsra", 71.

*nacaqlar. Küfrün, sapıqlığın öndərləri və tərəfdarları onlara haqsızlıq edəcəklər. Kim Əhli-Beyt imamlarını vəli* (rəhbər) *bilsə, onlara tabe olsa, onları doğru bilsə, o məndəndir, mənimlə bərabərdir və mənimlə qarşılaşacaqdır. Xəbəriniz olsun! Kim onlara haqsızlıq etsə, onları yalanlasa, o, məndən deyildir, mənimlə bərabər olmaz və mən ondan uzağam".*[364]

Əhməd bin Hənbəl, Təbərani, Əbu Nuaym kimi mühəddislər başda olmaqla bir çox alim *"İmamını tanımayan Cahiliyyə ölüsü kimi ölər"* hədisini dəyişik sənədlərlə Peyğəmbərdən *(s)* nəql etmişlər. Təbərani belə nəql edir:

**حدثنا إبراهيم بن محمد بن عرق الحمصي ثنا عبد الوهاب بن الضحاك ثناإسماعيل بن عياش عن ضمضم بن زرعة عن شريح بن عبيد عن معاوية قال قال رسول الله صلى الله عليه وسلم من مات بغير إمام مات ميتة جاهلية.**

"Peyğəmbər *(s)* buyurub: *"İmamı olmadan ölən kimsə Cahiliyyə ölümü üzrə ölmüşdür".*[365]

Biz bu aydın hədis və rəvayətlərin Cəfərilərin imamət haqqındakı əqidəvi fikirlərində açıqlanan On İki İmam *(ə)* inancından başqa bir şeylə açıqlanmasının mümkün olmayacağı inancındayıq. Yuxarıdakı hədisləri və əlaqədar sənədləri diqqətlə araşdıran hər kəs asanlıqla bunun fərqinə varar.

## *3.2. İMAMLARIN (Ə) TƏYİN OLUNMASI*

İstər Peyğəmbərin *(s)* mübarək həyatı, istərsə də İslamın tarixi haqqında araşdırma aparanlar Rəsulullahın *(s)* özündən sonra On İki İmam *(ə)* təyin etdiyini və o məsumları *(ə)* adlarıyla birlikdə zikr etdiyini şübhəsiz görmüşlər. Səhih qəbul edilən hədis kitabları və rəvayətlərdə də Əhli-Beyt *(ə)* imamları *(ə)* sayları ilə birlikdə görülməkdə, ayrıca hamısının da Qüreyşdən olduğu ifadə edilməkdədir. Buxari, Müslim və digərləri bu rəvayətləri sənədləriylə birlikdə nəql etmişlər.

Bəzi hədis qaynaqlarında adlarının yanında ilkinin İmam Əli *(ə)* olduğu, sonra oğlu Həsənin *(ə)*, sonra ikinci oğlu Hüseynin *(ə)* və daha sonra da Hüseynin *(ə)* oğullarından sonuncusu Mehdi *(ə.f)* olan doqquz övladının imam olacağı rəvayət edilmişdir. "Yənabiül-məvəddət" əsərinin müəllifi, böyük hədis alimi Qunduzi əl-Hənəfi (1805-1879) adıçəkilən kitabında belə rəvayət edir:

---

[364] Bərqi, Məhasin, c. I, səh. 153-156, hədis № 78-85.

[365] Təbərani, Möcəm əl-Kəbir, c. XIX, səh. 388, hədis № 910.

أبو المفضل الشيباني، عن أحمد بن مطوق، عن المغيرة بن محمد ابن المهلب، عن عبد الغفار بن كثير، عن إبراهيم بن حميد، عن أبي هاشم، عن مجاهد، عن ابن عباس قال: قدم يهودي على رسول الله صلى الله عليه وآله يقال له نعثل فقال: يا محمد إني أسألك عن أشياء تلجلج في صدري منذ حين، فإن أنت أجبتني عنها أسلمت على يدك، قال: سل يا أبا عمارة، فقال: يا محمد صف لي ربك، فقال صلى الله عليه وآله: إن الخالق لا يوصف إلا بما وصف به نفسه، وكيف يوصف الخالق الذي تعجز الحواس أن تدركه والأوهام أن تناله والخطرات أن تحده والابصار الإحاطة به؟ جل عما يصفه الواصفون، نأى في قربة وقرب في نأيه، كيف الكيف فلا يقال له كيف، وأين الأين فلا يقال له أين، هو منقطع الكيفوفية والأينونية، فهو الاحد الصمد كما وصف نفسه، والواصفون لا يبلغون نعته، لم يلد ولم يولد ولم يكن له كفوا أحد.

قال: صدقت يا محمد فأخبرني عن قولك إنه واحد لا شبيه له أليس الله واحد والانسان واحدا؟ فوحدانيته أشبهت وحدانية الانسان؟ فقال صلى الله عليه وآله: الله واحد وأحدي المعنى والانسان واحد ثنوي المعنى، جسم وعرض وبدن وروح، وإنما التشبيه في المعاني لا غير قال: صدقت يا محمد فأخبرني عن وصيك من هو؟ فما من نبي إلا وله وصي، وإن نبينا موسى بن عمران أوصى إلى يوشع بن نون، فقال: نعم إن وصيي والخليفة من بعدي علي بن أبي طالب، وبعده سبطاي الحسن والحسين، تتلوه تسعة من صلب الحسين أئمة أبرار، قال: يا محمد فسمهم لي: قال: نعم إذا مضى الحسين فابنه علي، فإذا مضى علي فابنه محمد فإذا مضى محمد فابنه جعفر، فإذا مضى جعفر فابنه موسى، فإذا مضى موسى فابنه علي، فإذا مضى علي فابنه محمد، فإذا مضى محمد فابنه علي، فإذا مضى علي فابنه الحسن، فإذا مضى الحسن فبعده ابنه الحجة بن الحسن بن علي، فهذه اثنا عشر إماما على عدد نقباء بني إسرائيل. قال: فأين مكانهم في الجنة؟ قال: معي في درجتي.

قال: أشهد أن لا إله إلا الله وأنك رسول الله وأشهد أنهم الأوصياء بعدك، ولقد وجدت هذا في الكتب المقدمة، وفيما عهد إلينا موسى بن عمران عليه السلام أنه إذا كان آخر الزمان يخرج نبي يقال له " أحمد " خاتم الأنبياء لا نبي بعده، يخرج من صلبه أئمة أبرار عدد الأسباط، فقال: يا أبا عمارة أتعرف الأسباط؟ قال: نعم يا رسول الله إنهم كانوا اثني عشرة، قال: فإن فيهم لاوي بن أرحيا، قال: أعرفه يا رسول الله، وهو الذي غاب عن بني إسرائيل سنين ثم عاد، فأظهر شريعته بعد اندراسها، وقاتل مع قرسطيا الملك حتى قتله؟ وقال صلى الله عليه وآله: كائن في أمتي ما كان في بني إسرائيل، حذو النعل بالنعل والقذة بالقذة، وإن الثاني عشر من ولدي يغيب حتى لا يرى، ويأتي على أمتي زمن لا يبقى من الاسلام إلا اسمه، ولا من القرآن إلا رسمه، فحينئذ يأذن الله له بالخروجفيظهر الاسلام ويجدد الدين، ثم قال صلى الله عليه وآله: طوبى لمن أحبهم وطوبى لمن تمسك بهم والويل لمبغضيهم فانتفض نعثل وقام بين يدي رسول الله صلى الله عليه وآله وأنشأ يقول:

صلى العلي ذو العلا
عليك يا خير البشر أنت النبي المصطفى
والهاشمي المفتخر بك اهتدينا رشدنا
وفيك نرجو ما أمر ومعشر سميتهم
أئمة اثني عشر حباهم رب العلى
ثم صفاهم من كدر قد فاز من والاهم

**وخاب من عفى الأثرآخرهم يشفى الظمأ**
**وهو الإمام المنتظر عترتك الأخيار لي**
**والتابعون ما أمر من كان عنكم معرضا**
**فسوف يصلى بسقر.**

"Nəsəl (və ya Atəl) adlı bir yəhudi Peyğəmbərimizin *(s)* yanına gələrək "Ya Muhəmməd, uzun zamandır ki, səndən soruşmaq istədiyim bir neçə sual var, əgər cavab versən, sənin əlinlə müsəlman olacağam" - dedi. Peyğəmbərimiz *(s) "Soruş, ya Ammarə!"* deyincə yəhudi suallarını soruşmağa başladı. Cavablarını aldıqdan sonra "doğru söylədin" deyərək "Yaxşı, sənin xəlifən kimdir?" - soruşdu. "Çünki, xəlifəsi olmayan peyğəmbər yoxdur, bizim peyğəmbərimiz Musa bin İmranın xəlifəsi də Yuşa bin Nun idi" - dedi. Bunun üzərinə Peyğəmbərimiz *(s)* belə buyurdu: *"Mənim xəlifəm Əli bin Əbu Talibdir. Ondan sonra mənim iki nəvəm olan Həsən və Hüseyndir. Sonra da Hüseynin soyundan bir-birinin ardınca gələn doqquz şəxsdir"*. Yəhudi "Ya Muhəmməd! Onların adları nədir?" - deyə soruşduqda Peyğəmbərimiz *(s)* yenə belə buyurdu: *"Hüseyn dünyadan köçdükdən sonra oğlu Əli* - İmam Zeynülabidin *(ə), ondan sonra oğlu Məhəmməd* - İmam Məhəmməd Baqir *(ə), ondan sonra oğlu Cəfər* - İmam Cəfər Sadiq *(ə), ondan sonra oğlu Musa* - İmam Musa Kazim *(ə), ondan sonra oğlu Əli* - İmam Əli Rza *(ə), ondan sonra oğlu Məhəmməd* - İmam Məhəmməd Təqi *(ə), ondan sonra oğlu Əli* - İmam Əli ən-Nəqi *(ə), ondan sonra oğlu Həsən* - İmam Həsən Əsgəri *(ə), ondan sonra da oğlu Hüccətullah Məhəmməd Mehdidir. Bunlar On İki İmamdırlar"*. Yəhudi daha sonra müsəlman oldu və bu hidayətindən ötəri Allaha həmd-səna etdi".[366]

Bundan başqa, görkəmli alim Şeyx Tusi "əl-Qeybə" əsərində Peyğəmbərdən *(s)* səhih bir sənədlə belə nəql edir:

**أخبرنا جماعة عن أبي عبد الله الحسين بن علي بن سفيان البزوفري عن علي بن سنان الموصلي العدل عن علي بن الحسين عن أحمد بن محمد بن الخليل عن جعفر بن أحمد المصري عن عمه الحسن بن علي عن أبيه عن أبي عبد الله جعفر بن محمد عن أبيه الباقر عن أبيه ذي الثفنات سيد العابدين عن أبيه الحسين الزكي الشهيد عن أبيه أمير المؤمنين ع قال: قال رسول الله صلى الله عليه وآله وسلم في الليلة التي كانت فيها وفاته لعلي ع: يا أبا الحسن أحضر صحيفة ودواة فأملا رسول الله صلى الله عليه وآله وسلم وصيته حتى انتهى إلى هذا الموضع فقال: يا علي إنه سيكون بعدي اثنا عشر إماما ومن بعدهم إثنا عشر مهديا فأنت يا علي أول الاثني عشر إماما سماك الله**

---

366 Hafiz Süleyman Qunduzi əl-Hənəfi, Yənabiül-məvəddə, Misir-1384 h/q, səh. 441; Həməvini, Fəraidus-Simteyn, İran, tarixsiz, Mahmudu nəşri, c. II, səh. 133, hədis № 430-431; Əllamə Məclisi, Biharül-ənvar, c. 36, səh. 283-285; Seyyid Haşim əl-Bəhrani, Qayətül-məram və hüccətül-xisam, səh. 142-144.

**تعالى في سمائه: عليا المرتضى وأمير المؤمنين والصديق الأكبر والفاروق الأعظم والمأمون والمهدي فلا تصح هذه الأسماء لأحد غيرك يا علي أنت وصيي على أهل بيتي حيهم وميتهم وعلى نسائي: فمن ثبتها لقيتني غدا ومن طلقتها فأنا برئ منها لم ترني ولم أرها في عرصة القيامة وأنت خليفتي على أمتي من بعدي فإذا حضرتك الوفاة فسلمها إلى ابني الحسن البر الوصول فإذا حضرته الوفاة فليسلمها إلى ابني الحسين الشهيد الزكي المقتول فإذا حضرته الوفاة فليسلمها إلى ابنه سيد العابدين ذي الثفنات علي فإذا حضرته الوفاة فليسلمها إلى ابنه محمد الباقر فإذا حضرته الوفاة فليسلمها إلى ابنه جعفر الصادق فإذا حضرته الوفاة فليسلمها إلى ابنه موسى الكاظم فإذا حضرته الوفاة فليسلمها إلى ابنه علي الرضا فإذا حضرته الوفاة فليسلمها إلى ابنه محمد الثقة التقي فإذا حضرته الوفاة فليسلمها إلى ابنه علي الناصح فإذا حضرته الوفاة فليسلمها إلى ابنه الحسن الفاضل فإذا حضرته الوفاة فليسلمها إلى ابنه محمد المستحفظ من آل محمد ع فذلك اثنا عشر إماما ثم يكون من بعده اثنا عشر مهديا فإذا حضرته الوفاةفليسلمها إلى ابنه أول المقربين له ثلاثة أسامي: اسم كاسمي واسم أبي وهو عبد الله وأحمد والاسم الثالث: المهدي هو أول المؤمنين.**[367]

Əgər məzhəblərin qaynaqlarına və bu mövzudakı məlumatlara müraciət edəcək olsaq, yuxarıda yazılanlardan daha çoxuna rast gələrik. Lakin yenə də mənbələrdə Əhli-Beyt *(ə)* imamlarının *(ə)* sayının on iki olaraq keçməsi dəlil olaraq kifayətdir. Çünki, bu ədəd İmam Əli *(ə)* və övladlarından başqa heç bir yerdə uyğun gəlmir.

Bizim yəqinimizi artıran şey isə Əhli-Beyt *(ə)* imamlarının *(ə)* bu ümmətin alimlərinin heç birindən dərs almamasıdır. Əhli-Beytin *(ə)* hər hansı bir səhabə və ya tabeundan dərs aldığına dair heç bir məlumat yoxdur. Başqa bir deyimlə, heç bir tarixçi və sirət yazıçısı belə bir rəvayət nəql etməmişdir. Lakin digər alimlər haqqında məlumatlar mövcuddur. Əbu Hənifə İmam Sadiqin *(ə)*, Malik Əbu Hənifənin, Şafei Malikin, Əhməd bin Hənbəl də Şafeninin şagirdi olmuşdur. Əhli-Beyt *(ə)* imamları *(ə)* isə öz elmlərini Peyğəmbər *(s)* və Allahdan almış, bununla da onu nəsildən-nəslə bir-birlərinə miras buraxmışlar. Necə ki, Allah-Təala bu məsumların *(ə)* barəsində buyurmuşdur: ***“Sonra Kitabı bəndələrimizdən seçdiklərimizə*** (Məhəmməd ümmətinə) ***miras verdik...”***.[368]

İmam Sadiq *(ə)* bu həqiqətə diqqət çəkərək belə buyurmuşdur: *“Necə təəccüblüdür ki, insanlar bir tərəfdən “biz elmimizi Allah Rəsulundan aldıq, ona əməl edir və onunla hidayət oluruq” deyir, digər tərəfdən də Peyğəmbər ailəsi olan bizlərin o elmlərdən xəbərsiz olduğuna inanırlar! Halbuki, biz o evin uşaqlarıyıq, vəhy bizim evimizdə nazil oldu və elm bizim vəsiləmizlə insanlara çatdı. Sizə görə onlar bu elmi öyrənib hidayət oldular, biz isə öyrənməyib yoldan çıxdıq?”*

---

[367] Əllamə Məclisi, Biharül-ənvar, c. 36, səh. 260, hədis № 81.
[368] “Fatir”, 32.

## *3.3. HƏZRƏT ƏLİNİN (Ə) PEYĞƏMBƏR (s) TƏRƏFİNDƏN TƏYİNİ*

İmamiyyə etiqadına görə, Peyğəmbər *(s)* Allahın əmriylə Həzrət Əlini *(ə)* özündən sonra ümmətə imam təyin etmişdir. Bütün qaynaqlarda da qeyd edildiyi kimi, Muhəmməd əl-Mustafa *(s)* Allahın əmri əsasında Əlini *(ə)* öz canişini olaraq açıqlamış,[369] bu ilahi təyin əmrini müxtəlif münasibətlərlə dəfələrlə təkrarlamışdır. Həzrət Əlinin *(ə)* imam və xəlifə kimi təyini məhz İslamın ilkin dövrünə məxsusdur. Bu da onu göstərir ki, imamətsiz iman və İslam tamam deyildir.

İmam Əlinin *(ə)* imamətinə və xəlifəliyinə ən güclü dəlillərdən bir "Şüəra" surəsinin 214-cü ayəsidir ki, Allah-Təala bu ayədə belə bəyan edir:

**وَأَنذِرْ عَشِيرَتَكَ الأَقْرَبِينَ**

***"Və ən yaxın qohumlarını qorxut"***.

Bütün təfsir əsərlərində qeyd olunduğu kimi, bu ayə nazil olanda Peyğəmbər *(s)* Əliyə *(ə)* xörək hazırlamasını, xöreklə birlikdə süfrəyə süd qoyulmasını, sonra da bütün Bəni-Haşimi bir yerə toplamağı əmr etmişdir. Bu zaman Həzrət Əlinin *(ə)* on və ya on beş yaşı vardı.[370] Haşimi övladları bir yerə toplaşıb yeyib-içdikdən sonra Peyğəmbər *(s)* üzünü onlara tutub buyurmuşdur:

**إنّ الرائد لا يكذب أهله، والله الذي لا إله إلا هوإنّي رسول الله إليكم خاصّة وإلى الناس عامّة ، والله لتموتنّ كما تنامون ، ولتبعثنّ كما تستيقظون، ولتحاسبنّ بما تعملون، وانّها الجنّة أبداً والنار أبداً ـ ثمّ قال : ـ يا بني عبدالمطلب إنّي والله ما أعلم شاباً في العرب جاء قومه بأفضل ممّا جئتكم به، انّي قد جئتكم بخير الدنيا والآخرة، وقد أمرني الله عزّوجلّ أن أدعوكم إليه، فأيّكم يؤمن بي ويؤازرني على هذا الأمر على أن يكون أخي ووصيّي وخليفتي فيكم. ولمّا بلغ النبي (صلّى الله عليه وآله وسلّم) إلى هذا الموضع وقد أمسك القوم وسكتوا عن آخرهم ، قام علي (عليه السلام) فجأة وقال : أنا يا رسول الله أكون وزيرك على ما بعثك الله ، فقال له رسول الله : اجلس ، ثمّ كرّر دعوته ثانية وثالثة ، ففي كلّ مرّة يحجم القوم عن تلبية دعوته ويقوم علي ويعلن استعداده لمؤازرة النبي ويأمره رسول الله بالجلوس حتى إذا كان في المرّة الثالثة ، أخذ رسول الله بيده والتفت إلى الحاضرين من عشيرته الأقربين وقال: إنّ هذا أخي ووصيّي وخليفتي فيكم ، فاسمعوا له وأطيعوا.**

*"Həqiqətən də başçı heç vaxt öz əhlinə yalan söyləməz. Ondan başqa məbud olmayan Allaha and olsun ki, mən sizə və bütün insanlara göndərilmiş peyğəmbərəm. Yatdığınız kimi öləcək və oyandığınız kimi diriləcəksiniz. Öz əməlinizə görə hesab verəcəksiniz. Yaxşılar üçün Cənnət, pislər üçün-*

[369] Əllamə Məclisi, Biharül-ənvar, c. 36, səh. 187.
[370] Cəfər Sübhani, Əqaidül-islamiyyə, səh. 44.

*sə Cəhənnəm əbədidir. Mənim sizlər üçün gətirdiyimi heç kəs öz qohumları üçün gətirməyib. Mən sizlər üçün dünya və Axirət xeyrini gətirmişəm. Allah mənə sizi Onun yoluna dəvət etməyi tapşırıb. Bu işdə kim mənə yardımçı çıxıb mənim vəzirim, qardaşım, vəsiyyətimi icra edən və xəlifəm olar?"* Bu zaman bütün məclisi sükut bürümüşdü. Hamı fikrə dalmışdı. Birdən Həzrət Əli *(ə)* ayağa qalxıb buyurdu: *"Ey Allahın Rəsulu, mən sizə kömək etməyə hazıram"*. Peyğəmbər *(s)* Əliyə *(ə)* oturmasını əmr etdi, sonra sözünü təkrar buyurdu. Yenə də Həzrət Əli *(ə)* Peyğəmbərə *(s)* müsbət cavab verdi. Üçüncü dəfə də Əlidən *(ə)* başqa kimsənin dillənmədiyini görən Rəsulullah *(s)* üzünü qohumlarına tutub belə buyurdu: *"Bu, mənim qardaşım, vəsiyyətimi icra edən və sizin aranızda xəlifəmdir. Onu eşidin və ona tabe olun"*.[371]

Bundan başqa, İmam Əlinin *(ə)* imam və xəlifəliyinə dair ən güclü dəlillərdən biri kimi "Mənzilət" hədisi göstərilir. Belə ki, Peyğəmbər *(s)* Təbuk səfərinə gedərkən Həzrət Əlini *(ə)* öz yerində Mədinədə xəlifə qoymuşdur. O Həzrət *(ə)* isə ağlayaraq *"Ey Allahın Rəsulu, məni arvad-uşaqlamı bir yerdə qoyursan?"* - deyə söylədikdə Rəsulullah *(s)* buyurmuşdur:

**أما ترضى أن تكون منّي بمنزلة هارون من موسى إلا أنّه لا نبيّ بعدي ، انّه لا ينبغي أن أذهب إلا وأنت خليفتي.**

*"Razı deyilsənmi ki, mənə Harunun Musaya olan nisbəti kimi olasan? Amma bu şərtlə ki, məndən sonra heç bir peyğəmbər olmayacaq. Sən mənim xəlifəmsən"*.[372]

Bu hədislər içində ən məşhuru Vida həcci dönüşündə, Cöhfə yaxınlarındakı Qədir-Xum deyilən yol qovşağında Peyğəmbərin *(s)* izdihamlı səhabə toplumuna etdiyi Vida xütbəsindəki mübarək buyruğudur ki, onu da görkəmli İslam alimi İbn Həcər belə nəql edir:

**أيّها الناس انّه قد نبّأني اللطيف الخبير أنّه لم يعمّر نبي إلا نصف عمر الذي يليه من قبله، وانّي لأظن أنّي يوشك أن أُدعى فأُجيب وانّي مسؤول وانّكم مسؤولون فماذا أنتم قائلون؟ قالوا: نشهد أنّك قد بلّغت وجهدت ونصحت فجزاك اللّه خيراً، فقال: أليس تشهدون أن لا إله إلا اللّه وأنّ محمّداً عبده ورسوله وأنّ جنّته حق وأنّ ناره حقّ وأنّ الموت حق وأنّ البعث حق بعد الموت وأنّ الساعة آتية لا ريب فيها وأنّللّه يبعث من في القبور؟ قالوا: بلى نشهد بذلك، قال: اللّهمّ اشهد ثمّ قال: يا أيّها الناس إنّ اللّه مولاي وأنا مولى المؤمنين وأنا أولى بهم من أنفسهم، فمن كنت مولا فهذا ـ يعني عليّاً ـ مولاه اللّهمّ والِ من والاه وعاد من عاداه. ثمّ قال: يا أيّها الناس انّي فرطكم وانّكم واردون**

[371] Əhməd bin Hənbəl, Müsnəd, c. I, səh. 111; Cərir ət-Təbəri, Tarixi-Təbəri, c. II, səh. 62-63; İbn Əsir, əl-Kamil fit-tarix, c. II, səh. 40-41.

[372] Səhihi-Buxari, c. V, "fəzailu-əshabin-Nəbi" fəslinin "Mənaqibu-Əli *(ə)*" bölümü; Səhihi-Müslim, c. VI, kitabül-fəzail, "Fəzailu-Əli *(ə)*" bölümü.

**عليّ الحوض، حوض أعرض ممّا بين بصري إلى صنعاء فيه عدد النجوم قدحان من فضّة وانّي سائلكم حين تردون عليّ عن الثقلين، فانظروا كيف تخلّفوني فيهما الثقل الأكبر كتاب الله عزّوجلّ سبب طرفه بيد الله وطرفه بأيديكم فاستمسكوا به لا تضلّوا ولا تبدلوا، وعترتي أهل بيتي، فإنّه نبّأني اللطيف الخبير أنّهما لن ينقضيا حتى يردا عليّ الحوض.**

*"...Ey insanlar! Mən sizə özünüzdən daha yaxın deyiləmmi?!"* (Hər kəs yüksək səslə "Bəli, ya Peyğəmbər *(s)*!" deyə təsdiqlədikdən sonra belə buyurdu: *"O halda bunu bilin ki, mən kimə özündən daha yaxın və onun mövlasıyamsa* (rəhbəri), *eyni şəkildə Əli də ona özündən daha yaxın və onun mövlası* (imamı)*dır!..."*.[373]

Peyğəmbərin *(s)* bu xütbəsi Quranın ***"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni*** (Quranı) ***təbliğ et! Əgər*** (bunu) ***etməsən,*** (Allahın) ***risalətini*** (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) ***yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz!"***[374] ayəsinin təfsiridir.

Ayənin daha geniş şəkildə başa düşülməsi üçün mövzunu hədisşünaslıq baxımından izah etməyi məsləhət bilirik. Belə ki, böyük hədis alimi Şeyx Səduq nəql edir:

**حدثنا محمد بن الحسن بن أحمد بن الوليد رضي الله عنه قال: حدثنا محمد بن – الحسن الصفار، عن محمد بن الحسين بن أبي الخطاب، ويعقوب بن يزيد جميعا، عن محمد بن أبي عمير، عن عبد الله بن سنان، عن معروف بن خربوذ، عن أبي الطفيل عامر بن واثلة، عن حذيفة بن أسيد الغفاري قال: لما رجع رسول الله صلى الله عليه وآله من حجة الوداع ونحن معه أقبل حتى انتهى إلى الجحفة فأمر أصحابه بالنزول فنزل القوم منازلهم، ثم نودي بالصلاة فصلى بأصحابه ركعتين، ثم أقبل بوجهه إليهم فقال لهم: إنه قد نبأني اللطيف الخبير أني ميت وأنكم ميتون، وكأني قد دعيت فأجبت وأني مسؤول عما أرسلت به إليكم، وعما خلفت فيكم من كتاب الله وحجته وأنكم مسؤولون، فما أنتم قائلون لربكم؟ قالوا: نقول: قد بلغت ونصحت وجاهدت – فجزاك الله عنا أفضل الجزاء – ثم قال لهم: ألستم تشهدون أن لا إله إلا الله وأني رسول الله إليكم وأن الجنة حق؟ وأن النار حق؟ وأن البعث بعد الموت حق؟ فقالوا: نشهد بذلك، قال: اللهم اشهد على ما يقولون، ألا وإني أشهدكم أني أشهد أن الله مولاي، وأنا مولى كل مسلم، وأنا أولى بالمؤمنين من أنفسهم، فهل تقرون لي بذلك، وتشهدون لي به؟ فقالوا: نعم نشهد لك بذلك، فقال: ألا من كنت مولاه فإن عليا مولاه وهو هذا، ثم أخذ بيد علي عليه السلام فرفعها مع يده حتى بدت إباطهما: ثم: قال: اللهم وال من والاه، وعاد من عاداه، وانصر من نصره واخذل من خذله، ألا وإني فرطكم وأنتم واردون علي الحوض، حوضي غدا وهو حوض عرضه ما بين بصرى وصنعاء فيه أقداح من فضة عدد نجوم السماء، ألا وإني سائلكم غدا ماذا صنعتم فيما**

---

373 İbn Həcər əl-Heysəmi, əs-Səvaiqül-mühriqə, səh. 43-44. Müəllif bunu Dəraqutnidən nəql edib. Xatırladaq ki, bu hədisi Əhməd bin Hənbəl "Müsnəd" əsərində Zeyd bin Ərqəmdən (c. IV, səh. 372) və Bərra bin Azibdən (c. IV, səh. 281) nəql etmişdir.

374 "əl-Maidə", 67.

**أشهدت الله به عليكم في يومكم هذا إذا وردتم علي حوضي، وماذا صنعتم بالثقلين من بعدي فانظروا كيف تكونون خلفتموني فيهما حين تلقوني؟ قالوا: وما هذان الثقلان يا رسول الله؟ قال: أما الثقل الأكبر فكتاب الله عز وجل، سبب ممدود من الله ومني في أيديكم، طرفه بيد الله والطرف الآخر بأيديكم، فيه علم ما مضى وما بقي إلى أن تقوم الساعة، وأما الثقل الأصغر فهو حليف القرآن وهو علي بن أبي طالب و عترته عليهم السلام، وإنهما لن يفترقا حتى يردا علي الحوض.**

"Mənə Məhəmməd bin Həsən bin Vəlid rəvayət edib dedi ki, Məhəmməd bin Həsən əs-Səffar ona Məhəmməd bin Hüseyn bin Əbülxəttab və Yaqub bin Yeziddən, onlar Məhəmməd bin Əbu Ümeyrdən, o, Abdullah bin Sinandan, o, Məruf bin Hərrəbuzdan, o, Əbu Tüfeyldən, o da Hüzeyfə bin Əsid əl-Qiffaridən nəql edib dedi: "Peyğəmbər *(s)* Vida həccindan geri döndüyündə bizlər də onunla birlikdə Cöhfəyə çatıncaya qədər gəldik. Peyğəmbər *(s)* əshabına dayanıb dincəlmələrini əmr etdi. Səhabələr də onun dediyi kimi etdilər. Ardından namaz üçün azan verildi. Peyğəmbər *(s)* əshabına iki rükət namaz qıldırdı. Sonra da onlara yönələrək belə buyurdu: *"Lətif və Xəbir olan Zatı-Cəlil mənim və sizin vəfat edəcəyimizi mənə xəbər verdi. Özümü çağırılmış və cavab vermiş kimi hiss edirəm. Sizə bildirməyim vacib olan bir xəbər var. Sizin aranızda geriyə buraxdığım Allahın Kitabı var və sizlər məsulsunuz. Rəbbinizə nə cavab verəcəksiniz?"* Səhabələr dedilər: "Bizlər sənin təbliğ vəzifəni yerinə yetirdiyinə, nəsihət etdiyinə və haqla cihad etdiyinə şahidlik edirik. Bizə görə yerinə yetirmiş olduğun şeylərə əvəz olaraq Allah sənə mükafatlar bəxş etsin". Peyğəmbər *(s)* buyurdu: *"Allahdan başqa heç bir məbud olmadığına, mənim sizə göndərilmiş Onun Rəsulu olduğuma, Cənnət, Cəhənnəm və ölümdən sonra dirilişin haqq olduğuna şəhadət edirsinizmi?"* Səhabələr dedilər: "Bunların hamısına şahidlik edirik". Peyğəmbər *(s)* buyurdu: *"Ey Rəbbim, bunların dilə gətirdiyi şeylərə şahid ol! Agah olun! Mən də Allahın mənim mövlam olduğuna, mənim də hər möminin mövlası olduğuma, möminlərə özlərindən daha layiqli olduğuma sizi şahid tuturam. Buna mənim üçün iqrar edər və mənim üçün şəhadət edərsinizmi?"* Səhabələr dedilər: "Bəli, buna sənin üçün şahidlik edirik". Bu şahidlik üzərinə Peyğəmbər *(s)* buyurdu: *"Agah olun! Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır"*. Daha sonra Həzrət Əlinin *(ə)* əlindən tutub qoltuq altları görününcəyə qədər onun əlini havaya qaldırdı, sonra da belə bəyan etdi: *"Ey Rəbbim, ona dost olana dost, düşmən olana düşmən ol! Ona yardım edənə yardım et, onu xəcil edəni xəcil et! Ey insanlar! Mən sizdən öncə* (Kövsər) *hovuzunun başına gedəcəyəm, siz orada mənim yanıma gələcəksiniz. O hovuzun genişliyi Səna və Busra arası qədərdir. O ho-*

*vuzda ulduzların sayı qədər qədəhlər vardır. Agah olun! Mən sabah Qiyamət günündə sizlər hovuzun başına gəldiyinizdə sizdən bu gün etdiyiniz şeylər haqqında necə davrandığınızı soruşacağam. Məndən sonra "Səqəleyn"ə necə davrandığınızı soruşacağam. Məndən aldığınız məlumatlar xüsusunda məndən sonra necə davranacağınıza baxın"*. Səhabələrdən biri "Ya Rəsulullah *(s)*, Səqəleyn nədir?!" - deyə soruşduqda, Peyğəmbər *(s)* buyurdu: *"Böyük əmanət Allahın Kitabıdır. Bir tərəfi Allahın əlində, digər tərəfi isə sizin əlinizdədir. Ona möhkəmcə sarılın, yolunuzdan azmayın. Onda öncəkilərə və Qiyamət gününə qədər gələcək olan sonrakılara dair bilgi vardır. Dəyərli kiçik əmanət isə Quranın təfsiri olan Əli bin Əbu Talib və itrətidir. Onlar hovuzun başında mənə çatıncaya qədər bir-birlərindən ayrılmayacaqlar"*.

**قال معروف بن خربوذ: فعرضت هذا الكلام على أبي جعفر عليه السلام فقال: صدق أبو الطفيل – رحمه الله – هذا الكلام وجدناه في كتاب علي عليه السلام وعرفناه.**

Məruf bin Hərrəbuz dedi: "Bu sözləri Əbu Cəfərə *(ə)* - İmam Məhəmməd Baqir *(ə)* - ərz etdim. İmam *(ə)* buyurdu: *"Əbu Tüfeyl* (Allah ona rəhmət etsin) *doğru söyləmişdir. Bu sözlər Əlinin kitabında yazılıdır və biz bunu tanıyırıq"*.

**وحدثنا أبي رضي الله عنه قال: حدثنا علي بن إبراهيم، عن أبيه، عن محمد بن – أبي عمير.**

Və mənə babam rəvayət edib dedi ki, Əli bin İbrahim mənə babasından, o da Məhəmməd bin Əbu Ümeyrdən belə nəql etdi:

**وحدثنا جعفر بن محمد بن مسرور رضي الله عنه قال: حدثنا الحسين بن محمد ابن عامر، عن عمه عبد الله بن عامر، عن محمد بن أبي عمير.**

Və mənə Cəfər bin Məhəmməd bin Məsrur nəql edib dedi ki, Hüseyn bin Məhəmməd bin Amir mənə əmisi Abdullah bin Amirdən, o da Məhəmməd bin Əbu Ümeyrdən nəql etdi:

**وحدثنا محمد بن موسى بن المتوكل رضي الله عنه قال: حدثنا علي بن الحسين السعد آبادي، عن أحمد بن أبي عبد الله البرقي، عن أبيه، عن محمد بن أبي عمير، عن عبد الله بن سنان، عن معروف بن خربوذ، عن أبي الطفيل عامر بن واثلة، عن حذيفة بن – أسيد الغفاري بمثل هذا الحديث سواء.**

Və mənə Məhəmməd bin Musa bin Mütəvəkkil nəql edib dedi ki, Əli bin Hüseyn əl-Əssədabadi mənə Əhməd bin Əbu Abdullah əl-Bərqidən, o, babasından, o, Məhəmməd bin Əbu Ümeyrdən, o, Abdullah bin Sinandan, o, Məruf bin Hərrəbuzdan, o, Əbu Tüfeyldən, o da Hüzeyfə bin Əsid əl-Qiffaridən bu hədisin oxşarını rəvayət etmişdir".[375]

[375] Şeyx Səduq, əl-Xisal, c. I, səh. 65-67, hədis № 98.

Göründüyü kimi, Şeyx Səduq bu hədisi Məhəmməd bin Əbu Ümeyrə qədər dörd dəyişik sənədlə rəvayət etmişdir. Dörd yolla Məhəmməd bin Əbu Ümeyrə yetişən sənəd ondan sonra Abdullah bin Sinana, ondan sonra Məruf bin Hərrəbuza, ondan sonra Əbu Tüfeylə və nəhayət, ondan sonra Hüzeyfə bin Əsidə çatmışdır. Məhəmməd bin Əbu Ümeyrə qədər olan bu dörd vasitədən birinci və ikincisi səhihdir. Məhəmməd bin Əbu Ümeyrdən sonrakı ravilər isə hamısı siqə (etibarlı) və bəyənilmiş ravilərdir. Seyid Əbülqasım Xoi hədis haqqında yazır:

**وبعض طرق الرواية صحيح**

"Rəvayətin bəzi yolları səhihdir".[376]

İmam Həsən əl-Əsgərinin *(ə)* səhabəsi olan Məhəmməd bin Həsən əs-Səffarın "Bəsair əd-Dərəcat" adlı kitabında bu ifadələr var:

**حدثنا عبد الله بن عامر عن أبي عبد الله البرقي عن الحسين بن عثمان عن محمد بن الفضيل عن أبي حمزةالثمالي قال سئلت أبا جعفر عليه السلام عن قول الله تبارك وتعالى ومن يكفر بالايمان فقد حبط عمله وهو في الآخرة من الخاسرين قال تفسيرها في بطن القرآن يعنى من يكفر بولاية على وعلى هو الايمان قال سئلت أبا جعفر عليه السلام عن قول الله تعالى وكان الكافر على ربه ظهيرا قال تفسيرها على بطن القرآن يعنى على هو ربه في الولاية والطاعة والرب هو الخالق الذي لا يوصف وقال أبو جعفر عليه السلام ان عليا آية لمحمد وأن محمدا يدعو إلى ولاية على اما بلغك قول رسول الله صلى الله عليه وآله من كنت مولاه فعلى مولاه اللهم وال من والاه وعاد من عاداه فوالي الله من والاه وعاد الله من عاداه واما قوله انكم لفي قول مختلف فإنه على يعنى انه لمختلف عليه وقد اختلفت هذه الأمة في ولايته فمن استقام على ولاية على دخل الجنة ومن خالف ولاية على دخل النار واما قوله يؤفك عنه من افك فإنه يعنى عليا من افك من ولايته افك على الجنة فذلك قوله يوفك عنه من افك واما قوله وانك لتهدى إلى صراط مستقيم انك لتأمر بولاية علي عليه السلام وتدعو إليها وعلى هو الصراط المستقيم وأما قوله فاستمسك بالذي أوحى إليك انك على صراط مستقيم انك على ولاية على وعلى هو الصراط المستقيم واما قوله فلما نسوا ما ذكروا يعنى فلما تركوا ولاية على وقد أمروا بها فتحنا عليهم أبواب كل شئ يعنى مع دولتهم في الدنيا وما بسط إليهم فيها واما قوله حتى إذا فرحوا بما أوتوا اخذناهم بغتة فإذا هم مبلسون يعنى قيام القائم.**

"Abdullah bin Ümarə mənə Əbu Abdullah əl-Bərqidən, o, Hüseyn bin Osmandan, o, Məhəmməd bin Füzeyldən, o da Əbu Həmzə əs-Sumalidən nəql edib dedi ki, Əbu Cəfərədən *(ə)* - İmam Məhəmməd Baqir *(ə)* - ***"...İmanı dananın bütün işləri boşa çıxar və o, Axirətdə də zərər çəkənlərdən olar"***[377] ayəsi haqqında soruşdum. İmam *(ə)* buyurdu: *"Bu ayənin Quranın batini anlamı baxımından izahı "Kim Əlinin vilayətini inkar edərsə..." şəklindədir. O, vilayət və itaət məsələsində onun sahibidir. Rəbb isə vəsfə sığmayan ya-*

---

[376] Seyid Əbülqasım əl-Xoi, Möcəm i-ricalil-hədis, c. X, səh. 222-223, 6118-ci ravi.

[377] "əl-Maidə", 5.

*radıcıdır”*. Sonra İmam *(ə)* buyurdu: *“Əli Həzrət Muhəmmədin bir rəmzidir. Həzrət Muhəmməd Əlinin vilayətinə dəvət edirdi. Peyğəmbərin “Mən kimin mövlasıysamsa, Əli də onun mövlasıdır! Ey Rəbbim, ona dost olana dost, düşmən olana düşmən ol!” buyruğu sənə çatmadımı? Peyğəmbərin bu sözləri üzərinə Allah Əlini dost tutanın dostu, düşmən olanın da düşmənidir.* ***“Sizin sözləriniz müxtəlifdir...”***[378] *ayəsinə gəlincə, bu, həm də “Əli haqqında sözləriniz müxtəlifdir” anlamını ifadə edir. Bu ümmət onun vilayəti mövzusunda ixtilafa düşdü. Əlinin vilayətinin zəruriliyini haqqıyla yerinə yetirən kimsə Cənnətə, bu vilayətə müxalif olan kimsə isə Cəhənnəm atəşinə girəcək.* ***“Ondan zatında dönüklük olan kimsə dönər!***[379] *ayəsi “Əlinin vilayətindən üz döndərən Cənnətdən üz döndərmiş olar” deməkdir.* ***“Sən düz yola yönəldirsən”***[380] *buyruğu “şübhəsiz ki, sən Əlinin vilayətini əmr edər və ona dəvət edirsən” mənasındadır. Əli Siratəl-müstəqimdir.* ***“Buna görə də sən özünə vəhy olunandan yapış. Həqiqətən, sən düz yoldasan!”***[381] *ayəsi “sən Əlinin vilayəti üzrəsən, Əli Sıratəl-müstəqimdir” anlamındadır.* ***“...edilmiş xəbərdarlığı unutduqları zaman...”***[382] *ayəsi “Əlinin vilayətini tərk etdiklərində onunla əmr olundular” deməkdir.* ***“...hər şeyin qapılarını onların üzünə açdıq...”***[383] *ayəsi “dünyadakı dövlətləriylə və onlara dünyada verilən nemətlərlə birlikdə”,* ***“...özlərinə verilən nemətlərə sevindikləri vaxt onları qəflətən yaxaladıq və onlar məhrum oldular”***[384] *buyruğu isə “Qaimin qiyamına qədər” anlamındadır”.*[385]

Qeyd etməliyik ki, bu hədisin sənədi müttəsil və raviləri siqədir (mötəbərdir). İmam Baqirdən *(ə)* gələn başqa bir Qədir-Xum hədisini Küleyni “əl-Kafi” kitabında belə rəvayət edir:

**علي بن إبراهيم، عن ابيه، عن ابن أبي عمير، عن عمر بن اذينة، عن زرارة والفضيل بن يسار، وبكير بن أعين ومحمد بن مسلم وبريد بن معاوية وأبي الجارود جميعا عن أبي جعفر (عليه السلام) قال: أمر الله عزوجل رسوله بولاية علي وأنزل عليهإنما وليكم الله ورسوله والذين آمنوا الذين يقيمون الصلاة ويؤتون الزكاة. وفرض ولاية أولي الامر، فلم يدروا ما هي، فأمر الله محمدا (صلى الله عليه وآله) أن يفسر لهم الولاية، كما فسر لهم الصلاة، والزكاة والصوم والحج، فلما أتاه ذلك من الله، ضاق بذلك صدر رسول الله (صلى الله عليه وآله) وتخوف أن يرتدوا عن دينهم وأن**

378 “əz-Zariyat”, 8.
379 “əz-Zariyat”, 9.
380 “əş-Şura”, 52.
381 “əz-Zuxruf”, 43.
382 “əl-Ənam”, 44.
383 “əl-Ənam”, 44.
384 “əl-Ənam”, 44.
385 Səffar, Bəsairüd-dərəcat, c. I, səh. 109-110, hədis № 5.

**يكذبوه فضاق صدره وراجع ربه عزوجل فأوحى الله عزوجل إليه. يا أيها الرسول بلغ ما أنزل إليك من ربك وإن لم تفعل فما بلغت رسالته والله يعصمك من الناس. فصدع بأمر الله تعالى ذكره فقام بولاية علي (عليه السلام) يوم غدير خم، فنادى الصلاة جامعة وأمر الناس أن يبلغ الشاهد الغائب.**

"Əli bin İbrahim mənə babasından, o, İbn Əbu Ümeyrdən, o, Ömər bin Üzeynədən, o, Zürarə, Füzeyl bin Yəsar, Bükeyr bin Əyən, Məhəmməd bin Müslim, Büreyd bin Müaviyə və Əbul Caruddan və bunların hamısı Əbu Cəfərdən *(ə)* - İmam Məhəmməd Baqir *(ə)* - belə nəql etdilər: *"Allah Öz Peyğəmbərinə Əlinin vilayətini əmr etdi və ona bu ayəni endirdi:* ***"Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki,*** (Allaha) ***namaz qılır və rükuda olduqları halda zəkat verirlər"***.[386] *Ayrıca, əmr sahibinin vilayətini vacib etdi. Ancaq müsəlmanlar bunun nə demək olduğunu başa düşmədilər. Bunun üzərinə Uca Allah namazı, zəkatı, orucu və Həcci açıqladığı kimi, vilayəti də onlara açıqlamasını Həzrət Məhəmmədə əmr etdi. Bu əmr Allah tərəfindən gəlincə Peyğəmbərin qəlbi daraldı, bunu duyan bəzi kimsələrin dinlərindən dönmələrindən və onu yalanlamalarından qorxdu, qəlbi bu təşvişlə sıxılarkən Rəbbinə müraciət etdi. Allah ona bu ayəni vəhy etdi:* ***"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni*** (Quranı) ***təbliğ et. Əgər*** (bunu) ***etməsən,*** (Allahın) ***risalətini*** (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) ***yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz!"***[387] *Bundan sonra Peyğəmbər Allahın əmrini açıq bir şəkildə təbliğ etdi və Qədir-Xum günündə Əlinin vilayətini elan etdi. Bu səbəblə insanları camaat namazına çağırdı və hazır olanların orada olmayanlara bunu çatdırmalarını əmr etdi".*

**قال عمر بن اذنية: قالوا جميعا غير أبي الجارود – وقال أبوجعفر (عليه السلام): وكانت الفريضة تنزل بعد الفريضة الاخرى وكانت الولاية آخر الفرائض، فأنزل الله عزوجل: اليوم أكملت لكم دينكم وأتممت عليكم نعمتي" قال أبوجعفر (عليه السلام): يقول الله عزوجل: لا انزل عليكم بعد هذه فريضة، قد أكملت لكم الفرائض.**

Ömər bin Üzeynə dedi: "Əbu Caruddan başqa hamısı dedilər ki, Əbu Cəfər *(ə)* buyurmuşdur: *"Vaciblər bir-birlərinin ardınca nazil olurdu. Vilayət vaciblərin ən sonuncusudur. Allah bu ayəni endirdi:* ***"...Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım..."***[388] *Allah bu ayədə bizə bunları söyləyir: "Bundan sonra sizə hər hansi bir vacib enməyəcəkdir. Artıq sizin üçün vacibləri kamilləşdirdim"*.[389]

[386] "əl-Maidə", 55.
[387] "əl-Maidə", 67.
[388] "əl-Maidə", 3.
[389] Küleyni, əl-Kafi, c. I, səh. 173-174, Hüccət kitabı, bab 64, hədis № 4.

Bu hədisin sənədindəki bütün ravilər siqədir (mötəbər) və isnadı müttəsildir. Əllamə Məclisi "əl-Kafi"nin şərhi olan "Miratul-üqul" kitabında hədis haqqında yazır:

**الحديث الرابع: حسن**

"Dördüncü hədis həsəndir".[390]

Həmçinin, Şeyx Hadi ən-Nəcəfi bu hədisi "Mövsuat əhadisi Əhli-Beyt *(ə)*" adlı kitabında "əl-Kafi"dən nəqlən rəvayət etdikdən sonra hədis haqqında deyir:

**الرواية صحيحة الإسناد**

"Rəvayətin sənədi səhihdir".[391]

İmam Sadiqdən *(ə)* nəql olunmuş hədis bir çox qaynaqda dəyişik sənədlərlə rəvayət edilmişdir:

**وعنه، عن صفوان الجّمال قال: قال ابو عبد الله عليه السلام: لما نزلت هذه الاية في الولاية، أمر رسول الله صلّى الله عليه واله بالدوحات في غدير خم فقمن، ثم نودي: الصلاة جامعة، ثم قال. أيها الناس، من كنت مولاه فعلي مولاه ألست أولى بكم من أنفسكم ؟ قالوا: بلى، قال: من كنت مولاه فعلي مولاه رب وال من والاه، وعاد من عاداه. ثم أمر الناس يبايعون عليا، فبايعه لا يجيء أحد إلا بايعه، لا يتكلم منهم أحد. ثم جاء زفر وحبتر، فقال له: يازفر، بايع علياً بالولاية . فقال: من الله، أو من رسوله ؟ فقال: من الله ومن رسوله ؟ ثم جاء حبتر فقال:بايع علياً بالولاية. فقال: من الله أو من رسوله ؟ فقال: من الله ومن رسوله. ثم ثنى عطفه ملتفتاً فقال لزفر: لَشَدّ ما يرفع بضبع ابن عمه.**

"O (Süddi bin Məhəmməd), mənə Səfvan əl-Cəmmaldan nəql edib dedi ki, Əbu Abdullah *(ə)* - İmam Cəfər Sadiq *(ə)* - buyurdu: *"Vilayət haqqındakı ayə* ("əl-Maidə", 67) *nazil olduqda Peyğəmbər Qədir-Xumda kölgəlik düzəldilməsini əmr etdi və kölgəlik hazırlandı. Sonra "Camaat namazına" şəklində nida edildi.* (Namazdan sonra) *Peyğəmbər buyurdu: "Ey insanlar! Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır! Mən sizə öz canınızdan daha artıq deyiləmmi?" Dedilər: "Bəli". Peyğəmbər buyurdu: "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır! Ey Rəbbim, ona dost olana dost, düşmən olana düşmən ol!" Sonra da insanlara Əliyə beyət etmələrini əmr etdi. Hər kəs onun yanına gəlib beyət etdi. Əli onlardan heç biriylə danışmadı. Sonra da Züfər və Həbtər gəldi. Peyğəmbər buyurdu: "Ey Züfər, Əliyə vilayət xüsusunda beyət et!" Züfər dedi: "Bu, Allahdandır, yoxsa Rəsulundan?" Peyğəmbər buyurdu: "Allah və Rəsulundan". Sonra Həbtər gəldi. Peyğəmbər ona buyurdu: "Əliyə beyət et!" Həbtər dedi: "Bu, Allahdandır, yoxsa Rəsulundan?" Peyğəmbər buyurdu: "Allah və Rəsulundan".*[392]

[390] Əllamə Məclisi, Miratul-üqul, c. III, səh. 250.

[391] Şeyx Hadi ən-Nəcəfi, Mövsuat əhadisi Əhli-Beyt *(ə)*, c. VIII, səh. 415, hədis № 10368.

[392] Himyəri, Qurbul-isnad, səh. 57, hədis № 186.

Xatırladaq ki, hədisi Əyyaşi "Təfsiri-Əyyaşi" əsərində (c. I, səh. 329, hədis №143) mürsəl olaraq Səfvan əl-Cəmmaldan rəvayət etmişdir. Himyərinin sənədi isə səhihdir. Göründüyü kimi, Himyəri bu hədisi İmam Sadiqdən *(ə)* iki ravi ilə rəvayət etməkdədir və ravilərin hər biri etibarlıdır.

**محمد بن يحيى، عن محمد بن الحسين، عن الحجال، عن عبد الصمد بن بشير، عن حسان الجمال قال: حملت أبا عبد الله (عليه السلام) من المدينة إلى مكة فلما انتهينا إلى مسجد الغدير نظر إلى ميسرة المسجد فقال: ذلك موضع قدم رسول الله (صلى الله عليه وآله) حيث قال: من كنت مولاه فعلي مولاه ثم نظر إلى الجانب الآخر فقال: ذلك موضع فسطاط أبي فلان وفلان و سالم مولى أبي حذيفة وأبي عبيدة الجراح فلما أن رأوه رافعا يديه قال بعضهم لبعض: انظروا إلى عينيه تدور كأنهما عينا مجنون فنزل جبرئيل (عليه السلام) بهذه الآية: " وإن يكاد الذين كفروا ليزلقونك بأبصارهم لما سمعوا الذكر ويقولون إنه لمجنون وما هو إلا ذكر للعالمين"**

"Məhəmməd bin Yəhya mənə Məhəmməd bin Hüseyndən, o, Həccaldan, o, Əbdüssəməd bin Bişirdən, o da Həssan əl-Cəmmaldan nəql edib dedi: "Əbu Abdullahı *(ə)* Mədinədən Məkkəyə gətirirdim, Qədir məscidinə yetişdikdə məscidin sol tərəfinə baxıb belə buyurdu: *"Bax, bura Peyğəmbərin "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır!" buyurduğu əsnada ayağını qoyduğu yerdir. Bura da babamın çadırının olduğu yerdir. Peyğəmbər əllərini qaldırıb o sözləri söylədikdə filankəs, filankəs Əbu Hüzeyfənin mövlası Səlim və Əbu Übeydə əl-Cərrah bir-birlərinə belə dedilər: "Gözlərinə baxın. Sanki dəlinin gözləri kimi dönür". Bunun üzərinə Cəbrail (ə)* **"**(Ya Peyğəmbər!) ***Həqiqətən, kafirlər Quranı eşitdikləri zaman*** (sənə olan həsədlərindən və qəzəblərindən dolayı) ***az qala səni gözləri ilə yeyələr. Onlar*** (sənin barəndə): ***"O divanədir!" - deyirlər"***; ***"Halbuki bu*** (Quran) ***aləmlərə*** (insanlara və cinlərə) ***ancaq bir öyüd-nəsihətdir!*** (Onun nazil olduğu kimsə heç vaxt divanə ola bilməz!)**"**[393] *ayəsini endirdi".*[394]

Əllamə Hilli bu hədis haqqında deyir:

**وروى الشيخ وابن يعقوب في الصحيح عن حسان الجمال.**

"Şeyx Tusi ilə İbn Yəqub Küleyni səhih olaraq Həssan əl-Cəmmaldan rəvayət etmişlər".[395]

Bundan başqa, Şeyx Hadi ən-Nəcəfi də hədisin səhih olduğunu vurğulamışdır.[396]

---

393 "əl-Qələm", 51-52.

394 Küleyni, əl-Kafi, c. IV, səh. 326, Həcc kitabı, Ziyarət babları, bab 13, hədis №2; Şeyx Səduq, əl-Fəqih, c. II, səh. 350, Həcc kitabı, Ziyarət babları, hədis № 3144; Şeyx Tusi, Təhzibul-əhkam, c. III, səh. 234, Məscid və oradaki namazın fəziləti babı, hədis № 66.

395 Əllamə Hilli, Müntəhiül-Mətalib, c. I, səh. 387.

396 Şeyx Hadi ən-Nəcəfi, Mövsuat əhadisi Əhli-Beyt *(ə)*, c. VIII, səh 24, hədis № 9292.

Xatırladaq ki, "Qədir-Xum" hədisinin 110 səhabə və 99 tabeun ravisi vardır. Həmçinin, bu, bütün təbəqələrdə və bütün hədisşünaslar tərəfindən nəql olunmuş hədisdir.

### *3.4. QƏDİR-XUM HƏDİSİNİ NƏQL EDƏN DİGƏR QAYNAQLAR*

**İmam Əlinin *(ə)* hədisi**

Əhməd bin Hənbəl, İbn Əbu Asim, Nəsai, İbn Həcər və başqaları bu hədisi dəyişik sənədlərlə İmam Əlidən *(ə)* rəvayət etmişlər.

İbn Həcər əl-Əsqəlaninin "Mətalibül-aliyyə" adlı kitabında bu ifadələr var:

**وَقَالَ إِسْحَاقُ : أَخْبَرَنَا أَبُو عَامِرٍ الْعَقَدِيُّ، عَنْ كَثِيرِ بْنِ زَيْدٍ، عَنْ مُحَمَّدِ بْنِ عُمَرَ بْنِ عَلِيٍّ، عَنْ أَبِيهِ، عَنْ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُ، قَالَ: إِنَّ النَّبِيَّ صلى الله عليه وسلم حَضَرَ الشَّجَرَةَ بِخُمٍّ، ثُمَّ خَرَجَ آخِذًا بِيَدِ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُ قَالَ: أَلَسْتُمْ تَشْهَدُونَ أَنَّ اللَّهَ تَبَارَكَ وَتَعَالَى رَبُّكُمْ؟ قَالُوا: بَلَى، قَالَ صَلَّى اللَّهُ عَلَيْهِ وسَلَّمَ: أَلَسْتُمْ تَشْهَدُونَ أَنَّ اللَّهَ وَرَسُولَهُ أَوْلَى بِكُمْ مِنْ أَنْفُسِكُمْ، وَأَنَّ اللَّهَ وَرَسُولَهُ أَوْلِيَاؤُكُمْ؟ فَقَالُوا: بَلَى قَالَ: فَمَنْ كَانَ اللَّهُ وَرَسُولُهُ مَوْلاَهُ، فَإِنَّ هَذَا مَوْلاَهُ، وَقَدْ تَرَكْتُ فِيكُمْ مَا إِنْ أَخَذْتُمْ بِهِ لَنْ تَضِلُّوا: كِتَابُ اللَّهِ تَعَالَى، سَبَبُهُ بِيَدِهِ، وَسَبَبُهُ بِأَيْدِيكُمْ، وَأَهْلُ بَيْتِي.**

"İshaq dedi: "Əbu Əmr mənə Kəsr bin Ziyaddan, o, Məhəmməd bin Ömərdən, o, atası Ömər bin Əlidən, o da Əli bin Əbu Talibdən *(ə)* xəbər verib dedi: *"Peyğəmbər Qədir-Xumda mənim əlimdən tutdu və buyurdu: "Allah-Təalanın sizin Rəbbiniz olduğuna şahidlik edirsinizmi?" Dedilər: "Bəli, ya Rəsulullah!" Peyğəmbər buyurdu: "Allah və Rəsulunun sizlərə öz canınızdan daha yaxın olduğuna şahidlik edirsinizmi? Allah və Rəsulunun sizin vəliniz olduğuna da şahidlik edirsinizmi?" Dedilər: "Bəli, ya Rəsulullah.!" Peyğəmbər belə buyurdu: "Allah və Rəsulu kimin mövlasıdırsa, bu da (Əli (ə) onun mövlasıdır. Və mən sizə iki əmanət qoyub gedirəm ki, onlara sarıldıqca əsla azmayacaqsınız, Allah-Təalanın Kitabı və itrətim, Əhli-Beytim"*.

Hədisdən sonra İbn Həcər deyir:

**هَذَا إِسْنَادٌ صَحِيحٌ.**

"Bu isnad səhihdir".[397]

Başqa hədis alimi olan Büseyri də bu hədisi öz kitabında nəql etdikdən sonra hədis haqqında deyir:

**رواه إسحاق بسند صحيح.**

"İshaq səhih isnad ilə rəvayət etmişdir".[398]

[397] İbn Həcər, Mətalibül-Aliyyə, c. XVI, səh. 142, hədis № 3943.
[398] Büseyri, İthafül-xiyartil-məhara, c. VII, səh. 210.

İmam Əlidən *(ə)* gələn başqa bir Qədir-Xum hədisini isə Nəsai ilə Əhməd rəvayət etmişdir ki, burada İmam Əli *(ə)* bu hədis üçün səhabələri şahidliyə dəvət etmiş və onlardan bir çox səhabə buna şəhadət gətirmişdir.

"Kütubu-sittə" müəlliflərindən Nəsainin "Xəsais" adlı kitabında bu ifadələr var:

**أخبرنا احمد بن شعيب قال: أخبرني هارون بن عبد الله البغدادي الحبال، قال: حدثنا مصعب بن المقدام، قال: حدثنا فطر بن خليفة، عن ابي الطفيل وأخبرنا أبو داود قال: حدثنا محمد بن سليمان، حدثنا فطر عن ابي الطفيل، عن عامر بن وائلة قال: جمع علي الناس في الرحبة فقال لهم: انشد بالله كل امرئ مسلم سمع رسول الله صلى الله عليه وسلم يقول: يوم غدير خم: ألستم تعلمون اني اولى المؤمنين من انفسهم وهو قائم ثم اخذ بيد علي فقال: من كنت مولاه فعلي مولاه، اللهم وال من والاه وعاد من عاداه. قال أبو الطفيل: فخرجت وفي نفسي منه شئ فلقيت زيد بن ارقم واخبرنا فقال: تشك أنا سمعته من رسول الله صلى الله عليه وسلم واللفظ لابي داود.**

"Mənə Harun bin Abdullah əl-Bağdadi xəbər verib dedi: "Mənə Müsəb bin Miqdad nəql edib dedi: "Fitr bin Xəlifə mənə Əbu Tüfeyldən nəql etdi və mənə Əbu Davud xəbər verib dedi: "Mənə Məhəmməd bin Süleyman nəql edib dedi: "Fitr mənə Əbu Tüfeyl Amr bin Vəsilədən nəql edib dedi: "Əli *(ə)* insanları Rəhbədə bir yerə yığdı və buyurdu: *"Allah xatirinə aranızda Peyğəmbərin Qədir-Xum günü ayaq üstə, mənim əlimdən tutmuş halda "Mən sizə öz canınızdan daha yaxın deyiləmmi? Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır! Ey Rəbbim, ona dost olana dost, düşmən olana düşmən ol!" - deyə buyurduğunu eşidən bir müsəlman varmı?"* (Ravi) Əbu Tüfeyl dedi: "Mən özüm şübhəli olduğum halda oradan ayrıldım və Zeyd bin Ərqəmin yanına gəlib ona danışdım, o, dedi: "Buna şübhə edirsən? Mən bunu Peyğəmbərdən *(s)* eşitdim".

**أخبرنا احمد بن شعيب، قال: اخبرنا الحسين بن حريث المروزي، قال: اخبرنا الفضل بن موسى، عن الاعمش، عن ابي اسحاق عن سعيد بن وهب قال: قال علي كرم الله وجهه في الرحبة: أنشد بالله من سمع رسول الله صلى الله عليه وسلم يوم غدير خم يقول: ان الله ورسوله ولي المؤمنين، ومن كنت وليه فهذا وليه، اللهم وال من والاه وعاد من عاداه، وانصر من نصره. قال: فقال سعيد: قام إلى جنبي ستة، وقال زيد بن يثيع: قام عندي ستة، وقال عمرو ذي مر: احب من أحبه وأبغض من أبغضه وساق الحديث. رواه اسرائيل عن اسحاق عن عمرو ذي مر.**

"Mənə Hüseyn bin Haris xəbər verib dedi: "Füzeyl bin Musa mənə Əməşdən, o, Əbu İshaqdan, o da Səid bin Vəhəbdən xəbər verib dedi: "Əli *(ə)* Rəhbədə buyurdu: *"Allah xatirinə sizlərdən kim Peyğəmbərin Qədir-Xum günü "Allah və Rəsulu möminlərin vəlisidir və mən kimin vəlisiyəmsə, bu da* (Əli *(ə)* *onun vəlisidir. Ey Rəbbim, onu sevəni sev, ona düşmən olana düşmən ol və ona kömək edənə kömək et!" - deyə buyurduğunu*

*eşitdi?"* Səid bin Vəhəb və Zeyd bin Yüsəy dedilər: "Mənim yanımdan altı nəfər qalxdı".

**أخبرنا احمد بن شعيب، قال: اخبرنا علي بن محمد بن علي، قال: حدثنا خلف بن تميم، قال: حدثنا اسرائيل، قال: حدثنا ابو اسحاق، عن عمرو ذي مر قال: شهدت عليا بالرحبة ينشد اصحاب محمد: أيكم سمع رسول الله صلى الله عليه وسلم يقول يوم غدير خم ما قال؟ فقام اناس فشهدوا انهم سمعوا رسول الله صلى الله عليه وسلم يقول: من كنت مولاه فعلي مولاه، اللهم وال من والاه، وعاد من عاداه، واحب من احبه، وابغض من ابغضه، وانصر من نصره.**

"Mənə Əli bin Məhəmməd bin Əli xəbər verib dedi: "Mənə Xələf bin Təmim nəql edib dedi: "Mənə İsrail nəql edib dedi: "Əbu İshaq mənə Əmr Zimurdan nəql edib dedi: "Əlinin *(ə)* Rəhbədə Həzrət Muhəmmədin *(s)* səhabələrinə and verərək belə buyurduğunu gördüm: *"Hansınız Qədir-Xum günü söylədiklərini eşitdi?"* Bunun üzərinə insanlar qalxaraq Peyğəmbərin *(s)* *"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır! Ey Rəbbim, ona dost olana dost, düşmən olana düşmən ol! Onu sevəni sev və ona nifrət edənə nifrət et! Ona kömək edənə kömək et!"* - buyurduğunu eşitdiklərinə şəhadət verdilər".

**أخبرنا يوسف بن عيسى، قال: أخبرنا الفضيل بن موسى قال: حدثنا الاعمش، عن ابي اسحاق، عن سعيد بن وهب، قال: قال علي رضي الله عنه في الرحبة: أنشد بالله من سمع رسول الله صلى الله عليه وسلم يوم غدير خم يقول: الله وليي وانا ولي المؤمنين، ومن كنت وليه فهذا وليه، اللهم وال من والاه وعاد من عاداه وانصر من نصره، فقال سعيد: إلى جنبي ستة، وقال حارثة بن نصر: قام ستة، وقال زيد بن يثيغ: قام عندي ستة، وقال عمرو ذو مر: أحب من أحبه وابغض من أبغضه.**

"Mənə Yusuf bin İsa xəbər verib dedi: "Mənə Füzeyl bin Musa xəbər verib dedi: "Əməş mənə Əbu İshaqdan, o da Səid bin Vəhəbdən nəql edib dedi: "Əli *(ə)* Rəhbədə buyurdu: *"Allah xatirinə sizlərdən kim Peyğəmbərin Qədir-Xum günü "Allah və Rəsulu möminlərin vəlisidir və mən kimin vəlisiyəmsə, bu da* (Əli *(ə)* *onun vəlisidir. Ey Rəbbim, onu sevəni sev, ona düşmən olana düşmən ol və ona kömək edənə kömək et!" buyurduğunu eşitdi?"* Səid bin Vəhəb dedi: "Mənim yanımdan altı nəfər qalxdı". Həris bin Nəsr dedi: "Mənim yanımdan da altı adam qalxdı". Zeyd bin Yüsey də dedi: "Mənim də yanımdan altı adam qalxdı".[399]

Hədisin səhihliyinə gəldikdə, Nəsai və Əhmədin sənədlərindəki bütün ravilər etibarlı, isnadlar isə müttəsildir. Nəsaininin "Xəsais" kitabının mühəqqiqlərindən Əbu İshaq əl-Hüveyni hədislərin səhih olduğunu söyləmişdir. Eyni şəkildə Əhməd bin Hənbəlin "Müsnəd" kitabının mühəqqiqlərindən Şüeyb əl-Arnaut hədis haqqında deyir:

[399] Nəsai, Xəsais, səh. 81-82, hədis № 88, səh. 85-86, hədis № 93-93, səh. 119-120, hədis №151. Hədisi Əhməd bin Hənbəl Müsnəd (c. IV, səh. 379, hədis № 19321-də) və Fəzail əs-Səhabə (c. II, səh. 849, hədis №1167-də) Əbu Tüfeyldən rəvayət etmişdir.

**تعليق شعيب الأرنؤوط: إسناده صحيح رجاله ثقات رجال الشيخين غير فطر بن خليفة فمن رجال أصحاب السنن وروى له البخاري مقرونا.**

"İsnadı səhihdir, raviləri isə etibarlıdır. Fətr bin Xələfdən başqa raviləri Buxari və Müslimin ravilərindəndir ki, onlar da "Sünən" əshabının ravilərindəndir".[400]

Yenə, Əhməd bin Hənbəlin digər kitabı "Fəzail əs-Səhabə"nin mühəqqiqlərindən Vəsiyullah bin Məhəmməd Abbas deyir:

**إسناده حسن.**

"İsnadı həsəndir".[401]

Hədis və təfsir alimi olan İbn Kəsir də bu hədisi "əl-Bidayə vən-Nihayə" adlı kitabında Nəsaidən rəvayət etdikdən sonra (hədis haqqında) deyir:

**وهذا إسناد جيد.**

"Bu sənəd gözəldir".[402]

Sələfilərin son dövr hədisşünaslarından olan əl-Albani də hədis haqqında deyir:

**أخرجه أحمد (370/4) و ابن حبان في "صحيحه" (2205 – موارد الظمآن) و ابن أبي عاصم (1367 و 1368) و الطبراني (4968) و الضياء في "المختارة" (رقم – 527 بتحقيقي) . قلت: و إسناده صحيح على شرط البخاري . و قال الهيثمي في "المجمع" (104/9): رواه أحمد و رجاله رجال الصحيح غير فطر بن خليفة و هو ثقة.**

"(Bu hədisi) Əhməd, İbn Hibban "Səhih"ində, İbn Əbi Asim, Təbərani və (Büseyri) "Muxtarə"də rəvayət etmişdir. Mən deyirəm: hədisin isnadı Buxarinin şərtlərinə görə səhihdir və Heysəmi "Məcməüz-zəvaid"də rəvayət etdikdən sonra belə demişdir: "Əhməd rəvayət etmişdir, Fətr bin Xələfdən başqa raviləri "Səhih"in ravileridir ki, onlar da etibarlıdır".[403]

Sözügedən səhih hədisdən gördüyümüz kimi, İmam Əli *(ə)* özü bu rəvayəti nəql etmiş və səhabələrdən də şahidlik etmələrini istəmişdir. Dördüncü rəvayətdə olduğu kimi, səhabədən on səkkiz nəfər və birinci rəvayətdə olduğu kimi, səhabə Zeyd bin Ərqəm bunu Peyğəmbərdən *(s)* eşitdiklərinə şəhadət etmişdir ki, bunu da səhabə Əbu Tüfeyl rəvayət etməkdədir. Bu isə iyirmi bir səhabənin (İmam Əli *(ə)*, Zeyd bin Ərqəm, Əbu Tüfeyl və on səkkiz nəfər) Qədir-Xum hədisini nəql etdiyini göstərir ki, bu da həmin hədisin təvatürünün isbatı üçün kifayətdir.

400 Əhməd bin Hənbəl, Müsnəd, c. IV, səh. 379, hədis № 19321.
401 Əhməd bin Hənbəl , Fəzail əs-Səhabə, c. II, səh. 849, hədis № 1167.
402 İbn Kəsir, əl-Bidayə vən-Nihayə, c. VII, səh. 671.
403 əl-Albani, Silsiləti əhadis əs-Səhiha, c. IV, səh. 331.

**Əbu Tüfeyl və Zeyd bin Ərqəmin hədisi**

Yuxarıda qeyd etdiyimiz hədislərdə İmam Əlinin *(ə)* sözünə Zeyd bin Ərqəmin şəhadət etdiyini və bunu da Əbu Tüfeylin rəvayət etdiyini görmüşdük. Burada isə bu iki səhabədən gələn digər hədisləri nəql edəcəyik.

"Kütubu-sittə" müəlliflərindən olan Nəsainin "Xəsais" adlı kitabında bu ifadələr var:

**أخبرنا محمد بن المثنى قال ثنا يحيى بن حماد قال ثنا أبو عوانة عن سليمان قال ثنا حبيب بن أبي ثابت عن أبي الطفيل عن زيد بن أرقم قال: لما رجع رسول الله صلى الله عليه وسلم عن حجة الوداع ونزل غدير خم أمر بدوحات فقممن ثم قال: "كأني قد دعيت فأجبت، إني قد تركت فيكم الثقلين أحدهما أكبر من الآخر كتاب الله وعترتي أهل بيتي فانظروا كيف تخلفوني فيهما فإنهما لن يتفرقا حتى يردا علي الحوض" ثم قال: "إن الله مولاي وأنا ولي كل مؤمن" ثم أخذ بيدي علي فقال: "من كنت وليه فهذا وليه، اللهم وال من والاه وعاد من عاداه."**

"Mənə Məhəmməd bin Müsənna xəbər verib, dedi: "Mənə Yəhya bin Həmmad nəql edib dedi: "Əbu Avan mənə Süleymandan nəql edib dedi: "Həbib bin Əbu Sabit mənə Əbu Tüfeyldən, o da Zeyd bin Ərqəmdən nəql edib dedi: "Peyğəmbər *(s)* Vida həccindən dönüb Qədir-Xum deyilən yerdə qonaqlayanda, kölgəlik ağacların altının süpürülüb təmizlənməsini əmr etdi. Təmizlik edildikdən sonra belə buyurdu: *"Sanki dəvət edilmiş və dəvətə razılıq edəcək kimiyəm! Sizlərə biri digərindən daha böyük iki qiymətli əmanət qoyub gedirəm. Allahın Kitabı və itrətim, Əhli-Beytim. Məndən sonra onlarla necə davranacağınıza diqqət yetirin. Çünki, onlar hovuz başında mənimlə qovuşana qədər bir-birlərindən əsla ayrılmayacaqlar!* Sonra buyurdu: *"Şübhəsiz ki, Allah mənim mövlam, mən də bütün möminlərin mövlasıyam"*. Daha sonra Əlinin *(ə)* əlindən tutaraq buyurdu: *"Mən kimin mövlasıyamsa, bu da* (Əli *(ə)* *onun mövlasıdır! Ey Rəbbim, onu sevəni sən də sev, ona düşmən olana sən də düşmən ol!"*

**فقلت لزيد: سمعته من رسول الله صلى الله عليه وسلم؟ قال: ما كان في الدوحات رجل إلا رآه بعينه وسمعه بإذنه.**

Əbu Tüfeyl dedi: "Zeyddən "Bunu Allahın Rəsulundan *(s)* eşitdinmi?" - deyə soruşduqda bu cavabı verdi: "Bəli, o gün ağacların altında olub bunları gözləriylə görməyən və qulaqlarıyla eşitməyən heç kim yoxdur!"[404]

[404] Nəsai, Xəsais, səh. 72-73, hədis №74. Hədisi yenə Nəsai Sünənul-kübra, c. V, səh. 148 və Fəzail əs-Səhabə, hədis № 45-də eyni sənədlə, Təhavi Şərhi-müşkilil-asar, c. V, səh. 18-19, hədis № 1765-də nəql edib. Nəsaidən nəqlən Təbərani Möcəm əl-kəbir, c. V, səh. 166, hədis № 4969-da öz sənədi ilə, Hakim ən-Nişapuri Müstədrək, c. III, səh. 118, hədis № 4576-da rəvayət etmişdir.

Hədisin səhihliyinə gəldikdə, sənədi hədis alimlərinin nəzərində ən səhih sənədlərdəndir və hədis elminin böyük mühəddisləri bu sənədin səhihliyinə hökm vermişlər. Nəsainin "Xəsais" kitabını təhqiq edən Şeyx Əbu İshaq əl-Hüveyni hədis haqqında deyir:

**إسناده صحيح.**

"İsnadı səhihdir".[405]

Təfsir və tarix alimi olan İbn Kəsir bu hədisi "əl-Bidayə vən-Nihayə" adlı kitabında Nəsaidən nəql etdikdən sonra deyir:

**قال شيخنا أبو عبد الله الذهبي: وهذا حديث صحيح.**

"Şeyximiz Əbu Abdullah əz-Zəhəbi "bu hədis səhihdir" - dedi".[406]

Yenə, hədisi Nəsaidən nəqlən öz kitabında qeyd edən Təhavi hədis haqqında deyir:

**قَالَ أَبُو جَعْفَرٍ: فَهَذَا الْحَدِيثُ صَحِيحُ الْإِسْنَادِ , لَا طَعْنَ لِأَحَدٍ فِي أَحَدٍ مِنْ رُوَاتِهِ.**

"Bu hədisin sənədi səhihdir, heç kim onun ravilərindən heç birinə tənə etməmişdir".[407]

Hədisi öz kitabında rəvayət edən Hakim hədisin səhihliyi haqqında deyir:

**هذا حديث صحيح على شرط الشيخين و لم يخرجاه بطوله.**
**شاهده حديث سلمة بن كهيل عن أبي الطفيل أيضا صحيح على شرطهما.**

"Bu hədis Şeyxeynin (Buxari və Müslimin) şərtinə görə səhihdir, lakin rəvayət etməmişlər. Sələmə bin Küheylin Əbu Tüfeyldən olan rəvayəti də eyni ilə Şeyxeynin şərtinə görə səhihdir".[408]

**Bərra bin Azibin hədisi**

Hədisi "Kütubu-sittə" müəlliflərindən olan böyük hədis alimi İbn Macə rəvayət etmişdir. Onun "Sünən" adlı kitabında bu ifadələr var:

**حَدَّثَنَا عَلِيُّ بْنُ مُحَمَّدٍ حَدَّثَنَا أَبُو الْحُسَيْنِ أَخْبَرَنِي حَمَّادُ بْنُ سَلَمَةَ عَنْ عَلِيِّ بْنِ زَيْدِ بْنِ جُدْعَانَ عَنْ عَدِيِّ بْنِ ثَابِتٍ عَنْ الْبَرَاءِ بْنِ عَازِبٍ قَالَ أَقْبَلْنَا مَعَ رَسُولِ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ فِي حَجَّتِهِ الَّتِي حَجَّ فَنَزَلَ فِي بَعْضِ الطَّرِيقِ فَأَمَرَ الصَّلَاةَ جَامِعَةً فَأَخَذَ بِيَدِ عَلِيٍّ رَضِيَ اللَّهُ عَنْهُ فَقَالَ أَلَسْتُ أَوْلَى بِالْمُؤْمِنِينَ مِنْ أَنْفُسِهِمْ قَالُوا بَلَى قَالَ أَلَسْتُ أَوْلَى بِكُلِّ مُؤْمِنٍ مِنْ نَفْسِهِ قَالُوا بَلَى قَالَ فَهَذَا وَلِيُّ مَنْ أَنَا مَوْلَاهُ اللَّهُمَّ وَالِ مَنْ وَالَاهُ اللَّهُمَّ عَادِ مَنْ عَادَاهُ.**

---

405 Nəsai, Xəsais, səh. 72-73, hədis № 74.
406 İbn Kəsir, əl-Bidayə vən-nihayə, c. VII, səh. 668.
407 Əbu Cəfər ət-Təhavi, Şərhi-müşkilil-asar, c. V, səh. 18-19, hədis № 1765.
408 Hakim ən-Nişaburi, Müstədrək, c. III, səh. 118, hədis № 4576.

"Mənə Əli bin Məhəmməd nəql edib dedi: "Mənə Əbülhüseyn nəql edib dedi: "Həmmad bin Sələmə mənə Əli bin Ziyad bin Cüdandan, o, Ədi bin Sabitdən, o da Bərra bin Azibdən rəvayət edib dedi: "Biz Peyğəmbərin *(s)* iştirak etdiyi Həcc səfərində onunla birlikdə yola çıxmışdıq. O, yolun bir səmtində yerləşdi və camaatla namaz qılma əmrini verdi. Daha sonra Əlinin *(ə)* əlini tutdu və buyurdu: *"Mən möminlərə öz nəfslərindən daha yaxın deyiləmmi?"* (Səhabələr) dedilər: "Bəli". Peyğəmbər *(s)* buyurdu: *"Mən hər möminə öz canından yaxın deyiləmmi?"* (Səhabələr) dedilər: "Bəli". Peyğəmbər *(s)* buyurdu: *"Mən kimə öz canından daha yaxınamsa, bu da* (Əli *(ə) onun mövlasıdır! Ey Rəbbim, ona dost olan dost, düşmən olana düşmən ol!"*[409]

**Əbu Əyyub əl-Ənsarinin hədisi**

Bu hədisi İbn Əbu Şeybə, Əhməd və Təbərani rəvayət etmişlər. Bununla bağlı hədis alimlərindən olan Əhməd bin Hənbəlin "Fəzail əs-Səhabə" adlı kitabında bu ifadələr var:

**حدثنا عبد الله قال حدثني أبي قثنا يحيى بن آدم قثنا حنش بن الحارث بن لقيط النخعي عن رياح الحارث قال جاء رهط إلى علي بالرحبة فقالوا السلام عليك يا مولانا فقال كيف أكون مولاكم وأنتم قوم عرب قالوا سمعنا رسول الله صلى الله عليه وسلم يقول يوم غدير خم من كنت مولاه فهذا مولاه.**

"Mənə Yəhya bin Adəm nəql edib dedi: "İbn Haris ən-Nəhai mənə Riyah əl-Harisdən nəql edib dedi: "Bir neçə nəfər Kufə məscidinin həyətində dayanan Əlinin *(ə)* yanına gələrək belə dedi: "Salam olsun sənə ey Mövlamız *(ə)*!" Həzrət Əli *(ə)* onlara buyurdu: *"Siz bir ərəb tayfasınız, necə sizin ixtiyar sahibiniz ola bilərəm?!"* Dedilər: "Qədir-Xum günündə Peyğəmbərin *(s)* belə buyurduğunu eşitdik: *"Mən kimin mövlasıyamsa, bu da* (Əli *(ə)* *onun mövlasıdır!"*

**قال رياح فلما مضوا اتبعتهم فسألت من هؤلاء قالوا نفر من الأنصار فيهم أبو أيوب الأنصاري.**

Riyah əl-Haris dedi: "O adamlar oradan ayrılıb getdiklərində mən də arxalarınca getdim. Onların kim olduğunu soruşanda dedilər ki, "biz Ənsardan bir qurupuq". Aralarında Əbu Əyyub əl-Ənsari də var idi".[410]

---

[409] İbn Macə, Sünən, c. I, səh. 43, Müqəddimə, hədis № 116.

[410] Əhməd bin Hənbəl, Fəzail əs-Səhabə, c. II, səh. 707, hədis № 967. Hədisi İbn Əbu Şeybə, Müsənnəf, c. X, səh. 481, hədis № 32671-də, Təbərani, Möcəm əl-kəbir, c. IV, səh. 173, hədis № 4053-də rəvayət etmişdir.

Hədisin sənədindəki ravilər etibarlı və isnadları müttəsildir. Əhməd bin Hənbəlin "Fəzail əs-Səhabə" kitabını təhqiq etmiş Vəsiyullah bin Məhəmməd Abbas hədis haqqında deyir:

**إسناده صحيح.**

"İsnadı səhihdir".[411]

Yenə, bu hədisi "Məcməüz-zəvaid" adlı kitabında Əhməd və Təbəranidən rəvayət edən Heysəmi hədis haqqında deyir:

**رواه أحمد والطبراني ورجال أحمد ثقات.**

"Əhməd və Təbərani rəvayət etmişdir və Əhmədin raviləri etibarlıdır".[412]

Sələfilərin son dövr alimlərindən olan əl-Albani bu hədisi rəvayət etdikdən sonra belə deyir:

**أخرجه أحمد (5 / 419) و الطبراني (4052 و 4053) من طريق حنش بن الحارث بن لقيط النخعي الأشجعي عن رياح بن الحارث .قلت : و هذا إسناد جيد رجاله ثقات.**

"Əhməd və Təbərani Hənşun bin Haris bin Ləqeyt ən-Nəxəi əl-Əşcəyi yolu ilə Rəyah bin Harisdən rəvayət etmişdir. Deyirəm: "Bu sənəd gözəldir və raviləri etibarlıdır".[413]

**Səd bin Əbu Vəqqasın hədisi**

Onun hədisini Nəsai "Xəsais" kitabında rəvayət etmişdir. "Kütubu-sittə" müəlliflərindən olan Nəsainin "Xəsais" adlı kitabında bu ifadələr var:

**اخبرنا زكريا بن يحيى ، قال حدثنا نصر بن علي ، قال : حدثنا عبد الله بن داود ، عن عبد الواحد بن أيمن عن ابيه ، ان سعدا قال : قال رسول الله صلى الله عليه وسلم : من كنت مولاه فعلي مولاه.**

"Mənə Zəkəriyya bin Yəhya xəbər verib dedi: "Mənə Nəsr bin Əli nəql edib dedi: "Abdullah bin Davud mənə Əbdülvahid bin Eymənddən, o da atasından rəvayət edib dedi: "Səd dedi: "Peyğəmbər *(s)* buyurdu: *"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır!"*

Hədisdən sonra kitabın mühəqqiqlərindən Əbu İshaq əl-Hüveyni hədis haqqında deyir:

**إسناده صحيح.**

"İsnadı səhihdir".[414]

---

[411] Əhməd bin Hənbəl, Fəzail əs-Səhabə, c. II, səh. 707, hədis № 967.
[412] Heysəmi, Məcməüz-zəvaid, c. IX, səh. 103, hədis № 14610.
[413] əl-Albani, Silsilətu əhaidisis-səhihə, c. IV, səh. 340.
[414] Nəsai, Xəsais, səh. 75, hədis № 78.

**Əbu Hüreyrənin hədisi**

Bu hədisi Xətib əl-Bağdadi, İbni Mordəveyh və İbn Əsakir rəvayət etmişlər. Hədis və tarix alimi Xətib əl-Bağdadinin "Tarixi-Bağdad" adlı kitabında bu ifadələr var:

**نا عبد الله بن علي بن محمد بن بشران أنا علي بن عمر الحافظ أنا أبو حبشون بن موسى بن ايوب الخلال نا علي بن سعيد الرملي نا ضمرة بن ربيعة القرشي عن ابن شوذب عن مطر الوراق عن شهر بن حوشب عن ابي هريرة قال من صام يوم ثماني عشرة من ذي الحجة كتب له صيام ستين شهراوهو يوم غدير خم لما اخذ النبي (صلى الله عليه و سلم ) بيد علي بن أبي طالب فقال ألست ولي المؤمنين قالوا بلى يا رسول الله قال من كنت مولاه فعلي مولاه فقال عمر بن الخطاب بخ بخ لك يا ابن أبي طالب أصبحت مولاي ومولى كل مسلم فأنزل الله عز و جل " اليوم أكملت لكم دينكم " ومن صام يوم سبعة وعشرين من رجب كتب له صيام ستين شهرا وهو أول يوم نزل جبريل بالرسالة.**

"… Şəhr bin Hövşəb Əbu Hüreyrədən nəql etdi: "Hər kim Zülhiccənin on səkkizində oruc tutarsa, qarşılığında Allah-Təala ona altı ay oruc tutmuş kimi savab yazar. O gün Qədir-Xum günüdür, o gün, Peyğəmbər *(s)* Əli bin Əbu Talibin *(ə)* əlindən tutaraq belə buyurdu: *"Görəsən mən möminlərin vəlisi deyiləmmi?"* Hazır olanlar "Bəli, elədir, ey Allahın Rəsulu *(s)*!" - deyə cavab verdilər. Davamında buyurdu: *"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır!"* Ondan sonra Ömər bin Xəttab belə dedi: "Mübarək olsun sənin üçün, mübarək olsun sənin üçün ey Əbu Talibin oğlu, sən mənim və bütün müsəlmanların mövlası oldun!" Daha sonra ***"...Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım..."*** ayəsi nazil oldu. Kim Rəcəb ayının iyirmi yeddisində oruc tutsa, ona altı ayın orucunun savabı yazılar. Bu gün Cəbrailin *(ə)* Həzrət Muhəmmədə *(s)* ilk vəhyi gətirdiyi gündür".[415]

## *3.5. QƏDİR-XUM HAQQINDA ƏSƏR YAZAN ALİMLƏR*

Qədir-Xum hədisi elə bir hədisdir ki, hər iki məzhəbin ən güvənilmiş, ən mötəbər qaynaqlarında geniş şəkildə yer almış, səhih sənədlərlə rəvayət edilmişdir. Hər iki məzhəbin alimləri onun mütəvatir olduğunda ittifaq etmiş və haqqında kitablar qələmə almışlar. Mövzu haqqında ən mükəmməl kitablardan birisi və bəlkə də ən mükəmməli Əllamə Əminiyə aiddir. Əllamə Əmininin yazdığı əsərin adı "əl-Qədir"dir. Kitabın "Yazarların Qədir

[415] Xətib əl-Bağdadi, Tarixül-Bağdad, c. IX, səh. 222.
Məlumatı bütövlükdə http://saqaleyn.wordpress.com/2013/09/30/ saytından götürmüşük.

hədisinə verdiyi önəm” bölümündə müəllifin bu hədis haqqında kitab yazan iyirmi beş Əhli-sünnə aliminin adını verdiyini görürük. Həmin iyirmi beş alimin ən məşhur olanlarından aşağıdakıları qeyd etmək olar:

1. İbn Cərir ət-Təbəri. O, böyük alimdir, tarix və təfsir alimidir. Yaşadığı dövrdə öz məzhəbi vardı və ona təqlid edilirdi. Onun məzhəbi “Cəririyyə məzhəbi” adı ilə bilinir. O, Qədir-Xum hadisəsi haqqında iki cildlik “əl-Vilayətu fi turuqil-hədisil-Qədir” adlı bir kitab və “Teyr” hədisi haqqında da bir kitab yazmışdır. Məşhur rical alimi Zəhəbi Təbərinin bioqrafiyasında bu haqda yazılır:

**ولما بلغه ان ابن أبي داود تكلم في حديث غدير خم عمل كتاب الفضائل وتكلم على تصحيح الحديث. قلت: رأيت مجلدا من طرق الحديث لابن جرير فاندهشت له ولكثرة تلك الطرق.**

“İbn Əbu Davudun “Qədir” hədisi haqqında danışması Təbəriyə çatdıqda o, “Fəzail” kitabını yazıb “Qədir” hədisinin səhhəti haqqında bəhs etdi. Mən İbn Cəririn bu hədisin sənədləri haqqında bir kitab yazdığını gördüm və hədisi bir çox yollarla rəvayət etdiyindən dolayı çaşıb qaldım”.[416]

Digər tarix, hədis və təfsir alimi olan İbn Kəsir “əl-Bidayə vən-Nihayə” əsərində (c. XI, səh. 146) Təbərinin belə bir kitab yazdığını qeyd etmişdir. Ayrıca, o, “əl-Bidayə vən-Nihayə” adlı tarix kitabında Təbərinin bu kitabından hədislər rəvayət etməkdədir. Həmin rəvayətlərdən biri belədir:

**وقال أبو جعفر بن جرير الطبري في الجزء الأول من كتاب ”غدير خم“ ـقال شيخنا أبو عبد الله الذهبي: وجدته في نسخة مكتوبة عن ابن جرير.**

“Şeyximiz Əbu Abdullah əz-Zəhəbi demişdir: “Əbu Cəfər bin Cərir ət-Təbərinin “Qədir-Xum” kitabının əlyazması ilə nüsxəsi məndə mövcuddur. Onun birinci cildində deyilir (burada Qədir-Xum hədisini qeyd edir)”.[417]

2. əz-Zəhəbi hədis, tarix və rical elmində öndə gələn alimlərdən və rical elmində mötəbər olan bir şəxsdir. O, “Təzkirət əl-hüffaz” adlı kitabında Hakim ən-Nişaburinin “Teyr” və “Qədir-Xum” hədislərini rəvayət etdiyini bildirdikdən sonra özü belə deyir:

**وأما حديث الطير فله طرق كثيرة جدا قد أفردتها بمصنف ومجموعها هو يوجب أن يكون الحديث له أصل. وأما حديث: من كنت مولاه. فله طرق جيدة وقد أفردت ذلك أيضا.**

“Teyr” hədisi bizə çeşidli səhih yollarla çatmışdır. Mən ayrı bir kitabda bunları bir yerə topladım. Bu məcmuə bu hədisin lazımi qədər səhih olduğunu göstərməkdədir. *“Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır!”*

---

[416] Zəhəbi, Təzkirət əl-Hüffaz, c. II, səh. 713.
[417] İbn Kəsir, əl-Bidayə vən-Nihayə, c. VII, səh. 678.

hədisi də çeşidli səhih yollarla bizə çatmışdır. Mən bu mövzuda da ayrı bir kitab yazmışam”.[418]

Həmçinin, hədis və təfsir qaynaqlarında rəvayət edilən aşağıdakı hədislər də İmam Əlinin *(ə)* imamətinə dəlildir. Belə ki, IX əsrin görkəmli hədisşünaslarından olan Məhəmməd bin İsmayıl əl-Buxari və Müslim bin Həccac ən-Nişapuri məşhur “Səhih” əsərlərində belə nəql edirlər ki, Peyğəmbər *(s)* buyurmuşdur:

**يا علي أنت أخي ووارث علمي وأنت الخليفة من بعدي ، وأنت قاضي ديني ، وأنت منّي بمنزلة هارون من موسى إلا أنّه لا نبي بعدي.**

*“Ya Əli, sən mənim qardaşım, elmimin varisi və məndən sonra xəlifəmsən! Sən mənim borclarımı ödəyənsən! Sənin mənə olan məqamın Harunun Musaya olan məqamı kimidir, lakin məndən sonra heç bir peyğəmbər olmayacaq”.*[419]

**سلّموا على علي بإمرة المؤمنين ، واسمعوا له وأطيعوا له ، وتَعَلّموا منه ولا تُعَلّموه.**

*“Əliyə möminlərin əmiri olduğu üçün salam verin. Ona tabe olub onu eşidin. Ondan öyrənin, ona bir şey öyrətməyin”.*[420]

**من كنت مولاه فهذا علي مولاه اللهم وال من والاه وعاد من عاداه.**

*“Hər kəsin rəhbəri mənəmsə, onun rəhbəri Əlidir! Ey Rəbbim, onu ağa bilənə ağa ol, onu düşmən tutana düşmən ol!”*[421]

Əhməd bin Hənbəl Zeyd bin Sabitdən rəvayət edir:

**ما أخرجه أحمد بإسناده عن زيد بن ثابت قال:**
**قال رسول الله ـ صلّى الله عليه وآله وسلّم ـ إني تارك فيكم خليفتين كتاب الله حبل ممدود ما بين السّماء والأرض، أو ما بين السماء الى الأرض، وعترتي أهل بيتي ، وإنهما لن يفترقا حتى يردا عليَّ الحوض .**

“Peyğəmbər *(s)* buyurmuşdur: *“Mən sizin aranızda iki xəlifə qoyub gedirəm: Onlardan biri Allahın Kitabıdır ki, Göylə Yer arasında uzadılmışdır. Digəri isə Əhli-Beytimdir. Onlar hovuzun kənarında mənə yetişənədək heç vaxt bir-birlərindən ayrılmazlar”*.[422]

---

[418] əz-Zəhəbi, Təzkirətul-hüffaz, c. III, səh. 1042-1043.

[419] Səhihi-Müslim, c. VII, səh. 120-121, “fəzailu-Əli *(ə)*” fəsli; Səhihi-Buxari, c. V, səh. 19, “mənaqibu Əli *(ə)*” fəsli və c. VI, səh. 3, “Təbuk qəzvəsi” fəsli; Əhməd bin Hənbəl, Müsnəd, c. I, səh. 174, 177, c. III, səh. 32 və c. VI, səh. 369.

[420] Əllamə Məclisi, Biharül-ənvar, c. 37, səh. 290, 340.

[421] Əhəmd bin Hənbəl, Müsnəd, c. I, səh. 84, 152, c. IV, səh. 281, 370 və c. V, səh. 366; Sünəni-Tirmizi, c. V, səh. 633.

[422] Müsnədi-Əhməd, c. XVI, səh. 28, hədis № 21470, Şeyx Albani, əl-Camiüs-səğir, c. I, səh. 482, hədis № 2457.

**أنت منّي بمنزلة هارون من موسى إلا أنّه لا نبي بعديو انت خليفتي في كل مؤمن من بعدي.**

Yenə də, Peyğəmbər *(s)* buyurub: *"Sənin mənə olan məqamın Harunun Musaya olan məqamı kimidir, lakin məndən sonra heç bir peyğəmbər olmayacaq. Sən məndən sonra hər bir möminin xəlifəsisən"*.[423]

İmam Əlinin *(ə)* imamətinə aid dəlillərdən biri də "Vilayət" ayəsidir. Allah-Təala həmin ayədə belə bəyan edir:

**"إنما وليكم الله ورسوله والذين آمنوا الذين يقيمون الصلاة ويؤتون الزكاة وهم راكعون"**

***"Sizin hamınız ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki,*** (Allaha) ***namaz qılır və rükuda olduqları halda zəkat verirlər"***.[424]

**عن أنس بن مالك وغيره أنّ سائلا أتى المسجد وهويقول : من يقرض المليّ الوفي ، وعلي راكع يشير بيده للسائل : اخلع الخاتم من يدي. فما خرج أحد من المسجد حتّى نزل جبرئيل بـ : (إنَّما وليّكم الله**
**ورسوله والذين آمنوا الذين يقيمون الصلاة ويؤتون الزكاة وهم راكعون) فأنشأ حسّان بن ثابت يقول :**

**أبا حسن تفديك نفسي ومهجتي — وكل بطيء في الهدى ومسارع**
**أيذهب مدحي والمحبين ضايعا — وما المدح في ذات الإله بضايع**
**فأنت الذي أعطيت إذ أنت راكع — فدتك نفوس القوم يا خير راكع ويا**
**بخاتمك الميمون يا خير سيّد — خير شارٍ ثمّ يا خير بايع**

Ayənin təfsirində bütün alimlər Malik bin Ənəsdən belə rəvayət edirlər: "Bir dilənçi məscidə gəlib dedi: "Ehtiyacı olan bu şəxsin ehtiyacını kim ödəyər". Bu zaman İmam Əli *(ə)* rüku halındaydı və əlini dilənçiyə işarə etdi. Dilənçi üzüyü onun barmağından çıxardı. O, məsciddən çıxmamış Cəbrail *(ə)* ***"Sizin hamınız ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki,*** (Allaha) ***namaz qılır və rükuda olduqları halda zəkat verirlər"*** ayəsini gətirdi. Bu münasibətlə Həssan bin Sabit də gözəl bir şeir dedi".[425]

Həmçinin, bu ayənin enişindən sonra Peyğəmbər *(s)* üzünü Əliyə *(ə)* tutub belə buyurdu:

**يا علي أنت ولي كل مؤمن من بعدي.**

*"Ya Əli, sən məndən sonra hər bir möminin ağasısan!"*[426]

---

[423] İbn Əbi Asim, Kitabüs-sünnə, ər-Riyad, 1419 h/q, c. II, səh. 799.

[424] "əl-Maidə", 55.

[425] Təfsiri-Təbəri, c. VI, səh. 186; əl-Cəssas, Əhkamül-Quran, c. II, səh. 446; Süyuti, əd-Dürrül-mənsur, c. II, səh. 293.

[426] Əhməd bin Hənbəl, Müsnəd, c. VI, səh. 66. Əhməd bunu Aişədən nəql edib. Müstədraki-Hakim, c. III, səh. 111.

Müslim "əs-Səhih" adlı əsərində belə nəql edir:

**حَدَّثَنَا عَلِيُّ بْنُ مُحَمَّدٍ، حَدَّثَنَا وَكِيعٌ، وَأَبُو مُعَاوِيَةَ وَعَبْدُ اللَّهِ بْنُ نُمَيْرٍ عَنِ الأَعْمَشِ، عَنْ عَدِيِّ بْنِ ثَابِتٍ، عَنْ زِرِّ بْنِ حُبَيْشٍ، عَنْ عَلِيٍّ، قَالَ عَهِدَ إِلَىَّ النَّبِيُّ الأُمِّيُّ ـ صلى الله عليه وسلم ـ أَنَّهُ لاَ يُحِبُّنِي إِلاَّ مُؤْمِنٌ وَلاَ يُبْغِضُنِي إِلاَّ مُنَافِقٌ.**

"Mənə Əli bin Məhəmməd nəql edib dedi ki, Vəki, Əbu Müaviyə və Abdullah bin Numeyr ona Əməşdən, o, Ədi bin Sabitdən, o, Zərr bin Hübeyşdən, o da Əlidən *(ə)* rəvayət edib dedi: *"Ümmi olan Peyğəmbər (İslam Peyğəmbəri (s) möminдən başqasının məni sevməyəcəyinə və münafiqdən başqasının mənə nifrət etməyəcəyinə dair məndən əhd aldı"*.[427]

Küleyni "əl-Kafi əsərində belə nəql edir:

**علي، عن محمد بن عيسى، عن يونس، عن محمد بن الفضيل قال: سألته عن أفضل ما يتقرب به العباد إلى الله عزوجل، قال: أفضل ما يتقرب به العباد إلى الله عزوجل طاعة الله وطاعة رسوله وطاعة اولي الامر، قال أبوجعفر (عليه السلام): حبنا إيمان وبغضنا كفر.**

"Əli bin İbrahim mənə Məhəmməd bin İsadan, o, Yunusdan, o, Məhəmməd bin Fuzeyldən nəql edib dedi: "İmam Əli Rzadan *(ə)* insanı ən çox Allaha yaxınlaşdıran ən üstün ibadətin nə olduğunu soruşdum. İmam *(ə)* buyurdu: *"İnsanı ən çox Allaha yaxınlaşdıran ən üstün ibadət Allaha, Rəsuluna və əmr sahiblərinə itaət etməkdir. Əbu Cəfər - İmam Məhəmməd Baqir - buyurub: "Bizi sevmək iman, bizə nifrət etmək isə küfrdür"*.[428]

Əhməd bin Hənbəl belə rəvayət edir:

**حدثنا عبد الله قثنا علي بن مسلم فحدثنا عبيد الله بن موسى قال أنا محمد بن علي السلمي عن عبد الله بن محمد بن عقيل عن جابر بن عبد الله قال ما كنا نعرف منافقينا معشر الأنصار إلا ببغضهم عليا.**

"Mənə Əli bin Müslim rəvayət edib dedi: "Mənə Übeydullah bin Musa rəvayət edib dedi: "Məhəmməd bin Əli əs-Süləmi mənə Abdullah bin Məhəmməd bin Əqildən, o da Cabir bin Abdullahdan nəql edib dedi: "Biz Ənsar camaatının münafiqlərini Əliyə *(ə)* olan nifrətlərindən başqa heç bir şeylə tanıya bilməzdik".[429]

---

[427] Səhih-Müslim, c. I, səh. 86, İman kitabı, hədis № 131, Hədisi Əhməd bin Hənbəl Müsnəd (c. I, səh. 84, hədis № 642) və "Fəzail əs-Səhabə (c. II, səh. 650, hədis № 1107), Tirmizi Sünən (c. VI, səh. 94, Mənaqib kitabı, hədis № 3736), İbn Macə Sünən (c. I, səh. 42, Müqəddimə kitabı, hədis № 114), Nəsai Xəsais (səh. 87-88, hədis № 95-97) əsərlərində də rəvayət etmişlər.

[428] Küleyni, əl-Kafi, c. I, səh. 110, hədis №12.

[429] Əhməd bin Hənbəl, Fəzail əs-Səhabə, c. II, səh. 639, hədis № 1086. Əhməd bin Hənbəlin bu əsərini təhqiq edən Vəsiyullah bin Məhəmməd Abbas hədis haqqında yazır: "إسناده حسن - "İsnadı həsəndir".

Yuxarıda da qeyd etdiyimiz kimi, belə bir araşdırma aparmaq istəyənlərin hansı qaynaqlara müraciət edə biləcəyi xülasə ilə burada göstərildi. Biz bu cür müzakirələrə girməkdənsə, lazımi araşdırmanı oxucunun öz üzərinə buraxır və bura qədər qeyd etdiyimiz hədislərin heç də sadə mövzular olmadığını bildiririk. Həmçinin, "Mövla" hədisindəki mövla ifadəsinin "tam dostluq və sevgi" deyil, eyni zamanda bu əxlaqi ifadədən daha çox geniş və siyasi bir məna da ehtiva edib "sahibi-ixtiyarlıq və imamlıq" mənasını əhatə etdiyini diqqətinizə çatdırırıq. Bundan əlavə, Peyğəmbər *(s)* Həzrət Əliyə *(ə)* olan sevgisini göstərmək naminə və o qədər müsəlmana sırf belə bir şeyi ifadə edə bilmək üçün (xüsusilə Qədir-Xum kimi yerdə və o dözülməz istinin altında) onları əsla zəhmətə salmayacağını xatırlatmaqla kifayətlənirik.[430] Bu, Təbərinin "Tarix"[431], İbn Əsirin isə "əl-Kamil" adlı əsərində ifadə etmiş olduğu kimi ***"Və ən yaxın qohumlarını qorxut""*** buyruğunun gəlməsi üzərinə Peyğəmbərin *(s)* təbliğinin daha ilk günlərində qohumlarını yığıb İslamı onlara izah etdiyi və *"indi aranızdan məni bu işdə dəstəkləyəcək kim çıxarsa, o mənim qardaşım, vəsim və aranızdan mənim xəlifəm olacaq!"* buyurduğunda Həzrət Əlidən *(ə)* başqa heç kimin *"Ya Peyğəmbər! Mən bu işdə sizin vəzir və köməkçiniz olaram!"* deyərək Rəsulullaha *(s)* müsbət cavab vermədiyi və bunun üzərinə Peyğəmbərin *(s)* Əlini *(ə)* göstərərək *"Şahid olun ki, bu gənc aranızda mənim xəlifəm, vəkilim, vəsim və qardaşımdır!"* buyurduğu hədisindəki həqiqətlə tamamilə eyni deyilmi?!

"Səhihi-Buxari" əsərində keçən çox maraqlı bir hadisədə də yenə eyni mövzunun vurğulandığını və Peyğəmbərin *(s)* xəstə yatağında mübarək ömrünün son saatlarına yaxınlaşarkən *"Mənə kağız və qələm gətirin, sizə bir şey yazım, məndən sonra ixtilafa düşüb sapmayasınız!"*[432] buyurduğu halda bəzilərinin Peyğəmbərin *(s)* bu əmrinə dərhal müxalifətçilik etmələri, hətta bəzilərinin o Həzrətə *(s)* qarşı çox çirkin ifadələr işlədərək belə bir mətnin yazılmasına maneə törətdiyini bilmirikmi?

Daha əvvəl də qeyd etdiyimiz kimi, məqsədimiz bu cür dəlillərə girişib lazımi dəlilləri ard-arda sıralamaq deyildir. Belə olan halda yenə də bir yığın dəlil və sənədlər bu mövzunu zənginləşdirilə bilər. Lakin biz yalnız qısa dəlillərlə İmamiyyə əqaidinin bəyanını qarşıya məqsəd qoyduğumuzdan bu bəhsi daha çox genişləndirmir və bu qədərinin kifayət edəcəyinə inanırıq.

[430] Geniş məlumat üçün bax: İbrahim Quliyev, Hədisi-şəriflərdə Müqəddəs şəhərlərin tarixi, Bakı, Nurlar, 2012.
[431] c. II, səh. 62, 64.
[432] Hədis haqqında bax: Səhihi-Buxari və Səhihi-Müslim əsərlərinə.

## *3.6. HƏR İMAMIN (Ə) ÖZÜNDƏN SONRAKI İMAMI (Ə) TƏYİN EDİB TANITMASI*

On İki İmamın *(ə)* hər biri özündən əvvəlki imam *(ə)* tərəfindən tanıdılmış və açıqlanmışdır. Gəlişləri ilə dünyanı zinətləndirən, haqq və həqiqət carçısı, sevimli İslam Peyğəmbəri Həzrət Muhəmmədin *(s)* övladları olan On İki İmamı *(ə)* mübarək adları və imamət sırası ilə aşağıda qeyd edirik:

**الأئمة بعد علي (ع) أحد عشر من ذريته الأول منهم ولده الحسن، ثم الحسين، ثم علي بن الحسين، ثم محمد بن علي، ثم جعفر بن محمد الصادق، ثم موسى بن جعفر، ثم علي بن موسى، ثم محمد بن علي، ثم علي بن محمد، ثم الحسن بن علي، ثم الخلف الحجة القائم المهدى الهادي بن الحسن صاحب الزمان، فكلهم أئمة الناس واحد بعد واحد، حقا، بدليل ان كل امام منهم نص على من بعده نصا متواترا بالخلافة، وقوله: (الحسين امام، ابن امام، أخو الامام، أبو الأئمة التسعة، تاسعهم قائمهم، يملأ الأرض قسطا وعدلا كما ملئت ظلما وجورا).**

1. İmam Əli bin Əbu Talib *(ə)*
2. İmam Həsən Müctəba *(ə)*
3. İmam Hüseyn bin Əli Seyidüş-Şühəda *(ə)*
4. İmam Əli bin Hüseyn *(ə)*
5. İmam Məhəmməd Baqir bin İmam Əli *(ə)*
6. İmam Cəfər Sadiq bin Məhəmməd *(ə)*
7. İmam Musa bin Cəfər *(ə)*
8. İmam Əli Rza bin Musa *(ə)*
9. İmam Məhəmməd Təqi bin İmam Əli *(ə)*
10. İmam Əli ən-Nəqi bin Məhəmməd *(ə)*
11. İmam Həsən Əsgəri bin İmam Əli *(ə)*.[433]

On ikinci və sonuncu, hələ də həyatda və bütün dünyaya ədaləti yayacaq olan İmam Məhəmməd Mehdi bin Həsəndir *(ə.f)*.

Zülm və pisliklə dolduğu kimi, bütün dünyanı ədalətlə dolduracaq olan İmam Mehdinin *(ə.f)* zühuru inancı (Allah zühurunu tezləşdirsin, inşaallah!) müəyyən bir qrupa deyil, bütün müsəlmanlara aid bir inancdır ki, bu barədə bütün məzhəb alimləri İmam Mehdi *(ə.f)* haqqındakı rəvayətlərin mütəvatir olduğunu isbat edən müstəqil kitablar yazmışlar. Hətta bir neçə il əvvəl "Rabitatül-aləmil-İslami"dən bu barədə soruşulan suala verilən cavabda İmam Mehdinin *(ə.f)* zühur edəcəyi barəsində heç şübhə olmadığı, bunun qəti və dəqiq mövzulardan olduğu bildirilmiş və bununla əlaqədar nəşr edilən bir kitabçada mötəbər ana qaynaqlardan iqtibasla Peyğəmbərə *(s)* çatan bir çox səhih sənəd və hədis yazılmışdır.

---

[433] Şeyx Tusi, əl-İqtisad, səh. 196-198.

Yeganə fərq İmam Mehdinin *(ə.f)* axır zamanda dünyaya gələcəyinə inanan bəzilərinə qarşı bizim o Həzrətin *(ə.f)* Allahın icazəsi və əmriylə On İkinci İmam *(ə.f)* olub hələ də həyatda olduğuna, Allah-Təala tərəfindən vəzifələndirildiyində zülm və pisliyin kökünü kəsib bütün dünyaya Allahın köməkliyi ilə ədalətli müstəqil bir dövləti qurmaq üçün qiyam edəcəyinə inanmaqdayıq.

### *3.7. ƏHLİ-BEYT (Ə) İMAMLARI (Ə) ELMLƏRİNİ PEYĞƏMBƏRDƏN (S) ALMIŞLAR*

Hidayətdən ayrılmamaq üçün Quran və Əhli-Beytə *(ə)* möhkəm sarılmağımız yolundakı mütəvatir hədisə və imamların *(ə)* məsumiyyətinə istinadən bu məsumların *(ə)* söz, əməl, davranış və təqrirləri (yanlarında edilən bir şey və ya deyilən bir sözə müdaxilə etməyərək onu yeri gəldikdə təsdiqləmələri) müsəlmanlar üçün sənəd və höccət vəziyyətindədir. Buna görə də Quran və Sünnədən sonra bir başqa fiqh qaynağımız Peyğəmbərin *(s)* pak Əhli-Beytindən *(ə)* olan imamların *(ə)* söz, hərəkət və təqrirləridir.

Eyni şəkildə, Əhli-Beyt *(ə)* imamlarının *(ə)* *"söylədikləri hər şeyin ataları vasitəsiylə babaları Peyğəmbərdən özlərinə çatmış olduğu"* hədisinə görə bu məsumların *(ə)* rəvayəti əslində Peyğəmbərin *(s)* rəvayətidir. Güvənilmiş və etibarlı birinin Peyğəmbərdən *(s)* rəvayət etdiyi hədis və rəvayətin bütün İslam alimləri tərəfindən səhih və mötəbər qəbul edildiyi də hər kəs tərəfindən bilinməkdədir.

İmam Məhəmməd Baqir *(ə)* Cabirə belə buyurmuşdur: *"Ey Cabir! Əgər biz öz həva və həvəsimizə görə* (arzu və ehtiraslarımıza söykənən, kefimiz istədiyi şəkildə) *hədis uydurub sizə rəvayət etməyə cəhd etsək, həlak olacağımızdan qorxarıq. Bizim sizə rəvayət etdiyimiz bütün hədislər şəxsən Peyğəmbərdən bizə çatıb, eynilə qiymətli bir xəzinə kimi sizlər üçün saxladığımız şeylərdir".*

İmam Cəfər Sadiqdən *(ə)* çatan bir başqa hədisdə də bu barədə nəql edilmişdir. Belə ki, birisi İmamdan *(ə)* bir sual soruşmuş və İmam *(ə)* da cavablandırmışdır. Lakin həmin şəxs İmamın *(ə)* fikrini dəyişdirmək üçün mübahisəyə və bəzi səbəblər qarşıya qoymağa başlayanda İmam *(ə)* buyurmuşdur: *"Bu sözləri bir kənara burax. Sənə hansı mövzuda bir cavab verdimsə bil ki, o, şəxsən Peyğəmbərin özündən çatmışdır".*

**İmamların *(ə)* hədisləri (xəbərləri)**

Peyğəmbərin *(s)* əmr etdiyi kimi, Əhli-Beytin *(ə)* hədislərinə əməl etmək fərzdir. Çünki, hər şeydən öncə mötəbər kitabların bir çoxunda olan və mütəvatir dərəcəsinə yetişən, bizim də burada "Səhihi-Tirmizi"dən nəql edəcəyimiz məşhur "Səqəleyn" hədisində Peyğəmbər *(s)* belə buyurmaqdadır: *"Ey insanlar! Aranızda iki bahalı əmanət qoyub gedirəm, bu ikisinə sarılarsanız əsla yoldan sapmazsınız: Allahın Kitabı və mənim soyum olan Əhli-Beytim!"*[434]

**İmamların *(ə)* məsumluğu**

Əqidəmizə görə, Əhli-Beyt *(ə)* tam olaraq məsumdur. Onlar heç bir irili-xırdalı günaha belə, meyl etməmişlər. Bunu həm Qurani-Kərimdən, həm də Peyğəmbərin *(s)* hədisi-şəriflərindən anlamaq mümkündür. Belə ki, Allah-Təala belə bəyan edir:

**يَا أَيُّهَا الَّذِينَ آمَنُواْ أَطِيعُواْ اللّهَ وَأَطِيعُواْ الرَّسُولَ وَأُولِي الأَمْرِ مِنكُمْ فَإِن تَنَازَعْتُمْ فِي شَيْءٍ فَرُدُّوهُ إِلَى اللّهِ وَالرَّسُولِ إِن كُنتُمْ تُؤْمِنُونَ بِاللّهِ وَالْيَوْمِ الآخِرِ ذَلِكَ خَيْرٌ وَأَحْسَنُ تَأْوِيلاً.**

***"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və Qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır".***[435]

Bu ayədə Allah insanları Özünə, Peyğəmbərə *(s)* və imamlara *(ə)* itaət etməyə dəvət edir. Belə olan halda imamlar *(ə)* məsum olmasalar onlara itaət etmək necə mümkün ola bilər?!

Peyğəmbərimiz *(s)* hədislərinin birində belə buyurmuşdur: *"Sizin aranızda iki bahalı əmanət qoyub gedirəm, Allahın Kitabı və Əhli-Beytim. Onlar Kövsər hovuzunun başında mənə yetişənədək bir-birlərindən ayrılmayacaqlar".*[436]

---

[434] Əlauddin Əli bin Bəlban İbn Hibban əl-Farsi, Səhihi-İbn Hibban, II nəşri, 1414/1993, c. V, səh. 662.

[435] "ən-Nisa", 59.

[436] Səhihi-Müslim, c. VII, səh. 369, fəzail fəsli.

IV FƏSİL

# İMAM ƏLİ (Ə) QURANİ-KƏRİMDƏ

## *4.1. İMAM ƏLİ (Ə) "ƏL-FATİHƏ" SURƏSİNDƏ*

"əl-Fatihə" Qurani-Kərimin ilk surəsidir. O, Məkkədə nazil olmuş bir surədir, onun iki dəfə - birinin Mədinə, digərinin isə Məkkə dövründə nazil olduğunu söyləyənlər də vardır. Birinci görüş daha doğrudur. Çünki, Allah-Təala **"**(Ya Rəsulum!) ***Biz sənə*** (hər namazda oxunub) ***təkrarlanan yeddi ayəni*** (Fatihə surəsini) ***və əzəmətli Quranı verdik"***[437] - deyə buyurmuşdur.

Ayətullah Fəqih İmani "Nurul-Quran" adlı məşhur əsərində "əl-Fatihə" surəsinin təfsirində yazır: "Bu surə Quran surələri arasında çox yüksək dərəcəyə malikdir. Bu da aşağıdakı məziyyətlərdən nəşət tapır:

**1. Surənin ahəngi**

"əl-Fatihə" surəsi ahəng baxımından Qurani-Kərimin digər surələri ilə aşkar fərqlərə malikdir. Çünki, digər surələr yalnız Allahın dilindən söylənilir. Bu surə isə Allahın tərəfindən bəndələrin diliycə söylənən kəlamlardır. Başqa sözlə desək, sözügedən surədə Allah-Təala Onunla danışmağı, raz-niyaz və minacat etməyi Öz bəndələrinə öyrədir. Belə ki, onlar çox sadə şəkildə, heç bir vasitə olmadan Allahla rabitə qura bilərlər.

**2. "əl-Fatihə" surəsi Quranın əsasıdır**

Peyğəmbərdən *(s)* nəql olunan hədisdə buyurulur: *"Canım əlində olan Allaha and olsun ki, Allah-Təala Tövratda, Zəburda və Quranda "Fatihətul-Kitab" kimi bir surəni nazil etməmişdir! O, Ümmül-Kitabdır* (Kitabın anasıdır)*".*[438] Yəni, bütün bu fəzilətlərin mənşəyi "əl-Fatihə" surəsidir. Həqiqətən də bu surə Allahın zati, sifəti, feli və ibadi tövhidini (yeganəliyini) bəyan edir, həmçinin məad məsələsini də çatdırır. Başqa sözlə, "əl-Fatihə" surəsi Quranın bütün mətləblərinin xülasəsidir. Necə ki, Həzrət Əli *(ə)* buyurmuşdur: *"Allah-Təalanın bütün sirləri asimani Kitabda, asimani Kitabda olanlar Quranda, Quranda olanlar "əl-Fatihə" surəsində, "əl-Fatihə" surəsində olanlar* ***"Bismillah"****da,* ***"Bismillah"****da olanlar* ***"bə"*** *hərfinin nöqtəsində xülasələnmişdir. Mən isə* ***"Bismillah"****dakı* ***"bə"*** *hərfinin nöqtəsiyəm".*

Rəvayətlərin məcmusundan məlum olur ki, bu hədis Quranın və ***"Bismillahir-rəhmanir-rəhim"***in əzəmətinə dəlalət edir. Çünki, bütün elmlər bu asimani Kitabda və ***"Bismillahir-rəhmanir-rəhim"***də yerləşmişdir. Bu elmlərin təfsir və bəyan edəni Həzrət Muhəmməd *(s)*, o Həzrətin *(s)* məsum canişinləri və Həzrət Əlidir *(ə)*. Həmçinin, bu kəlam onu da göstərir ki, ilahi Kitabın bütün mənalarını ehtiva edən Allah kəlamının həqiqəti və Quranın natiqi Həzrət Əlidir *(ə)*.

---

[437] "ər-Hicr", 87.

[438] Təbərisi, Məcməül-bəyan", c. I, səh. 17.

**3. "əl-Fatihə" surəsi Peyğəmbərin *(s)* böyük iftixarıdır**

"Həmd" surəsi Quranda böyük bir nemət kimi Peyğəmbərə *(s)* təqdim olunaraq Quranla bərabər qiymətləndirilir. Bu surənin yeddi ayəsi bütün Quranın xülasəsidir. Belə ki, mübarək surədə buyurulur: **وَلَقَدْ آتَيْنَاكَ سَبْعًا مِّنَ الْمَثَانِي وَالْقُرْآنَ الْعَظِيمَ**

**"**(Ya Rəsulum!) ***Biz sənə*** (hər namazda oxunub) ***təkrarlanan yeddi ayəni*** (Fatihə surəsini) ***və əzəmətli Quranı verdik".***[439]

Bu məzmunu Həzrət Əli *(ə)* Peyğəmbərdən *(s)* nəql edərək belə buyurmuşdur: *"Həqiqətən, Allah-Təala "əl-Fatihə" surəsini endirməklə mənə müstəsna bir nemət əta etmiş, onu Qurani-Kərimlə bərabər tutmuşdur. Həqiqətən, "Fatihətül-Kitab" ilahi Ərş xəzinələrinin ən şərəflisidir".*[440]

**4. "əl-Fatihə" surəsinin rəvayət və hədislərdə tilavət olunması**

Bu surə xüsusi əhəmiyyətə malik olduğu üçün islami rəvayət və hədislərdə tilavət olunması təkid olunmuşdur. "əl-Fatihə" surəsinin fəziləti barəsində Peyğəmbərdən *(s)* belə nəql olunmuşdur: *"Həmd"surəsini oxuyan müsəlmana verilən əcr və savab Quranın üçdə iki hissəsini oxuyan şəxsin, habelə bütün mömin kişi və qadınlara hədiyyə verən bir şəxsin savabı qədərdir".*[441]

**5. Təfsirlərdə "əl-Fatihə" surəsinə verilən adlar**

"əl-Fatihə" surəsi üçün təfsirlərdə on cür ad qeyd olunmuşdur ki, burada həmin adlarla yanaşı, onlardan bəzilərinin mənasını da veririk:

1. "Fatihətul-Kitab". Bu, "açılacaq bir şeyin və yaxud ilk açılan, oxunub-yazılacaq bir şeyin əvvəli" deməkdir. Quran-Kərimin tərtibində ilk surə "əl-Fatihə" olduğu üçün adıçəkilən surəyə bu ad verilmişdir.

2. "Ümmül-Kitab". Bu ad "Kitabın anası" mənasını verir. "əl-Fatihə" surəsinə bu adın verilməsi Quranın təməl prinsiplərini əhatə etməkdədir. Belə ki, mübarək surədə Uca Allah layiq olduğu sifətlərlə xatırlanmış, keçmişdəki azmış ümmətlərin vəziyyətinə qayıtmasınlar deyə, bəndələrin tək Ona qulluq etmələri və yalnız Ondan kömək diləmələrinin lazım olduğu zikr edilmişdir. Həmçinin, bu surədə ümumi prinsiplər zikr edilmiş və bunun üçün də bu surəyə "Ümmul-Kitab" adı verilmişdir.

3. "Ümmül-Quran". Surənin bu adı "Quranın anası" mənasında işlənmişdir. Necə ki, Peyğəmbər *(s)* buyurmuşdur: *"əl-Həmdülillah - Ümmül-Qurandır...".*

4. "əl-Əsas". "əl-Fatihə" surəsi Quranın təməl prinsiplərini əhatə etdiyi üçün ona "əl-Əsas" da deyilmişdir.

---

[439] "ər-Hicr", 87.

[440] Təfsiri-Burhan", c. I, səh. 26; Məsabihül-ənvar", c. I, səh. 435.

[441] Məcməül-bəyan, c. I, səh. 17.

5. "əs-Səlat". Bu, "Namaz surəsi" deməkdir və "əl-Fatihə" surəsinə verilən adlardan biridir. Çünki, "əl-Fatihə"siz namaz qəbul olunmaz. Necə ki, Peyğəmbər *(s)* buyurmuşdur: *"əl-Fatihə"ni oxumayan adamın namazı yoxdur"*. Bununla belə, hər bir vacib namazın ən azından hər bir rükətində bir dəfə "əl-Fatihə" surəsinin oxunması vacibdir.

6. "əş-Şafiyə. "əl-Fatihə" surəsi mənəvi xəstəliklərə şəfa mahiyyətində olduğu üçün ona bu ad verilmişdir.

7. "əl-Həmd" (əl-Həmdülillah-Həmdsurə). Surənin birinci sözü "əl-Həmd" olduğu üçün və ya surə Allaha həmd etdiyi üçün ona bu ad verilmişdir.

8. "Səbül-məsani".

9. "əl-Vafiyə".

10. "əl-Kafiyə".[442]

Bu adlardan hər biri öz növbəsində müəyyən hədis və rəvayətlərdən əxz edilmişdir.[443]

"əl-Fatihə" surəsinin fəziləti haqqında Peyğəmbərdən *(s)* çoxlu sayda hədis rəvayət edilməkdədir. Əbu Səid bin əl-Mualla deyir: "Məsciddə namaz qılırdım, Peyğəmbər *(s)* məni çağırdı. Namazda olduğum üçün cavab verə bilmədim. Namazı bitirdikdən sonra dedim: "Ya Rəsulullah *(s)*, namaz qılırdım!" Peyğəmbər *(s)* buyurdu: *"Allah **"Ey iman gətirənlər! Peyğəmbər sizi, sizləri dirildəcək bir şeyə*** (imana, haqqa) ***dəvət etdiyi zaman Allahın və Onun Peyğəmbərinin dəvətini qəbul edin..."***[444] *buyurmurmu?"* Sonra Rəsulullah *(s)* sözlərinə davam edərək belə buyurdu: *"Sən məsciddən çıxmadan əvvəl sənə elə bir surə öyrədəcəyəm ki, o, Quranın ən uca surəsidir"*. Daha sonra Peyğəmbər *(s)* əlimdən tutdu və məsciddən çıxmaq istədi. Mən də "Ya Rəsulullah *(s)*, siz mənə *"sənə elə bir surə öyrədəcəyəm ki, o, Quranın ən uca surəsidir"* buyurmadınızmı?!" - deyə soruşdum. Peyğəmbər *(s)* bu cavabı verdi: *"O surə **"əl-Həmdülillahi Rəbbil-aləmin"**dir. O, mənə verilən Səbül-məsani və Qurani-Əzimdir"*.[445]

Peyğəmbərdən *(s)* nəql olunan hədisdə buyurulur: *"Canım əlində olan Allaha and olsun ki, Allah-Təala Tövratda, Zəburda və Quranda "Fatihətül-Kitab" kimi bir surəni nazil etməmişdir! O, Ümmül-Kitabdır* (Kitabın anasıdır)*"*.[446]

Nəql olunur ki, Peyğəmbər *(s)* Cabir bin Abdullaha buyurur: *"Ey Cabir! Sənə, Allahın Kitabında olan ən ali surəni öyrədimmi?"* Cabir dedi: "Bəli,

---

[442] Ayətullah Kamal Fəqih İmani, Nurul-Quran fi təfsiril-Quran, c. I, Fatihə surəsinin təfsiri.

[443] Təfsiri Əbul Fütuh Razi, 1-ci cild.

[444] "əl-Ənfal", 24.

[445] Təfsiri-Təbəri, c. I, Fatihə surəsinin təfsiri.

[446] Təbərisi, Məcməül-bəyan, c. I, səh. 17.

atam-anam sənə fəda olsun!" O Həzrət *(s)* ona Kitabın anası olan "Həmd" surəsini öyrətdi, sonra isə buyurdu: *"Bu surə barədə sənə xəbər verimmi?"* Cabir dedi: "Bəli, atam-anam sənə fəda olsun!" Peyğəmbər *(s)* buyurdu: *"Bu surə ölümdən başqa, hər bir dərdin dərmanıdır"*.

İbn Abbas Peyğəmbərdən *(s)* nəql edir: *"Hər şeyin bir əsası vardır. Quranın əsası "əl-Fatihə" surəsidir. "əl-Fatihə"nin əsası isə* ***"Bismillahir-rəhmanir-rəhim"****dir"*.

Bir başqa yerdə o Həzrətdən *(s)* belə nəql olunur: *"Fatihətül-Kitab" ("Kitabı açan") hər dərdin şəfasıdır"*.

Həzrət Əlidən *(ə)* belə rəvayət olunur: *"Allahın Rəsulu buyurmuşdur: "Allah-Təala mənə buyurdu: "Ya Muhəmməd! Həqiqətən, sənə "əl-Fatihə" surəsi və əzəmətli Quran göndərdik". Bununla da Allah mənə "Fatihətül-Kitab"la xüsusi minnət qoymuş və onu Qurana bərabər qərar vermişdir"*. Həzrət Əli *(ə)* sonra buyurur: *"Həqiqətən, "Fatihətül-Kitab" Ərşin xəzinələrində ən şərəfli cövhərdir. Allah-Təala onu Muhəmmədə məxsus etdi və onunla o Həzrəti şərəfləndirdi"*.

Allah-Təala Süleyman peyğəmbərdən *(ə)* başqa heç bir peyğəmbəri "əl-Fatihə" surəsinə şərik etməmiş, Həzrət Süleymana *(ə)* bu surədən ***"Bismillahir-rəhmanir-rəhim"***i bəxş etmişdir. Necə ki, Bilqeysdən hekayə olunur: "Mənə çox hörmətli bir məktub gəlmişdir ki, o, Süleyman tərəfindəndir. Məktub ***"Rəhman və mehriban Allahın adı ilə"*** başlayır."[447]

İmam Sadiq *(ə)* buyurur: *"Əgər ölüyə 70 dəfə "Həmd" surəsini oxusalar və onun ruhu geri qayıtsa, bu, təəccüblü bir iş olmaz"*.

Peyğəmbərdən *(s)* nəql olunur: *"Kim "əl-Fatihə" surəsini qiraət etsə, ona Quranın 2/3-nin qiraətinin savabı verilər"*. Başqa bir rəvayətdə buyurulur: *"Bütün Quranın qiraətinə bərabərdir"*.

Hüzeyfə bin Yəmanidən rəvayət olunur ki, Peyğəmbər *(s)* belə buyurmuşdur: *"Allah-Təala bir xalqa bəla göndərər. Sonra o xalqın uşaqlarından biri Kitabda* ***"əl-Həmdülillahi Rəbbil-aləmin"****i oxuyar. Buna görə də Allah-Təala onların üzərindən qırx il əzabı götürər"*.

İbn Abbasdan nəql olunur: "Biz Peyğəmbərin *(s)* yanında idik ki, bir mələk gəlib dedi: *"Sənə müjdə verirəm, sənə bəxş edilən iki nur ilə ki, səndən qabaqkı peyğəmbərlərə verilməmişdir. O iki nur "əl-Fatihə" surəsi və "əl-Bəqərə" surəsinin axırlarıdır. Onun bir hərfini oxuyan kəsin hacətini verərəm"*.

Həzrət Əli *(ə)* buyurmuşdur: *"Fatihətül-Kitab" Məkkədə Ərşin altında bir xəzinədən nazil olmuşdur"*.

[447] Amali-Səduq, s.125

**"əl-Fatihə" surəsini nazil edən mələk**

Bəzi elm adamları Cəbrailin *(ə)* "əl-Fatihə" surəsini nazil etmədiyini iddia etmişlər. Buna səbəb isə Müslim tərəfindən İbn Abbasdan gələn rəvayətdir. Belə ki, Cəbrail *(ə)* Peyğəmbərin *(ə)* yanında olduğu zaman üst tərəfdən bir səs eşitdi, başını qaldırdı və belə buyurdu: *"Bu, bu ana qədər açılmamış və bu gün açılan səmadakı bir qapıdır"*. O qapıdan bir mələk endi, bunun haqqında da belə buyurdu: *"Bu, bu günə qədər nazil olmamış və ilk olaraq bu gün Yer üzünə nazil olan bir mələkdir"*. Bu mələk salam verib belə ərz etdi: *"Səndən əvvəl heç bir peyğəmbərə verilməmiş və sənə verilən iki nurun müjdəsini sənə gətirirəm. Bunlar, Fatihətül-Kitab ("əl-Fatihə" surəsi) ilə "əl-Bəqərə" surəsinin son ayələridir. Bu surələrdən oxuduğun zaman hər bir hərfin mütləq qarşılığı qədər savabı sənə veriləcəkdir"*.[448]

Xatırladaq ki, İbn Ətiyyə deyir: "Ancaq bu vəziyyət sözükeçən elm adamının zənn etdiyi kimi deyil. Bu hədis Cəbrailin *(ə)* Peyğəmbərə *(s)* sözükeçən mələkdən daha əvvəl gəlmiş olduğunu, o mələyin gəlişini və onunla birlikdə nazil olunacaq olanı xəbər vermək üzrə gəldiyini göstərməkdədir. Buna görə də Cəbrail *(ə)* bu surənin nazil olma səbəbində ortaq hərəkət etmiş olur".

Görkəmli təfsirçi Məhəmməd əl-Qurtubi (öl.1273) bu mələklə bağlı deyir: "Biz bu ayənin Məkkədə nazil olduğunu əvvəlcədən açıqlamışdıq. Cəbrail *(ə)* Uca Allahın buyruğu səbəbilə bu surəni gətirmişdir".[449]

Bu surə, əslində Allahın Öz Kitabını oxumaq istəyənlərə öyrətdiyi bir duadır və bu məqsədlə müqəddəs Kitabın ilk səhifəsinə yerləşdirilmiş "Ön söz"dür. Kim səmimi olaraq Qurandan faydalanmaq istəyirsə, Aləmlərin Rəbbinə yalnız bu şəkildə dua etməlidir. Bu "Ön söz" isə oxucunun ürəyində Aləmlərin Rəbbindən hidayət diləmə - hidayəti ancaq O, verə bilər - mövzusunda qüvvətli bir istək oyandırmağı məqsəd olaraq qarşıya qoyur. Belə olan halda "əl-Fatihə" surəsi İlahi elmi araşdırmaq və Aləmlərin Rəbbinin İlahi elmin tək qaynağı olduğu həqiqətini qəbul etməyi öyrətməkdədir. Buna görə də müsəlman bir şəxs Quranı araşdırmağa başlayarkən öncə Quranı bəxş edən Allahdan hidayət diləməlidir.

Mövzusu səbəbiylə "əl-Fatihə" ilə Quran arasındakı əlaqənin bir giriş və Kitab əlaqəsi deyil, bir dua və ona cavab xüsusiyyətində olan bir əlaqə olduğu ortaya çıxmaqdadır. "əl-Fatihə" bəndənin duası, Quran isə Məbudun bəndəyə verdiyi cavabdır. Bəndə Ona doğru yolu göstərməsi üçün Allaha yalvarır. Allah da duaya cavab olaraq bütün Quranı onun önünə qoymuş olur.

[448] Səhihi-Müslim, Salatül-müsafirin, səh. 248

[449] Təfsiri-Qurtubi, c. I, "Fatihə" surəsinin təfsiri.

"əl-Fatihə" surəsində üç yerdə İmam Əliyə *(ə)* işarə edilmişdir. Bunun birincisi ***"Bismillah"*** sözündədir. Belə ki, Hafiz Süleyman bin İbrahim əl-Qunduzi əl-Hənəfi (1805-1879) "Yənabiul-məvəddət" adlı kitabında rəvayət edir:

**روى الحافظ سليمان بن إبراهيم القندوزي (الحنفي) المتوفى (1294هـ) في كتابه ينابيع المودّة، قال:وفي الدّر المنظم (لابن طلحة الحلبي الشافعي):**
**(اعلم أنّ جميع أسرار الكتب السّماوية في القرآن، وجميع ما في القرآن في الفاتحة، وجميع ما في الفاتحة في البسملة، وجميع ما في البسملة في باء البسملة، وجميع ما في باء البسملة في النقطة التي هي تحت الباء).ثم قال: قال الإمام علي كرّم الله وجهه :(أنا النّقطة التي تحت الباء).**[450]

"İbn Təlhə əl-Hələbi əş-Şafei "əd-Durrul-mənzum" əsərində belə nəql etmişdir: "Bil ki, bütün səmavi kitabların sirri Qurani-Kərimdə, Qurani-Kərimdə olanlar "əl-Fatihə"də, "əl-Fatihə"də olanlar ***"Bismillah"***da, ***"Bismillah"***da olanlar ***"bə"*** hərfində və ***"bə"*** hərfində olanlar da onun altındakı nöqtədə toplanmışdır. Bu barədə İmam Əli *(ə)* belə buyurmuşdur: *"Mən **"bə"** hərfinin altındakı nöqtəyəm"*.

Qunduzu əl-Hənəfi hədisi nəql etdikdən sonra yazır:

**(أقول) لعلّ المقصود بذلك هو أنّ الباء بلا نقطة يكون حرفاً مهملاً لا دلالة له على شيء، فـ (بسم الله الرحمن الرحيم) بلا نقطة الباء لا تعني شيئاً، ولا تدلُّ على شيء، وهكذا منزلة علي بن أبي طالب بالنسبة للقرآن، فعلي هو القرآن الناطق**[451] **الذي بدونه لا يتمُّ الإيمان بالقرآن، وبجهاده استقام الإسلام ـ كما في الحديث النبوي الشريف ـ وبولايته أكمل الله الدين، وأتمَّ الله على عباده النعمة، ورضي بها لهم الإسلام ديناً، في قوله تعالى:((الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الإِسْلاَمَ دِيناً)).**[452]
**فالدين بدون ولاية علي بن أبي طالب ناقص.**
**والنعمة بدون ولاية علي بن أبي طالب نعمة ناقصة.**
**والإسلام بدون ولاية علي بن أبي طالب ليس إسلاماً.**

"Deyirəm, burada bəlkə də məqsəd budur ki, həqiqətən ***"bə"*** hərfinin nöqtəsi olmasa, o "möhməl-nöqtəsiz" hərfə çevriləcəkdir ki, bu da heç bir mənaya dəlalət etmir. Deməli, ***"Bismillah"*** sözü nöqtəsiz ***"bə"*** hərfi ilə yazılarsa, mənasız olar. İmam Əli bin Əbu Talibin *(ə)* məqamı da Qurani-Kərim üçün belədir. Həzrət Əli *(ə)* danışan Qurandır.[453] Belə ki, o, olmadan nə iman, nə də Quran kamil olmaz. İslamın duruşu onun cihadı ilə mümkün olmuşdur. Necə ki, Peyğəmbərə *(s)* aid hədisdə nəql olunmuşdur: *"Allah dini onun vilayəti ilə kamilləşdirmiş, nemətini də onun vasitəsilə tamama yetirmişdir və bu iki şeyin vasitəsilə İslam dinindən razı olmuşdur. Bunu Allah Özü belə bəyan edir:* **"...**

---

[450] ينابيع المودّة، ص 69.
[451] أورد القندوزي هذا قال: قال الإمام علي (رضي الله عنه): (أنا القرآن الناطق). ينابيع المودّة، ص 69.
[452] سورة المائدة، الآية 3.
[453] Bunu İmam *(ə)* özü belə bəyan etmişdir: *"Mən danışan Quranam"* (Yənabiul-məvəddət, səh. 69).

***Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi*** (Məkkənin fəthi, İslamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyət dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i.a.) ***tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim...”***.[454] Buradan aydın olur ki, Əli bin Əbu Talibin *(ə)* vilayəti olmadan din kamil olmaz! Əli bin Əbu Talibin *(ə)* vilayəti olmadan nemət tamama yetməz! Əli bin Əbu Talibin *(ə)* vilayəti olmadan İslam olmaz!”

Qunduzu əl-Hənəfinin bu sözlərindən belə başa düşülür ki, Qurani-Kərimdə qeyd olunmuş bütün ***“Bismillah”***larda Əli bin Əbu Talibin *(ə)* şəninə işarələr vardır. Bu ***“Bismillah”***ların sayı da hamının bildiyi kimi 114-dür.

**وأخرج الحافظ القندوزي هذا، عن الحكيم الترمذي محمد بن علي، في شرح الرسالة الموسومة بالفتح المبين، قال ابن عباس (رضي الله عنه): يشرح لنا علي (رضي الله عنه) نقطة الباء من بسم الله الرحمن الرحيم ليلةً، فانفلق عمودُ الصّبح وهو بعدُ لم يفرغ الخ.**[455]

Adıçəkilən müəllif İbn Abbasdan belə bir hədis nəql edir: “...Gecə vaxtı Əli *(ə)* mənə ***“Bismillahir-rəhmanir-rəhim”***dəki ***“bə”*** hərfinin şərhindən o qədər danışdı, bir də baxdıq ki, sübh açılmış, o isə söhbətini bitirməmişdir”.

“əl-Fatihə” surəsində İmam Əlinin *(ə)* haqqında nazil olmuş ikinci ayə **((اهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ))** ***“Bizi doğru*** (düz) ***yola yönəlt!”***[456] ayəsidir. Bu ayənin haqqında İbrahim bin Məhəmməd əl-Həməvini əş-Şafei (1247-1322) yazır: “Xeysəmə əl-Cufiyə istinadən rəvayət olunur ki, İmam Məhəmməd Baqir *(ə)* belə buyurmuşdur: **(نحن خيرة الله، ونحن الطريق الواضح، والصراط المستقيم إلى الله)** *“Biz Allahın seçilmişləriyik. Biz açıq-aşkar və Allaha tərəf gedən ən doğru yoluq”*.[457]

Sözügedən ayənin təfsirini yazan Əhməd bin Məhəmməd əs-Sələbi (?-1035) “Kəşfül-bəyan fi təfsiril-Quran” adlı məşhur əsərində belə rəvayət edir: [458] **قال مسلم بن حيّان: سمعت أبا بريدة يقول: صراط محمد وآله** - “Müslim bin Həyyan deyir: “Büreydədən eşitdim ki, deyirdi: “Siratəl-müstəqim Ali-Muhəmmədin *(ə)* yoludur”.

**وأخرج (وكيع بن الجراح) في تفسيره، بإسناده عن عبد الله بن عباس في قوله: ((اهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ)) قال: قولوا معاشر العباد أرشدنا إلى حبّ محمد وأهل بيته.**[459]

Həmçinin, Vəki bin Cərrah (744-812) öz “Təfsir”ində Abdullah bin Abbasa istinadən demişdir: “Ey bəndələr! “Bizi Muhəmməd *(s)* və onun Əhli-Beytinin *(ə)* sevgisi ilə doğru yola yönəlt” - deyin!”

---

[454] “əl-Maidə”, 3.

[455] ينابيع المودّة، ص 70.

[456] سورة الفاتحة، الآية 6.

[457] غاية المرام، ص 246.

[458] ومنهم الشافعي السّيوطي في (طبقات المفسّرين)، ص5.

[459] غاية المرام، ص 246.

**أخرج (الحافظ) الحاكم الحسكاني (الحنفي) في شواهد التنزيل، بإسناده عن عبد الرحمن بن زيد بن أسلم، عن أبيه في قول الله تعالى: ((صِراطَ الَّذِينَ أَنْعَمْتَ عَلَيْهِمْ)) قال: النبيُّ ومن معه، وعلي بن أبي طالب وشيعته.**[460]

Hakim əl-Həskani (öl.1090) isə ***"Nemət verdiyin kəslərin yoluna!..."*** ayəsi haqqında "Şəvahidut-tənzil" əsərində Əbdürrəhman bin Zeyd bin Əsləmə, ondan da atasına istinadən belə nəql edir: "Peyğəmbər *(s)* və onunla birlikdə olanlar, yəni Əli bin Əbu Talib *(ə)* və onun tərəfdarlarının yoluna".[461]

Bütün bu deyilənlər onu göstərir ki, qıldığımız gündəlik beş vaxt namazda, həmçinin hər vaxt oxuduğumuz "əl-Fatihə" surəsində dəfələrlə Allaha yalvarıb bizi Muhəmməd *(s)* və Ali-Muhəmmədin *(ə)* yoluna yönəltməsini dua edirik. Görəsən, Adəm övladı içində ikinci bir şəxs vardırmı ki, hər gün dua edib Allahdan bizi o şəxsin yoluna yönəltməsini istəyək?!

## *4.2. İMAM ƏLİ (Ə) "ƏL-BƏQƏRƏ" SURƏSİNDƏ*

"əl-Bəqərə" Qurani-Kərimin ikinci surəsidir və "inək" mənasını bildirir. Bəni-İsrailin inək əhvalatı bu surədə verildiyindən o, "Bəqərə" adlandırılmışdır. "əl-Bəqərə" Qurananın ən böyük surəsidir. Müqəddəs Kitabın otuz cüzdən, təqribən, iki cüz yarımını bu surə tutmuşdur. Surənin ayələri tədricən nazil olmuşdur. Bu surədə müxtəlif mövzulara toxunulmuşdur ki, onlardan bəzilərinə nəzər salacayıq. Həmin mövzular bunlardan ibarətdir: insanların mömin, kafir və münafiq olmaqla üç qrupa bölünməsi; insanın yaradılışı; həmin dövrdə İslamın və müsəlmanların ən böyük düşməni olmuş yəhudilərin tarixçəsi; yəhudilərin qeyri-sağlam və bəhanəcil ruhiyyəsindən danışan bəni-İsrailin inək əhvalatı; Kəbənin Həzrət İbrahim *(ə)* tərəfindən tikilməsi; Mədinədə İslam cəmiyyəti qurulduqdan sonra nazil olan və bəyan edilməsinin vaxtı çatmış bəzi hökmlər.

Surənin əvvəlində bildirilir ki, insanlar iman və əməl nöqteyi-nəzərindən üç qrupa bölünürlər: müttəqilər, kafirlər və münafiqlər. Sonra bu barədə Allah-Təalanın ilahi əmri gəlir: ***"Bu,*** (Allah tərəfindən nazil edilməsinə, haqdan gəlməsinə) ***heç bir şəkk-şübhə olmayan, müttəqilərə*** (Allahdan qorxanlara, pis əməllərdən çəkinənlərə) ***doğru yol göstərən Kitabdır"***.[462] Bu

---

460 شواهد التنزيل، ج1، ص 66. و(منهم) أبو الحسن علي بن يوسف بن إبراهيم الشيباني القفطي، في كتابه (أبناء الرّواة)، ج1، ص 119. و(منهم) ياقوت الحموي في (معجم الأدباء)، ج5، ص 35.

461 Hakim əl-Həskani əl-Hənəfi "Şəvahidüt-tənzil" əsərində Fatihə surəsinin təfsirində təqribən 105 hədis nəql edərək bu surədə İmam Əliyə *(ə)* aid hədisləri qeyd etmişdir.

462 "əl-Bəqərə", 2.

ayədən məlum olur ki, insanın təqvası, Allahdan çəkinməsi artdıqca Quran onu doğru yola daha çox yönəldə bilir.

Mübarək surədə müttəqilər belə tanıdılır: ***“O kəslərə ki, qeybə*** (Allaha, mələklərə, Qiyamətə, qəza və qədərə) ***inanır,*** (lazımınca) ***namaz qılır və onlara verdiyimiz ruzidən*** (ailələrinə, qohum-qonşularına və digər haqq sahiblərinə) ***sərf edirlər”***; ***“O kəslərə ki, sənə göndəriləNə*** (Qurana) ***və səndən əvvəl göndərilənlərə*** (Tövrat, İncil, Zəbur və s.) ***iman gətirir və Axirətə də şəksiz inanırlar”***; ***“Məhz onlar öz Rəbbi tərəfindən*** (göstərilmiş) ***doğru yoldadırlar. Nicat tapanlar*** (Axirət əzabından qurtarıb Cənnətə qovuşanlar) ***da onlardır”***.[463]

Növbəti ayələrdə kafirlər təqdim olunur: “(Ya Rəsulum!) ***Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da onlar üçün birdir, iman gətirməzlər”***; ***“Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir”***.[464]

Bu dəstədən olanların zahirən qəlbi, gözü, qulağı olsa da onlar doğru yolu tapmaqda bu vasitələrdən bəhrələnmirlər. Onlar fitri çağırışa, vicdanın səsinə cavab vermir, özlərini Allahın hidayət nemətindən məhrum edirlər. Deməli, onların qəlbi, gözü və qulağı fəaliyyətdən düşmüşdür. Beləcə, Quranın agahlıq verən, qəlbi işıqlandıran ayələrinin onlara təsiri yoxdur. Necə ki, kar, kor və qəlbi ölmüş insana danışılan söz, göstərilən dəlil səmərəsizdir.

Münafiqlərin əlamətləri sadalanan ayələr isə belədir: ***“İnsanlar içərisində elələri də var ki, iman gətirmədikləri halda: “Biz Allaha və Qiyamət gününə iman gətirdik” - deyirlər”***; ***“Onlar elə güman edirlər ki,*** (qəlblərində olan küfrü gizlətməklə) ***Allahı və möminləri aldadırlar. Bilmirlər ki, əslində ancaq özlərini aldadırlar”***; ***“Onların ürəyində mərəz*** (nifaq və həsəd mərəzi) ***var. Allah onların*** (şəkk, kin və nifaq) ***mərəzini daha da artırar. Yalan dedikləri üçün onlar şiddətli bir əzaba düçar olacaqlar!”***; ***“Onlara: “Yer üzündə*** (küfr və günah işlədərək, möminləri aldadaraq) ***fəsad törətməyin!” - dedikdə: “Bizim işimiz ancaq yaxşılıq etməkdir” - deyə cavab verirlər”***; ***“Bilin ki, onlar fəsad törədəndirlər, lakin*** (bunu) ***dərk etmirlər”***; ***“Onlara: “Başqaları*** (mühacir və ənsar***) iman gətirdikləri kimi siz də iman gətirin!”- deyildiyi zaman*** (öz aralarında)***: “Biz də səfehlər*** (ağılsızlar) ***kimi iman gətirək?” - deyə cavab verirlər.*** (Ey möminlər!) ***Agah olun ki, səfeh onların özləridir, lakin*** (bunu) ***bilmirlər”***; ***“Onlar möminlərlə qarşılaşdıqları zaman: “Biz də*** (sizin kimi) ***iman gətirdik” - deyirlər. Halbuki, öz şeytanları ilə*** (onları aldadan dostları ilə) ***təkbətək qalanda: “Biz də sizinləyik, biz ancaq*** (möminlərə) ***istehza edirik” - deyirlər”***; “(Belə əməllərin müqabilində)

[463] “əl-Bəqərə”, 3-5.
[464] “əl-Bəqərə”, 6-7.

***Allah da onlara*** (dünyada və Axirətdə) ***istehza edər və*** (dünyada) ***onlara o qədər möhlət verər ki, öz zəlalətləri içində şaşqın*** (və sərgərdan) ***qalarlar.*** (Və ya: Allah da onlara istehza edər və onları öz zəlalətləri, tüğyanları içində saxlayar)***"***; ***"Onlar doğru yolun əvəzində sapıqlığı*** (əyri yolu, hidayətin müqabilində zəlaləti) ***satın almış kəslərdir. Onların alveri xeyir gətirmədi və haqq yolu da tapmadılar"***; ***"Onların*** (münafiqlərin) ***halı*** (qaranlıq gecədə) ***od yandıran şəxsin halına bənzər. Od*** (yanıb) ***ətrafındakıları işıqlandırdığı zaman Allah onların işığını keçirər və özlərini zülmət içərisində qoyar,*** (artıq heç nə) ***görməzlər"***; ***"Onlar kar, lal və kordurlar*** (haqqı eşitməz, danışmaz və görməzlər)***. Buna görə də*** (öz pis adətlərindən, yaramaz əməllərindən) ***dönməzlər"***; ***"Yaxud*** (o münafiqlər) ***qaranlıqlarda göy gurultusu və şimşəklə səmadan şiddətlə yağan yağışa düşmüş kimsələrə bənzərlər ki, ildırımın səsindən ölmək qorxusu ilə barmaqlarını qulaqlarına tıxayarlar. Halbuki, Allah kafirləri*** (Öz elmi, qüdrəti ilə) ***ehtiva edəndir*** (Onun əlindən əsla qaçıb qurtara bilməzlər)***"***; ***"İldırımın çaxması az qalır ki, onların gözlərinin işığını alsın*** (onları kor etsin)***.*** (Şimşək) ***onlara işıq verdiyi zaman*** (onun şüası ilə) ***yeriyirlər, üzərilərinə qaranlıq çökdükdə isə*** (olduqları yerdə) ***dayanıb dururlar. Əgər Allah istəsəydi, onların qulaqlarını və gözlərini əllərindən alardı. Həqiqətən, Allah hər şeyə qadirdir"***.[465]

Bu ayələrdə hər qrupun xüsusiyyətinə nəzər salmaqla ətrafdakı insanları tanımaq olar. İnsan Allahın göstərişləri əsasında ətrafdakılarla münasibətini qura bilər.

"əl-Bəqərə" surəsində nəql olunan bəni-İsrailin inək əhvalatını isə belə xülasə etmək olar: Bəni-İsraildən olan birisi öz yaxınlarından bir nəfəri öldürdü, onun cəsədini həmin qövmün ən üstün bir qrupunun yolunun üstünə atdı, sonra isə həmin qrupdan öldürülənin qanını tələb etdi. Qrupdan olanlar Həzrət Musadan *(ə)* qatilin kim olduğu barədə soruşdular. Musa peyğəmbər *(ə)* buyurdu ki, onlar bir inək gətirsinlər və o da şəxsin kimliyini bildirsin. Bu zaman İsrail oğulları özlərinin məsxərəyə qoyulmasını zənn edərək Həzrət Musaya *(ə)* tənə etdilər. Peyğəmbər *(ə)* isə cahillərdən olmamaq üçün Allaha pənah apardığını söylədi. Əgər Bəni-İsrail bütün inəklər içərisindən birini gətirsəydi kifayət edərdi. Lakin onlar bu işi çətinləşdirdilər. Ard-arda həmin inəyin xüsusiyyəti haqqında soruşdular. Onlar sual verdikcə Allah da dairəni kiçiltdi. Onlar Musya *(ə)* Allahdan inəyin xüsusiyyətləri barədə soruşmasını söylədilər. Musa *(ə)* inəyin nə kiçik, nə də böyük olmaması barədə İlahi əmri onlara çatdırdı. Bu zaman İsrail oğulları inəyin rəngi barəsində soruşdular. Həzrət Musa *(ə)* cavab verdi:

[465] "əl-Bəqərə", 8-20.

***“...***(Allah) ***onun tünd sarı rəngli və görənlərə xoş gələn (bir inək) olduğunu buyurur”...”***.[466] Onlar bununla kifayətlənməyib yenə də Peyğəmbərdən *(ə)* inəyin xüsusiyyətləri barədə Allahdan soruşmasını istədilər: ***“Onlar*** (yenə) ***söylədilər: “Bizim üçün Rəbbinə dua et ki, onun əsl sifətini bizə bildirsin, çünki biz*** (ümumiyyətlə) ***inəkləri bir-birinə bənzədirik. Əgər Allah istəsə*** (biz kəsilməsi əmr edilən o inəyi tapar və bu məsələ barəsində) ***əlbəttə, düz yolda olarıq”***.[467] Həzrət Musa *(ə)* buyurdu: “(Musa) ***dedi: “***(Rəbbiniz) ***buyurur ki, o*** (heç kəsə) ***ram olmayıb boyunduruq götürməyən, tarla sürməyən, əkin suvarmayan, eyibsiz-qüsursuz və ləkəsiz*** (sapsarı) ***bir inəkdir”.*** (Bu zaman) ***onlar: “İndi işi həqiqətə gətirib çıxartdın” - dedilər və onu*** (inəyi tapıb) ***kəsdilər. Amma az qalmışdı ki, bu işi yerinə yetirməsinlər”***.[468] Bu soraqla axtarışa başlayan Bəni-İsrail yalnız bir inək tapdı ki, o da gənc birisinə məxsus idi. İnəyin qiymətini soruşduqda, həmin gənc inəyin dərisi tutumunda qızıl istədi. Onlar Musanın (ə) yanına gəlib əhvalatı danışdılar. Göstəriş verildi ki, inək alınsın. Çarəsiz qalıb inəyi həmin qiymətə aldılar və gətirdilər. Həzrət Musa (ə) göstəriş verdi ki, inəyi kəssinlər və quyruğunu ölüyə toxundursunlar. Göstərişə əməl edildi və ölü dirildi. Dirilən şəxs isə dedi ki, onu ittiham olunan şəxs yox, əmisi oğlu öldürüb.

Bəli, bu iş ölülərin bu cür dirilməsinə və onların əməllərinin Qiyamət günü açıqlanmasına inanmayanlara tutarlı bir xəbərdarlıqdır.

“əl-Bəqərə” surəsinin oxunması və qazanılacaq savabı haqqında hədislərdə çoxlu sayda məlumat vardır. Belə ki, Peyğəmbərimiz *(s)* belə buyurmuşdur:

**أن رسول الله صلى الله عليه وسلم قال: إن الشيطان يفر من البيت الذي تُقرأ فيه سورة البقرة.**

*“əl-Bəqərə” surəsi oxunan evdən Şeytan qaçar”.*

**عن النواس بن سمعان أن رسول اللهقال (يؤتى بالقرآن يوم القيامة وأهله الذين كانوا يعملون به . تقدمه سورة البقرة وآل عمران وضرب لهما رسول الله صلى الله عليه وسلم ثلاثة أمثال . ما نسيتهن بعد . قال كأنهما غمامتان أو ظلتان سوداوان . بينهما شرق . أو كأنهما حزقان من طير صواف . تحاجان عن صاحبهما.**

Nüvvas bin Səman nəql edir: “Peyğəmbər *(s)* buyurdu: *“Qiyamət günü Quran və onun əhli gətirilər. “əl-Bəqərə” və “Ali-İmran” surələri önə çıxarlar”*. Sonra Peyğəmbər *(s)* onların hər ikisinə təşbeh vurdu ki, *“Onu da heç vaxt unutmarıq”*. Rəsulullah *(s)* daha sonra buyurdu: *“Onların ikisi də* (“əl-Bəqərə” və “Ali-İmran”) *bulud kimi kölgə salarlar…”*.

[466] “əl-Bəqərə”, 69.
[467] “əl-Bəqərə”, 70.
[468] “əl-Bəqərə”, 71.

Həmçinin, Peyğəmbər *(s)* buyurmuşdur:

**لكل شيء سنام وإن سنام القرآن سورة البقرة، وفيها آية هي سيدة القرآن هي آية الكرسي .**

*"Hər bir şeyin uca nöqtəsi vardır. Quranın da ən uca nöqtəsi "əl-Bəqərə"dir. Onda bir ayə vardır ki, Quranın ağasıdır. O, "Ayət əl-kürsi"dir"*;

**قال رسول الله صلى الله عليه وسلم: من قرأ آية الكرسي دبر كل صلاة مكتوبة لم يمنعه من دخول الجنة إلا أن يموت .**

*"Hər kəs vacib namazın ardınca "Ayət əl-kürsi"ni oxusa, onun ölən kimi Cənnətə girməsinə heç bir şey mane ola bilməz"*.

Yenə də Peyğəmbər *(s)* buyurub:

**اقرءوا سورة البقرة فإن أخذها بركة وتركها حسرة ولا تستطيعها البطلة .**

*"əl-Bəqərə" surəsini oxuyun. Onu oxumaqla bərəkət əldə edər, tərk etməklə həsrət əldə edərsiniz..."*;

**البقرةُ سِنامُ القرآنِ وذُرْوَتُه ، ونزلَ مع كلِّ آيةٍ منها ثمانونَ مَلَكًا واستُخْرِجَتْ {اللهُ لا إِلَهَ إِلَّا هُوَ الْحَيُّ الْقَيُّومُ من تحتِ العرشِ فَوُصِلَتْ بها أو فَوُصِلَتْ بسورةِ البقرةِ ويس قلبُ القرآنِ لا يَقرؤُها رجلٌ يُريدُ اللهُ تباركَ وتعالى والدارَ الآخرةَ إلا غُفِرَ لهُ ، واقْرؤوها على مَوتاكمْ.**

*"əl-Bəqərə" Quranın ən uca nöqtəsi və zirvəsidir. Onun hər bir ayəsi səksən mələklə nazil olmuşdur. Allah* ***"Ondan başqa heç bir ilah yoxdur, O, Həyy və Qəyyumdur"*** *sözlərini Ərşin altından çıxarmış, "Yasin"i Quranın qəlbi qərar vermişdir. Onu oxuyan hər bir şəxsi Allah Axirətdə bağışlayar. Onu ölülərinizə oxuyun"*.

"əl-Bəqərə" surəsindəki "Ayət əl-kürsi" haqqında çoxlu sayda hədis nəql olunmuşdur. Onlardan bəziləri aşağıdakılardır:

"Peyğəmbər *(s)* Übey bin Kəbdən soruşdu: *"Allahın Kitabında* (məqam cəhətindən) *ən böyük ayə hansıdır?"* Übey ərz etdi: ***"Allahu la ilahə illa huvə"*** ayəsi. Peyğəmbər *(s)* əlini onun sinəsinə vurub buyurdu: *"Elmin sənə halal olsun! Muhəmmədin canı* (qüdrət) *əlində olan Allaha and olsun, bu ayənin iki dili və iki dodağı vardır ki, ilahi Ərşdə Allahı təqdis edib təsbih deməklə məşğuldur!"*

İmam Baqirdən *(ə)* nəql olunan bir hədisdə buyurulur: *"Hər kim "Ayət əl-kürsi"ni bir dəfə oxusa, Allah-Təala onun min dünya və min Axirət çətinliyini aradan qaldırar. Belə ki, dünyadakı xoşagəlməz işlərinin ən yüngülü yoxsulluq, Axirətdəkilərinin ən yüngülü isə qəbir əzabıdır"*.

*"Ayət əl-kürsi" ayələrin "Seyyidi"dir. Bir yerdə oxununca Şeytan orada qala bilməyib mütləq qaçar"*;

*"Ayət əl-kürsi" Qurani-Kərimin dörddə biridir"*;

*“Evində “əl-Fatihə” və “Ayət əl-kürsi” oxuyana o gün üçün Şeytan zərər verə bilməz, ona nəzər dəyməz”*;

*“Yatarkən “Ayət əl-kürsi” oxuyana Şeytan yaxınlaşa bilməz”*;

*“Kim hər gecə yatarkən “Ayət əl-kürsi”ni oxuyarsa, öz ailəsini, qonşularını, qonşularının qonşularını sabaha qədər gələn zərərdən qorumuş olar”*;

*“Hər fərz namazından sonra “Ayət əl-kürsi”ni oxuyanın Cənnətə girməsi üçün heç bir maneə yoxdur”*;

*“Evindən çıxarkən “Ayət əl-kürsi” oxuyana yetmiş mələk evinə dönənə qədər dua və istiğfar edər. Yola çıxınca da “Ayət əl-kürsi” oxumaq qəzanın, bəlanın qarşısını alar”*;

*“Ayət əl-kürsi”ni ixlas ilə oxuyanın fərz borclarından başqa, bütün günahları əfv olar. Yəni, tövbələri qəbul olar”*;

*“Həzrət Əli qəbir əzabından xilas olmaq üçün “Ayət əl-kürsi”ni çox oxumağı buyurur”*;

*“Namazdan sonra “Ayət əl-kürsi”ni oxuyana hər hərfi üçün 40 savab verilər”*;

*“Bir adam namazdan sonra dərhal bir dəfə “Ayət əl-kürsi”ni oxusa, o ayə Ərşi-əlaya qədər gedər və orada dayanmadan hərəkət edərək “Ya Rəbb, məni oxuyan bəndəni bağışla!” deyər. Haqq-Təala məkandan və cəhətdən münəzzəh olaraq “Ey mələklərim, şahid olun, namazdan sonra “Ayət əl-kürsi”ni oxuyan bəndəmin günahlarını bağışladım” buyurar”*;

*“Fərz namazı bitirdikdən sonra bir dəfə “Ayət əl-kürsi”ni oxuyub, 33 dəfə “Sübhanallah”, 33 dəfə “Əlhəmdülillah”, 34 dəfə “Allahu Əkbər”, bir dəfə də “La ilahə illallahü vahdəhü la şərikə ləh ləhülmülkü və ləhül həmdi və hüvə əla küllü şeyin qədir” deyənin günahlarını Allah bağışlayar”.*

Təfsir əhlinə görə “əl-Bəqərə” surəsində qırx iki ayə Əli bin Əbu Talibin *(ə)* haqqında nazil olmuşdur. Onlar 2, 3, 4, 5, 13, 14, 15, 25, 37, 43, 45, 46, 57, 58, 60, 82, 124, 142, 143, 153, 155, 156, 157, 166, 172, 177, 178, 183, 207, 208, 213, 253, 254, 256, 261, 265, 267, 269, 274, 277, 282 və 285-ci ayələrdir. Əlbəttə, buz onların hamısını vermək istərdik. Lakin oxucu üçün yorucu olmasın deyə, həmin ayələrdən bir neçəsini sıralayacaq, həmçinin bu ayələrin İmamın *(ə)* haqqında olmasına dair hədisləri də qeyd edəcəyik:

**1- ((هُدىً لِلْمُتَّقِينَ)) الآية /2.**

***“Bu,*** (Allah tərəfindən nazil edilməsinə, haqdan gəlməsinə) ***heç bir şəkk-şübhə olmayan, müttəqilərə*** (Allahdan qorxanlara, pis əməllərdən çəkinənlərə) ***doğru yol göstərən Kitabdır”***;[469]

---

[469] “əl-Bəqərə”, 2.

**2- ((وَأُولئِكَ هُمُ الْمُفْلِحُونَ)) الآية /3.**

***“O kəslərə ki, qeybə*** (Allaha, mələklərə, Qiyamətə, qəza və qədərə) ***inanır,*** (lazımınca) ***namaz qılır və onlara verdiyimiz ruzidən*** (ailələrinə, qohum-qonşularına və digər haqq sahiblərinə) ***sərf edirlər”***;[470]

**3- والَّذِينَ يُؤْمِنُونَ بِمَا أُنزِلَ إِلَيْكَ وَمَا أُنزِلَ مِن قَبْلِكَ وَبِالآخِرَةِ هُمْ يُوقِنُونَ /4.**

***“O kəslərə ki, sənə göndərilənə*** (Qurana) ***və səndən əvvəl göndərilənlərə*** (Tövrat, İncil, Zəbur və s.) ***iman gətirir və Axirətə də şəksiz inanırlar”***;[471]

**4- أُوْلَـئِكَ عَلَى هُدًى مِّن رَّبِّهِمْ وَأُوْلَـئِكَ هُمُ الْمُفْلِحُونَ /5 .**

***“Məhz onlar öz Rəbbi tərəfindən*** (göstərilmiş) ***doğru yoldadırlar. Nicat tapanlar*** (Axirət əzabından qurtarıb Cənnətə qovuşanlar) ***da onlardır”***;[472]

**5- ((وَإِذا قِيلَ لَهُمْ آمِنُوا كَما آمَنَ النّاس)) الآية /13.**

***“Onlara: “Başqaları*** (mühacir və ənsar) ***iman gətirdikləri kimi siz də iman gətirin!” - deyildiyi zaman*** (öz aralarında)***: “Biz də səfehlər*** (ağılsızlar) ***kimi iman gətirək?” - deyə cavab verirlər.*** (Ey möminlər!) ***Agah olun ki, səfeh onların özləridir, lakin*** (bunu) ***bilmirlər”***;[473]

**6- ((وَإِذا لَقُوا الَّذِينَ آمَنُوا قالُوا آمَنَّا وَإِذا خَلَوْا إِلى شَياطِينِهِمْ قالُوا إِنَّا مَعَكُمْ إِنَّما نَحْنُ مُسْتَهْزِئُونَ، اللهُ يَسْتَهْزِئُ بِهِمْ وَيَمُدُّهُمْ فِي طُغْيانِهِمْ يَعْمَهُونَ)) الآيتان /14-15.**

***“Onlar möminlərlə qarşılaşdıqları zaman: “Biz də*** (sizin kimi) ***iman gətirdik” - deyirlər. Halbuki, öz şeytanları ilə*** (onları aldadan dostları ilə) ***təkbətək qalanda: “Biz də sizinləyik, biz ancaq*** (möminlərə) ***istehza edirik” - deyirlər”***; ***“***(Belə əməllərin müqabilində) ***Allah da onlara*** (dünyada və Axirətdə) ***istehza edər və*** (dünyada) ***onlara o qədər möhlət verər ki, öz zəlalətləri içində şaşqın*** (və sərgərdan) ***qalarlar.*** (Və ya: Allah da onlara istehza edər və onları öz zəlalətləri, tüğyanları içində saxlayar)***”***;[474]

**7- ((وَبَشِّرِ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحاتِ أَنَّ لَهُمْ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الأَنْهارُ)) الآية /25.**

***“***(Ya Peyğəmbər!) ***İman gətirən və yaxşı işlər görən kimsələrə müjdə ver: onlar üçün*** (ağacları) ***altından çaylar axan cənnətlər*** (bağlar) ***vardır.*** (O cənnətlərin) ***meyvələrindən bir ruzi yedikləri zaman: “Bu bizim əvvəlcə*** (dünya evində) ***yediyimiz ruzidir” - deyəcəklər. Əslində isə bu*** (ruzi,

[470] “əl-Bəqərə”, 3.
[471] “əl-Bəqərə”, 4.
[472] “əl-Bəqərə”, 5.
[473] “əl-Bəqərə”, 13.
[474] əl-Bəqərə”, 14-15.

meyvələr) ***onlara*** (dünyadakılara zahirən) ***bənzər olaraq verilmişdir. Onlardan ötrü orada*** (hər cəhətdən) ***pak*** (olan) ***zövcələr də var. Onlar*** (möminlər) ***orada əbədi qalacaqlar”***;[475]

**8- ((فَتَلَقَّى آدَمُ مِنْ رَبِّهِ كَلِماتٍ فَتابَ عَلَيْهِ)) الآية /37.**

**“**(Nəhayət) ***Adəm Rəbbindən*** (bəzi xüsusi) ***kəlmələr öyrənərək*** (Həvva ilə birlikdə o kəlmələr vasitəsilə) ***tövbə etdi. Doğrudan da, O*** (Allah) ***tövbələri qəbul edəndir, mərhəmətlidir”***;[476]

**9- ((يا أَيُّهَا الَّذِينَ آمَنُوا اسْتَعِينُوا بِالصَّبْرِ وَالصَّلاةِ)) الآية /153.**

***“Ey iman gətirənlər! Səbir və dua ilə*** (namazla Allahdan) ***kömək diləyin. Çünki, Allah səbir edənlərlədir*** (onların dostudur)***”***;[477]

**10- ((وَآتَى الْمالَ عَلى حُبِّهِ ذَوِي الْقُرْبى)) الآية /177.**

***“Yaxşı əməl heç də*** (namaz vaxtı) ***üzünüzü günçıxana və günbatana tərəf çevirməkdən ibarət deyildir. Yaxşı əməl sahibi əslində Allaha, Axirət gününə, mələklərə, kitaba*** (Allahın nazil etdiyi bütün ilahi kitablara) ***və peyğəmbərlərə inanan,*** (Allaha) ***məhəbbəti yolunda*** (və ya mal-dövləti çox sevməsinə baxmayaraq) ***malını*** (kasıb) ***qohum-əqrəbaya, yetimlərə, yoxsullara,*** (pulu qurtarıb yolda qalan) ***müsafirə*** (səfər əsnasında pulu qurtarıb yolda qalan yolçulara)***, dilənçilərə və qulların azad olunmasına sərf edən, namaz qılıb zəkat verən kimsələr, eləcə də əhd edəndə əhdinə sadiq olanlar, dar ayaqda, çətinlikdə*** (ehtiyac, yaxud xəstəlik üz verdikdə) ***və cihad zamanı*** (məşəqqətlərə) ***səbir edənlərdir.*** (İmanlarında, sözlərində və əməllərində) ***doğru olanlar məhz onlardır. Müttəqilər də elə onlardır!”***;[478]

**11- ((تِلْكَ الرُّسُلُ فَضَّلْنا بَعْضَهُمْ عَلى بَعْضٍ)) الآية /253.**

**“**(Ya Rəsulum!) ***Bu peyğəmbərlərin bəzisini digərindən üstün etdik. Allah bunlardan bəzisi ilə danışmış, bəzisinin isə dərəcələrini yüksəltmişdir. Məryəm oğlu İsaya açıq möcüzələr verdik və onu müqəddəs ruhla*** (Cəbraillə) ***qüvvətləndirdik. Əgər Allah istəsəydi, bu peyğəmbərlərin ardınca gələn insanlar onlara göndərilən aşkar dəlillərdən sonra bir-biriləri ilə vuruşmazdılar. Fəqət*** (bununla belə yenə də) ***ixtilafa düşdülər. Onlardan bəziləri*** (Allaha) ***iman gətirdilər, bəziləri isə kafir oldular. Əgər Allah istəsə idi, onlar bir-biriləri ilə vuruşmazdılar. Lakin Allah Öz istədiyini edər!”***;[479]

---

[475] “əl-Bəqərə”, 25.
[476] “əl-Bəqərə”, 37.
[477] “əl-Bəqərə”, 153.
[478] “əl-Bəqərə”, 177.
[479] “əl-Bəqərə”, 253.

**12- ((وَمَثَلُ الَّذِينَ يُنْفِقُونَ أَمْوالَهُمُ ابْتِغاءَ مَرْضاةِ اللهِ)) الآية /265.**

***"Mallarını Allahın razılığını qazanmaq və nəfslərini*** (imanlarını) ***sabitqədəm etmək yolunda sərf edənlər uca təpənin üstündə olan bir bağa bənzərlər ki, ora düşən bol yağış onun meyvələrini ikiqat artırar. Əgər bol yağış yağmasa, az bir şəbnəm*** (şeh də ona kifayət edər)***. Həqiqətən, Allah nə etdiyinizi*** (bütün əməllərinizi) ***görəndir!"***;[480]

**13- ((الَّذِينَ يُنْفِقُونَ أَمْوالَهُمْ بِاللَّيْلِ وَالنَّهارِ سِرًّا وَعَلانِيَةً)) الآية /274.**

***"Mallarını gecə və gündüz, gizli və aşkar*** (yoxsullara) ***sərf edənlərin Rəbbi yanında böyük mükafatları vardır. Onların*** (Axirətdə) ***heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər"***;[481]

**14- ((إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحاتِ وَأَقامُوا الصَّلاةَ)) الآية /277.**

***"İman gətirən, xeyirli işlər görən, namaz qılan, zəkat verən şəxslərin Rəbbi yanında mükafatları vardır. Onların*** (Axirətdə) ***heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər!"***;[482]

**15- ((يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذا تَدايَنْتُمْ)) الآية /282.**

***"Ey iman gətirənlər! Müəyyən müddətə bir-birinə borc verib aldıqda, onu yazın! Bunu*** (bu sənədi) ***aranızda bir nəfər katib ədalətlə yazsın! Katib gərək Allahın öyrətdiyi kimi yazmaqdan boyun qaçırmasın, yazsın! Borclu olan şəxs borcunu söyləyərək*** (deyə-deyə) ***yazdırsın və Rəbbi olan Allahdan qorxaraq ondan*** (borcdan) ***bir şey əskiltməsin. Əgər borclu ağılsız və zəifdirsə*** (qoca və ya uşaqdırsa)***, yaxud söyləməyə qadir deyilsə, o zaman gərək onun*** (əvəzinə) ***vəkili ədalətlə deyib*** (borcu) ***yazdırsın. Öz adamlarınızdan iki kişini də şahid tutun! Əgər iki kişi olmazsa, razı olduğunuz bir kişi ilə iki qadının şəhadəti kifayətdir. Əgər*** (qadınlardan) ***biri*** (şəhadəti) ***unudarsa, o birisi onun yadına salsın. Şahidlər*** (bu işə) ***dəvət olunduqları zaman boyun qaçırmasınlar. Az və ya çox olmasına baxmayaraq, borcu öz vaxtına qədər*** (nə müddətə verilmiş olduğunu) ***yazmağa ərinməyin! Sizin bu işiniz Allah yanında daha ədalətli, şahidlik üçün daha düzgün və şübhəyə düşməməniz üçün haqqa daha yaxındır. Lakin aranızda həmişə dövr edən aşkar*** (nağd) ***ticarət zamanı onu yazmamağınız sizin üçün günah deyildir.*** (Hər halda) ***alış-veriş etdiyiniz vaxt şahid tutun! Ancaq katibə və şahidə zərər yetirilməsin. Əgər zərər yetirsəniz, əlbəttə,***

480 "əl-Bəqərə", 265.
481 "əl-Bəqərə", 274.
482 "əl-Bəqərə", 277.

***bu, sizin üçün pis işdir. Allahdan qorxun! Allah*** (ehtiyacınız olan şeyləri) ***sizə öyrədir. Allah bütün işləri biləndir!”***;[483]

**16- ((آمَنَ الرَّسُولُ بِما أُنْزِلَ إِلَيْهِ مِنْ رَبِّهِ وَالْمُؤْمِنُونَ)) الآية /285.**

***“Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə*** (Qurana) ***inanmış və möminlər də iman gətirmişlər.*** (Onların) ***hamısı Allaha, Onun mələklərinə, kitablarına və*** (bütün) ***peyğəmbərlərinə iman gətirərək dedilər: “Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq.*** (Allahın hökmlərini) ***eşitdik*** (anladıq) ***və itaət etdik. Ey Rəbbimiz, bizi bağışla,*** (axırda) ***Sənin dərgahına*** (hüzuruna) ***qayıdacağıq!”***[484]

**((هُدىً لِلْمُتَّقِينَ))**[485]

***“Müttəqilərə doğru yol göstərən”*** ayəsinin təfsirində Hakim əl-Həskani əl-Hənəfi Abdullah bin Abbasa istinad edərək yazır:

**أخرج (الحافظ) الحاكم الحسكاني (الحنفي) في (شواهد التنزيل) بإسناده عن عبد الله بن عباس، في قول الله عزّ وجلّ ((ذلِكَ الْكِتابُ لا رَيْبَ فِيهِ)) يعني: لا شك فيه أنّه من عند الله، نزل (هدى) يعني: بياناً ونوراً ((لِلْمُتَّقِينَ)) علي بن أبي طالب، الذي لم يشرك بالله طرفة عين، اتقّى الشرك وعبادة الأوثان وأخلص لله العبادة، يبعث إلى الجنّة بغير حساب هو وشيعته.**[486]

***“Bu,*** (Allah tərəfindən nazil edilməsinə, haqdan gəlməsinə) ***heç bir şəkk-şübhə olmayan,... bir Kitabdır”*** ayəsinin mənası “onun Allah tərəfindən gəlməsinə heç bir şəkk-şübhə yoxdur, bəyan və nurdur” deməkdir. ***“Müttəqilərə*** (Allahdan qorxanlara, pis əməllərdən çəkinənlərə)***”*** dedikdə isə Əli bin Əbu Talib *(ə)* nəzərdə tutulur. Çünki, o, bir an olsun belə, Allaha şərik qoşmamış, həmişə şirkdən, bütlərə pərəstiş etməkdən çəkinmiş və səmimiyyətlə Allaha ibadət etmişdir. O və tərəfdarları hesabsız Cənnətə göndəriləcəklər”.

**((وَممّا رَزَقْناهُمْ يُنْفِقُونَ))**[487]

**أخرج علاّمة الحنفية، المير محمد صالح الترمذي، المعروف بـ (الكشفي) في مناقبه قال: عن طراز المحدّثين الحافظ أحمد بن موسى بن مردويه قال في هذه الآية: إنّها نزلت في أمير المؤمنين علي (كرّم الله وجهه).**[488]

***“Onlara verdiyimiz ruzidən sərf edirlər”*** ayəsi haqqında Hənəfi məzhəbinin böyük alimlərindən olan Mirməhəmməd Saleh (əl-Kəşəfi adı ilə

---

[483] “əl-Bəqərə”, 282.
[484] “əl-Bəqərə”, 285.

[485] سورة البقرة، الآية 2.
[486] شواهد التنزيل، ج1، ص67.
[487] سورة البقرة، الآية 3.
[488] المناقب للمير الكشفي، أواخر الباب الأول.

məşhurdur) “əl-Mənaqib” əsərində yazır: “Bu ayənin haqqında İbn Mordəveyh demişdir: “Ayə Əli bin Əbu Talibin *(ə)* haqqında nazil olmuşdur”.

**((أُولئِكَ عَلى هُدىً مِنْ رَبِّهِمْ وَأُولئِكَ هُمُ الْمُفْلِحُونَ))**[489]
**أخرج (الحافظ) الحاكم الحسكاني (الحنفي) في (شواهد التنزيل) بإسناده عن علي بن أبي طالب قال: حدّثني سلمان الخير فقال: يا أبا الحسن قلّما أقبلتَ أنت وأنا عند رسول الله (صلى الله عليه وآله وسلّم) إلاّ قال: (يا سلمان هذا وحزبه هم المفلحون يوم القيامة).**[490]

***“Məhz onlar öz Rəbbi tərəfindən*** (göstərilmiş) ***doğru yoldadırlar. Nicat tapanlar*** (Axirət əzabından qurtarıb Cənnətə qovuşanlar) ***da onlardır”*** ayəsi haqqında Hakim əl-Həskani “Şəvahidut-tənzil” əsərində Əli bin Əbu Talibə *(ə)* istinadən yazır: *“Peyğəmbər buyurdu: “Ey Salman, bu və tərəfdarları nicat tapanlardır!”*

**((وَإِذا قِيلَ لَهُمْ آمِنُوا كَما آمَنَ النّاس))**[491]
**أخرج (الحافظ) الحاكم الحسكاني (الحنفي) في شواهد التنزيل بإسناده عن ابن عباس في قوله تعالى: ((آمِنُوا كَما آمَنَ النّاس)) قال: علي بن أبي طالب وجعفر الطيار، وحمزة، وسلمان، وأبو ذر، وعمار، والمقداد، وحذيفة بن اليمان، وغيرهم.(أقول) يعني: المقصود من كلمة (النّاس) هم هؤلاء.**[492]

***“Onlara: “Başqaları*** (mühacir və ənsar) ***iman gətirdikləri kimi siz də iman gətirin!” - deyildiyi zaman*** ayəsinin təfsirində Hakim əl-Həskani İbn Abbasa istinadən yazır: “Yəni Əli bin Əbu Talib *(ə)*, Cəfər Təyyar, Həmzə, Salman, Əbuzər, Əmmar, Miqdad, Hüzeyfə bin Yəman və digərləri kimi iman gətirin. Ayədəki ***“nas”*** kəlməsindən məqsəd məhz onlardır”.

**((وَإِذا لَقُوا الَّذِينَ آمَنُوا قالُوا آمَنَّا وَإِذا خَلَوْا إِلى شَياطِينِهِمْ قالُوا إِنَّا مَعَكُمْ إِنَّما نَحْنُ مُسْتَهْزِئُونَ، اللهُ يَسْتَهْزِئُ بِهِمْ وَيَمُدُّهُمْ فِي طُغْيانِهِمْ يَعْمَهُونَ))**[493]
**(الحافظ) الحاكم الحسكاني (الحنفي) في شواهد التنزيل، قال: أخبرنا أبو العباس العلوي (بإسناده) عن مقاتل، عن محمد بن الحنفية قال: (بينما أمير المؤمنين، علي بن أبي طالب قد أقبل من خارج المدينة، ومعه سلمان الفارسي، وعمّار، وصهيب، والمقداد، وأبو ذر، إذ بصر بهم عبد الله بن أُبَي بن سلول المنافق، ومعه أصحابه، فلما دنا أمير المؤمنين قال عبد الله بن أُبي: مرحباً بسيّد بني هاشم وصي رسول الله، وأخيه، وختنه، وأبي السبطين، الباذل له ماله ونفسه فقال (يعني علي): ويلك يا ابن أُبي أنت منافق، أشهدُ عليك بنفاقك. فقال ابن أُبي: وتقول مثل هذا لي؟ ووالله إنّي لمؤمن مثلك ومثل أصحابك. فقال علي: ثكلتك أُمّك ما أنت إلاّ منافق.**
**ثم أقبل إلى رسول الله (صلى الله عليه وآله وسلّم) فأخبره بما جرى، فأنزل الله تعالى: ((وَإِذا لَقُوا الَّذِينَ آمَنُوا)) يعني: وإذا لقي ابن سلول أمير المؤمنين المصدّق بالتنزيل ((قالُوا آمَنَّا)) يعني صدّقنا**

---

489 سورة البقرة، الآية 5.
490 شواهد التنزيل، ج1، ص 69.
491 سورة البقرة، الآية 13.
492 شواهد التنزيل، ج1، ص71.
493 سورة البقرة، الآيتان 14 و15.

**بمحمد والقرآن ((وَإِذا خَلَوْا إِلى شَياطِينِهِمْ)) من المنافقين ((قالُوا إِنَّا مَعَكُمْ)) في الكفر والشرك ((إِنَّما نَحْنُ مُسْتَهْزِئُونَ)) بعلي بن أبي طالب وأصحابه.يقول الله تعالى: ((اللهُ يَسْتَهْزِئُ بِهِمْ)) يعني يجازيهم في الآخرة جزاء استهزائهم بعلي وأصحابه (رضي الله عنهم).**[494]

***"Onlar möminlərlə qarşılaşdıqları zaman: "Biz də*** (sizin kimi) ***iman gətirdik" - deyirlər. Halbuki, öz şeytanları ilə*** (onları aldadan dostları ilə) ***təkbətək qalanda: "Biz də sizinləyik, biz ancaq*** (möminlərə) ***istehza edirik" - deyirlər"***; **"**(Belə əməllərin müqabilində) ***Allah da onlara*** (dünyada və Axirətdə) ***istehza edər və*** (dünyada) ***onlara o qədər möhlət verər ki, öz zəlalətləri içində şaşqın*** (və sərgərdan) ***qalarlar.*** (Və ya: Allah da onlara istehza edər və onları öz zəlalətləri, tüğyanları içində saxlayar)**"** ayələri haqqında Hakim əl-Həskani yazır: "Əbülabbas əl-Ələvi mənə xəbər verib dedi ki, Məqatil, o da Məhəmməd bin Hənəfiyyəyə istinadən dedi ki, Əli bin Əbu Talib *(ə)* Mədinənin kənarında idi. Onunla birlikdə Salman Farsi, Əmmar, Süheyb, Miqdad, Əbuzər vardı. Onları münafiq olan Abdullah bin Übey bin Səlul və dostları gördü. Əli *(ə)* onlara yaxınlaşdıqda İbn Səlul dedi: "Salam, ey Haşimilərin ağası, Rəsulullahın vəsisi, onun qardaşı, yeznəsi və iki nəvəsinin atası, özünü və malını ona sərf edən". Əli *(ə)* bunun cavabında buyurdu: *"Vay olsun sənə ey İbn Səlul, sən münafiqsən. Mən sənin nifaqına* (ikiüzlülüyünə*) şahidlik edirəm"*. İbn Səlul dedi: "Sən mənə belə deyirsən? Vallahi mən sənin və dostların kimi möminəm". Əli *(ə)* buyurdu: *"Anan yasına otursun! Sən münafiqsən"*. Sonra Peyğəmbərin *(s)* yanına gəlib olanları ona xəbər verdilər. Elə bu zaman Allah qeyd olunan ayəni nazil etdi: ***"Onlar möminlərlə qarşılaşdıqları zaman"*** dedikdə, yəni İbn Səlul ilə Əmirəl-möminin *(ə)* qarşılaşdıqda, ***"Biz də iman gətirdik"*** dedikdə, yəni Muhəmmədi *(s)* və Quranı təsdiq etdik, ***"öz şeytanları ilə təkbətək qalanda"***, yəni münafiqlərlə, ***"Biz də sizinləyik"*** dedikdə, yəni küfr və şirk içindəyik, ***"Biz ancaq istehza edirik"*** dedikdə, yəni Əli *(ə)* və dostlarına istehza edirik deməkdir. ***"Allah da onlara istehza edər"*** sözünün mənası budur ki, onlar dünyada Əli *(ə)* və tərəfdarlarına istehza etdiklərinə görə Allah da onlara Axirətdə cəza verəcəkdir".

Qeyd etmək lazımdır ki, sözügedən ayənin təfsirində Hənəfilərin fəqihi Müvəffəq Əhməd əl-Xarəzmi əl-Hənəfi (öl.1172) "əl-Mənaqib"[495] əsərində ayəyə beləcə təfsir vermiş və onun İmam Əlinin *(ə)* haqqında nazil olduğunu vurğulamışdır.

**قال ابن عباس: وذلك أنّه إذا كان يوم القيامة أمر الله الخلق بالجواز على الصراط، فيجوز المؤمنون إلى الجنّة، ويسقط المنافقون في جهنم. فيقول الله: يا مالك استهزئ بالمنافقين في جهنم، فيفتح**

---

494 شواهد التنزيل، ج1، ص 72.

495 المناقب للخوارزمي، ص196.

**مالك باباً من جهنم إلى الجنّة، ويناديهم معاشر المنافقين هاهنا هاهنا فاصعدوا من جهنم إلى الجنّة، فيسبح المنافقون في بحار جهنم سبعين خريفاً، حتى إذا بلغوا إلى ذلك الباب وهموا الخروج أغلقه دونهم، وفتح لهم باباً إلى الجنّة من موضع آخر، فيناديهم من هذا الباب فاخرجوا إلى الجنّة، فيسبحون مثل الأول، فإذا وصلوا إليها أغلق دونهم، ويفتح من موضع آخر، وهكذا أبد الآبدين.**[496]

İbn Abbas belə rəvayət edir: “Qiyamət günü baş verdikdə Allah yaranmışlara əmr edər ki, Siratın üzərindəki keçiddən keçsinlər. Möminlər keçib Cənnətə gedər, münafiqlər isə Cəhənnəmə düşərlər. Allah-Təala buyurar: *“Ey Malik, Cəhənnəmdə münafiqlərə istehza et!”* Malik Cəhənnəmin qapısını Cənnətə tərəf açar və münafiqlərə deyər: “Bura gəlin, bura gəlin”. Onlar Cəhənnəmdən Cənnətə tərəf qalxarlar, Cəhənnəm dənizində üzərək Cənnətə tərəf açılmış qapıya çatarlar və çıxmaq istədikdə qapı onların üzünə bağlanar. Sonra başqa bir yerdən qapı açılar və o qapıya tərəf çağırılarlar. Onlar Cənnətə girmək üçün həmin qapıya tərəf gedər, amma əvvəlki kimi qapı onların üzünə bağlanar. Beləliklə, bu əbədi olaraq beləcə davam edər”.

**((وَبَشِّرِ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحاتِ أَنَّ لَهُمْ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الأَنْهارُ كُلَّما رُزِقُوا مِنْها مِنْ ثَمَرَةٍ رِزْقاً قالُوا هذَا الَّذِي رُزِقْنا مِنْ قَبْلُ وَأُتُوا بِهِ مُتَشابِهاً وَلَهُمْ فِيها أَزْواجٌ مُطَهَّرَةٌ وَهُمْ فِيها خالِدُونَ)).**[497]

**“**(Ya Peyğəmbər!) ***İman gətirən və yaxşı işlər görən kimsələrə müjdə ver: onlar üçün*** (ağacları) ***altından çaylar axan cənnətlər*** (bağlar) ***vardır...”***.

**روى العلاّمة البحراني في كتابه (غاية المرام) عن (الجبري) من أعيان العلماء عن ابن عباس قال:(فيما نزل في القرآن من خاصة رسول الله (صلى الله عليه وآله وسلّم) وعلي وأهل بيته دون النّاس من سورة البقرة ((وَبَشِّرِ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحاتِ)) الآية نزلت في علي وحمزة وجعفر وعبيدة بن الحرث بن عبد المطلب).**[498]

Əllamə Bəhrani (öl.1695) “Qayətul-məram” adlı əsərində böyük alimlərin İbn Abbasdan belə bir hədis nəql etdiklərini yazır: “Qurani-Kərimdə Peyğəmbərin *(s)*, Əlinin *(ə)* və onun Əhli-Beytinin *(ə)* xüsusiyyəti haqqında digər insanlardan fərqli olaraq ayələr nazil olmuşdur. “əl-Bəqərə” surəsindəki **“**(Ya Peyğəmbər!) ***İman gətirən və yaxşı işlər görən kimsələrə müjdə ver: onlar üçün*** (ağacları) ***altından çaylar axan cənnətlər*** (bağlar) ***vardır...”*** ayəsi Əlinin *(ə)*, Həmzənin, Cəfərin və Übeydə bin Harəs bin Əbdül-Müttəlibin haqqında nazil olmuşdur”.

**((فَتَلَقَّى آدَمُ مِنْ رَبِّهِ كَلِماتٍ فَتابَ عَلَيْهِ إِنَّهُ هُوَ التَّوَّابُ الرَّحِيمُ)).**[499]

---

[496] العلاّمة البحراني، غاية المرام، ص423.
[497] سورة البقرة، الآية 25.
[498] غاية المرام، ص 442.
[499] سورة البقرة، الآية 37.

**“**(Nəhayət) ***Adəm Rəbbindən*** (bəzi xüsusi) ***kəlmələr öyrənərək*** (Həvva ilə birlikdə o kəlmələr vasitəsilə) ***tövbə etdi. Doğrudan da, O*** (Allah) ***tövbələri qəbul edəndir, mərhəmətlidir”***.

**روى العلاّمة الحافظ ابن المغازلي (الشافعي) في مناقبه، (بإسناده المذكور) عن سعيد بن جبير، عن عبد الله بن عباس قال:سئل النبي (صلى الله عليه وآله وسلّم) عن الكلمات التي تلّقاها آدم من ربِّه فتاب عليه؟قال (صلى الله عليه وآله وسلّم):(سأله بحقِّ محمد وعلي وفاطمة والحسن والحسين إلاّ ما تبت عليّ فتاب عليه).**[500]

Əllamə Hafiz İbn Məğazili əş-Şafei “Mənaqib” adlı əsərində Səid bin Cübeyrin İbn Abbasdan belə nəql etdiyini yazır: “Peyğəmbərdən *(s)* ***“Adəm Rəbbindən kəlmələr öyrənərək tövbə etdi”*** ayəsi haqqında soruşuldu. O Həzrət *(s)* buyurdu: *“Adəm, Muhəmmədin, Əlinin, Fatimənin, Həsən və Hüseynin haqqına and verdi və tövbəsi qəbul olundu”*.

Xatırladaq ki, Şafei məzhəbinin böyük alimi Əllamə Süyuti (1445-1505) “əd-Dürrül-mənsur”[501] əsərində buna oxşar hədis nəql etmişdir:

**وروى العلاّمة البحراني (قدّس سره) أيضاً عن القاضي أبي عمر وعثمان بن أحمد ـ وهو من أعيان العلماء ـ يرفعه إلى ابن عباس عن النبي (صلى الله عليه وآله وسلّم) قال:(لما شملت آدم الخطيئة نظر إلى أشباح تضيء حول العرش (فقال) يا ربِّ إنّي أرى أشباحاً تشبه خلقي فما هي؟ قال: هذه الأنوار أشباح اثنين من ولدك اسم أحدهما (محمد). أبدأ النبوّة بك، وأختمها به، والآخر أخوه وابن أخي أبيه اسمه (علي) أؤيد محمداً به وأنصره على يده، والأنوار التي حولها أنوار ذرية هذا النبي من أخيه هذا، يزوّجه ابنته، تكون له زوجة، يتصل بها أول الخلق إيماناً به وتصديقاً له، أجعلها سيدة النسوان، وأفطمها وذريتها من النيران، تنقطع الأسباب والأنساب يوم القيامة إلاّ سببه ونسبه (فسجد) آدم شكراً لله أنْ جعل ذلك في ذريته، فعوّضه الله عن ذلك السجود أنْ أسجد له ملائكته.**[502]

Həmçinin, Əllamə Bəhrani, Qazı Əbu Ömər və Osman bin Əhməd vasitəsilə İbn Abbasın Peyğəmbərdən *(s)* belə nəql etdiyini deyir: *“Adəm xətaya mübtəla olduqda Ərşin ətrafında nur saçan varlıqlar gördü. Bunları görən Adəm dedi: “Ey Rəbbim, mənim yaranışıma oxşayan bu varlıqlar kimdir?!” Allah buyurdu: “Bu nurların ikisi sənin övladlarındandır ki, onun birinin adı Muhəmməddir və peyğəmbərlik səninlə başlayıb onunla bitəcək. Digəri onun qardaşı olan Əlidir ki, onunla Muhəmmədi qüvvətləndirəcəm və onun əli ilə ona kömək olacam. Gördüyün o biri nurlar da bu Peyğəmbərin qardaşı Əlinin zürriyyətidir. Peyğəmbərin qızını onunla evləndirəcəm. Onun qadınların rəhbəri edər, onu və zürriyyətini Cəhənnəmdən qoruyaram. Qiyamət günü nəsəblər kəsilsə də onun nəsəbi kəsilməz”. Bunları*

---

[500] مناقب علي بن أبي طالب، ص 63.

[501] الدّر المنثور، ج1، ص 60.

[502] غاية المرام، ص 393.

*eşidən Adəm səcdəyə qapandı və zürriyyətinə görə şükürlər etdi. Allah bu səcdənin əvəzi olaraq mələklərin ona səcdə etməsini əmr etdi"*.

***"Ey iman gətirənlər! Səbir və dua ilə*** *(namazla Allahdan)* ***kömək diləyin. Çünki Allah səbir edənlərlədir*** (onların dostudur)***"***.

Hafiz Cəmaləddin Məhəmməd bin Yusuf sənədli şəkildə Peyğəmbərdən *(s)* belə nəql edir: "Quranda elə bir ***"Ey iman gətirənlər!"*** ayəsi yoxdur ki, orada Əli bin Əbu Talibə *(ə)* işarə olmasın. Əli *(ə)* onların başı və əmiridir".

**حدثنا: عبد الله بن وهيب الغزي، ثنا: محمد بن أبي السري العسقلاني، ثنا: عبد الرزاق، ثنا: عبد الوهاب بن مجاهد، عن أبيه، عن إبن عباس، في قول الله عز وجل: الذين ينفقون أموالهم بالليل والنهار سراً وعلانية، قال: نزلت في علي بن أبي طالب كانت عنده أربعة دراهم، فأنفق بالليل واحداً، وبالنهار واحداً، وفي السر واحداً، وفي العلانية واحداً.**

Təbərani (873-970) və bir çox Quran təfsirçiləri öz təfsir əsərlərində ***"Mallarını gecə və gündüz, gizli və aşkar*** (yoxsullara) ***sədəqə verənlərin Rəbbi yanında böyük mükafatları vardır. Onların*** (Axirətdə) ***heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər"***[503] ayəsinin təfsirində yazırlar: "Bu ayə Əli bin Əbi Talib *(ə)* haqqında nazil olmuşdur. Onun dörd dirhəm pulu vardı: bir dirhəmini gecə, bir dirhəmini gündüz, bir dirhəmini aşkar, bir dirhəmini isə gizli sədəqə vermişdir".[504]

Təfsir əhli "əl-Bəqərə" surəsinin 274-cü ayəsinin məhz İmam Əlinin *(ə)* şəninə nazil olduğunu yazır. Belə ki, Hakim əl-Həskani əl-Hənəfi "Yənabiul-məvəddət" əsərində təqribən on sənədli hədisi bu mövzu haqqında nəql etmişdir. Həmin hədislərin birində deyilir:

**أخبرنا أبو نصر محمد بن عبد الواحد بن أحمد قال أخبرنا أبو سعيد محمد بن الفضل المذكر إملاء قال أخبرنا محمد بن جعفر القاضي قال حدثنا أبو إبراهيم بن أبي صالح، عن يوسف بن بلال، عن محمد بن مروان، عن محمد بن السائب عن أبي صالحعن ابن عباس في قوله عز و جل الَّذِينَ يُنْفِقُونَ أَمْوالَهُمْ بِاللَّيْلِ وَ النَّهارِ سِرًّا وَ عَلانِيَةً قال :نزلت في علي بن أبي طالب لم يكن عنده غير أربعة دراهم فتصدق بدرهم ليلا، و بدرهم نهارا، و بدرهم سرا و بدرهم علانية، فقال له رسول الله ما حملك على هذا قال حملني عليها رجاء أن أستوجب على الله الذي وعدني. فقال رسول الله ألا إن ذلك لك. فأنزل الله الآية في ذلك .**

"..İbn Abbas ***"Mallarını gecə və gündüz, gizli və aşkar*** (yoxsullara) ***sədəqə verənlər..."*** ayəsi haqqında dedi: "Bu ayə Əli bin Əbu Talibin *(ə)* haqqında nazil olmuşdur. Onun cəmi dörd dirhəm pulu vardı: bir dirhəmini axşam, birini günorta, birini gizli, birini isə açıq-aşkar sədəqə vermişdi. Peyğəmbər *(s)* bunun səbəbini soruşduqda, Əli *(ə)* *"Rəbbimin mənə verdiyi vədəyə cavab olaraq etdim"* - deyə buyurdu".

[503] "əl-Bəqərə", 274.

[504] الطبراني - المعجم الكبي 11003.

روى العلامة الخزاز القمي الرازي رحمه الله باسناده عن المفضل بن عمر، عن الصادق جعفر بن محمد، عن أبيه محمد بن علي، عن أبيه علي بن الحسين، عن ابيه الحسين بن علي، عن أبيه أمير المؤمنين (عليهم السلام) قال: قال رسول الله (صلى الله عليه وآله) :

لما أُسري بي الى السماء أوحى اِلي ربي جَلَّ جلاله فقال: يا محمد أني أطّلعتُ الى الأرض أطّلاعة فاخترتك منها وجَعَلتُكَ نبيّاً وشَقَقْتُ لك من اسمي اسماً فأنا المحمود وأنت محمد، ثم أطلعَتُ الثانية فاختَرتُ منها عليّاً وجعلته وصيّك وخليفتك وزوج ابنتك وأبا ذريّتك وشَقَقْتُ له اسماً من أسمائي فأنا العلي الأعلى وهو علي، وجَعَلتُ فاطمة والحسن والحسين من نوركما، ثم عَرَضْتُ ولايتهم على الملائكة فمَن قَبِلَها كان عندي من المقربين.

يا محمد، لو ان عبداً عَبَدني حتى ينقطع ويصير كالشنّ البالي ثم أتاني جاحداً لولايتهم ما أسكنته جَنتي ولا أظللته تحت عرشي، يا محمد أتحب أن تراهم ؟

قلت : نعم يا رَبّ .

فقال عَزّوجَلّ: ارفع رأسك، فرفَعتُ رأسي فاِذا بأنوار علي وفاطمة والحسن والحسين وعلي بن الحسين ومحمد بن علي وجعفر بن محمد وموسى بن جعفر وعلي بن موسى ومحمد بن علي وعلي بن محمد والحسن بن علي ومحمد بن الحسن القائم في وسطهم كأنه كوكبٌ دُرّي .

فقلت: يا رب من هؤلاء ؟ قال: هؤلاء الأئمة، وهذا القائم الذي يُحلّ حَلالي ويُحرّم حرامي، وبه أنتَقِمُ من أعدائي، وهو راحة لأَوليائي، وهو الذي يشفي قلوب شيعتك من الظالمين والكافرين.

حكي ان الأشعث بن قيس وجويرة الجبلي قالا يوماً لعلي (عليه السلام) يا أمير المؤمنين حَدّثنا عن بعض خلواتك مع فاطمة (عليها السلام).

فقال: نعم ، بينا أنا وفاطمة في كساء واحد نائمان اذ أقبل رسول الله (صلى الله عليه وآله)الينا نصف الليل، وكان (عليه السلام) يَأتيها بالتمر واللَبن ليُعينها على تربية الحسن والحسين(عليهما السلام) فدَخَل عَلَينا ونحن نيام فوضع رجلا بحيالي ورجلا بحيالها ، فلما رأت فاطمة أباها واقفاً هَمّت ان تجلس فلم تستطع فبكت ، فقال لها النبي (صلى الله عليه وآله): وما يُبكيكِ يا بنت محمد المصطفى ؟ فقالت: أما ترى حالنا ونحنُ في كساء واحد نصفه تحَتنا ونصفه فوقنا !

فقال لها: يا بنية أما تعلمين ان الله اطلع اطلاعة من سَمآئه الى أرضِه فاختار منها بعلكِ علي بن أبي طالب، وأمَرني ان أزَوّجَكِ به، وان الله عَزّوجَلّ اتّخَذَهُ لي وَصيّاً وخليفة من بعدي، يا فاطمة ، أما ان العرش سأل رَبه ان يُزَيِّنه بزينة لم يُزيِّن بها شيئاً من خَلقِه فزيَّنهُ بالحَسَنِ والحسين (عليهما السلام) وجَعَلهما في ركنين من أسمآئي ، فانا الأعلى وهو علي .

يا محمد اِني خَلَقتُكَ وخَلَقْتُ عَليّاً وفاطمة والحسَن والحسين والأئمة من ولده من سنخ نور من نوري، وعرضت ولايتكم على أهل السماوات وأهل الأرض فمَن قبلها كان عندي من المؤمنين ومَن جَحَدَها كان عندي من الكافرين .

يا محمد لو ان عَبداً من عبيدي عَبَدَني حتى ينقطع أو يصير كالشِن البالي ثم أتاني جاحداً لولايتكم ما غفرت له حتى يُقرّ بولايتكم، يا محمد تحب ان تراهم ؟ قلت : نعم يا رَبّ .

فقال لي: التفت الى يمين العرش ، فالتَفَتُّ واذا أنا بعلي وفاطمة والحسن الحسين وعلي بن الحسين ومحمد بن علي وجعفر بن محمد وموسى بن جعفر وعلي بن موسى ومحمد بن علي وعلي بن محمد والحسَن بن علي والمهدي في ضَحضاح من نور قيامٌ يُصَلّونَ وهو في وسطهم - يعني المهدي - كأنه كوكبٌ دُرّي، وقال: يا محمد هؤلاء الحجج وانه - يعني المهدي (عليه السلام) - الحجة الواجبة لأوليائي والمنتقم من أعدائي .

شعر للشيخ صالح بن العرندس رحمه الله :

**هم النور نور الله جَلَّ جلاله *** هُم التين والزيتون والشفع والوترُ**
**مَهابُط وحي الله خزّان علمه *** مَيامين في أبياتِهِم نزل الذكرُ**
**وأسماؤهم مكتوبةٌ فوق عَرشِه *** ومكنونة من قبل ان يَخلُق الذَرُّ**
**فلَولاهُم لم يخلق الله آدَماً *** ولا كان زيَدٌ في الانام ولا عمرو**
**وَلا سطحت أرضٌ ولا رُفِعَت سَما *** ولا طَلَعت شَمسٌ ولا أشرق البدرُ**
**ونوحٌ بهم في الفُلكِ لماّ دعى نجا *** وغيض به طوفانه وقضي الأمرُ**
**ولولاهُم نار الخليلَ لَما غَدتْ *** سَلاماً وبَرداً وانطفى ذلك الجمرُ**
**ولولاهم يعقوب ما زال حُزنه *** ولا كان عن أيُّوب ينكشف الضّرُ**
**ولانَ لداود الحديد بسِرِّهم *** وقدِّر في سرٍّ يحير به الفكرُ**
**ولما سليمان البساط بهم دَعا *** أُسيلَت له عَينٌ يفيضُ بها القَطرُ**
**وسُخرت الريح الرخآءَ بأمِرهِ *** فغدوتها شَهرٌ وروحتها شَهرُ**
**وهم سِرّ موسى في العَصا عندما عَصى***اوامره فرعون والتقف السحرُ**
**ولولاهم ما كان عيسى بن مريم *** يغادر من طيّ اللحود له نشرُ**
**سرى سرّهم في الكائنات وفضلهم *** فكلا نبي فيه من سرّهم سرُ**
**مُصابكم يا آل طه مصيبة *** ورزء على الأسلام أحدثه الكُفر**
**انا اهل بيت اعطينا سبع خصال.**

***“Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə*** (Qurana) ***inanmış və möminlər də iman gətirmişlər.*** (Onların) ***hamısı Allaha, Onun mələklərinə, kitablarına və*** (bütün) ***peyğəmbərlərinə iman gətirərək dedilər: “Biz Onun peyğəmbərləri arasında fərq qoymuruq.*** (Allahın hökmlərini) ***eşitdik*** (anladıq) ***və itaət etdik. Ey Rəbbimiz, bizi bağışla,*** (axırda) ***Sənin dərgahına*** (hüzuruna) ***qayıdacağıq!”***[505] ayəsi barədə Əbi Səlma deyir: “Peyğəmbərdən *(s)* eşitdim ki, o Həzrət *(s)* buyurdu: *“Merac gecəsi mən Göyə yüksəldikdə Rəbbim mənə buyurdu:* ***“Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə*** (Qurana) ***inanmış...”****. Dedim: “Möminlər də”. Buyurdu: “Doğru dedin, Ya Muhəmməd! Mən Yer üzünə baxdım, orada yalnız səni seçdim. Sənə Öz adlarımdan birini qoydum, istədim Mənimlə birlikdə sənin adın da yad olunsun. Mən Mahmudam, sən Muhəmməd. İkinci dəfə yerə baxdıqda Əlini seçdim. Ona da Öz adlarımdan biri olan Əlanı qoydum. Mən Əlayam o, Əli. Ya Muhəmməd, Mən səni, Əlini, Həsəni, Hüseyni və onun övladlarını Öz nurumdan yaratmışam! Sizin vilayətinizi Yer və Göy əhlinə göstərdim. Onlardan hər kəs bunu qəbul etdisə, Mənim yanımda mömin, qəbul etmədisə, Mənim yanımda kafir oldu. Ya Muhəmməd! Əgər bəndələrimdən biri əldən düşənədək Mənə ibadət etsə, lakin sizin vilayətinizi qəbul etməsə, onu bağışlamaram. Ya Muhəmməd! Sən onları görmək*

[505] “əl-Bəqərə”, 285.

*istəyirsənmi?" Dedim: "Bəli, ya Rəbbim". Buyurdu: "Ərşimin sağ tərəfinə bax!" Mən baxdıqda Əlini, Fatiməni, Həsəni, Hüseyni, Əli bin Hüseyni, Məhəmməd bin Əlini, Cəfər bin Məhəmmədi, Musa bin Cəfəri, Əli bin Musanı, Məhəmməd bin Əlini, Əli bin Məhəmmədi, Həsən bin Əlini və Mehdini gördüm. Onlar namaz qılırdılar. Mehdi onların ortasında ulduz təki parıldayırdı...".*[506]

## *4.3. İMAM ƏLİ (Ə) "ALİ-İMRAN" SURƏSİNDƏ*

Surənin mətni möminlərin yəhudi, xristian və müşriklər qarşısında dayana bilməsi üçün birliyə dəvət olunmasıdır. Bu yolda onlar möhkəm və yenilməz olmalıdırlar.

"Ali-İmran" surəsi elə bir vaxtda nazil olmuşdur ki, həmin vaxt bütün İslam düşmənləri əl-ələ verərək İslam nurunu söndürmək istəmişlər. Onlar bütün imkanlarını səfərbər edərək Mədinədə yenicə qurulmuş müsəlman cəmiyyətinə qarşı çıxırdılar. Bir tərəfdən yəhudi və məsihilər İslam cəmiyyəti içində fitnə yaradaraq onların birliyini pozur, digər tərəfdən isə müşriklər müsəlmanlarla döyüşərək İslam cəmiyyətinə nifaq salırdılar. Həmin dövrdə İslam genişlənməkdə idi. Yəhudilər, məsihilər və müşriklər birləşərək dünyaya səs salmaqda olan İslama qarşı qiyam etmişdilər. Müsəlmanlar da öz növbəsində müdafiə olunmağa hazırlaşırdılar. Bu məqsədlə bütün qüvvələr səfərbər olunmuşdu.

"Ali-İmran" surəsinin 103-105-ci ayələrində möminlər birliyə, yekdilliyə çağırılır, cəmiyyətdə "əmr be məruf" və "nəhy əz münkər" (yaxşıya əmr, pisə qadağa) əmr olunur və belə buyurulur: ***"Hamılıqla Allahın ipinə*** (dininə, Qurana) ***möhkəm sarılın və*** (firqələrə bölünüb bir-birinizdən) ***ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən O sizin qəlblərinizi*** (İslam ilə) ***birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O sizi oradan xilas etdi. Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, haqq yola yönəlmiş olasınız!"***; **"**(Ey müsəlmanlar!) ***İçərinizdə*** (insanları) ***yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar*** (bu camaat)***, həqiqətən nicat tapmış kimsələrdir"***; **"**(Allah tərəfindən) ***açıq-aydın dəlillər gəldik-***

---

[506] Hafiz Süleyman əl-Qunduzi əl-Hənəfi, Yənabiül-məvəddə, Misir-1384 h. səh. 486; Əbi İshaq İbrahim əl-Həməvini əş-Şafei, Fəraidüs-simteyn, Misir çapı, tarixsiz, c. II, səh. 123; Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi, Məqtəli-Hüseyn, Misir-1367 h. c. I, səh. 95.

***dən sonra, bir-birindən ayrılan və ixtilaf törədən kəslər kimi olmayın! Onlar böyük bir əzaba düçar olacaqlar”***.

***“Hamılıqla Allahın ipinə möhkəm sarılın”*** əmr olunarkən ilahi ayələrə diqqət, eləcə də Quran və Peyğəmbərə *(s)* itaət nəzərdə tutulur. Ayələr haqqında düşündükdə anlaşılır ki, möminlər arasındakı ülfət mehriban Allahın nemətlərindəndir. Bu nemət olduqca dəyərlidir və onu qorumaq lazımdır. Məhz bu vəhdət və ülfət sayəsində İslam düşmənlərinin arzusu gözündə qalır. Bu yolla İslam cəmiyyəti hifz olunur, ilahi məqsədli fəaliyyətlər davam edir.

Allah-Təala təfriqələrlə müsəlmanların birliyini pozan dardüşüncəli müsəlmanlara böyük əzab vəd etmişdir. Bu xitab bütün dövrlərdəki müsəlmanlara ünvanlanmışdır. Məhz birliyin pozulması sayəsində düşmən qalib olur.

Surənin 104-cü ayəsində “əmr be məruf” və “nəhy əz münkər” (yaxşıya əmr, pisə qadağa) müsəlmanlara vacib edilir. Bu ayədən sonra bütün müsəlmanlar batil etiqad və əməllər qarşısında məsuliyyət daşıyırlar.

“Ali-İmran” surəsinin 110-cü ayəsində məhz Allaha imanlarına, “əmr be məruf” və “nəhy əz münkər” vəzifələrini yerinə yetirdiklərinə görə müsəlmanlar ən üstün ümmət sayılır. Bəli, onları şərafətli edən məhz uyğun göstərişlərə əməl etmələridir.

Mübarək surənin 85-ci ayəsində İslama deyil, başqa bir dinə üz tutanlar haqqında buyurulur: ***“Kim İslamdan başqa bir din ardınca gedərsə,*** (belə bir din) ***heç vaxt ondan qəbul olunmaz və o, Axirətdə zərər çəkənlərdən olar!”*** Yəni, İslam Peyğəmbərinin *(s)* gəlişindən sonra bütün başqa dində olanlar yolunu azmış sayılır. Bu azğınlıq bütün qədim və yeni dinlərə, məzhəblərə aiddir.

“Ali-İmran” surəsinin 91-ci ayəsində kafirlər haqqında buyurulur: ***“Şübhəsiz ki, kafir olub kafir kimi ölənlərdən hər birinin dünya dolusu qızılı ola və*** (əzabdan qurtarmaq üçün) ***onu fidyə verə, yenə də qəbul olunmaz. Onları dəhşətli bir əzab gözləyir. Onlara*** (Cəhənnəm odundan xilas olmaqdan) ***heç bir kömək edən olmaz!”*** Bəli, kafirləri belə bir sonluq gözləyir. Onlar Cəhənnəm oduna düşər və qurtuluş yolu tapmazlar. Onlar düşdükləri vəziyyətdən çıxmaq üçün dünya qədəri qızıl versələr də səmərəsi olmaz. Həmin vəziyyətdə kimsə onlara yardım göstərməyə qadir deyildir.

Qeyd etməliyik ki, 98-ci ayəyə əsasən, yəhudilər və məsihilər ilahi ayələri inkar etdikləri üçün məzəmmət olunurlar. Ayədən məlum olur ki, onlar da kafirdirlər və zikr olunmuş əzaba düçar olasıdırlar.

“Ali-İmran”surəsində Həzrət İsanın *(ə)* əhvalatı kitab əhlindən fərqli olaraq heç bir xurafata yol verilmədən bəyan olunur. Quran məsihilər kimi İsanı *(ə)* Allahın oğlu yox, Allahın bəndəsi bilir, İsanın *(ə)* yaradılışı Adəmin *(ə)* yaranışına oxşadılır. Aydın olur ki, Həzrət İsa *(ə)* Allahı həm özü-

nün, həm də peyğəmbər göndərildiyi şəxslərin Allahı sayır və xalqı Ona ibadətə çağırır.

İmran Xanım Məryəmin *(ə)* atasıdır. "Ali-İmran" dedikdə İmranın ailəsi nəzərdə tutulur. Rəvayətlərdə oxuyuruq ki, Allah-Təala ilahi peyğəmbərlərdən *(ə)* olan İmrana *(ə)* belə vəhy edir: *"Sənə böyük bərəkətlərə malik bir övlad verəcəyəm. O, anadan kor doğulanlara şəfa verəcək, Allahın izni ilə ölüləri dirildəcək. Onu Bəni-İsrailə peyğəmbər seçərəm"*. İmran *(ə)* xanımı Hənnəyə bu barədə məlumat verir. Hənnə Xanım Məryəmi *(ə)* dünyaya gətirmiş qadındır. Hənnə hamilə olduqda övladının peyğəmbər olacağını güman edir. Əslində isə onun övladı yox, nəvəsi peyğəmbər olacaqdı. İmran *(ə)* övladı dünyaya gəlməmiş vəfat edir.

Surənin 35-60-cı ayələrində uyğun əhvalatın davamı nəql olunur: İmranın *(ə)* xanımı öz bətnindəki körpəni Allaha nəzir edir. Bu sayaq nəzr edilmiş uşaqlar ata-anaya xidmətdən azad olunur və ibadətgahlarda Allaha ibadət edirdilər. Qadın Allahla belə raz-niyaz edir: ***"...Ey Rəbbim, bətnimdəkini sənə xidmətkar*** (qul) ***olmaq üçün nəzir edirəm.*** (Bu nəziri) ***məndən qəbul et! Əlbəttə, Sən eşidənsən, bilənsən!" - dediyini xatırla!"***[507]

Ananın intizarının əksinə olaraq o, dünyaya oğlan yox, qız övladı gətirdi. Bu işə heyrət edən ana qızının adını Məryəm qoydu. Allah Öz dərgahında Məryəmə *(ə)* Şeytanın şərrindən sığınacaq verdi, onu yaxşı qəbul etdi və yaxşı da tərbiyələndirdi. Həzrət Zəkəriyyə *(ə)* bu qızın hamisi oldu. O, Məryəmin *(ə)* yanına gedəndə daim orada ruzi görərdi: ***"...***(Zəkəriyyə:) ***"Ya Məryəm, bunlar sənin üçün haradandır?" - dedikdə, o: "Allah tərəfindəndir!" - deyə cavab verərdi. Həqiqətən, Allah istədiyi şəxsə hədsiz ruzi verər!"***[508]

Mələklər Məryəmə *(ə)* xəbər gətirdilər ki, ey Məryəm, Allah səni seçmiş, pak etmiş və dünya qadınlarından üstün qərar vermişdir: ***"Mələklər - dedilər: "Ya Məryəm! Həqiqətən, Allah Öz tərəfindən bir kəlmə ilə sənə müjdə verir. Onun adı Məryəm oğlu İsa əl-Məsihdir ki, dünyada və Axirətdə şanı uca*** (şərəfli) ***və*** (Allaha) ***yaxın olanlardandır"***; ***"O,*** (həm) ***beşikdə ikən,*** (həm də) ***yaşa dolduqdan sonra insanlarla danışacaq və salehlərdən*** (xeyirli iş görən şəxslərdən) ***olacaqdır".***[509]

Həzrət İsa *(ə)* anası Məryəm izdivacda olmadan, möcüzəli olaraq dünyaya gəldi. Bəli, Allah istədiyini yaradır, O, hər işə qadirdir.

Həzrət İsa *(ə)* Allahın böyük peyğəmbərlərindən *(ə)* idi və bir çox möcüzələrə malik idi. O, gildən hazırladığı quşu üfürür və bu quş Allahın izni ilə canlanırdı. O, anadan kor doğulan uşağa və sağalmayan dəri xəstəliklərinə

[507] "Ali-İmran", 35.
[508] "Ali-İmran", 37.
[509] "Ali-İmran", 45-46.

şəfa verərdi. Həzrət İsa *(ə)* ölüləri dirildər, onlara bir zaman yeyib-içdiklərindən, evlərində olanlardan xəbər verərdi. Bütün bunlar Allah tərəfindən ayətlər və nişanələr idi.[510]

Həzrət İsanın *(ə)* dəvətinin xülasəsi bundan ibarət idi: ***"Şübhə yoxdur ki, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Elə isə Ona ibadət edin! Budur doğru yol!"*** [511]

"Ali-İmran" surəsinin oxunmasında çoxlu sayda savab vardır. İmam Sadiq *(ə)* bu barədə buyurur:

**عن الإمام الصادق عليه السلام: من قرأ سورة البقرة وآل عمران جاءتا يوم القيامة تظلانه على رأسه مثل الغمامتين ...**

*"Hər kəs "əl-Bəqərə" və "Ali-İmran" surələrini oxusa, Qiyamət günü həmin surələr bulud kimi onun üzərinə kölgə salacaqlar".*

Təfsir əhlinə görə, "Ali-İmran" surəsində İmam Əli *(ə)* haqqında otuz bir ayə nazil olmuşdur. Bunlar 7, 15, 16, 30, 33, 37, 51, 57, 61, 100, 101, 102, 103, 104, 106, 107, 110, 112, 118, 144, 145, 146, 154, 172, 173, 174, 185, 186, 195, 198 və 200-cü ayələrdir. Aşağıda həmin ayələrdən bir qismini qeyd edirik:

**1- وَما يَعْلَمُ تَأْوِيلَهُ إِلاَّ اللهُ وَالرَّاسِخُونَ فِي الْعِلْمِ /7.**

***"...Halbuki, onların yozumunu*** (həqiqi mənasını) ***Allahdan*** (yaxud Allahdan və elmdə qüvvətli olanlardan) ***başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə: "Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır" - deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər"***; [512]

**2- قُلْ أَ أُنَبِّئُكُمْ بِخَيْرٍ مِنْ ذلِكُمْ لِلَّذِينَ اتَّقَوْا عِنْدَ رَبِّهِمْ جَنَّاتٌ تَجْرِي مِنْ تَحْتِهَا الأَنْهارُ خالِدِينَ فِيها وَأَزْواجٌ مُطَهَّرَةٌ وَرِضْوانٌ مِنَ اللهِ وَاللهُ بَصِيرٌ بِالْعِبادِ * الَّذِينَ يَقُولُونَ رَبَّنا إِنَّنا آمَنَّا فَاغْفِرْ لَنا ذُنُوبَنا وَقِنا عَذابَ النّار /15-16.**

**"**(Ya Rəsulum!) ***Söylə: "Sizə bunlardan*** (dünya zinətlərindən) ***daha yaxşısını xəbər verimmi? Allahdan qorxub pis əməldən çəkinənlər üçün Rəbbi yanında*** (ağacları) ***altından çaylar axan cənnətlər*** (bağlar) ***vardır ki, orada əbədi qalacaqlar. Onlardan ötrü orada*** (hər cür eyibdən) ***pak olan zövcələr və*** (ən böyük nemət olan) ***Allah rizası*** (razılığı, hüsn-rəğbəti) ***vardır. Allah, həqiqətən, bəndələrini görəndir!"***; ***"O bəndələr ki: "Ey Rəbbimiz, biz, həqiqətən*** (Sənə) ***iman gətirmişik, günahlarımızı bağışlayıb bizi Cəhənnəm əzabından qoru!" - deyirlər"***;[513]

---

[510] "Ali-İmran", 35-49.

[511] "Ali-İmran", 51. Bax: http://gunahkar-bende.

[512] "Ali-İmran", 7.

[513] "Ali-İmran", 15-16.

**3- يَوْمَ تَجِدُ كُلُّ نَفْسٍ ما عَمِلَتْ مِنْ خَيْرٍ مُحْضَرا /30.**

***"O gün*** (Qiyamət günü) ***hər kəs etdiyi yaxşı və pis əməlləri qarşısında hazır görəcək və günahları ilə özü arasında çox uzaq məsafə olmasını arzulayacaqdır. Allah sizi Öz əzabından çəkindirir, çünki Allah bəndələrə*** (Öz bəndələrinə) ***mərhəmətlidir!"***;[514]

**4- إِنَّ اللهَ اصْطَفى آدَمَ وَنُوحاً وَآلَ إِبْراهِيم /33.**

***"Allah Adəmi, Nuhu, İbrahim övladını və İmran ailəsini aləmlər*** (məxluqat, insanlar, bəşər övladı) ***üzərində seçilmiş*** (üstün) ***etdi"***;[515]

**5- قالَتْ هُوَ مِنْ عِنْدِ اللهِ /37.**

***"Belə olduqda, Rəbbi*** (Məryəmi) ***yaxşı qəbul etdi, onu gözəl bir fidan kimi böyütdü və Zəkəriyyaya tapşırdı. Zəkəriyya hər dəfə*** (Məryəmin) ***ibadət etdiyi mehraba girdikdə, onun yanında bir ruzi olduğunu görərdi.*** (Zəkəriyya:) ***"Ya Məryəm, bunlar sənin üçün haradandır?" - dedikdə, o: "Allah tərəfindəndir!" - deyə cavab verərdi. Həqiqətən, Allah istədiyi şəxsə hədsiz ruzi verər!"***;[516]

**6- إِنَّ اللهَ رَبِّي وَرَبُّكُمْ فَاعْبُدُوه /51.**

***"Şübhə yoxdur ki, Allah mənim də Rəbbim, sizin də Rəbbinizdir. Elə isə Ona ibadət edin! Budur doğru yol!"***; [517]

**7- وَأَمَّا الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحاتِ /57.**

***"İman gətirib yaxşı işlər görənlərə gəldikdə isə,*** (Allah) ***onların mükafatlarını tamamilə verəcəkdir. Allah zülm edənləri sevməz!"***;[518]

**8- فَمَنْ حَاجَّكَ فِيهِ مِنْ بَعْدِ ما جاءَكَ مِنَ الْعِلْمِ /61.**

"(İsanın Allahın qulu və peyğəmbəri olması barədə) ***sənə göndərilən elmdən*** (məlumatdan) ***sonra buna*** (İsanın əhvalatına) ***dair səninlə mübahisə edənlərə de: "Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı, biz də özümüzü, siz də özünüzü*** (bura) ***çağıraq! Sonra*** (Allaha) ***dua edib yalançılara Allahın lənət etməsini diləyək!"***; [519]

**9- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنْ تُطِيعُوا فَرِيقا /100.**

---

[514] "Ali-İmran", 30.
[515] "Ali-İmran", 33.
[516] "Ali-İmran", 37.
[517] "Ali-İmran", 51.
[518] "Ali-İmran", 57.
[519] "Ali-İmran", 61.

***“Ey möminlər! Əgər siz kitab əhli olanlardan bir dəstəyə*** (yəhudilərə) ***uyarsınızsa, onlar sizi iman gətirəndən sonra döndərib kafir edərlər”;***[520]

**10- وَمَنْ يَعْتَصِمْ بِاللهِ /101.**

***“Sizə Allahın hökmləri oxunduğu və Onun Peyğəmbəri aranızda olduğu halda, siz necə kafir ola bilərsiniz? Allaha*** (Onun dininə) ***sığınan şəxs, şübhəsiz ki, doğru yola yönəldilmişdir”;***[521]

**11- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ حَقَّ تُقاتِهِ /102.**

***“Ey iman gətirənlər! Allahdan layiqincə qorxun. Yalnız müsəlman olduğunuz halda*** (müsəlman kimi) ***ölün!”;***[522]

**12- وَاعْتَصِمُوا بِحَبْلِ اللهِ /103.**

***“Hamılıqla Allahın ipinə*** (dininə, Qurana) ***möhkəm sarılın və*** (firqələrə bölünüb bir-birinizdən) ***ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən O sizin qəlblərinizi*** (İslam ilə) ***birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O sizi oradan xilas etdi. Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, haqq yola yönəlmiş olasınız!”;***[523]

**13- ثُمَّ أَنْزَلَ عَلَيْكُمْ مِنْ بَعْدِ الْغَمِّ أَمَنَةً /154.**

***“Bu qəm-qüssədən sonra Allah sizə rahatlıq üçün xəfif bir uyğu göndərdi. O sizin bir qisminizi bürüdü. O biri qisminiz isə ancaq öz canlarının hayına qalaraq: “Bu işdə bizim üçün bir şey*** (xeyir) ***varmı?” - deyə Allaha qarşı haqsız yerə, Cahiliyyətə xas olan düşüncələrə qapıldılar.*** (Ya Rəsulum!) ***Onlara de: “Əlbəttə, bütün işlər Allaha məxsusdur*** (Allahın əlindədir)***.” Onlar*** (münafiqlər) ***sənə açıb bildirmədikləri şeyləri öz ürəklərində gizlədərək: “Əgər bu işdə bizim üçün bir şey*** (bir qələbə) ***olsaydı, elə buradaca öldürülməzdik” - deyirlər.*** (Ya Rəsulum!) ***De: “Əgər siz evlərinizdə olsaydınız belə, alınlarına ölüm yazılmış kəslər yenə çıxıb əbədi yatacaqları*** (öləcəkləri) ***yerlərə gedərdilər ki, Allah*** (bununla) ***sizin ürəklərinizdə olanları*** (səmimiyyət və ikiüzlülüyü) ***yoxlayıb aşkara çıxartsın və qəlblərinizdə olanları*** (niyyətlərinizi) ***təmizləsin. Allah ürəklərdə olanları biləndir!”;***[524]

---

[520] “Ali-İmran”, 100.
[521] “Ali-İmran”, 101.
[522] “Ali-İmran”, 102.
[523] “Ali-İmran”, 103.
[524] “Ali-İmran”, 154.

**14- ثَواباً مِنْ عِنْدِ اللهِ وَاللهُ عِنْدَهُ حُسْنُ الثَّوابِ /195.**

***"Rəbbi də onların dualarını qəbul edərək cavab verdi: "İstər kişi, istərsə də qadın olsun, Mən heç birinizin əməlini puça çıxarmaram. Siz*** (hamınız) ***bir-birinizdənsiniz*** (dində kişi, qadın eynidir)***. Hicrət edənlərin*** (Məkkədən Mədinəyə öz dinini qorumaq məqsədilə köçənlərin)***, öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin günahlarının üstünü Allahdan bir mükafat olaraq, əlbəttə, örtəcək və onları*** (ağacları) ***altından çaylar axan cənnətlərə daxil edəcəyəm. Ən yaxşı mükafat Allah yanındadır!"***;[525]

**15- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اصْبِرُوا وَصابِرُوا وَرابِطُوا /200.**

***"Ey iman gətirənlər!*** (Dində vacib olan hökmləri yerinə yetirməyin zəhmətinə, düçar olduğunuz bəlalara) ***səbir edin,*** (Allahın düşmənlərinə qələbə çalmaq uğrundakı müharibə və döyüşlərdə sizə üz verən müsibət və çətinliklərə) **dözün,** (sərhəd boyu növbədə ayıq-sayıq durub cihada) ***hazır olun və Allahdan qorxun ki, nicat tapasınız!"***[526]

**روى القاضي شهاب الدين بن حجر العسقلاني (الشافعي) في إصابته[527] بسنده عن الأخضر بن أبي الأخضر، عن النبي (صلى الله عليه وآله وسلّم) قال: (أنا أقاتل على تنزيل القرآن، وعلي يقاتل على تأويله).**

İbn Həcər əl-Əsqəlaninin rəvayətinə görə, Peyğəmbər *(s)* "Ali-İmran" surəsinin 7-ci ayəsinin təfsirində belə buyurmuşdur: *"Mən Quranın nazil olması üçün necə savaşdımsa, Əli də Quranın yozumu üçün elə savaşacaqdır"*. Rəsulullah *(s)* başqa bir hədisdə buyurmuşdur: *"Mən elmin şəhəriyəm, Əli də onun qapısıdır. Kim elm tələb edərsə, Əlinin qapısına gəlsin"*.[528] Yenə də o Həzrət *(s)* digər bir hədisdə belə buyurmuşdur: *"Məndən sonra insanlar Quranın* (təvilində) *yozumunda bilmədikləri şeyləri Əlidən öyrənəcəklər"*.[529]

**وأخرج علي المتّقي الهندي (الحنفي) في الكنز، عن أبي ذر قال: كنت مع رسول الله (صلى الله عليه وسلّم) وهو ببقيع الغرقد فقال (صلى الله عليه وآله وسلّم): (والذي نفسي بيده إنَّ فيكم رجلاً يقاتل النّاس من بعدي على تأويل القرآن، كما قاتلت المشركين على تنزيله وهم يشهدون أنَّ لا إله إلا الله فيكبر قتلهم على النّاس، حتى يطعنوا علياً ولي الله، ويسخطوا عمله، كما سخط موسى أمر السفينة، وقتل الغلام، وإقامة الجدار، وكان خرق السفينة، وقتل الغلام، وإقامة الجدار لله رضى.**

---

[525] "Ali-İmran", 195.
[526] "Ali-İmran", 200.
[527] الإصابة في تمييز الصحابة/ ج1/ ص 22.
[528] İbn Məğazili, əl-Mənaqib, səh. 84.
[529] Hakim əl-Həskani, Şəvahidut-tənzil, c.I, səh. 29.

**ثم أخرج في الكنز نفسه، عن أبي سعيد الخدري: أنّه قيل لرسول الله (صلى الله عليه وسلّم): أبو بكر وعمر؟**
**قال (صلى الله عليه وآله): لا، ولكنّه خاصف النعل، يعني علياً.**[530]

Əllamə Əli əl-Müttəqi əl-Hindi (1483-1567) "Kənzul-ümmal" adlı məşhur əsərində Əbu Zərdən belə rəvayət edir: "Mən Peyğəmbərlə (s) birlikdə Bəqi qəbristanlığında idim. Peyğəmbər (s) buyurdu: *"And olsun canım əlində olana, sizin içərinizdə bir kişi vardır ki, məndən sonra mən müşriklərlə Quranın nazil olması üçün vuruşduğum kimi, o da Quranın izahı* (təvili) *üçün vuruşacaqdır…!"* Sonra müəllif Əbu Səid əl-Xudridən nəql edir: "Həmin şəxs Əbu Bəkr və Ömərdir?" - deyə soruşuldu. O Həzrət (s) buyurdu: *"Xeyr, ayaqqabısını yamayandır, yəni Əlidir"*.

**وأخرج الحافظ القندوزي سليمان (الحنفي) في ينابيعه، عن علي بن أبي طالب أنّه قال:أين الذين زعموا أنّهم الراسخون في العلم دوننا كذباً وبغياً علينا، أنْ رفعنا الله ووضعهم، وأعطانا وحرمهم، وأدخلنا وأخرجهم.**[531]

Həmçinin, adıçəkilən ayənin təfsirində Hakim əl-Həskani "Yənabiul-məvəddət" əsərində İmam Əlinin (ə) belə buyurduğunu nəql edir: *"Bizdən başqa hər kəs elmdə qüvvətli olduğunu iddia etsə, o, yalançıdır. Allah bizim dərəcələrimizi qaldırmış, onları endirmişdir. Bizə əta etmiş, onları məhrum etmişdir. Bizi daxil etmiş, onları isə çıxarmışdır"*.

**وأخرج الحافظ الحسكاني (الحنفي) قال:قال النبي (صلى الله عليه وسلّم).(علي يعلِّم النّاس بعدي من تأويل القرآن ما لا يعلمون).**[532]

Müəllif sözünə Peyğəmbərin *(s)* bu kəlamı ilə davam edir: *"Əli məndən sonra Quranın yozumunu insanlara öyrədəcək"*.

**وأخرج الحافظ القندوزي (الحنفي) أيضاً في ينابيعه قال:أيضاً عن يحيى ابن أم الطويل قال: سمعت علياً (رضي الله عنه) يقول ـ في حديث: إذا كنت غائباً عن نزول الآية كان يحفظ على رسول الله (صلى الله عليه وآله وسلّم)، ما كان ينزل عليه من القرآن، وإذا قدمت عليه أقرأنيه ويقول: يا علي أُنزل الله عليّ بعدك كذا وكذا، وتأويله كذا وكذا، ويعلّمني تأويله وتنزيله.**[533]

Hakim əl-Həskani adıçəkilən əsərində Yəhya bin Ummi Təvil vasitəsilə İmam Əlinin *(ə)* belə buyurduğunu nəql edir: *"Mən Peyğəmbərin yanında olmayan vaxt hər hansı bir ayə nazil olurdusa, Peyğəmbər onu qoruyub saxlayar, mən gəldikdən sonra buyurardı: "Ya Əli, Allah səndən sonra bu*

---

[530] كنز العمال/ ج6/ ص390-391.
[531] ينابيع المودّة/ ص521.
[532] شواهد التنزيل/ ج1/ ص 29.
[533] ينابيع المودّة/ ص 73.

*ayəni nazil etdi, onun yozumu budur!...” Beləliklə, nazil olmuş ayənin yozumunu və enişini mənə öyrədərdi”.*

**وفي تفسير فرات بن إبراهيم بن فرات الكوفي (بسنده المذكور) عن سُليم بن قيس أنّه نقل خطبة لعلي (عليه السلام) وجاء فيها:(وما يعلم تأويله إلاّ الله والراسخون في العلم).**
**أليس بواحد، رسول الله (صلى الله عليه وسلّم) منهم، علّمه الله سبحانه إياه فعلّمنيه رسول الله (صلى الله عليه وسلّم) ثم لا يزال في عقبنا إلى يوم القيامة.**[534]

Təfsirçi alim Furat bin İbrahim əl-Kufi (X əsrin əvvəlləri) özünün “Təfsir” əsərində Süleym bin Qeys təriqilə ***“...Halbuki, onların yozumunu*** (həqiqi mənasını) ***Allahdan*** (yaxud Allahdan və elmdə qüvvətli olanlardan) ***başqa heç kəs bilməz”*** ayəsi haqqında İmam Əlinin *(ə)* belə buyurduğunu nəql etmişdir: *“Bizdən başqa elə bir kəs yoxdur ki, Peyğəmbər Quranın təvilini* (yozumunu) *ona öyrətmiş olsun. Allah yalnız ona öyrədər, o da mənə öyrədərdi və bu Qiyamətə qədər bizim qəlbimizdən çıxmaz”.*

**وأخرج ابن شاذان في المناقب المائة، من طرق العامّة، بسنده عن أنس بن مالك، قال: قال رسول الله (صلى الله عليه وآله وسلّم) في حديث لعلي بن أبي طالب:(تعلّم النّاس من بعدي من تأويل القرآن ما لا يعلمون تخبرهم بذلك).**[535]

İbn Şazan “əl-Mənaqibu miə” əsərində Ənəs bin Malikə çatan sənədlə nəql edir ki, Peyğəmbər *(s)* İmam Əliyə *(ə)* xitabən buyurmuşdur: *“Məndən sonra insanlara onların bilmədikləri Quranın təvilini* (yozumunu) *öyrət”.*

Xatırladaq ki, bu hədis aşağıda qeyd etdiyimiz qaynaqlarda müxtəlif yollarla nəql olunmuşdur.[536]

**وأخرج العلاّمة الكنجي الشافعي في كفايته، عن الكاشغري (بسنده المذكور) عن عبد الله بن سلمة، قال: رأيت عمّاراً يوم صفين شيخاً آدم طوّالاً، والحربة في يده، ويده ترعد فقال: قد قاتلت بهذه الراية مع رسول الله (صلى الله عليه وسلّم) ثلاث مرات، وهذه الرابعة ـ يعني: راية علي (كرّم الله وجهه) فلو ضربونا حتى يبلغوا بنا سعفات هَجَر، لعرفت أنّا على الحق، وأنّهم على الضلالة.**[537]

Əllamə əl-Kənci əş-Şafei “Kifayətut-talib” adlı məşhur əsərində Abdullah bin Səlmadan belə nəql edir: “Siffin günü Əmmar bin Yasiri qoca sifətində gördüm. Bayraq onun əlində idi və əli... O, dedi: “Bu bayraqla Peyğəmbərlə *(s)* birlikdə üç dəfə döyüşdə olmuşam. Bu bayraq, yəni Əlinin *(ə)* bayrağı... Bildim ki, biz haqq üzərindəyik, onlar isə zəlalət”.[538]

---

534 تفسير فرات الحديث/ 30/ ص9/ طبع النجف الأشرف.

535 المناقب المائة/ المنقبة الواحدة والثلاثون/ ص 20-21.

536 المناقب لابن المغازلي/ ص112. المناقب للخوارزمي/ ص246. فرائد السمطين/ الباب58. الصواعق المحرقة/ ص 75و93. ميزان الاعتدال للذهبي/ ج1/ ص205.الاستيعاب (بهامش الإصابة) ج3/ ص35. كفاية الطالب/ ص242.خصائص أمير المؤمنين للنسائي/ ص40.

537 كفاية الطالب/ ص175.

538 المستدرك على الصحيحين/ ج2/ ص148. مسند ابن حنبل/ ج6/ ص289. مسند أبي داود/ ج3/ ص90. الإصابة/ ج1/ القسم

Qeyd etməliyik ki, bu hədisi aşağıdakı qaynaqlar da rəvayət etmişlər.

**ونقل محمد بن محمد بن عبد الكريم الشيباني الجزري، المعروف بـ (ابن الأثير) في النهاية بسنده عن أبي سعيد الخدري، قال: أخبرني من هو خير مني: إنّ رسول الله (صلى الله عليه وسلّم) قال لعمار ـ حين جعل يحفر الخندق وجعل يمسح رأسه ويقول:(عمّار ابن سمية، تقتلك الفئة الباغية).**[539]

Peyğəmbərin *(s)* buyurduğu *"Ey Əmmar, səni azğın firqə öldürəcək!"* hədisi İmam Əlinin *(ə)* haqq olduğuna və Quranın təvili yolunda vuruşduğuna ən bariz dəlildir.[540]

**((قُلْ أَأُنَبِّئُكُمْ بِخَيْرٍ مِنْ ذلِكُمْ لِلَّذِينَ اتَّقَوْا عِنْدَ رَبِّهِمْ جَنَّاتٌ تَجْرِي مِنْ تَحْتِهَا الأَنْهارُ خالِدِينَ فِيها وَأَزْواجٌ مُطَهَّرَةٌ وَرِضْوانٌ مِنَ اللهِ وَاللهُ بَصِيرٌ بِالْعِبادِ* الَّذِينَ يَقُولُونَ رَبَّنا إِنَّنا آمَنَّا فَاغْفِرْ لَنا ذُنُوبَنا وَقِنا عَذابَ النّارِ)).**[541]

**"**(Ya Rəsulum!) ***Söylə: "Sizə bunlardan*** (dünya zinətlərindən) ***daha yaxşısını xəbər verimmi? Allahdan qorxub pis əməldən çəkinənlər üçün Rəbbi yanında*** (ağacları) ***altından çaylar axan cənnətlər*** (bağlar) ***vardır ki, orada əbədi qalacaqlar. Onlardan ötrü orada*** (hər cür eyibdən) ***pak olan zövcələr və*** (ən böyük nemət olan) ***Allah rizası*** (razılığı, hüsn-rəğbəti) ***vardır. Allah, həqiqətən, bəndələrini görəndir!"***; ***"O bəndələr ki: "Ey Rəbbimiz, biz, həqiqətən*** (Sənə) ***iman gətirmişik, günahlarımızı bağışlayıb bizi Cəhənnəm əzabından qoru!" - deyirlər"*** ayələrinin təfsirində müxtəlif təfsir əsərlərinə, o cümlədən Hakim əl-Həskaninin "Şəvahidut-tənzil" əsərinə istinadən qeyd edirik ki, bu ayələr İmam Əlinin *(ə)* haqqında nazil olmuşdur. Belə ki, İbn Abbas demişdir: (إنّها نزلت) في علي وحمزة وعبيدة بن الحرث) - "Ayələr Əlinin *(ə)* haqqında nazil olub".[542]

**((يَوْمَ تَجِدُ كُلُّ نَفْسٍ ما عَمِلَتْ مِنْ خَيْرٍ مُحْضَراً وَما عَمِلَتْ مِنْ سُوءٍ تَوَدُّ لَوْ أَنَّ بَيْنَها وَبَيْنَهُ أَمَداً بَعِيداً)).**[543]

---

الرابع/ ص125. الإمامة والسياسة/ ج2/ ص106. أعلام النساء/ ج2/ ص261. النهاية في غريب الحديث/ ج1/ ص89.

539 النهاية في غريب الحديث/ ج1/ ص89.

Qeyd etmək istərdik ki, bunu İbn Əbil Hədid "Şərhu Nəhcil-bəlağə"də,[587] Şəhabəddin ən-Nuri "Nihayətul-ədəb"də,[588] Əhməd bin Əsəm əl-Kufi isə "Kitabul-futuh"[589] əsərində qeyd etmişlər.

Bütün bu deyilənlərdən əlavə, Peyğəmbərin *(s)* عليٌّ منّي مثل رأسي من بدني [590] - *"Əlinin mənə nisbəti başımın bədənimə olan nisbəti kimidir"*[591] hədisi İmam Əlinin *(ə)* Peyğəmbər *(s)* üçün necə önəmli bir şəxs olduğunu ortaya

---

585 آل عمران/ 68.

586 صبح الأعشى/ ج1/ ص229.

587 شرح نهج البلاغة/ طبع بيروت في أربعة مجلدات/ ج3/ ص447.

588 نهاية الأدب/ ج7/ ص233.

589 كتاب الفتوح/ ج2/ ص961.

590 السير الحلبية/ ج1/ ص34.

591 Xətib əl-Bağdadi, Tarixi-Bağdad, c. VII, səh. 12; Əllamə Hindi, Kənzul-ümmal, c. XI, səh. 603; Qunduzi əl-Hənəfi, Yənabiul-məvəddə, səh. 180, 254 və s.

qoyur. Həmçinin, bu hədis İmamla *(ə)* Peyğəmbərin *(s)* ayrılmaz, həmişə bir olduğunu önə çəkir. Çünki, insanın başını bədənindən ayrı təsəvvür etmək mümkün olmadığı kimi, Əlini *(ə)* də Peyğəmbərdən *(s)* ayrı təsəvvür etmək qeyri-mümkündür.

**الكنجي (العالم الشافعي)، عن سلمان قال: سمعت رسول الله (صلى الله عليه وسلّم) يقول: كنت أنا وعلي نوراً بين يدي الله، مطيعاً يسبح الله ذلك النّور ويقدّسه، قبل أنْ يُخلق آدم بأربعة عشر ألف عام، فلمّا خلق الله آدم ركز ذلك النّور في صلبه، فلم يزل في شيء واحد حتى افترقا في صلب عبد المطلب، فجزءٌ أنا وجزءٌ علي.**[592]

Görkəmli alim Kənci əş-Şafei Salmanın Peyğəmbərdən *(s)* belə dediyini nəql edir: *"Mən və Əli Allahın qarşısında Adəmi yaratmasından on dörd min il qabaq vahid bir nur idik. Elə ki, Allah Adəmi yaratdı, bu nur Əbdül-Müttəlibin sülbündə iki hissəyə bölündü: bir hissəsi mən, o biri hissəsi isə Əli oldu"*.[593]

Həmçinin, Peyğəmbər *(s)* buyurub: *"Sizin içinizdə Əlinin məsəli örtüklə örtülmüş Kəbə kimidir ki, ona nəzər salmaq* (tamaşa etmək) *ibadətdir, ona tərəf həcc etmək* (cəhd edib getmək) *isə fərzdir* (vacibdir, Allahın təyin edib buyurduğu əmrdir)*"*.[594]

## *4.4. İMAM ƏLİ (Ə) "ƏN-NİSA" SURƏSİNDƏ*

"ən-Nisa" Qurani-Kərimin dördüncü surəsidir. Burada qadınlarla izdivac, eləcə də qadınların hüquqları bəyan olduğundan bu surə "Nisa", yəni "Qadınlar" adlandırılmışdır.

Cahiliyyət dövründə qadınlar bütün hüquqlardan məhrum idilər. Onlar nə işləri müqabilində haqq alır, nə ata-anadan irs aparır, nə də talelərini müəyyənləşdirə bilirdilər. Həmin dövrdə qadınların özünü zinətləndirib yad kişilər qarşısına çıxması isə ənənə idi. Kişilər bu qadınlarla evlənər və onların qarşısında heç bir vəzifə daşımazdılar. İzdivac heç bir münasibəti məhdudlaşdırmadığından, hətta ərdə olan qadınlar belə, müxtəlif kişilərlə görüşər və bu işi özləri üçün iftixar sayardılar. Kişi öldüyü vaxt onun qadını da irs sayılırdı, istər arvadı, istərsə də övladları onun irsindən məhrum idilər. Ölənin başqa bir adamı olmadıqda güclü qonşusu uşaqları himayə adı

---

592 كفاية الطالب/ ص176.

593 Həmçinin, bu hədis Əhməd bin Hənbəlin Fəzailus-səhabə, c. II, səh. 662; Muhib ət-Təbərinin ər-Riyazun-nəzirə, c. III, səh. 120; İbn Əsakirin Tarixi-mədinəti-Dəməşq, c. 42, səh. 135; Zəhəbinin Mizanul-etidal, c. I, səh. 191; İbn Həcərin Lisanul-mizan, c. II, səh. 229 və s. mənbələrdə qeyd olunmuşdur.

594 İbn Əsakir, Tarixi-mədinəti-Dəməşq, c. II, səh. 406, hədis № 905; Zəhəbi, Mizanul-etidal, c. I, səh. 507, c. IV, səh. 127; İbn Əsir, Usdul-ğabə, c. IV, səh. 31.

altında ölənin var-dövlətinə sahib dururdu. Yetim qalmış övlad qız olduqda var-dövlətə sahib olmaq üçün onunla evlənərdilər. Yetim qızın var-dövlətini xərclədikdən sonra, adətən onu boşayardılar. Bu hala düşmüş qadınlar acsusuz qalar, kimsə onlarla evlənməzdi.

Kişi üçün ən pis xəbər onun arvadının qız doğması idi. Bu üzdən qız övladları diri-diri torpağa basdırardılar.[595]

Yeni din olan İslam isə qadınlar və yetimlərin tapdalanmış hüquqlarını bərpa etmək, çirkin adət-ənənələri aradan qaldırmaq üçün özü ilə bərabər yeni qanunlar da gətirdi. Bu zaman qadının şəxsiyyəti ucaldı, ailə bünövrəsini möhkəmləndirmək üçün qanunlar bəyan olundu.

“ən-Nisa” surəsində məhz həmin qanunlar toplusundan olan qadın hökmləri, məhrəm və naməhrəm qadınların, qadınlarla izdivacın hökmləri, həmçinin yetimlərin hökmləri, irs hökmləri və ailə hökmləri bəyan olunmuşdur.

“ən-Nisa” surəsi Mədinədə nazil olmuşdur. Həmin dövrdə İslam hökuməti formalaşmaqda idi. Nümunəvi bir cəmiyyət qurmaq üçün qanunlara ehtiyac vardı. Bu qanunlar zalım Cahiliyyət ənənələrini aradan qaldırmalı, cəmiyyətdə ilahi ədaləti bərqərar etməli idi. Məhz bu məqamda “Nisa” surəsi nazil oldu və ehtiyac duyulan bir çox hökm bəyan edildi.

Digər bir tərəfdən, həmin vaxt Mədinə cəmiyyəti müşriklər, kitab əhli və münafiqlər kimi düşmənlərlə üzbəüz idi. Ona görə də bu surədə daxili və xarici düşmənlərlə bağlı Allah-Təala tərəfindən xəbərdarlıqlar edilir, müsəlmanlar cihada təşviq olunur, mücahidlərin uca məqamı mədh edilir, qiyama qalxmış mücahid möminlər evdə oturanlardan üstün tutulur.

“ən-Nisa” surəsində bəyan olunan digər bir məsələ İslam cəmiyyətində vilayət və rəhbərlik məsələsidir. Belə ki, vilayət və rəhbərlik olmadan hər hansı bir cəmiyyətdə quruculuq işləri aparmaq qeyri-mümkündür və belə bir cəmiyyətdə ilahi hökmlərin icra olunacağına da heç bir zəmanət yoxdur. Deməli, İslamın ilkin vaxtlarında da rəhbərlik olmasaydı qüvvələr pərakəndə düşər, düşmənlər asanlıqla müsəlmanları diz çökdürüb İslam cəmiyyətini məhv edə bilərdilər. Mübarək surədə bu barədə belə buyurulur: ***“Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və Qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu, daha xeyirli və nəticə etibarilə daha yaxşıdır”***.[596]

Bəli, müsəlmanlar Allaha itaət etməlidirlər. Lakin Allaha itaət yolunda Onun Peyğəmbərinə *(s)* də tabe olmaq lazım gəlir. Buradan belə bir fikir

[595] Əllamə Təbatəbai, əl-Mizan, c. IV, səh. 240.
[596] “ən-Nisa”, 59.

hasil olur ki, vilayət və rəhbərsiz cəmiyyətdə İslamı yaşatmaq mümkün deyilsə, o zaman Peyğəmbərdən *(s)* sonra da müsəlmanlara belə bir rəhbər lazımdır. Çünki, Allahın Öz bəndələrini rəhbərsiz qoyması Onun hikmətindən uzaqdır. Əgər Allah tərəfindən müsəlmanlara rəhbər nəzərdə tutulmasaydı, onda Peyğəmbərin *(s)* bütün zəhməti nəticəsiz və səmərəsiz qalardı. Deməli, mübarək ayədə buyurulduğu kimi, Peyğəmbərdən *(s)* sonra o Həzrətin *(s)* tanıtdırdığı, təqdim etdiyi bir əmr sahibinə itaət olunmalı idi. Çünki, ilahi rəhbərə itaət hamıya vacibdir.

Rəvayətlərin *(s)* birində Cabir bin Abdullah Ənsari deyir: "Allah-Təala bu ayəni Peyğəmbərə *(s)* nazil edəndə mən o Həzrətə *(s)* ərz etdim: "Ya Rəsulullah *(s)*, Allahı və Onun Rəsulunu *(s)* tanıdıq! Bəs səninlə çiyin-çiyinə itaət edilməsi zəruri olan əmr sahibi kimdir? O Həzrət *(s)* buyurdu: *"Ey Cabir, onlar mənim canişinlərimdir, məndən sonra müsəlmanların imamlarıdır. Onların birincisi Əli bin Əbi-Talibdir. Sonra isə Həsən, Hüseyn bin Əli, Məhəmməd bin Əli gələcək. Tövratda Məhəmməd bin Əli "Baqir" kimi yad olunmuşdur. Sən tezliklə onu görəcəksən. Onu görəndə mənim salamımı deyərsən. Baqirdən sonra Cəfər bin Məhəmməd Sadiq, Musa bin Cəfər, Əli bin Musa, Məhəmməd bin Əli, Əli bin Məhəmməd, Həsən bin Əli və ən sonra adı mənim adımdan, künyəsi mənim künyəmdən olan biri gələr. O, sonuncu, Allahın Yer üzündə höccəti, Bəqiyyətullah, Allahın bəndələr arasında yadigarıdır. O, Həsən bin Əlinin oğludur. Allah onun əli ilə Öz adını başdan-ayağa bütün dünyaya, Şərqə-Qərbə yayar. O, qeybə çəkilər. Çoxları bu qeybə görə ona etiqadından əl çəkərlər. Onun imamlığına etiqadda yalnız o şəxslər möhkəm dayanar ki, Allah-Təala onların qəlbinə iman yolu açmışdır"*. Mən yenə də ərz etdim: "Ya Rəsulullah *(s)*, qeybdə olduğu dövrdə İmamın *(ə.f)* şiələrə faydası olacaqmı?!" O Həzrət *(s)* buyurdu: *"Bəli, and olsun məni peyğəmbərliyə məbus edən Allaha, şiələr onun nuru ilə işıqlanar, qeybi dövründə onun vilayətindən, rəhbərliyindən bəhrələnərlər! Necə ki, insanlar buludların arxasında olan Günəşdən faydalanırlar! Ey Cabir, bu, Allahın gizli sirlərindəndir, Allahın elm xəzinəsində gizlənmiş sirlərdən! Sən də bu sirri yalnız Onun əhlinə aç"*.[597]

"ən-Nisa" surəsinin digər bir yerində kafirlərin möminlərə qalib gələ bilməməsi haqqında buyurulur: ***"....Allah heç vaxt kafirlərə möminlərin əleyhinə olan bir yol göstərməz!"***[598] Yəni, möminlər üzərində qələbə üçün Allahın kafirlərə yol göstərməsi mümkün deyil. Bu ayədən iki mühüm nəticə əldə olunur:

---

[597] Əllamə Təbatəbai, əl-Mizan, c. IV, səh. 653.

[598] "ən-Nisa", 141.

1. Müsəlmanlar siyasi, ictimai, mədəni, hərbi və digər sahələrdə elə bir mövqe tutmalıdırlar ki, kafirlər onlara qalib gələ bilməsinlər. Müxtəlif yollarla onların müsəlmanlara hakimliyinin, müsəlman ölkələrinə məxsus sərvətlərin talan və istismarının, mədəni və hərbi təcavüzlərinin qarşısı alınmalıdır. İslam dini bu işləri müsəlmanlara vacib etmişdir. Buna görə də müsəlman dünyasına təfriqə salmağa çalışan düşmənlə açıq şəkildə mübarizə aparmaq lazımdır. Onlar müsəlmanların arasında pərakəndəlik salır, fürsət əldə edən kimi isə zərbə vururlar. Deməli, müsəlmanlar arasındakı təfriqə kafirlərin qələbəsinə yol açır. Müqəddəs İslam dini öz ardıcıllarını birliyə, həmfikirliyə çağırmaqla düşmənin nüfuzunun qarşısını alır. Müqəddəs dinimiz heç vəclə müsəlmanlar arasında təfriqəyə icazə vermir.

2. Əgər müsəlmanlar vacib ibadi, siyasi, mədəni, iqtisadi, hərbi vəzifələrinə əməl etsələr, Allahın hökmü əsasında kafirlər onlara qalib gələ bilməzlər. Bu gün müsəlman dünyasının bəzi ölkələrinə birbaşa və ya dolayı yolla kafirlərin hakim olması və ya hakim olmaq cəhdləri, həmin ölkə müsəlmanlarının öz dini vəzifələrinə əməl etməməsi, dini hökmlərə biganə qalması ilə əlaqədardır. Necə ki, Ühüd döyüşündə qənimət əldə etmək məqsədi ilə müsəlmanların oxatanlardan ibarət dəstəsi Peyğəmbərin *(s)* göstəriş və əmrinə məhəl qoymadılar, öz mövqelərini tərk etdilər, bunun da nəticəsində müsəlmanlar məğlubiyyətə uğradılar.[599]

"ən-Nisa" surəsini oxumağın çoxsaylı savabı vardır. İmam Əli *(ə)* bu haqda buyurur:

**عن أمير المؤمنين عليه السلام: من قرأ سورة النساء كل جمعة أومن من ضغطة القبر...**

*"Hər kəs hər cümə "ən-Nisa" surəsini oxuyarsa, qəbirdə əmin-amanlıq içində olar..."*.

Təfsir əhlinə görə, "ən-Nisa" surəsində İmam Əlinin *(ə)* şəninə aid on doqquz ayə nazil olmuşdur. Bunlar 1, 19, 29, 54, 57, 59, 64, 68, 69, 70, 71, 80, 83, 94, 115, 122, 135, 145 və 173-cü ayələrdir. Həmin ayələrdən bir neçəsini təqdim edirik:

**1- وَاتَّقُوا اللهَ الَّذِي تَسائَلُونَ بِهِ وَالأَرْحام /1.**

***"Ey insanlar! Sizi tək bir kəsdən*** (Adəmdən) ***xəlq edən, ondan zövcəsini*** (Həvvanı) ***yaradan və onlardan da bir çox kişi və qadınlar törədən Rəbbinizdən qorxun!*** (Adı ilə) ***bir-birinizdən*** (cürbəcür şeylər) ***istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini kəsməkdən həzər edin! Şübhəsiz ki, Allah sizin üzərinizdə gözətçidir!"***;[600]

---

[599] Əllamə Təbatəbai, əl-Mizan", c. 5, səh. 189.
[600] "ən-Nisa", 1.

**2- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا يَحِلُّ لَكُمْ أَنْ تَرِثُوا النِّساءَ كَرْها /19.**

***"Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir!*** (Qadınlar) ***açıq-aşkar pis bir iş görməyincə, özlərinə verdiyinizin*** (mehrin) ***bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl*** (Allahın buyurduğu kimi) ***rəftar edin. Əgər onlara nifrət etsəniz*** (dözün)***. Ola bilsin ki, sizdə nifrət doğuran hər hansı bir şeydə Allah*** (sizdən ötrü) ***çoxlu xeyir nəzərdə tutmuş olsun"***;[601]

**3- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَأْكُلُوا أَمْوالَكُمْ بَيْنَكُمْ بِالْباطِلِ /19.**

***"Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarını haram yolla yeməyin və özünüzü öldürməyin! Həqiqətən, Allah sizə qarşı mərhəmətlidir!"***;[602]

**4- أَمْ يَحْسُدُونَ النّاس عَلى ما آتاهُمُ اللهُ مِنْ فَضْلِهِ /54.**

***"Yoxsa onlar Allahın Öz nemətindən bəxş etdiyi şeylərə görə insanlara həsəd aparırlar?"***;

**5- فَقَدْ آتَيْنا آلَ إِبْراهِيمَ الْكِتابَ وَالْحِكْمَةَ /54.**

***"Halbuki, Biz İbrahim övladına da kitab və hikmət vermişdik və onlara böyük mülk*** (hökmranlıq) ***bəxş etmişdik"***;[603]

**6- وَالَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحاتِ سَنُدْخِلُهُمْ جَنَّاتٍ تَجْرِ /57.**

***"İman gətirən və yaxşı işlər görən kəsləri*** (ağacları) ***altından çaylar axan Cənnətlərə daxil edəcəyik ki, orada əbədi qalsınlar. Orada onları pak zövcələr gözləyir. Biz onları daim rahatlıq verən sıx*** (ləzzətli) ***kölgəlikdə yerləşdirəcəyik"***;[604]

**7- يا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللهَ وَأَطِيعُوا الرَّسُولَ /59.**

***"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və Qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu, daha xeyirli və nəticə etibarilə daha yaxşıdır"***;[605]

**8- فَاسْتَغْفَرُوا اللهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ /64.**

---

[601] "ən-Nisa", 19.
[602] "ən-Nisa", 29.
[603] "ən-Nisa", 54.
[604] "ən-Nisa", 57.
[605] "ən-Nisa", 59.

***“Biz hər bir peyğəmbəri, ancaq ona Allahın iznilə itaət olunsun deyə, göndərdik. Onlar*** (münafiqlər) ***özlərinə zülm etdikləri zaman dərhal sənin yanına gəlib Allahdan bağışlanmaq diləsəydilər və Peyğəmbər də onlar üçün əfv istəsəydi, əlbəttə, Allahın tövbələri qəbul edən, mərhəmətli olduğunu bilərdilər”***;[606]

**9- وَلَهَدَيْناهُمْ صِراطاً مُسْتَقِيما /66.**

***“Əgər Biz onlara: “Özünüzü öldürün, yaxud yurdlarınızdan çıxın!” - deyə yazıb əmr etsəydik, içərilərindən az bir hissəsi müstəsna olmaqla,*** (bu əmri) ***yerinə yetirməzdilər. Əgər onlar verilən nəsihətlərə əməl etsəydilər, əlbəttə, bu onlar üçün daha xeyirli və daha düzgün olardı*** (imanda sabitqədəmlik baxımından daha möhkəm bir addım olardı)***”***;[607]

**10- وَمَنْ يُطِعِ اللهَ وَالرَّسُولَ فَأُولئِكَ مَعَ الَّذِينَ أَنْعَمَ اللهُ عَلَيْهِمْ /69-70.**

***“Allaha və Peyğəmbərə itaət edənlər*** (Axirətdə) ***Allahın nemətlər verdiyi nəbilər*** (peyğəmbərlər)***, siddiqlər*** (tamamilə doğru danışanlar, etiqadı dürüst, peyğəmbərləri hamıdan əvvəl təsdiq edən şəxslər)***, şəhidlər və salehlərlə*** (yaxşı əməl sahibləriylə) ***bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşlardır!”***; ***“Bu mükafat Allah tərəfindəndir.*** (Hər şeyi) ***bilən Allah*** (sizə) ***kifayət edər!”***;[608]

**11- فَأَمَّا الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحاتِ /173.**

**“**(Allah) ***iman gətirənlərin və yaxşı işlər görənlərin mükafatlarını büsbütün verəcək, üstəlik Öz nemətindən onlar üçün*** (bir qədər) ***artıracaqdır.*** (Allaha ibadət etməyi) ***özlərinə sığışdırmayanları və təkəbbür göstərənləri isə acı bir əzaba düçar edəcəkdir! Onlar özlərinə Allahdan savayı nə bir dost, nə də havadar tapacaqlar!”***[609]

**((وَاتَّقُوا اللهَ الَّذِي تَساءَلُونَ بِهِ وَالأَرْحامَ إِنَّ اللهَ كانَ عَلَيْكُمْ رَقِيباً)).**
**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: أخبرنا أبو محمد، الحسن بن علي الجوهري، (بإسناده المذكور) عن ابن عباس أنّه قال في قوله (تعالى):**
**((وَاتَّقُوا اللهَ الَّذِي تَساءَلُونَ بِهِ وَالأَرْحامَ)) نزلت في رسول الله، وأهل بيته، وذوي أرحامه، وذلك أنّ كل سبب ونسب منقطع يوم القيامة، إلاّ ما كان من سببه ونسبه ((إِنَّ اللهَ كانَ عَلَيْكُمْ رَقِيباً)) يعني حفيظاً.**[610]

---

[606] “ən-Nisa”, 64.
[607] “ən-Nisa”, 66.
[608] “ən-Nisa”, 69-70.
[609] “ən-Nisa”, 173.

[610] شواهد التنزيل/ ج1/ ص135.

"ən-Nisa" surəsinin birinci ayəsinin təfsirində Hakim əl-Həskani deyir: "...adıkeçən ayə Peyğəmbərin *(s)*, o Həzrətin *(s)* pak Əhli-Beytinin *(ə)* və qohum-əqrəbasının haqqında nazil olmuşdur. Həqiqətən də Qiyamət günü hər bir səbəbin və nəsəbin kəsildiyi, yalnız Peyğəmbərin *(s)* səbəb və nəsəbinin kəsilmədiyi ***"Şübhəsiz ki, Allah sizin üzərinizdə gözətçidir!"*** ayəsi ilə hifz olunur".

Müəllifin verdiyi təfsirdən də anlaşıldığı kimi, insanların soruşduqları **(الأرحام)** - ***"qohumluq"*** sözü Peyğəmbərə *(s)*, o Həzrətin *(s)* Əhli-Beytinə *(ə)* və yaxın qohum-əqrəbasına işarədir.

**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا يَحِلُّ لَكُمْ أَنْ تَرِثُوا النِّساءَ كَرْهاً)).**
**روى الحافظ الأصبهاني، أبو نعيم في حليته، عن ابن عباس، عن رسول الله (صلى الله عليه وسلّم) أنه قال:**
**ما أنزل الله آية فيها ((يا أيها الذين آمنوا)) إلاّ وعليّ رأسها وأميرها).**[611]

***"Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir!"*** ayəsi haqqında Hafiz Əbu Nəim əl-İsfəhani "Hilyətul-övliya" əsərində İbn Abbasdan, onun da Peyğəmbərdən *(s)* belə dediyi nəql olunur: *"Elə bir* ***"Ey iman gətirənlər"*** *ayəsi yoxdur ki, orada Əli olmasın. Əli o ayələrin başı və əmiridir"*.

Hədisi-şərifdən belə başa düşülür ki, bu və bunun kimi olan ayələr möminlərə bir daha göstəriş verir ki, İmam Əli *(ə)* kimi olmaq, İmam *(ə)* kimi yaşamaq lazımdır. Hədisdə o Həzrət *(ə)* bütün möminlərə əmir və başçı olaraq dəyərləndirilir ki, bu da dediklərimizə bariz nümunədir. Bütün bu sadalananları aşağıdakı qaynaqlarda da görmək mümkündür.[612]

**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَأْكُلُوا أَمْوالَكُمْ بَيْنَكُمْ بِالْباطِلِ إِلاَّ أَنْ تَكُونَ تِجارَةً عَنْ تَراضٍ مِنْكُمْ وَلا تَقْتُلُوا أَنْفُسَكُمْ إِنَّ اللهَ كانَ بِكُمْ رَحِيماً)).النساء/ 29.**
**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: أخبرونا عن القاضي أبي الحسن، محمد بن عثمان النصيبي (بإسناده المذكور) عن كامل، عن أبي صالح، عن ابن عباس، في قوله تعالى: ((ولا تقتلوا أنفسكم)) قال:**
**لا تقتلوا أهل نبيِّكم، إنّ الله يقول: ((تَعالَوْا نَدْعُ أَبْناءَنا وَأَبْناءَكُمْ وَنِساءَنا وَنِساءَكُمْ وَأَنْفُسَنا وَأَنْفُسَكُمْ)).**
**وكان (أبناءنا) الحسن والحسين.**
**وكان (نساءنا) فاطمة.**
**(وأنفسنا) النبي وعلي (عليهما السلام).**[613]

---

611 حلية الأولياء/ ج1/ ص64.
612 مناقب الخوارزمي/ ص189.نور الأبصار/ ص70.إسعاف الراغبين/ ص149.الكتاب الصغير للسيد البحراني ص79 نقلًا عن ابن مردويه.
613 شواهد التنزيل/ ج1/ ص143.

Mübarək surənin 29-cu ayəsinə təfsir verən Hakim əl-Həskani yazır: “...İbn Abbas belə rəvayət etmişdir: “Allahın ***“özünüzü öldürməyin”*** sözündən məqsəd “Peyğəmbərinizin *(s)* Əhli-Beytini *(ə)* öldürməyin” deməkdir. Buna görə də Uca Allah Peyğəmbərə *(s)* belə buyurub: ***“Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı, biz də özümüzü, siz də özünüzü*** (bura) ***çağıraq!”***

Ayədə işlənən ***“əbnaəna”*** sözü Həsən *(ə)* və Hüseynə *(ə)*, ***“ən-Nisa”əna”*** sözü Fatiməyə *(ə)*, ***“ənfusəna”*** sözü isə Peyğəmbərə *(s)* və Əliyə *(ə)* aiddir.

Qeyd etmək lazımdır ki, bu hədisin oxşarını yenə də İbn Abbasdan Hafiz Əbülhəsən əl-Məğazili öz “əl-Mənaqib” əsərində[614] qeyd etmişdir.

**((أَمْ يَحْسُدُونَ النّاس عَلى ما آتاهُمُ اللهُ مِنْ فَضْلِهِ)).النساء/ 54.**
**روى العلاّمة السيّد هاشم البحراني (قده) عن ابن شهر آشوب، عن أبي الفتوح الرازي ـ بما ذكره عبد الله المرزباني ـ عن الكلبي، عن أبي صالح، عن ابن عباس ـ في قوله تعالى: ((أَمْ يَحْسُدُونَ النّاس عَلى ما آتاهُمُ اللهُ مِنْ فَضْلِهِ)) ـ: نزلت في رسول الله (صلى الله عليه وآله وسلّم) وفي علي (عليه السلام). قال أبو جعفر: الفضل فيه النبوة، وفي علي الإمامة.**[615]

***“Yoxsa onlar Allahın Öz nemətindən bəxş etdiyi şeylərə görə insanlara həsəd aparırlar? Halbuki, Biz İbrahim övladına da kitab və hikmət vermişdik və onlara böyük mülk*** (hökmranlıq) ***bəxş etmişdik”*** ayəsi haqqında Əllamə Haşim Bəhrani İbn Şəhraşubdan ondan da Əbulfutuh ər-Raziyə istinadən yazır: “İbn Abbas Allahın bu ayəsi haqqında demişdir: “Ayə Peyğəmbərin *(s)* və Əlinin *(ə)* haqqında nazil olmuşdur”.

Əbu Cəfər isə vurğulamışdır ki, ayədəki ***“hikmət”*** kəlməsindən məqsəd Peyğəmbərə *(s)* nübuvvətin, Əliyə *(ə)* isə imamətin aid olduğudur”.

Bütün bu deyilənlərdən başqa, Əllamə Hafiz Əbülhəsən bin Məğazili “əl-Mənaqib”,[616] İbn Həcər əl-Heysəmi “əs-Səvaiq”,[617] Şəhabəddin əl-Xədrəmi “ər-Rüşfə”,[618] Qunduzi əl-Hənəfi isə “Yənabiul-məvəddət”[619] əsərlərində buna oxşar hədisləri qeyd etmişlər.

**((فَقَدْ آتَيْنا آلَ إبراهيم الْكِتابَ وَالْحِكْمَةَ وَآتَيْناهُمْ مُلْكاً عَظِيماً)).**
**روى الفقيه الشافعي (ابن حجر) في الصواعق ـ في باب الآيات النازلة في حق أهل البيت ـ بإسناده عن جعفر بن محمد، في قوله (تعالى) ((وَآتَيْناهُمْ مُلْكاً عَظِيماً)) قال:**
**(جعل فيهم أئمّة من أطاعهم فقد أطاع الله، ومن عصاهم فقد عصى الله).**[620]

---

614 المناقب لابن المغازلي/ ص318.
615 غاية المرام/ ص325.
616 المناقب لابن المغازلي/ ص267.
617 الصواعق المحرقة/ ص150.
618 رشفة الصادي/ ص37.
619 ينابيع المودّة/ ص121.
620 الصواعق المحرقة/ ص93.

***"Halbuki, Biz İbrahim övladına da kitab və hikmət vermişdik və onlara böyük mülk*** (hökmranlıq) ***bəxş etmişdik"*** ayəsi haqqında İbn Həcər əl-Heysəmi "əs-Səvaiqul-mihriqa" adlı əsərində Cəfər bin Məhəmmədə istinadən yazır: "Ayə Əhli-Beytin *(ə)* haqqında nazil olmuşdur". Müəllif ***"Onlara böyük mülk*** (hökmranlıq) ***bəxş etmişdik"*** ayəsi haqqında deyir: "Yəni, onlara imamlar *(ə)* verdik. İmamlara *(ə)* itaət Allaha itaət, imamlara *(ə)* qarşı çıxmaq isə Allaha qarşı çıxmaqdır".

İbn Həcər əl-Heysəmi əş-Şafeinin də təfsirindən belə başa düşülür ki, imamət dedikdə Həzrət Əliyə *(ə)* və o Həzrətin *(ə)* on bir övladına verilmiş imamət nəzərdə tutulur. Qaynaqlardan da məlumdur ki, bu xəbərlər Peyğəmbərin *(s)* hədislərində öz əksini tapmışdır. Həmçinin, müəllifin nəql etdiyi hədis onu da göstərir ki, Əhli-Beytə *(ə)* qarşı çıxmaq, elə Allaha qarşı çıxmaq deməkdir.

**((وَالَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحاتِ سَنُدْخِلُهُمْ جَنَّاتٍ تَجْرِي مِنْ تَحْتِهَا الأَنْهارُ خالِدِينَ فِيها أَبَداً لَهُمْ فِيها أَزْواجٌ مُطَهَّرَةٌ وَنُدْخِلُهُمْ ظِلاًّ ظَلِيلاً)).النساء/ 57.**
**روى العلاّمة البحراني (قده) عن ابن شهر آشوب ـ من طريق العامّة ـ بإسناده عن ابن عباس، وأبي برزة، وابن شراحيل:**
**قال النبي (صلى الله عليه وآله) لعلي مبتدياً:**
**((الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحاتِ)) أنت وشيعتك، وميعادي وميعادكم الحوض.**[621]

***"İman gətirən və yaxşı işlər görən kəsləri*** (ağacları) ***altından çaylar axan Cənnətlərə daxil edəcəyik ki, orada əbədi qalsınlar. Orada onları pak zövcələr gözləyir. Biz onları daim rahatlıq verən sıx*** (ləzzətli) ***kölgəlikdə yerləşdirəcəyik"*** ayəsi haqqında Əllamə Bəhrani, İbn Şəhraşubun, onun da sünni mənbəyi ilə İbn Abbas, Əbu Hüreyrə və İbn Şərahilin rəvayət etdiyi hədisi belə nəql edir: "Peyğəmbər *(s)* buyurmuşdur: *"Əli Cənnətə girənlərin ilkidir"*. ***"İman gətirən və yaxşı işlər görən"*** ayəsi haqqında Peyğəmbər *(s)* buyurdu: *"Ya Əli, bunlar sənsən və sənin tərəfdarlarındır! Mənim və sizin qayıdışınız Kövsər hovuzudur"*.

Qeyd edək ki, nəql olunmuş sənədlə Hakim əl-Həskani də ayənin İmam Əliyə *(ə)* və tərəfdarlarına aid olduğunu bildirmişdir.[622]

**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللهَ وَأَطِيعُوا الرَّسُولَ وَأُولِي الأَمْرِ مِنْكُمْ)).النساء/ 59.**
**أخرج العلاّمة البحراني عن ابن شهر آشوب ـ من طريق العامّة ـ عن تفسير (مجاهد):**
**إنّ هذه الآية نزلت في أمير المؤمنين حين خلّفه رسول الله (صلى الله عليه وآله وسلّم) بالمدينة،**
**فقال: يا رسول الله أتخلفني على النساء والصبيان؟**
**فقال (صلى الله عليه وآله وسلّم):**

621 غاية المرام.
622 شواهد التنزيل/ ج1/ ص21.

**(يا علي أما ترضى أنْ تكون مني بمنزلة هارون من موسى حين قال (يعني: موسى بن عمران لأخيه هارون): ((أخلفني في قومي وأصلح)).**
**فقال الله: ((وأولي الأمر منكم)).**
**قال (يعني: مجاهد): (هو) علي بن أبي طالب، ولاّه الله أمر الأمّة بعد محمد، وحين خلّفه رسول الله (صلى الله عليه وآله) بالمدينة، فأمر الله العباد بطاعته وترك خلافه).**[623]

***"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və Qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu, daha xeyirli və nəticə etibarilə daha yaxşıdır"*** ayəsi haqqında Əllamə Bəhrani İbn Şəhraşuba istinadən yazır: "Həqiqətən bu ayə Peyğəmbərin *(s)* Həzrət Əlini *(ə)* Mədinədə öz yerində xəlifə buraxdığı zaman o Həzrətin *(ə)* haqqında nazil olmuşdur. İmam Əli *(ə) "Ya Rəsulullah, məni uşaqlarlamı bir yerdə buraxırsan?!"* - deyə ərz etdiyində, Peyğəmbər *(s)* belə buyurdu: *"Ya Əli, sən razı deyilsən ki, mənə Harunun Musaya olan nisbəti kimi olasan?! Necə ki, Musa bin İmran demişdir: "Qövmümün içində xəlifəm ol və onları islah et"*.

Mücahid deyir: "Onu, yəni Əlini *(ə)* Allah Muhəmməddən *(s)* sonra ümmətə imam təyin etdi. Bu, Peyğəmbərin *(s)* onu Mədinədə yerinə xəlifə buraxdığı zaman olmuşdur. Allah bəndələrə əmr etdi ki, ona itaət etsinlər, ona müxalif olmağı tərk etsinlər".

Qeyd etmək lazımdır ki, yuxarıda adıçəkilən ayə ilə əlaqədar nəql olunan bu hədis "Mənzilət" hədisi adı ilə məşhurdur və bütün islami qaynaqlarda öz əksini tapmışdır. Həmin hədisi geniş şəkildə burada qeyd etmək oxucuların diqqətini özünə cəlb edəcəkdir. Bu, Əbu Üməyyənin İmam Sadiqdən *(ə)* rəvayət etdiyi hədisdir. Bu hədisi iki İmamın *(ə)* - İmam Cavad *(ə)* və İmam Hadinin *(ə)* səhabəsi olan Əhməd bin Məhəmməd əl-Bərqi "əl-Məhasin" kitabında rəvayət etmişdir. Məhəmməd bin Yaqub əl-Küleyni də sözükeçən hədisi Bərqinin sənədi ilə "əl-Kafi" əsərində rəvayət etmişdir:

**عنه عن الحسن بن فضال عن ثعلبة بنميمون عن أبي أمية يوسف بن ثابت بن أبي سعيد قال قال أبو عبد الله (ع) إن تكونواوحدانيين فقد كان رسول الله (ص) وحدانيا يدعو الناس فلا يستجيبون له و قد كان أول مناستجاب له علي بن أبي طالب (ص) و قد قال له رسول الله (ص) أنت مني بمنزلة هارون منموسى إلا أنه لا نبي بعدي**

"…Əbu Üməyyə Əbu Əbdullahdan *(ə)* - İmam Sadiq *(ə)* - belə rəvayət etdi: *"Rəsulullah ona,* yəni İmam Əliyə *(ə) buyurdu: "Sənin mənə nisbətin Harunun Musaya olan nisbəti kimidir, yalnız məndən sonra peyğəmbər gəlməyəcəkdir"*.[624]

---

[623] غاية المرام/ ص263-264.
[624] Bərqi, əl-Məhasin, c. I, səh. 159, hədis № 97; Küleyni, əl-Kafi, c. VIII, səh. 106-107, hədis № 80.

Məhəmməd bin Müslimi İmam Baqirdən *(ə)* rəvayət edir:

**حدثنا محمد بن الحسن بن أحمد بن الوليد ره قال حدثنا محمد بن الحسن الصفار عن العباس بن معروف عن علي بن مهزيار عن فضالة بن أيوب عن أبان بن عثمان عن محمد بن مسلم عن أبي جعفر الباقر (عليه السلام) قال**
**فقال (صلىاللهعليهوآله) ياعليإنماأنتمنيبمنزلةهارونمنموسىإلاأنهلانبيبعدي**

*“Rəsulullah buyurdu: “Ya Əli! Sənin mənə nisbətin Harunun Musaya nisbəti kimidir, yalnız məndən sonra peyğəmbər gəlməyəcəkdir”.*[625]

**((فَاسْتَغْفَرُوا اللهَ وَاسْتَغْفَرَ لَهُمُ الرَّسُولُ لَوَجَدُوا اللهَ تَوَّاباً رَحِيماً)).النساء/ 64.**
**نقل الشيخ المحمودي عن علاّمة الشوافع ابن عساكر قال:**
**اخبرنا أبو البركات الأنماطي (بإسناده المذكور) عن جابر بن عبد الله (الأنصاري) عن رسول الله (صلى الله عليه وسلّم) قال ـ في حديث له ـ: (إنّ الله علّمني أسماء أمتي كلّها كما علّم آدم الأسماء كلّها، ومثّل لي أمتي في الطين، فمرّ بي أصحاب الرايات، واستغفرتُ لعلي وشيعته).**[626]

Şeyx Məhmudi İbn Əsakirə (1105-1175) istinadən yazır: “Bizə Əbülbərəkat əl-Ənmati qeyd olunmuş sənədlə Cabir bin Abdullah əl-Ənsaridən, onun da Peyğəmbərdən *(s)* belə dediyini rəvayət etmişdir: *“Həqiqətən, Allah Adəmə adları öyrətdiyi kimi, ümmətimin də adlarını mənə öyrətmişdir. Ümmətimin məsəli hələ onlar torpaqda ikən mənə göstərilib. Bayraq sahibləri* (yəni, Qiyamət günü istər Şeytan dəstəsinin, istərsə də İslam əhlinin öz bayraqları altında toplananları) *mənim yanımdan ötdülər. Mən Əli və onun tərəfdarları üçün istiğfar diləyirəm”.*

Bu hədisi Seyid əl-Hümeyri “əl-Eyniyyə” qəsidəsində belə nəzmə çəkmişdir:

**(والنّاس يوم الحشر راياتهم***خمس فمنها هالك أربع)**
**(فراية العجل وفرعونها***وسامري الأئمة الأشنع)**
**(وراية يقدمها حبتر***عبد لئيم وكع لكع)**
**(وراية يقدمها حيدر***ووجهه كالشمس إذ تطلع)**[627].

*Qiyamət günü insanlar beş bayraq altında olacaq.*
*Onlardan dördü həlaka uğrayacaq...*

Burada bir neçə incə məqama toxunmaq istərdik. Belə ki, yuxarıda qeyd olunan *“Mən Əli və tərəfdarlarına istiğfar diləyirəm”* hədisində Peyğəmbərin *(s)* yalnız Həzrət Əlinin *(ə)* tərəfdarlarına istiğfar diləməsi önə çəkilir. Bu, o Həzrətin *(ə)* və tərəfdarlarının haqq olduğuna daha bir dəlildir. Bundan başqa, hədisdə qeyd olunan Həzrət Əli *(ə)* üçün istiğfar dedikdə heç də o

---

[625] Şeyx Səduq, Amali, səh. 237, hədis № 8 və İləluş Şərayi, c. II, səh. 473-474, hədis № 35.
[626] حاشية شواهد التنزيل/ ج1/ ص379 (نقلًا) عن تاريخ دمشق لابن عساكر/ ج20/ ص52.
[627] ديوان السيد الحميري/ حرف العين.

Həzrətin *(ə)* günahkar olması kimi başa düşülməməlidir. Əksinə, burada əsas məqsəd İmam Əlinin *(ə)* fəziət və dərəcəsinin yüksəlməsinə işarədir. Necə ki, Peyğəmbərin *(s)* *"Mən özüm üçün gündə yetmiş dəfə istiğfar edirəm"* hədisinin mənası o Həzrətin *(s)* günahkar olmasına aid deyildir.

Bütün bu deyilənlərdən əlavə, İmam Əli *(ə)* və tərəfdarları üçün Peyğəmbərin *(s)* istiğfar etməsi bir daha onların Allah yanında, xüsusilə də Qiyamət günündə nicat tapmalarına dəlildir.

Həmçinin, ayədə diqqəti çəkən digər məqam da vardır. Belə ki, Allah-Təala ayədə möminlərin Ona itaət etmələrinin vacibliyini qeyd etməklə yanaşı, İslam Peyğəmbərinə *(s)* itaət etməyin də onlar üçün vacib olduğunu buyurmuşdur. Bu itaət isə əslində Allah-Təalanın Özünə itaət hesab olunur.

Qeyd etmək lazımdır ki, "Ulu" və "Uli" sözləri ərəb dili qrammatikasına görə, "zu", yəni sahib sözünün cəm formasıdır. "Əmr" sözü isə iş, məqam, rütbə, fərman, göstəriş və s. kimi mənalar daşıyır. Deməli, ayədə buyurulmuş ***"ulul-əmr"*** sözü doğma ana dilimizə ***"əmr və fərman sahibləri"*** kimi tərcümə olunur. Təfsir və hədis kitablarında bu mövzuyla əlaqədar nəql olunan müxtəlif rəvayətlər sözügedən ayənin nümunəsi baxımından bir-birini inkar etsə də onları nəql etmək məcburiyyətindəyik:

"Abdullah bin Abbas nəql edir ki, İslam Peyğəmbəri *(s)* Xalid bin Vəlidin başçılığı ilə (müşrik qəbilələrdən biri ilə döyüşmək üçün) kiçik bir qoşun göndərdi. Əmmar Yasir də onunla birgə idi. O qəbilədən bir nəfər Əmmar Yasirin yanına gəlib İslam dinini qəbul etdi və ondan aman (toxunulmazlıq haqqında fərman, yaxud vəd) istədi. Əmmar Yasir özü ona aman verdi. Xalid bin Vəlid isə Əmmarın bu işindən bərk qəzəblənib onunla savaşdı... Nəhayət, yaranmış mübahisəni həll etmək məqsədi ilə Peyğəmbərə *(s)* şikayətləndikdə İslam Peyğəmbəri *(s)* Əmmar Yasirə bir daha icazəsiz başqasına aman verməməsini tapşırdı, eyni zamanda onun o şəxsə verdiyi amanı da qəbul etdi. Sonra bu ayə ("ən-Nisa", 59) nazil oldu və əmr sahiblərinə itaət etməyin vacib olduğunu müsəlmanların nəzərinə çatdırdı".

Bu rəvayətdə deyilir ki, Xalid bin Vəlid Peyğəmbərin *(s)* hüzurunda Əmmar Yasirlə savaşıb ona nalayiq söz dedikdə Rəsulullah *(s)* ona buyurdu: *"Ey Xalid! Əmmara nalayiq söz demə. Hər kəs ona nalayiq söz desə, Allah da ondan Öz inayətini kəsər. Hər kəs Əmmarı qəzəbləndirsə, Allah da ona qarşı qəzəb edər və hər kəs Əmmara lənət göndərsə, Allah da ona lənət edər".*[628]

[628] Bax: əl-Vahidi ən-Nişapuri, Əsbabun-nüzul, səh. 131-132; ət-Təbəri, Camiul-bəyan ən təvili ayil-Quran, c. IV, səh. 148, 5-ci hissə; İbn Kəsir, Təfsirul-Quranil-əzim, c. I, səh. 530; əs-Süyuti, əd-Dürrül-mənsur fit-təfsiril-məsur, c. II, səh. 573-574.

"Mücahid nəql edir ki, bu ayə ("ən-Nisa", 59) İslam Peyğəmbəri *(s)* (Təbuk döyüşünə gedərkən) Əli bin Əbi-Talibi *(ə)* Mədinə şəhərində öz canişini təyin etdiyi zaman nazil olmuşdur. Həmin vaxt Əli *(ə)* Peyğəmbərə *(s)* xitabən ərz etmişdir: *"*(Ya Peyğəmbər!) *Məni qadınların və uşaqların yanında qoyub gedirsənmi?"* Peyğəmbər *(s)* isə buyurmuşdur: *"Mənim üçün Harunun Musaya olduğu nisbət və məqamda olmağına razı deyilsənmi?..."*.

"Abdullah bin Abbasın nəql etdiyi digər rəvayətdə deyilir ki, bu ayə ("ən-Nisa", 59) Abdullah bin Həzafənin İslam Peyğəmbəri *(s)* tərəfindən kiçik bir qoşunla müharibəyə göndərildiyi zaman onun haqqında nazil olmuşdur".

Qeyd olunmuş hədislər, hədis elmi baxımından mötəbər sayılsa belə, onlara əsaslanıb bu ayəni ("ən-Nisa", 59) yalnız onun nazil olduğu zamana və adları sadalanmış şəxslərə aid etmək heç cür qənaətbəxş sayıla bilməz. Çünki, Qurani-Kərim yalnız müəyyən bir zaman və ya müəyyən bir millət üçün nazil olmamış, əksinə bütün zamanlar və millətlər üçün göndərilmişdir. Deməli, yuxarıda qeyd etdiyimiz hədislər ayəni yalnız müəyyən bir zaman və ya məkana aid etmədən, yalnız nazil olma səbəbini aydınlaşdırır.

Unutmamalıyıq ki, Peyğəmbərin *(s)* təyin etdiyi rəhbər və başçıya itaət etmək müqəddəs şəriət çərçivəsində vacib sayılır.

Həmçinin, bunu da qeyd etmək lazımdır ki, ***"əmr sahibləri"*** ("ən-Nisa", 59) ayəsi heç də üç dəfə ayrı-ayrı hadisələrdə nazil olmamışdır. Əksinə, qeyd olunmuş rəvayətlərin hər üçü mötəbər sayıldığı halda, bu ayə bir dəfə nazil olmuş, qalan iki dəfə isə çox güman ki, İslam Peyğəmbəri *(s)* və müsəlmanlar tərəfindən təkrar edilmiş və xatırlanmışdır.

İtaətkarlıq məsələsinin hər bir insanın dini, dünyəvi, eləcə də uxrəvi həyat və müqəddəratında mühüm rola malik olduğunu nəzərə alsaq ***"əmr sahibləri"*** ayəsinin hansı əhəmiyyətə malik olmasının, habelə ***"əmr sahibləri"***ndən məqsədin hansı şəxslər olmasının əsaslı bir sual olaraq hər bir müsəlmanı maraqlandıracağı aydın olar. Elə buna görə də hər bir müsəlman şəxsi və məzhəbi təəssübkeşliyini kənara qoyaraq ayədə buyurulmuş ***"əmr sahibləri"***nin hansı şəxslər olduğunu aydınlaşdırmalı, bu vasitə ilə özünü dünya azğınlığı və Axirət peşmançılığından qoruyub səadətə nail olması üçün şərait yaratmalıdır.

Allah-Təala bu ayədə ***"özünüzdən olan əmr sahibləri"*** ifadəsindən istifadə edir. Bu, çox incə bir mənaya malikdir. Yəni, ***"əmr sahibləri"*** ilahi mələk deyil, zahirdə sizin kimi və sizin özünüzdən sayılırlar. Onlar əmr və məqam sahibləri olduğu üçün siz müsəlmanlar, onlara itaət etməlisiniz.

Ayədə buyurulmuş ***"əmr sahibləri"***nin iki nümunəsi vardır:

1. ***"Əmr sahibləri"***nin nisbi nümunəsi. Sözügedən nümunədən məqsəd müsəlmanlar arasında xalqın rəhbərliyini qanuni yolla ələ alan müəyyən rəhbər və hakimlərdir. Bu, ayədə buyurulmuş ***"ulul-əmr"***, yəni ***"əmr sahibləri"*** sözünün ifadə etdiyi ilkin və əhatəli mənadan əldə olunur. Eyni zamanda, ağıl da bu sözü təsdiq edir. Çünki, xalqın rəhbərliyini ələ almış əmr sahibinə itaət etməmək, cəmiyyətdə hərc-mərclik və özbaşınalığın artmasına səbəb olur. Bu isə həm ağıl, həm də müqəddəs şəriət nöqteyi-nəzərindən mənfi hal sayılır. Unutmamalıyıq ki, bu növ rəhbər və hakimlərə itaət etmək heç də tam və mütləq şəkildə deyil, əksinə müəyyən şərtlər əsasındadır. Bu şərtlər isə aşağıdakılardan ibarətdir:

a) rəhbər və hakimlərin verdiyi göstərişlərin xalqın mənafeyini təmin edən müəyyən bir quruluşun möhkəmlənməsi naminə verilməsi;

b) bu göstərişlərin müqəddəs İslam şəriətinə uyğun olması, yaxud açıq-aşkar haram (günah) olmaması;

Elə buna görə də onların haqqında ***"əmr sahibləri"***nin nisbi nümunəsi ifadəsini işlədirik. Çünki, onların "əmr sahibi" olmaları tam və mütləq şəkildə deyil, yalnız yuxarıda göstərilən müəyyən şərtlər əsasındadır.

İmam Əli *(ə)* nəql edir ki, İslam Peyğəmbəri *(s)* buyurmuşdur: *"Allahın haram etdiyi əməllərdə heç kimə itaət etmək olmaz"*.

Deməli, bu kimi şəxslərin rəhbərlik və hakimiyyətləri heç də tam və mütləq şəkildə deyil. Buna görə də onları ***"əmr sahibləri"***nin həqiqi və mütləq nümunəsi kimi qələmə vermək olmaz. Bu, həm ağıl, həm Quran ayələri, həm də qeyd olunmuş hədislərdən əldə olunan nəticədir.

2. ***"Əmr sahibləri"***nin həqiqi və mütləq nümunəsi. Bu nümunədən məqsəd isə müsəlmanların həqiqi rəhbər və hakimi sayılan ilahi rəhbərlərdir. Onlar İslam Peyğəmbəri *(s)*, habelə o Həzrətin *(s)* həqiqi canişini və xələfləri olan məsum imamlardır *(ə)*. Bu ***"əmr sahibləri"*** ayəsində mövcud olan ümumi və mütləq ifadədən, ağılın çıxardığı nəticədən və mötəbər hədislərin məzmunundan əldə olunur. Belə ki, Allah-Təala bu ayədə İslam Peyğəmbəri *(s)* və ***"əmr sahibləri"***inə mütləq şəkildə və heç bir şərt qoyulmadan itaət etmək göstərişi vermişdir. Halbuki, Allah-Təalanın məsum olmayan müəyyən rəhbərlər haqqında mütləq şəkildə və heç bir şərt qoymadan itaət göstərişi verməsi, həm ağıl, həm Qurani-Kərim, həm də hədislər baxımından qeyri-mümkün bir məsələ sayılır. Deməli, ayədəki mütləq ifadə ***"əmr sahibləri"***nin bütün hallarda və bütün sahələrdə hər növ eyib, günah və səhvdən məsum olduqlarına bir sübutdur.

Digər tərəfdən, Allah-Təala Qurani-Kərimdə müsəlmanlar üçün demək olar ki, Özü, İslam Peyğəmbəri *(s)* və ***"əmr sahibləri"***ndən başqa heç kimin itaətini tam və mütləq şəkildə vacib etməmişdir. Hətta, Quranda Allahın yeganəliyindən sonra haqqında çoxlu təkid edilən valideyn barəsində belə buyurulur: ***"Biz insana ata-anasına yaxşılıq etməyi*** (onlarla gözəl davranmağı) ***tövsiyə etdik.*** (Ey insan!) ***Əgər*** (valideynlərin) ***bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, onlara itaət etmə. Hamınız*** (Qiyamət günü) ***Mənim hüzuruma qayıdacaqsınız. Mən də*** (dünyada) ***nə etdiklərinizi sizə bir-bir xəbər verəcəyəm!"***[629]

Göründüyü kimi, bu ayədə valideynə yaxşılıq etmək göstərişi müəyyən şərt əsasında qeyd olunmuşdur. Bütün bunlar isə məsum imamların *(ə)* həqiqi ***"əmr sahibləri"*** olduqlarını deməyə tam əsas verir.

Ayənin bu təhlilinə sübut olan hədislər müxtəlif hədis və təfsir kitablarında mövcuddur. Biz burada onlardan bir neçəsini qeyd edirik:

1) Cabir bin Abdullah əl-Ənsari nəql edir ki, Allah-Təala Öz Peyğəmbərinə *(s)* ***"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin!"*** - deyə buyurduğu ayəni nazil etdikdə soruşdum: "Ya Rəsulullah *(s)*! Allahı və Onun Elçisini *(s)* tanıdıq. Lakin Allah Öz itaətini sənin itaətinlə yanaşı buyurduğu əmr sahibləri kimlərdir?" O Həzrət *(s)* buyurdu: *"Ey Cabir! Onlar mənim xələflərim və məndən sonra müsəlmanların imamlarıdırlar..."*.[630]

Qeyd etmək lazımdır ki, Peyğəmbər *(s)* sözünün davamında On İki İmamın *(ə)* adını sadalamışdır.

2) İmam Əli *(ə)* buyurur: *"Həqiqətən, Allah-Təala Peyğəmbərə itaət etməyi vacib etmişdir. Çünki, Peyğəmbər pak və məsumdur. Heç vaxt* (xalqı) *günaha doğru çəkməz. O, əmr sahiblərinə itaət etməyi də vacib etmişdir. Çünki, onlar da pak və məsumdurlar. Heç vaxt* (xalqı) *günaha doğru çəkməzlər"*.

3) İmam Baqir *(ə)* bu ayəni oxuduqdan sonra buyurmuşdur: *"*(Allah-Təala bu ayədə) *xüsusilə bizi nəzərdə tutmuş* (və) *Qiyamətədək bizim itaətimizi bütün möminlərə vacib etmişdir"*.

4) İmam Baqir *(ə)* digər bir hədisdə bu ayə haqqında buyurur: *"*(Ayədə buyurulmuş ***"əmr sahibləri"***) *Qiyamət gününədək Əli və Fatimənin övladlarından olan imamlardır"*.

5) İmam Sadiq *(ə)* bu ayə haqqında buyurur: *"*(Ayədə buyurulmuş ***"əmr sahibləri"***) *Əhli-Beytdən olan imamlardır"*.

---

[629] "əl-Ənkəbut", 8.

[630] Əllamə əl-Hüveyzi, Təfsiru nurus-səqələyn, c. I, səh. 499.

İslam Peyğəmbəriylə *(s)* ***"əmr sahibləri"***nin itaətinin birgə bəyan edilməsindən belə nəticə almaq olar ki, həqiqi "əmr sahibləri"nə itaət etmək, əslində İslam Peyğəmbərinə *(s)* itaət etmək, o Həzrətə *(s)* itaət etmək isə Allaha itaət etmək deməkdir. Belə ki, Allah-Təala ayənin davamında belə buyurur: ***"Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və Qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu, daha xeyirli və nəticə etibarilə daha yaxşıdır"***. İmam Əli *(ə)* bu barədə buyurur: *"Hər hansı bir işi* ***"Allaha həvalə edin!"*** *demək onu Quranın açıq-aşkar buyruqları ilə,* ***"Peyğəmbərə həvalə edin"*** *isə o Həzrətin (s) dolğun və mübahisəli olmayan Sünnəsi ilə uyğunlaşdırmaqdır. Biz Peyğəmbərin Əhli-Beytiyik.* (Biz Quranın) *aydın hökmünü Onun Kitabından əldə edib mütəşabih* (oxşar) *ayələrini ayırd edir, habelə qüvvədən salınmışı* (ayə və göstərişləri)... *tanıyırıq"*.

Bütün bunlar onu deməyə əsas verir ki, Peyğəmbərin *(s)* mübarək həyatı dövründə o Həzrətin *(s)* özünə, vəfatından sonra isə Sünnəsinə və daha dəqiq ifadəylə desək, Rəsulullahın *(s)* həqiqi xələfləri sayılan və Sünnəsini olduğu kimi müsəlmanlara çatdıran məsum Əhli-Beytinə *(ə)* tapınmaq lazımdır. Bu, ayədə buyurulduğu kimi, ***"daha xeyirli və nəticə etibarilə daha yaxşıdır"***.[631]

**((وَلَهَدَيْناهُمْ صِراطاً مُسْتَقِيماً)).النساء/ 68.**
**روى العلاّمة البحراني (قده) عن (الحمويني) الحنفي بإسناده المتصل (المذكور) إلى خيثمة الجعفي، عن أبي جعفر الباقر أنّه قال:**
**(نحن العلم المرفوع للخلق، من تمسّك بنا لحق، ومن تأخر عنّا غرق، ونحن قادة الغُرِّ المحجّلين.**
**ونحن خيرة الله.**
**ونحن الطريق الواضح، والصراط المستقيم)**[632]

***"Və onları düz yola yönəldərdik"*** ayəsinin təfsirində Əllamə Bəhrani əl-Həməvini əş-Şafeidən müttəsil sənədlə, onun Xeysəmə əl-Cufidən, onun da Əbu Cəfərdən *(ə)* - İmam Baqir *(ə)* - belə nəql etdiyini yazır: *"Biz xalq üçün elm mənbəyik. Hər kəs bizdən yapışsa, haqqa çatar. Hər kəs bizdən geri qalsa, qərq olar. Biz Allah yanında üzü ağ olanların rəhbəri və Allahın seçilmişləriyik. Bizik açıq-aydın yol və bizik Siratəl-müstəqim"*.

**((وَمَنْ يُطِعِ اللهَ وَالرَّسُولَ فَأُولئِكَ مَعَ الَّذِينَ أَنْعَمَ اللهُ عَلَيْهِمْ مِنَ النَّبِيِّينَ وَالصِّدِّيقِينَ وَالشُّهَداءِ وَالصَّالِحِينَ وَحَسُنَ أُولئِكَ رَفِيقاً * ذلِكَ الْفَضْلُ مِنَ اللهِ وَكَفى بِاللهِ عَلِيماً)).النساء/ 69-70.**
**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: أخبرنا عقيل بن الحسين (بإسناده المذكور) عن عبد الله بن عباس في قوله تعالى:**
**((ومن يطع الله)) يعني: في فرائضه.**
**((والرسول)) في سننه.**

[631] Bax: http://www.al-shia.org/html/azr/quran.

[632] غاية المرام/ ص246.

**((فَأُولٰئِكَ مَعَ الَّذِينَ أَنْعَمَ اللهُ عَلَيْهِمْ مِنَ النَّبِيِّينَ وَالصِّدِّيقِينَ)) يعني: علي بن أبي طالب، وكان أول من صدّق برسول الله (صلى الله عليه وآله وسلّم).**
**(والشهداء) يعني: علي بن أبي طالب، وجعفر الطيار، وحمزة بن عبد المطلب، والحسن، والحسين، هؤلاء سادات الشهداء.**
**((والصالحين)) يعني: سلمان، وأبو ذر، وصهيب، وخبّاب، وعمّار ((وحسن أولئك)) أي الأئمّة الأحد عشر.**
**((رفيقاً)) يعني في الجنّة.**
**((ذلك الفضل من الله وكفى بالله عليماً)) منزل علي وفاطمة والحسن والحسين ومنزل رسول الله، وهم في الجنّة واحد).**[633]

***"Allaha və Peyğəmbərə itaət edənlər*** (Axirətdə) ***Allahın nemətlər verdiyi nəbilər*** (peyğəmbərlər)***, siddiqlər*** (tamamilə doğru danışanlar, etiqadı dürüst, peyğəmbərləri hamıdan əvvəl təsdiq edən şəxslər)***, şəhidlər və salehlərlə*** (yaxşı əməl sahibləriylə) ***bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşlardır!"***; ***"Bu mükafat Allah tərəfindəndir.*** (Hər şeyi) ***bilən Allah*** (sizə) ***kifayət edər!"***

Qeyd etdiyimiz ayələrin təfsiri haqqında Hakim əl-Həskani əl-Hənəfi yazır: "Əqil bin Hüseyn, Abdullah bin Abbasdan bizə xəbər verib dedi ki, Allahın bu ayəsindəki ***"Allaha itaət edənlər"*** ifadəsi "Onun vacib etdiklərinə əməl edənlər", ***"Peyğəmbərə itaət edənlər"*** ifadəsi də "Peyğəmbərinin *(s)* Sünnəsinə əməl edənlər" mənasındadır. ***"Allahın nemətlər verdiyi nəbilər*** (peyğəmbərlər)***, siddiqlər*** (tamamilə doğru danışanlar, etiqadı dürüst, peyğəmbərləri hamıdan əvvəl təsdiq edən şəxslər)***"*** dedikdə isə məqsəd Əli bin Əbu Talibdir *(ə)*. Çünki, o, ilk olaraq Peyğəmbəri *(s)* təsdiq edəndir. ***"Şəhidlər"*** dedikdə də məqsəd yenə Əli *(ə)*, Cəfər Təyyar, Həmzə bin Əbdül-Mütəllib, Həsən *(ə)* və Hüseyndir *(ə)*. Onlar şəhidlərin ağasıdırlar. ***"Salehlər"*** sözündən məqsəd Salman, Əbuzər, Süheyb, Xəbbab və Əmmardır. ***"Onlar necə də gözəl"*** sözündə isə məqsəd On Bir İmam *(ə)*, ***"yoldaşlar"*** sözündə məqsəd isə Cənnətdə olmalarıdır. ***"Bu mükafat Allah tərəfindəndir.*** (Hər şeyi) ***bilən Allah*** (sizə) ***kifayət edər!"*** ayəsi Əlinin *(ə)*, Fatimənin *(ə)*, Həsənin *(ə)* və Hüseynin *(ə)* məqamlarına işarədir ki, onlar da Cənnətdə bir yerdədirlər".

**وأخرج علاّمة الهند، عبيد الله بسمل (امرتسري) في كتابه الكبير في مناقب أمير المؤمنين، عن ابن عباس قال: قال علي يا رسول الله هل نقدر على أنْ نزورك في الجنّة؟**
**قال (صلى الله عليه وآله وسلّم): يا علي إنّ لكل نبي رفيقاً، وهو أول من أسلم من أُمّته.**
**فنزلت هذه الآية:**

---

[633] شواهد التنزيل/ ج1/ ص153-154.

**((فَأُولئِكَ مَعَ الَّذِينَ أَنْعَمَ اللهُ عَلَيْهِمْ مِنَ النَّبِيِّينَ وَالصِّدِّيقِينَ وَالشُّهَداءِ وَالصَّالِحِينَ وَحَسُنَ أُولئِكَ رَفِيقاً)).**
**فدعا رسول الله (صلى الله عليه وسلّم) علياً فقال: إنّ الله تعالى قد أنزل بيان ما سألت: فجعلك رفيقي، لأنك أول من أسلمت، وأنت الصديق الأكبر).**[634]

Əllamə əl-Hind ləqəbli Abdullah əl-Bəsməl "Mənaqibu Əmiril-möminin *(ə)*" adlı böyük əsərində İbn Abbasdan nəqlən yazır: "Əli *(ə)* Peyğəmbərə *(s)* sual etdi: *"Ya Rəsulullah, biz səni Cənnətdə ziyarət edəcəyikmi?!"* Peyğəmbər *(s)* buyurdu: *"Ya Əli, hər bir peyğəmbərin yoldaşı vardır! O, ilk iman gətirən şəxs olur"* . Elə bu zaman ***"Allahın nemətlər verdiyi nəbilər*** (peyğəmbərlər)***, siddiqlər*** (tamamilə doğru danışanlar, etiqadı dürüst, peyğəmbərləri hamıdan əvvəl təsdiq edən şəxslər)***, şəhidlər və salehlərlə*** (yaxşı əməl sahibləriylə) ***bir yerdə olacaqlar. Onlar necə də gözəl yoldaşlardır!"*** ayəsi nazil oldu. Peyğəmbər *(s)* Əlini *(ə)* çağırıb buyurdu: *"Allah sənin sualını açıqladı. Səni mənim yoldaşım qərar verdi. Çünki, sən mənə ilk iman gətirənsən, sən Siddiqi-əkbərsən!"*

**وأخرج أبو الخير، إسماعيل بن يوسف الطالقاني القزويني في كتاب (الأربعين المُنتقى) (بسنده المذكور) عن أبي ذر قال: سمعت النبي (صلى الله عليه وسلّم) يقول لعلي...**
**(... وأنت الصديق الأكبر، والفاروق الذي يفرق بين الحق والباطل...).**[635]

Əbulxeyir İsmayıl bin Yusuf Taliqani əl-Qəzvini "əl-ərbəinəl-müntəq" adlı kitabında sənədli şəkildə Əbu Zərdən nəql edir: "Peyğəmbərdən *(s)* eşitdim ki, Əliyə *(ə)* buyururdu: *"Siddiqi-əkbər və haqla batili ayırd edən faruq sənsən!"*

**11- ((فَأَمَّا الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحاتِ فَيُوَفِّيهِمْ أُجُورَهُمْ وَيَزِيدُهُمْ مِنْ فَضْلِهِ)).النساء/ 173.**
**أخرج عالم الأحناف الحافظ الحسكاني، قال: حدثني علي بن موسى بن إسحاق (بسنده المذكور) عن علي بن بذيمة، عن عكرمة، عن ابن عباس قال:**
**ما في القرآن آية ((الذين آمنوا وعملوا الصالحات)) إلاّ وعلي أميرها وشريفها، وما من أصحاب محمد رجل إلاّ وقد عاتبه الله، وما ذكر علياً إلاّ بخير.**[636]

**"**(Allah) ***iman gətirənlərin və yaxşı işlər görənlərin mükafatlarını büsbütün verəcək, üstəlik Öz nemətindən onlar üçün*** (bir qədər) ***artıracaqdır.*** (Allaha ibadət etməyi) ***özlərinə sığışdırmayanları və təkəbbür göstərənləri isə acı bir əzaba düçar edəcəkdir! Onlar özlərinə Allahdan savayı nə bir dost, nə də havadar tapacaqlar!"*** ayəsi haqqında Hakim əl-Həskani deyir: "Mənə Əli bin Musa bin İshaq sənədli şəkildə Əli bin Mü-

[634] أرجح المطالب/ ص22.
[635] كتاب الأربعين المنتقى مخطوط الحديث (28).
[636] شواهد التنزيل/ ج1/ ص21.

zeymədən, o, İkrimədən, o da İbn Abbasdan nəql edib dedi: "Quranda elə bir **"**(Allah) ***iman gətirənlərin və yaxşı işlər görənlərin"*** ifadəsi yoxdur ki, orada Əliyə *(ə)* işarə olmasın. Muhəmmədin *(s)* səhabələrindən elə bir kişi yoxdur ki, Allah onu qınamamış olsun. Yalnız Əlidir *(ə)* ki, Allah onu həmişə xeyirlə yad edib".

Əgər biz Qurani-Kərimdə bu ifadələrin təkrar-təkrar işləndiyini saysaq, o zaman belə məlum olacaqdır ki, İmam Əlinin *(ə)* fəzilətləri Quranda dəfələrlə təkrar olunmuşdur.

## *4.5. İMAM ƏLİ (Ə) "ƏL-MAİDƏ" SURƏSİNDƏ*

Bir hədisdə nəql olunur ki, Peyğəmbər *(s)* "Həccətul-vida" xütbəsində buyurmuşdur: *"Mənə nazil olmuş son surə "Maidə" surəsidir. Onun halalını halal, haramını haram bilin"*.[637] Bəzi rəvayətlərdən də məlum olur ki, "əl-Maidə" surəsi Peyğəmbərin *(s)* vəfatından iki-üç ay qabaq nazil olmuşdur.

Sözügedən surənin böyük bir hissəsində İslam hökmləri bəyan olunur. Əhdə vəfa, ictimai ədalət, hədd və qisas hökmləri, ədalətə şahidlik, qətlin haram edilməsi, halal və haram qidalar, dəstəmaz və təyəmmüm bu surədə bəyan olunmuş mövzulardandır.

Surənin başqa bir hissəsində Əhli-kitabın, yəni yəhudilərin və məsihilərin batil, yersiz, şirkli əqidələri haqqında danışılır. Ayələrdə höccət tamamlanaraq bütün bəhanələrə cavab verilir, yəhudilər və məsihilər yanlış yol tutduqları üçün qorxudulur. Eləcə də, surədə kitab əhlinin öz peyğəmbərləri Həzrət Musa *(ə)* və Həzrət İsa *(ə)* ilə xoşagəlməz rəftarlarına işarə olunur.

"əl-Maidə" surəsində bəyan olunmuş çox mühüm bir mövzu da vilayət və imamət mövzusudur. Belə ki, mübarək surədə keçən ayələr İslam Peyğəmbərinin *(s)* vəfatından sonra cəmiyyətə rəhbərlik məsələsini dəqiq şəkildə aydınlaşdırır.

"əl-Maidə" surəsinin bir neşə ayəsində Həzrət İsanın *(ə)* səhabələrinin asimani süfrə istəyi ilə bağlı əhvalat zikr olunur: ***"Onu da xatırla ki, o zaman həvarilər demişdilər: "Ya Məryəm oğlu İsa! Rəbbin bizə göydən*** (yeməklə dolu) ***bir süfrə göndərə bilərmi? O*** (İsa)***: "Əgər möminsinizsə, Allahdan qorxun!" - demişdi"***; **"**(Həvarilər) ***demişdilər: "Biz istəyirik ki, ondan yeyək, ürəklərimiz sakit olsun, sənin bizə doğru dediyini bilək və ona*** (süfrənin göydən enməsi möcüzəsini görməklə sənin peyğəmbərliyi-

[637] Minhacus-Sadiqin, c. III, səh. 162.

nin həqiqiliyinə) ***şahidlik edənlərdən olaq”***; ***“Məryəm oğlu İsa dedi: “Ya Allah, ey bizim Rəbbimiz! Bizə göydən bir süfrə nazil et ki, o bizim həm birincimiz, həm də axırıncımız*** (həm bizim, həm də bizdən sonra gələnlər) ***üçün bir bayram və Səndən*** (Sənin qüdrətindən) ***bir möcüzə olsun. Bizə ruzi ver ki, Sən ruzi verənlərin ən yaxşısısan!”***; ***“Allah buyurdu: “Mən onu sizə, əlbəttə, nazil edərəm. Lakin ondan sonra sizlərdən kim küfrə düşərsə, ona aləmlərdə olanlardan*** (bəşər övladından, zəmanə əhlindən) ***heç kəsə verməyəcəyim bir əzab verərəm!”***[638]

Bu əhvalatdan məlum olur ki, Həzrət İsanın *(s)* yoldaşları ondan bir çox möcüzələr görmələrinə baxmayaraq yersiz bir möcüzə həvəsinə düşmüşdülər. Həzrət İsa (ə) özü əslində möcüzə idi. Çünki, Allah-Təala onu atasız yaratmış və beşikdə ikən danışdırmışdı. Bundan əlavə, İsa *(ə)* anadan kor doğulanlara, xəstələrə şəfa verir, Allahın izni ilə ölüləri dirildirdi. Onlar Həzrət İsanın (ə) bir çox başqa möcüzələrindən də xəbərdar idilər. Bununla belə, Həzrət İsadan (ə) yenə də möcüzə tələb edirdilər. Həm də bu tələb Allah və Onun Peyğəmbəri *(ə)* qarşısında ədəbsizcəsinə irəli sürülürdü. Onlar dedilər: ***“Rəbbin bizə göydən*** (yeməklə dolu) ***bir süfrə göndərə bilərmi?”*** Onlar sanki Allahın mütləq qüdrətinə inanmır, belə bir işin mümkünlüyünə şübhə ilə yanaşırdılar. Bu istək yersiz və onun bəyanı ədəbsiz olduğundan ***“O*** (İsa)***: “Əgər möminsinizsə, Allahdan qorxun!” - demişdi”***. Lakin onlar dediklərinin üstündə dayanmışdılar: ***“***(Həvarilər) ***demişdilər: “Biz istəyirik ki, ondan yeyək, ürəklərimiz sakit olsun, sənin bizə doğru dediyini bilək və ona*** (süfrənin göydən enməsi möcüzəsini görməklə sənin peyğəmbərliyinin həqiqiliyinə) ***şahidlik edənlərdən olaq”***.

Həzrət İsa *(ə)* öz bəndəlik ədəbinə uyğun şəkildə Allaha dua etdi. Allah da Öz Peyğəmbərini *(ə)* ümidsiz qoymayıb saleh bəndəsi İsa bin Məryəmin *(ə)* duasını qəbul etdi. Lakin ***“Allah buyurdu: “Mən onu sizə, əlbəttə, nazil edərəm. Lakin ondan sonra sizlərdən kim küfrə düşərsə, ona aləmlərdə olanlardan*** (bəşər övladından, zəmanə əhlindən) ***heç kəsə verməyəcəyim bir əzab verərəm!”***[639]

Məsihilər bütün bu möcüzələri gördükdən sonra da Allaha şərik qoşdular, Allahdan sonra İsa *(ə)* və onun anası Məryəmi digər iki Allah kimi qəbul etdilər. Növbəti ayələrdə Qiyamət səhnəsi, İsa bin Məryəmin *(ə)* Allah hüzurunda şahidliyi haqqında danışılır: “(Ya Rəsulum!) ***Xatırla ki, o zaman*** (Qiyamət günü) ***Allah belə buyuracaq: “Ya Məryəm oğlu İsa! Sənmi insanlara: “Allahla yanaşı, məni və anamı da özünüzə tanrı bilin!” - demişdin?***

[638] “əl-Maidə”, 112-115.
[639] Əllamə Təbatəbai, əl-Mizan, c. VI, səh. 230-232.

(İsa cavabında) ***deyəcək: "Sən paksan və müqəddəssən! Haqqım çatmayan bir şeyi demək mənə yaraşmaz. Əgər bunu mən demiş olsaydım, Sən onu mütləq bilərdin. Sən mənim ürəyimdə olan hər şeyi bilirsən, mən isə Sənin zatında ola bilmirəm. Şübhəsiz ki, qeybləri bilən ancaq Sənsən!"***; ***"Mən onlara yalnız Sənin mənə etdiyin əmri çatdırıb belə demişəm: "Mənim də, sizin də Rəbbiniz olan Allaha ibadət edin!" Nə qədər ki, onların arasında idim, onlara şahid mən idim*** (onları belə nalayiq hərəkətlər etməyə qoymurdum) ***Sən məni*** (göyə qaldırıb dərgahına) ***qəbul etdikdən sonra onlara nəzarətçi Özün oldun. Yalnız Sən hər şeyə şahidsən!"***; ***"Əgər onlara əzab versən, şübhə yoxdur ki, onlar Sənin qullarındır. Əgər onları bağışlasan, yenə şübhə yoxdur ki, Sən yenilməz qüvvət sahibi, hikmət sahibisən!"*** (İstədiyin bəndəyə əzab verməyə, istədiyini bağışlamağa və hər hansı bir məsələni həkimanə həll etməyə qadir olan ancaq Sənsən!)***"***.[640]

Həmçinin, "əl-Maidə" surəsində əziz İslam Peyğəmbəri Həzrət Muhəmməd *(s)* kitab əhlinə müjdə verən, onları qorxudan kimi tanıtdırılır. Bildirilir ki, o Həzrətin *(s)* zuhuru ilə yəhudilərə və məsihilərə höccət, xəbərdarlıq tamamlandı. Bəli, Həzrət Muhəmməd (ə) təkcə müsəlmanlara yox, bütün bəşəriyyətə, eləcə də kitab əhlinə peyğəmbər göndərilmişdir: ***"Ey kitab əhli! Peyğəmbərlərin ardı-arası kəsildiyi bir dövrdə: "Bizə nə bir*** (Cənnətlə) ***müjdə verən, nə də bir*** (Cəhənnəm əzabı ilə) ***qorxudan kimsə gəldi" - deməməyiniz üçün sizə Peyğəmbərimiz (Muhəmməd) gəldi. Artıq sizə müjdə verən və qorxudan*** (xəbərdarlıq edən) ***kəs gəlmişdir. Allah hər şeyə qadirdir!"***[641]

Eyni zamanda, mübarək surədə vilayət və imamət məsələsi də aydınlaşdırılır: ***"Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki,*** (Allaha) ***namaz qılır və rükuda olduqları halda zəkat verirlər"***.[642] Bütün mənbələrdə qeyd olunmuşdur ki, rüku halında üzüyünü sailə, dilənçiyə zəkat verən yeganə şəxs Həzrət Əli (ə) olmuşdur.[643]

Mübarək surədə keçən növbəti ayədə buyurulur: ***"Hər kəs Allahı, Onun Peyğəmbərini və iman gətirənləri özünə dost tutsa*** (hər iki dünyada işləri yaxşı gedər)***. Şübhəsiz ki, qələbə çalanlar məhz Allahın firqəsidir*** (Allahı özünə hami və dost seçən şəxslərdir)***"***.[644] Ayədə Allah və Onun Rəsuluna *(s)*, eləcə də Əmirəl-mömininin (ə) vilayətinə tabe olanlar Allahın firqəsi kimi tanıtdırılır.

[640] "əl-Maidə", 116-118.
[641] "əl-Maidə", 19.
[642] "əl-Maidə", 55.
[643] Əllamə Təbatəbai, əl-Mizan, c. VI, səh. 20-34.
[644] "əl-Maidə", 56.

Yenə də, surədə keçən ayənin bir hissəsində belə buyurulur: ***"...Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi*** (Məkkənin fəthi, islamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyət dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i. a.) ***tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim..."***.[645] Ayənin bu hissəsində Həzrət Əlinin (ə) Peyğəmbər *(s)* tərəfindən imamət və canişinliyə təyin olunduğu Qədir-Xum hadisəsinə işarə olunur. Bu təyinatla din və Allahın neməti kamala çatır. Həmin gün kafirlər, İslam düşmənləri ümidsizliyə qərq olmuşdular. Onlar ümid edirdilər ki, Peyğəmbərin *(s)* vəfatından sonra İslamdan əvvəlki vəziyyət bərpa olacaq. Lakin bu təyinatdan sonra onların ümidləri puça çıxdı, İslamın aradan götürülməsi planları müvəffəqiyyətsizliyə uğradı.

"əl-Maidə" surəsində iyirmi iki ayə İmam Əlinin *(ə)* haqqında nazil olmuşdur. Bunlar 1, 2, 3, 6, 8, 9, 10, 11, 12, 16, 35, 44, 52, 54, 55, 56, 60, 67, 87, 95, 105 və 106-cı ayələrdir. Aşağıda həmin ayələri təqdim edirik:

**1- يا أَيُّهَا الَّذِينَ آمَنُوا أَوْفُوا بِالْعُقُودِ /1.**

***"Ey iman gətirənlər! Əhdlərə sadiq olun..."***;[646]

**2- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تُحِلُّوا شَعائِرَ اللهِ /2.**

***"Ey iman gətirənlər! Allahın müəyyən etdiyi mərasimə*** (Həcc mərasiminə)***, haram*** (hörmətli) ***aya*** (Həcc ayı hesab edilən Zülhiccəyə və ya Rəcəb, Zülqədə, Zülhiccə və Məhərrəm aylarına)***,*** (Kəbəyə gətirilən) ***qurbanlara, boynuna nişan taxılmış qurbanlıq heyvanlara, həmçinin Rəbbinin lütfünü və razılığını diləyərək Beytülhərama*** (müqəddəs evə) ***üz tutub*** (ziyarətə) ***gələnlərə hörmətsizlik etməyin!..."***;[647]

**3- الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي /3.**

***"...Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi*** (Məkkənin fəthi, İslamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyət dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i. a.) ***tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim..."***;[648]

**4- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذا قُمْتُمْ إِلَى الصَّلاةِ فَاغْسِلُوا /6.**

***"Ey iman gətirənlər! Namaza durduğunuz zaman üzünüzü və dirsəklərlə birlikdə*** (dirsəklərdən və ya dirsəklərə qədər) ***əllərinizi yuyun..."***;[649]

[645] "əl-Maidə", 3.
[646] "əl-Maidə", 1.
[647] "əl-Maidə", 2.
[648] "əl-Maidə", 3.
[649] "əl-Maidə", 6.

**5- يا أَيُّهَا الَّذِينَ آمَنُوا كُونُوا قَوَّامِينَ للهِ شُهَداءَ بِالْقِسْطِ /8.**

***"Ey iman gətirənlər! Allah qarşısında*** (borcunuzu yerinə yetirməkdə) ***sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır. Allahdan qorxun. Allah etdiklərinizdən xəbərdardır!"***;[650]

**6- وَعَدَ اللهُ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحاتِ /9.**

***"Allah iman gətirib yaxşı işlər görənlərə onlara bağışlanma və böyük mükafat gözlədiyini vəd buyurmuşdur!"***;[651]

**7- وَالَّذِينَ كَفَرُوا وَكَذَّبُوا بِآياتِنا أُولئِكَ أَصْحابُ الْجَحِيمِ /10.**

***"Kafir olub ayələrimizi təkzib edənlər isə cəhənnəmlikdirlər!"***;[652]

**8- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اذْكُرُوا نِعْمَتَ اللهِ عَلَيْكُمْ /11.**

***"Ey iman gətirənlər! Allahın sizə olan lütfünü xatırlayın ki,*** (bir dəfə) ***bir tayfa*** (Məkkə müşriklərini və ya Bəni-Sələb qəbiləsi) ***sizə əl qaldırmaq*** (hücum etmək) ***niyyətində olduğu zaman Allah onlara maneçilik törətmişdi. Allahdan qorxun. Möminlər yalnız Allaha təvəkkül etsinlər!"***;[653]

**9- وَلَقَدْ أَخَذَ اللهُ مِيثاقَ بَنِي إِسْرائِيلَ /12.**

***"Allah İsrail oğullarından əhd almışdı. Biz onlardan*** (özlərinə) ***on iki nəzarətçi*** (vəkil) ***göndərmişdik. Allah buyurmuşdu: "Mən sizinləyəm. Əgər namaz qılsanız, zəkat versəniz, peyğəmbərlərimə iman gətirib onlara kömək etsəniz, Allaha*** (Allah yolunda) ***gözəl bir borc*** (sədəqə) ***versəniz, əlbəttə, günahlarınızın üstünü örtər və sizi*** (ağacları) ***altından çaylar axan cənnətlərə daxil edərəm. Lakin bundan sonra sizdən hər kəs*** (əhdi pozaraq) ***küfr edərsə, o artıq doğru yoldan azmış olar!"***;[654]

**10- وَيَهْدِيهِمْ إِلى صِراطٍ مُسْتَقِيمٍ /16.**

***"Allah Öz lütfünə sığınanları onunla*** (Peyğəmbər və Quran vasitəsilə) ***əmin-amanlıq*** (sülh) ***yollarına yönəldər, onları öz iznilə zülmətdən nura çıxarar və düz yola istiqamətləndirər!"***;[655]

---

[650] "əl-Maidə", 8.
[651] "əl-Maidə", 9.
[652] "əl-Maidə", 10.
[653] "əl-Maidə", 11.
[654] "əl-Maidə", 12.
[655] "əl-Maidə", 16.

**11- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ وَابْتَغُوا إِلَيْهِ الْوَسِيلَةَ /35.**

***"Ey iman gətirənlər! Allahdan qorxun, Ona*** (Onun rəhmətinə və lütfünə qovuşmaq üçün) ***vəsilə*** (yol) ***axtarın.*** (Allah) ***yolunda cihad edin ki, nicat tapasınız!"***;[656]

**12- إِنَّا أَنْزَلْنَا التَّوْراةَ فِيها هُدىً وَنُورٌ /44.**

***"Şübhəsiz ki, Tövratı da Biz nazil etdik. Onda haqq yol və nur vardır.*** (Allaha) ***təslim olan peyğəmbərlər yəhudilər arasında onunla, din alimləri və fəqihlər isə kitabdan qorunub saxlanılanlarla*** (Tövratdan ələ gəlib çatan ayələrlə) ***hökm edərdilər. Onlar*** (peyğəmbərlər, din alimləri və fəqihlər) ***ona*** (Tövratın ilahi bir kitab olmasını) ***şahiddirlər.*** (Ey yəhudi alimləri və rəisləri!) ***İnsanlardan qorxmayın, Məndən qorxun. Mənim ayələrimi ucuz qiymətə satmayın. Allahın nazil etdiyi*** (kitab və şəriət) ***ilə hökm etməyənlər, əlbəttə, kafirdirlər!"***;[657]

**13- فَتَرَى الَّذِينَ فِي قُلُوبِهِمْ مَرَضٌ /52.**

***"Ona görə də qəlblərində mərəz*** (nifaq xəstəliyi) ***olanları onların*** (yəhudi və xaçpərəstlərin) ***içində vurnuxan və: "Bizə bir fəlakət üz verməsindən*** (İslamın məğlubiyyətindən) ***qorxuruq" - deyən görərsən. Amma, ola bilsin ki, Allah*** (möminlərə) ***bir zəfər gətirsin və Öz tərəfindən elə bir iş qursun ki, onlar*** (münafiqlər) ***ürəklərində gizlətdiklərindən*** (küfr və nifaqdan) ***peşman olsunlar"***;[658]

**14- يا أَيُّهَا الَّذِينَ آمَنُوا مَنْ يَرْتَدَّ مِنْكُمْ عَنْ دِينِهِ فَسَوْفَ يَأْتِي اللهُ بِقَوْمٍ /54.**

***"Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə,*** (bilsin ki) ***Allah*** (onun yerinə) ***elə bir tayfa gətirər ki,*** (Allah) ***onları, onlar da*** (Allahı) ***sevərlər. Onlar möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olar, Allah yolunda vuruşar və heç kəsin tənəsindən qorxmazlar. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah*** (öz lütfü ilə) ***genişdir,*** (O, hər şeyi) ***biləndir!"***;[659]

**15- إِنَّما وَلِيُّكُمُ اللهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُوا الَّذِينَ يُقِيمُونَ الصَّلاةَ /55.**

***"Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki,*** (Allaha) ***namaz qılır və rükuda olduqları halda zəkat verirlər"***;[660]

---

[656] "əl-Maidə", 35.
[657] "əl-Maidə", 44.
[658] "əl-Maidə", 52.
[659] "əl-Maidə", 54.
[660] "əl-Maidə", 55.

**16- وَمَنْ يَتَوَلَّ اللهَ وَرَسُولَهُ وَالَّذِينَ آمَنُوا /56.**

***"Hər kəs Allahı, Onun Peyğəmbərini və iman gətirənləri özünə dost tutarsa,*** (hər iki dünyada işləri yaxşı gedər)***. Şübhəsiz ki, qələbə çalanlar məhz Allahın firqəsidir*** (Allahı özünə hami və dost seçən şəxslərdir)***"***;[661]

**17- قُلْ هَلْ أُنَبِّئُكُمْ بِشَرٍّ مِنْ ذلِكَ مَثُوبَةً عِنْدَ اللهِ /60.**

***"De: "Allah yanında cəza etibarilə bundan*** (dediklərinizdən) ***daha pisini sizə xəbər verimmi? Allahın lənətlədiyi, qəzəbləndiyi, özlərini meymunlara, donuzlara və şeytanlara*** (bütlərə) ***ibadət edənlərə döndərdiyi şəxslər mövqecə daha pis və doğru yoldan daha çox azanlardır!"***;[662]

**18- يا أَيُّهَا الرَّسُولُ بَلِّغْ ما أُنْزِلَ إِلَيْكَ مِنْ رَبِّكَ /67.**

***"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni*** (Quranı) ***təbliğ et. Əgər*** (bunu) ***etməsən,*** (Allahın) ***risalətini*** (sənə həvalə edilən elçilik, peyğəmbərlik vəzifəsini) ***yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz!"***;[663]

**19- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تُحَرِّمُوا طَيِّباتِ ما أَحَلَّ /87.**

***"Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu pak nemətləri*** (özünüzə) ***haram etməyin və həddi aşmayın. Doğrudan da, Allah həddi aşanları sevməz!"***;[664]

**20- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَقْتُلُوا الصَّيْدَ وَأَنْتُمْ حُرُمٌ /95.**

***"Ey iman gətirənlər! İhramda olarkən ovu*** (əti yeyilən heyvanları) ***öldürməyin. Sizdən ovu qəsdən öldürən hər bir kəsin boynuna cəza və ya kəffarə düşür. Onun cəzası içərinizdən olan iki ədalətli şəxsin hökmü ilə öldürdüyünə bənzər*** (onun qiymətinə bərabər) ***bir heyvanı Kəbəyə çatası*** (Kəbənin yaxınlığında kəsilib oradakı yoxsullara paylanacaq) ***qurban etmək, kəffarəsi isə, gördüyü işin zərərini, acısını dadsın deyə,*** (öldürdüyü heyvanın dəyəri müqabilində) ***yoxsullara yedirtmək, yaxud ona bərabər*** (hərəsi üçün bir gün olmaq şərtilə yedirəcəyi yoxsulların sayı qədər) ***oruc tutmaqdır. Allah keçmişdə olanları bağışlamışdır. Hər kəs bundan sonra belə bir iş görsə, Allah ondan intiqam alar. Allah yenilməz qüvvət sahibi, intiqam sahibidir!"***;[665]

---

661 "əl-Maidə", 56.
662 "əl-Maidə", 60.
663 "əl-Maidə", 67.
664 "əl-Maidə", 87.
665 "əl-Maidə", 95.

**21- يا أَيُّهَا الَّذِينَ آمَنُوا عَلَيْكُمْ أَنْفُسَكُمْ /105.**

***"Ey iman gətirənlər! Nəfslərinizi qorumaq sizin borcunuzdur. Siz doğru yolda olsanız,*** (haqq yoldan) ***azanlar sizə heç bir zərər yetirə bilməzlər. Hamınızın axır dönüşü Allahadır. Allah etdiyiniz əməllər barəsində sizə xəbər verəcəkdir!"***;[666]

**22- يا أَيُّهَا الَّذِينَ آمَنُوا شَهادَةُ بَيْنِكُمْ إِذا حَضَرَ أَحَدَكُمُ الْمَوْتُ /106.**

***"Ey iman gətirənlər! Sizlərdən hər hansı birinizi ölüm haqladıqda vəsiyyət vaxtı aranızdan iki ədalətli şəxsi, səfərdə olduğunuz zaman başınıza ölüm müsibəti gəldikdə isə özünüzdən*** (müsəlman) ***olmayan iki nəfəri şahid tutun. Əgər*** (bu qeyri-müsəlman şahidlərin doğruluğuna) ***şübhə etsəniz, namazdan*** (əsr, ikindi namazından) ***sonra hər ikisini tutub saxlayın və onları: "Andımızı qohumlarımıza belə heç bir qiymətə satmarıq*** (qohumlarımızın lehinə belə yalandan şəhadət verməriк) ***və Allahın şahidliyini gizlətmərik. Yoxsa, şübhəsiz ki, günahkarlardan olarıq" - deyə Allaha and içdirin!"***[667]

**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا أَوْفُوا بِالْعُقُودِ)).المائدة/ 1.**
**أخرج العلاّمة (الشافعي) محمد بن أحمد بن عثمان بن قايماز الدمشقي، المعروف بـ (الذهبي) بسنده عن علي بن بذيمة، عن عكرمة، عن ابن عباس قال:**
**(ما نزلت آية فيها ((يا أيها الذين آمنوا)) إلاّ وعليٌّ رأسها وأميرها وشريفها، ولقد عاتب الله عزّ وجلّ أصحاب محمد (صلى الله عليه وآله) في غير آية من القرآن، وما ذكر علياً إلاّ بخير.**[668]

***"Ey iman gətirənlər! Əhdlərə sadiq olun..."*** ayəsi haqqında Zəhəbi əş-Şafei Əli bin Büzeymədən, onun İkrimədən, onun da İbn Abbasdan belə nəql etdiyini yazır: "Elə bir ***"Ey iman gətirənlər"*** ayəsi yoxdur ki, orada Əliyə *(ə)* işarə olmasın. Əli *(ə)* bu ayələrin başı, əmiri və şərəfidir. Allah Muhəmmədin *(s)* səhabələrinin hamısını tənqid edib, yalnız Əlidən *(ə)* başqa. Onu ancaq xeyirlə yad etmişdir".

**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تُحِلُّوا شَعائِرَ اللهِ)).المائدة/ 2.**
**روى الحافظ القندوزي (الحنفي) في ينابيع المودّة (بإسناده) عن علي بن أبي طالب أنّه قال ـ في خطبة له ـ:**
**(نحن الشعائر، والأصحاب، والخزنة، والأبواب).**[669]

***"Ey iman gətirənlər! Allahın müəyyən etdiyi mərasimə..."*** ayəsi haqqında Qunduzi əl-Hənəfi "Yənabiul-məvəddət" adlı məşhur əsərində sənəd-

[666] "əl-Maidə", 105.
[667] "əl-Maidə", 106.
[668] ميزان الاعتدال/ ج3/ ص311.
[669] ينابيع الموّدة/ ص135.

li şəkildə İmam Əliyə *(ə)* istinad edərək yazır: *"Biz Allahın mərasimləriyik (şəairiyik), dostlarıq, xəzinəyik, qapılarıq"*.

**((... الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الإِسْلاَمَ دِيناً)).المائدة/ 3.**
**أخرج العلاّمة (الحنفي) موفّق بن أحمد الخوارزمي في (مقتله) بسنده المذكور عن أبي سعيد الخدري قال: إنّ النبيّ (صلى الله عليه وسلّم) يوم دعا النّاس إلى علي في (غدير خم) أمر بما كانت تحت الشجرة من شوك فقمّ، وذلك يوم الخميس، ثم دعا النّاس إلى علي فأخذ بضبعه ثم رفعه حتى نظر النّاس إلى بياض إبطيهما، ثم لم يتفرقا حتى نزلت هذه الآية:**
**((الْيَوْمَ أَكْمَلْتُ لَكُمْ دِينَكُمْ وَأَتْمَمْتُ عَلَيْكُمْ نِعْمَتِي وَرَضِيتُ لَكُمُ الإِسْلاَمَ دِيناً)).**
**فقال رسول الله (صلى الله عليه وسلّم):**
**(الله أكبر على إكمال الدين، وإتمام النعمة، ورضا الرب برسالتي، والولاية لعلي، ثم قال: اللّهم والِ من والاه، وعادِ من عاداه، وانصر من نصره، وأخذُل من خذله).**[670]

***"...Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi*** (Məkkənin fəthi, islamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyət dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i. a.) ***tamamladım və sizin üçün din olaraq islamı bəyənib seçdim..."*** ayəsinin təfsirində Əllamə Xarəzmi əl-Hənəfi "Məqtəl" adlı məşhur əsərində sənədli şəkildə Əbu Səid əl-Xudriyə istinadən yazır: "Peyğəmbər *(s)* Qədir-Xum günündə insanları çağırıb ağac altında bir yerə topladı. O gün beşinci gün idi. Sonra insanları Əliyə *(ə)* tərəf çağırdı və onun əlindən tutub o qədər yuxarı qaldırdı ki, hər ikisinin qollarının altı göründü. Onlar bir-birlərindən ayrılmamış bu ayə nazil oldu. Peyğəmbər *(s)* buyurdu: *"Allahu əkbər! Din kamil oldu və nemət tamama yetdi. Allah mənim peyğəmbərliyimdən və Əlinin vilayətindən razı oldu"*. Peyğəmbər *(s)* daha sonra buyurdu: *"Ey Rəbbim, onunla dost olana dost, düşmən olana düşmən ol! Ona kömək edənə kömək ol, onu tək buraxanı özbaşına burax!"*

Xarəzmi daha sonra yazır:

**وروى هذا الحديث من الصحابة: عمر، وعلي، والبراء بن عازب، وسعد بن أبي وقّاص، وطلحة بن عبيد الله، والحسين بن علي، وابن مسعود، وعمّار بن ياسر، وأبو ذر، وأبو أيوب، وابن عمر، وعمران بن حصين، وبريدة بن الحصيب، وأبو هريرة، وجابر بن عبد الله، وأبو رافع مولى رسول الله، واسمه أسلم، وحبشي بن جنادة، وزيد بن شراحيل، وجرير بن عبد الله، وأنس، وحذيفة بن أسيّد الغفاري، وزيد بن أرقم، وعبد الرحمن بن يعمر الدؤلي، وعمرو بن الحمق، وعمر بن شرحبيل، وناجية بن عمر، وجابر بن سمرة، ومالك بن الحويرث، وأبو ذؤيب الشاعر، وعبد الله بن ربيعة (رضي الله عنهم).**[671]

"Bu hədisi səhabələrdən Ömər, Əli *(ə)*, Bərra bin Azib, Səd bin Əbu Vəqqas, Təlhə bin Übeydullah, Hüseyn bin Əli *(ə)*, İbn Məsud, Əmmar bin Yasir, Əbuzər, Əbu Əyyub, İbn Ömər, İmran bin Həsin, Büreydə bin Həsib, Əbu Hürüyrə, Cabir bin Abdullah, Əbu Rafe, Həbəşi bin Cünadə, Zeyd bin

[670] مقتل الحسين (عليه السلام) للخوارزمي/ ج1/ ص47-48.
[671] المناقب للخوارزمي/ ص80.

Şərahil, Cərir bin Abdullah, Ənəs, Hüzeyfə bin Üseyyid əl-Qəffari, Zeyd bin Ərqəm, Əbdürrəhman bin Yəmir əd-Duli, Əmr bin Həməq, Ömər bin Şərəhbil, Naciyə bin Ömər, Cabir bin Səmrə, Malik bin Hüveyris, Əbu Zueyb əş-Şair və Abdullah bin Rəbiə rəvayət etmişlər".

Xarəzmi bu hədisi "Mənaqibu Əli bin Əbu Talib *(ə)*"[672] əsərində də nəql etmişdir.

Qeyd etmək lazımdır ki, bu ayə təfsir əhlinin yanında "İkmal" ayəsi kimi tanınır. Bütün dövrlərdə yaşayan alimlər bu ayəyə təfsir yazmış və hər bir təfsirçi də ayrı-ayrılıqda ayənin Həzrət Əlinin *(ə)* imamətinə aid olduğunu qeyd etmişlər. Bu ayənin mühüm ayələrdən olduğunu nəzərə alaraq burada alimlərin dediklərini qeyd edirik.

Qeyd etdiyimiz kimi, "İkmal" ayəsi İmam Əlinin *(ə)* vilayəti haqqında nazil olmuş ayələrdəndir. Allah bu ayədə belə bəyan edir: ***"...Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi*** (Məkkənin fəthi, İslamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyət dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i. a.) ***tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim..."***. Ayənin yuxarıda söylədiyimiz kimi Qədir-Xumda, İmam Əlinin *(ə)* vilayətinin elanından sonra nazil olduğu bütün İslam məzhəblərinin qaynaqlarında səhih hədislərlə sabitdir. Həmin hədislərdən bəziləri aşağıdakılardır:

Firat bin İbrahim əl-Kufi, Əyyaşi, Qumi və Küleyni başda olmaqla bir çox mühəddis və müffəsir bu ayənin Qədir-Xumda nazil olduğuna dair hədislər rəvayət etmişlər. Küleyninin rəvayət etdiyi hədisdə nəql olunur:

**علي بن إبراهيم، عن ابيه، عن ابن أبي عمي، عن عمر بن اذينة، عن زرارة والفضيل بن يسا، وبكير بن أعين ومحمد بن مسلم وبريد بن معاوية وأبي الجارود جميعا عن أبي جعفر (عليه السلام) قال: أمر الله عزوجل رسوله بولاية علي وأنزل عليه " إنما وليكم الله ورسوله والذين آمنوا الذين يقيمون الصلاة ويؤتون الزكاة " وفرض ولاية أولي الامر، فلم يدروا ما هي، فأمر الله محمدا (صلى الله عليه وآله) أن يفسر لهم الولاية، كما فسر لهم الصلاة، والزكاة والصوم والحج، فلما أتاه ذلك من الله، ضاق بذلك صدر رسول الله (صلى الله عليه وآله) وتخوف أن يرتدوا عن دينهم وأن يكذبوه فضاق صدره وراجع ربه عزوجل فأوحى الله عزوجل إليه " يا أيها الرسول بلغ ما أنزل إليك من ربك وإن لم تفعل فما بلغت رسالته والله يعصمك من الناس " فصدع بأمر الله تعالى ذكره فقام بولاية علي (عليه السلام) يوم غدير خم، فنادى الصلاة جامعة وأمر الناس أن يبلغ الشاهد الغائب.**

"…Ömər bin Üzeynə Zürarə, Füzeyl bin Yəsar, Bükeyr bin Əyən, Məhəmməd bin Müslim, Büreyd bin Müaviyə və Əbülcaruddan, onlar da Əbu Cəfərdən *(ə)* - İmam Baqir *(ə)* - belə rəvayət etmişlər: *"Allah Peyğəmbərinə Əlinin vilayətini əmr etdi və ona bu ayəni endirdi:* ***"Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki,*** (Allaha) ***namazı***

---

[672] المناقب للخوارزمي/ ص80.

***qılır və rükuda olduqları halda zəkat verirlər".***[673] *Ayrıca, əmir sahibinin vilayətini vacib qıldı. Ancaq müsəlmanlar bunun nə demək olduğunu anlamadılar. Bunun üzərinə Allah Həzrət Muhəmmədə namaz, zəkat, oruc və Həcci açıqladığı kimi, vilayəti də onlara açıqlamasını əmr etdi. Bu əmr Allah tərəfindən gəldikdə Peyğəmbərin qəlbi onun* (bu əmrin) *qarşısında daraldı, bunu duyan bəzi kimsələrin dinlərindən dönmələrindən və özlərini yalanlamalarından təşvişə düşdü. Onun qəlbi bu təşvişlə sıxıldığından Rəbbinə müraciət etdi və Allah da ona bu ayəni nazil etdi:* ***"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni*** (Quranı) ***təbliğ et. Əgər*** (bunu) ***etməsən,*** (Allahın) ***risalətini*** (sənə həvalə etdiyi elçilik, peyğəmbərlik vəzifəsini) ***yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz!"***[674] *Bundan sonra Peyğəmbər Allahın əmrini açıq bir şəkildə bəyan etdi, Qədir-Xum günündə Əlinin vilayətini elan etdi. Bu səbəblə insanları camaat namazına çağırdı və hazır olanların orada olmayanlara bunu çatdırmasını əmr etdi".*

**قال عمر بن اذنية: قالوا جميعا غير أبي الجارود – وقال أبوجعفر (عليه السلام): وكانت الفريضة تنزل بعد الفريضة الاخرى وكانت الولاية آخر الفرائض، فأنزل الله عزوجل "اليوم أكملت لكم دينكم وأتممت عليكم نعمتي" قال أبوجعفر (عليه السلام): يقول الله عزوجل: لا انزل عليكم بعد هذه فريضة، قد أكملت لكم الفرائض.**

Ömər bin Üzeynə nəql edir: "Əbu Caruddan başqa hamısı deyiblər: "Əbu Cəfər *(ə)* - İmam Baqir *(ə)* - belə buyurdu: *"Vaciblər bir-birlərinin ardınca nazil olardı. Vilayət fərzlərin ən sonuncusudur. Allah bu ayəni endirdi:* ***"...Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi*** (Məkkənin fəthi, İslamın mövqeyinin möhkəmlənməsi, Cahiliyyət dövrünün bir sıra zərərli adətlərinin aradan qaldırılması və i. a.) ***tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim...".***[675] Əbu Cəfər *(ə)* - İmam Baqir *(ə)* buyurdu: *"Allah, bu ayədə bizə bunları söyləyir: "Bundan sonra üzərinizə hər hansı bir vacib enməyəcəkdir. Artıq sizin üçün vacibləri kamala yetişdirdim".*[676]

Xatırladaq ki, bu hədisin sənədindəki bütün ravilər siqə (güvənilən) və isnadı müttəsildir. Əllamə Məclisi "əl-Kafi"nin şərhi olan "Miratul-üqul" kitabında hədis haqqında yazır:

**الحديث الرابع: حسن**

"Dördüncü hədis: həsəndir".[677]

---

[673] "əl-Maidə", 55.
[674] "əl-Maidə", 67.
[675] "əl-Maidə", 3.
[676] Küleyni, əl-Kafi, c. I, səh. 173-174, hədis № 4.
[677] Əllamə Məclisi, Miratul-üqul, c. III, səh. 250.

Həmçinin, Şeyx Hadi ən-Nəcəfi bu hədisi “Mövsuat əhadisi Əhli-Beyt *(ə)*” adlı kitabında “əl-Kafi”dən nəqlən rəvayət etdikdən sonra deyir:

**الرواية صحيحة الإسناد**

“Rəvayətin sənədi səhihdir”.[678]

Adıçəkilən ayənin Qədir-Xum günü nazil olduğuna dair İbn Mordəveyh, Xətib əl-Bağdadi və İbn Əsakir kimi təfsir və hədis alimləri Əbu Hüreyrə və Əbu Səid əl-Xudridən dəyişik sənədlərlə hədislər rəvayət etmişlər. Xətib Bağdadi belə nəql edir:

**عبد الله بن علي بن محمد بن بشران أنا علي بن عمر الحافظ أنا أبو حبشون بن موسى بن ايوب الخلال نا علي بن سعيد الرملي نا ضمرة بن ربيعة القرشي عن ابن شوذب عن مطر الوراق عن شهر بن حوشب عن ابي هريرة قال من صام يوم ثماني عشرة من ذي الحجة كتب له صيام ستين شهرا وهو يوم غدير خم لما اخذ النبي ( صلى الله عليه و سلم ) بيد علي بن أبي طالب فقال ألست ولي المؤمنين قالوا بلى يا رسول الله قال من كنت مولاه فعلي مولاه فقال عمر بن الخطاب بخ بخ لك يا ابن أبي طالب أصبحت مولاي ومولى كل مسلم فأنزل الله عز و جل " اليوم أكملت لكم دينكم " ومن صام يوم سبعة وعشرين من رجب كتب له صيام ستين شهرا وهو أول يوم نزل جبريل بالرسالة.**

“…Şəhr bin Həvşəb Əbu Hüreyrədən belə nəql etdi: “Hər kim Zülhiccənin on səkkizində oruc tutarsa, qarşılığında Allah ona altı ay oruc tutmuş kimi savab yazar. O gün Qədir-Xum günüdür, o gün Peyğəmbər *(s)* Əli bin Əbu Talibin *(ə)* əlindən tutaraq belə buyurdu: *“Mən möminlərin vəlisi deyiləmmi?”* Hazır olanlar: “Bəli, eləsən ey Allahın Rəsulu *(s)*!” deyə cavab verdilər. O Həzrət *(s)* sözünün davamında buyurdu: *“Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır!”* Ondan sonra Ömər bin Xəttab belə dedi: “Mübarək olsun, mübarək olsun sənə ey Əbu Talibin oğlu. Sən mənim və bütün müsəlmanların mövlası oldun”. Daha sonra ***“...Bu gün dininizi sizin üçün kamil etdim...”*** ayəsi nazil oldu. Kim Rəcəb ayının iyirmi yeddisində oruc tutarsa, ona altı ayın orucunun savabı yazılır. Bu gün Cəbrailin *(ə)* Həzrət Muhəmmədə *(s)* ilk vəhyi gətirdiyi gündür”.[679]

Bu hədisi İbn Mordəveyh öz isnadı ilə, İbn Əsakir isə öncə Xətib əl-Bağdadidən nəqlən, daha sonra isə iki dəyişik sənədlə Əbu Hüreyrədən rəvayət etmişdir.[680]

Lakin təəssüflər olsun ki, bu hədisi öz təfsir kitablarında rəvayət edən İbn Kəsir və Süyuti Əbu Hüreyrə hədisinin zəif olduğunu iddia etmişlər. Süyuti bu haqda yazır:

**وأخرج ابن مردويه والخطيب وابن عساكر بسند ضعيف عن أبي هريرة.**

---

678 Şeyx Hadi ən-Nəcəfi, Mövsuat əhadisi Əhli-Beyt *(ə)*, c. VIII, səh. 415, hədis № 10368.
679 Xətibtib əl-Bağdadi, Tarix əl-Bağdad, c. IX, səh. 222.
680 Bax: İbn Əsakir, Tarixi-Diməşq, c. 42, səh. 233-234.

"İbn Mordəveyh, Xətib əl-Bağdadi və İbn Əsakir zəif isnadla Əbu Hüreyrədən rəvayət etmişlər".[681]

Əllamə Əmini özünün məşhur "əl-Qədir" kitabında bu iddiaya belə cavab vermişdir:

**قلنا: إن كان مراده من عدم الصحة غميزة في الاسناد ففيه أن رواية أبي هريرة صحيحة الاسناد عند أساتذة الفن ، منصوص على رجالها بالتوثيق ، وسنفصل ذلك عند ذكر صوم الغدير..... وإن كان يريد عدم الصحة من ناحية معارضتها لما روي من نزول الآية يوم عرفة فهو مجازف في الحكم البات بالبطلان على أحد الجانبين ، وهب أنه ترجح في نظره الجانب الآخر لكنه لا يستدعي الحكم القطعي ببطلان هذا الجانب كما هو الشأن عند تعارض الحديثين ، لا سيما مع إمكان الجمع بنزول الآية مرتين كما احتمله سبط ابن الجوزي في تذكرته ص 18 كغير واحدة من الآيات الكريمة النازلة غير مرة واحدة ومنها البسملة النازلة في مكة مرة وفي المدينة أخرى وغيرها مما يأتي.**

"Süyutiyə cavabən deyirik ki, əgər Süyutinin "səhih deyildir" sözündən məqsədi hədisin sənədinin zəif olduğudursa, onun bu sözü doğru deyildir. Çünki, Əbu Hüreyrənin rəvayəti bu sahədəki ustadların yanında sənədi səhih bir hədisdir. Həmin hədisin sənədindəki ravilər onlara görə etibarlı ravilərdir. Qədir orucunu qeyd etdiyimizdə bu mövzunu müfəssəl olaraq açıqlayacağıq... (Yox) əgər Süyuti "səhih deyildir" sözündən bu rəvayətin "İkmal" ayəsi Ərəfə günündə nazil oldu" deyən rəvayətlə zidd olduğunu qəsd edirsə, o zaman o iki tərəfdən birinin batil olduğuna qəti hökm verməklə dəlilsiz danışmış olur. İki tərəfdən birinin onun nəzərində doğru olduğunu fərz etsək belə, bu, digər tərəfin batil olduğuna qəti hökm verməyi labüd etməz. Çünki, iki hədis bir-birlərinə zidd gəldikdə, yozum belədir. Xüsusilə ayənin iki dəfə nazil olmasına ehtimal verməklə hər iki rəvayəti də qəbul etmək mümkün olursa, belə etmək lazımdır. Çünki, Sibt bin Cövzi bu ehtimalı vermişdir. Məsələn, "Bəsmələ" kimi bir çox ayə bir dəfə Məkkədə, bir dəfə Mədinədə və digər yerlərdə nazil olmuşdur".[682]

Əllamə Əmini daha sonra "Qədir günü orucunun hədisi" bölümündə bizim başda Əbu Hüreyrədən rəvayət etdiyimiz hədisin sənədini araşdırmış və hədisin sənədindəki ravilərin hamısının etibarlı ravilər olduğunu ortaya qoymuşdur. İndi də həmin hədisin sənədindəki ravilərə baxaq:

1. Hədisin ilk ravisi Əbu Hüreyrədir. Məlum olduğu kimi, o, böyük səhabədir və ən çox (5374) hədis nəql edən ravidir. Onun hədisləri Buxari və Müslimin "Səhih"lərində daha çoxdur.

2. Şəhr bin Hövşəb hədisin ikinci ravisidir və bu sözləri Əbu Hüreyrədən rəvayət edən ravidir. Zəhəbi onun haqqında yazır:

---

681 Süyuti, əd-Durrul-mənsur, "əl-Maidə" 3-ün təfsiri.

682 Əllamə Əmini, əl-Qədir, c. I, səh. 236-237.

**شهر بن حوشب أبو سعيد الأشعري الشامي ، مولى الصحابية أسماء بنت يزيد الأنصارية . كان من كبار علماء التابعين.**

"Şəhr bin Hövşəb Əbu Səid əl-Əşəri əş-Şami. Səhabədən Əsma bin Yezid əl-Ənsarinin məvalisi, tabeunun böyük alimlərindəndir".

**روى حرب الكرماني ، عن أحمد بن حنبل : شهر ثقة ، ما أحسن حديثه**
**وقال الترمذي : قال محمد – يعني البخاري – : شهر حسن الحديث.**

Hərb əl-Kirmani Əhməd bin Hənbəldən rəvayət edir ki, Şəhr siqədir (etibarlıdır), hədisləri həsəndir.

Tirmizi deyir: "Buxari belə dedi: "Şəhr həsənül-hədisdir (gözəl hədis rəvayət edən)".[683]

3. Mütəhhər əl-Vərraq hədisin üçüncü ravisidir. O, Şəhr bin Hövşəbin Əbu Hüreyrədən aldığı hədisi rəvayət edən ravidir. Zəhəbi onun haqqında deyir:

**مطر الوراق الإمام الزاهد الصادق، أبو رجاء بن طهمان الخراساني.**

"Mütəhhər əl-Vərraq imam, zahid, sadiq Əbu Rəca bin Təhman əl-Xorasani".

**قال يحيى بن معين: صالح**
**قال الخليل بن عمر بن إبراهيم : سمعت عمي عيسى يقول : ما رأيت مثل مطر الوراق ، في فقهه وزهده**
**وقال مالك بن دينار : رحم الله مطرا الوراق ، إني لأرجو له الجنة.**

Yəhya bin Məin deyir: "Salehdir".

Xəlil bin Ömər bin İbrahim deyir ki, İsanın belə dediyini eşitdim: "Fiqh və zöhd mövzusunda Mütəhhər əl-Vərraq mislində birisini görmədim".

Həmçinin, Malik bin Dinar deyir: "Allah Mütəhhər əl-Vərraqa rəhmət etsin, onun üçün Cənnəti arzulayıram".[684]

Mütəhhər əl-Vərraq, eyni zamanda Buxari və Müslimin ravilərindəndir.

4. Əbdürrəhman bin Şövzəb hədisin dördüncü ravisidir. Zəhəbi onun haqqında bu məlumatı verir:

**عبد الله بن شوذب البلخي، ثم البصري، الإمام، العالم أبو عبد الرحمن، نزيل بيت المقدس.**

"Əbdürrəhman bin Şövzəb əl-Bəlxi, sonra Bəsri, imam, əllamə, Əbu Əbdürrəhman Beytül-muqəddəsdə yaşamışdır".

**وثقه أحمد بن حنبل وغيره.**

Əhməd bin Hənbəl və başqalarına görə etibarlıdır (siqədir).[685]

---

683 əz-Zəhəbi, Siyər, c. IV, səh. 374.
684 əz-Zəhəbi, Siyər, c. V, səh. 453.
685 əz-Zəhəbi, Siyər, c. VI, səh. 92.

5. Zəmrə bin Rəbiə hədisin beşinci ravisidir. Zəhəbi onun haqqında deyir:

**ضمرة بن ربيعة الإمام الحافظ القدوة ، محدث فلسطين ، أبو عبد الله الرملي.**

"Zümrə bin Rəbiə imam, hafiz, Fələstinin mühəddisi, Əbu Abdullah ər-Rümeli".

**وقال ابن معين والنسائي : ثقة**
**وقال أبو حاتم : صالح**
**وقال ابن سعد : كان ثقة**

İbn Məin və Nəsai deyir: "Siqədir (etibarlıdır)".
Əbu Hatim deyir: "Salehdir".
İbn Səd deyir: "Siqədir (etibarlıdır)".[686]

6. Əli bin Səid ər-Rümeli hədisin altıncı ravisidir və etibarlı biridir. İbn Həcər əl-Əsqəlani onun haqqında belə deyir:

**علي بن أبي حملة مولى قريش شيخ ضمرة بن ربيعة القرشي الحمصي أبو علي الرملي**

"Əli bin Əbu Həmlə… Əbu Əli ər-Rümeli.

**ما علمت به بأساً ولا رأيت أحداً إلى الآن تكلَّم فيه، وهو صالح الأمر، ولم يُخرج له أحدٌ من أصحاب الكتب الستّة مع ثقته.**

Mən onun haqqında heç pis bir şey eşitmədim və heç kimsədən onun haqqında yaxşı olmayan şey duymadım. O, saleh və siqə (etibarlı) birisidir".[687]

7. Həbşun bin Musa hədisin yeddinci ravisidir və o da etibarlı ravidir. Zəhəbi onun haqqında belə deyir:

**حبشون ابن موسى بن أيوب الشيخ ، أبو نصر البغدادي الخلالوكان أحد الثقات**

"Həbşun bin Musa bin Əyyub əş-Şeyx Əbu Nəsr əl-Bağdadi əl-Xəllal siqə (etibarlı) birisidir".[688]

8. Əli bin Ömər əd-Dəraqutni hədisin səkkizinci ravisidir. O, böyük hədis imamlarındandır və "Sünəni-Dəraqutni" adlı hədis kitabının müəllifidir.

9. İbni Büşran hədisin doqquzuncu ravisidir və etibarlı bir ravidir. Zəhəbi onun haqqında bu məlumatı verir:

**ابن بشران الشيخ العالم المعدل، المسند، أبو الحسين، علي بن محمد بن عبد الله بن بشران بن محمد بن بشر، الأموي البغدادي .قال الخطيب: كان تام المروءة، ظاهر الديانة، صدوقا ثبتا**

[686] əz-Zəhəbi, Siyər, c. IX, səh. 326-327.
[687] əz-Zəhəbi, Mizanül-etidal, c. II, səh. 224.
[688] əz-Zəhəbi, Siyər, c. XV, səh. 316.

"İbn Büşran, Şeyx, Müsnəd, Əbülhüseyn Əli bin Məhəmməd bin Abdullah bin Büşran bin Məhəmməd bin Bişr əl-Əməvi əl-Bağdadi. Xətib (əl-Bağdadi) deyir: "Mürüvvətli, dindar, sadiq, (sabitqədəmdir) zabit".[689]

Göründüyü kimi, bu hədisin sənədindəki bütün ravilər rical elminə görə siqə (etibarlı) və fəzilət sahibi ravilərdir. Yoxsa İbn Kəsir və Süyutinin dediyi kimi, bu sənəd zəif deyildir. Üstəlik, Əbu Hüreyrənin hədisi sadəcə bir sənədlə rəvayət edilməmişdir. Yuxarıda qeyd etdiyimiz kimi, Xətib əl-Bağdadi bu hədisi bir sənədlə və İbn Əsakir də Xətib əl-Bağdadidən nəqlən rəvayət etməsinə bərabər olaraq iki dəyişik sənəd də qeyd etmişdir. Biz bu üç sənəddən sadəcə birisini incələdik və sənədindəki bütün ravilərin etibarlı olduğunu gördük. Belə olduğu təqdirdə İbn Kəsir və Süyuti necə olur ki, bu hədislərin zəif olduğunu iddia edir?!

Fəxrəddin Razi "Məfatihul-qeyb" adlı məşhur hədis əsərində yazır:

**نزلت الآية في فضل علي بن أبي طالب عليه السلام، ولما نزلت هذه الآية أخذ بيده، وقال: "من كنت مولاه فعلي مولاه، اللهم وال من والاه، وعاد من عاداه" فلقيه عمر رضي الله عنه فقال: هنيئا لك يا ابن أبي طالب أصبحت مولاي ومولى كل مؤمن ومؤمنة، وهو قول ابن عباس، والبراء بن عازب، ومحمد بن علي..**

"Əli bin Əbu Talibin *(ə)* fəziləti haqqında nazil olmuşdur. Bu ayə nazil olanda Rəsulullah *(s)* Əlinin *(ə)* əlindən tutdu və *"Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır!"* - deyə buyurdu. Bu zaman Ömər, Əli *(ə)* ilə qarşılaşdı və "ey Əbu Talibin oğlu, gözün aydın! Mənim, bütün möminlərin və mömінələrin mövlası oldun" dedi. Bu, İbn Abbas, Bəra bin Azib və Məhəmməd bin Əlinin *(ə)* - İmam Baqir *(ə)* - fikridir".[690]

Son olaraq ayənin Həzrət Əlinin *(ə)* imaməti haqqında olduğunu qeyd edən və bu haqda hədis nəql edən İbn Əbu Hatimin sözü ilə bitirirəm.

**حَدَّثنا أَبِي ، ثنا عُثْمَانُ بْنُ خُرَّزَادَ ، ثنا إِسْمَاعِيلُ بْنُ زَكَرِيَّا ، ثنا عَلِيُّ بْنُ عَابِسٍ ، عَنِ الأَعْمَشِ بْنِ الْحجابِ ، عَنْ عَطِيَّةَ الْعَوْفِيِّ ، عَنْ أَبِي سَعِيدٍ الْخُدْرِيِّ ، قَالَ : " نَزَلَتْ هَذِهِ الآيَةُ يَأَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنْزِلَ إِلَيْكَ مِنْ رَبِّكَ سورة المائدة آية 67 فِي عَلِيِّ بْنِ أَبِي طَالِبٍ"**

"...Əbu Səid əl-Xudri dedi: ***"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni*** (Quranı) ***təbliğ et"*** ayəsi Əli bin Əbu Talib *(ə)* haqqında nazil olmuşdur".[691]

**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذا قُمْتُمْ إِلَى الصَّلاةِ فَاغْسِلُوا وُجُوهَكُمْ وَأَيْدِيَكُمْ إِلَى الْمَرافِقِ وَامْسَحُوا بِرُؤُسِكُمْ وَأَرْجُلَكُمْ إِلَى الْكَعْبَيْنِ)).المائدة /6.**

---

[689] əz-Zəhəbi, Siyər, c. XVII, səh. 312.

[690] Fəxri ər-Razi, Təfsiri-Kəbir, c. XII, səh. 43.

[691] İbni Əbu Hatim, Təfsiri İbn Əbu Hatim, c. IV, səh. 1172, hədis № 6645.

**أخرج مُفتي العراقَينِ محمد بن يوسف بن محمد القرشي (الشافعي) في كتابه (كفاية الطالب) عن محمد بن عبد الواحد بن المتوكل، بإسناده المذكور عن ابن عباس قال:**
**(ما نزلت آية فيها ((يا أيها الذين آمنوا)) إلاّ وعليٌّ رأسها، وأميرها وشريفها، ولقد عاتب الله عزّ وجلّ أصحاب محمد في غير آية من القرآن وما ذكر علياً إلاّ بخير).**[692]

***"Ey iman gətirənlər! Namaza durduğunuz zaman üzünüzü və dirsəklərlə birlikdə*** (dirsəklərdən və ya dirsəklərə qədər) ***əllərinizi yuyun.*** (Yaş əlinizlə) ***başınızı və hər iki bəndə*** (oynağa) ***qədər ayaqlarınızı məsh edin..."*** ayəsi haqqında Yusuf bin Məhəmməd əş-Şafei "Kifayətut-talib" əsərində sənədli şəkildə İbn Abbasdan nəql edir: "Elə bir ***"Ey iman gətirənlər"*** ayəsi yoxdur ki, orada Əliyə *(ə)* işarə olmasın. O, bu ayələrin başı, əmiri və şərəfidir. Allah ondan başqa Muhəmmədin *(s)* digər səhabələrini tənqid etmiş, Əlini *(ə)* isə yalnız xeyirlə yad etmişdir".

**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا كُونُوا قَوَّامِينَ للهِ شُهَداءَ بِالْقِسْطِ)).المائدة /8.**
**روى علاّمة الحنفية، محمد بن يوسف الزرندي في نظم درر السمطين، عن مجاهد (رضي الله عنه) قال:**
**(ما كان في القرآن ((يا أيها الذين آمنوا)) فإنّ لعلي (رضي الله عنه) سابقة ذلك، لأنّه سبقهم إلى الإسلام).**[693]

***"Ey iman gətirənlər! Allah qarşısında*** (borcunuzu yerinə yetirməkdə) ***sabitqədəm və ədalətli şahidlər olun..."*** ayəsi haqqında Yusuf əz-Zərəndi əl-Hənəfi "Nəzmu dürərus-səmteyn" adlı əsərində yazır: "Quranda harda ***"Ey iman gətirənlər"*** ayəsi varsa, orada Əli *(ə)* vardır. Çünki, o, imanda hamıdan öndə olub".

**((وَعَدَ اللهُ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحاتِ لَهُمْ مَغْفِرَةٌ وَأَجْرٌ عَظِيمٌ)).المائدة /9**
**روى علاّمة الحنفية أخطب الخطباء، موفّق بن أحمد في كتابه (المناقب) بإسناده المذكور عن يزيد بن شراحيل الأنصاري كاتب علي، قال: سمعت علياً (كرّم الله وجهه) يقول:**
**حدثني رسول الله (صلى الله عليه وآله وسلّم) وأنا مسنده إلى صدري فقال (صلى الله عليه وآله وسلّم):**
**أيْ علي ألم تسمع قول الله (تعالى) ((الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحاتِ)) (هم) أنت وشيعتك، وموعدي وموعدكم الحوض، إذا جئت (جاءت ح ل) الأُمم للحساب تُدعون غراء محجّلين).**[694]

***"Allah iman gətirib yaxşı işlər görənlərə onları bağışlanma və böyük mükafat gözlədiyini vəd buyurmuşdur!"*** ayəsi haqqında Müvəffəq bin Əhməd əl-Hənəfi "əl-Mənaqib" adlı məşhur əsərində sənədli şəkildə Həzrət Əlinin *(ə)* katibi Yezid bin Şərahil əl-Ənsaridən nəql edərək yazır:

---

[692] كفاية الطالب/ 140.
[693] نظم درر السمطين/ ص89.
[694] المناقب للخوارزمي/ ص187.

"Əlidən *(ə)* eşitdim ki, buyururdu: *"Peyğəmbər mənə buyurdu və mən də onun buyurduğunu sinəmdə qoruyub saxlamışam: "Ya Əli, Allahın* ***"Allah iman gətirib yaxşı işlər görənlər"*** *sözünü eşitməmisənmi?! Onlar sənsən və sənin tərəfdarlarındır. Sənin və mənim görüş yerimiz Kövsər hovuzudur. Ümmət hesab üçün gəldikdə onları alınlarının parıltısından tanıyacaqsan"*.

**((وَالَّذِينَ كَفَرُوا وَكَذَّبُوا بِآياتِنا أُولئِكَ أَصْحابُ الْجَحِيمِ)).المائدة /10.**
**أخرج الحافظ (الشافعي) أبو الحسن بن المغازلي في مناقبه، عن الحسن بن أحمد بن موسى (بإسناده المذكور) عن سعيد بن جبير، عن ابن عباس قال: قال رسول الله (صلى الله عليه وآله وسلّم) ـ في حديث ـ:**
**((وَالَّذِينَ كَفَرُوا وَكَذَّبُوا بِآياتِنا أُولئِكَ أَصْحابُ الْجَحِيمِ)).يعني: بالولاية بحقّ علي، وحق علي الواجب على العالمين.**[695]

***"Kafir olub ayələrimizi təkzib edənlər isə cəhənnəmlikdirlər!"*** ayəsi haqqında Əbülhəsən əl-Məğazili əş-Şafei "əl-Mənaqib" əsərində Həsən bin Musadan, onun Səid bin Cübeyrdən, onun da İbn Abbasdan belə nəql etdiyini yazır: "Peyğəmbər *(s)* ***"Kafir olub ayələrimizi təkzib edənlər isə cəhənnəmlikdirlər!"*** ayəsi haqqında buyurmuşdur: *"Yəni, Əli bin Əbu Talibin vilayətidir. Əlinin haqqını tanımaq aləmlərə vacibdir"*.

**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا اذْكُرُوا نِعْمَتَ اللهِ عَلَيْكُمْ إِذْ هَمَّ قَوْمٌ أَنْ يَبْسُطُوا إِلَيْكُمْ أَيْدِيَهُمْ فَكَفَّ أَيْدِيَهُمْ عَنْكُمْ)). المائدة /11.**
**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: أخبرنا أبو محمد، الحسن بن علي الجوهري (بإسناده المذكور) عن أبي صالح عن ابن عباس قال:**
**في قوله (تعالى): ((إِذْ هَمَّ قَوْمٌ أَنْ يَبْسُطُوا إِلَيْكُمْ أَيْدِيَهُمْ)) ـ:**
**نزلت في رسول الله (صلى الله عليه وآله وسلّم) وعلي وزيد حين أتاهم يستفتيهم في القبلتين.**[696]

***"Ey iman gətirənlər! Allahın sizə olan lütfünü xatırlayın ki,*** (bir dəə) ***bir tayfa*** (Məkkə müşriklərini və ya Bəni-Sələb qəbiləsi) ***sizə əl qaldırmaq*** (hücum etmək) ***niyyətində olduğu zaman Allah onlara maneçilik törətmişdi. Allahdan qorxun. Möminlər yalnız Allaha təvəkkül etsinlər!"*** ayəsi haqqında Hakim əl-Həskani əl-Hənəfi sənədli şəkildə yazır: "Ayə Peyğəmbərin *(s)*, Əlinin *(ə)* və Zeydin haqqında nazil olmuşdur...".

**((وَلَقَدْ أَخَذَ اللهُ مِيثاقَ بَنِي إِسْرائِيلَ وَبَعَثْنا مِنْهُمُ اثْنَيْ عَشَرَ نَقِيباً)).المائدة /12.**
**روى أبو الحسن الفقيه، محمد بن علي بن شاذان ـ من طرق العامّة ـ بحذف الإسناد عن ابن عباس قال: سمعت رسول الله (صلى الله عليه وآله وسلّم) يقول ـ في حديث طويل ـ حين قام جابر بن عبد الله الأنصاري فقال: يا رسول الله ماعدّة الأئمة؟**

[695] المناقب لابن المغازلي/ ص322-323.
[696] شواهد التنزيل/ ج1/ ص135.

**قال (صلى الله عليه وآله وسلّم): (يا جابر سألتني ـ رحمك الله ـ عن الإسلام بأجمعه (إلى أنْ قال (صلى الله عليه وآله وسلّم):**
**عدّتهم عدّة نقباء بني إسرائيل قال الله تعالى: ((وَلَقَدْ أَخَذَ اللهُ مِيثَاقَ بَنِي إِسْرائِيلَ وَبَعَثْنا مِنْهُمُ اثْنَيْ عَشَرَ نَقِيباً)) فالأئمّة يا جابر اثنا عشر إماماً، أولهّم علي بن أبي طالب، وآخرهم القائم).**[697]

***"Allah İsrail oğullarından əhd almışdı. Biz onlardan*** (özlərinə) ***on iki nəzarətçi*** (vəkil) ***göndərmişdik. Allah buyurmuşdu: "Mən sizinləyəm. Əgər namaz qılsanız, zəkat versəniz, peyğəmbərlərimə iman gətirib onlara kömək etsəniz, Allaha*** (Allah yolunda) ***gözəl bir borc*** (sədəqə) ***versəniz, əlbəttə, günahlarınızın üstünü örtər və sizi*** (ağacları) ***altından çaylar axan cənnətlərə daxil edərəm. Lakin bundan sonra sizdən hər kəs*** (əhdi pozaraq) ***küfr edərsə, o artıq doğru yoldan azmış olar!"*** ayəsi haqqında İbn Şazan sənədsiz halda İbn Abbasdan nəql edir: "Peyğəmbərdən *(s)* uzun bir hədis eşitdim. Belə ki, Cabir bin Abdullah əl-Ənsari qalxıb dedi: "Ya Rəsulullah *(s)*, imamların *(ə)* sayı neçədir?!" Peyğəmbər *(s)* buyurdu: *"Ey Cabir, Allah sənə mərhəmət göstərsin ki, bütün İslam haqqında məndən soruşdun! Onların sayı Bəni-İsrailin nəzarətçilərinin sayı qədərdir. Ey Cabir, imamların sayı on ikidir ki, onların birincisi Əli, sonuncusu isə Qaimdir!"*

**((وَيَهْدِيهِمْ إِلى صِراطٍ مُسْتَقِيمٍ)).المائدة /16.**
**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: أخبرنا أبو جعفر (بإسناده المذكور) عن اليمان مولى مصعب بن الزبير قال ـ في حديث ـ:**
**(علي بن أبي طالب يحملهم (أي النّاس) على الطريق المستقيم).**[698]

***"Allah Öz lütfünə sığınanları onunla*** (Peyğəmbər və Quran vasitəsilə) ***əmin-amanlıq*** *(sülh)* ***yollarına yönəldər, onları öz iznilə zülmətdən nura çıxarar və düz yola istiqamətləndirər!"*** ayəsinin təfsirində Hakim əl-Həskani sənədli şəkildə belə yazır: "Əli bin Əbu Talib *(ə)* insanları doğru yola aparan şəxsdir".

**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ وَابْتَغُوا إِلَيْهِ الْوَسِيلَةَ)).المائدة/ 35.**
**أخرج علاّمة الهند (بسمل) بسنده عن عائشة قالت في حديث: سمعت رسول الله (صلى الله عليه وآله وسلّم) يقول عن الخوارج: (هم شرّ الخلق والخليقة، يقتلهم خير الخلق والخليقة، وأقربهم عند الله وسيلة يوم القيامة).**[699]
**روى الحافظ الحنفي (سليمان القندوزي) عن كتاب مودّة القربى، للسيّد علي الهمداني، قال: وعن علي (كرّم الله وجهه) قال: قال رسول الله (صلى الله عليه وسلّم): الأئمّة من ولدي فمن أطاعهم فقد أطاع الله، ومن عصاهم فقد عصى الله، وهم العروة الوثقى، والوسيلة إلى الله جلّ وعلا).**[700]

[697] المناقب المائة/ المنقبة الحادية والأربعون/ ص28-29.
[698] شواهد التنزيل/ ج1/ ص65.
[699] أرجح المطالب/ ص591-592.
[700] ينابيع المودّة/ ص446.

***“Ey iman gətirənlər! Allahdan qorxun, Ona*** (Onun rəhmətinə və lütfünə qovuşmaq üçün) ***vəsilə*** (yol) ***axtarın.*** (Allah) ***yolunda cihad edin ki, nicat tapasınız!”*** ayəsinin təfsiri haqqında Əllamə əl-Hind Xanım Aişədən nəql edir: “Peyğəmbərdən *(s)* eşitdim ki, xəvaric haqqında buyurdu: *“Onlar yaranmışların ən pisidirlər. Onları yaranmışların ən yaxşısı öldürəcəkdir. O şəxs Qiyamət günü insanlar içində Allaha ən yaxın vəsilə olacaq”*.

Qunduzi əl-Hənəfi isə Seyid Əli Mehdinin “Məvəddətul-qurba” kitabına istinadən yazır: “Əli *(ə)* Peyğəmbərdən *(s)* nəql edib buyurdu: *“İmamlar mənim övladlarımdır. Hər kəs onlara itaət etsə, Allaha itaət etmişdir. Hər kəs onlara qarşı üsyan etsə, Allaha qarşı üsyan etmişdir. Onlar qırılmaz iplərdir və Allaha vəsilədirlər”*.

**وأخرج ابن شاذان في المناقب المائة، من طرق العامّة، بسنده عن حذيفة بن اليمان، عن النبي (صلى الله عليه وآله وسلّم) أنه قال لعلي: ـ في حديث ـ:**
**(وإنّ لك في الجنّة درجة الوسيلة، فطوبى لك ولشيعتك من بعدك).**[701]

İbn Şazan Hüzeyfə bin Yəmana çatan sənədlə Peyğəmbərin *(s)* Əliyə *(ə)* belə buyurduğunu nəql edir: *“Sənin üçün Cənnətdə vəsilə dərəcəsi var. Sənə və səndən sonra tərəfdarlarının xoş halına”*.

**وأخرج علاّمة الشافعية، الحافظ الواسطي أبو الحسن بن المغازلي في مناقبه، عن أحمد بن محمد بن عبد الوهاب بن طاوان (بسنده المذكور) عن عائشة ـ في حديث ـ قالت: قال رسول الله (صلى الله عليه وسلّم) في علي:**
**(خير الخلق والخليقة، وأقربهم عند الله وسيلة).**[702]

Əbülhəsən əl-Məğazili əş-Şafei “əl-Mənaqib” əsərində Əhməd bin Məhəmməd bin Əbdülvəhhab bin Tavandan sənədli şəkildə Xanım Aişədən belə rəvayət etdiyini nəql edir: “Peyğəmbər *(s)* Əlinin *(ə)* haqqında buyurmuşdur: *“Yaranmışların ən xeyirlisi və Allah yanında onların ən yaxın vəsiləsidir”*.[703]

**((إِنَّا أَنْزَلْنَا التَّوْراةَ فِيها هُدىً وَنُورٌ يَحْكُمُ بِهَا النَّبِيُّونَ الَّذِينَ أَسْلَمُوا لِلَّذِينَ هادُوا وَالرَّبَّانِيُّونَ وَالأَحْبارُ بِمَا اسْتُحْفِظُوا مِنْ كِتابِ اللهِ وَكانُوا عَلَيْهِ شُهَداءَ...)).المائدة/ 44.**
**روى العالم الحنفي الحافظ سليمان القندوزي في ينابيعه، بالسند المذكور هناك، عن جعفر الصادق قال: أوصى موسى إلى يوشع بن نون (عليه السلام)، وأوصى يوشع إلى ولد هارون، وبشّر موسى ويوشع بالمسيح (عليه السلام) ونبينا (صلى الله عليه وآله وسلّم) فلما بعث الله عزّ وجلّ المسيح قال المسيح لأُمّته: إنّه سوف يأتي من بعدي نبي اسمه أحمد من ولد إسماعيل، يجيئ بتصديقي وتصديقكم، وجرت الوصية من ولد هارون إلى المسيح بوسائط، ومن بعده في الحواريين وفي**

---

701 المناقب المائة/ المنقبة الثالثة والخمسون/ ص36.
702 المناقب لابن المغازلي/ ص56.
703 مجمع الزوائد/ ج6/ ص239.أرجح المطالب/ 599 طبع لاهور الهند.

**المستحفظين، وإنما سمّاهم الله عزّ وجلّ المستحفظين، لأنّهم استحفظوا الإسم الأكبر، وهو الكتاب الذي يعلم به كل شيء، وهو كان مع الأنبياء والأوصياء (إلى أنْ قال): فلم تزل الوصية في عالم بعد عالم حتى دفعوها إلى محمد (صلى الله عليه وآله وسلّم) وبعد بعثته سلم له العقب من المستحفظين، فلمّا استكملت أيام نبوّته، أمره الله تبارك وتعالى اجعل الاسم الأكبر وميراث العلم وآثار علم النبوّة عند علي الخ.**[704]

***“Şübhəsiz ki, Tövratı da Biz nazil etdik. Onda haqq yol və nur vardır.*** (Allaha) ***təslim olan peyğəmbərlər yəhudilər arasında onunla, din alimləri və fəqihlər isə kitabdan qorunub saxlanılanlarla*** (Tövratdan ələ gəlib çatan ayələrlə) ***hökm edərdilər. Onlar*** (peyğəmbərlər, din alimləri və fəqihlər) ***ona*** (Tövratın ilahi bir kitab olmasına) ***şahiddirlər.*** (Ey yəhudi alimləri və rəisləri!) ***İnsanlardan qorxmayın, Məndən qorxun. Mənim ayələrimi ucuz qiymətə satmayın. Allahın nazil etdiyi*** (kitab və şəriət) ***ilə hökm etməyənlər, əlbəttə, kafirdirlər!”***

Süleyman Qunduzi əl-Hənəfi “Yənabiul-məvəddət” əsərində sənədli şəkildə İmam Cəfər Sadiqə *(ə)* istinadən yazır: *“Musa Yuşə bin Nuna vəsiyyət etdi. Yuşə bin Nun da Harunun oğluna vəsiyyət etdi. Musa və Yuşə, İsa əl-Məsihlə və Peyğəmbərimizlə* (camaatı) *müjdələndi. Allah İsanı peyğəmbər olaraq göndərdikdə o, ümmətinə ondan sonra İsmayılın övladlarından olan Əhməd adlı şəxsin peyğəmbər olaraq göndəriləcəyini xəbər verdi və dedi ki, o, məni və sizi təsdiq edəcəkdir. Harunun oğlundan İsaya bəzi şeylər çatmışdı. Həmin əşyalar İsadan da həvarilərə çatmışdı və onlar onu qoruyurdular. Allah İsanın həvarilərini ona görə qoruyanlar* (müstəhfiz) *adlandırmışdır ki, onlar “ismi-əkbər”i qoruyub saxlayırdılar. O, elə bir kitabdır ki, onun vasitəsilə hər bir şey haqqında məlumat əldə etmək olar. O kitab bütün peyğəmbərlər və vəsilərdə olub. O, dünya dəyişdikcə dəyişməyib, qorunub, nəhayət Muhəmmədə gəlib çatıb. O, peyğəmbərliyini başa çatdırdıqdan sonra Allah Peyğəmbərə əmr edib ki, özündən sonra “ismi-əkbər”i, mirası və elmi Əliyə versin”.*

**((فَتَرَى الَّذِينَ فِي قُلُوبِهِمْ مَرَضٌ يُسارِعُونَ فِيهِمْ يَقُولُونَ نَخْشى أَنْ تُصِيبَنا دائِرَةٌ فَعَسَى اللهُ أَنْ يَأْتِيَ بِالْفَتْحِ أَوْ أَمْرٍ مِنْ عِنْدِهِ فَيُصْبِحُوا عَلى ما أَسَرُّوا فِي أَنْفُسِهِمْ نادِمِينَ)).المائدة/ 52.**

***“Ona görə də qəlblərində mərəz*** (nifaq xəstəliyi) ***olanları onların*** (yəhudi və xaçpərəstlərin) ***içində vurnuxan və: “Bizə bir fəlakət üz verməsindən*** (İslamın məğlubiyyətindən) ***qorxuruq” - deyən görərsən. Amma, ola bilsin ki, Allah*** (möminlərə) ***bir zəfər gətirsin və Öz tərəfindən elə bir iş qursun ki, onlar*** (münafiqlər) ***ürəklərində gizlətdiklərindən*** (küfr və nifaqdan) ***peşman olsunlar”***. Ayədə qeyd olunan zəfər Xeybərin fəthidir. Bu

[704] ينابيع المودّة/ ص78.

fəth məhz Həzrət Əlinin *(ə)* əli ilə həyata keçmişdir. Buna bir çox təfsir kitablarında da işarələr vardır.[705]

**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا مَنْ يَرْتَدَّ مِنْكُمْ عَنْ دِينِهِ فَسَوْفَ يَأْتِي اللهُ بِقَوْمٍ يُحِبُّهُمْ وَيُحِبُّونَهُ أَذِلَّةٍ عَلَى الْمُؤْمِنِينَ أَعِزَّةٍ عَلَى الْكافِرِينَ يُجاهِدُونَ فِي سَبِيلِ اللهِ وَلا يَخافُونَ لَوْمَةَ لائِمٍ ذلِكَ فَضْلُ اللهِ يُؤْتِيهِ مَنْ يَشاءُ وَاللهُ واسِعٌ عَلِيمٌ)).المائدة/ 54.**
**روى العلاّمة البحراني (قده) عن الثعلبي في تفسير:**
**((فَسَوْفَ يَأْتِي اللهُ بِقَوْمٍ يُحِبُّهُمْ وَيُحِبُّونَهُ)) قال:(هو علي بن أبي طالب).**

***"Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə,*** (bilsin ki) ***Allah*** (onun yerinə) ***elə bir tayfa gətirər ki,*** (Allah) ***onları, onlar da*** (Allahı) ***sevərlər. Onlar möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olar, Allah yolunda vuruşar və heç kəsin tənəsindən qorxmazlar. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah*** (öz lütfü ilə) ***genişdir,*** (O, hər şeyi) ***biləndir!"*** ayəsi haqqında Əllamə Bəhrani Sələbinin təfsirinə istinadən yazır: "Ayədə qeyd olunan ***"Allah*** (onun yerinə) ***elə bir tayfa gətirər ki,*** (Allah) ***onları, onlar da*** (Allahı) ***sevərlər"*** ifadəsi Əli bin Əbu Talibə *(ə)* aiddir".

**وروى أيضاً عن الثعلبي (بإسناده المذكور) عن أبي هريرة، أنه كان يحدّث أنّ رسول الله (صلى الله عليه وآله وسلّم) قال:**
**(يرد عليَّ يوم القيامة رهط من أصحابي، فيُجلون عن الحوض فأقول: يا رب أصحابي؟ فيقال: إنّك لا علم لك بما أحدثوا، إنّهم ارتدوا على أدبارهم القهقري.**[706]

Həmçinin, Sələbi Əbu Hüreyrədən rəvayət edir ki, Peyğəmbər (s) buyurmuşdur: *"Qiyamət günü səhabələrimdən bir qrupu mənə göstəriləcək, sonra isə hovuzun kənarından uzaqlaşdırılacaqlar. Mən deyərəm: "Ey Rəbbim, onlar səhabələrimdir!" Mənə deyilər: "Sən bilmirsən, onlar səndən sonra nə bidətlər törədiblər. Onlar öz Cahiliyyə dönəmlərinə qayıdıblar"*.

Əgər bu iki hədisi birləşdirsək belə bir nəticəyə gələ bilərik ki, ayədə heç də bütün səhabə və ya müsəlmanlar nəzərdə tutulmur. Çünki, hədis açıq-aşkar bir qrupun dindən uzaqlaşmasına dəlildir.

Həmçinin, çoxsaylı hədis toplusu onu da göstərir ki, mürtəd dedikdə "Həzrət Əlinin (ə) əleyhinə olmaq və o Həzrətə (ə) qarşı cəbhə açmaq" nəzərdə tutulur.

Bunlardan əlavə, ayəyə təfsir verən alimlər onun İmam Əlinin *(ə)* haqqında nazil olmasında müttəfiq fikirdədirlər. Necə ki, Fəxrəddin ər-Razi yazır: ".(وقال قوم: إنّها نزلت في علي (رضي الله عنه" - "Camaatın dediyinə görə,

---

705 تفسير الفخر الرازي/ ج12/ ص17.
706 غاية المرام/ 374.

ayə Əlinin *(ə)* haqqında nazil olmuşdur”. Müəllif sonra yazır: “Bunun dəlili odur ki, Peyğəmbər *(s)* bayrağı Xeybər günü Əliyə *(ə)* verdikdə buyurmuşdur: *“Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, onu Allah və Rəsulu və o da Allah və Rəsulunu sevir”*. Bu deyilənlər ayənin əlamətində də öz əksini tapmışdır. İkincisi, növbəti ayədə Allah bunu qeyd etmişdir: ***“Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki,*** (Allaha) ***namaz qılır və rükuda olduqları halda zəkat verirlər”***. Bu ayə Əlinin *(ə)* haqqındadır”.[707]

**وأخرج علاّمة الشوافع، محمد بن محمد بن محمد الجزري في أسنى المطالب، بأسانيد عديدة وصحّحه وقال (متفق على صحته): - إنّ النبي (صلى الله عليه وآله وسلّم) قال في علي:(يحبُّ الله ورسوله ويحبّه اللهُ ورسوله).**[708]

Məhəmməd bin Məhəmməd əş-Şafei “Əsnəl-mətalib” əsərində çoxsaylı və səhih sənədlə rəvayət edir: “Peyğəmbər *(s)* Əlinin *(ə)* haqqında buyurdu: *“O, Allah və Rəsulunu sevir, Allah və Rəsulu da onu sevir”*.

Görkəmli hədis alimi İsmayıl əl-Buxari nəql edir: “Səhl bin Səd rəvayət edir ki, Peyğəmbər *(s)* buyurmuşdur: *“Bayrağı sabah elə bir adama verəcəyəm ki, Allah onun əli ilə müsəlmanlara zəfər bəxş edəcək”*. Hamı səhərə qədər bayrağın kimə veriləcəyi haqqında düşündü. Səhabələr səhər Peyğəmbərin *(s)* yanına gəldilər. Onlardan hər biri bayrağın ona verilməsini arzulayırdı. Peyğəmbər *(s)* Əli bin Əbu Talibin *(ə)* harada olduğunu soruşduqda, səhabələr onun gözlərindən şikayət etdiyini xəbər verdilər. O, Əlini *(ə)* çağırtdırdı və onun üçün dua etdikdən sonra onun gözlərinin ağrısı keçdi. Peyğəmbər *(s)* bayrağı ona verdi”.[709]

**((إِنَّما وَلِيُّكُمُ اللهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُوا الَّذِينَ يُقِيمُونَ الصَّلاةَ وَيُؤْتُونَ الزَّكاةَ وَهُمْ راكِعُونَ)). المائدة/ 55.**

**أخرج علاّمة المفسّرين، الشيخ شهاب الدين السيويسي ثم الاياتلوغي في تفسيره المخطوط المزجي، عند ذكر هذه الآية قال:((يؤون الزكاة)) المفروضة أو الصدقة.**

**((وهم راكعون)) أي: يفعلون الخيرات في حال ركوعهم.**

**لأنَّ علياً تصدّق بخاتمه وهو في الصلاة، فنزلت الآية في شأنه.**[710]

***“Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki,*** (Allaha) ***namaz qılır və rükuda olduqları halda zəkat verirlər”***. Qeyd olunan ayənin təfsirində bütün təfsir əhli onun İmam Əliyə *(ə)* aid olmasında müttəfiq fikirdədirlər. Əllamə Şəhabəddin əs-Süveysi və başqaları

[707] مفاتيح الغيب/ ج12/ ص20.

[708] أسنى المطالب للجزري/ ص10-11.

[709] Səhihi-Buxari, c. VII, səh. 87, hədis № 3701.

[710] عيون التفاسير للفضلاء لسماسير/ الصفحة الأولى/ الورقة/ 126.

onun İmamın *(ə)* haqqında nazil olduğunu qeyd etmişlər. Bunu aşağıdakı qaynaqlarda da görmək mümkündür.[711]

**(وأخرج) محمد كرد علي في (خطط الشام) حديث أبي هارون العبدي قال:كنت أرى رأي الخوارج، لا أتولّى غيرهم حتى جلست إلى أبي سعيد الخدري فسمتعه يقول: أمر النّاس بخمس فعملوا بأربع وتركوا واحدة.**

**فقال له رجل: يا أبا سعيد ما هذه الأربعة التي عملوا بها؟**

**قال: الصلاة، والزكاة، والحج، والصوم صوم شهر رمضان.**

**قال: فما الواحدة التي تركوها؟**

**قال: ولاية علي بن أبي طالب.**

**قال: وإنّها مفترضة معهن؟**

**قال: نعم.**

**قال: فقد كفر النّاس.**

**قال: فما ذنبي.**[712]

Məhəmməd Kürd Əli "Xütətutuş-Şam" əsərində Harun əl-Əbdinin hədisini nəql edib deyir: "Mən xəvaricin görüşünü bilmək üçün Əbu Səid əl-Xudrinin yanında oturdum və ondan eşitdim ki, deyirdi: "İnsanlara beş şey əmr olundu. Onlar dördünü qəbul edib, birini tərk etdilər". Bir kişi dedi: "Ey Əbu Səid, o hansı dörd şeydir ki, insanlar ona əməl ediblər?" Əbu Səid dedi: "Namaz, zəkat, Həcc və Ramazan ayının orucu". Kişi dedi: "Bəs tərk etdikləri şey hansıdır?" Əbu Səid dedi: "Əli bin Əbu Talibin *(ə)* vilayəti". Kişi dedi: "Vilayət o birilər kimi vacib edilmişdimi?" Əbu Səid dedi: "Bəli". Kişi dedi: "Onda insanlar küfr ediblər". Əbu Səid dedi: "Mənim günahım deyil".

Bu ayənin İmam Əlinin *(ə)* haqqında nazil olmasını aşağıdakı qaynaqlar da qeyd etmişlər.[713]

**((إِنَّما وَلِيُّكُمُ اللهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُوا الَّذِينَ يُقِيمُونَ الصَّلاةَ وَيُؤْتُونَ الزَّكاةَ وَهُمْ راكِعُونَ. وَمَنْ يَتَوَلَّ اللهَ وَرَسُولَهُ وَالَّذِينَ آمَنُوا فَإِنَّ حِزْبَ اللهِ هُمُ الْغالِبُونَ)).المائدة/ 55-56.**

**روى الحافظ الحاكم الحسكاني قال: حدثني الجري (بإسناده المذكور) عن ابن عباس في قوله (تعالى): ((وَمَنْ يَتَوَلَّ اللهَ وَرَسُولَهُ وَالَّذِينَ آمَنُوا)):**

**إنّها نزلت في علي خاصة.**[714]

---

711 سواطع الإلهام المخطوط/ لا أرقام لصفحاته.حاشية السّيوطي علي البيضاوي المخطوطة/ لا رقم لصفحاتها.تفسير محي الدين بن عربي/ ج1/ ص334. المناقب للخوارزمي/ ص186.أنساب الأشراف/ ج2/ ص150.

712 خطط الشام/ ج5/ ص251.

713 جامع البيان/ ج6/ ص165.تفسير القرآن العظيم/ ج2/ ص71.أسباب النزول/ ص148.الدّر المنثور/ ج2/ ص295.لباب النقول/ ص90. كنز العمّال/ ج6/ ص405.فتح القدير/ ج2/ ص50.جامع الأصول/ ج9/ ص478.كفاية الطالب/ ص250.تفسير القرطبي/ ج9/ ص336. ينابيع المودّة/ ص202.

714 شواهد التنزيل/ ج1/ ص184.

***"Hər kəs Allahı, Onun Peyğəmbərini və iman gətirənləri özünə dost tutsa,*** (hər iki dünyada işləri yaxşı gedər)***. Şübhəsiz ki, qələbə çalanlar məhz Allahın firqəsidir*** (Allahı özünə hami və dost seçən şəxslərdir)***"***. Hakim əl-Həskani sənədli şəkildə İbn Abbasdan nəql edir ki, bu ayə Əli bin Əbu Talibin *(ə)* haqqında nazil olmuşdur.

**وروى هو أيضاً قال: أخبرنا أبو العباس المحمدي (بإسناده المذكور) عن ابن عباس قال: أتى عبد الله بن سلام ورهط معه من أهل الكتاب نبي الله (صلى الله عليه وسلّم) عند صلاة الظهر، فقالوا: يا رسول الله إنّ بيوتنا قاصية، ولا نجد مسجداً دون هذا المسجد، وإنّ قومنا لمّا رأونا صدقنا الله ورسوله وتركنا دينهم أظهروا لنا العداوة، وأقسموا أنْ لا يخالطونا ولا يجالسونا، ولا يكلّمونا، فشقّ ذلك علينا، فبينما هم يشكون إلى رسول الله (صلى الله عليه وسلّم) إذ نزلت هذه الآية:**

Həmçinin, müəllif sənədli şəkildə İbn Abbasdan nəql edir: "Abdullah bin Səllam və onunla birlikdə bir qrup kitab əhli zöhr namazı vaxtı Peyğəmbərin *(s)* hüzuruna gəlib dedi: "Ey Allahın Rəsulu *(s)*! Evlərimiz darısqaldır, bu məsciddən başqa bir məscid də tapmırıq. Əgər qövmümüz bizim Allahı və Onun Rəsulunu *(s)* təsdiq etdiyimizi, onların dinlərini tərk etdiyimizi görsələr, bizimlə düşmənçilik edər, bizə qaynayıb-qarışmaz, bizimlə oturub-durmaz, bizimlə dinib-danışmazlar və bu da bizə çox ağır olar". Onlar Peyğəmbərə *(s)* şikayətlənirdilər ki, elə bu zaman bu ayə nazil oldu:

**((وَمَنْ يَتَوَلَّ اللهَ وَرَسُولَهُ وَالَّذِينَ آمَنُوا فَإِنَّ حِزْبَ اللهِ هُمُ الْغالِبُونَ)).**

***"Hər kəs Allahı, Onun Peyğəmbərini və iman gətirənləri özünə dost tutsa,*** (hər iki dünyada işləri yaxşı gedər)***. Şübhəsiz ki, qələbə çalanlar məhz Allahın firqəsidir*** (Allahı özünə hami və dost seçən şəxslərdir)***"***.

**فلمّا قرأها عليهم قالوا: رضينا بالله، وبرسوله وبالمؤمنين، فأذّن بلال بالصلاة، وخرج رسول الله (صلى الله عليه وسلّم) إلى المسجد والنّاس يصلّون بين راكع وساجد، وقائم وقاعد ـ وإذا مسكين يسأل فدعاه رسول الله (صلى الله عليه وسلّم) فقال له: هل أعطاك أحد شيئاً؟ قال: نعم! قال (صلى الله عليه وآله وسلّم) ماذا؟ قال: خاتم من فضة! قال (صلى الله عليه وآله وسلّم): من أعطاكه؟ قال: ذلك الرجل القائم، فإذا هو علي بن أبي طالب. قال (صلى الله عليه وآله): على أي حال أعطاكه؟ قال: أعطانيه وهو راكع، فزعموا أنَّ رسول الله كبّر عند ذلك وقال: يقول الله تعالى: ((وَمَنْ يَتَوَلَّ اللهَ وَرَسُولَهُ وَالَّذِينَ آمَنُوا فَإِنَّ حِزْبَ اللهِ هُمُ الْغالِبُونَ)).**[715]

Bu ayə oxunduqdan sonra dedilər: "Biz Allahdan, Onun Rəsulundan *(s)* və möminlərdən razı olduq". Bilal namaz üçün azan verdi. Peyğəmbər *(s)* məscidə daxil oldu. İnsanların bəzisi rükuda, bəzisi səcdədə, bəzisi oturaq və bəzisi isə ayaq üstə idi. Bir dilənçi dilənirdi ki, Peyğəmbər *(s)* onu səsləyib buyurdu: *"Sənə bir şey verən oldumu?"* Dilənçi dedi: "Bəli". Peyğəmbər *(s)*

---

[715] شواهد التنزيل/ ج1/ ص185-186.

buyurdu: *"Nə verdilər?"* Dilənçi dedi: "Gümüş üzük!" Peyğəmbər *(s)* buyurdu: *"Kim verdi?"* Dilənçi dedi: "O ayaq üstə olan kişi". Həmin kişi isə Əli bin Əbu Talib *(ə)* idi. Peyğəmbər *(s)* buyurdu: *"Onu sənə hansı halda verdi?"* Dilənçi dedi: "Rükuda olduğu vaxt". Elə bu vaxt Allahın Rəsulunun *(s)* "təkbir" sədası eşidildi və Peyğəmbər *(s)* buyurdu: *"Allah belə bəyan edir:* ***"Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki,*** (Allaha) ***namaz qılır və rükuda olduqları halda zəkat verirlər"***.

**((يا أَيُّهَا الرَّسُولُ بَلِّغْ ما أُنْزِلَ إِلَيْكَ مِنْ رَبِّكَ وَإِنْ لَمْ تَفْعَلْ فَما بَلَّغْتَ رِسالَتَهُ وَاللهُ يَعْصِمُكَ مِنَ النّاس)). المائدة/ 67.**

**روى الحافظ الحاكم الحسكاني قال: أخبرنا أبو عبد الله الدينوري (بإسناده المذكور) عن أبي إسحاق الحميدي قال:**

**نزلت هذه الآية في علي بن أبي طالب: ((يا أَيُّهَا الرَّسُولُ بَلِّغْ ما أُنْزِلَ إِلَيْكَ مِنْ رَبِّكَ)).**[716]

***"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni*** (Quranı*)* ***təbliğ et. Əgər*** (bunu) ***etməsən,*** (Allahın) ***risalətini*** (sənə həvalə edilən elçilik, peyğəmbərlik vəzifəsini) ***yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, Allah kafir camaatı düz yola yönəltməz!"*** ayəsinin təfsiri haqqında Hakim əl-Həskani "Şəvahidut-tənzil" əsərində yazır: "Əbu Əbdullah əd-Dinuri sənədli şəkildə İshaq əl-Hümeydidən mənə xəbər verib bildirdi ki, bu ayə Əli bin Əbu Talibin *(ə)* haqqında nazil olmuşdur".

**وروى هو أيضاً، قال: أخبرنا أبو بكر السكري (بإسناده المذكور) عن عبد الله بن أبي أوفى، قال: سمعت رسول الله (صلى الله عليه وسلّم) يقول يوم غدير خم ـ وتلا هذه الآية ـ:**

**((يا أَيُّهَا الرَّسُولُ بَلِّغْ ما أُنْزِلَ إِلَيْكَ مِنْ رَبِّكَ وَإِنْ لَمْ تَفْعَلْ فَما بَلَّغْتَ رِسالَتَهُ)).**

**ثم رفع يديه حتى (صار) يرى بياض إبطيه ثم قال (صلى الله عليه وآله وسلّم):**

**ألا من كنتُ مولاه فعليّ مولاه، اللّهم والِ من والاه، وعادِ من عاداه.**

**ثم قال (صلى الله عليه وآله وسلّم): اللّهم اشهد.**[717]

Müəllif sonra Əbu Bəkr əs-Səkəridən nəql edərək yazır ki, o, Peyğəmbərdən *(s)* sənədli şəkildə ona xəbər verib bildirdi: "Qədir-Xumda Peyğəmbər *(s)* bu ayəni oxudu: ***"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni*** (Quranı*)* ***təbliğ et. Əgər*** (bunu) ***etməsən,*** (Allahın) ***risalətini*** (sənə həvalə edilən elçilik, peyğəmbərlik vəzifəsini) ***yerinə yetirmiş olmazsan"***. Sonra o Həzrət *(s)* İmam Əlinin *(ə)* əlini qollarının altı görünənədək yuxarı qaldırdı və buyurdu: *"Hər kəsin rəhbəri mənəmsə, onun rəhbəri Əlidir! Ey Rəbbim, onu rəhbər bilənə rəhbər ol və onu düşmən tutana düşmən ol!"* Peyğəmbər *(s)* bunları dedikdən sonra buyurdu: *"Ey Rəbbim, şahid ol!"*

---

[716] شواهد التنزيل/ ج1/ ص188.

[717] شواهد التنزيل/ ج1/ ص190.

**وأخرج (ابن قتيبة) في (الإمامة والسياسة) قال: وذكروا أنّ رجلاً من همدان يقال له (برد) قدم على معاوية فسمع عمرو يقع في علي فقال له: يا عمرو إنّ أشياخنا سمعوا رسول الله يقول: (من كنت مولاه فعلي مولاه) فحقٌّ ذلك أم باطل؟ فقال عمرو: حق، وأنا أزيدك أنّه ليس لأحد من صحابة رسول الله مناقب مثل مناقب علي ففزع الفتى الخ.**[718]

İbn Qüteybə "əl-İmamə vəs-siyasə" əsərində yazır: "Həmədandan olan Burəd adlı bir kişi Müaviyənin yanına gəldi. O, Əmr bin Asın İmam Əlinin *(ə)* haqqında danışdıqlarını eşitmişdi. Buna görə də Əmr bin Asa belə dedi: "Ey Əmr! Bizim böyüklərimiz Peyğəmbərdən *(s)* eşidiblər ki, o Həzrət *(s)* buyururmuş: *"Mən kimin rəhbəriyəmsə, Əli də onun rəhbəridir!"* De görüm bu hədis doğrudur, ya yalan?" Əmr As dedi: "Onu əlavə edə bilərəm ki, Peyğəmbərin heç bir səhabəsi Əlinin fəzilətlərini əldə etməyib".

**وروى العلاّمة النيسابوري (نظام الدين) أبو بكر محمد بن الحسن (الشافعي) في تفسيره قال: عن أبي سعيد الخدري: إنّ هذه الآية: ((يا أَيُّهَا الرَّسُولُ بَلِّغْ ما أُنْزِلَ إِلَيْكَ مِنْ رَبِّكَ)) الآية نزلت في فضل علي بن أبي طالب (كرّم الله وجهه) يوم (غدير خم) فأخذ رسول الله (صلى الله عليه وسلّم) بيده وقال: (من كنتُ مولاه فهذا عليّ مولاه، اللّهم وال من والاه، وعاد من عاداه، فلقيه عمر وقال: هنيئاً لك يا ابن أبي طالب أصبحت مولاي، ومولى كلّ مؤمن ومؤمنة.**[719]

Əllamə Nizaməddin ən-Nişapuri əş-Şafei "Qəraibul-Quran" adlı əsərində Əbu Səid əl-Xudridən sözügedən ayə haqqında belə nəql edir: "Bu ayə Qədir-Xumda Əli bin Əbu Talibin *(ə)* fəziləti haqqında nəql olunmuşdur. Peyğəmbər *(s)* onun əlindən tutub buyurdu: *"Ey Rəbbim, ona dost olana dost, düşmən olana düşmən ol!"* Ömər onunla görüşüb dedi: "Ey Əbu Talibin oğlu, mübarək olsun sənin bu məqamın! Mənim və bütün möminlərin rəhbəri oldun".

Xatırladaq ki, bu ayənin təfsirində nəql olunmuş hədislərin sayı son dərəcə çoxdur. Onların hamısını burada qeyd etmək imkan xaricindədir və maraqlananlar Əllamə Əmininin "əl-Qədir" əsərinə müraciət edə bilərlər. Mənbələr bu haqda nəql olunmuş hədislərin mütəvatir həddində olduğu qənaətindədirlər. Çünki, bu hədisi səhabələrdən 110 nəfər nəql etmişdir.

Görkəmli alim əl-Xarəzmi "Məqtəlil-Hüseyn" adlı əsərində belə deyir: "Peyğəmbərin *(s)* səhabəsi Həssan bin Sabit aşağıdakı şeirini məhz Qədir-Xuma həsr etdiyini yazır.

**وأخرج الخوارزمي في (مقتل الحسين) عن أبي هارون العبدي، عن أبي سعيد الخدري، أنّ حسان بن ثابت أنشد عند ذلك هذه الأبيات:**

**(يناديهم يوم الغدير نبيهم***بخمٍّ وأسمــع بالرسول مناديا)**

**(يقول فمن مولاكم ونبيكم***فقالوا ولم يبدوا هناك التعاميا)**

---

[718] الإمامة والسياسة.

[719] تفسير النيسابوري (غرائب القرآن ورغائب الفرقان) هامش تفسير الطبري)/ ج6/ ص194-195.

**(إلهك مولانا وأنــت ولينا**ولم تر منّا فـي الولاية عاصيا)**
**(فقال له قم يا علي فإنني**رضيتك من بعدي إماماً وهادياً).**[720]

Qədir-Xum hədisini aşağıdakı qaynaqlar da nəql etmiş və qeyd olunan ayənin İmam Əlinin *(ə)* haqqında nazil olduğu onlarda göstərilmişdir.[721]

Burada Müaviyə ilə İbn Abbasın Həzrət Əlinin *(ə)* imamət və fəzilətləri haqqında etdiyi mübahisəni qeyd etməyi münasib görürük. Belə ki, Müaviyə müsəlmanların xəlifəsi adıyla Mədinə şəhərinə daxil olduqda əmrilə İbn Abbası onun hüzuruna gətirdilər. Müaviyə qəzəblə ona dedi: "Eşitmişəm hələ də Əlinin fəzilətindən danışırsan. Məgər bilmirsən ki, Əlinin fəzilətindən danışmağı qadağan etmişəm?! O gündən qorx ki, əzablı bəlaya düçar olasan və heç vaxt canını qurtara bilməyəsən!" İbn Abbas dedi: "Bütün Mədinə əhalisi şahiddir ki, mən Quranın təfsirindən başqa bir söz dilimə gətirmirəm. Çünki, Allahın Rəsulundan *(s)* eşitmişəm ki, buyurub:

**مَنْ فَسَّرَالْقُرْآنَ بِرَأْيِهِ فَالْيَتَبَوَّءْ مَقْعَدُهُ مِنَ النَّارِ**

*"Hər kəs Quranı öz rəyi ilə* (həqiqətin xilafına) *təfsir etsə, gərək öz oturaq yerini odda hazırlasın"*. Buna görə də mən Quranı həqiqətin xilafına təfsir etmirəm". Müaviyə dedi: "Təfsir de, həqiqətin xilafına və yalan məna etmə. Lakin Əlinin fəzilətindən dəm vurma!" İbn Abbas dedi: "Çox yaxşı, bəzi vaxt bu ayəni oxuyuram:

**وَيُطْعِمُونَ الْطَّعَامَ عَلَى حُبِّهِ مِسْكِينًا وَ يَتِيمًا وَ أَسِيرًا.**

***"Onlar öz iştahaları çəkdiyi*** (özləri yemək istədikləri) ***halda*** (və ya Allah rizasını qazanmaq uğrunda) ***yeməyi yoxsula, yetimə və əsirə yedirərlər"***.[722] Məndən sual edirlər: "Allah bu ayədə kimləri tərif edir?" Əgər onların Əli *(ə)*, Fatimə *(ə)*, Fizzə *(r)* olduğunu desəm, ayəni düzgün təfsir etmiş, əks halda isə yalan demiş olaram".

Müaviyə dedi: "Başqa ayə yoxdur ki, camaata təfsirini deyəsən?" İbn Abbas dedi: "Çox yaxşı, indi başqa bir ayə oxuyuram:

**يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنْزِلَ إِلَيْكَ مِنْ رَّبِّكَ وَإِنْ لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَاللهُ يَعْصِمُكَ مِنَ النَّاسِ**

***"Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil ediləni*** (Quranı*)* ***təbliğ et. Əgər*** (bunu) ***etməsən,*** (Allahın) ***risalətini*** (sənə həvalə edilən elçilik, pey-

---

720 مقتل الإمام الحسين (عليه السلام)/ ج1/ ص47.

721 أسد الغابة/ ج2/ ص28.ذخائر العقبى/ ص67.مسند أحمد بن حنبل/ ج4/ ص281. المناقب للبلخي/ ص28.الفصول المهمة/ الفصل الأول.الدّر المنثور/ ج2/ ص298.تذكرة الحفّاظ/ ج1/ ص10.المناقب المائة/ المنقبة السادسة والخمسون/ ص37.تهذيب التهذيب/ ج3/ ص327.ميزان الاعتدال/ ج2/ ص107.خصائص أمير المؤمنين/ ص89.الجرح والتعديل/ ج1/ قسم2/ ص573. المعجم الصغير/ ج1/ ص71. أخبار أصفهان/ ج1/ ص126الكنى والأسماء/ ج2/ ص61.

722 "əl-İnsan", 8.

ğəmbərlik vəzifəsini) ***yerinə yetirmiş olmazsan". Allah səni insanlardan qoruyacaq..."***.[723] Məndən sual edirlər: "Peyğəmbər *(s)* hansı sözü camaata çatdırmağa məmur olmuşdu ki, əgər onu deməsəydi, öz risalətini tamamlamamış olurdu?" Əgər Peyğəmbər *(s)* "Qədir-Xum"da özündən sonra Əlini *(ə)* müsəlmanların rəhbəri və xəlifə olmasını çatdırmağa məmur olduğunu desəm, ayəni doğru və düzgün təfsir etmiş, əks halda isə yalan söz demiş olaram".

Müaviyə dedi: "Gərək hökmən, bu ayəni təfsir edəsən? Başqa ayə oxu". İbn Abbas oxudu:

**يَا أَيُّهَاالَّذِينَ آمَنُوا إِذَا نَاجَيْتُمُ الرَّسُولَ فَقَدِّمُوا بَيْنَ يَدَىْ نَجْوَاكُمْ صَدَقَةً**

***"Ey iman gətirənlər! Peyğəmbərlə*** (hər hansı bir iş barəsində) ***məxfi danışacağınız zaman bu danışıqdan əvvəl*** (ona hörmət əlaməti olaraq yoxsullara) ***sədəqə verin..."***.[724] Məndən sual edirlər: "Bu ayəyə əməl edən fəqət Əlidir *(ə)*?" Belə olan halda həqiqəti söyləsəm ayəni düzgün təfsir etmiş, əgər belə olmasa Allaha yalan demiş olaram. Mən heç vaxt cürət etmərəm ki, həqiqətin xilafına Quranı təfsir edəm. Baxmayaraq ki, onun bir dinardan çox pulu yox idi, amma o bir dinarı on dirhəmə satdı və hər vaxt Peyğəmbərlə *(s)* nəcva etmək (pıçıldaşmaq), istəyirdisə bir dirhəm sədəqə verirdi".

Müaviyə dedi: "Quranın başqa ayələrindən oxu". İbn Abbas oxudu:

**وَ مِنَ النَّاسِ مَنْ يَشْرِى نَفْسَهُ ابْتِغَاءَ مَرْضَاتِ اللهِ وَاللهُ رَؤُوفٌ بِالْعِبَادِ**

***"İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda*** (Allah rizası üçün) ***öz canını fəda edər. Allah Öz bəndələrinə qarşı çox mehribandır"***. [725] Məndən soruşurlar: "Kimdir öz canını Allahın razılığına görə qurban verən şəxs?" Əgər desəm ki, o şəxs Əli *(ə)* idi və "Leylətulməbit"də Peyğəmbərin *(s)* yatağında yatdı ki, Peyğəmbər *(s)* düşmənlərin şərrindən amanda qalıb Mədinə şəhərinə hicrət etsin. Bu halda ayəni düzgün təfsir etmiş olaram. Əks halda isə Allaha yalan nisbət verərəm".

Müaviyə dedi: "Başqa ayə oxu görək?" İbn Abbas dedi: "Qulaq as bu ayəyə:

**قَالَ لَّا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّاالْمَوَدَّةَ فِىالْقُرْبَى**

***"...***(Ya Peyğəmbər!) ***De: "Mən sizdən bunun*** (risaləti təbliğ etməyimin) ***müqabilində qohumlara məhəbbətdən*** (Əhli-Beytə sevgidən) ***başqa bir şey istəmirəm..."***.[726] Məndən sual edirlər: ***"Zil-qurbə"*** kimlərdir ki, on-

---

[723] "əl-Maidə", 67.
[724] "əl-Mücadələ", 12.
[725] "əl-Bəqərə", 207.
[726] "əş-Şura", 23.

lara məhəbbət bəsləmək Peyğəmbərin *(s)* risalətinin muzdunun əvəzində olar?" Əgər desəm ki, ***"Zil-qurbə"***dən məqsəd Əli *(ə)*, Fatimə *(ə)* və onların övladlarıdır, ayəni düzgün təfsir etmiş olaram".

Müaviyə dedi: "Quranın minlərlə ayəsi vardır, başqa ayə oxu!" İbn Abbas oxudu:

إِنَّمَا يُرِيدُ اللهُ لِيُذْهِبَ عَنْكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَ يُطَهِّرَكُمْ تَطْهِيرًا

***"...Siz ey*** (Peyğəmbərin) ***ev əhli! Allah sizdən çirkinliyi*** (günahı) ***yox etmək və sizi tər-təmiz*** (pak) ***etmək istər!"***[727] Məndən soruşurlar: "Onlar kimlərdir ki, Allah hər pislik və çirkinlikləri onlardan uzaq edibdir?" Əgər desəm ki, onlar Peyğəmbərin *(s)* Əhli-Bytidir *(ə)* - Əli *(ə)*, Fatimə *(ə)*, Həsən *(ə)* və Hüseyn *(ə)* - düzgün demiş olaram. Əks halda isə yalan təfsir etmiş olaram".

Müaviyə yenə də dedi: "Başqa ayə oxu?" İbn Abbas oxudu:

فَمَنْ حَآجَّكَ فِيهِ مِن بَعْدِ مَا جَاءَكَ مِنَ الْعِلْمِ فَقُلْ تَعَالَوْا نَدْعُ أَبْنَاءَنَا وَ أَبْنَاءَكُمْ وَنِسَاءَنَا وَ نِسَاءَكُمْ وَأَنْفُسَنَا وَ أَنْفُسَكُمْ ثُمَّ نَبْتَهِلْ فَنَجْعَل لَّعْنَتَ اللهِ عَلَى الْكَاذِبِينَ

**"**(İsanın Allahın qulu və peyğəmbəri olması barədə) ***sənə göndərilən elmdən*** (məlumatdan) ***sonra buna*** (İsanın əhvalatına) ***dair səninlə mübahisə edənlərə de: "Gəlin biz də oğlanlarımızı, siz də oğlanlarınızı; biz də qadınlarımızı, siz də qadınlarınızı; biz də özümüzü, siz də özünüzü*** (bura) ***çağıraq! Sonra*** (Allaha) ***dua edib yalançılara Allahın lənət etməsini diləyək!"*** [728] "Məndən sual edirlər: "Onlar kimlər idi ki, Peyğəmbərlə *(s)* birlikdə Nəcran məsihilərilə mübahilə (bir-birinin haqqında nifrin) etmək istəyirdilər ki, Allah yalan deyəni aradan apara?" Əgər düzgün təfsir etmək istəsəm, gərək deyəm ki, Peyğəmbər *(s)* mübahilə günündə öz iki oğlu (nəvəsi) İmam Həsənlə *(ə)* İmam Hüseyni *(ə)*, Fatimeyi-Zəhra *(ə)* və İmam Əlini *(ə)* özü ilə apardı. Əlini *(ə)* ***"özü"***, yəni öz canı ibarəsi ilə təbir etdi. Lakin əgər desəm ki, Peyğəmbər *(s)* Əlidən *(ə)* başqa bir kişini mübahilə etməyə apardı, yalan demiş olaram. Mən heç vaxt ayənin xilafına təfsir etmərəm".

Müaviyə dedi: "Başqa ayə oxu!" İbn Abbas bu ayəni oxudu:

إِنَّمَا وَلِيُّكُمُ اللهُ وَرَسُولُهُ وَالَّذِينَ آمَنُوا الَّذِينَ يُقِيمُونَ الصَّلاَةَ وَيُؤْتُونَ الزَّكَاةَ وَهُمْ رَاكِعُونَ

***"Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki,*** (Allaha) ***namaz qılır və rükuda olduqları halda zəkat verirlər"***.[729] Sonra dedi: "Əgər məndən soruşsalar, kim Allah və Rəsulundan *(s)* sonra camaatın rəhbəridir və bu sifətə malikdir ki, rüku halında zəkat veribdir?

---

727 "əl-Əhzab", 33.
728 "Ali-İmran", 61.
729 "əl-Maidə", 55.

Əgər desəm ki, o Əlidir *(ə)*, düzgün demiş olaram. Əks təqdirdə ayəni həqiqətin xilafına təfsir etmiş olaram".

Müaviyə dedi: "Başqa ayəni camaat üçün təfsir et, məgər Quran həmin ayələrə aiddir ki, Əlinin şənində təfsir edirsən?" İbn Abbas dedi: "Belə olan halda bu ayəyə qulaq as:

**إِنَّمَا أَنْتَ مُنْذِرٌ وَلِكُلِّ قَوْمٍ هَادٍ**

***"...Sən ancaq*** (insanları Allahın əzabı ilə) ***qorxudansan. Hər tayfanın*** (doğru yolu göstərən) ***bir rəhbəri*** (peyğəmbəri) ***vardır!"***[730] Məndən sual edirlər: "Bu ayənin təfsiri nədir? Biz ***"Munzir"***i - Peyğəmbəri *(s)* tanıyırıq. Amma ***"Hadi"***ni (ümməti hidayət edəni) tanımırıq". Əgər desəm ki, ümməti hidayət edən Əlidir *(ə)*, düzgün demiş olaram. Çünki, bütün alimlər bu hədisi Peyğəmbəridən *(s)* nəql ediblər ki, buyurub:

**أَنَا الْمُنْذِرُ وَ عَلِيٌّ الْهَادِى وَ بِكَ يَا عَلِيُّ يُهْتَدَى الْمُهْتَدُونَ**

*"Mən qorxudan, Əli isə hidayət edəndir!"* (və sonra buyurdu:) *"Ya Əli, camaat sənin vasitənlə düzgün yola hidayət olunacaq!"*[731] Əgər ayəni həqiqətin xilafına təfsir etsəm, günahkar olaram, belə olan halda, mənim Allahın əzabına taqətim yoxdur".

Müaviyə yenə də qəzəbli halda "başqa ayə oxu" deyirdi. İbn Abbas dedi: "Çox yaxşı, başqa ayəyə qulaq as:

**قُلْ كَفَى بِاللهِ شَهِيدًا بَيْنِى وَ بَيْنَكُمْ وَ مَنْ عِنْدَهُ عِلْمُ الْكِتَابِ**

**"**(Ya Rəsulum!) ***Kafirlər: "Sən peyğəmbər deyilsən!" - deyirlər.*** (Onlara) ***belə cavab ver: "Mənimlə sizin aranızda*** (doğruluğuma) ***Allahın və kitabı bilənlərin*** (Tövratı, İncili bilən mömin yəhudi və xaçpərəstlərin, yaxud Qurana bələd olan mömin müsəlmanların və ya lövhi-məhfuzdan xəbərdar olan Cəbrailin) ***şahid olması yetər!"***[732] Camaat məndən sual edir: "O kəs kimdir ki, Quranın elmi onun yanındadır?" Əgər desəm ki, Əlidir *(ə)*, düz söz demiş olaram. Çünki, Peyğəmbərdən *(s)* soruşdular: "O kəs kimdir ki, Quranın elmi onun yanındadır?" O Həzrət *(s)* buyurdu: *"Əlidir"*. Peyğəmbər *(s)* dəfələrlə buyurub:

**اَنَا مَدِينَةُ الْعِلْمِ وَ عَلِيٌّ بَابُهَا، فَمَنْ أَرَادَالْحِكْمَة فَالْيَئْتِهَا مِنْ بَابِهَا**

*"Mən elmin şəhəri, Əli isə onun qapısıdır. Belə isə hər kəs hikmət və elmi istəyirsə, gərək elm şəhərinin qapısından başlaya"*.[733]

[730] "ər-Rəd", 7.
[731] "Müsnədül-Firdovs" əsərində İbn Abbasdan nəql olunub.
[732] "ər-Rəd", 43.
[733] "Camius-Səğir"də Süyuti Cabirdən, "Mucəmül-Kəbir"də Təbərani İbn Abbasdan nəql edib.

Müaviyə yenə dedi: "Başqa ayələrdən də oxu". İbn Abbas dedi: "Bu şərif ayəni oxuyuram:

وَاعْتَصِمُوا بِحَبْلِ اللهِ جَمِيًعا وَ لاَ تَفَرَّقُوا

***"Hamılıqla Allahın ipinə*** (dininə, Qurana) ***möhkəm sarılın və*** (firqələrə bölünüb bir-birinizdən) ***ayrılmayın!..."***.[734] Məndən bu ayənin təfsirini sual edirlər. Əgər desəm ki, camaat gərək Peyğəmbərin *(s)* Əhli-Beytindən *(ə)* yapışa ki, onların da birincisi Əlidir *(ə)*, ayəni düzgün təfsir etmiş olaram".[735]

Müaviyə dedi: "Başqa ayə təfsir et, köhnələrindən danışma". İbn Abbas dedi: "Bu ayəyə qulaq as:

إِنِّى تَرَكْتُ فِيكُمْ حَبْلَيْنِى، إِنْ تَمَسَّكْتُمْ بِهِمَا لَنْ تَضِلُوا أَبَدًا أَحَدُهُمَا أَكْبَرُ مِنَ الْآخَرِ، كِتَابُ اللهِ حَبْلٌ مَمْدُودٌ مِنَ السَّمَاءِ اِلَـالْاَرْضِ وَ عِتْرَتِى أَهْلَ بَيْتِى فَإِنْـهُمَا لَنْ يَفْتَرِقَا حَتَّى يَرِداَ عَلَـالْحَوْض

***"Hamılıqla Allahın ipinə*** (dininə, Qurana) ***möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən O sizin qəlblərinizi*** (İslam ilə) ***birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O sizi oradan xilas etdi. Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, haqq yola yönəlmiş olasınız!"***[736] Ey Müaviyə! Əgər mən bundan başqa cür təfsir etsəm, həqiqətin xilafına məna etmiş olaram və mən heç vaxt belə bir iş görməyəcəyəm".

Müaviyə dedi: "Başqa ayələri camaat üçün təfsir et, keçmiş ayələrdən danışma!" İbn Abbas dedi: "Bu ayəyə qulaq as:

هُوَالَّذِى أَيَّدَكَ بِنَصْرِهِ وَبِالْمُؤْمِنِينَ

**"...**(O Allah ki) ***səni Öz köməyilə və möminlərlə müdafiə edib möhkəmlətdi"***.[737] Məndən sual edirlər: "Biz bilirik ki, Peyğəmbərə *(s)* kömək edən Allahdır. Lakin Peyğəmbərə *(s)* kömək edən mömini tanımırıq?" Əgər desəm ki, Peyğəmbərə *(s)* əvvəldən axıra kömək edən Əlidir *(ə)*, ayəni düzgün təfsir etmiş olaram. Bütün alimlər bu ayənin İmam Əli *(ə)* barəsində olmasını təsdiq edirlər. Hətta, Əbu Hüreyrə bu hədisi Peyğəmbərdən *(ə)* nəql edir:

مَكْتُوبٌ عَلَـالْعَرْشِ: لاَ إِلَهَ إِلَّااللهُ وَحْدَهُ لاَ شَرِيكَ لَهُ,مُحَمَّدٌ عَبْدِى وَ رَسُولَى وَ أَيَّدْتُهُ بِعَلِّى بْنِ أَبِى طَالِب

---

[734] "Ali-İmran", 103.

[735] "Səqəleyn" hədisini Tirmizi "Səhih"ində, c II, səh 380; Əhməd bin Hənbəl də "Müsnəd"ində, c III, səh. 17.

[736] "Ali-İmran", 103.

[737] "əl-Ənfal", 62.

*“Allahın Ərşinə belə yazılıb: “Allahdan başqa məbud yoxdur, Onun üçün şərik yoxdur və Muhəmməd Onun Rəsuludur, Mən Öz Rəsuluma Əlinin vasitəsi ilə kömək edirəm”.*

Müaviyə dedi: “Məgər Quranın başqa ayələri yoxdur? Bəlkə başqa bir ayəni təfsir edəsən”. İbn Abbas bu ayəni oxudu:

إِنَّ الَّذِينَ آمَنُوا وَ عَمِلوُاالصَّالِحَاتِ أُوْلَئِكَ هُمْ خَيْرُالْبَرِيَّةِ

***“İman gətirib yaxşı əməllər edənlər isə yaradılmaşların ən yaxşılarıdır”***[738] və dedi: “Camaat bu ayənin təfsirini soruşur. Əgər desəm ki, Peyğəmbərdən *(s)* sonra ***“ən yaxşı əməllər edən”***dən məqsəd Əli *(ə)*, onun övladları və tərəfdarlarıdır, həqiqətdə düzgün deyərəm. Əks halda isə həqiqətin xilafına təfsir etmiş olaram. Necə ki, “əs-Səvaiq”, “Kəşful-ğummə” kitablarının müəllifləri və başqaları bu mövzunu nəql ediblər. Çünki, bu ayə Peyğəmbərə *(s)* nazil olduqda o, Həzrət Əliyə *(ə)* üz tutaraq buyurub:

أَنْتَ يَا عَلِيٌّ وَ شِيعَتُكَ تَأْتِى يَوْمَ الْقِيَامَةِ رَاضِيِّينَ وَ يَأْتِى أَعْدَائُكَ غَضْبَانًا مُقْمَحِينَ

*“Ya Əli, sən və sənin tərəfdarların Qiyamət günündə Allahdan razı halda və Allah da sizdən razı halda məşhur olacaqsınız! Amma sənin düşmənlərin Allahın qəzəbinə düçar olan və Onun rəhmətindən ümidsiz halda məşhur olacaqlar”.*

Müaviyə dedi: “Gərək hökmən bu kimi ayələri təfsir edəsən? Başqa ayə oxu və təfsir et”. İbn Abbas dedi: “Bu şərif ayəni oxuyuram:

وَقِفُو هُمْ إِنَّهُمْ مَّسْئُولُونَ

***“Onları tutub saxlayın, çünki sorğu-sual olunacaqlar!”***[739] Bütün İslam alimləri deyiblər: “Qiyamət günündə suallardan biri də Əlinin *(ə)* vilayəti və ona məhəbbət bəsləməkdən ibarətdir”. Mən əgər ayəni həqiqətin xilafına təfsir etsəm, ayəni düzgün təfsir etməmiş olaram”.

Müaviyə dedi: “Başqa ayəni təfsir et”. İbn Abbas bu ayələri oxudu:

عَمَّ يَتَسَاعَلُونَ، عَنَ النَّبَإِالْعَظِيم، الَّذِى هُمْ فِيهِ مُخْتَلِفُونَ

***“Bu*** (müşriklər) ***bir-birindən nə haqqında soruşurlar?”***; ***“Böyük bir xəbər*** (Qiyamət günü) ***haqqında!”***; ***“Elə bir xəbər ki, onun barəsində ixtilafdadırlar”***[740] və dedi: ***“Nəbaül-əzim”*** nədir ki, camaat onda ixtilaf edib və onun haqqında təəccüblə sual edir? Əgər ayəni düzgün təfsir etmək istəsəm,

[738] “əl-Bəyyinə” , 7.
[739] “əs-Səffat”, 24.
[740] “ən-Nəbə”, 1-3.

mütləq gərək deyəm ki, ***“Qəbəil-əzim”***dən məqsəd Əli bin Əbu Talibdir *(ə)*, bu halda ayəni düzgün təfsir etmiş olaram. Çünki, Peyğəmbər *(s)* onun barəsində buyurmuşdur:

**يا عَلِى! أَنْتَ حُجَّةُاللهِ وَ أَنْتَ بَابُ اللهِ وَ أَنْتَ الطَّارِيقُ إِلَـاللهِ وَ أَنْتَ النَّبَأُالْعَظِيمُ وَ أَنْتَ الصِّرَاطُ الْمُسْتَقِيمُ وَ أَنْتَ الْمَثَلُ الْاَعْلَى**

*“Ya Əli, sənsən Allahın höccəti, sənsən Allahın rəhmət qapısı, sənsən Allaha yol, sənsən böyük bir nişanə və xəbər* (***“nəbəil-əzim”***)*, sənsən Siratəl-mustəqim, sənsən ən ali məsəl!”* Dəfələrlə Həzrət Əli *(ə)* özü buyurub:

**مَاللّٰهِ عَزَّ وَ جَلَّ آيَةٌ هِىَ أَكْبَرُ مِنِّى وَ لاَا لِلّٰهِ نَبَأٌ أَعْظِمُ مِنِّى**

*“Allah üçün məndən böyük bir nişanə və böyük bir xəbər yoxdur”*.

Müaviyə dedi: “Gərək bu kimi ayələri yenə də oxuyasan? Başqa ayə oxu”. İbn Abbas dedi: “Bu şərif ayəyə qulaq as:

**إِذَا زُلْزِلَتِ الْأَرْضُ زِلْزَالَـهَا، وَ أَخْرَجَتِ الْأَرْضُ أَثْقَالَـهَا، وَ قَالَ الْإِنْسَانُ مَا لَـهَا**

***“Yer özünəməxsus bir şiddətlə lərzəyə gəlib titrəyəcəyi zaman”***; ***“Yer öz ağır yüklərini çıxardıb atacağı zaman”***; ***“İnsan*** (təəccüblə)***: “Buna*** (bu Yerə) ***nə olub?” - deyəcəyi zaman”***.[741] Camaat məndən soruşur: “Ayədəki insandan məqsəd kimdir ki, belə qüdrətə malikdir?” Əgər desəm ki, Əli bin Əbu Talibdir *(ə)*, ayəni düzgün təfsir etmişəm. Təfsirçilərin çoxu nəql ediblər, məsələn, Şəmim bin Hatəm deyir ki, bir dəfə Əli *(ə)* ilə səfərdə idik və Bəsrə şəhərinə tərəf gedirdik. İstirahət etmək üçün çöllük bir yerdə oturaq saldıq. Birdən güclü bir zəlzələ baş verdi, biz qorxduq və bu halda gördük ki, Əli *(ə)* öz mübarək əlini Yerə qoyub bir zikr dedi ki, Yer aram oldu. Biz təəccüblə dedik: “Ya Əli *(ə)*, Allah yanında nə böyük məqamın var ki, bu cür güclü zəlzələni sakitləşdirə bildin?!” O Həzrət *(ə)* buyurdu:

**أَنَا الإِنْسَانُ الَّذِى يَقُولُ لِلأَرْضِ يَوْمَ الْقِيَامَةِ, أُسْكُتِى وَ اسْتَقِرِّى**

*“Mən o insanam ki,* (Allahın əmri ilə) *Qiyamət günü Yerə sakit ol, yerində qərarlaş deyəcəyəm”*. Müəllif deyir: “Safi” təfsirində Xanım Zəhradan *(ə)* nəql olunub ki, Əbu Bəkrin xilafəti zamanında Mədinədə güclü bir zəlzələ oldu, evlər dağıldı və camaatın bəziləri evlərin altında qalıb öldü. Buna görə də camaat Əbu Bəkrin yanına qaçırdı ki, çarə etsin. Lakin gördülər ki, Əbu Bəkr dostu Ömərlə öz evindən çıxdı və camaata deyirdilər: “Nə qədər ki, gec deyil Əlidən kömək diləyək, yoxsa hamımız həlak olarıq”. Onlar Həzrət Əlidən *(ə)* kömək istədikdə o Həzrət *(ə)* əmr etdi ki, camaatın hamısı gərək

[741] “əz-Zilzal”, 1-3.

Mədinə şəhərindən çıxsın. O vaxt Həzrət Əli *(ə)* özü bir təpənin başına çıxdı və əlini Yerə qoyaraq buyurdu:

**اُسْكُتِى وَ اسْتَقِرِّى**

*"Sakit ol və dayan"*. Bu vaxt Yer birdən sakit oldu. Camaatın təkbir səsi hər tərəfdən ucaldı. O Həzrətdən *(ə)* sual olundu: "Yeri necə sakitləşdirə bildin?" Həzrət Əli *(ə)* buyurdu: *"Bu zəlzələni sakitləşdirmək çətin və mühüm bir məsələ deyil. Ey camaat, bilin ki, mən o insanam ki, Allahın əmri ilə Qiyamət zəlzələsini sakit edəcəyəm!"*

Müaviyə gördü ki, İbn Abbasın oxuduğu hər ayə, İmam Əlinin *(ə)* fəziləti və şənindədir. Buna görə də İbn Abbasa dedi: "Daha kifayətdir". İbn Abbas dedi: "İcazə ver, yenə də Qurandan başqa ayələri təfsir edəm". O, bu ayəni oxudu:

**لِنَجْعَلَهَا لَكُمْ تَذْكِرَةً وَتَعِيَهَا أُذُنٌ وَاعِيَةٌ**

***"Ona görə ki, bunu*** (möminlərə nicat verib kafirləri məhv etməyimizi) ***sizə bir ibrət dərsi edək və dərk edən*** (öyüd-nəsihəti cani-dildən dinləyən) ***qulaq bunu eşidib yadda saxlasın!"***[742] və dedi: "Bu şərif ayə Peyğəmbərə *(s)* nazil olduqda o Həzrət *(s)* buyurdu: *"Mən Allahdan istədim ki, Əlinin qulağını mənim elmimin qabı qərar verə, belə ki, məndən eşitdiklərini heç vaxt yaddan çıxarmaya"*. Həzrət Əlidən *(ə)* nəql olunub ki, buyurur: *"Peyğəmbərin duası səbəbiylə eşitdiklərimi heç vaxt yaddan çıxarmamışam"*.

Yenə də, İbn Abbas Qurandan başqa bir ayəni oxudu və dedi: "Ey Müaviyə, bu ayələrə qulaq as:

**فَمَنْ يَكْفُرْ بِالطَّاغُوتِ وَيُؤْمِن بِاللهِ فَقَدِ اسْتَمْسَكَ بِالْعُرْوَةِالْوُثْقَى لاَ انفِصَامَ لَهَا وَاللهُ سَمِيعٌ عَلِيمٌ, اَللهُ وَلِيُّالَّذِينَ آمَنُوا يُخْرِجُهُم مِّنَ الظُّلُمَاتِ إِلَى النُّورِ وَالَّذِينَ كَفَرُوا أَوْلِيَآؤُهُمُ الطَّاغُوتُ يُخْرِجُونَهُمْ مِنَ النُّورِ إِلَى الظُّلُمَاتِ أُوْلَئِكَ أَصْحَابُ النَّارِ هُمْ فِيهَا خَالِدُونَ**

***"Dində məcburiyyət*** (zorakılıq) ***yoxdur. Artıq doğruluq*** (iman) ***azğınlıqdan*** (küfrdən) ***ayırd edildi. Hər kəs Tağutu*** (Şeytanı və ya bütləri) ***inkar edib Allaha iman gətirərsə, o, artıq*** (qırılmaq bilməyən) ***ən möhkəm bir ipdən*** (dəstəkdən) ***yapışmış olur. Allah*** (hər şeyi olduğu kimi) ***eşidəndir, biləndir!"***; ***"Allah*** (Ona) ***iman gətirənlərin dostudur, onları zülmətdən çıxarıb işığa tərəf yönəldər. Kafirlərin dostu isə Tağutdur*** (şeytanlardır)***. Onları*** (kafirləri) ***nurdan ayırıb zülmətə salarlar. Onlar cəhənnəmlikdirlər və orada əbədi qalacaqlar!"***[743] Müsəlmanlar bu şərif ayələri Peyğəmbərdən *(s)* eşitdiklərində soruşurdular: "Ey Allahın Rəsulu *(s)*! Heç vaxt **"**(qırılmaq bil-

[742] "əl-Haqqə", 12.
[743] "əl-Bəqərə", 256-257.

məyən) ***ən möhkəm bir ipdən"*** məqsəd nədir və Şeytana tabe olanlar kimlərdir?" Peyğəmbər *(s)* buyurdu:

**مَنْ أَحَبَّ اَنْ يَتَمَسَّكَ بِالْعُرْوَةِ الْوُثْقَى الَّتِى لاَ انْفِصَامَ لَهَا، فَلْيَتَمَسَّكْ بِوِلاَيَةِ أَخِى وَ وَصِيِّى عَلِيِّ بْنِ أَبِى طَالِب (ص)، فَاِنَّهُ لاَ يُهْلَكُ مَنْ أَحَبَّهُ وَ تَوَلاَّهُ وَ لاَ يَنْجُوا مَنْ أَبْغَضَهُ وَ عَادَاهُ**

*"Hər kəs* **"**(qırılmaq bilməyən) ***ən möhkəm bir ipdən"*** *yapışmaq istəsə, gərək Əlinin vilayətini qəbul edə və ona məhəbbət bəsləyə. Çünki, o, mənim canişinim və qardaşımdır. Əliyə məhəbbət bəsləyənlər heç vaxt həlak olmazlar, Əlinin düşmənləri isə heç vaxt nicat tapmazlar".*

Müaviyə gördü ki, İbn Abbasın Əlinin *(ə)* fəzilətləri barəsində danışmasının qarşısını almağa nə qədər səy edirsə, müvəffəq ola bilmir, buna görə də onu öz hüzurundan mürəxxəs etdi. Başqa bir rəvayətə görə, Müaviyə İbn Abbasa dedi: "Bundan sonra Quranın ayələrindən heç birini camaat üçün təfsir etməyə haqqın yoxdur".[744]

**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تُحَرِّمُوا طَيِّباتِ ما أَحَلَّ اللهُ لَكُمْ)).المائدة/ 87.**
**روى الحافظ الحاكم الحسكاني قال: أخبرنا أبو سعد الصفار (بإسناده المذكور) عن محمد بن إبراهيم بن الحرث التيمي (قال):**
**إنّ علياً، وعثمان بن مظعون، ونفراً من أصحاب رسول الله (صلى الله عليه وآله وسلّم) تعاقدوا أنْ يصوموا النهار ويقوموا الليل ولا يأكلوا اللحم، فبلغ رسول الله، فأنزل الله تعالى:**
**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تُحَرِّمُوا طَيِّباتِ ما أَحَلَّ اللهُ لَكُمْ))**[745]

Hakim əl-Həskani yazır: "Əbu Səid əs-Səffar, Məhəmməd bin İbrahimdən sənədli şəkildə belə nəql edir: "Əli *(ə)*, Osman bin Məzun və Peyğəmbərin *(s)* digər səhabələri sözü bir yerə qoyub dedilər ki, gündüzləri oruc tutacaq, gecələri isə namaz qılacaq və ət yeməyəcəklər. Bu xəbər Peyğəmbərə *(s)* çatdıqda Allah ***"Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu pak nemətləri*** (özünüzə) ***haram etməyin və həddi aşmayın. Doğrudan da, Allah həddi aşanları sevməz!"*** ayəsini nazil etdi". Burada incə bir məqama diqqəti yönəltmək lazımdır. Belə ki, oxucu elə zənn etməsin ki, İmam Əlinin *(ə)* bu əməli Allahın xoşuna gəlmədiyindən və ya İslam şəriətinin prinsiplərinə zidd olduğundan həmin əməl bu ayə vasitəsilə qadağan edilib. Yox, bu, əsla belə deyil. Əksinə, biz bu ayədə İmam Əlinin *(ə)* fəzilətinə işarə olunduğunu görürük. Çünki, tarixdən məlumdur ki, bəzi peyğəmbərlərin *(ə)* hərəkətləri başqalarını islah etmək, onları doğru yola yönəltmək üçün xüsusi bir vasitə kimi istifadə edilib. Məsələn, Allah Qurani-Kərimdə Peyğəmbərimizə *(s)* xitab edərək **(يا أَيُّهَا النَّبِيُّ اتَّقِ اللهَ وَلا**

[744] http://zehra-yolu.com. Ayətullahül-üzma Nasir Məkarim Şirazi (tərcüməçi: Rza Şükürov).

[745] شواهد التنزيل/ ج1/ ص195.

**(تُطِعِ الْكافِرِينَ وَالْمُنافِقِينَ** – ***"Ya Peyğəmbər! Allahdan qorx, kafirlərə və münafiqlərə itaət etmə..."***[746] ayəsini bəyan etməklə, əslində möminlərə xitab etmişdir.

Xatırlatmaq istərdik ki, mübarək ayədə ***"kafirlər"*** dedikdə Məkkənin kafirləri, ***"münafiqlər"*** dedikdə isə Mədinənin münafiqləri nəzərdə tutulur. Belə ki, o zamanlar Məkkə kafirlərinin başında Əbu Süfyan, İkrimə və başqaları, Mədinə münafiqlərinin başında isə Abdullah bin Übey, Abdullah bin Səd və digərləri dayanırdı. Ayəyə təfsir verən əl-Bəğəvi özünün "Təfsiril-Bəğəvi" adlı əsərində yuxarıda qeyd etdiklərimizə işarə edərək yazır:

**(يا أيها النبي اتق الله) نزلت في أبي سفيان بن حرب، وعكرمة بن أبي جهل، وأبي الأعور وعمرو بن سفيان السلمي، وذلك أنهم قدموا المدينة فنزلوا على عبد الله بن أبي بن سلول رأس المنافقين بعد قتال أحد، وقد أعطاهم النبي - صلى الله عليه وسلم - الأمان على أن يكلموه، فقام معهم عبد الله بن سعد بن أبي سرح، وطعمة بن أبيرق، فقالوا للنبي - صلى الله عليه وسلم -، وعنده عمر بن الخطاب : ارفض ذكر آلهتنا، اللات والعزى ومناة، وقل: إن لها شفاعة لمن عبدها، وندعك وربك، فشق على النبي - صلى الله عليه وسلم - قولهم، فقال عمر: يا رسول الله ائذن لنا في قتلهم، فقال: إني قد أعطيتهم الأمان، فقال عمر: اخرجوا في لعنة الله وغضبه، فأمر النبي - صلى الله عليه وسلم - عمر أن يخرجهم من المدينة فأنزل الله تعالى:**
**(يا أيها النبي اتق الله) أي: دم على التقوى، كالرجل يقول لغيره وهو قائم: قم هاهنا، أي: اثبت قائما . وقيل الخطاب مع النبي - صلى الله عليه وسلم - والمراد به الأمة. وقال الضحاك: معناه اتق الله ولا تنقض العهد الذي بينك وبينهم. [ص: 316].**
**( ولا تطع الكافرين) من أهل مكة، يعني: أبا سفيان، وعكرمة، وأبا الأعور) (والمنافقين) من أهل المدينة، عبد الله بن أبي، وعبد الله بن سعد، وطعمة (إن الله كان عليما) بخلقه، قبل أن يخلقهم (حكيما) فيما دبره لهم.**
**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَقْتُلُوا الصَّيْدَ وَأَنْتُمْ حُرُمٌ)).المائدة/ 95.**
**روى المفسّر المحدِّث، جلال الدين بن أبي بكر السّيوطي (الشافعي) في تفسيره (بإسناده المذكور) عن مجاهد، عن ابن عباس قال:**
**(ما أنزل الله آية فيها: ((يا أيها الذين آمنوا)) إلاّ وعليٌّ رأسها وأميرها.**[747]

Cəlaləddin Süyuti əş-Şafei sənədli şəkildə "əd-Dürrul-mənsur" əsərində İbn Abbasdan ***"Ey iman gətirənlər! İhramda olarkən ovu*** (əti yeyilən heyvanları) ***öldürməyin. Sizdən ovu qəsdən öldürən hər bir kəsin boynuna cəza və ya kəffarə düşür. Onun cəzası içərinizdən olan iki ədalətli şəxsin hökmü ilə öldürdüyünə bənzər*** (onun qiymətinə bərabər) ***bir heyvanı Kəbəyə çatası*** (Kəbənin yaxınlığında kəsilib oradakı yoxsullara paylanacaq) ***qurban etmək, kəffarəsi isə, gördüyü işin zərərini, acısını dadsın***

[746] "əl-Əhzab", 1.

[747] الدّر المنثور/ ج1/ ص104.

***deyə,*** (öldürdüyü heyvanın dəyəri müqabilində) ***yoxsullara yedirtmək, yaxud ona bərabər*** (hərəsi üçün bir gün olmaq şərtilə yedirəcəyi yoxsulların sayı qədər) ***oruc tutmaqdır. Allah keçmişdə olanları bağışlamışdır. Hər kəs bundan sonra belə bir iş görsə, Allah ondan intiqam alar. Allah yenilməz qüvvət sahibi, intiqam sahibidir!”*** ayəsinin təfsirində belə nəql edir: “Quranda elə bir ***“Ey iman gətirənlər!”*** ayəsi yoxdur ki, Əli *(ə)* onun başı və əmiri olmasın”.

**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا عَلَيْكُمْ أَنْفُسَكُمْ لا يَضُرُّكُمْ مَنْ ضَلَّ إِذَا اهْتَدَيْتُمْ)).المائدة/ 105.**
**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: أخبرني أبو بكر الحافظ (بإسناده المذكور) عن مجاهد قال:**
**(ما كان في القرآن ((يا أيها الذين آمنوا)) فإنّ لعلي سابقةَ ذلك وفضيلته).**[748]

Hakim əl-Həskani ***“Ey iman gətirənlər! Nəfslərinizi qorumaq sizin borcunuzdur. Siz doğru yolda olsanız,*** (haqq yoldan) ***azanlar sizə heç bir zərər yetirə bilməzlər. Hamınızın axır dönüşü Allahadır. Allah etdiyiniz əməllər barəsində sizə xəbər verəcəkdir!”*** ayəsinin təfsirində sənədli şəkildə Əbu Bəkr əl-Hafizin belə xəbər verdiyini yazır: “Quranda elə bir ***“Ey iman gətirənlər!”*** ayəsi yoxdur ki, Əli *(ə)* onun əvvəli olmasın. Bu ayələr onun fəziləti haqqındadır”.

**(يا أَيُّهَا الَّذِينَ آمَنُوا شَهادَةُ بَيْنِكُمْ إِذا حَضَرَ أَحَدَكُمُ الْمَوْتُ حِينَ الْوَصِيَّةِ اثْنانِ ذَوا عَدْلٍ مِنْكُمْ). المائدة/ 106.**
**أخرج العلاّمة المصري المعاصر، خريج الجامعة الأزهرية، الشيخ أحمد محمد داود في كتابه الذي أسماه بـ (مناقب علي بن أبي طالب (كرّم الله وجهه) قال: عن ابن عباس (رضي الله عنهما) قال: (ما أنزل الله (يا أيها الذين آمنوا) إلاّ وعليٌّ أميرها وشريفها).**[749]

Müasir Misir alimlərindən olan Əllamə Davud “Mənaqibu Əli bin Əbu Talib *(ə)*” adlı əsərində İbn Abbasın belə dediyini nəql edir: “Allah elə bir ***“Ey iman gətirənlər!”*** ayəsi nazil etməyib ki, Əli *(ə)* onun əmiri və şərəfi olmasın”.

**(... وَكُنْتُ عَلَيْهِمْ شَهِيداً ما دُمْتُ فِيهِمْ فَلَمَّا تَوَفَّيْتَنِي كُنْتَ أَنْتَ الرَّقِيبَ عَلَيْهِمْ وَأَنْتَ عَلى كُلِّ شَيْءٍ شَهِيدٌ. إِنْ تُعَذِّبْهُمْ فَإِنَّهُمْ عِبادُكَ وَإِنْ تَغْفِرْ لَهُمْ فَإِنَّكَ أَنْتَ الْعَزِيزُ الْحَكِيمِ).المائدة/ 117-118.**
**أخرج علاّمة الشافعية، الكنجي القرشي قال: أخبرنا المشايخ الحفّاظ (منهم) محمد بن جعفر القرطبي - (إلى أنْ قال) والحافظ يوسف بن خليل**[750] **بحلب، قالوا جميعاً (إلى أن قال) اخبرنا أبو**

---

748 شواهد التنزيل/ ج1/ ص54.
749 المناقب للشيخ أحمد محمّد داود/ ص28.
750 هو الحافظ شمس الدين، أبو الحجّاج الدمشقي الأدمي، محدّث حلب المتوفى عام (648) وقد ترجم له:(البغدادي) في هدية

**سعيد، محمد بن عبد الرحمن الكنجرودي[751] (بسنده المذكور) عن سعيد بن جبير، عن ابن عباس قال: قال رسول الله (صلى الله عليه وسلّم) ـ (في حديث) ـ.**
**(ألا وإنّ ناساً من أصحابي يؤخذ بهم ذات الشمال، فأقول: أصحابي أصحابي!**
**قال: فيقال: إنّهم لم يزالوا مرتدّين على أعقابهم منذ فارقتهم.**
**فأقول ـ كما قال العبد الصالح، عيسى ابن مريم ـ:**
**(وكنت شهيداً عليهم ما دمت فيهم.... (إلى قوله) العزيز الحكيم).[752]**

***“Mən onlara yalnız Sənin mənə etdiyin əmri çatdırıb belə demişəm: “Mənim də, sizin də Rəbbiniz olan Allaha ibadət edin!” Nə qədər ki, onların arasında idim, onlara şahid mən idim*** (onları belə nalayiq hərəkətlər etməyə qoymurdum). ***Sən məni*** (göyə qaldırıb dərgahına) ***qəbul etdikdən sonra onlara nəzarətçi Özün oldun. Yalnız Sən hər şeyə şahidsən!”***; ***“Əgər onlara əzab versən, şübhə yoxdur ki, onlar Sənin qullarındır. Əgər onları bağışlasan, yenə şübhə yoxdur ki, Sən yenilməz qüvvət sahibi, hikmət sahibisən!”*** (İstədiyin bəndəyə əzab verməyə, istədiyini bağışlamağa və hər hansı bir məsələni hakimanə həll etməyə qadir olan ancaq Sənsən!)*”*ayələrinin təfsirində Kənci əş-Şafei sənədli şəkildə İbn Abbasın Peyğəmbərdən *(s)* belə nəql etdiyini yazır: *“Xəbərdar olun! Əshabımdan bir qrup Cəhənnəmə tərəf sürüklənəcək. Deyəcəm: “Bunlar mənim səhabələrimdir”. Mənə deyiləcəkdir:* ***“Sən onlardan ayrıldıqdan sonra onlar Cahiliyyə adətlərinə qayıtdılar və mürtəd oldular”****. Mən isə deyərəm: “Məryəm oğlu İsa necə də doğru deyirmiş:* ***“Sən məni*** (göyə qaldırıb dərgahına) ***qəbul etdikdən sonra onlara nəzarətçi Özün oldun. Yalnız Sən hər şeyə şahidsən!”*** Bu hədisi bir çox alim öz əsərində qeyd etmişdir.[753]

**((قَالَ اللهُ هذا يَوْمُ يَنْفَعُ الصَّادِقِينَ صِدْقُهُمْ لَهُمْ جَنَّاتٌ تَجْرِي مِنْ تَحْتِهَا الأَنْهارُ خالِدِينَ فِيها أَبَداً رَضِيَ اللهُ عَنْهُمْ وَرَضُوا عَنْهُ ذٰلِكَ الْفَوْزُ الْعَظِيمُ)).المائدة/ 119.**
**أخرج علاّمة الهند (بسمل) في كتابه أرجح المطالب، بسنده عن ابن عباس قال: قال رسول الله (صلى الله عليه وسلّم):**
**(علي سيّد الصادقين).[754]**

Əllamə əl-Hind İbn Abbasdan belə nəql edir: “Peyğəmbər *(s)* buyurmuşdur: *“Əli doğru danışanların rəhbəridir”* .

---

العارفين/ ج2/ ص554.وشمس الدين (الذهبي) في كتابه (العِبر) ج5/ ص201.و(تذكرة الحفّاظ) ج4/ ص، ١٤١٠، وآخرون...

[751] وقيل: أبو طالب النيسابوري، المتوفى عام (548) للهجرة، ذكره جماعة(منهم) شمس الدين (الذهبي) في تذكرة الحفّاظ/ ج4/ ص1313.(ومنهم) صلاح الدين الصفدي في (الوافي بالوفيات) ج3/ ص231.(ومنهم) أبو بكر السّيوطي في (بغية الدعاة) ج1/ ص157.

[752] كفاية الطالب/ ص87.

[753] صحيح البخاري/ ج4/ ص82، كتاب الرقاة/ باب كيف الحشر.تفسير القرآن العظيم لابن كثير/ ج2/ ص120.

[754] علاّمة الهند (بسمل) في كتابه أرجح المطالب،

## *4.6. İMAM ƏLİ (Ə) "ƏL-ƏNAM" SURƏSİNDƏ*

"əl-Ənam" surəsi Qurani-Kərimin altıncı surəsidir. Bu mübarək surənin mahiyyəti haqqında Ayətullah Fəqih İmani "Nurul-Quran" adlı məşhur təfsir əsərində belə yazır: "Bu surə Peyğəmbərə *(s)* Məkkədə nazil olmuş 67-ci surədir".

Əhli-Beytdən *(ə)* nəql olunan rəvayətlərə əsasən, "əl-Ənam" surəsinin ayələrinin hamısı bir yerdə nazil olmuşdur. Digər Məkkə surələrində olduğu kimi, bu surənin də əsas hədəf və məqsədi üçlük təşkil edən tövhid, nübüvvət və məad məsələlərinə dəvət etməkdir. Lakin surədə hər şeydən artıq təkallahlılığa dəvət, eləcə də şirk və bütpərəstliklə mübarizə təkid olunur.

"əl-Ənam" surəsinin mübarək ayələrinə dərindən diqqət yetirməklə müsəlmanların arasındakı nifaq və pərakəndəlik ruhiyyəsi aradan qalxar, onlar sanki, ruhən ayılar və qəlblərinə tövhid nuru bəxş edilər. Necə ki, bu surənin fəziləti barəsində belə nəql olunur: "O, nazil olarkən 70 min mələk onu müşayiət etmişdir. Hər kəs onu oxusa (və bunun sayəsində ruhu tövhid çeşməsindən sirab olsa), o mələklərin hamısı (Allah dərgahında) onun üçün günahlardan bağışlanmaq istəyər".[755]

Həmçinin, Əyyaşi mötəbər sənədlərlə Əbu Bəsirdən rəvayət edir ki, İmam Sadiq *(ə)* belə buyurmuşdur: *"əl-Ənam" surəsi bir yerdə nazil olmuş, 70 min mələk onu təzimlə yola salmışdır. Çünki, onun 70 yerində Allahın adı qeyd olunmuşdur. Əgər insanlar bu surənin oxunmasında nə qədər fəzilət olduğunu bilsəydilər, o zaman onu tərk etməzdilər"*. İmam *(ə)* sonra buyurur: *"Hər kəsin Allahdan müəyyən bir hacəti varsa və onun rəva olunmasını istəyirsə, "əl-Fatihə" və "əl-Ənam" surəsi ilə dörd rəkətli namaz qılsın"*.

Əli bin İbrahim nəql edir ki, İmam Rza *(ə)* buyurdu: *"əl-Ənam" surəsi bir yerdə nazil olub. 70 min mələk təsbih, təhlil və təkbir sədaları ilə bu surəni yola salmışdır. Hər kəs bu surəni oxusa, mələklər Qiyamət gününə qədər onun üçün təkbir deyərlər"*. [756]

**عن إبن عباس: من قرأ سورة الأنعام في كل ليلة كان من الآمنين يوم القيامة ولم ير النار بعينه أبداً...**

Həmçinin, İbn Abbasdan nəql olunur: "Hər kəs hər gecə "əl-Ənam" surəsini oxusa, Qiyamət günü əmin-amanlıq içində olar və heç vaxt Cəhənnəmi görməz".

[755] Əllamə Məclisi, Biharul-ənvar, c. 91, səh. 348.
[756] Ayətullah Seyid Kamal Fəqih İmani, Nurul-Quran, "Ənam" surəsinin təfsir

“əl-Ənam” surəsində on ayə İmam Əlinin *(ə)* fəzilətləri haqqında nazil olmuşdur. Bunlar 27, 39, 54, 82, 87, 90, 115, 149, 151 və 153-cü ayələrdir. İndi isə həmin ayələri sırası ilə qeyd edirik:

**1- وَلَوْ تَرى إِذْ وُقِفُوا عَلَى النّار فَقالُوا يا لَيْتَنا نُرَدُّ / 27.**

“(Ya Rəsulum!) ***Gətirilib od üstündə saxlandıqları zaman sən onların: “Kaş ki, biz dünyaya qaytarılıb Rəbbimizin ayələrini yalan hesab etməyəydik və möminlərdən olaydıq!” - demələrini görəydin!”***;[757]

**2- مَنْ يَشَأِ اللهُ يُضْلِلْهُ / 39.**

***“Ayələrimizi təkzib edənlər zülmət içində*** (küfr və cəhalətdə) ***qalmış karlar və lallardır. Allah istədiyini*** (haqq yoldan) ***sapdırar, istədiyini isə düz yola yönəldər”***;[758]

**3- وَإِذا جاءَكَ الَّذِينَ يُؤْمِنُونَ بِآياتِنا فَقُلْ / 54.**

***“Ayələrimizə iman gətirənlər yanına gəldikdə onlara de: “Sizə salam olsun! Rəbbiniz Özünə*** (bəndələrinə qarşı) ***rəhmli olmağı yazmışdır. Belə ki, sizlərdən hər kəs pis iş görsə, sonra tövbə edib düzəlsə*** (Allah onun günahından keçər)***. Şübhəsiz ki, Allah bağışlayandır, rəhm edəndir!”***;[759]

**4- الَّذِينَ آمَنُوا وَلَمْ يَلْبِسُوا إِيمانَهُمْ بِظُلْمٍ / 82.**

***“İman gətirib imanlarını zülmə qatışdırmayanlar əmin-amanlıqdadırlar. Haqq yola yönəlmişlər də onlardır!”***;[760]

**5- وَاجْتَبَيْناهُمْ وَهَدَيْناهُمْ إِلى صِراطٍ مُسْتَقِيمٍ / 87.**

***“Biz onların atalarından, nəsillərindən və qardaşlarından da*** (bir qismini hidayətə çatdırdıq)***. Onları seçdik və düz yola yönəltdik”***;[761]

**6- أُولئِكَ الَّذِينَ هَدَى اللهُ فَبِهُداهُمُ اقْتَدِهْ / 90.**

***“Onlar*** (adları çəkilən peyğəmbərlər) ***Allahın doğru yola yönəltdiyi kimsələrdir. Sən də onların haqq yolunu tutub get. De: “Mən bunun*** (İslam dinin təbliği) ***müqabilində sizdən bir əvəz istəmirəm. Bu*** (Quran) ***aləmlər*** (bütün bəşəriyyət) ***üçün yalnız bir moizədir*** (öyüd-nəsihətdir)***”***;[762]

---

[757] “əl-Ənam”, 27.
[758] “əl-Ənam”, 39.
[759] “əl-Ənam”, 54.
[760] “əl-Ənam”, 82.
[761] “əl-Ənam”, 87.
[762] “əl-Ənam”, 90.

**7- وَتَمَّتْ كَلِمَةُ رَبِّكَ صِدْقاً وَعَدْلاً / 115.**

**“**(Ya Rəsulum!) ***Rəbbinin sözü düzgün və ədalətli şəkildə tamam oldu. Onun sözlərini dəyişdirə biləcək bir kimsə yoxdur. O,*** (hər şeyi) ***eşidəndir, biləndir!”***;[763]

**8- قُلْ فَللهِ الْحُجَّةُ الْبالِغَةُ / 149.**

***“De: “Tutarlı dəlil yalnız Allaha məxsusdur. Əgər O istəsəydi, sizin hamınızı doğru yola yönəldərdi”***;[764]

**9- قُلْ تَعالَوْا أَتْلُ ما حَرَّمَ رَبُّكُمْ / 151.**

**“**(Ya Rəsulum!) ***De: “Gəlin Rəbbinizin sizə nələri haram etdiyini deyim: Ona heç bir şərik qoşmayın; ata-anaya yaxşılıq edin; kasıblıq üzündən uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Açıq və gizlin pis işlərə yaxın düşməyin. Allahın*** (qətlini) ***haram buyurduğu cana qıymayın*** (müsəlman və ya əhli-zimməni haqsız yerə öldürməyin). (Allah) ***bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb anlayasınız!”***;[765]

**10- وَأَنَّ هذا صِراطِي مُسْتَقِيماً فَاتَّبِعُوهُ / 153.**

***“Bu, şübhəsiz ki, Mənim doğru yolumdur. Onu tutub gedin. Sizi*** (Allahın) ***yolundan sapdıracaq yollara uymayın.*** (Allah) ***sizə bunları tövsiyə etdi ki, pis əməllərdən çəkinəsiniz!”***[766]

**((وَلَوْ تَرى إِذْ وُقِفُوا عَلَى النّار فَقالُوا يا لَيْتَنا نُرَدُّ وَلا نُكَذِّبَ بِآياتِ رَبِّنا وَنَكُونَ مِنَ الْمُؤْمِنِينَ)).الأنعام/ 27.**
**روى العلاّمة البحراني (قده) عن الشيرازي في كتابه (بإسناده المذكور) عن ابن عباس قال:**
**(إذا كان يوم القيامة، أمر الله مالكاً أنْ يسعِّر النيران السبع، وأمر رضوان أنْ يزخرف الجِّنان الثمان، ويقول: يا ميكائيل مد الصراط على متن جهنم، ويقول: يا جبرائيل انصب ميزان العدل تحت العرش، وينادي يا محمّد قرب أمّتك للحساب.**
**ثم يأمر الله تعالى أنْ يعقد على الصراط سبع قناطر كل قنطرة سبعة عشر ألف فرسخ، وعلى كل قنطرة سبعون ألف ملك قيام، فيسألون هذه الأمة نساءهم ورجالهم على القنطرة الأولى عن ولاية أمير المؤمنين، وحب أهل بيت محمد (صلى الله عليه وآله وسلّم) فمن أتى به جاز على القنطرة الأولى كالبرق الخاطف، ومن لم يُحبْ أهل بيت نبيه سقط على أُمِّ رأسه في قعر جهنم. ولو كان معه من أعمال البِّر عمل سبعين صدّيقاً.**
**وعلى القنطرة الثاني فيسألون عن الصلاة، وعلى الثالثة يسألون عن الزكاة، وعلى الرابعة عن الصيام، وعلى الخامسة عن الحج، وعلى السادسة عن الجهاد، وعلى السابعة عن العدل.**
**فمن أتى بشيء من ذلك جاز على الصراط كالبرق الخاطف ومن لم يأت عذب.**[767]

[763] “əl-Ənam”, 115.
[764] “əl-Ənam”, 149.
[765] “əl-Ənam”, 151.
[766] “əl-Ənam”, 153.

[767] غاية المرام/ ص259.

“(Ya Rəsulum!) ***Gətirilib od üstündə saxlandıqları zaman sən onların: “Kaş ki, biz dünyaya qaytarılıb Rəbbimizin ayələrini yalan hesab etməyəydik və möminlərdən olaydıq!” - demələrini görəydin!”*** ayəsinin təfsirində Əllamə Bəhrani əş-Şirazinin kitabına istinadən onun sənədli şəkildə İbn Abbasdan belə nəql etdiyini yazır: “Qiyamət günü olduqda Allah bir mələyə əmr edər ki, yeddi qat Cəhənnəmi alovlandırsın. Rizvana əmr edər ki, səkkiz qat Cənnəti süsləsin. Sonra buyurar: *“Ya Mikail, Sirat körpüsünü Cəhənnəmin üzərinə sər!”* Sonra Cəbrailə *(ə)* buyurar: *“Haqq-hesab tərəzisini Ərşin altına qoy!”* Sonra isə belə xitab edər: *“Ya Muhəmməd, ümmətini hesab üçün yaxınlaşdır!”* Sonra Allah əmr edər ki, Siratın üstündə yeddi keçid qoysunlar. Hər keçid yeddi min fərsəxdir. Hər bir keçiddə yetmiş min mələk qiyam halındadır. Onlar birinci keçiddə bu ümmətin hər bir qadın və kişisindən Əli bin Əbu Talibin *(ə)* vilayəti və Peyğəmbərin *(s)* Əhli-Beytinə *(ə)* olan məhəbbət haqqında soruşarlar. Hər kəsin bu sorğuya cavabı müsbət olsa, onun birinci keçiddən keçməsi ildırım surəti kimi asan olar. Lakin hər kəsin Əhli-Beytə *(ə)* məhəbbəti olmasa, onun əməlləri yetmiş siddiqin əməli qədər yaxşı olsa belə, oradan birbaşa Cəhənnəm quyusuna yuvarlanar. Siratın üstündəki ikinci keçid namaz, üçüncüsü zəkat, dördüncüsü oruc, beşincisi Həcc, altıncısı cihad, yeddincisi isə ədalətdir. Hər kəs bunları yerinə yetiribsə, onun Siratdan keçməsi ildırım surətilə olar, əks halda isə əzaba düçar olacaq”.

**((مَنْ يَشَأِ اللهُ يُضْلِلْهُ وَمَنْ يَشَأْ يَجْعَلْهُ عَلى صِراطٍ مُسْتَقِيمٍ)).الأنعام/ 39.**
**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: أخبرني أبو بكر، محمد بن أحمد بن علي المعمري (بإسناده المذكور) عن أبي جعفر الباقر، عن أبيه، عن جده، قال: قال رسول الله (صلى الله عليه وسلّم): (من سرّه أنْ يجوز على الصراط كالريح العاصف، ويلج الجنّة بغير حساب، فليتولَّ وليي، ووصيي، وصاحبي، وخليفتي على أهلي علي بن أبي طالب، ومن سرَّه أنْ يلج النّار فليترك ولايته فوعزّة ربّي وجلاله إنّه لبابُ الله الذي لا يؤتى إلاّ منه، وإنّه الصراط المستقيم).**[768]

***“Ayələrimizi təkzib edənlər zülmət içində*** (küfr və cəhalətdə) ***qalmış karlar və lallardır. Allah istədiyini*** (haqq yoldan) ***sapdırar, istədiyini isə düz yola yönəldər”*** ayəsinin təfsiri haqqında Hakim əl-Həskani əl-Hənəfi yazır: “Mənə Əbu Bəkr, Məhəmməd bin Əhməd bin Əli əl-Muəmməridən sənədli şəkildə İmam Baqirdən *(ə)*, İmam *(ə)* atasından, atası babasından, babası da Peyğəmbərdən *(s)* belə rəvayət etdi: *“Hər kəs Siratdan külək kimi surətli keçmək, Cənnətə hesabsız girmək istəyirsə, mənim ailəm üzərində vəlim, vəsim, dostum və xəlifəm olan Əli bin Əbu Talibin vilayətini qəbul etsin. Hər kəs Cəhənnəmi istəyirsə, onun vilayətini tərk etsin. And olsun*

[768] شواهد التنزيل/ ج1/ ص59.

*Rəbbimin izzəti-cəlalına, o, Allahın vazkeçilməz varlığıdır ki, onsuz heç nə baş verməz! Çünki, o, doğru yoldur".*

**((وَإِذا جاءَكَ الَّذِينَ يُؤْمِنُونَ بِآياتِنا فَقُلْ سَلامٌ عَلَيْكُمْ كَتَبَ رَبُّكُمْ عَلى نَفْسِهِ الرَّحْمَةَ)).الأنعام/ 54.**
**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: أخبرونا عن أبي بكر السبيعي، (بإسناده المذكور) عن أبي صالح، عن ابن عباس في قوله (تعالى):((وَإِذا جاءَكَ الَّذِينَ يُؤْمِنُونَ بِآياتِنا)) الآية (قال): نزلت في علي بن أبي طالب وحمزة وجعفر وزيد.**[769]

***"Ayələrimizə iman gətirənlər yanına gəldikdə onlara de: "Sizə salam olsun! Rəbbiniz Özünə*** (bəndələrinə qarşı) ***rəhmli olmağı yazmışdır. Belə ki, sizlərdən hər kəs pis iş görsə, sonra tövbə edib düzəlsə*** (Allah onun günahından keçər)***. Şübhəsiz ki, Allah bağışlayandır, rəhm edəndir!"*** ayəsinin təfsirində Hakim əl-Həskani yazır: "Bizə Əbu Bəkr əs-Səbii sənədli şəkildə Əbu Salehdən, o da İbn Abbasdan belə rəvayət etdi: "Sözügedən ayə Əli bin Əbu Talibin *(ə)*, Həmzənin, Cəfərin və Zeydin haqqında nazil olmuşdur".

**((الَّذِينَ آمَنُوا وَلَمْ يَلْبِسُوا إِيمانَهُمْ بِظُلْمٍ أُولئِكَ لَهُمُ الأَمْنُ وَهُمْ مُهْتَدُونَ)).الأنعام/ 82.**
**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: أخبرنا عقيل بن الحسين (بإسناده المذكور) عن مجاهد، عن ابن عباس في قول الله تعالى:**
**((الذين آمنوا)) يعني: صدّقوا بالتوحيد هو علي بن أبي طالب.**
**((ولم يلبسوا)) يعني: لم يخلطوا، نظيرها: ((لم تلبسون الحق بالباطل)) يعني: لم تخالطون؟**
**ولم يخلطوا ((إيمانهم بظلم)) يعني: الشرك. قال ابن عباس:**
**والله ما آمن أحد، إلاّ بعد شرك ما خلا علياً، فإنه آمن بالله من غير أنْ يُشرك به، طرفة عين.**
**((أولئك لهم الأمن)) من النّار والعذاب.**
**((وهم مهتدون)) يعني: مرشدون إلى الجنّة يوم القيامة بغير حساب، فكان علي أول من آمن به.**[770]

***"İman gətirib imanlarını zülmə qatışdırmayanlar əmin-amanlıqdadırlar. Haqq yola yönəlmişlər də onlardır!"*** ayəsi haqqında Hakim əl-Həskani yazır: "Bizə Əqil bin Hüseyn sənədli şəkildə Mücahiddən, o da İbn Abbasdan sözügedən ayə haqqında belə rəvayət etdi: ***"İman gətirib"*** ifadəsindən məqsəd Əli bin Əbu Talib *(ə)*, ***"imanlarını zülmə qatışdırmayanlar"***dan isə imanlarını şirkə qarışdırmayanlar nəzərdə tutulur. İbn Abbas sonra dedi: "And olsun Allaha, Əlidən *(ə)* başqa hamı şirkdən sonra iman gətirmişdir! O, Allaha heç bir şərik qoşmadan iman gətirmişdir". Ayədəki ***"əmin-amanlıqdadırlar"*** sözü "Cəhənnəmdən və əzabdan uzaqdırlar" deməkdir. ***"Haqq yola yönəlmişlər də onlardır!"*** ifadəsi isə "Qiyamət günü hesabsız Cənnətə gedərlər" deməkdir ki, onların da birinci iman gətirəni Əlidir *(ə)*".

---

[769] شواهد التنزيل/ ج1/ ص196.
[770] شواهد التنزيل/ ج1/ ص197.

**((وَاجْتَبَيْناهُمْ وَهَدَيْناهُمْ إِلى صِراطٍ مُسْتَقِيمٍ)).الأنعام/ 87.**
**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: حدثني علي بن موسى بن إسحاق (بإسناده المذكور) عن سعد، عن أبي جعفر قال:**
**(آل محمد الصراط الذي دل الله عليه).**[771]

***"Biz onların atalarından, nəsillərindən və qardaşlarından da*** (bir qismini hidayətə çatdırdıq)***. Onları seçdik və düz yola yönəltdik"*** ayəsi haqqında Hakim əl-Həskani yazır: "Mənə Əli bin Musa bin İshaq sənədli şəkildə Səddən, o da Əbu Cəfərdən *(ə)* belə nəql etdi: *"Ali-Muhəmməd Allahın dəlil göstərdiyi körpüdür"*.

**((أُولئِكَ الَّذِينَ هَدَى اللهُ فَبِهُداهُمُ اقْتَدِهْ)).الأنعام/ 90.**
**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: حدثني السيّد الزكي أبو منصور، مظفر بن محمد الحسيني (بإسناده المذكور) عن الشعبي أنّه حدّثهم حديثاً فقال فيما قال :-**
**(فعليٌّ ممّن هدى الله، ومن أهل الإيمان، وعلي ابن عم رسول الله، وختنه على ابنته أحب النّاس إليه، وصاحب سوابق مباركات، سبقت له من الله لا تستطيع أنت ردّها، ولا أحد من النّاس أنْ يحظرها عليه).**[772]

***"Onlar*** (adları çəkilən peyğəmbərlər) ***Allahın doğru yola yönəltdiyi kimsələrdir. Sən də onların haqq yolunu tutub get. De: "Mən bunun*** (İslam dinin təbliği) ***müqabilində sizdən bir əvəz istəmirəm. Bu*** (Quran) ***aləmlər*** (bütün bəşəriyyət) ***üçün yalnız bir moizədir*** (öyüd-nəsihətdir)***"*** ayəsi haqqında Hakim əl-Həskani yazır: "Mənə Seyid əz-Zəki Əbu Mənsur, Məhəmməd bin əl-Hüseyni sənədli şəkildə Şəbidən rəvayət etdi ki, Şəbi onlara deyirmiş: "Əli *(ə)* Allahın doğru yola yönəltdiyi, iman sahibi olan, Peyğəmbərin *(s)* əmisi oğlu, yeznəsi və insanlardan ən çox sevdiyi, mübarək öncüllərdən olan kimsədir. Onun imanda hamıdan öndə olması Allahdandır və sən onu rədd etməyi bacarmazsan. İnsanlardan da heç bir kəs onu məhrum edə bilməz".

**((وَتَمَّتْ كَلِمَةُ رَبِّكَ صِدْقاً وَعَدْلاً لا مُبَدِّلَ لِكَلِماتِهِ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ)).الأنعام/ 115.**
**أخرج الحافظ الحنفي سليمان القندوزي ـ بسنده المذكور ـ عن عدّة من المشايخ الثقاة الذين كانوا مجاورين للإمامين سيدنا (علي الهادي) وأبي محمد (الحسن العسكري) قالوا: سمعناهما يقولان: إنَّ الله تبارك وتعالى إذا أراد أنْ يخلق الإمام، أنزل قطرة من ماء الجنّة في ماء المزن، فتسقط في ثمار الأرض وبقلتها، فيأكلها أبو الإمام، فتكون نطفته منها، فإذا استقرت النطفة في الرحم فيمض لها أربعة أشهر يسمعُ الصوت، وكتب على عضده:**
**((وَتَمَّتْ كَلِمَةُ رَبِّكَ صِدْقاً وَعَدْلاً لا مُبَدِّلَ لِكَلِماتِهِ وَهُوَ السَّمِيعُ الْعَلِيمُ)).**
**فإذا ولد قام بأمر الله، ورفع له عمود من نور، ينظر منه الخلائق، وأعمالهم، وسرائرهم، والعمود نصب بين عينيه حيث تولى ونظر ـ الحديث.**[773]

---

[771] شواهد التنزيل/ ج1/ ص61.
[772] شواهد التنزيل/ ج1/ ص94.
[773] ينابيع المودّة/ ص462.

“(Ya Rəsulum!) ***Rəbbinin sözü düzgün və ədalətli şəkildə tamam oldu. Onun sözlərini dəyişdirə biləcək bir kimsə yoxdur. O,*** (hər şeyi) ***eşidəndir, biləndir!”*** ayəsi haqqında Qunduzi əl-Hənəfi sənədli şəkildə İmam Məhəmməd Hadi *(ə)* və İmam Həsən Əskəridən *(ə)* icazə almış bir qrup etibarlı hədis alimindən belə nəql edir: “Adıçəkilən iki İmamdan *(ə)* eşitdik ki, buyurdular: *“Allah imamı yaratmaq istədikdə Cənnət suyundan yağış buluduna bir qətrə endirər, oradan Yer üzünün meyvə-tərəvəzinə endirər. Onlardan da imamın atası yeyər, yediyindən nütfə bağlayar. Onun nütfəsi ana bətnində qərarlaşar. Dörd aydan sonra səs eşidər və onun iki yan tərəfinə sözügedən ayə yazılar. İmam doğulduqda Allahın iznilə ayağa qalxar, ondan nur parçası əmələ gələr. Bütün məxluqatın əməllərinə, sirlərinə onun vasitəsilə nəzər salar. Nur imamın iki gözü arasında imam olduğu və nəzər yetirdiyi zaman olar”*.

**((قُلْ فَللهِ الْحُجَّةُ الْبالِغَةُ)).الأنعام/ 149.**

***“De: “Tutarlı dəlil yalnız Allaha məxsusdur. Əgər O istəsəydi, sizin hamınızı doğru yola yönəldərdi”*** ayəsi barəsində onu demək olar ki, Peyğəmbərdən *(s)* mütəvatir dərəcəsinə çatmış çoxlu sayda hədis vardır ki, həmin hədislərdə İmam Əli *(ə)* Allahın Yer üzündəki höccəti kimi tanıtdırılır. Onlardan nümunə üçün ağaşıdakıları qeyd etmək olar:

**1- أخرج ابن شاذان في المناقب المائة من طرق العامّة بسنده، عن سلمان المحمدي قال: دخلت على النبي (صلى الله عليه وسلّم) وإذا بالحسين بن علي على فخذه، وهو يقبل بين عينيه ويلثم فاه وهو يقول: أنت السيّد ابن السيّد أبو السادة، وأنت إمام ابن إمام أبو الأئمة، وأنت الحجّة ابن الحجّة أبو حجج تسعة تاسعهم قائمهم.**[774]

1. İbn Şazan “əl-Mənaqib” adlı əsərində öz sənədilə Salaman əl-Məhəmmədidən belə nəql edir: “Peyğəmbərin *(s)* yanına daxil oldum. Hüseyn bin Əli *(ə)* onun dizi üstündə idi. O, Hüseynin *(ə)* iki gözünün ortasından, ağzından öpür və buyururdu: *“Sən seyid oğlu seyidsən və seyidlərin atasısasn. Sən imam oğlu imamsan və imamların atasısan. Sən höccət oğlu höccətsən və doqquz höccətin atasısan”*.

**2- وذكر أيضاً عن أبي الصلت الهروي بإسناده إلى رسول الله (صلى الله عليه وآله وسلّم) قال: (سمعت الله تعالى يقول: علي بن أبي طالب حجّتي على خلقي).**[775]

2. Adıçəkilən müəllif Əbu Səlt əl-Hərəvidən öz sənədilə Peyğəmbərin *(s)* belə buyurduğunu nəql etmişdir: *“Allah buyurub: “Əli bin Əbu Talib yaratdıqlarım üzərində Mənim höccətimdir”*.

[774] المناقب المائة/ المنقبات الثلاثون، والثانية والثلاثون، والواحدة والأربعون، والثامنة والخمسون/ الصفحات 20-21-28-32.
[775] المناقب المائة/ المنقبات الثلاثون، والثانية والثلاثون، والواحدة والأربعون، والثامنة والخمسون/ الصفحات 20-21-28-32.

**3- وبسنده عن ابن عباس قال سمعت رسول الله (صلى الله عليه وسلّم) يقول:**
**(من أحبَّ أنْ يعرف الحجّة بعدي، فليعرف علي بن أبي طالب).**[776]

3. Yenə də, İbn Şazan İbn Abbasdan belə nəql edir: "Peyğəmbərdən *(s)* eşitdim: *"Hər kəs məndən sonrakı höccəti tanımaq istəyirsə, Əli bin Əbu Talibi tanısın"*.

**4- وبسنده عن المسيب، عن علي بن أبي طالب قال:**
**(خلفني رسول الله (صلى الله عليه وسلّم) في أُمّته فأنا حجّة الله عليهم بعد نبيه).**[777]

4. İbn Şazan Müseyyibə istinadən yazır: "Əli bin Əbu Talib *(ə)* belə buyurmuşdur: *"Peyğəmbər məni öz ümmətinə höccət olaraq varis etdi. Mən Peyğəmbərdən sonra Allahın höccətiyəm"*.

**5- وبسنده عن عبد الله بن العباس قال: قال رسول الله (صلى الله عليه وسلّم) لعلي بن أبي طالب:**
**(إنّ جبرئيل أخبرني فيك بأمرٍ قرّتْ به عيني، وفرح به قلبي، قال: يا محمد إنّ الله تعالى قال لي: أقرئ محمداً مني السلام، وأعلمه أنَّ علياً إمام الهدى ومصباح الدجى، (والحجّة) على أهل الدنيا).**[778]

5. Abdullah bin Abbas deyir: "Peyğəmbər *(s)* Əli bin Əbu Talibə *(ə)* buyurmuşdur: *"Cəbrail məni sənin barəndə bir işlə xəbərdar etdi, bununla da gözüm aydın oldu, qəlbim sevindi. O, dedi: "Ya Muhəmməd! Allah mənə əmr etdi: "Peyğəmbərə salam de, onu xəbərdar et ki, Əli hidayət imamı və gecə qaranlığının işığıdır. O, dünya əhlinə Mənim höccətimdir"*.

**6- وأخرج علاّمة الشوافع، الحافظ الفقيه أبو الحسن بن المغازلي في مناقبه، عن أبي نصر بن الطّحان (بسنده المذكور) عن أنس قال:**
**كنت عند النبي (صلى الله عليه وسلّم) فرأى علياً مقبلاً فقال:**
**(أنا وهذا حُجّة على أمتي يوم القيامة).**[779]

6. İbn Məğazili "əl-Mənaqib" adlı məşhur əsərində Əbu Nəsr bin ət-Təhhanın sənədli şəkildə Ənəs bin Malikdən belə nəql etdiyini yazır: "Peyğəmbərin *(s)* yanında idim. O, Əlini *(ə)* gördükdə buyurdu: *"Mən və Əli Qiyamət günü ümmətim üzərində höccətik"*.

Bunlardan başqa, digər qaynaqlarda da bu mövzu barədə çoxsaylı hədis nəql edilmişdir.[780]

**((وَبِالْوالِدَيْنِ إِحْساناً)).الأنعام/ 151.**

---

[776] المناقب المائة/ المنقبات الثلاثون، والثانية والثلاثون، والواحدة والأربعون، والثامنة والخمسون/ الصفحات 20-21-28-32.
[777] المناقب المائة/ المنقبات الثلاثون، والثانية والثلاثون، والواحدة والأربعون، والثامنة والخمسون/ الصفحات 20-21-28-32.
[778] المناقب المائة/ المنقبات الثلاثون، والثانية والثلاثون، والواحدة والأربعون، والثامنة والخمسون/ الصفحات 20-21-28-32.
[779] المناقب لابن المغازلي/ ص45و197.
[780] تاريخ بغداد/ ج2/ ص88.الرياض النضرة/ ج2/ ص193.ذخائر العقبى/ ص77.المناقب للخوارزمي/ ص228.القول الجلي للسيوطي (مخطوط) الحديث (19).

**روى الشيخ الفقيه أبو الحسن بن شاذان في المناقب المائة من طريق العامّة ـ بحذف الإسناد ـ عن علي بن الحسين، عن أبيه، عن علي بن أبي طالب قال: قال رسول الله (صلى الله عليه وآله وسلّم): إنّ الله قد فرض عليكم طاعتي ونهاكم عن معصيتي،وأوجب عليكم اتباع أمري، وفرض عليكم من طاعة علي بن أبي طالب، بعدي كما فرض عليكم من طاعتي، ونهاكم عن معصيته كما نهاكم عن معصيتي، وجعله أخي، ووزيري، ووارثي، وهو مني وأنا منه، حبه إيمان، وبغضه كفر، محبّه محبّي، ومبغضه مبغضي، وهو مولى من أنا مولاه، وأنا مولى كل مسلم ومسلمة (وأنا وهو أبوا هذه الأمة).**[781]

**“**(Ya Rəsulum!) ***De: “Gəlin Rəbbinizin sizə nələri haram etdiyini deyim: Ona heç bir şərik qoşmayın; ata-anaya yaxşılıq edin; kasıblıq üzündən uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Açıq və gizlin pis işlərə yaxın düşməyin. Allahın*** (qətlini) ***haram buyurduğu cana qıymayın*** (müsəlman və ya əhli-zimməni haqsız yerə öldürməyin)**.** (Allah) ***bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb anlayasınız!”*** ayəsi haqqında Əbülhəsən bin Şazan “əl-Mənaqib” adlı əsərində (sənədsiz şəkildə) atasından İmam Əlinin *(ə)* Peyğəmbərin *(s)* belə buyurduğunu nəql edir: *“Allah sizə mənə itaət etməyi əmr etmiş, mənə qarşı üsyan etməyinizi isə qadağan etmişdir. Sizə mənim əmirimə də tabe olmaq tapşırılıb. Həmçinin, Rəbbim sizə məndən sonra mənə itaət etdiyiniz kimi, Əli bin Əbu Talibə də itaət göstərməyinizi əmr etmişdir. Mənə qarşı çıxmağınız qadağan olunduğu kimi, Əliyə qarşı çıxmaq da sizə qadağan edilib. Allah onu mənim qardaşım, vəzirim və varisim etmişdir. O, məndən, mən də ondanam. Onu sevmək imandan, ona nifrət isə küfrdəndir. Onu sevən məni sevib, ona nifrət edən mənə nifrət edib. Kimin rəhbəri mənəmsə, onun rəhbəri Əlidir! Mən hər bir müsəlmanın rəhbəriyəm. Mən və Əli bu ümmətin atasıyıq”.*

**وروى العالم الشافعي، الحافظ أبو الحسن بن المغازلي في مناقبه، عن أبي الحسن علي بن الحسين بن الطيّب إجازة (بإسناده المذكور) عن علي قال: قال رسول الله (صلى الله عليه وسلّم): حقُّ عليٍّ على المسلمين، حقُّ الوالد على ولده.**[782]

əl-Məğazili özünün “əl-Mənaqib” əsərində sənədli şəkildə İmam Əlidən *(ə)* Peyğəmbərin *(s)* belə buyurduğunu nəql edir: *“Əlinin müsəlmanlar üzərindəki haqqı valideynin övlad üzərindəki haqqı kimidir”*.

Qeyd eək ki, bu hədisi Zəhəbi “Mizanul-etidal”,[783] İbn Həcər əl-Əsqəlani isə “Lisanul-mizan”[784]əsərlərində də nəql etmişdir. Həmçinin, bu hədis sənədli şəkildə Deyləmi əl-Həmədani[785] tərəfdən də nəql olunub.

---

781 المناقب المائة المنقبة الثانية والعشرون/ ص15.
782 المناقب لابن المغازلي/ ص48.
783 ميزان الاعتدال/ ج2/ ص313.
784 لسان الميزان/ ج4/ ص399.
785 المناقب للخوارزمي/ ص219.

**((وَأَنَّ هذا صِراطِي مُسْتَقِيماً فَاتَّبِعُوهُ وَلا تَتَّبِعُوا السُّبُلَ فَتَفَرَّقَ بِكُمْ عَنْ سَبِيلِهِ ذلِكُمْ وَصَّاكُمْ بِهِ لَعَلَّكُمْ تَتَّقُونَ)).الأنعام/ 153.**

**روى العلاّمة البحراني (قده) قال:**

**أسند الشيرازي ـ من أعيان العامّة ـ إلى قتادة، عن الحسن البصري في قوله (تعالى):**

**((هذا صِراطِي مُسْتَقِيماً)).**

**قال: يقول:**

**هذا طريق علي بن أبي طالب وذريته طريق مستقيم، ودين مستقيم، فاتبعوه وتمسكوا به، فإنّه واضح لا عوج فيه).**[786]

***"Bu, şübhəsiz ki, Mənim doğru yolumdur. Onu tutub gedin. Sizi*** (Allahın) ***yolundan sapdıracaq yollara uymayın.*** (Allah) ***sizə bunları tövsiyə etdi ki, pis əməllərdən çəkinəsiniz!"*** ayəsi haqqında Əllamə Bəhrani Şiraziyə istinad edərək böyük alimlərin Qətadədən, onun da Həsən Bəsridən sözügedən ayənin haqqında belə dediyini yazır: "Əli bin Əbu Talibin *(ə)* və onun zürriyyətinin yolu doğru yoldur. Ona tabe olun və ondan yapışın. Onun yolu çox aydın və dümdüzdür".

**((مَنْ جاءَ بِالْحَسَنَةِ فَلَهُ عَشْرُ أَمْثالِها)).الأنعام/ ١٦٠.**

**أخرج العلاّمة الكشفي، المير محمد صالح الترمذي (الحنفي) في مناقبه قال: عن علي (كرّم الله وجهه):**

**(الحسنة حُبّنا).**[787]

***"Kim yaxşı bir iş görərsə, ona həmin işin on qat əvəzi*** (savabı) ***verilər. Kim pis bir iş görərsə, ona həmin işin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz"*** ayəsi haqqında Əllamə əl-Kəşəfi əl-Hənəfi "əl-Mənaqib" adlı əsərində İmam Əlinin *(ə)* belə buyurduğunu nəql etmişdir: *"Yaxşı iş biz Əhli-Beyti sevməkdir"*.

### *4.7. İMAM ƏLİ (Ə) "ƏL-ƏRAF" SURƏSİNDƏ*

Təfsir əhlinə görə, "əl-Əraf" surəsində izah edilən mövzular onun "əl-Ənam" surəsi ilə eyni zamanda, yəni Peyğəmbərin *(s)* Məkkədə keçən həyatının son illərində nazil olduğunu göstərir. Lakin hansının daha əvvəl gəldiyi bilinmir. Buna görə də "əl-Əraf" surəsi Məkkə surələrindən hesab olunur.

Surənin əsas mövzusu diqqəti cəlb edəcək bir üslubla Həzrət Muhəmmədə *(s)* göndərilən İlahi təbliğə çağırışdır. Bu, Peyğəmbərin *(s)* məkkəlilərə etdiyi uzunsürən nəsihətləri nəticəsində, onlar üzərində hansısa bir təsirin görünməməsi səbəbiylədir. Hətta, onlar Peyğəmbərin *(s)* dəvətinə qarşı o

---

[786] غاية المرام/ ص434.

[787] المناقب للكشفي/ أواخر الباب الأول.

qədər inadkar, o qədər laqeyd olmuşlar ki, nəticədə Peyğəmbərə *(s)* dəvətlə əlaqədar yalnız məkkəlilərlə deyil, həm də başqa insanlarla məşğul olması əmr olunmuşdur. Buna görə də məkkəlilərə İlahi dəvəti qəbul etmələri üçün davamlı şəkildə dəvət olunmalarıyla yanaşı, eyni zamanda daha əvvəlki qövmlərin peyğəmbərlərinə *(ə)* qarşı etdikləri səhv rəftarlarının nəticələri də sərt bir dillə izah edilərək bu xüsusa diqqət çəkilməkdədir.

Həmçinin, mübarək surədə kitab əhlinə də xitab vardır. Yəhudilərə xitab edildiyində onların peyğəmbərlik müəssisəsinə qarşı münafiqcəsinə rəftar etmələrinə işarə edilməkdədir. Çünki, onlar sözdə Həzrət Musaya *(ə)* inandıqlarını söyləsələr, yalandan ibadət etsələr də həqiqətdə onun təliminə qarşı çıxdılar. Bütün bu rəftarlarının nəticəsi olaraq alçaqlıqla günahlandırıldılar.

"əl-Əraf" surəsinin sonunda Peyğəmbər *(s)* və o Həzrətə *(s)* tabe olanlara İslamın təbliğ vəzifəsini hikmətli şəkildə icra edə bilmələri üçün bəzi təlimatlar verilməkdədir. Ən əhəmiyyətlisi isə müxaliflərin təhriklərinə qarşı səbir etməkdir. Ayrıca, şəxsi hislərə qapılmamaq, İslamın hədəflərinə zərər verəcək səhv addım atmamaq tövsiyə edilməkdədir.

Bütövlükdə "əl-Əraf" surəsində aşağıdakı mövzular öz əksini tapmışdır:

1-10-cu ayələrdə insanlar Həzrət Muhəmməd *(s)* vasitəsiylə onlara göndərilmiş vəhyi qəbul etməyə dəvət edilməkdə və bunu rədd edənin aqibəti haqqında da xəbərdarlıq edilməkdədir;

11-25-ci ayələrdə Həzrət Adəmin *(ə)* hekayəsi peyğəmbərin *(ə)* nəslinin Şeytanın tələlərinə qarşı xəbərdar edilməsi məqsədiylə nəql edilməkdədir. Çünki, Şeytan hər an onları sapdırmağa hazırdır;

26-53-cü ayələrdə bəzi İlahi təlimatlar və onların Şeytanın vəsvəsələriylə olan ziddiyyətləri ehtiva edilməklə hər ikisinin nəticələri bəyan olunmuşdur;

54-58-ci ayələrdə Yerin, Göyün və onlarda olan hər şeyin Allah tərəfindən yaradılmasına diqqət yönəldilir;

59-171-ci ayələrdə bəzi peyğəmbərlərin *(ə)* - Nuh *(ə)*, Hud *(ə)*, Saleh *(ə)*, Lut *(ə)*, Şüeyb *(ə)*, Musa *(ə)* - həyatlarından hadisələr, bu İlahi çağırışı rədd edənlərin pis aqibətə düçar olmaları göstərilir;

172-174-cü ayələrdə İsrail oğulları ilə edilmiş əhdnamələrdən bəhs edilir. Bu ayələrdə başda Həzrət Adəmin *(ə)* Allahın xəlifəsi olaraq təyin edildiyi zaman zərr aləmində insanlarla Allahın insandan əhd alması münasib bir şəkildə bəyan edilir;

175-179-cu ayələrdə Quran haqqında məlumatı olduğu halda buna diqqət etməyən insanın misalı göstərilir və Quranı batil hesab edənlərə bir xəbərdarlıq olsun deyə, onlara təhdid ünvanlanır;

180-198-ci ayələrdə İlahi vəhyi anlamaq üçün bacarıqlarından doğru-dürüst istifadə edə bilməyənlərin bəzi azğınlıqlarına toxunulmaqda, bu kəslər xəbərdar edilməkdə, həmçinin Peyğəmbərin *(s)* çağırışına qarşı göstərdikləri düşməncəsinə münasibətin ciddi nəticələri haqqında xəbərdarlıq edilməkdədir;

199-206-cı ayələrdə Peyğəmbərə *(s)* və o Həzrətə *(s)* tabe olanlara, dəvətə qarşı çıxan və ondan üz çevirənlərə qarşı lazım olan rəftarlar barəsində bəzi təlimatlar verilməkdədir.

"əl-Əraf" surəsinin oxunmasının fəziləti haqqında nəql olunmuş bir hədisdə deyilir:

**من قرأ سورة الأعراف في كل شهر كان يوم القيامة من الذين لا خوف عليهم ولا هم يحزنون، فإن قرأها في كل جمعة كان ممن لا يحاسب يوم القيامة...**

*"Hər kəs "əl-Əraf" surəsini hər ay oxusa, Qiyamət günü heç bir qorxusu və qəm-kədəri olmayan şəxs kimi olar. Hər kəs bu surəni hər cümə oxusa, Qiyamət günü hesabsız olar".*

Təfsir əhlinə görə, "əl-Əraf" surəsində on üç ayə İmam Əlinin *(ə)* haqqında nazil olmuşdur. Bunlar 16, 42, 43, 44, 46, 48, 54, 79, 160, 161, 172, 178 və 181-ci ayələrdir. Həmin ayələri ardıcıllıqla təqdim edirik:

**1- قالَ فَبِما أَغْوَيْتَنِي لأَقْعُدَنَّ لَهُمْ صِراطَكَ الْمُسْتَقِيمَ / 16.**

**"**(İblis) ***dedi: "Sən məni*** (Adəmə səcdə etmədiyimə görə) ***zəlalətə düçar etməyinə əvəz olaraq mən də Sənin düz yolunun üstündə oturub insanlara*** (Sənə ibadət və itaət etməyə) ***mane olacağam!"***;[788]

**2- وَالَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحاتِ لا نُكَلِّفُ نَفْساً إِلاَّ وُسْعَها / 42.**

***"İman gətirib yaxşı işlər görənlər isə - Biz heç kəsi qüvvəsi yetdiyindən artıq yükləmərik - cənnətlikdirlər, onlar orada əbədi qalacaqlar!"***;[789]

**3- وَنَزَعْنا ما فِي صُدُورِهِمْ مِنْ غِلٍّ / 43.**

***"Biz onların*** (Cənnət əhlinin) ***ürəklərindəki kin-küdurəti çəkib çıxardarıq. Onların*** (qaldıqları yerin) ***altından çaylar axar..."***;[790]

**4- وَقالُوا الْحَمْدُ للهِ الَّذِي هَدانا لِهذا / 43.**

***"...Onlar*** (Rəbbinin bu lütfünü gördükdə) ***deyərlər: "Bizi bura gətirib çıxaran Allaha həmd olsun! Əgər Allah bizi doğru yola yönəltməsəydi, biz özümüzə doğru yolu tapa bilməzdik. Həqiqətən, Rəbbimizin peyğəmbər-***

---

[788] "əl-Əraf", 16.

[789] "əl-Əraf", 42.

[790] "əl-Əraf", 43.

***ləri haqqı gətirmişdilər!" Onlara: "Etdiyiniz əməllərə görə varisi olduğunuz Cənnət budur!" - deyə müraciət ediləcəkdir"***;[791]

**5- وَنادى أَصْحابُ الْجَنَّةِ أَصْحابَ النّار / 44.**

***"Cənnət əhli Cəhənnəm əhlinə müraciət edib: "Biz Rəbbimizin bizə vəd etdiyini*** (Axirət nemətlərini) ***haqq olaraq gördük. Siz də Rəbbinizin sizə vəd etdiyini*** (Cəhənnəm əzabını) ***gerçək olaraq gördünüzmü?" - deyə soruşacaq. Onlar: "Bəli!" - deyə cavab verəcəklər. Elə bu zaman onların*** (hər iki dəstənin) ***arasında bir carçı*** (İsrafil və ya cənnətdəkilərdən biri)***: "Allah zalımlara lənət eləsin!" - deyə səslənəcək"***;[792]

**6- وَعَلَى الأَعْرافِ رِجالٌ يَعْرِفُونَ كُلاًّ بِسِيماهُمْ / 46.**

***"Onların ikisinin*** (Cənnət əhli ilə Cəhənnəm əhlinin) ***arasında pərdə*** (səs, maneə) ***və Əraf*** (Cənnətlə Cəhənnəm arasındakı səddin yüksəklikləri) ***üzərində isə*** (savabları və günahları, xeyir və şər əməlləri bərabər olan) ***insanlar*** (kişilər) ***vardır ki, onlar hamını*** (cənnətlikləri və cəhənnəmlikləri) ***üzündən tanıyıb Cənnət əhlinə: "Sizə salam olsun!" - deyə müraciət edərlər. Bunlar*** (Əraf əhli) ***çox istədiklərinə baxmayaraq hələ ora*** (Cənnətə) ***daxil olmamış*** (lakin Ərafda günahları təmizləndikdən sonra daxil olacaq) ***kimsələrdir"***;[793]

**7- وَنادى أَصْحابُ الأَعْرافِ رِجالاً يَعْرِفُونَهُمْ بِسِيماهُمْ / 84.**

***"Əraf əhli üzlərindən tanıdıqları adamlara müraciət edib: "Sizə nə yığdığınız mal-dövlət, nə də təkəbbürünüz fayda verdi" - deyəcək"***;[794]

**8 - وَالشَّمْسَ وَالْقَمَرَ وَالنُّجومَ مُسَخَّراتٍ بِأَمْرِهِ /54.**

***"...Günəşi, Ayı və ulduzları əmrinə boyun əymiş halda yaradan Allahdır. Bilin ki, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah nə qədər ucadır*** (nə qədər böyükdür!)***"***;[795]

**9- وَنَصَحْتُ لَكُمْ وَلكِنْ لا تُحِبُّونَ النَّاصِحِينَ / 79.**

**"**(Saleh) ***onlardan üz döndərib belə dedi: "Ey camaatım! Mən sizə Rəbbimin əmrini*** (mənə lütf etdiyi peyğəmbərliyi) ***təbliğ etdim və sizə öyüd-nəsihət verdim. Lakin siz öyüd-nəsihət verənləri sevmirsiniz!"***;[796]

---

[791] "əl-Əraf", 43.
[792] "əl-Əraf", 44.
[793] "əl-Əraf", 46.
[794] "əl-Əraf", 48.
[795] "əl-Əraf", 54.
[796] "əl-Əraf", 79.

**10- وَما ظَلَمُونا وَلكِنْ كانُوا أَنْفُسَهُمْ يَظْلِمُونَ / ١٦٠.**

***“Biz onları*** (İsrail oğullarını) ***on iki qəbiləyə - ümmətə böldük. Camaatı*** (Tih səhrasında) ***ondan*** (Musadan içməyə) ***su istədiyi zaman ona: “Əsanı daşa vur!” - deyə vəhy etdik.*** (Əsanı daşa vuran kimi) ***ondan on iki çeşmə qaynayıb axmağa başladı. Hər qəbilə özünün su içəcəyi yeri bildi. Biz buludları onların üstündə kölgəlik etdik, onlara qüdrət halvası və bildirçin endirdik. Onlara: “Sizə ruzi olaraq verdiyimiz pak nemətlərdən yeyin!” dedik. Onlar*** (naşükür olmaqla, əmrlərimizi yerinə yetirməməklə) ***Bizə deyil, ancaq özlərinə zülm edirdilər!”***;[797]

**11- وَقُولُوا حِطَّةٌ وَادْخُلُوا الْبابَ سُجَّداً / 161.**

**“**(Ya Rəsulum!) ***Yadına sal ki, o zaman onlara*** (yəhudilərə) ***belə deyilmişdi: “Bu şəhərdə*** (Qüdsdə) ***sakin olun, ondan*** (onun meyvələrindən) ***istədiyiniz yerdə yeyin, “hittə”*** (“bizi bağışla”) ***deyin və qapıdan*** (Beytülmüqəddəsin qapısından) ***səcdə edərək daxil olun ki, günahlarınızı bağışlayaq. Biz yaxşı işlər görənlərin mükafatını artıracağıq!”***;[798]

**12- وَإِذْ أَخَذَ رَبُّكَ مِنْ بَنِي آدَمَ مِنْ ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ / 172.**

**“**(Ey Peyğəmbərim!) ***Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən*** (gələcək) ***nəsillərini çıxardıb onların özlərinə*** (bir-birinə) ***şahid tutaraq: “Mən sizin Rəbbiniz deyiləmmi?” - soruşmuş, onlar da: “Bəli, Rəbbimizsən!” - deyə cavab vermişdilər.*** (Belə bir şahidliyin səbəbi) ***Qiyamət günü: “Biz bundan qafil idik”***;[799]

**13- مَنْ يَهْدِ اللهُ فَهُوَ الْمُهْتَدِي / 178.**

***“Allahın doğru yola yönəltdiyi kimsə doğru yoldadır. Onun*** (haqq yolundan) ***sapdırdığı kimsələr isə ziyana uğrayanlardır”***;[800]

**14- وَمِمَّنْ خَلَقْنا أُمَّةٌ يَهْدُونَ بِالْحَقِّ وَبِهِ يَعْدِلُونَ / 181.**

***“Yaratdıqlarımız içərisində bir zümrə də vardır ki, onlar insanları haqq yola aparır,*** (haqqı rəhbər tutaraq onlar arasında) ***ədalətlə hökm edirlər”.***[801]

**((قالَ فَبِما أَغْوَيْتَنِي لأَقْعُدَنَّ لَهُمْ صِراطَكَ الْمُسْتَقِيمَ)).الأعراف/ 16.**
**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: حدّثنا إبراهيم بن محمد بن فارس (بإسناده المذكور) عن أبي بصير، عن أبي عبد الله (جعفر بن محمد الصادق، حفيد رسول الله (صلى الله عليه وآله**

---

[797] “əl-Əraf”, 160.
[798] “əl-Əraf”, 161.
[799] “əl-Əraf”, 172.
[800] “əl-Əraf”, 178.
[801] “əl-Əraf”, 181.

**وسلّم) قال:**
**(الصراط الذي قال إبليس((لأَقْعُدَنَّ لَهُمْ صِراطَكَ الْمُسْتَقِيمَ))هو علي.[802]**

**"**(İblis) ***dedi: "Sən məni*** (Adəmə səcdə etmədiyimə görə) ***zəlalətə düçar etməyinə əvəz olaraq mən də Sənin düz yolunun üstündə oturub insanlara*** (Sənə ibadət və itaət etməyə) ***mane olacağam!"*** ayəsinin təfsiri haqqında Hakim əl-Həskani əl-Hənəfi yazır: "İbrahim bin Məhəmməd bin Faris sənədli şəkildə Əbu Bəsirdən, o da Peyğəmbərin *(s)* nəvəsi İmam Cəfər Sadiqdən *(ə)* bizə belə rəvayət etdi: *"İblisin* ***"mən də Sənin düz yolunun üstündə oturub insanlara*** (Sənə ibadət və itaət etməyə) ***mane olacağam!"*** *sözündəki düz yol Əlidir"*.

**((وَالَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحاتِ لا نُكَلِّفُ نَفْساً إِلاَّ وُسْعَها أُولئِكَ أَصْحابُ الجنّة هُمْ فِيها خالِدُونَ)). الأعراف/ 42.**

**روى العلاّمة البحراني (قده) عن ابن شهر آشوب ـ من طريق العامّة ـ عن أبي بكر الهذلي، عن الشّعبي، أنّ رجلاً أتى رسول الله (صلى الله عليه وآله وسلّم) فقال: يا رسول الله علّمني شيئاً ينفعني الله به؟**
**قال (صلى الله عليه وآله وسلّم): (عليك بالمعروف فإنّه ينفعك في عاجل دنياك وآخرتك).**
**إذ أقبل علي فقال: يا رسول الله (صلى الله عليه وآله وسلّم) فاطمة تدعوك.**
**قال (صلى الله عليه وآله وسلّم): نعم.**
**فقال الرجل: من هذا يا رسول الله؟**
**قال (صلى الله عليه وآله وسلّم):**
**(هذا من الذين أنزل الله فيهم: ((وَالَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحاتِ)).[803]**

***"İman gətirib yaxşı işlər görənlər isə - Biz heç kəsi qüvvəsi yetdiyindən artıq yükləmərik - cənnətlikdirlər, onlar orada əbədi qalacaqlar!"*** ayəsinin təfsiri haqqında Əllamə Bəhrani İbn Şəhraşuba istinadən sünni mənbəyi vasitəsilə Əbu Bəkr əl-Həzəlidən, onun da Şəbidən belə nəql etdiyini yazır: "Bir kişi Peyğəmbərin *(s)* yanına gəlib dedi: "Ya Rəsulullah *(s)*, Allahın mənə fayda verəcəyi bir şey öyrət!" Peyğəmbər *(s)* buyurdu: *"Sənə yaxşılığa dəvət etməyi tövsiyə edirəm. Bu sənə dünya və Axirətdə faydalı olar"*. Bu zaman Əli *(ə)* gəldi və buyurdu: *"Ya Rəsulullah, Fatimə səni çağırır!"* Peyğəmbər *(s)* buyurdu: *"Gəlirəm"*. Həmin kişi dedi: "Bu şəxs kimdir, ya Rəsulullah?" Peyğəmbər *(s)* buyurdu: *"Bu, haqqında Allahın* ***"İman gətirib yaxşı işlər görənlər"*** *ayəsini nazil etdiyi şəxsdir"*.

**((وَنَزَعْنا ما فِي صُدُورِهِمْ مِنْ غِلٍّ تَجْرِي مِنْ تَحْتِهِمُ الأَنْهارُ)).الأعراف/ 43.**
**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: حدثني أبو بكر بن أبي الحسين الحافظ (بإسناده المذكور) عن عبد الله بن مليل، عن علي (في قوله تعالى):**

---

[802] شواهد التنزيل/ ج1/ ص61.
[803] غاية المرام/ ص326.

**((وَنَزَعْنا ما فِي صُدُورِهِمْ مِنْ غِلٍّ)).**
**قال: نزلت فينا).**[804]

***"Biz onların*** (Cənnət əhlinin) ***ürəklərindəki kin-küdurəti çəkib çıxardarıq. Onların*** (qaldıqları yerin) ***altından çaylar axar..."*** haqqında Hakim əl-Həskani yazır: "Bizə Əbu Bəkr bin Əbülhəsən əl-Hafiz sənədli şəkildə Abdullah bin Məlildən, o da İmam Əlidən *(ə)* Allahın adıkeçən ayəsi haqqında belə raəvayət etdi: *"Bu ayə bizim haqqımızda nazil olmuşdur"*.

**((... وَقالُوا الْحَمْدُ للهِ الَّذِي هَدانا لِهذا وَما كُنَّا لِنَهْتَدِيَ لَوْ لا أَنْ هَدانَا اللهُ...)).الأعراف/ 43.**
**نقل العلاّمة القبيسي، عن الإمام أبي جعفر، محمد بن جرير (الطبري) ـ شيخ المفسّرين والمؤرخين عند أهل السُنة ـ حديثاً مسنداً إلى زيد بن أرقم، عن رسول الله (صلى الله عليه وآله وسلّم) أنّه قال في خطبته يوم الغدير:**
**(معاشر النّاس: قولوا ما قلت لكم وسلّموا على علي بإمرة المؤمنين، وقولوا:**
**((الْحَمْدُ للهِ الَّذِي هَدانا لِهذا وَما كُنَّا لِنَهْتَدِيَ لَوْ لا أَنْ هَدانَا اللهُ)).**
**فإن الله يعلم كل صوت، ويعلم خائنة كلّ نفس...).**[805]

Ayənin davamı olan ***"...Onlar*** (Rəbbinin bu lütfünü gördükdə) ***deyərlər: "Bizi bura gətirib çıxaran Allaha həmd olsun! Əgər Allah bizi doğru yola yönəltməsəydi, biz özümüzə doğru yolu tapa bilməzdik. Həqiqətən, Rəbbimizin peyğəmbərləri haqqı gətirmişdilər!" Onlara: "Etdiyiniz əməllərə görə varisi olduğunuz Cənnət budur!" - deyə müraciət ediləcəkdir"***in təfsiri haqqnda Əllamə əl-Qəbisi İmam Əbu Cəfərdən *(ə)*, İmamın *(ə)* da Məhəmməd bin Cərir ət-Təbəridən sənədli olaraq Zeyd bin Ərqəmin Peyğəmbərdən *(s)* belə nəql etdiyini yazır: *"Peyğəmbər Qədir-Xum xütbəsində buyurdu: "Ey insanlar, sizə dediklərimi siz də deyin və Əlini möminlərin əmiri kimi salamlayın. Sonra isə* ***"Bizi bura gətirib çıxaran Allaha həmd olsun! Əgər Allah bizi doğru yola yönəltməsəydi, biz özümüzə doğru yolu tapa bilməzdik…"*** *ayəsini oxuyun. Həqiqətən, Allah hər bir səsi eşidir və hər bir xainin işindən xəbərdardır"*.

**((وَنادى أَصْحابُ الجنّة أَصْحابَ النّار أَنْ قَدْ وَجَدْنا ما وَعَدَنا رَبُّنا حَقًّا فَهَلْ وَجَدْتُمْ ما وَعَدَ رَبُّكُمْ حَقًّا قالُوا نَعَمْ فَأَذَّنَ مُؤَذِّنٌ بَيْنَهُمْ أَنْ لَعْنَةُ اللهِ عَلَى الظَّالِمِينَ)).الأعراف/ 44.**
**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: أخبرنا أبو عبد الله الشيرازي (بإسناده المذكور) عن محمد بن الحنفية، عن علي قال:**
**(في قوله تعالى): ((فَأَذَّنَ مُؤَذِّنٌ بَيْنَهُمْ أَنْ لَعْنَةُ اللهِ عَلَى الظَّالِمِينَ)) (فأنا ذلك المؤذّن).**[806]
**وروى هو أيضاً، عن فرات بن إبراهيم الكوفي (بإسناده المذكور) عن ابن عباس قال:**
**إنّ لعلي بن أبي طالب في كتاب الله أسماء لا يعرفها النّاس.**

---

[804] شواهد التنزيل/ ج1/ ص200.
[805] كتاب (ماذا في التاريخ) ج3/ ص156.
[806] شواهد التنزيل/ ج1/ ص202-203.

**قوله (تعالى): ((فأذن مؤذن بينهم)) فهو المؤذّن بينهم يقول:**
**ألا لعنةُ الله على الذين كذّبوا بولايتي، واستخفّوا بحقّي.**[807]

***"Cənnət əhli Cəhənnəm əhlinə müraciət edib: "Biz Rəbbimizin bizə vəd etdiyini*** (Axirət nemətlərini) ***haqq olaraq gördük. Siz də Rəbbinizin sizə vəd etdiyini*** (Cəhənnəm əzabını) ***gerçək olaraq gördünüzmü?" - deyə soruşacaq. Onlar: "Bəli!" - deyə cavab verəcəklər. Elə bu zaman onların*** (hər iki dəstənin) ***arasında bir carçı*** (İsrafil və ya cənnətdəkilərdən biri)***: "Allah zalımlara lənət eləsin!" - deyə səslənəcək"*** ayəsi haqqında Hakim əl-Həskani əl-Hənəfi yazır: "Əbu Abdullah əş-Şirazinin sənədli şəkildə Məhəmməd əl-Hənəfiyyədən, onun da İmam Əlinin *(ə)* ***"Elə bu zaman onların*** (hər iki dəstənin) ***arasında bir carçı*** (İsrafil və ya cənnətdəkilərdən biri)***: "Allah zalımlara lənət eləsin!" - deyə səslənəcək"*** ayəsi haqqında belə buyurduğu nəql olunur: *"Mən həmin* (ayədə nəzərdə tutulan) *carçıyam"*. Bu hədisi Furat bin İbrahim əl-Kufi, o da İbn Abbasdan sənədli şəkildə nəql etmişdir. İbn Abbas demişdir: "Allahın Kitabında Əli bin Əbu Talibin *(ə)* elə bir adı var ki, heç kəs onu bilmir. O, Allahın ***"onların*** (hər iki dəstəsinin) ***arasında bir carçı"*** buyruğundakı carçıdır. (Qiyamət gün İmam Əli *(ə)* car çəkib buyuracaqdır: *"Allahın lənəti olsun vilayətimi yalan sayanlara və haqqımı tapdalayanlara"*.

**((وَعَلَى الأَعْرافِ رِجالٌ يَعْرِفُونَ كُلاًّ بِسِيماهُمْ)).الأعراف/ 46.**
**أخرج ابن حجر (الشافعي) في الصواعق المحرقة قال: الآية الثالثة عشرة قوله تعالى:**
**((وَعَلَى الأَعْرافِ رِجالٌ يَعْرِفُونَ كُلاًّ بِسِيماهُمْ)).**
**قال: أخرج الثعلبي في تفسير هذه الآية، عن ابن عباس أنّه قال: الأعراف موضع عال من الصراط، عليه العباس وحمزة وعلي بن أبي طالب (كرّم الله وجهه) وجعفر ذو الجناحين يعرفون محبيهم ببياض الوجوه، ومبغضهم بسواد الوجوه.**[808]

***"Onların ikisinin*** (Cənnət əhli ilə Cəhənnəm əhlinin) ***arasında pərdə*** (səs, maneə) ***və Əraf*** (Cənnətlə Cəhənnəm arasındakı səddin yüksəklikləri) ***üzərində isə*** (savabları və günahları, xeyir və şər əməlləri bərabər olan) ***insanlar*** (kişilər) ***vardır ki, onlar hamını*** (cənnətlikləri və cəhənnəmlikləri) ***üzündən tanıyıb Cənnət əhlinə: "Sizə salam olsun!" - deyə müraciət edərlər. Bunlar*** (Əraf əhli) ***çox istədiklərinə baxmayaraq hələ ora*** (Cənnətə) ***daxil olmamış*** (lakin Ərafda günahları təmizləndikdən sonra daxil olacaq) ***kimsələrdir"*** ayəsi haqqında İbn Həcər əl-Heysəmi əş-Şafei "əs-Səvaiqul-mühriqə" əsərində belə yazır: "Sözügedən ayənin təfsirində Sələbi, İbn Abbasdan belə nəql etmişdir: "Əraf Sirat körpüsünün üzərində hündür bir

---

[807] شواهد التنزيل/ ج1/ ص202-203.ينابيع المودّة/ ص101.المناقب للكشفي/ الباب الأول.
[808] الصواعق المحرقة/ ص101.

təpədir ki, onun da üstündə Abbas, Həmzə, Əli bin Əbu Talib *(ə)*, Cəfər Təyyar olacaqdır. Onları sevənləri üzlərinin ağ olmasından, onlara nifrət edənləri isə üzlərinin qara olmasından tanıyacaqlar".

**((وَنادى أَصْحابُ الأَعْرافِ رِجالاً يَعْرِفُونَهُمْ بِسِيماهُمْ قالُوا ما أَغْنى عَنْكُمْ جَمْعُكُمْ وَما كُنْتُمْ تَسْتَكْبِرُونَ)).الأعراف/ 48.**

**روى الحافظ القندوزي (الحنفي) في (ينابيع المودّة) (بإسناده المذكور) عن سلمان الفارسي (رضي الله عنه).**

**قال: سمعت رسول الله (صلى الله عليه وآله وسلّم) يقول لعلي أكثر من عشر مرات:**

**(يا علي: إنّك والأوصياء من ولدك أعراف بين الجنّة والنّار، لا يدخل الجنّة إلاّ من عرفكم وعرفتموه، ولا يدخل النّار إلاّ من أنكركم وأنكرتموه).**[809]

***"Əraf əhli üzlərindən tanıdıqları adamlara müraciət edib: "Sizə nə yığdığınız mal-dövlət, nə də təkəbbürünüz fayda verdi" - deyəcək"*** ayəsi haqqında Qunduzi əl-Hənəfi "Yənabiul-məvəddət" əsərində sənədli şəkildə Salman əl-Farsinin Peyğəmbərdən *(s)* on dəfədən artıq belə eşitdiyini nəql edir: *"Ya Əli, sən və sənin sülbündən olan vəsilər Cənnət və Cəhənnəm arasında Ərafsınız. Sizi tanımayan və sizin tanımadığınız heç bir şəxs Cənnətə girə bilməz. Sizi inkar edən və sizin inkar etdiyiniz hər bir şəxs isə Cəhənnəmə girəcək".*

**((وَالشَّمْسَ وَالْقَمَرَ وَالنُّجُومَ مُسَخَّراتٍ بِأَمْرِهِ)).الأعراف/ 54.**

**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: أخبرنا أبو سعد السعدي (بإسناده المذكور) عن أنس بن مالك قال: قال رسول الله (صلى الله عليه وآله وسلّم):**

**(إذا فقدتم الشمس فأتوا القمر، وإذا فقدتم القمر فأتوا الزهرة وإذا فقدتم الزهرة فأتوا الفرقدين).**

**قيل: يا رسول الله ما الشمس؟**

**قال (صلى الله عليه وآله وسلّم): (أنا).**

**قيل: ما القمر؟**

**قال (صلى الله عليه وآله وسلّم): (علي).**

**قيل: ما الزهرة؟**

**قال (صلى الله عليه وآله وسلّم): (فاطمة).**

**قيل: ما الفرقدان؟**

**قال (صلى الله عليه وآله وسلّم): (الحسن والحسين).**[810]

***"...Günəşi, Ayı və ulduzları əmrinə boyun əymiş halda yaradan Allahdır. Bilin ki, yaratmaq da, əmr etmək də Ona məxsusdur. Aləmlərin Rəbbi olan Allah nə qədər ucadır*** (nə qədər böyükdür!)***"*** ayəsi haqqında Hakim əl-Həskani əl-Hənəfi yazır: "Bizə Əbusəid əs-Sədi sənədli şəkildə Ənəs bin Malikdən, onun da Peyğəmbərdən *(s)* belə dediyi nəql olunur:

[809] ينابيع المودّة/ ص452.
[810] شواهد التنزيل/ ج2/ ص211.

*"Günəşi itirdiyiniz zaman Qəməri* (Ayı) *gətirin, Qəməri itirdiyiniz zaman Zöhrəni gətirin, Zöhrəni itirdiyiniz zamansa Fərqədeyni gətirin"*. Dedilər: "Ya Rəsulullah *(s)*, Günəş nədir?!" Peyğəmbər *(s)* buyurdu: *"Günəş mənəm"*. "Qəmər nədir?" - deyə soruşulanda o Həzrət *(s)* buyurdu: *"Əlidir"*. Yenə də, dedilər: "Zöhrə nədir?" Peyğəmbər *(s)* belə buyurdu: *"Fatimədir"*. "Fərqədan nədir?" - deyə soruşulduqda isə o Həzrət *(s)* buyurdu: *"Həsən və Hüseyndir"*. Bu hədisdə məqsəd ayənin batini mənasını açıqlamaqdır. Hər halda biz ayənin izahı ilə əlaqədar olaraq təfsir əhlinin sənədli şəkildə nəql etdiyi hədisi qeyd etdik.

**((... وَنَصَحْتُ لَكُمْ وَلكِنْ لا تُحِبُّونَ النَّاصِحِينَ...)).الأعراف/ 79.**

**أخرج أبو الحسن الفقيه، علي بن محمد بن شاذان في المناقب المائة، التي جمعها من طرق العامّة، بسنده عن عكرمة، عن ابن عباس قال: قال رسول الله (صلى الله عليه وسلّم) بعد مُنصرفه من حجّة الوداع:**

**(أيها النّاس...**

**إلى أنْ قال (صلى الله عليه وسلّم):**

**(ألا وإنّ ربي أمرني بوصيتكم).**

**ألا وإنّ ربي أمرني أنْ أدلكم على سفينة نجاتكم وباب حطّتكم.فمن أراد منكم النجاة بعدي، والسلامة من الفتن المردية، فليتمسك بولاية علي بن أبي طالب.فإنّه الصديق الأكبر، والفاروق الأعظم، وهو إمام كل مسلم بعدي، من أحبّه واقتدى به في الدنيا ورد عليّ حوضي، ومن خالفه لم يرده، ولم يرني، واختلج دوني، وأخذ به ذات الشّمال إلى النّار.**

**أيها النّاس إني:**

**((وَنَصَحْتُ لَكُمْ وَلكِنْ لا تُحِبُّونَ النَّاصِحِينَ)).**[811]

**"**(Saleh) ***onlardan üz döndərib belə dedi: "Ey camaatım! Mən sizə Rəbbimin əmrini*** (mənə lütf etdiyi peyğəmbərliyi) ***təbliğ etdim və sizə öyüd-nəsihət verdim. Lakin siz öyüd-nəsihət verənləri sevmirsiniz!"*** ayəsi haqqında Əbülhəsən Əli bin Məhəmməd bin Şazan "əl-Mənaqib miə" əsərində öz sənədilə İkrimədən, o, İbn Abbasdan, onun da Peyğəmbərin *(s)* Vida həccindən dönərkən belə buyurduğu nəql olunur: *"Ey insanlar, xəbərdar olun ki, Rəbbim mənə sizə vəsiyyət etməyimi əmr etmişdir! Rəbbim mənə əmr etmişdir ki, sizin nicat gəminizi və Hittə qapınızı sizə göstərim. Sizdən hər kəs məndən sonra nicat tapmaq və fitnələrdən amanda qalmaq istəyirsə, Əli bin Əbu Talibin vilayətindən yapışsın. Çünki, o, Siddiqi-əkbər, Faruqul-əzəmdir. O, məndən sonra hər bir müsəlmanın imamıdır. Hər kəs dünyada onu sevsə və onun ardınca getsə, Kövsər hovuzunun kənarında mənə qovuşacaq. Hər kəs ona müxalif olsa, hovuza yetişməyəcək, məni görməyəcək, məndən ayrılacaq və onu Cəhənnəm mələkləri götürüb Cəhənnəmə atacaqlar. Ey insanlar!*

[811] الناقب المائة/ المنقبة الحادية والعشرون/ ص14-15.

***"Mən sizə Rəbbimin əmrini*** (mənə lütf etdiyi peyğəmbərliyi) ***təbliğ etdim və sizə öyüd-nəsihət verdim. Lakin siz öyüd-nəsihət verənləri sevmirsiniz!"***

**((... وَما ظَلَمُونا وَلكِنْ كانُوا أَنْفُسَهُمْ يَظْلِمُونَ)).الأعراف/ 160.**
**روى الحافظ الحنفي سليمان القندوزي في ينابيعه، بسنده عن أبي جعفر الباقر (رضي الله عنه) في تفسير هذه الآية:((وَلكِنْ كانُوا أَنْفُسَهُمْ يَظْلِمُونَ)).**
**فالله جلّ شأنه، وعظم سلطانه، ودام كبرياؤه، أعز وأرفع وأقدس من أنْ يعَرِضَ له ظلم، ولكن أدخل ذاته الأقدس فينا أهل البيت، فجعل ظلمنا ظلمه، فقال:**
**((وَما ظَلَمُونا وَلكِنْ كانُوا أَنْفُسَهُمْ يَظْلِمُونَ)).**[812]

***"Biz onları*** (İsrail oğullarını) ***on iki qəbiləyə - ümmətə böldük. Camaatı*** (Tih səhrasında) ***ondan*** (Musadan içməyə) ***su istədiyi zaman ona: "Əsanı daşa vur!" - deyə vəhy etdik.*** (Əsanı daşa vuran kimi) ***ondan on iki çeşmə qaynayıb axmağa başladı. Hər qəbilə özünün su içəcəyi yeri bildi. Biz buludları onların üstündə kölgəlik etdik, onlara qüdrət halvası və bildirçin endirdik. Onlara: "Sizə ruzi olaraq verdiyimiz pak nemətlərdən yeyin!" dedik. Onlar*** (naşükür olmaqla, əmrlərimizi yerinə yetirməməklə) ***Bizə deyil, ancaq özlərinə zülm edirdilər!"*** ayəsinin təfsiri haqqında Süleyman Qunduzi əl-Hənəfi "Yənabiul-məvəddə" əsərində öz sənədilə İmam Məhəmməd Baqirdən *(ə)* belə nəql edir: *"Allahın şəni uca, hakimiyyəti böyük, böyüklüyü əbədi, zülmdən ən uca, ən pakdır. Onun bu sifətləri biz Əhli-Beyt vasitəsilə bilinər. Buna görə də bizə olan zülmü Özünə olan zülm kimi qərar vermiş və buyurmuşdur:* ***"Onlar Bizə deyil, ancaq özlərinə zülm edirdilər!"***

**((... وَقُولُوا حِطَّةٌ وَادْخُلُوا الْبابَ سُجَّداً نَغْفِرْ لَكُمْ خَطِيئاتِكُمْ سَنَزِيدُ الْمُحْسِنِينَ)).الأعراف/ 161.**
**روى الحافظ الهيثمي (الشافعي) في كتابه (مجمع الزوائد) قال: وعن أبي سعيد الخدري قال: سمعت النبي (صلى الله عليه وآله وسلّم) يقول:(وإنّما مثل أهل بيتي فيكم مثل باب حطة في نبي إسرائيل من دخله غفر له).**[813]

**"**(Ya Rəsulum!) ***Yadına sal ki, o zaman onlara*** (yəhudilərə) ***belə deyilmişdi: "Bu şəhərdə*** (Qüdsdə) ***sakin olun, ondan*** (onun meyvələrindən) ***istədiyiniz yerdə yeyin, "hittə"*** ("bizi bağışla") ***deyin və qapıdan*** (Beytül-müqəddəsin qapısından) ***səcdə edərək daxil olun ki, günahlarınızı bağışlayaq. Biz yaxşı işlər görənlərin mükafatını artıracağıq!"*** ayəsinin təfsiri haqqında əl-Heysəmi əş-Şafei "Məcməuz-zəvaid" adlı məşhur əsərində Əbu Səid əl-Xudrinin Peyğəmbərdən *(s)* belə eşidib rəvayət etdiyini yazır: *"Əhli-Beytimin sizin içərinizdəki misalı Bəni-İsrailin Hittə qapısı kimidir. Hər kəs oradan daxil olsa, bağışlanar".*

---

[812] ينابيع الموّدة/ ص358.
[813] مجمع الزوائد/ ج9/ ص168.

**وفي (كنز العمال) أخرج المتّقي الهندي (الشافعي) عن أبي سعيد الخدري، عن النبي (صلى الله عليه وسلّم) (قال):(علي بن أبي طالب باب حطّة، من دخل منه كان مؤمناً، ومن خرج منه كان كافراً).**[814]

Əllamə Əli əl-Müttəqi əl-Hindi əş-Şafei ‘‘Kənzul-ümmal’’ adlı məşhur əsərində Əbu Səid əl-Xudridən belə nəql edir: ‘‘Peyğəmbər *(s)* buyurdu: *‘‘Əli bin Əbu Talib Hittə qapısıdır. Hər kəs oradan daxil olsa, mömin, əks halda isə kafirdir’’*. Bu hədisi Cəlaləddin Süyuti İbn Abbasdan nəql etmişdir.[815]

Bundan başqa, aşağıdakı müəlliflər qeyd olunan hədisi öz əsərlərində sənədli şəkildə rəvayət etmişlər.[816]

**((وَإِذْ أَخَذَ رَبُّكَ مِنْ بَنِي آدَمَ مِنْ ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ وَأَشْهَدَهُمْ عَلى أَنْفُسِهِمْ أَ لَسْتُ بِرَبِّكُمْ قالُوا بَلى شَهِدْنا أَنْ تَقُولُوا يَوْمَ الْقِيامَةِ إِنَّا كُنَّا عَنْ هذا غافِلِينَ)).الأعراف/ 172.**

**روى العلاّمة الحلي (قده) عن جمهور علماء السُّنة في تفسير قوله تعالى: ((وَإِذْ أَخَذَ رَبُّكَ مِنْ بَنِي آدَمَ مِنْ ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ وَأَشْهَدَهُمْ عَلى أَنْفُسِهِمْ أَ لَسْتُ بِرَبِّكُمْ قالُوا بَلى)).**

**أنّه قال رسول الله (صلى الله عليه وسلّم):**

**(لو يعلم النّاس متى سُمي علي أمير المؤمنين ما أنكروا فضله، سمّي أمير المؤمنين وآدم بين الروح والجسد، قال عزّ وجلّ ((وَإِذْ أَخَذَ رَبُّكَ مِنْ بَنِي آدَمَ مِنْ ظُهُورِهِمْ ذُرِّيَّتَهُمْ وَأَشْهَدَهُمْ عَلى أَنْفُسِهِمْ أَ لَسْتُ بِرَبِّكُمْ)).**

**قالت الملائكة (بلى).**

**فقال الله تعالى: (أنا ربّكم، ومحمّد نبيّكم، وعليّ أميركم).**[817]

**‘‘**(Ey Peyğəmbərim!) ***Xatırla ki, bir zaman Rəbbin Adəm oğullarının bellərindən*** (gələcək) ***nəsillərini çıxardıb onların özlərinə*** (bir-birinə) ***şahid tutaraq: “Mən sizin Rəbbiniz deyiləmmi?” - soruşmuş, onlar da: “Bəli, Rəbbimizsən!” - deyə cavab vermişdilər.*** (Belə bir şahidliyin səbəbi) ***Qiyamət günü: “Biz bundan qafil idik”*** ayəsinin təfsirində Əllamə Hilli öz təfsir kitabında bir qrup sünni aliminin Peyğəmbərdən *(s)* belə nəql etdiyini yazır: *‘‘Əgər insanlar bilsəydilər ki, Əli bin Əbu Talib nə vaxt Əmirəl-möminin adlandırılıb, onun fəzilətini inkar etməzdilər. Adəm ruhla cəsəd arasında olarkən Əli möminlərin əmiri adlandırılmışdır.* ***“Rəbbin Adəm oğullarının bellərindən*** (gələcək) ***nəsillərini çıxardıb onların özlərinə*** (bir-birinə) ***şahid tutaraq: “Mən sizin Rəbbiniz deyiləmmi?”*** *soruşduqda, mələklər* ***“Bəli”*** *cavabını vermişdilər. O zaman Allah buyurmuşdur:* ***“Mən sizin Rəbbiniz, Muhəmməd peyğəmbəriniz, Əli isə əmirinizdir”***.

---

814 كنز العمال/ ج6/ ص153.

815 القول الجلي للسيوطي (مخطوط) الحديث (39).

816 أسنى المطالب في أحاديث مختلفة المراتب/ حرف العين/ ص141.مناقب العيني ص38.أسنى المطالب للوصالي/ الباب الثامن عشر/ أواخره.

817 (دلائل الصدق) نقلًا عن العلامة عن الديلمي في (الفردوس).

**وأخرج الحافظ أبو الحسن بن المغازلي (الشافعي) في مناقبه، عن أبي الحسن أحمد بن المظفَّر العطار (بسنده المذكور) عن الحسين بن علي بن أبي طالب، عن أبيه، أنّه قرأ عليه أصبغ بن نباته هذه الآية فبكى عليٌّ (كرّم الله وجهه) وقال:(إنّي لأذكر الوقت الذي أخذ الله تعالى عليَّ فيه الميثاق).**[818]

İbn Mağazili əş-Şafei "əl-Mənaqib" adlı əsərində Əbülhəsən Əhməd bin Müzəffər əl-Əttarın sənədli şəkildə Hüseyn bin Əli bin Əbu Talibdən *(ə)*, Hüseyn bin Əlinin *(ə)* də atasından belə nəql etdiyi yazılıb: *"Əsbağ bin Nübatə Əliyə bu ayəni oxudu. Əli ağladı və buyurdu: "Allah bəndələrdən əhdi aldığı zamanı mən xatırlayıram".*

**((مَنْ يَهْدِ اللهُ فَهُوَ الْمُهْتَدِي...)).الأعراف/ 178.**
**أخرج الحافظ القندوزي (الحنفي) قال:في المناقب، عن أبي بصير، عن جعفر الصادق (رضي الله عنه) قال: قال أمير المؤمنين علي (سلام الله عليه) في خطبته:**
**(أنا الهادي، وأنا المُهتدي).**[819]

***"Allahın doğru yola yönəltdiyi kimsə doğru yoldadır. Onun*** (haqq yolundan) ***sapdırdığı kimsələr isə ziyana uğrayanlardır"*** ayəsinin təfsiri haqqında Qunduzi əl-Hənəfi "əl-Mənaqib"də Əbu Bəsirdən, onun da İmam Cəfər Sadiqdən *(ə)* belə nəql etdiyini yazır: *"Əmirəl-möminin Əli xütbəsində belə buyurmuşdur: "Hidayət edən və hidayət olunmuş mənəm".*

**((وَمِمَّنْ خَلَقْنا أُمَّةٌ يَهْدُونَ بِالْحَقِّ وَبِهِ يَعْدِلُونَ)).الأعراف/ 181.**
**روى الحافظ سليمان القندوزي (الحنفي) عن زاذان عن علي (رضي الله عنه) قال:**
**(تفترق هذه الأمة على ثلاث وسبعين فرقة، اثنتان وسبعون في النّار، وواحدة في الجنّة، وهم الذين قال الله عزّ وجلّ في حقّهم:**
**((وَمِمَّنْ خَلَقْنا أُمَّةٌ يَهْدُونَ بِالْحَقِّ وَبِهِ يَعْدِلُونَ)).**
**(أنا وشيعتي).**[820]

***"Yaratdıqlarımız içərisində bir zümrə də vardır ki, onlar insanları haqq yola aparır,*** (haqqı rəhbər tutaraq onlar arasında) ***ədalətlə hökm edirlər"*** ayəsi haqqında Süleyman Qunduzi əl-Hənəfi Zazanın İmam Əlidən *(ə)* belə dediyini yazır: *"Bu ümmət yetmiş üç firqəyə bölünəcək, onların yetmiş ikisi Cəhənnəmdə, biri də Cənnətdə olacaqdır. Cənnətdə olanlar isə* ***"Yaratdıqlarımız içərisində bir zümrə də vardır ki, onlar insanları haqq yola aparır,*** (haqqı rəhbər tutaraq onlar arasında) ***ədalətlə hökm edən"*** *insanlardır. Bunlar da mən və mənim tərəfdarlarımdır".*

Xatırladaq ki, bu hədisi Əhməd əl-Xarəzmi də özünün "əl-Mənaqib" əsərində[821] nəql etmişdir.

---

[818] المناقب لابن المغازلي/ ص271-272.
[819] ينابيع المودّة/ ص495.
[820] ينابيع المودّة/ ص109.
[821] مناقب الخوارزمي/ ص237.

Həmçinin, Əllamə Bəhrani Əhməd bin Musa bin Mərdəveyhin də öz "əl-Mənaqib" əsərində bu hədisi qeyd etdiyini yazır.

## *4.8. İMAM ƏLİ (Ə) "ƏL-ƏNFAL" SURƏSİNDƏ*

"əl-Ənfal" surəsinin adı və məzmunu haqqında Ayətullah Fəqih İmani "Nurul-Quran" adlı məşhur əsərində yazır: "Bu surənin Mədinədə nazil olmuş 75 ayəsi var. Surə "Ənfal" sözü ilə başladığından və onun ayələrində ənfal, yəni ümumi sərvətin (beytülmalın) hökmləri bəyan olunduğundan "Ənfal" adlandırılmışdır. Mübarək surənin digər bir adı "Bədr"dir. Çünki, onun ayələrinin əksəri Bədr savaşı ilə bağlıdır.

Bədr savaşı müsəlmanların müşriklərlə ilk savaşı olmuşdur. Bu savaşda müsəlmanlar Allahın yardımlarından və nəsib etdiyi qələbədən faydalanmışlar. Surədə Bədr savaşı haqqında danışılmaqla yanaşı, zərif bir şəkildə haqq ordusu ilə batil ordusunun xüsusiyyətləri bəyan olunmuşdur. Eləcə də, surədə Peyğəmbərin *(s)* həyat tarixindən dərslərə, o Həzrətin *(s)* müsəlmanlarla rəftarına, beytülmal məsələlərinə, cihad, qənimət, əsirlər, xüms və onun bölünməsi hökmlərinə, hicrət macərası və "Leylətul-məbit" əhvalatına, həqiqi möminlərin sifətinin bəyanına, ixtilaf və təfriqədən çəkinməyin zəruriliyinə yer ayrılmışdır".[822]

"əl-Ənfal" surəsini oxumağın savabı haqqında İmam Cəfər Sadiqdən *(ə)* nəql olunmuş bir hədisdə buyurulur:

**"من قرأها من كل شهر لم يدخله نفاق أبداً، وكان من شيعة أمير المؤمنين حقاً، ويأكل يوم القيامة من موائد الجنة معهم حتى يفرغ الناس من الحساب"**

*"Hər kəs Əlinin tərəfdarlarından olduğu halda bu surəni hər ay oxusa, heç vaxt nifaqa girməz, Qiyamət günü Cənnət süfrələrindən qidalanar...".*[823]

"əl-Ənfal" surəsində on yeddi ayə İmam Əlinin *(ə)* haqqında nazil olmuşdur. Bunlar 8, 15, 17, 20, 24, 25, 27, 29, 30, 32, 33, 34, 41, 45, 62, 64 və 75-ci ayələrdir. Həmin ayələr aşağıdakılardır:

**1- لِيُحِقَّ الْحَقَّ وَيُبْطِلَ الْبَاطِلَ وَلَوْ كَرِهَ الْمُجْرِمُونَ / 8.**

**"**(Allah bununla) ***günahkarların xoşuna gəlməsə də, haqqı*** (İslamı) ***bərqərar etmək və batili*** (küfrü) ***yox etmək istəyirdi"***;[824]

[822] Ayətullah Fəqih İmani "Nurul-Quran", c. IV, "Ənfal" surəsinin təfsiri.

[823] رواه الطبرسي في مجمع البيان 2 : 516 ، والكفعمي في مصباحه : 440.

[824] "əl-Ənfal", 8.

**2- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذا لَقِيتُمُ الَّذِينَ كَفَرُوا زَحْفاً / 15.**

***"Ey iman gətirənlər! Kafirlərin bir yerə toplaşdıqları vaxt rastlaşsanız, dönüb onlardan qaçmayın!"***;[825]

**3- فَلَمْ تَقْتُلُوهُمْ وَلكِنَّ اللهَ قَتَلَهُمْ / 17.**

"(Ey möminlər Bədrdə) ***onları*** (kafirləri) ***siz öldürmədiniz, Allah öldürdü.*** (Ya Peyğəmbərim! Düşmənlərin gözünə bir ovuc torpaq) ***atdığın zaman sən atmadın, Allah atdı. Allah bununla möminləri*** (qənimət əldə etmək və zəfər çalmaq üçün) ***yaxşı bir imtahandan keçirtdi. Allah*** (hər şeyi) ***eşidəndir, biləndir!"***;[826]

**4- يا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللهَ وَرَسُولَهُ / 20.**

***"Ey iman gətirənlər! Allaha və Onun Peyğəmbərinə itaət edin,*** (Quranı, oradakı öyüd-nəsihətləri) ***eşitdiyiniz halda, ondan üz döndərməyin!"***;[827]

**5- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اسْتَجِيبُوا للهِ وَلِلرَّسُولِ / 24.**

***"Ey iman gətirənlər! Peyğəmbər sizi, sizləri dirildəcək bir şeyə*** (imana, haqqa) ***dəvət etdiyi zaman Allahın və Onun Peyğəmbərinin dəvətini qəbul edin. Bilin ki, Allah insanla onun qəlbi arasına girər*** (insanın bütün varlığına hakim olar; Allah ürəklərdən keçən hər şeyi bilir, bütün ürəklərin ixtiyarı da Onun əlindədir) ***və siz axırda Onun hüzuruna cəm ediləcəksiniz!"***;[828]

**6- وَاتَّقُوا فِتْنَةً لا تُصِيبَنَّ الَّذِينَ ظَلَمُوا مِنْكُمْ خاصَّةً / 25.**

***"Sizlərdən təkcə zalımlara toxunmaqla sovuşmayacaq*** (pis əməllərin müqabilində hər kəsə üz verə biləcək) ***bir bəladan qorxun. Bilin ki, Allah*** (Onun əmrlərini pozanlara) ***şiddətli əzab verəndir!"***;[829]

**7- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَخُونُوا اللهَ وَالرَّسُولَ / 27.**

***"Ey iman gətirənlər! Bilə-bilə Allaha, Peyğəmbərə və aranızdakı əmanətlərə xəyanət etməyin!*** (Allahın əmrlərinə, Peyğəmbərin şəriətinə, dini vəzifələrinizə və borclarınıza sadiq olun!)***"***;[830]

**8- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنْ تَتَّقُوا اللهَ يَجْعَلْ لَكُمْ فُرْقاناً / 29.**

***"Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla-nahaqı ayırd edən*** (bir nur) ***verər*** (dünyada və Axirətdə çıxış yolu göstərər), ***gü-***

[825] "əl-Ənfal", 15.
[826] "əl-Ənfal", 17.
[827] "əl-Ənfal", 20.
[828] "əl-Ənfal", 24.
[829] "əl-Ənfal", 25.
[830] "əl-Ənfal", 27.

***nahlarınızın üstünü örtüb sizi bağışlayar. Allah böyük lütf*** (mərhəmət) ***sahibidir!”***;[831]

**9- وَإِذْ يَمْكُرُ بِكَ الَّذِينَ كَفَرُوا لِيُثْبِتُوكَ أَوْ يَقْتُلُوكَ أَوْ يُخْرِجُوكَ / 30.**

“(Ya Rəsulum!) ***Yadına sal ki, bir zaman kafirlər səni həbs etmək və ya öldürmək, yaxud da*** (Məkkədən) ***çıxardıb qovmaq üçün*** (Darun-Nədvədə) ***sənə qarşı hiylə qururdular. Allah da*** (onların bu hiyləsinə qarşı) ***tədbir tökdü. Allah*** (gizli hiylə quranlara, məkr edənlərə qarşı) ***tədbir tökənlərin*** (onlara gözləmədikləri yerdən qəfil bəla göndərib cəzalandıranların, məkri pozanların, məkrə tədbirlə cavab verənlərin) ***ən yaxşısıdır!”***;[832]

**10- وَإِذْ قالُوا اللهُمَّ إِنْ كانَ هذا هُوَ الْحَقَّ مِنْ عِنْدِكَ / 32.**

***“Bir zaman da: “Ya Allah! Əgər bu*** (Quran) ***Sənin tərəfindən gəlmiş haqdırsa, onda başımıza göydən daş yağdır və ya bizə şiddətli bir əzab göndər!” - demişdilər”***;[833]

**11- وَما كانَ اللهُ لِيُعَذِّبَهُمْ وَأَنْتَ فِيهِمْ / 33.**

***“Halbuki, sən onların arasında ola-ola Allah*** (sənə hörmət əlaməti olaraq) ***onlara əzab verən deyildir.*** (Tövbə edib***) bağışlanmalarını diləyərkən də Allah onlara əzab verməz!”***;[834]

**12- وَما كانُوا أَوْلِياءَهُ إِنْ أَوْلِياؤُهُ إِلاَّ الْمُتَّقُونَ / 34.**

***“Lakin onlar*** (müşriklər) ***Məscidülhəramın sahibləri*** (və ya ona xidmət etməyə layiq) ***olmadıqları halda,*** (möminlərə onu təvaf etməyə) ***mane olduqda Allah nə üçün onlara əzab verməsin! Onun sahibləri*** (və ya Allahın dostları) ***yalnız Allahdan qorxub pis əməllərdən*** (küfrdən, şirkdən, bütpərəstlikdən) ***çəkinənlərdir. Lakin onların*** (müşriklərin) ***əksəriyyəti bunu bilməz!”***;[835]

**13- وَاعْلَمُوا أَنَّما غَنِمْتُمْ مِنْ شَيْءٍ فَأَنَّ للهِ خُمُسَهُ وَلِلرَّسُولِ / 41.**

“(Ey möminlər!) ***Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün - iki dəstənin bir-birilə qarşılaşdığı gün*** (Bədr günü) ***bəndəmizə*** (Muhəmmədə) ***nazil etdiyimizə*** (ayələrə) ***iman gətirmisinizsə, bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-***

[831] “əl-Ənfal”, 29.
[832] “əl-Ənfal”, 30.
[833] “əl-Ənfal”, 32.
[834] “əl-Ənfal”, 33.
[835] “əl-Ənfal”, 34.

***əqrəbasının, yetimlərin, yoxsulların və müsafirlərindir*** (pulu qurtarıb yolda qalan yolçularındır)***. Allah hər şeyə qadirdir!”***;[836]

**14- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذا لَقِيتُمْ فِئَةً فَاثْبُتُوا / 45.**

***“Ey iman gətirənlər! Bir dəstə*** (kafir dəstəsi) ***ilə üz-üzə gəldikdə möhkəm olun və Allahı çox yada salın ki, nicat tapasınız!”***;[837]

**15- وَإِنْ يُرِيدُوا أَنْ يَخْدَعُوكَ فَإِنَّ حَسْبَكَ اللهُ / 62.**

***“Əgər onlar səni aldatmaq istəsələr,*** (qorxma və bil ki, onların şərindən və məkrindən qorumağa) ***sənə təkcə Allah kifayətdir.*** (O Allah ki) ***səni Öz köməyilə və möminlərlə müdafiə edib möhkəmlətdi”***;[838]

**16- يا أَيُّهَا النَّبِيُّ حَسْبُكَ اللهُ وَمَنِ اتَّبَعَكَ مِنَ الْمُؤْمِنِينَ / 64.**

***“Ya Peyğəmbər! Sənə və sənin ardınca gedən möminlərə təkcə Allah bəs edər”***;[839]

**17- وَالَّذِينَ آمَنُوا مِنْ بَعْدُ وَهاجَرُوا وَجاهَدُوا مَعَكُمْ / 75.**

***“Sonradan*** (Hüdeybiyyə sazişindən sonra, Məkkənin fəthindən əvvəl) ***iman gətirib hicrət edənlər və sizinlə bərabər döyüşənlər*** (cihad edənlər) ***də sizdəndirlər. Qohumlar Allahın Kitabında*** (lövhi-məhfuzda və ya Quranda irs, varislik baxımından) ***bir-birinə daha münasibdirlər*** (yaxındırlar)***. Həqiqətən, Allah hər şeyi biləndir!*** (Məkkənin fəthinə qədər mühacirlər və ənsar qohumluq əlaqələrindən asılı olmayaraq bir-birinin varisi hesab edilirdilər. Məkkənin fəthindən sonra bu hökm ləğv olunub varislik hüququ yalnız qohumlara aid edildi)***”***;[840]

**((لِيُحِقَّ الْحَقَّ وَيُبْطِلَ الْباطِلَ وَلَوْ كَرِهَ الْمُجْرِمُونَ)).الأنفال/ 8.**
**روى العلاّمة البحراني (قده) قال: أسند ابن مردويه ـ وهو من ثقاة العامّة ـ إلى أبان بن تغلب، عن مسلم قال:**
**سمعت أبا ذر والمقداد وسلمان يقولون: كنا قعوداً عند النبي (صلى الله عليه وسلّم) إذ أقبل ثلاثة من المهاجرين، فقال (صلى الله عليه وسلّم):**
**(تفترق أمتي بعدي ثلاث فرق: أهلُ حق لا يشوبونه بباطل، مثلهم كالذهب كلّما فتنته النّار زاد جودة، وإمامهم هذا ـ وأشار (صلى الله عليه وآله) إلى أحد الثلاثة، وهو الذي أمر الله في كتابه (أنْ يكون) إماماً ورحمة.**
**وفرقة أهل باطل لا يشوبونه بحق، مثلهم كمثل الحديد كلّما فتنته النّار ازداد خبثاً، وإمامهم هذا).**

---

[836] “əl-Ənfal”, 41.
[837] “əl-Ənfal”, 45.
[838] “əl-Ənfal”, 62.
[839] “əl-Ənfal”, 64.
[840] “əl-Ənfal”, 75.

**(قال مسلم): فسألتهم عن أهل الحق وإمامهم فقالوا علي بن أبي طالب، وأمسكوا عن الآخرين، فجهدت في الآخرين أنْ يسموهما فلم يفعلوا.**
**ثم قال: هذه رواية أهل المذهب.**[841]

**"**(Allah bununla) ***günahkarların xoşuna gəlməsə də, haqqı*** (İslamı) ***bərqərar etmək və batili*** (küfrü) ***yox etmək istəyirdi"*** ayəsinin təfsiri haqqında Əllamə Bəhrani İbn Mordəveyhin Əban bin Təğlibdən, onun da Müslimdən belə nəql etdiyini yazır: "Əbu Zərdən, Miqdaddan və Salmandan eşitdim ki deyirdilər: "Peyğəmbərin *(s)* yanında oturmuşduq. Bu zaman mühacirlərdən üç nəfər gəldi. Peyğəmbər *(s)* buyurdu: *"Məndən sonra ümmətim üç qrupa bölünəcəkdir. Birincisi, haqq əhli olacaqdır. Onlar heç vaxt haqqı batilə qarışdırmazlar. Onlar qızıl kimidirlər. Onların imamı budur* (Peyğəmbər *(s)* o üç nəfərdən birinə işarə elədi)*, Allahı onu Öz Kitabında imam və rəhmət olaraq dəyərləndirib. İkincisi, batil firqədir ki, ona heç vaxt haqqı qoşmazlar. Onlar dəmirə oxşayırlar. Onların imamı budur"*. (Müslim deyir): "Mən onlardan haqq əhli və imamları haqqında soruşdum, dedilər: "Əli bin Əbu Talibdir *(ə)*..."

**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذا لَقِيتُمُ الَّذِينَ كَفَرُوا زَحْفاً فَلا تُوَلُّوهُمُ الأَدْبارَ)).الأنفال/ 15.**
**أخرج العالم الشافعي، السيّد المؤمن الشبلنجي في نور الأبصار، قال: قال ابن عباس**[842]**، (رضي الله عنهما):**
**ليس آية من كتاب الله تعالى: ((يا أيها الذين آمنوا)) إلاّ وعليٌّ أميرها وشريفها.**[843]

***"Ey iman gətirənlər! Kafirlərin bir yerə toplaşdıqları vaxt rastlaşsanız, dönüb onlardan qaçmayın!"*** ayəsi haqqında Seyid Mömin əş-Şəblənci əş-Şafei "Nurul-əbsar" adlı əsərində İbn Abbasdan belə nəql edir: "Allahın

---

[841] غاية المرام/ ص578.

[842] هو أبو العباس، عبد الله بن العباس بن عبد المطلب، ابن عم النبي (صلى الله عليه وآله وسلّم) ومن أصحابه ويلقب بـ(حَبرُ الأمة)، أخرج له أحاديث كثيرة معظم أصحاب كتب الحديث، والصحاح الستة مليئة بأحاديثه، وقد روى الكثير في فضل أهل البيت، وخاصة علي بن أبي طالب أمير المؤمنين.

ترجم له معظم المؤرخين، وأصحاب الرجال في معاجمهم، نذكر بعض أولئك من العامّة للمراجعة:محمّد بن سعد في الطبقات الكبرى/ ج2/ القسم2/ ص119.ومحمّد بن إسماعيل البخاري في (التاريخ الكبير) ج3/ ص301.وفي (التاريخ الصغير) ص68.وعبد الله بن مسلم بن قتيبة الدينوري في كتاب (المعارف) ص54.وأبو علي بن رستة في (الأعلاق النفسية) ص213.ومحمّد بن أحمد الدولابي في (الكنى والاسماء) ج1/ ص82.ومحمّد بن جرير الطبري في (الذيل المذيل) ص115.وابن أبي حاتم في (الجرح والتعديل)/ ج2/ القسم2/ ص116.والمطهر بن طاهر المقدسي في (البدء والتاريخ) ج5/ ص105.ويوسف بن عبد الله بن عبد البر في (الاستيعاب) ج1/ ص372.وأبو نعيم في الحلية ج1/ ص314.وابن القيراني في (الجمع بين رجال الصحيحين) ص239.وابن الجوزي في (تلقيح مفهوم أهل الأثر) ص184.وفي (صفة الصفوة) ج1/ ص314.وابن الأثير في (أسد الغابة) ج3/ ص192.وفي (الكامل في التاريخ) ج4/ ص125.وأبو زكريا النواوي في تهذيب الأسماء/ ص351.والخوارزمي في جامع المسانيد/ ج2/ ص488.والقيرواني في (معالم الإيمان) ص89.وأبو الفداء في (المختصر في أخبار البشر) ج1/ ص207.والذهبي في (دول الإسلام) ص341.وفي (تذكرة الحفّاظ) ج1/ ص37.وفي (تجريد أسماء الصحابة) ج1/ ص344.واليافعي في (مرآة الجنان) ج1/ ص143.وابن كثير في (البداية والنهاية) ج8/ ص295.وابن حجر العسقلاني في (تهذيب التهذيب) ج5/ ص276.وفي (تقريب التهذيب) ص204.وفي (الإصابة) ج4/ ص90. والعيني في (عمدة القارئ) ج1/ ص83.وأحمد بن عبد الله الخزرجي في (خلاصة تهذيب الكمال) ص202.وأبو المواهب الشعراني في (لواقح الأنوار) ج1/ ص27.وابن العماد في (شذرات الذهب) ج1/ ص75.والزركلي في (الأعلام) ج4/ ص228 وآخرون كثيرون...

[843] نور الأبصار إ/ ص78.

Kitabında elə bir ***“Ey iman gətirənlər”*** ayəsi yoxdur ki, onun əmiri və şərifi Əli *(ə)* olmasın”.

**((فَلَمْ تَقْتُلُوهُمْ وَلكِنَّ اللهَ قَتَلَهُمْ وَما رَمَيْتَ إِذْ رَمَيْتَ وَلكِنَّ اللهَ رَمى وَلِيُبْلِيَ الْمُؤْمِنِينَ مِنْهُ بَلاءً حَسَناً إِنَّ اللهَ سَمِيعٌ عَلِيمٌ)).الأنفال/ 17.**

**روى العلاّمة البحراني عن الثعلبي (في تفسيره) عن سمّاك بن حربن، عن عكرمة، عن ابن عباس في قوله تعالى:((وما رميت إذ رميت)):**

**(إنّ النبي (صلى الله عليه وسلّم) قال لعلي: ناولني كفاً من حصى، فناوله، فرمى به في وجوه القوم، فما بقي أحد إلاّ امتلأت عيناه من الحصى).**

**وفي رواية غيره (يعني غير الثعلبي): (وأفواههم ومناخرهم).**

**قال أنس: رمى بثلاث حصيات في الميمنة، والميسرة، والقلب، ((وَلِيُبْلِيَ الْمُؤْمِنِينَ مِنْهُ بَلاءً حَسَناً)).**

**يعني: وهزم الكفار ليعم النبي والوصي).**[844]

**“**(Ey möminlər Bədrdə) ***onları*** (kafirləri) ***siz öldürmədiniz, Allah öldürdü.*** (Ya Peyğəmbərim! Düşmənlərin gözünə bir ovuc torpaq) ***atdığın zaman sən atmadın, Allah atdı. Allah bununla möminləri*** (qənimət əldə etmək və zəfər çalmaq üçün) ***yaxşı bir imtahandan keçirtdi. Allah*** (hər şeyi) ***eşidəndir, biləndir!”*** ayəsinin təfsirində Əllamə Bəhrani Sələbinin təfsirinə, onun da Səmmak bin Hərirdən, onun da İkrimədən, onun da İbn Abbasdan nəql edərək ***“sən atmadın, Allah atdı”*** buyruğu haqqında yazır: “Peyğəmbər *(s)* Əliyə *(ə)* buyurdu: *“Mənə bir az həsa* (daş) *ver”*. Əli *(ə)* həsanı verdiyi zaman o Həzrət *(s)* o daşları düşmənə tərəf atdı. Bunun nəticəsində düşmən ordusunun gözü tutuldu...”.

**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللهَ وَرَسُولَهُ)).الأنفال/ 20.**

**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: حدّثنا أبو زكريا بن إسحاق (بإسناده المذكور) عن حذيفة:**

**إنَّ أُناساً تذاكروا فقالوا: ما نزلت آية في القرآن فيها ((يا أَيُّهَا الَّذِينَ آمَنُوا)) إلاّ في أصحاب محمد (صلى الله عليه وسلّم).**

**فقال حذيفة: ما نزلت في القرآن ((يا أَيُّهَا الَّذِينَ آمَنُوا)) إلاّ كان لعلي لبُها ولُبابها).**[845]

***“Ey iman gətirənlər! Allaha və Onun Peyğəmbərinə itaət edin,*** (Quranı, oradakı öyüd-nəsihətləri) ***eşitdiyiniz halda, ondan üz döndərməyin!”*** ayəsi haqqında Hakim əl-Həskani əl-Hənəfi yazır: “Bizə Əbu Zəkəriyya bin İshaq sənədli şəkildə Hüzeyfədən nəql edib dedi ki, səhabələr bir-birlərilə müzakirə edib dedilər: “Quranda elə bir ***“Ey iman gətirənlər”*** ayəsi yoxdur ki, orada Peyğəmbərin *(s)* səhabələrinə işarə olmasın”. Sonra Hüzeyfə deyir: “Quranda elə bir ***“Ey iman gətirənlər”*** ayəsi yoxdur ki, orada Əli *(ə)* olmasın”.

---

[844] غاية المرام/ 407.

[845] شواهد التنزيل/ ج1/ ص48.

**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا اسْتَجِيبُوا للهِ وَلِلرَّسُولِ إِذا دَعاكُمْ لِما يُحْيِيكُمْ وَاعْلَمُوا أَنَّ اللهَ يَحُولُ بَيْنَ الْمَرْءِ وَقَلْبِهِ وَأَنَّهُ إِلَيْهِ تُحْشَرُونَ)).الأنفال/ 24.**

**روى العلاّمة الكشفي، المير محمد صالح الترمذي (الحنفي) قال: روى ابن مردويه في مناقبه عن الإمام محمد الباقر (رضوان الله عليه) أنّه قال: قوله تعالى:((اسْتَجِيبُوا للهِ وَلِلرَّسُولِ إِذا دَعاكُمْ لِما يُحْيِيكُمْ)). (نزلت في ولاية علي بن أبي طالب (كرّم الله وجهه).**[846]

***"Ey iman gətirənlər! Peyğəmbər sizi, sizləri dirildəcək bir şeyə*** (imana, haqqa) ***dəvət etdiyi zaman Allahın və Onun Peyğəmbərinin dəvətini qəbul edin. Bilin ki, Allah insanla onun qəlbi arasına girər*** (insanın bütün varlığına hakim olar; Allah ürəklərdən keçən hər şeyi bilir, bütün ürəklərin ixtiyarı da Onun əlindədir) ***və siz axırda Onun hüzuruna cəm ediləcəksiniz!"*** ayəsi haqqında Əllamə Mirməhəmməd Saleh ət-Tirmizi əl-Hənəfi əl-Kəşəfi rəvayət edir: "İbn Mordəveyh "əl-Mənaqib" əsərində İmam Məhəmməd Baqirdən *(ə)* rəvayət etmişdir ki, sözügedən ayə Əli bin Əbu Talibin *(ə)* vilayəti haqqında nazil olmuşdur".

**((وَاتَّقُوا فِتْنَةً لا تُصِيبَنَّ الَّذِينَ ظَلَمُوا مِنْكُمْ خَاصَّةً)).الأنفال/ 25.**

**روى العلاّمة البحراني عن أبي عبد الله محمد بن علي السراج يرفعه إلى عبد الله بن مسعود قال: قال النبي (صلى الله عليه وآله):**

**يا ابن مسعود قد أنزلت الآية ((وَاتَّقُوا فِتْنَةً لا تُصِيبَنَّ الَّذِينَ ظَلَمُوا مِنْكُمْ خَاصَّةً)) وأنا مستودعكها، ومسلم لك خاصة الظلمة فكن لما أقول واعياً وعني له مؤدياً:**

**من ظلم علياً مجلسي هذا كمن جحد نبوّتي ونبوّة من كان قبلي.**[847]

***"Sizlərdən təkcə zalımlara toxunmaqla sovuşmayacaq*** (pis əməllərin müqabilində hər kəsə üz verə biləcək) ***bir bəladan qorxun. Bilin ki, Allah*** (Onun əmrlərini pozanlara) ***şiddətli əzab verəndir!"*** ayəsi haqqında Əllamə Bəhrani Əbu Abdullah Məhəmməd bin Əli əs-Sərracdan, onun da Abdullah bin Məsuddan mərfu şəkildə Peyğəmbərdən *(s)* belə dediyini yazır: *"Ey İbn Məsud* ***"Sizlərdən təkcə zalımlara toxunmaqla sovuşmayacaq*** (pis əməllərin müqabilində hər kəsə üz verə biləcək) ***bir bəladan qorxun"*** *ayəsi nazil edildi. Mən onun mühafiziyəm... Hər kəs Əliyə zülm etsə, mənim və məndən əvvəlkilərin nübuvvətini inkar etmişdir".*

**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَخُونُوا اللهَ وَالرَّسُولَ وَتَخُونُوا أَماناتِكُمْ وَأَنْتُمْ تَعْلَمُونَ)).الأنفال/ 27.**

**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال:**

**في العتيق روي عن يونس بن بكار، عن أبيه، عن أبي جعفر محمد بن علي في قوله تعالى ذكره: ((يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَخُونُوا اللهَ وَالرَّسُولَ وَتَخُونُوا أَماناتِكُمْ ـ في آل محمد ـ وَأَنْتُمْ تَعْلَمُونَ)).**[848]

---

[846] المناقب للكشفي/ الباب الأول.

[847] غاية المرام/ 407.

[848] شواهد التنزيل/ ج1/ ص205.

***"Sizlərdən təkcə zalımlara toxunmaqla sovuşmayacaq*** (pis əməllərin müqabilində hər kəsə üz verə biləcək) ***bir bəladan qorxun. Bilin ki, Allah*** (Onun əmrlərini pozanlara) ***şiddətli əzab verəndir!"*** ayəsi haqqında Hakim əl-Həskani yazır: "Ətiqdə" Yunus bin Bəkkardan, onun atasından, onun da Əbu Cəfər Məhəmməd bin Əlidən *(ə)* sözügedən ayənin təfsirində belə deyilir: *"Ali-Muhəmmədə xəyanət etməyin"*.

**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنْ تَتَّقُوا اللهَ يَجْعَلْ لَكُمْ فُرْقاناً)).الأنفال/ 29.**
**روى العلاّمة السيّد هاشم البحراني، عن تفسير (مجاهد):**
**(ما في القرآن ((يا أيها الذين آمنوا)) إلاّ ولعلي سابقة ذلك، لأنّه سابقهم إلى الإسلام، فسمّاه الله تعالى في تسعة وثمانين موضعاً أمير المؤمنين).**[849]

***"Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla-nahaqı ayırd edən*** (bir nur) ***verər*** (dünyada və Axirətdə çıxış yolu göstərər), ***günahlarınızın üstünü örtüb sizi bağışlayar. Allah böyük lütf*** (mərhəmət) ***sahibidir!"*** ayəsi haqqında Əllamə Seyid Haşim Bəhrani, Mücahidin təfsirindən belə nəql edir: "Quranda elə bir ***"Ey iman gətirənlər"*** ayəsi yoxdur ki, Əli *(ə)* onun ilki olmasın. Çünki, o, İslamda hamıdan öndədir. Allah onu səksən doqquz dəfə ***"Əmirəl-möminin"*** adlandırıb".

Ümumiyyətlə, Qurani-Kərimdə qeyd olunmuş bütün ***"Ey iman gətirənlər"*** ayəsində İmam Əliyə *(ə)* işarə olduğu məlumdur. Bu əksər təfsir əhlinin nəzəridir. Buna görə də Qurani-Kərimin "əl-Bəqərə", "Ali-İmran", "ən-Nisa", "əl-Maidə", "əl-Ənfal", "ət-Tövbə", "əl-Həcc", "ən-Nur", "əl-Əhzab", "Muhəmməd", "əl-Hucurat", "əl-Hədid", "əl-Mücadələ", "əl-Həşr", "əl-Mumtəhinə", "əs-Saff", "əl-Cumuə", "əl-Munafiqun", "ət-Təğabun" və "ət-Təhrim" surələrində keçən bu ifadəni surə ardıcıllığı ilə aşağıdakı kimi təqdim edirik:

**1- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَقُولُوا راعِنا وَقُولُوا انْظُرْنا / 104.**

***"Ey iman gətirənlər! "Raina" deməyin*** (bu söz ərəb dilində "bizi qoru", "bizdə gözün olsun", "bizə bax", "bizi gözlə", "bizə qayğı və ehtiram göstər", mənalarında işləndiyi halda, ibrani dilində yuxarıdakı mənalarla yanaşı, "bizə çobanlıq et", "bizim çobanımız"; "ay səfeh" mənalarında da işlədilir. Yəhudilər həmin sözdən Peyğəmbərə qarşı bir istehza vasitəsi kimi istifadə edirdilər), **"unzurna" söyləyin!** (Allahın hökmünü) ***eşidin! Kafirləri şiddətli əzab gözləyir"***;[850]

---

[849] غاية المرام/ ص441.

[850] "əl-Bəqərə", 104.

**2- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اسْتَعِينُوا بِالصَّبْرِ وَالصَّلاةِ / 153.**

***"Ey iman gətirənlər! Səbr və dua ilə** (namazla Allahdan) **kömək diləyin. Çünki, Allah səbir edənlərlədir** (onların dostudur)**"**;[851]

**3- يا أَيُّهَا الَّذِينَ آمَنُوا كُلُوا مِنْ طَيِّباتِ ما رَزَقْناكُمْ / 172.**

***"Ey iman gətirənlər! Sizə verdiyimiz ruzilərin*** (təmiz və) ***halalından yeyin! Əgər Allaha ibadət edirsinizsə,*** (bu nemətlərə görə) ***Ona şükür edin!"***;[852]

**4- يا أَيُّهَا الَّذِينَ آمَنُوا كُتِبَ عَلَيْكُمُ الْقِصاصُ فِي الْقَتْلى / 178.**

***"Ey iman gətirənlər!*** (Qəsdən) ***öldürülən şəxsdən sizin üçün qisas almaq hökmü qərara alındı*** (vacib oldu)**.** ***Azad şəxsi azad şəxsin, qulu qulun, qadını qadının əvəzində*** (öldürə bilərsiniz)**.** (Öldürülən şəxsin) ***qardaşı*** (varisi) ***tərəfindən*** (müəyyən bir şey, qanbahası müqabilində) ***bağışlanmış*** (qatil) ***ilə adətə görə*** (yaxşı) ***rəftar edilməlidir. Bağışlanmış*** (qatil də) ***yaxşılıqla*** (qan sahiblərinə) ***"diyə"*** (qanbahası) ***verməlidir. Bu,*** (qisası qanbahası ilə əvəz etmək hökmü) ***Rəbbiniz tərəfindən sizin üçün bir yüngüllük və mərhəmətdir. Bundan*** (diyə müqabilində bağışlamaqdan) ***sonra təcavüzkarlıq edən*** (qatili öldürən və ya onun qohum-qardaşı ilə düşmənçilik edən) ***kimsəni*** (Qiyamətdə) ***şiddətli əzab gözləyir!"***;[853]

**5- يا أَيُّهَا الَّذِينَ آمَنُوا كُتِبَ عَلَيْكُمُ الصِّيامُ / 183.**

***"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib buyurulduğu kimi, sizə də vacib buyuruldu ki,*** (bunun vasitəsilə pis əməllərdən) ***çəkinəsiniz!"***;[854]

**6- يا أَيُّهَا الَّذِينَ آمَنُوا ادْخُلُوا فِي السِّلْمِ كَافَّةً / 208.**

***"Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə*** (İslama) ***gəlin! Şeytanın yolu ilə getməyin, Çünki, o sizin açıq-aşkar düşməninizdir!"***;[855]

**7- يا أَيُّهَا الَّذِينَ آمَنُوا أَنْفِقُوا مِمَّا رَزَقْناكُمْ / 254.**

***"Ey iman gətirənlər! Alış-verişin, dostluğun və şəfaətin mümkün olmayacağı gün*** (Qiyamət günü) ***gəlməmişdən əvvəl sizə verdiyimiz ruzidən paylayın! Kafirlər*** (bunu inkar edənlər) ***isə*** (özlərinə) ***zülm edənlərdir!"***;[856]

[851] "əl-Bəqərə", 153.
[852] "əl-Bəqərə", 172.
[853] "əl-Bəqərə", 178.
[854] "əl-Bəqərə", 183.
[855] "əl-Bəqərə", 208.
[856] "əl-Bəqərə", 254.

**8- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تُبْطِلُوا صَدَقاتِكُمْ بِالْمَنِّ وَالأَذى / 264.**

***"Ey iman gətirənlər! Sədəqələrinizi malını riyakarlıqla*** (özünü xalqa göstərmək üçün) ***sərf edən, Allaha və Axirət gününə inanmayan şəxs kimi, minnət qoymaq və əziyyət verməklə puça çıxarmayın. Belə şəxslərin halı, üzərində bir az torpaq olan qayaya bənzər ki, şiddətli bir yağış o torpağı*** (yuyub) ***aparar və qayanı çılpaq bir daş halına salar. Onlar qazandıqlarından bir şeyə qadir*** (nail) ***olmazlar. Şübhəsiz ki, Allah kafirləri haqq yoluna yönəltməz!";***[857]

**9- يا أَيُّهَا الَّذِينَ آمَنُوا أَنْفِقُوا مِنْ طَيِّباتِ ما كَسَبْتُمْ / 267.**

***"Ey iman gətirənlər! Qazandığınız və sizin üçün torpaqdan yetişdirdiyimiz şeylərin*** (ən pak, halal və) ***yaxşılarından*** (Allah yolunda) ***sərf edin! Ancaq göz yumaraq aldığınız pis, yaramaz şeylərdən vermək fikrində olmayın! Bilin ki, Allahın heç bir şeyə ehtiyacı yoxdur.*** (O, hər cür) ***şükrə*** (tərifə) ***layiqdir!";***[858]

**10- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ وَذَرُوا ما بَقِيَ مِنَ الرِّبا / 278.**

***"Ey möminlər! Əgər, doğrudan da, iman gətirmişsinizsə, Allahdan qorxub sələmdən qalan məbləğdən*** (faizdən) ***vaz keçin!*** (Onu borclulardan almayın!)***";***[859]

**11- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذا تَدايَنْتُمْ بِدَيْنٍ إِلى أَجَلٍ مُسَمًّى فَاكْتُبُوهُ / 282.**

***"Ey iman gətirənlər! Müəyyən müddətə bir-birinə borc verib aldıqda, onu yazın! Bunu*** (bu sənədi) ***aranızda bir nəfər katib ədalətlə yazsın! Katib gərək Allahın öyrətdiyi kimi yazmaqdan boyun qaçırmasın, yazsın! Borclu olan şəxs borcunu söyləyərək*** (deyə-deyə) ***yazdırsın və Rəbbi olan Allahdan qorxaraq ondan*** (borcdan) ***bir şey əskiltməsin. Əgər borclu ağılsız və zəifdirsə*** (qoca və ya uşaqdırsa)***, yaxud söyləməyə qadir deyilsə, o zaman gərək onun*** (əvəzinə) ***vəkili ədalətlə deyib*** (borcu) ***yazdırsın. Öz adamlarınızdan iki kişini də şahid tutun! Əgər iki kişi olmazsa, razı olduğunuz bir kişi ilə iki qadının şəhadəti kifayətdir. Əgər*** (qadınlardan) ***biri*** (şəhadəti) ***unudarsa, o birisi onun yadına salsın. Şahidlər*** (bu işə) ***dəvət olunduqları zaman boyun qaçırmasınlar. Az və ya çox olmasına baxmayaraq, borcu öz vaxtına qədər*** (nə müddətə verilmiş olduğunu) ***yazmağa ərinməyin! Sizin bu işiniz Allah yanında daha ədalətli, şahidlik üçün daha düzgün və şübhəyə düşməməniz üçün haqqa daha yaxındır.***

[857] "əl-Bəqərə", 264.
[858] "əl-Bəqərə", 267.
[859] "əl-Bəqərə", 278.

***Lakin aranızda həmişə dövr edən aşkar*** (nağd) ***ticarət zamanı onu yazmamağınız sizin üçün günah deyildir.*** (Hər halda) ***alış-veriş etdiyiniz vaxt şahid tutun! Ancaq katibə və şahidə zərər yetirilməsin. Əgər zərər yetirsəniz, əlbəttə, bu sizin üçün pis işdir. Allahdan qorxun! Allah*** (ehtiyacınız olan şeyləri) ***sizə öyrədir. Allah bütün işləri biləndir!”***;[860]

**12- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنْ تُطِيعُوا فَرِيقاً مِنَ الَّذِينَ أُوتُوا الْكِتابَ / 100.**

***“Ey möminlər! Əgər siz kitab əhli olanlardan bir dəstəyə*** (yəhudilərə) ***uyarsınızsa, onlar sizi iman gətirəndən sonra döndərib kafir edərlər”***;[861]

**13- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ حَقَّ تُقاتِهِ / 102.**

***“Ey iman gətirənlər! Allahdan layiqincə qorxun. Yalnız müsəlman olduğunuz halda*** (müsəlman kimi) ***ölün!”***;[862]

**14- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَتَّخِذُوا بِطانَةً مِنْ دُونِكُمْ / 118.**

***“Ey iman gətirənlər! Özündən başqasını özünüzə sirdaş*** (dost) ***tutmayın. Onlar sizin barənizdə fitnə-fəsad törətməkdən əl çəkməzlər, sizin*** *(zərərə və)* ***əziyyətə düşməyinizi istəyirlər. Həqiqətən, onların sizə qarşı olan ədavəti ağızlarından çıxan sözlərdən aşkar olur. Amma ürəklərində gizlətdikləri*** (düşmənçilik) ***isə daha böyükdür. Əgər düşünüb dərk edirsinizsə,*** (onların sizə bəslədikləri ədavət barəsindəki) ***ayələri artıq sizə izah etdik”***;[863]

**15- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَأْكُلُوا الرِّبَوا أَضْعافاً مُضاعَفَةً / 130.**

***“Ey iman gətirənlər! Sələmi*** (borc üzərinə qoyduğunuz faizi) ***qat-qat artırıb yeməyin. Allahdan qorxun ki, bəlkə, nicat tapasınız!”***;[864]

**16- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنْ تُطِيعُوا الَّذِينَ كَفَرُوا يَرُدُّوكُمْ / 149.**

***“Ey iman gətirənlər! Əgər kafirlərə itaət edəcək olsanız, onlar sizi geri*** (öz dinlərinə) ***döndərər və siz də zərər çəkmiş halda geri dönərsiniz”***;[865]

**17- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَكُونُوا كَالَّذِينَ كَفَرُوا / 156.**

***“Ey iman gətirənlər! Səfərə və ya müharibəyə getmiş*** (orada vəfat etmiş və ya öldürülmüş) ***qardaşları barəsində: “Əgər onlar bizim yanımızda olsaydılar, nə ölər, nə də öldürülərdilər” - deyən kafirlər kimi olmayın!***

---

[860] “əl-Bəqərə”, 282.
[861] “Ali-İmran”, 100.
[862] “Ali-İmran”, 102.
[863] “Ali-İmran”, 118.
[864] “Ali-İmran”, 130.
[865] “Ali-İmran”, 149.

***Allah bunu*** (bu əqidəni) ***onların ürəklərində bir həsrət*** (yarası) ***olsun deyə yaratdı. Halbuki, dirildən də, öldürən də Allahdır. Allah etdiyiniz əməlləri görəndir!"***;[866]

**18- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اصْبِرُوا وَصابِرُوا وَرابِطُوا / 200.**

***"Ey iman gətirənlər!*** (Dində vacib olan hökmləri yerinə yetirməyin zəhmətinə, düçar olduğunuz bəlalara) ***səbr edin,*** (Allahın düşmənlərinə qələbə çalmaq uğrundakı müharibə və döyüşlərdə sizə üz verən müsibət və çətinliklərə) ***dözün,*** (sərhəd boyu növbədə durub cihada) ***hazır olun və Allahdan qorxun ki, bəlkə, nicat tapasınız!"***;[867]

**19- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا يَحِلُّ لَكُمْ أَنْ تَرِثُوا النِّساءَ كَرْهاً / 19.**

***"Ey iman gətirənlər! Qadınlara zorla varis çıxmaq sizə halal deyildir!*** (Qadınlar) ***açıq-aşkar pis bir iş görməyincə, özlərinə verdiyiniz şeylərin*** (mehrin) ***bir hissəsini geri qaytarmaq məqsədilə onlara əziyyət verməyin. Onlarla gözəl*** (Allahın buyurduğu kimi) ***rəftar edin. Əgər onlara nifrət etsəniz*** (dözün)***. Ola bilsin ki, sizdə nifrət doğuran hər hansı bir şeydə Allah*** (sizdən ötrü) ***çoxlu xeyir nəzərdə tutmuş olsun"***;[868]

**20- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَأْكُلُوا أَمْوالَكُمْ بَيْنَكُمْ بِالْباطِلِ / 29.**

***"Ey iman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla, bir-birinizin mallarını haram yolla yeməyin və özünüzü öldürməyin! Həqiqətən, Allah sizə qarşı mərhəmətlidir!"***;[869]

**21- يا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللهَ وَأَطِيعُوا الرَّسُولَ / 59.**

***"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və Qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır"***;[870]

**22- يا أَيُّهَا الَّذِينَ آمَنُوا خُذُوا حِذْرَكُمْ فَانْفِرُوا ثُباتٍ / 71.**

***"Ey iman gətirənlər! Ehtiyatı əldən verməyib silahınızı götürün və*** (düşmənə qarşı cihada) ***ya dəstə-dəstə, ya da hamınız bir yerdə çıxın!"***;[871]

**23- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذا ضَرَبْتُمْ فِي سَبِيلِ اللهِ فَتَبَيَّنُوا / 94.**

---

[866] "Ali-İmran", 156.
[867] "Ali-İmran", 200.
[868] "ən-Nisa", 19.
[869] "ən-Nisa", 29.
[870] "ən-Nisa", 59.
[871] "ən-Nisa", 71.

***“Ey iman gətirənlər! Allah yolunda*** (cihad etmək üçün) ***səfərə çıxdığınız zaman diqqətli olun! Sizə müsəlman olduğunu bildirən*** (salam verən) ***bir kimsəyə dünya həyatının puç mənfəətinə tamahlanaraq: “Sən mömin deyilsən!” deməyin! Halbuki, çox qənimətlər Allah yanındadır. Siz özünüz də bundan əvvəl onlar kimi idiniz, lakin Allah sizə mərhəmət etdi. Elə isə, siz də*** (insanları bir-birindən fərqləndirməkdə) ***diqqətli olun! Şübhəsiz ki, Allah bütün etdiklərinizdən xəbərdardır!”***;[872]

**24- يا أَيُّهَا الَّذِينَ آمَنُوا كُونُوا قَوَّامِينَ بِالْقِسْطِ شُهَداءَ لِلّهِ / 135.**

***“Ey iman gətirənlər!*** (Şahidliyiniz) ***sizin özünüzün, ata-ananızın, yaxın qohumlarınızın əleyhinə olsa belə, ədalətdən möhkəm yapışan Allah şahidi olun!*** (Əleyhinə şahidlik edəcəyiniz şəxs) ***istər dövlətli, istər kasıb olsun, hər halda Allah onların hər ikisinə*** (sizdən) ***daha yaxındır. Nəfsinizin istəyinə uyub haqdan üz çevirməyin! Əgər dilinizi əyib büzsəniz və ya*** (doğru şəhadət verməkdən, yaxud ümumən şahidlikdən) ***boyun qaçırsanız,*** (bilin ki) ***Allah etdiyiniz işlərdən xəbərdardır!”***;[873]

**25- يا أَيُّهَا الَّذِينَ آمَنُوا آمِنُوا بِاللهِ وَرَسُولِهِ / 136.**

***“Ey iman gətirənlər! Allaha və Peyğəmbərinə, Onun Öz Peyğəmbərinə endirdiyi Kitaba*** (Qurana) ***və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin! Allaha, onun mələklərinə, kitablarına, peyğəmbərlərinə və Axirət gününə inanmayan şəxs, şübhəsiz ki,*** (doğru yoldan) ***çox azmışdır”***;[874]

**26- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَتَّخِذُوا الْكافِرِينَ أَوْلِياءَ / 144.**

***“Ey iman gətirənlər! Möminləri qoyub kafirləri dost tutmayın! Məgər Allaha öz əleyhinizə açıq bir dəlilmi vermək istəyirsiniz?”***;[875]

**27- يا أَيُّهَا الَّذِينَ آمَنُوا أَوْفُوا بِالْعُقُودِ / 1.**

***“Ey iman gətirənlər! Əhdlərə sadiq olun. İhramda olarkən ov sizə qadağan edilməklə,*** (aşağıda) ***adları çəkiləcək heyvanlar müstəsna olaraq, qalanları sizə halal edildi. Şübhəsiz ki, Allah istədiyini hökm edər!”***;[876]

**28- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تُحِلُّوا شَعائِرَ اللهِ / 2.**

***“Ey iman gətirənlər! Allahın müəyyən etdiyi mərasimə*** (Həcc mərasiminə), ***haram*** (hörmətli) ***aya*** (Həcc ayı hesab edilən Zülhiccəyə və ya

[872] “ən-Nisa”, 94.
[873] “ən-Nisa”, 135.
[874] “ən-Nisa”, 136.
[875] “ən-Nisa”, 144.
[876] “əl-Maidə”, 1.

Rəcəb, Zülqədə, Zülhiccə və Məhərrəm aylarına), (Kəbəyə gətirilən) ***qurbanlara, boynuna nişan taxılmış qurbanlıq heyvanlara, həmçinin Rəbbinin lütfünü və razılığını diləyərək Beytülhərama*** (müqəddəs evə) ***üz tutub*** (ziyarətə) ***gələnlərə hörmətsizlik etməyin!*** (Onlara qarşı nalayiq işlər görməyi özünüzə halal (rəva) bilməyin!) ***İhramdan çıxdığınız zaman*** (istəsəniz) ***ov edin.*** (Vaxtilə) ***sizi Məscidülhərama daxil olmağa qoymayan camaata qarşı bəslədiyiniz kin sizi təcavüzə sövq etməsin*** (zülm və haqsızlıq günahına batırmasın)***. Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun, günah iş görməkdə və düşmənçilik etməkdə bir-birinizə kömək göstərməyin. Allahdan qorxun. Həqiqətən, Allahın əzabı şiddətlidir!”***;[877]

**29- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذا قُمْتُمْ إِلَى الصَّلاةِ فَاغْسِلُوا وُجُوهَكُمْ / 6.**

***“Ey iman gətirənlər! Namaza durduğunuz zaman üzünüzü və dirsəklərlə birlikdə*** (dirsəklərdən və ya dirsəklərə qədər) ***əllərinizi yuyun.*** (Yaş əlinizlə) ***başınızı və hər iki bəndə*** (oynağa) ***qədər ayaqlarınızı məsh edin*** (və ya: başınızı məsh edin, ayaqlarınızı isə hər iki topuğa qədər yuyun)***. Əgər cünub*** (murdar) ***olmusunuzsa, qüsl edin*** (bədəninizi başdan ayağa qədər yuyub təmizləyin). ***Xəstələndiyiniz, səfərdə olduğunuz, ayaq yolundan gəldiyiniz və ya qadınlarla yaxınlıq etdiyiniz zaman su tapmasanız, pak torpaqla təyəmmüm edin, ondan üzünüzə və əllərinizə sürtün*** (paklığı niyyət edib əllərinizi bir dəfə torpağa sürtərək üzünüzü, bir dəfə də torpağa sürtərək əllərinizi məsh edin)***. Allah sizi çətinliyə salmaq istəməz, lakin O sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq (artırmaq) istər ki, bəlkə, şükür edəsiniz!”***;[878]

**30- يا أَيُّهَا الَّذِينَ آمَنُوا كُونُوا قَوَّامِينَ للهِ شُهَداءَ بِالْقِسْطِ / 8.**

***“Ey iman gətirənlər! Allah qarşısında*** (borcunuzu yerinə yetirməkdə) ***sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır. Allahdan qorxun. Allah etdiklərinizdən xəbərdardır!”***;[879]

**31- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اذْكُرُوا نِعْمَةَ اللهِ عَلَيْكُمْ / 11.**

***“Ey iman gətirənlər! Allahın sizə olan lütfünü xatırlayın ki,*** (bir dəfə) ***bir tayfa*** (Məkkə müşrikləri və ya Bəni-Sələb qəbiləsi) ***sizə əl qaldırmaq*** (hücum etmək) ***niyyətində olduğu zaman Allah onlara maneçilik törətmişdi. Allahdan qorxun. Möminlər yalnız Allaha təvəkkül etsinlər!”***;[880]

---

[877] “əl-Maidə”, 2.
[878] “əl-Maidə”, 6.
[879] “əl-Maidə”, 8.
[880] “əl-Maidə”, 11.

**32- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ وَابْتَغُوا إِلَيْهِ الْوَسِيلَةَ / 35.**

***“Ey iman gətirənlər! Allahdan qorxun, Ona*** (Onun rəhmətinə və lütfünə qovuşmaq üçün) ***vəsilə*** (yol) ***axtarın.*** (Allah) ***yolunda cihad edin ki, nicat tapasınız!”***;[881]

**33- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَتَّخِذُوا الْيَهُودَ وَالنَّصارى أَوْلِياءَ / 51.**

***“Ey iman gətirənlər! Yəhudi və xaçpərəstləri*** (özünüzə) ***dost tutmayın! Onlar bir-birinin dostudurlar. Sizdən kim onlarla dostluq edərsə, o da onlardandır. Allah zalım tayfanı düz yola yönəltməz!”***;[882]

**34- يا أَيُّهَا الَّذِينَ آمَنُوا مَنْ يَرْتَدَّ مِنْكُمْ عَنْ دِينِهِ / 54.**

***“Ey iman gətirənlər! Sizdən hər kəs dinindən dönsə,*** (bilsin ki) ***Allah*** (onun yerinə) ***elə bir tayfa gətirər ki,*** (Allah) ***onları, onlar da*** (Allahı) ***sevərlər. Onlar möminlərə qarşı mülayim, kafirlərə qarşı isə sərt olar, Allah yolunda vuruşar və heç kəsin tənəsindən qorxmazlar. Bu, Allahın lütfüdür, onu istədiyinə verər. Allah*** (öz lütfü ilə) ***genişdir,*** (O, hər şeyi) ***biləndir!”***;[883]

**35- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَتَّخِذُوا الَّذِينَ اتَّخَذُوا دِينَكُمْ هُزُواً / 57.**

***“Ey iman gətirənlər! Sizdən əvvəl kitab verilmiş olanlardan dininizi oyun-oyuncaq hesab edənləri və kafirləri özünüzə dost tutmayın. Əgər möminsinizsə Allahdan qorxun!”***;[884]

**36- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تُحَرِّمُوا طَيِّباتِ ما أَحَلَّ اللهُ لَكُمْ / 87.**

***“Ey iman gətirənlər! Allahın sizə halal buyurduğu pak nemətləri*** (özünüzə) ***haram etməyin və həddi aşmayın. Doğrudan da, Allah həddi aşanları sevməz!”***;[885]

**37- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنَّمَا الْخَمْرُ وَالْمَيْسِرُ وَالأَنْصابُ وَالأَزْلامُ رِجْسٌ / 90.**

***“Ey iman gətirənlər! Şərab da*** (içki də)***, qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız!”***;[886]

**38- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لَيَبْلُوَنَّكُمُ اللهُ بِشَيْءٍ مِنَ الصَّيْدِ / 94.**

***“Ey iman gətirənlər! Allah Özünü görmədən*** (gizlində) ***Ondan qorxanları ayırd etmək*** (xalqa bildirmək) ***üçün sizi*** (ihramda ikən) ***əllərinizin***

[881] “əl-Maidə”, 35.
[882] “əl-Maidə”, 51.
[883] “əl-Maidə”, 54.
[884] “əl-Maidə”, 57.
[885] “əl-Maidə”, 87.
[886] “əl-Maidə”, 90.

***və mizraqlarınızın çata biləcəyi*** (azacıq) ***bir ovla imtahan edəcəkdir. Bundan sonra həddi aşanı*** (ov edəni) ***şiddətli bir əzab gözləyir!"***;[887]

**39- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَقْتُلُوا الصَّيْدَ وَأَنْتُمْ حُرُمٌ / 95.**

***"Ey iman gətirənlər! İhramda olarkən ovu*** (əti yeyilən heyvanları) ***öldürməyin. Sizdən ovu qəsdən öldürən hər bir kəsin boynuna cəza və ya kəffarə düşür. Onun cəzası içərinizdən olan iki ədalətli şəxsin hökmü ilə öldürdüyünə bənzər*** (onun qiymətinə bərabər) ***bir heyvanı Kəbəyə çatası*** (Kəbənin yaxınlığında kəsilib oradakı yoxsullara paylanacaq) ***qurban etmək, kəffarəsi isə, gördüyü işin zərərini, acısını dadsın deyə,*** (öldürdüyü heyvanın dəyəri müqabilində) ***yoxsullara yedirtmək, yaxud ona bərabər*** (hərəsi üçün bir gün olmaq şərtilə yedirəcəyi yoxsulların sayı qədər) ***oruc tutmaqdır. Allah keçmişdə olanları bağışlamışdır. Hər kəs bundan sonra belə bir iş görsə, Allah ondan intiqam alar. Allah yenilməz qüvvət sahibi, intiqam sahibidir!"***;[888]

**40- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَسْئَلُوا عَنْ أَشْياءَ / 101.**

***"Ey iman gətirənlər! Sizə bəlli olunca qanınızı qaraldacaq şeylər barəsində soruşmayın. Əgər onlar haqqında Quran nazil edildikdə soruşsanız, onlar sizə aydın olar.*** (Lakin pis vəziyyətdə qalar və kədərlənərsiniz)***. Allah onları*** (indiyə qədər verdiyiniz bu cür sualları) ***bağışladı. Allah bağışlayandır, həlimdir!*** (Bəndələrinə əzab verməkdə tələsən deyildir!)***"***;[889]

**41- يا أَيُّهَا الَّذِينَ آمَنُوا عَلَيْكُمْ أَنْفُسَكُمْ لا يَضُرُّكُمْ مَنْ ضَلَّ / 105.**

***Ey iman gətirənlər! Nəfslərinizi qorumaq sizin borcunuzdur. Siz doğru yolda olsanız,*** (haqq yoldan) ***azanlar sizə heç bir zərər yetirə bilməzlər. Hamınızın axır dönüşü Allahadır. Allah etdiyiniz əməllər barəsində sizə xəbər verəcəkdir!"***;[890]

**42- يا أَيُّهَا الَّذِينَ آمَنُوا شَهادَةُ بَيْنِكُمْ إِذا حَضَرَ أَحَدَكُمُ الْمَوْتُ / 106.**

***"Ey iman gətirənlər! Sizlərdən hər hansı birinizi ölüm haqladıqda vəsiyyət vaxtı aranızdan iki ədalətli şəxsi, səfərdə olduğunuz zaman başınıza ölüm müsibəti gəldikdə isə özünüzdən*** (müsəlman) ***olmayan iki nəfəri şahid tutun. Əgər*** (bu qeyri-müsəlman şahidlərin doğruluğuna) ***şübhə etsəniz, namazdan*** (əsr, ikindi namazından) ***sonra hər ikisini tutub sax-***

[887] "əl-Maidə", 94.
[888] "əl-Maidə", 95.
[889] "əl-Maidə", 101.
[890] "əl-Maidə", 105.

***layın və onları: "Andımızı qohumlarımıza belə, heç bir qiymətə satmarıq*** (qohumlarımızın lehinə belə yalandan şəhadət verməriк) ***və Allahın şahidliyini gizlətmərik. Yoxsa, şübhəsiz ki, günahkarlardan olarıq" - deyə Allaha and içdirin!";***[891]

**43- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذا لَقِيتُمُ الَّذِينَ كَفَرُوا زَحْفاً / 15.**

***"Ey iman gətirənlər! Kafirlərin bir yerə toplaşdıqları vaxt rastlaşsanız, dönüb onlardan qaçmayın!";***[892]

**44- يا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللهَ وَرَسُولَهُ وَلا تَوَلَّوْا عَنْهُ / 20.**

***"Ey iman gətirənlər! Allaha və Onun Peyğəmbərinə itaət edin,*** (Quranı, oradakı öyüd-nəsihətləri) ***eşitdiyiniz halda, ondan üz döndərməyin!";***[893]

**45- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اسْتَجِيبُوا لِلّهِ وَلِلرَّسُولِ إِذا دَعاكُمْ / 24.**

***"Ey iman gətirənlər! Peyğəmbər sizi, sizləri dirildəcək bir şeyə*** (imana, haqqa) ***dəvət etdiyi zaman Allahın və Onun Peyğəmbərinin dəvətini qəbul edin. Bilin ki, Allah insanla onun qəlbi arasına girər*** (insanın bütün varlığına hakim olar; Allah ürəklərdən keçən hər şeyi bilir, bütün ürəklərin ixtiyarı da Onun əlindədir) ***və siz axırda Onun hüzuruna cəm ediləcəksiniz!";***[894]

**46- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَخُونُوا اللهَ وَالرَّسُولَ / 27.**

***"Ey iman gətirənlər! Bilə-bilə Allaha, Peyğəmbərə və aranızdakı əmanətlərə xəyanət etməyin!*** (Allahın əmrlərinə, Peyğəmbərin şəriətinə, dini vəzifələrinizə və borclarınıza sadiq olun!)***";***[895]

**47- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنْ تَتَّقُوا اللهَ يَجْعَلْ لَكُمْ فُرْقاناً / 29.**

***"Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız, O sizə haqla-nahaqqı ayırd edən*** (bir nur) ***verər*** (dünyada və Axirətdə çıxış yolu göstərər)***, günahlarınızın üstünü örtüb sizi bağışlayar. Allah böyük lütf*** (mərhəmət) ***sahibidir!";***[896]

**48- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذا لَقِيتُمْ فِئَةً فَاثْبُتُوا / 45.**

***"Ey iman gətirənlər! Bir dəstə*** (kafir dəstəsi) ***ilə üz-üzə gəldikdə möhkəm olun və Allahı çox yada salın ki, nicat tapasınız!";***[897]

---

[891] "əl-Maidə", 106.
[892] "əl-Ənfal", 15.
[893] "əl-Ənfal", 20.
[894] "əl-Ənfal", 24.
[895] "əl-Ənfal", 27.
[896] "əl-Ənfal", 29.
[897] "əl-Ənfal", 45.

**49- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَتَّخِذُوا آباءَكُمْ وَإِخْوانَكُمْ أَوْلِياءَ / 23.**

***"Ey iman gətirənlər! Əgər atalarınız və qardaşlarınız küfrü imandan üstün tuturlarsa, onları özünüzə dost bilməyin. Sizdən onları dost tutanlar özlərinə zülm etmiş olarlar"***;[898]

**50- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنَّمَا الْمُشْرِكُونَ نَجَسٌ / 28.**

***"Ey iman gətirənlər! Müşriklər*** (batinləri xəbis, etiqadları puç və iyrənc olduğuna, su başına çıxdıqdan sonra yuyunmadıqlarına, dəstəmaz almadıqlarına və cənabət qüslü etmədiklərinə görə)***, doğrudan da, murdardırlar. Özlərinin bu ilindən*** (hicrətin doqquzuncu ilindən) ***sonra Məscidülhərama yaxınlaşmasınlar. Əgər yoxsulluqdan*** (ehtiyacdan) ***qorxursunuzsa,*** (bilin ki) ***əgər Allah istəsə, öz nemətindən*** (verib) ***sizi mütləq dövlətli edəcəkdir. Allah*** (hər şeyi) ***bilәndir, hikmət sahibidir!"***;[899]

**51- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنَّ كَثِيراً مِنَ الأَحْبارِ وَالرُّهْبانِ / 34.**

***"Ey iman gətirənlər!*** (Yəhudi) ***alimlərdən və*** (xaçpərəst) ***rahiblərdən çoxu insanların mallarını haqsızlıqla yeyir və*** (onları) ***Allah yolundan döndərirlər.*** (Ya Rəsulum!) ***Qızıl-gümüş yığıb onu Allah yolunda xərcləməyənləri şiddətli bir əzabla müjdələ!"***;[900]

**52- يا أَيُّهَا الَّذِينَ آمَنُوا ما لَكُمْ إِذا قِيلَ لَكُمُ انْفِرُوا / 38.**

***"Ey iman gətirənlər! Sizə nə oldu ki, "Allah yolunda döyüşə çıxın!" - deyildikdə yerə yapışıb qaldınız. Yoxsa Axirətdən vaz keçib dünya həyatına razı oldunuz? Halbuki, dünya malı Axirət yanında*** (Axirətlə müqayisədə) ***yalnız cüzi bir şeydir!"***;[901]

**53- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ وَكُونُوا مَعَ الصَّادِقِينَ / 119.**

***"Ey iman gətirənlər! Allahdan qorxun və*** (imanında, sözündə, işində) ***doğru olanlarla olun!*** (Peyğəmbər və onun sadiq əshabələri ilə birlikdə olun!)*"*;[902]

**54- يا أَيُّهَا الَّذِينَ آمَنُوا قاتِلُوا الَّذِينَ يَلُونَكُمْ مِنَ الْكُفَّارِ / 123.**

***"Ey iman gətirənlər! Yaxınlığınızda olan kafirlərlə vuruşun. Qoy onlar sizdən*** (özlərinə qarşı) ***sərtlik görsünlər. Bilin ki, Allah müttəqilərlədir!"***;[903]

---

[898] "ət-Tövbə", 23.
[899] "ət-Tövbə", 28.
[900] "ət-Tövbə", 34.
[901] "ət-Tövbə", 38.
[902] "ət-Tövbə", 119.
[903] "ət-Tövbə", 123.

**55- يا أَيُّهَا الَّذِينَ آمَنُوا ارْكَعُوا وَاسْجُدُوا وَاعْبُدُوا رَبَّكُمْ / 77.**

***"Ey iman gətirənlər!*** (Namaz qıldıqda) ***rüku edin, səcdəyə qapanın; Rəbbinizə ibadət edin və yaxşı işlər görün ki, nicat tapasınız!*** (Mətləbinizə yetişəsiniz!)***";***[904]

**56- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَتَّبِعُوا خُطُواتِ الشَّيْطانِ / 21.**

***"Ey iman gətirənlər! Şeytanın yolunu tutub getməyin! Kim Şeytanın getdiyi yolla getsə, o,*** (insanlara) ***çirkin, pis işlər görməyi*** (zina etməyi, yalan danışmağı, özgələrə böhtan atmağı) ***əmr edər. Əgər Allahın sizə neməti və mərhəməti olmasaydı, sizdən heç kəs heç vaxt*** (günahdan) ***pak olmazdı. Lakin Allah dilədiyini*** (günahdan) ***pak edər. Allah*** (hər şeyi) ***eşidəndir, biləndir!";***[905]

**57- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَدْخُلُوا بُيُوتاً غَيْرَ بُيُوتِكُمْ / 27.**

***"Ey iman gətirənlər! Başqalarının evlərinə*** (sizin olmayan evlərə) ***sahiblərindən icazə almadan və onlara salam vermədən girməyin. Bu,*** (ədəb-ərkan baxımından) ***sizin üçün daha yaxşıdır. Bəlkə,*** (Allahın bu əmrinin hikmətini) ***düşünüb anlayasınız*** (və həmişə yadda saxlayıb ona əməl edəsiniz)***";***[906]

**58- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لِيَسْتَأْذِنْكُمُ الَّذِينَ مَلَكَتْ أَيْمانُكُمْ / 58.**

***"Ey iman gətirənlər! Sahib olduqlarınız*** (kölə və kənizlər)***, həddi-buluğa çatmayanlar*** (yanınıza daxil olmaq istədikdə) ***bu üç vaxtda sizdən icazə alsınlar: sübh namazından əvvəl, günorta*** (yatıb dincəlmək, istirahət etmək üçün) ***paltarınızı çıxartdığınız zaman və gecə namazından sonra.*** (Bu vaxtlar insan paltarını çıxarda bilər, zövcəsi ilə bir yerdə uzanıb ixtilaf edə bilər və i. a.) ***bu üç vaxt sizin üçün xəlvət vaxtdır*** (paltarsız ola bilərsiniz)***. Qalan vaxtlarda bir-birinizin yanına*** (icazəsiz) ***girib-çıxmaqda sizə də, onlara da heç bir günah yoxdur. Allah ayələri sizə belə izah edir. Allah*** (hər şeyi) ***biləndir, hikmət sahibidir!";***[907]

**59- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اذْكُرُوا نِعْمَةَ اللهِ عَلَيْكُمْ / 9.**

***"Ey iman gətirənlər!*** (Xəndək, yaxud Əhzab vuruşunda Qüreyş, Qətəfan və yəhudilərin Bəni-Nəzir qəbilələrindən təşkil olunmuş) ***ordular sizin üstünüzə gəldiyi zaman Allahın sizə olan nemətini yada salın. O vaxt Biz***

[904] "əl-Həcc", 77.
[905] "ən-Nur", 21.
[906] "ən-Nur", 27.
[907] "ən-Nur", 58.

***onların üstünə külək və sizin görmədiyiniz*** (mələklərdən ibarət) ***qoşun göndərmişdik. Allah o zaman sizin nə etdiyinizi görürdü”***;[908]

**60- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اذْكُرُوا اللهَ ذِكْراً كَثِيراً / 41.**

***“Ey iman gətirənlər! Allahı çox zikr edin!”***;[909]

**61- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذا نَكَحْتُمُ الْمُؤْمِناتِ ثُمَّ طَلَّقْتُمُوهُنَّ / 49.**

***“Ey iman gətirənlər! Əgər mömin qadınlarla evlənib onlara toxunmadan əvvəl talaqlarını versəniz, artıq onlar üçün sizə gözləmə müddəti saymağa ehtiyac yoxdur.*** (Onları evlərinizdə saxlayıb gözləmə müddətini başa vurmağa məcbur etməyin. Aranızda yaxınlıq olmadığı üçün nə vaxt istəsələr, o vaxt da başqasına ərə gedə bilərlər)***. Belə olduqda onlara bir şey*** (mehrin yarısını və ya bir az mal) ***verib gözəl tərzdə sərbəst buraxın!”***;[910]

**62- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَدْخُلُوا بُيُوتَ النَّبِيِّ / 53.**

***“Ey iman gətirənlər! Peyğəmbərin evlərinə sizə yeməyə icazə verilmədən*** (yeməyə dəvət olunmadan) ***girib onun bişməsini gözləməyin. Lakin dəvət olunduqda gedin və*** (yeməyinizi) ***yedikdən sonra*** (orada bir-birinizlə) ***söhbətə qapılmayıb dağılın. Bu*** (sizin çox oturmağınız)***, Peyğəmbərə əziyyət verir, amma o sizdən*** (bunu sizə deməkdən) ***utanırdı. Lakin Allah doğru sözdən çəkinməz. Onlardan*** (Peyğəmbərin zövcələrindən) ***bir şey soruşduqda, pərdə arxasından soruşun*** (evlərinə daxil olmayın)***. Bu, həm sizin, həm də onların ürəklərinə daha çox təmizlik bəxş edər. Sizə Allahın Peyğəmbərini incitmək, özündən sonra onun zövcələri ilə evlənmək əsla yaraşmaz. Həqiqətən, bu, Allah yanında böyük günahdır!”***;[911]

**63- يا أَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيماً / 56.**

***“...Ey iman gətirənlər! Siz də ona salavat deyib layiqincə salamlayın!*** (Allahümmə səlli əla Muhəmmədin və ali Muhəmməd; əssəlamu əleykə əyyuhənnəbi və rəhmətullahi və bərəkətuhu - deyin!)***”***;[912]

**64- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَكُونُوا كَالَّذِينَ آذَوْا مُوسى / 69.**

***“Ey iman gətirənlər! Musaya əziyyət verən kəslər kimi olmayın. Allah*** (Musanı) ***onların dediklərindən*** (böhtanlarından) ***təmizə çıxartdı. O, Allah yanında çox hörmətli*** (qədir-qiymətli) ***idi”***;[913]

---

[908] “əl-Əhzab”, 9.
[909] “əl-Əhzab”, 41.
[910] “əl-Əhzab”, 49.
[911] “əl-Əhzab”, 53.
[912] “əl-Əhzab”, 56.
[913] “əl-Əhzab”, 69.

**65- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ وَقُولُوا قَوْلاً سَدِيداً / 70.**

***"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!"***;[914]

**66- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنْ تَنْصُرُوا اللهَ يَنْصُرْكُمْ / 7.**

***"Ey iman gətirənlər! Əgər siz Allaha*** (Allahın dininə və Peyğəmbərinə) ***yardım göstərsəniz, O da sizə yardım göstərər və sizi sabitqədəm*** (cihadda möhkəm, qüvvətli) ***edər"***;[915]

**67- يا أَيُّهَا الَّذِينَ آمَنُوا أَطِيعُوا اللهَ وَأَطِيعُوا الرَّسُولَ / 33.**

***"Ey iman gətirənlər! Allaha itaət edin, Peyğəmbərə itaət edin və*** (şəkk-şübhə, riya, küfr və nifaq kimi şeylərlə) ***əməllərinizi puça çıxartmayın!"***;[916]

**68- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تُقَدِّمُوا بَيْنَ يَدَيِ اللهِ وَرَسُولِهِ / 1.**

***"Ey iman gətirənlər!*** (Sözləriniz, iş və hərəkətlərinizdə) ***Allahdan və Peyğəmbərindən önə keçməyin. Allahdan qorxun. Həqiqətən, Allah*** (hər şeyi) ***eşidəndir,*** (hər şeyi) ***biləndir!"***;[917]

**69- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَرْفَعُوا أَصْواتَكُمْ فَوْقَ صَوْتِ النَّبِيِّ / 2.**

***"Ey iman gətirənlər! Səsinizi Peyğəmbərin səsindən artıq qaldırmayın və bir-birinizlə ucadan danışdığınız kimi onunla ucadan danışmayın! Yoxsa, özünüz də bilmədən, əməlləriniz puç olar"***;[918]

**70- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنْ جاءَكُمْ فاسِقٌ بِنَبَإٍ فَتَبَيَّنُوا / 6.**

***"Ey iman gətirənlər! Əgər bir fasiq sizə*** (pis) ***bir xəbər gətirsə, dərhal*** (onun doğruluğunu) ***yoxlayın, yoxsa bilmədən bir qövmə pislik edər, sonra da etdiyinizə peşman olarsınız!"***;[919]

**71- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا يَسْخَرْ قَوْمٌ مِنْ قَوْمٍ / 11.**

***"Ey iman gətirənlər! Bir qövm digərini lağa qoymasın. Ola bilsin ki, onlar*** (lağa qoyulanlar) ***o birilərindən*** (lağa qoyanlardan Allah yanında) ***daha yaxşı olsunlar. Qadınlar da bir-birinə*** (rişxənd eləməsinlər)***. Bəlkə, onlar*** (rişxənd olunanlar) ***o birilərindən*** (rişxənd edənlərdən) ***daha yaxşıdırlar. Bir-birinizə tənə etməyin*** (ayıb tutmayın) ***və bir-birinizi pis ləqəblərlə*** (ey

[914] "əl-Əhzab", 70.
[915] "Muhəmməd", 7.
[916] "Muhəmməd", 33.
[917] "əl-Hucurat", 1.
[918] "əl-Hucurat", 2.
[919] "əl-Hucurat", 6.

kafir, ey fasiq, ey münafiq və i. a.) ***çağırmayın. İman gətirdikdən sonra fasiq adını qazanmaq necə də pisdir. Məhz tövbə etməyənlər zalımlardır!*** (Özlərinə zülm edənlərdir!)***”;***[920]

**72- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اجْتَنِبُوا كَثِيراً مِنَ الظَّنِّ / 12.**

***“Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi*** (heç bir əsası olmayan zənn) ***günahdır.*** (Bir-birinizin eybini, sirrini) ***arayıb axtarmayın, bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar*** (qeybət də belədir)***. Allahdan qorxun. Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir!”;***[921]

**73- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ وَآمِنُوا بِرَسُولِهِ / 28.**

***“Ey iman gətirənlər! Allahdan qorxun və Onun Peyğəmbərinə iman gətirin ki,*** (Allah) ***sizə Öz mərhəmətindən iki pay versin, sizə*** (qıl körpüsü üstündə) ***getməyiniz üçün nur bəxş etsin və sizi bağışlasın. Allah bağışlayandır, rəhm edəndir!”;***[922]

**74- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذا تَناجَيْتُمْ فَلا تَتَناجَوْا بِالإِثْمِ / 9.**

***“Ey iman gətirənlər! Bir-birinizlə xəlvət danışdığınız zaman günah, düşmənçilik və Peyğəmbərin əleyhinə çıxmaq barədə danışmayın; yaxşı işlər, Allahdan qorxmaq barədə danışın və*** (Qiyamət günü) ***hüzuruna toplanacağınız Allahdan qorxun!”;***[923]

**75- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذا قِيلَ لَكُمْ تَفَسَّحُوا فِي الْمَجالِسِ فَافْسَحُوا / 11.**

***“Ey iman gətirənlər! Sizə: “Məclislərdə*** (mömin qardaşlarınıza) ***yer verin!” - deyildiyi zaman*** (onlara) ***yer verin ki, Allah da sizə*** (Cənnətdə) ***geniş yer versin. Eləcə də sizə: “Qalxın!” deyildikdə qalxın ki, Allah da sizdən iman gətirənlərin və*** (xüsusilə) ***elm bəxş edilmiş kimsələrin dərəcələrini ucaltsın. Allah etdiyiniz əməllərdən xəbərdardır!”;***[924]

**76- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذا ناجَيْتُمُ الرَّسُولَ فَقَدِّمُوا / 12.**

***“Ey iman gətirənlər! Peyğəmbərlə*** (hər hansı bir iş barəsində) ***məxfi danışacağınız zaman bu danışıqdan əvvəl*** (ona hörmət əlaməti olaraq yoxsullara) ***sədəqə verin. Bu*** (əməl) ***sizin üçün*** (Allah yanında) ***daha xeyirli,***

---

[920] “əl-Hucurat”, 11.
[921] “əl-Hucurat”, 12.
[922] “əl-Hədid”, 28.
[923] “əl-Mücadələ”, 9.
[924] “əl-Mücadələ”, 11.

***daha pakdır. Əgər*** (sədəqə verməyə) ***bir şey tapmasanız*** (ürəyinizi qısmayın)***. Çünki, Allah bağışlayandır, rəhm edəndir!"***;[925]

**77- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ وَلْتَنْظُرْ نَفْسٌ ما قَدَّمَتْ لِغَدٍ / 18.**

***"Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabah üçün nə etdiyinə*** (Axirət üçün özünə nə hazırladığına) ***nəzər salsın. Allahdan qorxun. Həqiqətən, Allah etdiklərinizdən xəbərdardır!"***;[926]

**78- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَتَّخِذُوا عَدُوِّي وَعَدُوَّكُمْ أَوْلِياءَ / 1.**

***"Ey iman gətirənlər! Nə mənim düşmənimi, nə də özünüzün düşmənini dost*** (vəli) ***tutun! Onlar*** (kafirlər) ***sizə gələn haqqı*** (Quranı, Məhəmməd əleyhissəlamı) ***inkar etdikləri halda, siz onlarla dostluq edirsiniz*** (mehribanlıq göstərirsiniz)***. Siz Rəbbiniz olan Allaha iman gətirdiyiniz üçün onlar Peyğəmbəri və sizi*** (Məkkədən) ***çıxardırdılar. Əgər siz Mənim yolumda və Mənim rizamı qazanmaq uğrunda cihada çıxmısınızsa*** (Mənim düşmənlərimi dost tutmayın)***. Siz onlarla gizlində dostluq edirsiniz*** (dostluq üzündən onlara sirr verirsiniz)***. Mən sizin gizli saxladığınız və aşkar etdiyiniz hər şeyi*** (bütün gizli və aşkar əməllərinizi) ***bilirəm. Sizdən kim*** (bir daha) ***bunu etsə*** (düşmənlərlə dostluq edib onlara sirr versə)***, o, şübhəsiz ki, haqq yoldan azmışdır!"***;[927]

**79- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذا جاءَكُمُ الْمُؤْمِناتُ مُهاجِراتٍ فَامْتَحِنُوهُنَّ / 10.**

***"Ey iman gətirənlər! Mömin qadınlar sizin yanınıza mühacir kimi gəldikləri zaman onları imtahana çəkin. Allah onların imanını çox gözəl bilir*** (onları yoxlayıb bilmək sizə lazımdır)***. Əgər bunların*** (bu qadınların həqiqi) ***mömin olduqlarını bilsəniz, artıq onları kafirlərin yanına qaytarmayın. Nə bunlar*** (bu qadınlar) ***onlara*** (kafirlərə)***, nə də onlar bunlara halaldır. Onların*** (kafirlərin həmin qadınlara) ***xərclədiklərini*** (mehri) ***özlərinə qaytarıb verin. Bunların*** (bu qadınların) ***mehrlərini özlərinə verdiyiniz təqdirdə onlarla evlənməyinizdən sizə heç bir günah gəlməz. Kafir qadınları öz kəbininiz altında saxlamayın.*** (Həmin qadınlara) ***verdiyiniz mehri*** (onların ərə getdiyi kafirlərdən) ***istəyin.*** (Kafirlər də islamı qəbul edib möminlərlə evlənən qadınlara) ***sərf etdikləri mehri*** (sizdən) ***istəsinlər. Allahın hökmü budur. O sizin aranızda*** (belə) ***hökm edər. Allah*** (hər şeyi) ***biləndir, hikmət sahibidir!"***;[928]

[925] "əl-Mücadələ",12.
[926] "əl-Həşr", 18.
[927] "əl-Mumtəhinə", 1.
[928] "əl-Mumtəhinə", 10.

**80- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تَتَوَلَّوْا قَوْماً غَضِبَ اللهُ عَلَيْهِمْ / 13.**

***"Ey iman gətirənlər! Allahın qəzəbinə düçar olmuş bir qövmlə dostluq etməyin. Kafirlər qəbiristan əhlindən*** (ölülərin Qiyamət günü diriləcəyindən) ***ümidlərini üzdükləri kimi, onlar da axirətdən*** (Axirətdə Allahın mərhəmətindən) ***ümidlərini üzmüşlər!"***;[929]

**81- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لِمَ تَقُولُونَ ما لا تَفْعَلُونَ / 2.**

***"Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz?*** (Bəzi müsəlmanlar: "Hansı əməllərin Allaha daha xoş getdiyini bilsəydik, onları edər, malımızı və canımızı onların yolunda qoyardıq!" - deyirdilər. Lakin cihad əmri nazil olduqda bu, bir çox möminlərin xoşuna gəlmədi)***"***;[930]

**82- يا أيها الذين آمنوا هل أدلكم على تجارة تنجيكم من عذاب أليم / 10.**

***"Ey iman gətirənlər! Sizə elə bir ticarət*** (qazanc yolu) ***göstərimmi ki, o sizi şiddətli əzabdan xilas etsin?"***;[931]

**83- يا أَيُّهَا الَّذِينَ آمَنُوا كُونُوا أَنْصارَ اللهِ كَما قالَ عِيسَى ابْنُ مَرْيَمَ / 14.**

***"Ey iman gətirənlər! Allahın*** (dininin və Peyğəmbərinin) ***köməkçiləri olun! Necə ki, Məryəm oğlu İsa həvarilərə: "Allah yolunda mənim köməkçilərim kimdir?" - demiş, həvarilər də: "Allahın köməkçiləri bizik!" - deyə cavab vermişdilər. Nəhayət, İsrail oğullarından bir tayfa iman gətirdi, bir tayfa isə kafir oldu. Biz də iman gətirənləri düşmənlərinə qarşı qüvvətləndirdik və onlar qələbə çaldılar"***;[932]

**84- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذا نُودِيَ لِلصَّلاةِ مِنْ يَوْمِ الْجُمُعَةِ فَاسْعَوْا إِلى ذِكْرِ اللهِ / 9.**

***"Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığınız zaman Allahı zikr etməyə tələsin və alış-verişi buraxın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!"***;[933]

**85- يا أَيُّهَا الَّذِينَ آمَنُوا لا تُلْهِكُمْ أَمْوالُكُمْ وَلا أَوْلادُكُمْ عَنْ ذِكْرِ اللهِ / 9.**

***"Ey iman gətirənlər! Nə mal-dövlətiniz, nə də oğul-uşağınız sizi Allahın zikrindən yayındırmasın! Hər kəs bunu etsə*** (Allahı yada salmasa)***, beləl əri əsl ziyana uğrayanlardır"***;[934]

---

[929] "əl-Mumtəhinə", 13.
[930] "əs-Saff", 2.
[931] "əs-Saff", 10.
[932] "əs-Saff", 14.
[933] "əl-Cumuə", 9.
[934] "əl-Munafiqun", 9.

**86- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنَّ مِنْ أَزْواجِكُمْ وَأَوْلادِكُمْ عَدُوًّا لَكُمْ / 14.**

***"Ey iman gətirənlər! Şübhəsiz ki, zövcələrinizdən və övladınızdan sizə düşmən olanlar vardır.*** (Onlar din və ya dünya işlərində sizin əleyhinizə çıxar, sizi ibadətdən, yaxşı əməllərdən yayındırarlar. Hətta, siz bir dəfə Məkkədən Mədinəyə hicrət etmək istədiyiniz zaman onlar müxtəlif bəhanələrlə sizi bu fikrinizdən daşındırmışdılar)***. Onlardan özünüzü gözləyin! Amma*** (tövbə edəcəkləri təqdirdə) ***onları əfv etsəniz,*** (təqsirlərindən) ***keçsəniz və bağışlasanız*** (daha yaxşı olar). ***Çünki, Allah*** (günahları çox) ***bağışlayandır, rəhm edəndir!"***;[935]

**87- يا أَيُّهَا الَّذِينَ آمَنُوا قُوا أَنْفُسَكُمْ وَأَهْلِيكُمْ ناراً وَقُودُهَا النّاس وَالْحِجارَةُ / 6.**

***"Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlar*** (daşdan düzəlmiş bütlər)***, xidmətçiləri isə Allahın onlara verdiyi əmrlərə asi olmayan, buyurduqlarını yerinə yetirən daşqəlbli*** (heç kəsə zərrəcə rəhm etməyən) ***və çox sərt təbiətli mələklərdir*** (zəbanilərdir)***"***;[936]

**88- يا أَيُّهَا الَّذِينَ آمَنُوا تُوبُوا إِلَى اللهِ تَوْبَةً نَصُوحاً / 8.**

***"Ey iman gətirənlər! Allaha səmimi-qəlbdən*** (bir daha günaha qayıtmamaq şərtilə) ***tövbə edin. Ola bilsin ki, Rəbbiniz günahlarınızın üstünü örtsün və sizi*** (ağacları) ***altından çaylar axan cənnətlərə daxil etsin. O gün Allah Öz Peyğəmbərini və onunla birlikdə iman gətirənləri xəcil etməz. Onların*** (iman) ***nuru*** (qıl körpüsü üstündə onlara yol göstərmək üçün) ***önlərindən və sağ tərəflərindən axıb şölə saçarkən onlar belə deyəcəklər: "Ey Rəbbimiz! Bizim nurumuzu tamam-kamal elə və bizi bağışla. Həqiqətən, Sən hər şeyə qadirsən!"***[937]

Göründüyü kimi, bu ayələrin hamısında ***"Ey iman gətirənlər!"*** ifadəsi vardır və təfsir əhlinə görə, bunların hamısı İmam Əlinin *(ə)* fəzilətini bəyan edir. Sanki Allah ümmətə bəyan edəcək məsələləri İmamın *(ə)* vasitəsilə bildirməkdədir.

**((وَإِذْ يَمْكُرُ بِكَ الَّذِينَ كَفَرُوا لِيُثْبِتُوكَ أَوْ يَقْتُلُوكَ أَوْ يُخْرِجُوكَ وَيَمْكُرُونَ وَيَمْكُرُ اللهُ وَاللهُ خَيْرُ الْماكِرِينَ)).الأنفال/ 30.**

**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: حدثني الحسين بن محمد بن الحسين الثقفي (بإسناده المذكور) عن ابن عباس في قول الله تعالى: ((وَإِذْ يَمْكُرُ بِكَ الَّذِينَ كَفَرُوا)).**

**قال: تشاورت قريش ليلة بمكة فقال بعضهم: إذا أصبح (محمد) فأوثقوه بالوثاق، وقال بعضهم:**

[935] "ət-Təğabun". 14.

[936] "ət-Təhrim", 6.

[937] "ət-Təhrim", 8.

**اقتلوه، وقال بعضهم: بل أخرجوه، فأطلع الله نبيه على ذلك، فبات علي بن أبي طالب على فراش النبي (صلى الله عليه وسلّم) تلك الليلة فخرج رسول الله (صلى الله عليه وآله وسلّم) حتى لحق بالغار، وبات المشركون يحرسون علياً وهم يظنون أنّه رسول الله، فلمّا أصبحوا ثاروا إليه فلما رأوا علياً ردّ الله مكرهم فقالوا: أين صاحبك؟ قال: لا أدري، فاقتصوا أثره.**[938]

“(Ya Rəsulum!) ***Yadına sal ki, bir zaman kafirlər səni həbs etmək və ya öldürmək, yaxud da*** (Məkkədən) ***çıxardıb qovmaq üçün*** (Darun-Nədvədə) ***sənə qarşı hiylə qururdular. Allah da*** (onların bu hiyləsinə qarşı) ***tədbir tökdü. Allah*** (gizli hiylə quranlara, məkr edənlərə qarşı) ***tədbir tökənlərin*** (onlara gözləmədikləri yerdən qəfil bəla göndərib cəzalandıranların, məkri pozanların, məkrə tədbirlə cavab verənlərin) ***ən yaxşısıdır!”*** ayəsinin təfsiri haqqında Hakim əl-Həskani yazır: “Mənə Hüseyn bin Məhəmməd bin Hüseyn əs-Səqəfi sənədli şəkildə İbn Abbasdan Allahın ***“...kafirlər səni həbs etmək və ya öldürmək, yaxud da*** (Məkkədən) ***çıxardıb qovmaq üçün*** (Darun-Nədvədə) ***sənə qarşı hiylə qururdular...”*** ayəsi haqqında belə nəql etdi: “Qüreyş gecə Məkkədə müşavirə etdi və bir-birilərinə dedilər ki, Muhəmmədlə işimizi bitirməyin vaxtıdır. Onların bəzisi Peyğəmbəri *(s)* öldürməyi, bəzisi də Məkkədən çıxarmağı düşündülər. Lakin Allah Öz Peyğəmbərini *(s)* onların bu hiyləsindən xəbərdar etdi. Buna görə də həmin gecə Əli bin Əbu Talib *(ə)* Peyğəmbərin *(s)* yerində, yayağında yatdı. Peyğəmbər *(s)* evindən çıxıb mağaraya yetişdi. Müşriklər elə zənn edirdilər ki, yataqdakı Peyğəmbərin *(s)* özüdür. Odur ki, səhər açılan kimi evə hücum etdilər, lakin Peyğəmbərin *(s)* yatağında Əlini *(ə)* gördülər. Beləliklə, Allah onların hiylələrini puç etdi. Onlar Əliyə *(ə)* dedilər: “Dostun hardadır?” Əli *(ə)* buyurdu: *“Mən haradan bilim!”* Sonra onlar Peyğəmbərin *(s)* ardınca düşdülər”.

Ayətullah Fəqih İmani mübarək ayənin təfsiri haqqında belə yazır: “Bu ayə kafirlərin Peyğəmbəri *(s)* qətlə yetirmək planları haqqındadır. Həmin plan haqqında Cəbrail *(ə)* Peyğəmbəri *(s)* xəbərdar etdi. Həzrət Əli (ə) Peyğəmbərin *(s)* yerində yatdığı vaxt o Həzrət *(s)* evdən xaric olub əvvəlcə Tur dağına getdi, sonra isə Mədinəyə üz tutdu (Bəli, həmin gecə Həzrət Əli (ə) Peyğəmbərin *(s)* yolunda canını fəda etməyə hazır oldu. “Bəqərə” surəsinin 207-ci ayəsi də Həzrət Əlinin (ə) haqqında nazil olmuşdur).[939] Ayədə kafirlərin Peyğəmbərə *(s)* qarşı çıxmaları ilə bağlı açıqlanan üç plan müşriklərin “Darun-Nədvə” toplantısının məhsulu idi. Nəhayət, onlar Peyğəmbəri *(s)* qətlə yetirmək qərarına gəldilər. Hər qəbilədən bir nəfər seçildi ki, qətldən sonra Peyğəmbərin *(s)* yaxınları kimsəni ittiham edə bilməsin. Bu

---

[938] شواهد التنزيل/ ج1/ ص211.

[939] Əllamə Huveyzi, Təfsiri-nurus-səqəleyn, adıkeçən ayənin təfsiri.

ayə, haqqında danışdığımız surənin 27-ci ayəsinə rəğmən bəyan oluna bilər. Həmin ayədə buyurulur: ***"Ey iman gətirənlər! Bilə-bilə Allaha, Peyğəmbərə və aranızdakı əmanətlərə xəyanət etməyin!*** (Allahın əmrlərinə, Peyğəmbərin şəriətinə, dini vəzifələrinizə və borclarınıza sadiq olun!)*"*.[940]

**((وَإِذْ قالُوا اللهُمَّ إِنْ كانَ هذا هُوَ الْحَقَّ مِنْ عِنْدِكَ فَأَمْطِرْ عَلَيْنا حِجارَةً مِنَ السَّماءِ أَوِ ائْتِنا بِعَذابٍ أَلِيمٍ)).الأنفال/ 32.**

**نقل العلاّمة القبيسي، عن الحافظ أبي عبيد الهروي، المتوفى (333) في تفسيره (غريب القرآن) قال:**

**لمّا بلّغ رسول الله (صلى الله عليه وآله وسلّم) في غدير خم في حقّ علي ما بلّغ، وشاع ذلك أتى جابر بن النضر بن الحارث بن كلدة العبدي، فقال: يا محمد أمرتنا من الله أنْ نشهد أنْ لا إله إلا الله، وأنّك رسول الله، وبالصلاة، والصوم، والحجّ، والزكاة فقبلنا منك، ثم لم ترضَ بذلك حتى رفعت بضبع ابن عمك ففضلّته علينا وقلت: (من كنت مولاه فعليٌّ مولاه) فهذا شيء منك أم من الله؟**

**فقال رسول الله (صلى الله عليه وآله): والله الذي لا إله إلاّ هو إنّ هذا من الله.**

**فولى جابر يريد راحلته وهو يقول: اللهم إنْ كان ما يقول محمد حقاً ((فَأَمْطِرْ عَلَيْنا حِجارَةً مِنَ السَّماءِ أَوِ ائْتِنا بِعَذابٍ أَلِيمٍ)).**

**فما وصل إليها حتى رماه الله بحجر، فسقط على هامته وسقط من دبره وقتله**[941]**.**

***"Bir zaman da: "Ya Allah! Əgər bu*** (Quran) ***Sənin tərəfindən gəlmiş haqdırsa, onda başımıza göydən daş yağdır və ya bizə şiddətli bir əzab göndər!" - demişdilər"*** ayəsinin təfsiri haqqında Əllamə əl-Qəbisi, Hafiz Əbu Übeyd əl-Hərəvinin "Qəribul-Quran" adlı təfsir əsərindən belə nəql edir: "Peyğəmbər *(s)* Qədir-Xuma yetişdikdə Əlinin *(ə)* haqqında olanları çatdırdı. Bu, şayiəyə səbəb oldu. Cabir bin Nəzr bin Haris bin Kəldə əl-Əbdi gəldi və dedi: "Ya Muhəmməd *(s)*, bizə əmr etdin ki, "Allahdan başqa ilah yoxdur və sən də Onun Rəsulusan". Sonra bizə namaz qılmağı, oruc tutmağı, Həccə getməyi və zəkat verməyi əmr etdin, biz də qəbul etdik. Sonra da bunlara razı olmamış kimi əmin oğlunu bizdən üstün bildin və buyurdun: *"Kimin rəhbəriyəmsə, Əli də onun rəhbəridir"*. De görüm, bu sənin özündəndir, yoxsa Allahdan?" Peyğəmbər *(s)* buyurdu: *"And olsun Allaha, bu, Allahdandır!"* Sonra Cabir öz miniyinə tərəf gedəndə belə dedi: ***"..."Ya Allah! Əgər bu*** (Quran) ***Sənin tərəfindən gəlmiş haqdırsa, onda başımıza göydən daş yağdır və ya bizə şiddətli bir əzab göndər!"*** O, heç ayrılıb miniyinə çatmamış Allah onun başına bir daş düşürdü ki, o daş başından girib arxasından çıxdı və bunun nəticəsində öldü".

[940] Ayətullah Fəqih İmani, Nur Təfsiri , c. IV.

[941] كتاب (ماذا في التاريخ)/ ج3/ ص151.ورواه من أعلام المذاهب السنية: شيخ الإسلام الحمويني (الحنفي) في كتابه (فرائد السمطين) في الباب الثالث عشر، وابن الصباغ (المالكي) في كتابه (الفصول المهمة) ص36. والسيّد الشبلنجي (الشافعي) في كتابه (نور الأبصار) ص78.

**((وَما كانَ اللهُ لِيُعَذِّبَهُمْ وَأَنْتَ فِيهِمْ وَما كانَ اللهُ مُعَذِّبَهُمْ وَهُمْ يَسْتَغْفِرُونَ)).الأنفال/ 33.**
**روى العلاّمة المير محمد صالح الكشفي الترمذي، في كتابه (المناقب المرتضوية) قال:أورد في الصواعق المحرقة قوله تعالى:((وَما كانَ اللهُ لِيُعَذِّبَهُمْ وَأَنْتَ فِيهِمْ)) إن المراد أهل البيت كما قال (صلى الله عليه وسلّم):(النجوم أمان لأهل السماء وأهل بيتي أمان لأمتي).**[942]

***“Halbuki, sən onların arasında ola-ola Allah*** (sənə hörmət əlaməti olaraq) ***onlara əzab verən deyildir.*** (Tövbə edib) ***bağışlanmalarını diləyərkən də Allah onlara əzab verməz!”*** ayəsinin təfsiri haqqında Əllamə Mirməhəmməd Saleh əl-Kəşəfi ət-Tirmizi “əl-Mənaqibul-murtəzəviyyə” əsərində yazır: “əs-Səvaiqul-muhriqə” əsərində nəql edilən ***“Halbuki, sən onların arasında ola-ola Allah*** (sənə hörmət əlaməti olaraq) ***onlara əzab verən deyildir...”*** ayəsi haqqında qeyd edilir ki, sözügedən ayədən məqsəd Əhli-Beytdir *(ə)*. Necə ki, Peyğəmbər *(s)* buyurmuşdur: *“Ulduzlar səma əhli üçün, Əhli-Beytim də Yer əhli üçün əmin-amanlıqdır”*.

**((وَما كانُوا أَوْلِياءَهُ إِنْ أَوْلِياؤُهُ إِلاَّ الْمُتَّقُونَ وَلكِنَّ أَكْثَرَهُمْ لا يَعْلَمُونَ)).الأنفال/ 34.**
**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: أخبرنا عقيل بن الحسين (بإسناده المذكور) عن عبد الله بن عباس (في قوله تعالى):**
**((وما كانوا)) يعني: كفّار مكة.**
**((أَوْلِياءَهُ إِنْ أَوْلِياؤُهُ إِلاَّ الْمُتَّقُونَ)) يعني: (اتقوا) الشرك والكبائر، يعني: علي بن أبي طالب وحمزة وجعفراً وعقيلاً. هؤلاء هم أولياؤه.**
**((وَلكِنَّ أَكْثَرَهُمْ لا يَعْلَمُونَ)).**[943]

***“Lakin onlar*** (müşriklər) ***Məscidülhəramın sahibləri*** (və ya ona xidmət etməyə layiq) ***olmadıqları halda,*** (möminlərə onu təvaf etməyə) ***mane olduqda Allah nə üçün onlara əzab verməsin! Onun sahibləri*** (və ya Allahın dostları) ***yalnız Allahdan qorxub pis əməllərdən*** (küfrdən, şirkdən, bütpərəstlikdən) ***çəkinənlərdir. Lakin onların*** (müşriklərin) ***əksəriyyəti bunu bilməz!”*** ayəsi haqqında Hakim əl-Həskani yazır: “Bizə Əqil bin Hüseynin sənədli şəkildə Abdullah bin Abbasdan Allahın ***“...qorxub pis əməllərdən*** (küfrdən, şirkdən, bütpərəstlikdən) ***çəkinənlərdir...”*** ayəsi haqqında, “yəni Əli bin Əbu Talib *(ə)*, Həmzə, Cəfər və Əqildir” dediyi nəql olunub”.

**((وَاعْلَمُوا أَنَّما غَنِمْتُمْ مِنْ شَيْءٍ فَأَنَّ للهِ خُمُسَهُ وَلِلرَّسُولِ وَلِذِي الْقُرْبى وَالْيَتامى وَالْمَساكِينِ وَابْنِ السَّبِيلِ)).الأنفال/ 41.**
**أخرج الشيخ المفسّر شهاب الدين السيويسي، في تفسيره المخطوط الممزوج بآيات القرآن قال:**
**((فَإِنَّ للهِ خُمُسَهُ وَلِلرَّسُولِ وَلِذِي الْقُرْبى)).**

---

[942] ينابيع المودّة/ ص489.
[943] شواهد التنزيل/ ج1/ ص216.

**أي: ولأقاربه كبني هاشم وبني المطلب ـ دون بني شمس وبني نوفل ـ لأنَّ هؤلاء لم يفارقوه في الجاهلية والإسلام.**[944]

**"**(Ey möminlər!) ***Əgər siz Allaha və haqla batilin ayırd edildiyi gün - iki dəstənin bir-birilə qarşılaşdığı gün*** (Bədr günü) ***bəndəmizə*** (Muhəmmədə) ***nazil etdiyimizə*** (ayələrə) ***iman gətirmisinizsə, bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasının, yetimlərin, yoxsulların və müsafirindir*** (pulu qurtarıb yolda qalan yolçularındır)**. *Allah hər şeyə qadirdir!"*** ayəsi haqqında Şeyx Şəhabəddin əs-Süveysi öz təfsir əsərində sözügedən ayə haqqında yazır: "Nəzərdə tutulan Bəni-Haşim və Bəni-Müttəlibdir. Bura Bəni-Şəms və Bəni-Nofəl daxil deyildir. Çünki, onlar Cahiliyyət və İslam dövründə bir-birlərindən ayrılmamışlar".

**وروى الطبري في تفسيره (جامع البيان في تفسير القرآن) (بإسناده المذكور) عن ابن الديلمي قال: قال علي بن الحسين (رضي الله عنه) لرجل من أهل الشام: أما قرأت في الأنفال ((وَاعْلَمُوا أَنَّما غَنِمْتُمْ مِنْ شَيْءٍ فَإِنَّ للهِ خُمُسَهُ وَلِلرَّسُولِ وَلِذِي القُرْبى...)) الآية؟ قال (الشامي): نعم، قال: نحن هم. قال (الشامي): فإنّكم لأنتم هم؟ قال: نعم).**[945]

Qeyd edilən ayənin təfsirini yazan Cərir ət-Təbəri özünün "Camiul-bəyan" adlı məşhur təfsir əsərində İbn Deyləmidən nəqlən yazır: "Əli bin Hüseyn *(ə)* Şam əhlindən olan bir kişiyə buyurdu: *"Sən "Ənfal"da olan* ***"bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasının..."*** *ayəsini oxumadınmı?"* Şamlı kişi dedi: "Oxudum". İmam *(ə)* buyurdu: *"Biz həmin şəxslərik"*. Şamlı kişi təəccüblə "siz onlarsınız?" - dedi. İmam *(ə)* buyurdu: *"Bəli"*.

**روى الطبري ـ أيضاً ـ في تفسيره عن الحارث (بإسناده المذكور) عن المِنهال بن عمرو، قال: سألت عبد الله بن محمد بن علي، وعلي بن الحسين (بن علي بن أبي طالب) عن الخمس؟ فقالا: هو لنا.**
**فقلت لعلي (بن الحسين بن علي بن أبي طالب): إنَّ الله يقول: ((وَالْيَتامى وَالْمَساكِينِ وَابْنِ السَّبِيلِ)) قال: )يتامانا ومساكيننا).**[946]

Həmçinin, Təbəri adıkeçən təfsir əsərində sənədli şəkildə Minhal bin Əmrdən nəql edir ki, o, demişdir: "Abdullah bin Məhəmməd bin Əlidən xüms haqqında soruşdum. O isə Əli bin Hüseyndən *(ə)* belə ərz etdi: *"Ayədə nəzərdə tutulan bizik"*. Sonra Əli bin Hüseynə *(ə)* dedim: "Ayədə nəzərdə tutulan ***"yetimlər, yoxsullar və müsafir"*** kimdir?" Cavab verdi: *"Bizim yetim və miskinlərimizdir"*.

---

[944] عيون التفاسير للفضلاء السماسير/ الصفحة الثانية/ ولا رقم للورقة.
[945] جامع البيان في تفسير القرآن/ سورة الأنفال.
[946] جامع البيان في تفسير القرآن/ تفسير سورة الأنفال.

**وقال العلاّمة محمد جمال الدين القاسمي، في تفسيره عند ذكر هذه الآية:**
**(أجمع العلماء: على أنّ المراد بـ (ذي القربى) قرابته (صلى الله عليه وسلّم).**[947]

Əllamə Məhəmməd Cəmaləddin əl-Qasimi öz təfsirində bu ayəni qeyd etdikdən sonra yazır: ***"Yaxın qohumlar"*** dedikdə, Peyğəmbərin *(s)* qohumları nəzərdə tutulur''.

Ayətullah Fəqih İmani ''Nurul-Quran'' adlı əsərində sözügedən ayənin təfsirində yazır: ''Ayə nazil olan zaman Peyğəmbərlə *(s)* birlikdə Bədr savaşında iştirak etmiş, hətta canından belə, keçərək qalib gəlmiş kəslərə ünvanlanmışdır. Onlar namaz, oruc, hicrət, cihad, şəhadət əhli idilər və Peyğəm-

[947] تفسير القاسمي/ ج8/ ص3001.وقال الإمام التونسي، الشيخ محمد الطاهر بن عاشور في تفسيره (التحرير والتنوير)، (وأمّا ذو القربى، فـ (ال) في القربى عوض عن المضاف إليه، والمراد هنا هو الرسول المذكور قبله، أي: ولذي قربى الرسول، وذلك إكرام من الله لرسوله ـ (صلى الله عليه وسلّم) ـ إذ جعل لأهل قرابته حقاً في مال الله، لأنّ الله حرَّم عليهم أخذ الصدقات والزكاة، فلا جرم أنّه أغناهم من مال الله، ولذلك كان حقهم في الخمس ثابتاً بوصف القرابة)تفسير التحرير والتنوير/ ج10/ ص9.

وقال صاحب المنار في تفسيره، عند تفسيره هذه الآية:(ولذوي القربى، لأنّهم أكثر النّاس حميّة للإسلام، حيث اجتمعت فيهم الحميّة الدينية إلى الحميّة النسبية، فإنّه لا فخر لهم إلاّ بعلو دين محمد ـ (صلى الله عليه وسلّم) ـ ولأنّ في ذلك تنويهاً بأهل بيت النبي ـ (صلى الله عليه وسلّم) ـ وتلك مصلحة راجعة إلى الملّة، وإذا كان العلماء والقرّاء يكون توقيرهم تنويهاً بالملة، يجب أن يكون توقير (ذوي القربى) كذلك بالأولى.ثم قال أيضاً:(روي عن زين العابدين، علي بن الحسين أنّه قال: إنّ الخمس لنا، فقيل له، إنّ الله يقول: **((وَالْيَتامى وَالْمَساكِينَ وَابْنَ السَّبِيلِ))** فقال: يتامانا، ومساكيننا، وأبناء سبيلنا).

وقال المفسّر المعاصر (عبد الكريم الخطيب) في تفسيره الكبير المسمّى بالتفسير القرآني للقرآن، في هذه الآية:(فهذا الخمس من الغنائم موزع على خمسة أقسام، قسم لله، وما كان لله فهو لرسول الله، وقسم لذوي القربى من رسول الله).

وقال الإمام أبو حامد الغزالي في (إحيائه) قال (صلى الله عليه وسلّم): (لا تحلُّ الصدقة لآل محمد، إنّما هي أوساخ النّاس). إحياء علوم الدين/ ج3/ ص410.

وأخرج إمام (الحنابلة) أحمد بن حنبل في مسنده قال: إنَّ نجدة الحروري سأل ابن عباس عن سهم ذي القربى فقال:(هو لنا، لقربى رسول الله (صلى الله عليه وسلّم) قسّمه رسول الله لهم).

وأخرج الزمخشري في تفسيره قال:(وعن ابن عباس أنّه ـ أي الخمس ـ على ستة أسهم، لله والرسول سهمان، وسهم لأقاربه، حتى قبض (صلى الله عليه وسلّم).

وقال المفسّر أحمد بن يوسف كواشي الموصلي، في تفسيره المخطوط المزجي: في ((ولذي القربى)) من سورة الأنفال:والمراد أقاربه ـ (صلى الله عليه وسلّم) ـ وهم بنو هاشم وبنو المطلب يعطون... إلى أنْ قال:قال: ـ (صلى الله عليه وسلّم) ـ: أمّا بنو هاشم وبنو المطلب فشيء واحد (وشبك بين أصابعه) ما فارقونا في جاهلية ولا إسلام).

والمفسّر الكبير، أبو الفضل فيض الله بن المبارك الفيض الهندي، في تفسيره المخطوط المزجي المهمل الكلمات التي لا نقط لها، قال:((ولذي القربى)) والمراد ألد أرحام رسول الله (صلى الله عليه وسلّم) وهم أولاد والد والده، ووالد والد والده).

يعني: أولاد عبد المطلب، وأولاد هاشم.

والشيخ إسماعيل بن مصطفى الحقي الإسلامبولي في تفسيره المخطوط قال:((ولذي القربى)) وهم بنو هاشم وبنو المطلب.وإنّما خصَّ ذا قرابة رسول الله ـ (صلى الله عليه وآله) ـ بني هاشم وبني المطلب، لأنّهم لم يفارقوه (عليه السلام) في جاهلية ولا في إسلام، فكانت قرابتهم قرابة كاملة وهي القرابة نسباً وتواصلاً في حال العسر واليسر، فأُعطوا الخمس)روح البيان مخطوط ص2/ الورقة311..

وقال المؤرخ المشهور (محمد فريد وجدي) صاحب (دائرة معارف القرن العشرين) في تفسيره المختصر المسمّى بـ (المصحف المفسّر) في تفسير هذه الآية الكريمة:(ما غنمتم من شيء فإنّ خمسه لله ورسوله ولذي القربى من الرسول، وهم بنو هاشم، وبنو المطلب، وقيل بنو هاشم وحدهم)المصحف المفسر/ ص233.

وقال مفتي دمشق الشام، السيّد محمد أفندي النقيب في تفسيره المهمل بلا نقطة المسمّى بـ (در الأسرار):(واعلموا أنّما غنمتم من شيء فإن لله خمسه وللرسول، ولذي القربى) للرسولدر الأسرار/ ج1/ ص159.

وقال مدرّس كلّية الشريعة الإسلامية بمصر (الشيخ محمد علي السايس) في كتابه في التفسير عند هذه الآية الكريمة:(ثالثها: ذو القربى، والمراد بها قرابة رسول الله ـ (صلى الله عليه وسلّم) ـ) .تفسير آيات الأحكام للسايس/ ج2/ ص7.

وقال الحافظ ابن رشد في (بداية المجتهد) في باب الخمس، عند ذكر هذه الآية الكريمة:(واختلفوا في القرابة من هم؟ فقال قوم بنو هاشم فقط، وقال قوم بنو عبد المطلب وبنو هاشم.) .بداية المجتهد ونهاية المقتصد/ ج1/ ص407.

bər *(s)* onlara ümid gözü ilə baxırdı. Bununla belə, Allah-Təala hazırkı ayədə buyurur: "Ey Bədr cəbhəsinin mücahidləri, əgər Allaha, Peyğəmbərə *(s)* və Qurana imanınız varsa, qənimətin beşdə birini verin". Yəni namaz, oruc, cihaddan əlavə, xüms vermək də Allaha imanın şərtidir.

Quranda həm "qənimət", həm də "ğəramət" sözləri altı dəfə işlənlmişdir. "Ğəramət" dedikdə təkcə savaş zərəri yox, bütün iqtisadi zərərlər nəzərdə tutulur. "Ğənimət" isə təkcə savaşdan yox, bütün sahələrdən əldə olunan mənfəəti bildirir. "Lisanul-ərəb", "Tacul-ərus", "Qamus" kimi lüğət kitabları, eləcə də Qurtubi, Fəxr ər-Razi, Alusi kimi təfsirçilər uyğun sözlərin geniş məna daşıdığını qəbul etmişlər. "Mufrədate-Rağib"də deyilir: "İnsanın əldə etdiyi istənilən bir şey qənimətdir". Quranda da "qənimət" sözü təkcə savaş mənfəətlərinə aid edilmir.[948] Həzrət Əli (ə) buyurmuşdur: *"Allahın ayinlərinə əməl edən kəs məqsədə çatıb bəhrələnir"*[949] (O Həzrət *(ə)* *"bəhrələnir"* ifadəsini öz buyruğunda *"ğənimət"* sözü ilə ifadə etmişdir). Rəvayətlərə və şiə əqidəsinə əsasən, ayədəki ***"ğənimət"*** sözü bütün mənfəətlərə aiddir. Ayənin Bədr savaşında nazil olması o demək deyil ki, xüms yalnız savaş qənimətinə aiddir. Hətta, bu ayədə yalnız savaş qəniməti nəzərdə tutulmuş olsa da rəvayətlər əsasında xüms hökmü bütün mənfəətlərə aid edilə bilər.

Xüms mövzusu rəvayətlərdə də əhəmiyyətli yer tutmuşdur. Belə ki, xüms verməyən insanın malı halal sayılmamış, ona həmin maldan istifadə etməyə icazə verilməmişdir. Xümslü libasla qılınan namazın nöqsanı var.

Bu ayə ənfalı yalnız Allah və Onun Rəsuluna *(s)* aid bilən əvvəlki ayə ilə zidd deyil. Xüms ayəsinə əsasən, Peyğəmbər *(s)* və o Həzrətin *(s)* canişinləri əldə etdiklərinin beşdə birini (xümsünü) saxlayırlar. Qalan hissə isə (beşdə dördü) mücahidlərə xərclənir.

Fəqihlər yeddi şeyin xümsünün verilməsini vacib sayırlar: illik qazanc, mənfəət, xəzinə, mədən, üzgüçülüklə əldə olunan gövhər, harama qarışmış halal mal, zimmi kafirin müsəlmandan aldığı torpaq, savaş qəniməti.

Aydın məsələdir ki, Allahın xümsə ehtiyacı yoxdur. Allaha ayrılmış pay isə ilahi qanunların, Peyğəmbər *(s)* vilayətinin həyata keçməsi, İslam nidasının dünya əhalisinə çatdırılması, müstəzəflərə nicat verilməsi və fəsadın qarşısının alınması istiqamətlərində xərclənir. Rəvayətlərə əsasən, Allahın payı Peyğəmbərin *(s)* ixtiyarına verilir, Peyğəmbərin *(s)* payı o Həzrətdən *(s)* sonra imamların *(ə)* ixtiyarına keçir. Bu üç pay imamın *(ə)* qeybi dövründə onun həqiqi naiblərinin, yəni bütün şərtlərə cavab verən, təqlid mərcəyi olan müctəhidə tapşırılır.

---

[948] Bax: "ən-Nisa", 94.
[949] Nəhcül-bəlağə, x. 120.

Əksər rəvayətlərə əsasən, ***"Zil-qurba"*** təbiri Peyğəmbərin *(s)* bütün yaxınlarına aid deyil. Bu söz Əhli-Beytdən *(ə)* olan imamlara *(ə)* işarədir. Xüms Peyğəmbərin *(s)* qohum-əqrəbasının yox, rəhbərlik məsuliyyəti daşıyan imamların *(ə)* ixtiyarındadır.

Rəvayətlərdən əlavə, ***"Zil-qurba"*** təbirinin "Allah və Rəsul *(s)*" təbirləri ilə yanaşı işlənməsi həmin zümrənin Allah və Peyğəmbər *(s)* xəttində olan xüsusi fərdlərə aid olduğunu göstərir.

Rəvayətlərdə xümsun digər bir ünvanı kimi, Bəni-Haşim seyidlərindən olan miskinlər və yolda qalmışlar göstərilir. Çünki, seyid fəqirlərə zəkatdan pay götürmək haramdır. Beləliklə, adi insanların ehtiyacı zəkatdan, seyidlərin ehtiyacı isə xümsdən ödənilir.[950]

Əslində, cəmiyyəti məhrumiyyətlərdən qurtarmaq üçün İslam iki şeyi vacib etmişdir: 1. Cəmiyyətin bütün fəqirlərini əhatə edən zəkat; 2. Bir hissəsi fəqir seyidlərə məxsus olan xüms. Xüms və zəkat fəqirin bir illik ehtiyacını ödəyəcək həddə verilə bilər.

İmam Riza (ə) buyurmuşdur: *"Ayədə nəzərdə tutulmuş beş hal üçün hansı miqdarda pay ayrılması imamın ixtiyarındadır"*.

Bildirişlər:

1. İllik qazanc və qənimət az olsa da xüms ödəmək vacibdir.
2. Bir halda ki Bədr savaşında Allahın yardımı ilə qələbə əldə olundu, Allahın, Onun Rəsulunun *(s)* və Rəsulunun *(s)* Əhli-Beytinin *(ə)* haqqını və qənimətlərin xümsünü ödəmək vacibdir.
3. İslam hüquqi şəxslərin mülkiyyət hüququnu qəbul edir.
4. Məhrumiyyəti aradan qaldırmaq İslam proqramının tərkib hissəsidir. Cihadın səmərəsi və qənimətlərdən fəqirlərin ehtiyacı ödənməlidir.
5. Məhrum təbəqəyə diqqət yetirilməsi üçün onların adı Allahın, Onun Rəsulunun *(s)* və Rəsulunun *(s)* Əhli-Beytinin *(ə)* adı ilə yanaşı çəkilir.
6. İman vəzifə və isara (insanın ehtiyac duyduğu bir şeyi başqasına bağışlamasına) əməl amilidir.
7. Maldan keçmək o qədər çətindir ki, bəzən mücahidlər də qıymamazlıq göstərirlər.
8. Xüms kamil iman nişanəsidir. İman, ibadət, fitrət və cihad haqqında danışıldıqdan sonra xüms vermək əmr olunur. Xüms imanın şərti olduğundan müvəqqəti yox, daimi bir əmrdir.
9. Bəndəlik ilahi maarifin əldə olunma rəmzidir. İslam Peyğəmbəri *(s)* xalis Allah bəndəsi olmuşdur.

---

[950] Təbərisi , Məcməül-bəyan, Hürr Amili, əl-Vəsail, c. VI, xüms kitabı.

10. Müsəlmanlar arasında Peyğəmbərin *(s)* varlığı Allahın yardımı və qələbə amilidir.

11. Savaş günü doğru danışanların yalançılardan seçildiyi gündür.

12. Bədr savaşındakı ilahi yardım İslamın haqq olmasını aşkarladı”.[951]

**((يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِذا لَقِيتُمْ فِئَةً فَاثْبُتُوا)).الأنفال/ 45.**
**أخرج السيّد المؤمن الشبلنجي (الشافعي) في (نور الأبصار) عن ابن عباس (رضي الله عنهما) أنه قال: ليس آية من كتاب الله تعالى: ((يا أيّها الذين آمنوا)) إلاّ وعليٌّ أولها وأميرها وشريفها.**[952]
**وروى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: أخبرني الحسين بن أحمد (بإسناده المذكور) عن الحكم بن عيينة قال:(أربعة لا شكَّ فيهم أنّهم ثبتوا يوم حنين، فيهم علي بن أبي طالب).**[953]

***“Ey iman gətirənlər! Bir dəstə*** (kafir dəstəsi) ***ilə üz-üzə gəldikdə möhkəm olun və Allahı çox yada salın ki, nicat tapasınız!”*** ayəsinin təfsiri haqqında Seyid Mömin əş-Şəblənci əş-Şafei “Nurul-əbsar” adlı əsərində İbn Abbasdan belə nəql edir: “Allahın kitabında elə bir ***“Ey iman gətirənlər”*** ayəsi yoxdur ki, Əli *(ə)* onun əvvəli, əmiri və şərifi olmasın”.

Hafiz əl-Həskani isə sözügedən ayənin təfsiri haqqında sənədli şəkildə Həkəm bin Üyeynədən nəqlən yazır: “Hüneyn günü dörd kəsin möhkəm dayanmasında heç bir şəkk yoxdur. Onlardan biri də Əli bin Əbu Talibdir *(ə)*”.

**((وَإِنْ يُرِيدُوا أَنْ يَخْدَعُوكَ فَإِنَّ حَسْبَكَ اللهُ هُوَ الَّذِي أَيَّدَكَ بِنَصْرِهِ وَبِالْمُؤْمِنِينَ)).الأنفال/ 62.**
**روى العلاّمة الهندي عبيد الله بسمل في كتابه الكبير، في فضائل أمير المؤمنين (عليه السلام) عن أبي نعيم والسمعاني والسّيوطي بأسانيدهم، عن أبي هريرة ـ رضي الله عنه ـ قال في قوله تعالى: ((هُوَ الَّذِي أَيَّدَكَ بِنَصْرِهِ وَبِالْمُؤْمِنِينَ)): قال رسول الله ـ (صلى الله عليه وسلّم) ـ:(مكتوب على العرش أنا الله لا إله إلّا أنا وحدي لا شريك لي، ومحمد عبدي، ورسولي أيّدته بعلي بن أبي طالب).**[954]

***“Əgər onlar səni aldatmaq istəsələr,*** (qorxma və bil ki, onların şərindən və məkrindən qorumağa) ***sənə təkcə Allah kifayətdir.*** (O Allah ki) ***səni Öz köməyilə və möminlərlə müdafiə edib möhkəmlətdi”*** ayəsinin təfsirində Əllamə Übeydullah Bəsməl Həzrət Əlinin *(ə)* fəzilətlərinə həsr elədiyi böyük kitabında Əbu Nəimdən, Səmanidən, Süyutidən onların sənədlərinə istinadən Əbu Hüreyrədən nəql edir: “Peyğəmbər *(s)* belə buyurdu: *“Ərşin üzərinə* ***“Allahdan başqa ilah yoxdur, O təkdir, heç bir şəriki yoxdur, Muhəmməd Mənim qulum və Peyğəmbərimdir, onu Əli bin Əbu Taliblə qüvvətləndirdim”*** *sözləri yazılmışdır”*. Bu hədisi aşağıdakı qaynaqlar da rəvayət etmişlər.[955]

---

[951] Ayətullah Fəqih İmani, Nurul-Quran, c. IV, “Ənfal” surəsinin 41-ci ayəsinin təfsiri.

[952] نور الأبصار/ ص78.

[953] شواهد التنزيل/ ج1/ ص252-253.

[954] أرجح المطالب/ ص73.

[955] ينابيع المودّة/ ص94.ذخائر العقبى/ ص69.المناقب لابن المغازلي/ ص39.المناقب للخوارزمي/ ص234.الرياض النضرة/ ج2/ ص272. مجمع الزوائد/ ج9/ ص121.كنز العمال/ ج6/ ص158.تاريخ بغداد/ ج11/ ص173.الدّر المنثور/ ج3/ ص199.

**((يا أَيُّهَا النَّبِيُّ حَسْبُكَ اللهُ وَمَنِ اتَّبَعَكَ مِنَ الْمُؤْمِنِينَ)).الأنفال/ 64.**
**روى الخطيب أبو بكر، أحمد بن علي البغدادي في (مناقبه)، عن جابر بن عبد الله الأنصاري في قوله تعالى:**
**((يا أَيُّهَا النَّبِيُّ حَسْبُكَ اللهُ وَمَنِ اتَّبَعَكَ مِنَ الْمُؤْمِنِينَ)).**
**هو علي بن أبي طالب، وهو رأس المؤمنين.**[956]

***"Ya Peyğəmbər! Sənə və sənin ardınca gedən möminlərə təkcə Allah bəs edər"*** ayəsi haqqında Xətib Əbu Bəkr, Əhməd bin Əli Bağdadi "Mənaqib" əsərində Cabir bin Abdullah əl-Ənsariyə istinadən rəvayət edir: "O, Əli bin Əbu Talibdir *(ə)*. O, möminlərin başıdır". Bu hədisi Übeydullah Bəsməl "əl-Mənaqib",[957] Məhəmməd Saleh əl-Kəşəfi ət-Tirmizi də özünün "əl-Mənaqib" adlı əsərində rəvayət etmişdir.[958]

**((وَالَّذِينَ آمَنُوا مِنْ بَعْدُ وَهاجَرُوا وَجاهَدُوا مَعَكُمْ فَأُولئِكَ مِنْكُمْ وَأُولُوا الأَرْحامِ بَعْضُهُمْ أَوْلى بِبَعْضٍ فِي كِتابِ اللهِ إِنَّ اللهَ بِكُلِّ شَيْءٍ عَلِيمٌ)).الأنفال/ 75.**
**روى الحافظ سليمان القندوزي (الحنفي)، عن الحافظ أبي بكر بن مردويه في كتاب (المناقب) أنّه قال: في قوله تعالى:((وَأُولُوا الأَرْحامِ بَعْضُهُمْ أَوْلى بِبَعْضٍ فِي كِتابِ اللهِ مِنَ الْمُؤْمِنِينَ وَالْمُهاجِرِينَ)). إنه قيل: ذلك علي، لأنّه كان مؤمناً مهاجراً ذا رحم.**

***"Sonradan*** (Hüdeybiyyə sazişindən sonra, Məkkənin fəthindən əvvəl) ***iman gətirib hicrət edənlər və sizinlə bərabər döyüşənlər*** (cihad edənlər) ***də sizdəndirlər. Qohumlar Allahın Kitabında*** (lövhi-məhfuzda və ya Quranda irs, varislik baxımından) ***bir-birinə daha münasibdirlər*** (yaxındırlar)***. Həqiqətən, Allah hər şeyi biləndir!*** (Məkkənin fəthinə qədər mühacirlər və ənsar qohumluq əlaqələrindən asılı olmayaraq bir-birinin varisi hesab edilirdilər. Məkkənin fəthindən sonra bu hökm ləğv olunub varislik hüququ yalnız qohumlara aid edildi)***"*** ayəsi haqqında Süleyman Qunduzi əl-Hənəfi Əbu Bəkr bin Mərdəveyhin "əl-Mənaqib" əsərinə istinadən yazır: "O, sözügedən ayənin təfsiri haqqında yazmışdır: "O, Əlidir *(ə)*. Çünki, o, mömindir, mühacirdir və Peyğəmbərin *(s)* qohumudur".

## *4.9. İMAM ƏLİ (Ə) "ƏT-TÖVBƏ" SURƏSİNDƏ*

"ət-Tövbə" surəsi haqqında Möhsün Qiraəti yazır: "Qurani-Kərimin 129 ayədən ibarət olan 9-cu "Tövbə" surəsi hicrətin 9-cu ilində nazil olmuşdur. Surənin bir hissəsi Təbuk döyüşündən öncə, bir hissəsi döyüşün gedişi zamanı, digər bir hissəsi isə döyüşdən sonra nazil olmuşdur. Rəvayətlərdə su-

[956] مناقب الخطيب البغدادي/ ص186.
[957] أرجح المطالب/ ص88.
[958] المناقب للكشفي/ الباب الأول.

rənin ən məşhur adları “Tövbə” və “Bəraət”dir. Surənin “Tövbə” adlandırılmasının səbəbi orada insanın tövbəsinə, ilahi lütfün qayıdışına dəfələrlə işarə olunmasıdır. “Bəraət” adlanmasının səbəbi isə onun müşriklərdən cana doymasının elanı ilə başlamasıdır. Bəzi təfsirçilər bu surədəki mövzuları “Ənfal” surəsinin davamı saymışlar. Onların nəzərincə, elə bu səbəbdən surə ***“Bismillahir-rəhmanir-rəhim”***siz başlamışdır. Lakin bizim Peyğəmbər *(s)* Əhli-Beytinə *(ə)* əsaslanan əqidəmizə görə, bu surə müstəqildir və onun ***“Bismillah”***sız başlamasının səbəbi onda müşriklərə qəzəbli tərzdə müraciət olunmasıdır. Çünki, ***“Bismillah”*** aman vermək üçün, bəraət isə amanın götürülməsi üçündür. Surənin əhəmiyyətini anlamaq üçün Peyğəmbərin *(s)* bir buyruğunu xatırlamaq kifayət edir: *“Bəraət” və “Tövhid” surələri yetmiş min mələyin müşayiəti ilə nazil oldu”.*[959]

“ət-Tövbə” surəsində 19 ayə İmam Əlinin *(ə)* haqqında nazil olmuşdur. Bunlar 3, 12, 16, 17, 19, 20, 21, 22, 26, 28, 32, 34, 36, 40, 61, 74, 100, 119 və 123-cü ayələrdir. Aşağıda həmin ayələri təfsirləri ilə birlikdə qeyd edirik:

**1- وأَذانٌ مِنَ اللهِ وَرَسُولِهِ إِلَى النّاس يَوْمَ الْحَجِّ/ 3.**

***“Allahdan və Onun Peyğəmbərindən böyük Həcc günü*** (Zülhiccə ayında vacib, fərz olan Həcc; Qurban bayramı və ya Ərəfə günü) ***insanlara bir bildiriş! Allahın və Onun Peyğəmbərinin müşriklərlə heç bir əlaqəsi yoxdur. Əgər*** (küfrdən və şirkdən) ***tövbə etsəniz, bu sizin üçün xeyirli olar. Əgər*** (imandan) ***üz döndərsəniz, bilin ki, Allahın əzabından qaçıb canınızı qurtara bilməzsiniz.*** (Ey Peyğəmbərim!) ***Kafir olanları şiddətli bir əzabla müjdələ!”***;[960]

**2- وَإِنْ نَكَثُوا أَيْمانَهُمْ مِنْ بَعْدِ عَهْدِهِمْ وَطَعَنُوا فِي دِينِكُمْ / 12.**

***“Əgər əhd bağladıqdan sonra andlarını pozsalar və dininizi yamanlayıb təhqir etsələr,*** (sözlərinin üstündə durmayan) ***küfr başçıları ilə vuruşun. Onların həqiqətdə andları*** (əhdləri) ***yoxdur*** (onlar üçün heç bir andın, əhdin əhəmiyyəti yoxdur). ***Bəlkə,*** (bu yaramaz işlərdən) ***əl çəkələr!”***;[961]

**3- أَمْ حَسِبْتُمْ أَنْ تُتْرَكُوا وَلَمَّا يَعْلَمِ اللهُ الَّذِينَ جاهَدُوا مِنْكُمْ / 16.**

***“Yoxsa elə güman edirsiniz ki, Allah içərinizdə cihad edənləri, Allahdan, Onun Peyğəmbərindən və möminlərdən başqasını özlərinə dost tutanları ayırd etməmiş siz sərbəst buraxılacaqsınız? Allah nə etdiklərinizdən xəbərdardır!”***;[962]

---

[959] Möhsün Qiraəti, Nur təfsiri, c. V, “Tövbə” surəsinin təfsiri.
[960] “ət-Tövbə”, 3.
[961] “ət-Tövbə”, 12.
[962] “ət-Tövbə”, 16.

**4- أُولئِكَ حَبِطَتْ أَعْمالُهُمْ وَفِي النَّارِ هُمْ خالِدُونَ / 17.**

***"Müşriklər küfr etdikləri barədə öz-özlərinə şahid olduqları halda, Allahın məscidlərini təmir etmək onlara layiq olmaz. Onların əməlləri puça çıxmışdır. Onlar Cəhənnəmdə*** (od içində) ***əbədi qalacaqlar!"***;[963]

**5- أَ جَعَلْتُمْ سِقايَةَ الْحاجِّ وَعِمارَةَ الْمَسْجِدِ الْحَرامِ / 19.**

"(Ey müşriklər!) ***Məgər siz hacılara su verməyi və Məscidülhəramı təmir etməyi Allaha və Qiyamət gününə iman gətirib Allah yolunda cihad edənlərlə eynimi tutursunuz? Onlar Allah yanında eyni olmazlar. Allah zalım tayfanı doğru yola yönəltməz!"***;[964]

**6- الَّذِينَ آمَنُواْ وَهَاجَرُواْ وَجَاهَدُواْ فِي سَبِيلِ اللّهِ بِأَمْوَالِهِمْ وَأَنفُسِهِمْ أَعْظَمُ دَرَجَةً عِندَ اللّهِ وَأُوْلَئِكَ هُمُ الْفَائِزُونَ / 20.**

***"İman gətirib hicrət edənləri, Allah yolunda malları və canları ilə vuruşanları Allah yanında ən yüksək dərəcələr gözləyir. Onlar nicat tapanlardır*** (xeyrə qovuşanlardır)***"***;[965]

**7- يُبَشِّرُهُمْ رَبُّهُم بِرَحْمَةٍ مِّنْهُ وَرِضْوَانٍ وَجَنَّاتٍ لَّهُمْ فِيهَا نَعِيمٌ مُّقِيمٌ / 21.**

***"Rəbbi onları Özündən bir mərhəmət*** (bağışlanma)***, razılıq və içərisində onlar üçün tükənməz nemətlər olan cənnətlərlə müjdələr"***;[966]

**8- خَالِدِينَ فِيهَا أَبَدًا إِنَّ اللّهَ عِندَهُ أَجْرٌ عَظِيمٌ / 22.**

***Onlar orada əbədi qalacaqlar. Böyük mükafat, həqiqətən, Allah yanındadır!"***;[967]

**9- ثُمَّ أَنْزَلَ اللّهُ سَكِينَتَهُ عَلى رَسُولِهِ / 26.**

***"Sonra da Allah Öz Peyğəmbərinə və möminlərə arxayınlıq nazil etdi,*** (köməyinizə mələklərdən ibarət) ***görmədiyiniz əsgərlər endirdi və kafirləri əzaba düçar etdi. Bu, kafirlərin cəzasıdır!"***;[968]

**10- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنَّمَا الْمُشْرِكُونَ نَجَسٌ فَلا يَقْرَبُوا الْمَسْجِدَ / 28.**

***"Ey iman gətirənlər! Müşriklər*** (batinləri xəbis, etiqadları puç və iyrənc olduğuna, su başına çıxdıqdan sonra yuyunmadıqlarına, dəstəmaz alma-

[963] "ət-Tövbə", 17.
[964] "ət-Tövbə", 19.
[965] "ət-Tövbə", 20.
[966] "ət-Tövbə", 21.
[967] "ət-Tövbə", 22.
[968] "ət-Tövbə", 26.

dıqlarına və cənabət qüslü etmədiklərinə görə)***, doğrudan da, murdardırlar. Özlərinin bu ilindən*** (hicrətin doqquzuncu ilindən) ***sonra Məscidülhərama yaxınlaşmasınlar. Əgər yoxsulluqdan*** (ehtiyacdan) ***qorxursunuzsa,*** (bilin ki*) əgər Allah istəsə, öz nemətindən* (verib) ***sizi mütləq dövlətli edəcəkdir. Allah*** (hər şeyi) ***biləndir, hikmət sahibidir!”***;[969]

**11- يُرِيدُونَ أَنْ يُطْفِؤُا نُورَ اللهِ بِأَفْواهِهِمْ وَيَأْبَى اللهُ إِلاَّ أَنْ يُتِمَّ نُورَهُ / 32.**

***“Onlar Allahın nurunu*** (dəlillərini, İslam dinini, Quranı) ***ağızları*** (batil sözləri) ***ilə söndürmək istəyirlər. Allah isə kafirlərin xoşuna gəlməsə də, ancaq öz nurunu*** (dinini) ***tamamlamaq istər”***;[970]

**12- يا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنَّ كَثِيراً مِنَ الأَحْبارِ وَالرُّهْبانِ لَيَأْكُلُونَ أَمْوالَ النّاس بِالْباطِلِ / 34.**

***“Ey iman gətirənlər!*** (Yəhudi) ***alimlərdən və*** (xaçpərəst) ***rahiblərdən çoxu insanların mallarını haqsızlıqla yeyir və*** (onları) ***Allah yolundan döndərirlər.*** (Ya Rəsulum!) ***Qızıl-gümüş yığıb onu Allah yolunda xərclə-məyənləri şiddətli bir əzabla müjdələ!”***;[971]

**13- إِنَّ عِدَّةَ الشُّهُورِ عِنْدَ اللهِ اثْنا عَشَرَ شَهْراً فِي كِتابِ اللهِ / 36.**

***“Həqiqətən, Allah yanında ayların sayı göyləri və Yeri yaratdığı gün-dən bəri Allahın Kitabında on ikidir. Onların dördü*** (Rəcəb, Zülqədə, Zülhiccə və Məhərrəm) ***haram aylardır. Bu, doğru dindir*** (İbrahim və İsmailin gətirdikləri dinin doğru hesabı və hökmüdür)***. Ona görə də həmin aylarda özünüzə zülm etməyin. Müşriklərin hamısı sizinlə vuruşduqları kimi, siz də onlarla vuruşun və bilin ki, Allah müttəqilərlədir!”***;[972]

**14- إِلاَّ تَنْصُرُوهُ فَقَدْ نَصَرَهُ اللهُ / 40.**

**“**(Ey möminlər!) ***Əgər siz ona*** (Peyğəmbərə) ***kömək etməsəniz, Allah ona kömək göstərmiş olar. Necə ki, kafirlər onu*** (Məkkədən) ***iki nəfər-dən biri*** (ikinin ikincisi) ***olaraq çıxartdıqları, hər ikisi mağarada olduğu və öz dostuna*** (Əbu Bəkrə)***: “Qəm yemə, Allah bizimlədir!” - dediyi zaman*** (göstərmişdi)***. O vaxt Allah ona bir arxayınlıq*** (rahatlıq) ***nazil etmiş, onu sizin görmədiyiniz*** (mələklərdən ibarət) ***əsgərlərlə müdafiə etmiş, kafirlərin sözünü alçaltmışdı. Yalnız Allahın sözü*** (kəlmeyi-şəhadət) ***ucadır. Allah yenilməz qüvvət, hikmət sahibidir!”***;[973]

---

[969] “ət-Tövbə”, 28.
[970] “ət-Tövbə”, 32.
[971] “ət-Tövbə”, 34.
[972] “ət-Tövbə”, 36.
[973] “ət-Tövbə”, 40.

**15- وَالَّذِينَ يُؤْذُونَ رَسُولَ اللهِ لَهُمْ عَذابٌ أَلِيمٌ / 61.**

**“**(Münafiqlər içində) ***Peyğəmbəri incidib: “O*** (hamını dinləyən, hər sözü eşidib inanan*) **bir qulaqdır” - deyənlər də var. De: “O qulaq sizin üçün bir nemətdir. Allaha da inanır, möminlərə də. O sizdən iman gətirənlər üçün rəhmətdir. Allahın Rəsuluna əzab verənləri isə şiddətli bir əzab gözləyir!”***;[974]

**16- يَحْلِفُونَ بِاللهِ ما قالُوا وَلَقَدْ قالُوا كَلِمَةَ الْكُفْرِ / 74.**

**“**(Münafiqlər) ***Allaha and içirlər ki,*** (Peyğəmbər haqqında nalayiq sözlər) ***deməyiblər.*** (And olsun ki) ***onlar küfr sözünü demiş, İslamı*** (zahirən) ***qəbul etdikdən sonra kafir olmuş, müvəffəq ola bilmədikləri bir işə*** (Təbuk döyüşündən qayıdarkən Peyğəmbərə qarşı hazırladıqları sui-qəsdə) ***girişmişdilər.*** (Münafiqlərin Peyğəmbərə və möminlərə qarşı) ***kin-küdurət bəsləmələrinin səbəbi yalnız Allahın və Peyğəmbərinin Öz nemətləri ilə onları varlandırmasıdır. Bununla belə, əgər*** (ikiüzlülüklərindən və digər yaramaz əməllərindən) ***tövbə etsələr, onlar üçün xeyirli olar. Yox, əgər*** (imandan) ***üz döndərsələr, Allah onları dünyada və Axirətdə şiddətli bir əzaba mübtəla edər. Yer üzündə onların nə bir dostu, nə də bir imdada yetəni var!”***;[975]

**17- وَالسَّابِقُونَ الأَوَّلُونَ مِنَ الْمُهاجِرِينَ وَالأَنْصارِ وَالَّذِينَ اتَّبَعُوهُمْ بِإِحْسانٍ / 100.**

**“**(İslamı) ***ilk əvvəl qəbul edib*** (bu işdə başqalarından) ***irəli düşən mühacirlərə və ənsara, həmçinin yaxşı işlər görməkdə onların ardınca gedən kimsələrə gəldikdə, Allah onlardan, onlar da Allahdan razıdırlar.*** (Allah) ***onlar üçün əbədi qalacaqları,*** (ağacları) ***altından çaylar axan cənnətlər hazırlamışdır. Bu, böyük qurtuluşdur*** (uğurdur)***!”***;[976]

**18- يا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللهَ وَكُونُوا مَعَ الصَّادِقِينَ / 119.**

***“Ey iman gətirənlər! Allahdan qorxun və*** (imanında, sözündə, işində) ***doğru olanlarla olun!*** (Peyğəmbər və onun sadiq əshabələri ilə birlikdə olun!)***”***;[977]

**19- يا أَيُّهَا الَّذِينَ آمَنُوا قاتِلُوا الَّذِينَ يَلُونَكُمْ مِنَ الْكُفَّارِ / 123.**

***“Ey iman gətirənlər! Yaxınlığınızda olan kafirlərlə vuruşun. Qoy onlar sizdən*** (özlərinə qarşı) ***sərtlik görsünlər. Bilin ki, Allah müttəqilərlədir!”***;[978]

---

[974] “ət-Tövbə”, 61.
[975] “ət-Tövbə”, 74.
[976] “ət-Tövbə”, 100.
[977] “ət-Tövbə”, 119.
[978] “ət-Tövbə”, 123.

**((وَأَذانٌ مِنَ اللهِ وَرَسُولِهِ إِلَى النَّاس يَوْمَ الْحَجِّ الأَكْبَرِ أَنَّ اللهَ بَرِيءٌ مِنَ الْمُشْرِكِينَ وَرَسُولُهُ)).التوبة/ 3.**
**روى أبو جعفر محمد بن جرير (الطبري) في تفسيره (بإسناده المذكور) عن زيد بن يثيع قال: نزلت براءة فبعث بها رسول الله (صلى الله عليه وسلّم) أبا بكر، ثم أرسل علياً فأخذها منه، فلمّا رجع أبو بكر قال: هل نزل فيَّ شيء؟ قال (صلى الله عليه وآله): لا ولكن أُمرتُ أنْ أُبلغُها أنا أو رجلٌ من أهل بيتي.**[979]

***"Allahdan və Onun Peyğəmbərindən böyük Həcc günü*** (Zülhiccə ayında vacib, fərz olan Həcc; Qurban bayramı və ya Ərəfə günü*) **insanlara bir bildiriş! Allahın və Onun Peyğəmbərinin müşriklərlə heç bir əlaqəsi yoxdur. Əgər*** (küfrdən və şirkdən) ***tövbə etsəniz, bu sizin üçün xeyirli olar. Əgər*** (imandan) ***üz döndərsəniz, bilin ki, Allahın əzabından qaçıb canınızı qurtara bilməzsiniz.*** (Ey Peyğəmbərim!) ***Kafir olanları şiddətli bir əzabla müjdələ!"*** ayəsi haqqında Cərir ət-Təbəri özünün məşhur "Təfsir" əsərində sənədli şəkildə Zeyd bin Yəsidən belə rəvayət edir: "Bəraət" surəsi nazil olduqda Peyğəmbər *(s)* onu Məkkə müşriklərinə çatdırmaq üçün əvvəlcə Əbu Bəkri yolladı. Sonra onun ardınca Əlini *(ə)* yolladı ki, surəni ondan alıb özü aparsın. Əbu Bəkr geri qayıdıb dedi: "Mənim haqqımda bir şey nazil olmuşdurmu?" Peyğəmbər *(s)* buyurdu: *"Xeyr, ancaq mənə əmr olundu ki, onu ya özüm, yaxud da Əhli-Beytimdən olan biri aparsın"*.

**وأخرج (الفقيه الشافعي) جلال الدين السّيوطي في تفسيره، عن ابن أبي حاتم، عن حكيم بن حميد، قال: قال لي علي بن الحسين (رضي الله عنه): إن لعلي في كتاب الله اسماً ولكن لا يعرفونه.**
**قلت: ما هو؟**
**قال: ألم تسمع قول الله:**
**((وَأَذانٌ مِنَ اللهِ وَرَسُولِهِ إِلَى النَّاس يَوْمَ الْحَجِّ الأَكْبَرِ)).**
**هو والله الأذان.**[980]

Cəlaləddin Suyutu əş-Şafei özünün məşhur "Durrul-mənsur" adlı təfsir əsərində İbn Hatəmdən, onun da Həkim bin Həmiddən belə nəql etdiyini yazır: "Əli bin Hüseyn *(ə)* mənə buyurdu*: "Əlinin Allahın Kitabında elə bir adı vardır ki, onu kimsə bilmir"*. Dedim: "Hansı addır?" Buyurdu: ***"Allahdan və Onun Peyğəmbərindən böyük Həcc günü*** (Zülhiccə ayında vacib, fərz olan Həcc; Qurban bayramı və ya Ərəfə günü*) **insanlara bir bildiriş! Allahın və Onun Peyğəmbərinin müşriklərlə heç bir əlaqəsi yoxdur..."** ayəsini eşitməmisən? Əli ayədəki* ***"bildiriş"****dir* (yəni, azandır)*"*.

**وأخرج الإمام الشيخ محمد الطاهر بن عاشور، في تفسيره (التحرير والتنوير) قال:**
**(وهذا الأذان قد وقع في الحجّة التي حجّها أبو بكر بالنّاس، إذ ألحق رسول الله ـ عليه الصلاة والسلام ـ علي بن أبي طالب بأبي بكر موافياً الموسم ليؤذن ببراءة، فأذن بها علي يوم النحر بمنى،**

---

[979] جامع البيان في تفسير القرآن/ ج10/ ص46.
[980] الدّر المنثور/ تفسير سورة التوبة/ أولها.

**من أولها إلى ثلاثين أو أربعين آية منها، كذا ثبت في الصحاح والسنن بطرق مختلفة يزيد بعضها على بعض.**[981]

Şeyx Məhəmməd Tahir bin Aşur "ət-Təhrir vət-Tənvir" adlı təfsir əsərində yazır: "Bu ***"bildiriş"*** (azan) Həcdə Əbu Bəkr insanlarla birlikdə həcc edərkən vaqe olmuşdur. Peyğəmbər *(s)* Əli bin Əbu Talibi *(ə)* Əbu Bəkrə göndərərk surəni ondan alıb insanlara çatdırmasını əmr etmişdir. Əli *(ə)* Qurban günü Minada surəni əvvəlindən 30-cu, yaxud da 40-cı ayələrinə kimi insanlara tilavət edib çatdırdı. Bu müxtəlif hədis kitablarında müxtəlif yollarla sübut olunmuşdur".

**وأخرج علاّمة الشام، محمد جمال الدين القاسمي، في تفسيره المسمّى بمحاسن التأويل، المعروف (بالتفسير القاسمي) قال: (وروى ابن إسحاق قال: لمّا نزلت (براءة) على رسول الله (صلى الله عليه وسلّم) قيل له: يا رسول الله لو بعثت بها إلى أبي بكر؟ فقال (صلى الله عليه وآله وسلّم): لا يؤدي عنّي إلاّ رجل من أهل بيتي، ثم دعا علي بن أبي طالب ـ رضوان الله عليه ـ فقال له أخرج بهذه القصة من صدر براءة، وأذّن في النّاس يوم النّحر، إذا اجتمعوا بمنى الخ.**[982]

Əllamə Məhəmməd Cəmaləddin əl-Qasimi özünün "Təfsiri-Qasimi" adlı əsərində yazır: "İbn İshaqdan nəql olunmuşdur ki, "Tövbə" surəsi nazil olduqda Peyğəmbərdən *(ə)* soruşuldu: "Ya Rəsulullah *(s)*, onu Əbu Bəkrlə göndərəcəksən?!" O Həzrət *(s)* buyurdu: *"Xeyr. Onu yalnız Əhli-Beytimdən olan bir şəxs aparacaq"*. Sonra Peyğəmbər *(s)* Əlini *(ə)* çağırdı və ona buyurdu: *"Bunu apar, Qurban günü insanlar Minaya toplaşdıqları zaman onlara çatdır"*.

Xatırladaq ki, bu hədisi aşağıda qeyd etdiyimiz təfsir müəllifləri də öz əsərlərində qeyd etmişlər.[983]

Müasir Misir təfsirçisi Əbdülkərim əl-Xətib özünün "Təfsirul-Qurani lil-Quran" adlı məşhur əsərində yazır:

**وما كاد أبو بكر ينفصل عن المدينة في طريقه إلى البلد الحرام، حتى تلقى رسول الله (صلى الله عليه وسلّم) من ربّه هذه الآيات الأولى من سورة براءة، فجعل إلى علي بن أبي طالب أنْ يؤدي عنه هذا الأمر، وأنْ يؤذن به في النّاس يوم الحجِّ الأكبر).**[984]

"Əbu Bəkr Məkkəyə çatmağa az qalmışdı ki, Allah Peyğəmbərə *(s)* göstəriş verdi, bu işi Əli bin Əbu Talib *(ə)* həyata keçirsin, böyük Həcc günündə surəni onlara təbliğ etsin".

Qeyd etmək lazımdır ki, bu fikri aşağıda qeyd etdiyimiz alimlər də öz əsərlərində yazmışlar.[985]

---

[981] تفسير التحرير والتنوير/ ج10/ ص100.

[982] تفسير القاسمي/ ج8/ ص3069.تفسير المنار/ ج10/ ص157.

[983] نظم الدر/ ج8/ ص365-364.

[984] التفسير القرآني للقرآن/ ج5/ ص698.

[985] حاشية أنوار التنزيل/ لا رقم لصفحاته.المناقب للخوارزمي/ ص223.المناقب للخوارزمي/ ص24.المناقب لابن المغازلي/

**((وَإِنْ نَكَثُوا أَيْمانَهُمْ مِنْ بَعْدِ عَهْدِهِمْ وَطَعَنُوا فِي دِينِكُمْ فَقاتِلُوا أَئِمَّةَ الْكُفْرِ إِنَّهُمْ لا أَيْمانَ لَهُمْ لَعَلَّهُمْ يَنْتَهُونَ)).التوبة/ 12.**

**روى الحافظ الحاكم الحسكاني (الحنفي) قال: حدّثنا محمد بن الفضل (بإسناده المذكور) عن أبي عثمان الهندي قال: رأيت علياً يوم الجمل، وتلا هذه الآية: ((وَإِنْ نَكَثُوا أَيْمانَهُمْ مِنْ بَعْدِ عَهْدِهِمْ)) فحلف عليٌّ بالله ما قوتل أهل هذه الآية منذ نزلت، إلا اليوم.**[986]

***"Əgər əhd bağladıqdan sonra andlarını pozsalar və dininizi yamanlayıb təhqir etsələr,*** (sözlərinin üstündə durmayan) ***küfr başçıları ilə vuruşun. Onların həqiqətdə andları*** (əhdləri) ***yoxdur*** (onlar üçün heç bir andın, əhdin əhəmiyyəti yoxdur)**.** ***Bəlkə,*** (bu yaramaz işlərdən) ***əl çəkələr!"*** ayəsinin təfsiri haqqında Hakim əl-Həskani yazır: "Məhəmməd bin Fəzzal bizə sənədli şəkildə Əbu Osman əl-Hindidən belə rəvayət etdi: "Əlini *(ə)* Cəməl müharibəsində gördüm. O, bu ayəni tilavət edirdi. O, Allaha and içmişdi ki, bu ayənin əhli ilə yalnız bu gün döyüşür".

**وروى الحسكاني أيضاً، قال: أخبرنا عبد الرحمن بن الحسن (بإسناده المذكور) عن أبي عثمان، مؤذن بني قصي قال:**
**صحبت علياً سنةً كلَّها فما سمعت منه براءة ولا ولاية إلاّ أنّي سمعته يقول:**
**(من يعذرني من فلان وفلان**[987]**. إنهما بايعاني طائعين غير مكرهين ثم نكثا بيعتي، من غير حدث أحدثت، والله ما قوتل أهل هذه الآية:**
**عن جابر بن عبد الله قال: كنّا عند النبي صلى الله عليه وسلم فأقبل علي بن أبي طالب، فقال النبي صلى الله عليه وسلم: قد أتاكم أخي. ثمّ التفت إلى الكعبة فضربها بيده، ثمّ قال: والذي نفسي بيده، إنّ هذا وشيعته لهم الفائزون يوم القيامة، ثمّ قال: إنّه أوّلكم إيماناً معي، وأوفاكم بعهد الله، وأقومكم بأمر الله، وأعدلكم في الرعية، وأقسمكم بالسوية، وأعظمكم عند الله مزية. قال: ونزلت "إنّ الذين امنوا وعملوا الصالحات أولئك هم خير البرية" قال: فكان أصحاب محمّد صلى الله عليه وسلم إذا أقبل علي قالوا قد جاء خير البرية.**[1186]

**عن جابر بن عبد الله قال: لمّا قدم علي بن أبي طالب بفتح خيبر، قال له النبي صلى الله عليه وسلم: يا علي، لولا أن تقول طائفة من أمّتي فيك ما قالت النصارى في عيسى بن مريم؛ لقلت فيك مقالاً لا تمرّ بملأٍ من المسلمين إلاّ أخذوا التراب من تحت رجليك، وفضل طهورك يستشفون بهما، ولكن حسبك أن تكون منّي وأنا منك ترثني وأرثك، وأنت منّي بمنزلة هارون من موسى، غير أنّه لا نبي بعدي، وأنت تبرئ ذمّتي وتستر عورتي، وتقاتل على سنّتي، وأنت غداً في الآخرة أقرب الخلق منّي، وأنت على الحوض خليفتي، وإنّ شيعتك على منابر من نور مبيضةٌ وجوههم حولي، أشفع لهم ويكونون في الجنّة جيراني، وإنّ حربك حربي، وسلمك سلمي، وسريرتك سريرتي، وعلانيتك علانيتي، وإنّ ولدك ولدي، وأنت تقضي ديني وأنت تنجز وعدي، وإنّ الحقّ على لسانك، وفي قلبك، ومعك، وبين يديك، ونصب عينيك، الإيمان مخالط لحمك ودمك، كما خالط لحمي ودمي، لا يرد عليّ الحوض مبغض لك، ولا يغيب عنه محبّ لك.**

**فخرّ علي عليه السلام ساجداً وقال: الحمد لله الذي مَن عليّ بالإسلام، وعلّمني القرآن، وحبّبني إلى خير البرية، وأعزّ الخليقة، وأكرم أهل السماوات والأرض على ربّه، وخاتم النبيين، وسيّد المرسلين، وصفوة الله في جميع العالمين إحساناً من الله العليّ إليّ، وتفضّلاً منه عليّ.**

**فقال له النبي صلى الله عليه وسلم: لولا أنت يا علي ما عرف المؤمنون بعدي، لقد جعل الله عزّ وجل نسل كلّ نبيّ من صلبه، وجعل نسلي من صلبك، يا علي فأنت أعزّ الخلق، وأكرمهم عليّ، وأعزّهم عندي، ومحبّك أكرم من يرد عليّ من أمّتي.**[1187]

**عن علي قال: قال لي سلمان قلّما طلعت على رسول الله صلى الله عليه وسلم وأنا معه إلاّ ضرب بين كتفي فقال: يا سلمان هذا وحزبه المفلحون.**

**قال السيّد أبو الحسن: قدوهم فيه وعيسى بن محمّد بن عبد الله بن عمر بن محمّد بن علي هو ابن الحنفية فيما أظن والله أعلم.**[1188]

**عن عبد الرحمن بن زيد بن أسلم، عن أبيه في قول الله تعالى صراط الذين أنعمت عليهم. قال:**

---

1184 Həmin mənbə.

1185 İbn Məğazili, əl-Mənaqib, səh. 357, hədis № 335.

1186 İbn Əsakir, Tarixi-mədinəti-Diməşq, c. 42, səh. 371.

1187 İbn Məğazili, əl-Mənaqib, səh. 305, hədis № 285.

1188 İbn Əsakir, Tarixi-mədinəti-Diməşq, c. 42, səh. 332.

**النبي ومن معه وعلي بن أبي طالب وشيعته.**[1189]

**عن مينا مولى عبد الرحمن بن عوف قال: قال عبد الرحمن: يا مينا ألا أحدثك حديثا قبل أن تشاب الأحاديث بالاباطيل؟ سمعت رسول الله صلى الله عليه وآله وسلم يقول: أنا شجرة وفاطمة فرعها وعلي لقاحها، وحسن وحسين ثمرها، ومحبّوهم من أمّتي ورقها. ثمّ قال: هم في جنّة عدن والذي بعثني بالحق.**[1190]

**عن ابن عباس قال: سألت رسول الله صلى الله عليه وآله عن قول الله: والسابقون السابقون أولئك المقربون. قال صلى الله عليه وآله: حدّثني جبرئيل بتفسيرها قال: ذاك علي وشيعته إلى الجنّة.**[1191]

**عن عبد الله بن عباس في قول الله عزّ وجل: ذلك الكتاب لا ريب فيه. يعني لا شكّ فيه أنّه من عند الله نزل "هدى" يعني بياناً ونوراً "للمتّقين" علي بن أبي طالب الذي لم يشرك بالله طرفة عين، اتّقى الشرك وعبادة الأوثان وأخلص لله العبادة، يبعث إلى الجنّة بغير حساب هو وشيعته.**[1192]

**عن ابن عباس قال: ومن يتولّى الله. يعني يحبّ الله ورسوله.يعني محمّداً والذين آمنوا. يعني ويحبّ علي بن أبى طالب فإنّ حزب الله هم الغالبون. يعني شيعة الله وشيعة محمّد وشيعة علي هم الغالبون يعني العالون على جميع العباد الظاهرون على المخالفين لهم.**

**قال ابن عباس: فبدأ الله في هذه الآية بنفسه ثمّ ثنّى بمحمّد، ثمّ ثلّث بعلي. ثمّ قال: فلّما نزلت هذه الآية قال رسول الله صلى الله عليه وآله وسلم: رحم الله علياً، اللهم أدر الحقّ معه حيث دار.**

**قال ابن مؤمن: لا خلاف بين المفسّرين أنّ هذه الآية نزلت في أمير المؤمنين علي عليه السلام.**[1193]

**عن أبي الجارود عن محمّد بن علي {أولئك هم خير البرية} فقال النبي صلى الله عليه وسلم: أنت يا علي وشيعتك.**[1194]

Əlbəttə ki, bu hədis və mənbələrin sayını uzatmaq da olardı. Lakin müxtəsər olsun deyə bunları qeyd etdik. Bütün bunlardan əlavə, Şeyx Zeynüddin Əbdürrəuf əş-Şafeinin "Kənzül-həqaiq", Cəlaləddin Süyutinin (1445-1505) "əl-Camiüs-səğir", İbn Cövzi əl-Hənəfinin (1120-1201) "Təzkirətül-xəvvas", Təbərinin "Təfsirül-kəbir", İbn Səbbağın (1009-1084) "Füsulul-mühimmə", Hakim Nişapurinin "Müstədrək əla səhiheyn", Məsudinin "Murucüz-zəhəb", Xətib əl-Bağdadinin (1002-1071) "Tarixi-Bağdad", Əbu Cəfər Əhməd ət-Təbərinin "ər-Riyazün-nəzrə", Şeyx Səduq Məhəmməd bin Babaveyh əl-Quminin (915-991) "Amali-Səduq", Şeyx Məhəməd bin Həsən ət-Tusinin (998-1068) "Amali-Tusi", Əllamə Məhəmməd Bağır Məclisinin (1628-1700) "Biharül-ənvar", Əllamə Məhəmməd Hüseyn Hairi Əlәminin (XX əsr) "Dairətül-məarif", Şeyx Nəcməddin Cəfər bin Məhəmməd əl-Əskərinin (XX əsr) "Əli və əş-Şiə", və s. əsərlərində Peyğəmbərimizin *(s)* İmam

[1189] Hakim əl-Həskani, Şəvahidüt-tənzil, c. I, səh. 385.
[1190] Həmin mənbə, səh. 407.
[1191] Həmin mənbə, c. II, səh. 215.
[1192] Həmin mənbə, c. I, səh. 86.
[1193] Həmin mənbə, c. I, səh. 246.
[1194] Təbəri, Təfsiri-Təbəri (Camiül-bəyan), c. 30, səh. 335.

Əlinin *(ə)* və İmamın *(ə)* Əhli-Beytinin *(ə)* tərəfdarları olmağı vacib buyurması qeyd edilmişdir.

Əbuzər rəvayət edir: "Əli bin Əbu Talibdən *(ə)* eşitdim ki, buyururdu: *"Bir kişi mənə qarşı fəxr etmişdi. Bunu eşidən Peyğəmbər mənim üçün buyurdu: "Ərəblər sənə qarşı fəxr edirlər, halbuki sən onların içində ən kəramətli əmoğlusan, ən kəramətli yeznəsən, ən kəramətli şəxssən, ən kəramətli zövcəyə sahibsən, ən kəramətli qardaşsan, ən kəramətli əmisən, ən kəramətli övlad sahibisən, helm baxımından ən əzəmətli, elm baxımından ən bilikli, ən birinci müsəlman, canın və malınla İslama ən yaxşı köməkçi, Allahın Kitabını ən yaxşı oxuyan, mənim Sünnəmi ən yaxşı bilən, ən şücaətli, ailəsinə qarşı onların ən comərdi, dünyada onların ən zahidi, verdiyin qərarlarında onların ən güclüsü, əxlaqca onların ən yaxşısı, danışıqda onların ən doğruculu, Allaha və mənə qarşı onların ən sevimlisisən. Məndən sonra otuz il yaşayacaq, Qüreyşin sənə qarşı olan zülmünə dözəcək, sonra əgər kömək tapsan, onlarla Allah yolunda döyüşəcəksən. Quranın yozumu haqqında onlarla müharibə edəcəksən, necə ki, mənimlə birlikdə onun nazil olması üçün cihad edirdin. Sonra səni şəhid edib başının qanı ilə saqqalını boyayacaqlar..."*.[1195]

Səlim bin Qeys rəvayət edir: "Bir kişi Əli bin Əbu Talibə *(ə)* sual etdi. Mən onun sualını eşidirdim. O, dedi: "Özünün ən üstün cəhətlərini mənə de". Əli *(ə)* buyurdu: *"Bunları Allah Öz Kitabında buyurmuşdur"*. Həmin kişi dedi: "Allah Kitabında nə buyurub?" İmam *(ə)* buyurdu: ***"Məgər Rəbbindən açıq-aydın bir dəlilə*** (Qurana) ***istinad edən, ardınca Allahdan bir şahid*** (Cəbrail) ***gələn, ondan da əvvəl Musanın*** (öz ümməti üçün) ***bir rəhbər və mərhəmət olan kitabının*** (Tövratın) ***təsdiq etdiyi kimsə*** (dünyaya meyl edənlər, ona bel bağlayanlar kimi ola bilərmi)***?! Bunlar*** (bu dəlilləri təsdiq edən müsəlmanlar) ***Qurana inanırlar.*** (Ya Rəsulum!) ***Quranı inkar edən zümrənin*** (bütün müşriklərin və kafirlərin) ***vəd olunduğu yer Cəhənnəmdir. Artıq sən də onun barəsində şübhəyə düşmə. O sənin Rəbbindən*** (gələn) ***haqdır, lakin insanların*** (Məkkə əhlinin) ***əksəriyyəti*** (buna) ***inanmaz!"***[1196] *ayəsini mənim haqqımda buyurmamışdımı? Mən Peyğəmbərin şahidi deyiləmmi? Allah:* **"**(Ya Rəsulum!) ***Kafirlər: "Sən peyğəmbər deyilsən!" - deyirlər.*** (Onlara) ***belə cavab ver: "Mənimlə sizin aranızda*** (doğruluğuma) ***Allahın və kitabı bilənlərin*** (Tövratı, İncili bilən mömin yəhudi və xaçpərəstlərin, yaxud Qurana bələd olan mömin müsəlmanların və ya lövhi-məhfuzdan xəbərdar olan Cəbrailin) ***şahid olması yetər!"***[1197] *buyurmurmu?*

[1195] ət-Təbərisi, əl-Ehticac, səh. 73.
[1196] "Hud", 17.
[1197] "ər-Rəd", 43.

*Ayədəki* ***"Elmül-kitab"*** *mən deyiləmmi? Allahın:* ***"Sizin haminiz ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki,*** (Allaha) ***namaz qılır və rükuda olduqları halda zəkat verirlər";***[1198] ***"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan əmr sahiblərinə itaət edin! Əgər bir iş barəsində mübahisə etsəniz, Allaha və Qiyamət gününə inanırsınızsa, onu Allaha və Peyğəmbərə həvalə edin! Bu daha xeyirli və nəticə etibarilə daha yaxşıdır"***[1199] *ayələri mənim şənimə enməyibmi?"* Bunları eşidən şəxs dedi: "İndi məni Peyğəmbərin *(s)* sənin haqqında buyurduğu fəzilətlərdən xəbərdar et!" İmam *(ə)* buyurdu: *"Qədir-Xumda yalnız mənim vilayətimi Allahın əmri ilə demədimi?: "Sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir. Amma məndən sonra heç bir peyğəmbər olmayacaq".*

Peyğəmbər *(s)* buyurmuşdur: *"Ya Əli, Allah səni xeyirlə müjdələdi! Mən Rəbbimdən elə bir şey istəməmişəm ki, onu mənə verməmiş olsun. Mən özüm haqqımda deyil, yalnız sənin haqqında istəmişəm. Mən dua etdim ki, səni mənimlə qardaş etsin və etdi. Mən dua etdim ki, məndən sonra səni hər bir mömin və mömînə üçün rəhbər etsin və etdi".*[1200]

İmam Musa əl-Kazim *(ə)* ata-babası vasitəsilə İmam Əlidən *(ə)* belə nəql edir: *"Mən Quba məscidinə daxil oldum. Orada Peyğəmbər bir neçə səhabəsilə birlikdə oturmuşdu. Məni görcək dişləri görsənənədək gülümsədi və buyurdu: "Yanıma gəl, ya Əli!" O qədər yaxınlığında oturdum ki, dizim dizinə toxunurdu. O, məni səhabələrinə təqdim edib buyurdu: "Ey səhabələrim, sizə rəhmət olan qardaşımı təqdim edirəm! Ey səhabələrim, Əli məndən, mən də Əlidənəm! Onun ruhu mənim ruhumdan, xasiyyəti isə mənim xasiyyətimdəndir. O, mənim həyatımda və ölümümdən sonra qardaşım, vəsim və xəlifəmdir. Ona itaət mənə itaət, onunla müvafiq olmaq mənimlə müvafiq olmaq, ona qarşı olmaq isə mənə qarşı olmaqdır".*[1201]

Peyğəmbər *(s)* buyurdu: *"Ya Əli, sən mənim qardaşım, vəzirim, dünya və Axirətdə işlərimin sahibisən. Sən* (Kövsər) *hovuzumun sahibisən. Səni sevən məni sevir, sənə nifrət edən mənə nifrət edir".*[1202]

**حب علي ايمان و بغضه نفاق**

*"Əliyə məhəbbət imandandır, ona nifrət küfrdür";*[1203]

---

[1198] "əl-Maidə", 55.
[1199] "ən-Nisa", 59.
[1200] Əllamə Məclisi, Biharül-ənvar, c. 40.
[1201] Amali-Səduq, səh. 22-23.
[1202] Biharül-ənvar, c. 40.
[1203] Səhihi-Tirmizi, Mənaqib, 46; Səhihi-Müslim, c. I, səh. 161.

**علي مني و انا من علي.**
**عن سالم ابن أبي الجعد قال: قلت لجابر: حدثني عن علي؟ قال: كان من رجال الجنة قال: قلت يا جابر كيف تقول فيمن يبغض عليا قال: ما يبغضه إلا كافر.**

Salim bin Əbi əl-Cəd deyir: “Cabirə dedim ki, mənə Əli *(ə)* haqqında hədis danışsın. O, dedi: “Əli *(ə)* cənnətlik insanlardandır”. Dedim: “Ey Cabir, ona nifrət edənlər haqqında nə deyə bilərsən?” Dedi: “Ona yalnız kafir olan şəxs nifrət edər”.[1204]

**بسنده عن زيد بن أرقم، قال: قال رسول الله(صلى الله عليه وآله وسلم): من يريد أن يحيى حياتي، ويموت موتي، ويسكن جنّة الخلد التي وعدني ربّي، فليتولّ علي بن أبي طالب، فإنّه لن يخرجكم من هدى، ولن يدخلكم في ضلالة.**

Zeyd bin Ərqəm rəvayət edir: “Peyğəmbər *(s)* buyurdu: *“Hər kəs mənim kimi yaşamaq, mənim kimi ölmək və Rəbbimin mənə vədə verdiyi Xüld cənnətində mənimlə birlikdə yaşamaq istəyirsə, Əbu Talib oğlu Əlini özünə rəhbər götürsün. Çünki, o, sizi heç vaxt doğru yoldan çıxarıb zəlalətə salmaz”*.[1205]

Bu hədis İmamiyyə qaynaqlarında aşağıdakı kimi nəql olunub:

**قال رسول الله (صلى الله عليه وآله): من أراد أن يحيى حياتي وان يموت مماتي وأن يسكن جنة الخلد التي وعدني ربي فليتول علي بن أبي طالب ويتول ذريته من بعده فانهم خلقوا من طينتي ورزقوا فهمي وعلمي، فويل للمكذبين بفضلهم من امتي القاطعين فيهم صلتي، لا أنالهم الله شفاعتي.**

Peyğəmbər *(s)* buyurub: *“Hər kəs mənim kimi yaşamaq, mənim kimi ölmək və Xüld cənnətində mənimlə birlikdə yaşamaq istəyirsə, Əbu Talib oğlu Əlini və onun zürriyyətindən gələn (imamları) özünə rəhbər götürsün. Həqiqətən, onlar mənim torpağımdan yaradılmış, fəhmimdən və elmimdən qidalanmışlar. Ümmətimdən onların fəzilətlərini yalan sayanların vay halına! Allah onlara şəfaətimi nail etməyəcək”*.[1206]

**قال: وعن زيد بن أرقم، قال: قال رسول الله(صلى الله عليه وآله وسلم): من أحبّ أن يستمسّك بالقضيب الاحمر الذي غرسه الله في جنّة عدن، فليستمسك بحبّ علي.**

Həmçinin, o Həzrət *(s)* buyurub: *“Hər kəs Allahın Ədn cənnətində əkdiyi qırmızı ağacdan yapışmaq istəyirsə, Əlinin sevgisindən yapışsın”*.[1207]

---

1204 Əllamə Şeyx Hüsaməddin əl-Hənəfi, Ali-Muhəmməd, məktəbəti-seyyid əl-Əşkuri, səh. 126; Seyyid Mərəşi, Şərhi-ehqaqül-həqq, c. XXII, səh. 457.

1205 Müstədrəki-Hakim, c. III, səh. 128.

1206 Amali-Şeyx Tusi, c. II, səh. 191; Amali-Şeyx Səduq, səh. 39; Bəşarətül-Mustafa *(s)*, səh. 402. Xatırladaq ki, bu hədis azca fərqli formada İbn Həcər əl-Əsqəlani (əl-İsabə fi təmyizis-səhabə, c. I, səh. 541), Əllamə əl-Hindi (Kənzül-ümmal, c. VI, səh. 155) kimi Əhli-sünnə qaynaqlarında da qeyd olunmuşdur.

1207 Təbəri, Riyazün-nəzrə, c. VI, səh. 215; Qunduzi əl-Hənəfi, Yənabiül-məvəddə, səh. 136, 313; Heysəmi, Məcməüz-zəvaid, c. IX, səh. 108; İbn Əsakir əş-Şafei, Tarixi-Diməşq, c. II, səh. 95.

Peyğəmbərin *(s)* Əliyə *(ə)* olan sevgisini ifadə edən digər bir rəvayət isə belədir: "Peyğəmbər *(s)* əmisi Abbasla oturarkən İmam Əli *(ə)* gəldi və onlara salam verdi. Peyğəmbər *(s)* onun salamını aldı, ayağa qalxıb onu qucaqladı, alnından öpərək sağ tərəfinə oturtdurdu. Abbas Peyğəmbərdən *(s)* "Onu sevirsənmi?" - deyə soruşduqda, o Həzrət *(s)* *"Ey əmi! Bunu çox sevirəm, Allah bütün peyğəmbərlərin zürriyyətini öz sülbündən* (belindən)*, mənim nəslimi isə bunun sülbündən* (belindən) *davam etdirmişdir"* - deyə cavab verdi".[1208]

**عن المساور الحميري عن أمه قالت: دخلت على أم سلمة سمعتها تقول: كان رسول الله صلّى الله عليه وآله وسلّم يقول: لا يحب علياً منافق، ولا يبغضه مؤمن.**

Müsavir əl-Hümeyri anasından nəql edir: "Ümmü Sələmənin yanına daxil olduğum zaman dedi: "Əlini *(ə)* münafiq olan sevməz, mömin olansa ona heç vaxt nifrət etməz".[1209]

**روى السيد ابن طاووس بأسناده عن صالح بن ميثم عن أبيه، قال: "سمعت ابن عباس يقول: سمعت رسول الله صلّى الله عليه وآله وسلّم يقول: من لقى الله تعالى وهو جاحد ولاية علي بن أبي طالب عليه السّلام لقي الله وهو عليه غضبان لا يقبل الله منه شيئاً من أعماله، فيوكل به سبعون ملكاً يتفلون في وجهه، ويحشره الله تعالى أسود الوجه أزرق العين، قلنا يا ابن عباس: أينفع حب علي بن أبي طالب في الآخرة؟ قال: قد تنازع أصحاب رسول الله صلّى الله عليه وآله وسلّم في حبه حتى سألنا رسول الله، فقال: دعوني حتى أسأل الوحي، فلما هبط جبرئيل سأله، فقال: أسأل ربي عزّوجل عن هذا فرجع إلى السماء، ثم هبط إلى الأرض، فقال: يا محمّد، إن الله تعالى يقرأ عليك السلام وقال: أحب علياً، فمن أحبه فقد أحبني ومن أبغضه فقد أبغضني، يا محمّد حيث تكن يكن علي،وحيث يكن علي يكن محبوه وإن اجترحو.**

Seyid bin Tavus, Saleh bin Meysəm vasitəsilə onun atasından rəvayət edir: "İbn Abbasdan eşitdim ki, deyirdi: "Peyğəmbərdən *(s)* belə eşitdim: *"Hər kəs Əbu Talib oğlu Əliyə nifrət edərək Allahla görüşsə, Allah ona qəzəblənər, onun əməllərindən heç bir şey qəbul etməz. Allah o şəxsi üzüqara, göygöz halda dirildər"*. Dedik: "Ey İbn Abbas, Əbu Talib oğlu Əlini *(ə)* sevmək Axirətdə fayda verərmi?!" Dedi: "Peyğəmbərin *(s)* səhabələri Əlini *(ə)* sevmək haqqında bir-birilərilə münaqişə etdilər. Buna görə də Peyğəmbərə *(s)* müraciət etdik. O, buyurdu: *"Vəhy gələnədək gözləyək"*. Bu zaman Cəbrail *(ə)* endi və ondan soruşdu. Cəbrail *(ə)* buyurdu: *"Bunu Rəbbimdən soruşum"*. O, səmaya yüksəldi, sonra Yerə qayıtdı və buyurdu: *"Ya Muhəmməd, Allah sənə salam göndərir və belə buyurur: "Əlini sevirəm,*

---

[1208] İmam Əli *(ə)* haqqında daha geniş məlumat üçün bax: İbn Səd, Təbəqat, əz-Zəhrai lil-İləmil-Ərəbi, Qahirə, 1988; M. Yaşar Kandemir, "Ali", DİA, c. II, səh. 371-8; Ahmet Ağırakça, "Ali İbn Ebi Talib", ŞİA, c. I, səh. 108-11; İbrahim Quliyev, Hədisi-şəriflərdə müqəddəs şəhərlər və onların tarixi, Bakı, 2012.

[1209] Sünəni-Tirmizi, "fəzailu-Əli bin Əbi Talib" bölümü.

*hər kəs Əlini sevsə, Məni sevmişdir. Hər kəs ona nifrət etsə, Mənə nifrət etmişdir. Ya Muhəmməd, harada olsan Əli orada olar, Əli harada olsa, onun məhbubları, hətta günah işlətmiş olsalar da oradadırlar...".*[1210]

**ويروى أنه لما نام على فراشه صلى الله عليه وسلم ، قام جبريل عند رأسه ، وميكائيل عند رجليه، وجبريل ينادي : بخ بخ ، من مثلك يا ابن أبي طالب ، يباهي الله بكالملائكة ، ونزلت الآية ، يعني بها :(ومن الناس من يشري نفسه ابتغاء مرضاة الله * والله رؤوف بالعباد).**

Rəvayət olunur ki, İmam Əli *(ə)* Peyğəmbərin *(s)* yatağında yatdıqda Cəbrail *(ə)* o Həzrətin *(ə)* baş, Mikail *(ə)* isə ayaq tərəfində durdular və Cəbrail *(ə)* belə nida etdi: *"Sənin üçün mübarək olsun, kim sənin kimi ola bilər ya Əbu Talibin oğlu! Allah səninlə mələklərinin önündə fəxr edir"*. Bu zaman ***"İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda*** (Allah rizası üçün) ***öz canını fəda edər. Allah Öz bəndələrinə qarşı çox mehribandır!"***[1211] ayəsi nazil oldu.[1212]

**عن أنس بن مالك، قال: قلنا لسلمان: سل النبي صلّى اللّه عليه و آله عن وصيه، فقال له سلمان: يا رسول اللّه، من وصيك؟ قال: يا سلمان من كان وصيّ موسى؟**
**قال: يوشع بن نون. قال: فان وصيي و وارثي، يقضي ديني، و ينجز موعدي، علي بن أبي طالب.**

Ənəs bin Malik rəvayət edir: "Salmana dedik ki, Peyğəmbərdən *(s)* vəsisinin kim olduğunu soruşsun. Salman dedi: "Ya Rəsulullah *(s)*, sizin vəsiniz kimdir?!" Peyğəmbər *(s)* buyurdu: *"Ey Salman, Musanın vəsisi kim idi?!"* Salman dedi: "Yuşə bin Nun *(ə)*". Peyğəmbər *(s)* buyurdu: *"Mənim vəsim, varisim, borclarımı ödəyən və vədəmə əməl edən Əbu Talib oğlu Əlidir"*.[1213]

IX əsrin ən məşhur hədis alimlərindən olan Buxari və Müslimin İmam Əli *(ə)* haqqında dedikləri hədisləri burada qeyd etmək o Həzrətin *(ə)* İslamdakı mövqeyini bir daha bəyan edər. Həmin hədislər aşağıdakılardır:

**قال البخاري: حدثنا قتيبة بن سعيد حدثنا يعقوب بن عبد الرحمن عن أبي حازم قال أخبرني سهل بن سعد رضي الله عنه أن رسول الله صلى الله عليه وسلم قال: " يوم خيبر ثم لأعطين هذه الراية غدا رجلا يفتح الله على يديه يحب الله ورسوله ويحبه الله ورسوله قال فبات الناس يدوكون ليلتهم أيهم يعطاها فلما أصبح الناس غدوا على رسول الله صلى الله عليه وسلم كلهم يرجو أن يعطاها فقال أين علي بن أبي طالب فقيل هو يا رسول الله يشتكي عينيه قال فأرسلوا إليه فأتي به فبصق رسول الله صلى الله عليه وسلم في عينيه ودعا له فبرأ حتى كأن لم يكن وجع فأعطاه الراية فقال علي يا رسول الله**

---

[1210] ət-Təraif, c. I, səh. 156.

[1211] "əl-Bəqərə", 207.

[1212] Cəlaləddin Süyuti, Üsdul-qabə, c. IV, səh. 103-104; Fəzailu-xəmsə, c. II, səh. 309; Şirveyh bin Şəhrdar "Firdövsil-əxbar" əsərində nəql edib.

[1213] Əhməd bin Hənbəl, Fəzailüs-səhabə, mərkəzi-bəhsil-elmi, Məkkə, 1403 h/q, c. II, səh. 615; əl-Mühib ət-Təbəri, Riyazün-nəzrə, darül-mərifə, Bayrut, 1418 h/q, c. III, səh. 119; Mühib ət-Təbəri, Zəxairül-üqba, darül-mərifə, Beyrut, səh. 71; Sibt bin Cövzi, Təzkirətül-xəvvas, səh. 48; Kənci əş-Şafei, Kifayətü-talib, dari-ehyait-türsi-Əhlil-beyt, Tahran, 1404 h/q, səh. 292, 72-ci fəsil.

**أقاتلهم حتى يكونوا مثلنا فقال انفذ على رسلك حتى تنزل بساحتهم ثم ادعهم إلى الإسلام وأخبرهم بما يجب عليهم من حق الله فيه فوالله لأن يهدي الله بك رجلا واحدا خير لك من أن يكون لك حمر النعم"**

Buxari rəvayət edir: "Peyğəmbər *(s)* Xeybər günü buyurmuşdur: *"Bu bayrağı sabah elə bir şəxsə verəcəyəm ki, onu Allah və Rəsulu sevir, o da Allah və Rəsulunu sevir"*. İnsanlar səhərədək yatmayıb o şəxsin kimliyini gözləyirdilər. Səhər açılanda hamı Peyğəmbərin *(s)* yanına toplaşıb bayrağın onlara verilməsini istəyirdi. Bu zaman Peyğəmbər *(s)* buyurdu: *"Əli bin Əbi Talib haradadır?"* Dedilər: "Gözlərindən şikayət edir". Peyğəmbər *(s)* İmamın *(ə)* ardınca adam göndərib yanına gətirilməsinə dair göstəriş verdi. Onu Peyğəmbərin *(s)* yanına gətirdilər. Peyğəmbər *(s)* ağzının suyundan İmam Əlinin *(ə)* gözlərinə çəkdi. Sanki İmamın *(ə)* gözləri heç vaxt ağrımamışdı. Sonra bayrağı Əliyə *(ə)* verdi. İmam Əli *(ə)* buyurdu: *"Ya Rəsulullah, müsəlman olana kimi onlarla vuruşacağam!"* Peyğəmbər *(s)* buyurdu: *"Tələsmə, onların sahəsinə girən zaman yavaş-yavaş yeri. Sonra onları İslama dəvət et və üzərilərinə vacib olan İslamın əsaslarını onlara xəbər ver. Allaha and olsun, onlardan tək bir nəfəri sənin səbəbinlə Allah hidayətə yönəldərsə, bu, sənin üçün qırmızı tüklü dəvələrdən daha xeyirli olar!"*.[1214]

**قال مسلم:حدثنا أبو بكر بن أبي شيبة حدثنا وكيع وأبو معاوية عن الأعمش ح وحدثنا يحيى بن يحيى واللفظ له أخبرنا أبو معاوية عن الأعمش عن عدي بن ثابت عن زر قال : " قال علي والذي فلق الحبة وبرأ النسمة إنه لعهد النبي الأمي صلى الله عليه وسلم إلي أن لا يحبني إلا مؤمن ولا يبغضني إلا منافق"**

Müslim rəvayət edir: "İmam Əli *(ə)* buyurdu: *"And olsun buğdanı cücərdənə və insanı yaradana! Peyğəmbər mənə "səni yalnız mömin sevər və sənə yalnız münafiq nifrət edər" - deyə buyurmuşdur"*.[1215]

**قال البخاري:حدثني أحمد بن سعيد أبو عبد الله حدثنا إسحاق بن منصور السلولي حدثنا إبراهيم بن يوسف عن أبيه عن أبي إسحاق: "سأل رجل البراء وأنا أسمع قال أشهد علي بدرا قال : بارز وظاهر"**

Buxari rəvayət edir: "Bir şəxs Bərradan soruşdu: "İmam Əli *(ə)* Bədr müharibəsində iştirak edibmi?" Bərra dedi: "İmam Əli *(ə)* bu müharibədə döyüşüb özünü göstərdi".[1216]

**قال مسلم:حدثنا قتيبة بن سعيد ومحمد بن عباد وتقاربا في اللفظ قالا حدثنا حاتم وهو بن إسماعيل عن بكير بن مسمار عن عامر بن سعد بن أبي وقاص عن أبيه قال: " ثم أمر معاوية بن أبي سفيان سعدا فقال ما منعك ان تسب أبا التراب فقال أما ما ذكرت ثلاثا قالهن له رسول الله صلى الله عليه وسلم فلن اسبه لان تكون لي واحدة منهن أحب الي من حمر النعم سمعت رسول الله صلى الله عليه وسلم يقول له خلفه في بعض مغازيه فقال له علي يا رسول الله خلفتني مع النساء والصبيان فقال**

---

1214 Səhihi-Buxari, hədis № 3973.

1215 Səhihi-Müslim, hədis № 78.

1216 Səhihi-Buxari,hədis № 3970.

**له رسول الله صلى الله عليه وسلم أما ترضى ان تكون مني بمنزلة هارون من موسى الا انه لا نبوة بعدي وسمعته يقول يوم خيبر لأعطين الراية رجلا يحب الله ورسوله ويحبه الله ورسوله قال فتطاولنا لها فقال ادعوا لي عليا فأتي به ارمد فبصق في عينه ودفع الراية إليه ففتح الله عليه ولما نزلت هذه الآية فقل تعالوا ندع أبناءنا وأبناءكم دعا رسول الله صلى الله عليه وسلم عليا وفاطمة وحسنا وحسينا فقال اللهم هؤلاء أهلي"**

Müslim rəvayət edir: "Amir bin Səd bin Əbu Vəqqas atasından rəvayət edir ki, Müaviyə Sədə dedi: "Səni Əbu Turaba (İmam Əliyə *(ə)* söyməkdən çəkindirən nədir?" Səd dedi: "Rəsulullahın *(s)* Əliyə *(ə)* söylədiyi üç şey vardır ki, onları xatırladıqda mən ona əsla söymərəm! Hətta bu üç şeydən birinə sahib olmağım mənim üçün qızıl tüklü qırmızı dəvə sürüsünə sahib olmağımdan da xeyirlidir? Müharibələrin birində Rəsulullah *(s)* Əlini *(ə)* öz yerində buraxdığı zaman Əli *(ə)* buyurdu: *"Ya Rəsulullah! Məni uşaq və qadınlarlamı buraxırsan?"* Peyğəmbər *(s)* buyurdu: *"Sən mənim yanımda Harunun Musanın yanında olduğu dərəcədə olmaqdan razı olmazsanmı?* (Sən eynilə o, mövqedəsən) *Yalnız, məndən sonra peyğəmbərlik yoxdur"*. Məhz mən bunun şahidi oldum. Bir də Xeybər günü o Həzrətin *(s)* belə buyurduğunu eşitdim: *"Bu bayrağı* (sabah) *elə bir kimsəyə verəcəyəm ki, o, Allahı və Rəsulunu sevir, Allah və Rəsulu da onu sevir!"* Həyəcanla bu kimsənin kim olduğunu görmək üçün gözlədik. Sonra Rəsulullah *(s)* buyurdu: *"Mənim yanıma Əlini çağırın!"* Əlini *(ə)* çağırdılar, gətirildi. Gözləri ağrıyırdı. Peyğəmbər *(s)* ağzının suyunu Əlinin *(ə)* gözlərinə sürtdü və bayrağı əlinə verdi. ***"...Ey Əhli-Beyt! Həqiqətən, Allah sizdən*** (hər cur) ***çirkinliyi*** (pisliyi, günahı) ***uzaq tutmaq və sizi pakdan pak etmək istər!"***[1217] ayəsi nazil olduğu zaman Əli *(ə)*, Fatimə *(ə)*, Həsən *(ə)* və Hüseyni *(ə)* yanına çağırıb buyurdu: *"Ey Rəbbim! Bunlar mənim Əhli-Beytimdir"*.[1218]

**قال البخاري:حدثنا عبيد الله بن موسى عن إسرائيل عن أبي إسحاق عن البراء رضي الله عنه قال:لما اعتمر النبي صلى الله عليه وسلم في ذي القعدة فأبى أهل مكة أن يدعوه يدخل مكة حتى قاضاهم على أن يقيم بها ثلاثة أيام فلما كتبوا الكتاب كتبوا هذا ما قاضى عليه محمد رسول الله صلى الله عليه وسلم فقالوا لا نقر بها فلو نعلم أنك رسول الله ما منعناك لكن أنت محمد بن عبد الله قال أنا رسول الله وأنا محمد بن عبد الله ثم قال لعلي امح رسول الله قال لا والله لا أمحوك أبدا فأخذ رسول الله صلى الله عليه وسلم الكتاب فكتب هذا ما قاضى عليه محمد بن عبد الله لا يدخل مكة سلاح إلا في القراب وأن لا يخرج من أهلها بأحد إن أراد أن يتبعه وأن لا يمنع أحدا من أصحابه أراد أن يقيم بها فلما دخلها ومضى الأجل أتوا عليا فقالوا قل لصاحبك فقد مضى الأجل فخرج النبي صلى الله عليه وسلم فتبعتهم ابنة حمزة يا عم يا عم فتناولها علي فأخذ بيدها وقال لفاطمة عليها السلام دونك ابنة عمك احمليها فاختصم فيها علي وزيد وجعفر فقال علي أنا أحق بها وهي ابنة**

---

1217 "əl-Əhzab", 33.

1218 Səhihi-Müslim, hədis № 2404.

**عمي وقال جعفر ابنة عمي وخالتها تحتي وقال زيد ابنة أخي فقضى بها النبي صلى الله عليه وسلم لخالتها وقال الخالة بمنزلة الأم وقال لعلي أنت مني وأنا منك وقال لجعفر أشبهت خلقي وخلقي وقال لزيد أنت أخونا ومولانا , وقال علي تتزوج بنت حمزة ؟ قال إنها ابنة أخي من الرضاعة ".**

Buxari rəvayət edir ki, Bərra bin Azib dedi: "Peyğəmbər *(s)* Zülqədə ayında Ümrə həcci etmək istərkən məkkəlilər onun Məkkədə üç gündən artıq qalmaması üçün yazılı bir şeyin olmasını istədilər. Peyğəmbər *(s)* yazdırdığı yazıda Muhəmmədən Rəsulullah sözünü yazdırarkən onlar dedilər: "Əgər sənin peyğəmbər olduğunu bilsəydik, sənə mane olmazdıq. Sən Muhəmməd bin Abdullahsan". Peyğəmbər *(s)* buyurdu: *"Mən Allahın Rəsuluyam və Muhəmməd bin Abdullaham"*. Sonra o Həzrət *(s)* Əliyə *(ə)* Peyğəmbər sözünün pozulmasını əmr etdi. İmam Əli *(ə)* buyurdu: *"Vallahi, mən bunu poza bilmərəm"*. Peyğəmbər *(s)* vərəqi götürüb orada Muhəmməd bin Abdullah sözünü və Məkkəyə silahla girilməyəcəyi əhdini yazdı...".[1219]

**قال البخاري:حدثنا مسدد حدثنا يحيى عن شعبة عن الحكم عن مصعب بن سعد عن أبيه : " أن رسول الله صلى الله عليه وسلم خرج إلى تبوك واستخلف عليا فقال أتخلفني والنساء قال ألا ترضى أن تكون مني بمنزلة هارون من موسى إلا أنه ليس نبي بعدي.**

Buxari rəvayət edir: "Peyğəmbər *(s)* Təbuk səfərinə gedərkən Əlini *(ə)* öz yerində Mədinədə xəlifə qoyur. İmam Əli *(ə)* buyurur: "*Ya Rəsulullah, məni qadın və uşaqlarla birgəmi buraxırsan?!"* Peyğəmbər *(s)* buyurdu: *"Mənə Harunun Musaya olan nisbəti kimi olmaq istəmirsən? Amma məndən sonra heç bir peyğəmbər olmayacaq"*.[1220]

**قال البخاري:حدثنا عمرو بن علي حدثنا يحيى حدثنا سفيان عن حبيب عن سعيد بن جبير عن بن عباس قال: " قال عمر رضي الله عنه ثم أقرؤنا أبي وأقضانا علي وإنا لندع من قول أبي وذاك أن أبيا يقول لا أدع شيئا سمعته من رسول الله صلى الله عليه وسلم وقد قال الله تعالى ما ننسخ من آية أو ننسها."**

Buxari rəvayət edir: "...Ömər dedi: "Bizim ən qəzavətlimiz Əlidir...".[1221]

Bütün bu və ya digər hədislər onu göstərir ki, İmam Əli *(ə)* imanın meyarıdır, o Həzrəti *(ə)* tanımadan, sevmədən kamil imana malik olmaq mümkün deyildir. Həmçinin, bu hədislər bildirir ki, İmam Əli *(ə)* günahların bağışlanması meyarıdır. Necə ki, Peyğəmbər *(s)* öz mübarək hədisində bəyan etmişdir:

**حب علي يأكل الذنوب كما تأكل النار الحطب.**

*"Əlini sevmək, ataş odunu yediyi kimi, günahları yeyib məhv edər"*.[1222]

---

[1219] Səhihi-Buxari, hədis № 4251.
[1220] Həmin mənbə, hədis № 4154.
[1221] Həmin mənbə, hədis № 4211.
[1222] əs-Seyyid Mərəşi, Şərhu-ehqaqil-həqq, c. XXII, səh. 458; Əllamə Əbu Həfs əl-Hənəfi, əl-Vəsilə, Heydərabad çapı, səh. 170; Şeyx Əhməd Əbdülcavad, Cameu-əhadis, Dəməşq çapı, c. III, səh. 780.

**ان الإمام أحمد أخرج الحديث عن عمران بن حصين بالشكل التالي:قال: بعث رسول الله سرية وأمر عليهم علي بن أبي طالب ـ رضى الله عنه ـ فتعاقد أربعة من أصحاب محمد أن يذكروا أمره لرسول الله، قال عمران: وكنا إذا قدمنا من سفرنا بدأنا برسول الله، فسلمنا عليه، قال: فدخلوا عليه، فقام رجل منهم، فقال يا رسول الله: إن عليا فعل كذا وكذا فأعرض عنه. ثم نقل قيام الثلاثة الباقين وتكرارهم ذلك القول وإعراض الرسول عنهم، حتى انتهى إلى قوله: فأقبل رسول الله على الرابع وقد تغير وجهه، فقال: "دعوا عليا، إن عليا مني وأنا منه، وهو ولي كل مؤمن بعدي."**

Əhməd bin Hənbəl İmran bin Həsindən rəvayət edir: “Peyğəmbər *(s)* döyüşə bir dəstə səhabəsini göndərmiş və onların üzərinə Əli bin Əbi Talibi *(ə)* rəhbər təyin etmişdir. Səhabələrdən dörd nəfər sözü bir yerə qoyub Əlidən *(ə)* Peyğəmbərə *(s)* şikayət edəcəklərini dedilər”. İmran deyir: “Biz səfərdən qayıtdıqdan sonra Peyğəmbərin *(s)* yanına gedib salam verdik. Həmin səhabələrdən biri qalxıb dedi: “Ya Rəsulullah *(s)*, Əli *(ə)* belə-belə etdi və ondan üz çevirdim”. Sonra yerdə qalan digər üç nəfər də onun dediklərini təkrar etdilər. Peyğəmbər *(s)* onların sözləri bitənədək onlardan üz döndərdi, dördüncünün sözünü eşidəndə üzünün rəngi dəyişdi və buyurdu: *“Əlini çağırın, Əli məndən, mən də ondanam!”*[1223]

Biz inanırıq ki, səhabənin ən fəzilətlisi və Peyğəmbərdən *(s)* sonra İslam ümmətinin ən üstünü İmam Əli *(ə)* idi. Lakin bu inancın şişirdilməsini, sevgidə ifrata varılmasını, eləcə də haqq və həddin aşılmasını da haram bilirik. Bizim etiqadımıza görə, hər kim İmam Əliyə *(ə)* peyğəmbərlik, üluhiyyət və s. verilməsini iddia edirsə, o şəxs İslam dinindən çıxır və beləsi kafir sayılır. Bu üzdən İmamiyyənin adının bilərəkdən və ya bilməyərəkdən bu ifratçılarla birlikdə xatırlanmasını qətiliklə səhv hesab edir və İmamiyyə alimlərinin qaynaq kitablarında bu dəstənin daim “mürtəd” olaraq qeyd edildiyini xatırlamağı faydalı hesab edirik.

İmamiyyənin İmam Əlini *(ə)* digərlərindən üstün bilmələri aşağıda bəzi qeyd etdiyimiz dəlilərə söykənir.

**إن عليا أفضل من أبي بكر.**

Peyğəmbər *(s)* buyurub: *“Əli Əbu Bəkrdən daha üstündür”*.[1224]

**حدثنا عبد الله حدثني أبي ثنا عبد الله بن نمير قال ثنا موسى الجهني قال حدثتني فاطمة بنت علي قالت حدثتني أسماء بنت عميس قالت سمعت رسول الله صلى الله عليه و سلم يقول : يا علي أنت مني بمنزلةهارون من موسى الا انه ليس بعدي نبي.تعال لنر ما هي منزلة هارون من موسى عليه السلام:قَالَ رَبِّ اشْرَحْ لِي صَدْرِي. وَيَسِّرْ لِي أَمْرِي. وَاحْلُلْ عُقْدَةً مِنْ لِسَانِي. يَفْقَهُوا قَوْلِي. وَاجْعَلْ لِي وَزِيرًا مِنْ أَهْلِي. هَارُونَ أَخِي. اشْدُدْ بِهِ أَزْرِي. وَأَشْرِكْهُ فِي أَمْرِي. كَيْ نُسَبِّحَكَ كَثِيرًا. وَنَذْكُرَكَ كَثِيرًا .إِنَّكَ كُنْتَ بِنَا بَصِيرًا. قَالَ قَدْ أُوتِيتَ سُؤْلَكَ يَا مُوسَى.**

---

[1223] Müsnədi-Əhməd, c. IV, səh. 438; Sünəni-Tirmizi, c. V, səh. 632.

[1224] Əhməd bin Hənbəl, Müsnəd, c. IV, səh. 271-272. Bu hədis haqqında əl-Ərnuti səhih hökmünü vermişdir.

"...Əsma bin Ümeys deyir: Peyğəmbərdən *(s)* eşitdim ki, buyururdu: *"Ya Əli, sənin mənə olan nisbətin Harunun Musaya olan nisbəti kimidir, amma bu şərtlə ki, məndən sonra heç bir peyğəmbər yoxdur!"* Allah Quranda Musanın *(ə)* əhvalatını belə bəyan edir: **"**(Musa) ***dedi: "Ey Rəbbim!*** (Peyğəmbərliyi yerinə yetirməyə qadir olmaq, Fironla danışmağa cürət etmək və bu yolda bütün məşəqqətlərə tab gətirə bilmək üçün) ***köksümü açıb genişlət"***; ***"İşimi yüngülləşdir"***; ***"Dilimdəki düyünü aç*** (pəltəkliyimi götür) ***ki,"***; ***"Sözümü yaxşı anlasınlar!"***; ***"Və mənə Öz ailəmdən bir vəzir*** (köməkçi) ***ver"***; ***"Qardaşım Harunu!"***; ***"Onunla arxamı möhkəmləndir"***; ***"Onu işimə ortaq et*** (ona da peyğəmbərlik ver) ***ki,"***; ***"Səni çox təqdis edib şəninə təriflər deyək"***; ***"Və Səni çox zikr edək*** (daim yada salıb şükr-səna edək)***"***; ***"Sən, şübhəsiz ki, Bizi görürsən!"*** **"**(Allah) ***buyurdu: "Dilədiyin sənə verildi, ya Musa!"***[1225] Bu hədisi Qurani-Kərimin adıkeçən ayələri ilə tutuşdurduqda məlum olur ki, ayənin hökmünə əsasən, İmam Əli *(ə)* Peyğəmbərin *(s)* qardaşı, vəziri və işlərində o Həzrətlə *(s)* şərikdir. Belə olduğu halda, İmamın *(ə)* hər kəsdən üstün olması sübut olunur.

Peyğəmbərin *(s)* *"Əli məndəndir, mən də ondanam. Bunu mənə qarşı Əlidən başqa kimsə söyləyə bilməz"*[1226] hədisi də o Həzrətin *(ə)* hamıdan üstün olduğunu göstərməkdədir.

Həmçinin, "Səqəleyn" hədisi İmam Əlinin *(ə)* hər kəsdən daha fəzilətli olduğuna dair bir dəlildir. Peyğəmbər *(s)* buyurub: *"Mən sizin aranızda iki ağır əmanət qoyuram. Əgər onlardan yapışsanız heç vaxt yolunuzu azmazsınız. Onların biri digərindən daha böyükdür. Allahın Kitabı Göydən Yerə sallanmış bir ipdir, bir də Əhli-Beytim. Onlar hovuzun kənarında mənə yetişənədək bir-birilərindən ayrılmazlar. Məndən sonra onlarla etdiyiniz rəftara diqqət edin"*.[1227]

O cümlədən, "Rayə" hədisi də buna bir dəlildir. Belə ki, Peyğəmbər *(s)* buyurmuşdur: *"Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, onu Allah və Rəsulu sevir..."*.[1228]

Rəsulullah *(s)* buyurmuşdur: *"Ya Əli, səni yalnız mömin sevər, sənə yalnız münafiq nifrət edər!"*[1229]

---

[1225] "Taha", 25-36.

[1226] Sünəni-İbn Macə, məktəbətül-maarif, ər-Riyaz, c. I, səh. 57.

[1227] Sünəni-Tirmizi, təhqiq: Əbdürrəhman Məhəmməd Osman, c. V, səh. 329; Müsnədi-Əhməd, c. III, səh. 14.

[1228] Səhihi-Buxari, c. IV, səh. 12, kitabül-cihad vəs-siyər, kitabül-mənaqib; Səhihi-Müslim, c. V, səh. 195, c. VII, səh. 120, 122.

[1229] Sünəni-Tirmizi, c. V, səh. 306; əl-Heysəmi, Məcməüz-zəvaid, c. IX, səh. 133; İbn Həcər, Fəthülbari, c. VII, səh. 57. Bu hədisi Müslim İmam Əlinin *(ə)* dilindən nəql edib (Səhihi-Müslim, c. I, səh. 61).

Bundan əlavə, "Fiətül-bağiyə" hədisi də İmam Əlinin *(ə)* haqq və doğru olduğuna dəlildir. Həmin hədisdə Peyğəmbər *(s)* buyurmuşdur: *"Vay olsun Əmmarı öldürənlərə! Onu azğın firqə öldürəcəkdir. Əmmar onları Cənnətə, onlar isə Əmmarı Cəhənnəmə tərəf çağırırlar"*.[1230]

"Münacət-pıçıltı" hədisində deyilir: "Peyğəmbər *(s)* Taif səfərində İmam Əli *(ə)* ilə pıçıldaşdıqda camaat dedi: "Peyğəmbər *(s)* əmisi oğlu ilə pıçıldaşır". Bunu eşidən Peyğəmbər *(s)* buyurdu: *"Onunla mən yox, Allah pıçıldaşır"*.[1231]

Rəsulullah *(s)* buyurmuşdur: *"Əlinin qapısından başqa bütün qapıları bağlayın"*;[1232] *"Sən dünya və Axirətdə mənim qardaşımsan"*;[1233] *"Ey Rəbbim, harada olsa belə, haqqı Əli ilə birlikdə et!"*[1234] *"Əli Quranla, Quran da Əli ilədir"*;[1235] *"Hər kəs səndən ayrılsa, məndən ayrılmışdır, məndən ayrılan isə Allahdan ayrılmışdır"*.[1236]

"ət-Tövbə" ("Bəraət") surəsinin Əbu Bəkrdən alınıb İmam Əliyə *(ə)* verilməsi də İmamın *(ə)* hər kəsdən üstün olduğuna bir dəlildir. Belə ki, hədislərdə də qeyd edildiyi kimi, "Bəraət" surəsinin on ayəsi nazil olduqda Peyğəmbər *(s)* bu ayələri Məkkə əhlinə oxuması üçün Əbu Bəkri vəzifələndirdi. Bir azdan Peyğəmbər *(s)* Əlini *(ə)* çağırıb tez Əbu Bəkrə yetişməsini və surəni ondan alıb məhz özünün oxumasını əmr etdi. İmam Əli *(ə)* Əbu Bəkrə yetişib surəni ondan aldı və Məkkəyə getdi. Əbu Bəkr Peyğəmbərin *(s)* yanına gəlib dedi: "Ya Rəsulullah, mənim haqqımda bir şeymi nazil oldu?" Peyğəmbər *(s)* buyurdu: *"Xeyr, Cəbrail nazil olub buyurdu: "Surəni ya sən özün apar, yaxud da səndən olan bir şəxslə göndər"*.[1237]

Həmçinin, Peyğəmbər *(s)* buyurub: *"Əhli-Beytim sizin aranızda Nuhun gəmisi kimidir. Ona minən nicat tapar, uzaqlaşan qərq olar"*;[1238]

---

[1230] Səhihi-Buxari, c. V, səh. 207, kitabül-cihad vəs-siyər; Səhihi-Müslim, c. VIII, səh 186; Müsnədi-Əhməd, c. III, səh. 5, 306, c. V, səh. 306-307; Müstədrəki-Hakim, c. III, səh. 397.

[1231] Sünəni-Tirmizi, c. V, səh. 303; İbn Əsakir, Tarixi-mədinəti-Diməşq, c. 42, səh. 315; Təbərani, Möcəmül-kəbir, c. II, səh. 182. Xatırladaq ki, bu hədisin yüzdən artıq ravisi vardır.

[1232] Müsnədi-Əhməd, c. IV, səh. 329; Müstədrəki-Hakim, c. III, səh. 125.

[1233] Sünəni-Tirmizi, c. V, səh. 236; İbn Həcər, Fəthül-bari, c. VII, səh. 211.

[1234] Sünəni-Tirmizi, c. V, səh. 297, təhqiq: Əbdürrəhman Məhəmməd Osman; Müstədrəki-Hakim, c. III, səh. 125; əl-Münavi, Feyzül-qədir, c. IV, səh. 25; Müsnədi-Əbi Yəla, c. I, səh. 419; Təbərani, Möcəmül-əvsət, c. VI, səh. 95.

[1235] Müstədrəki-Hakim, c. III, səh. 124; Zəhəbi, Təlxisi-müstədrək, c. III, səh. 134.

[1236] Əhməd bin Hənbəl, Fəzailüs-səhabə, c. II, səh. 570; əl-Heysəmi, Məcməüz-zəvaid, c. IX, səh. 135; Müstədrəki-Hakim, c. III, səh. 124; əl-Münavi, Feyzül-qədir, c. IV, səh. 470.

[1237] Əhməd bin Hənbəl, Müsnəd, c. I, səh. 3, 151; Heysəmi, Məcməüz-zəvaid, c. VII, səh. 29; Nəsai, Sünənül-kubra, c. V, səh. 129; Sünəni-Tirmizi, c. IV, səh. 339.

[1238] Müstədrək-Hakim, c. II, səh. 343; Fəzailüs-səhabə, təhqiq: Vəsiyullah Məhəmməd Abbas, Beyrut, c. II, səh. 875.

**حَدَّثَنَا الْأَسْوَدُ بْنُ عَامِرٍ، حَدَّثَنَا شَرِيكٌ، عَنِ الرُّكَيْنِ، عَنِ الْقَاسِمِ بْنِ حَسَّانَ، عَنْ زَيْدِ بْنِ ثَابِتٍ، قَالَ: قَالَ رَسُولُ اللَّهِ صَلَّى اللَّهُ عَلَيْهِ وَسَلَّمَ: إِنِّي تَارِكٌ فِيكُمْ خَلِيفَتَيْنِ كِتَابُ اللَّهِ، حَبْلٌ مَمْدُودٌ مَا بَيْنَ السَّمَاءِ وَالْأَرْضِ أَوْ مَا بَيْنَ السَّمَاءِ إِلَى الْأَرْضِ، وَعِتْرَتِي أَهْلُ بَيْتِي، وَإِنَّهُمَا لَنْ يَتَفَرَّقَا حَتَّى يَرِدَا عَلَيَّ الْحَوْضَ.**

*"...Mən sizin aranızda iki xəlifə qoyuram. Göydən Yerədək uzanmış Allahın Kitabı və Əhli-Beytim. Onlar ikisi hovuzun kənarında mənə yetişənədək heç vaxt bir-birilərindən ayrılmazlar";*[1239]

**من كنت مولاه، فعلي مولاه، اللهم وال من والاه، وعاد من عاداه .**

*"Hər kimin mövlası* (rəhbəri) *mənəmsə, onun rəhbəri Əlidir. Ey Rəbbim, onu dost tutana dost, düşmən bilənə də düşmən ol!"*

Hədis alimi Nasiruddin əl-Albani bu hədisin səhihliyini isbat etmək üçün "Silsilə əhadis əs-səhihə" kitabında yazır:

**من كنت مولاه، فعلي مولاه، اللهم وال من والاه، وعاد من عاداه .**
**ورد من حديث زيد بن أرقم وسعد بن أبي وقاص وبريدة بن الحصيب وعلي بن أبي طالب وأبي أيوب الأنصاري والبراء بن عازب وعبد الله بن عباس وأنس بن مالك وأبي سعيد وأبي هريرة.**
**1- حديث زيد وله عنه طرق خمس:**
**الأولى: عن أبي الطفيل عنه قال: لما دفع النبي صلى الله عليه وسلم من حجة الوداع ونزل غدير (خم) ، أمر بدوحات فقممن، ثم قال: كأني دعيت فأجبت وإني تارك فيكم الثقلين أحدهما أكبر من الآخر: كتاب الله وعترتي أهل بيتي، فانظروا كيف تخلفوني فيهما، فإنهما لن يتفرقا حتى يردا علي الحوض، ثم قال: "إن الله مولاي وأنا ولي كل مؤمن." ثم أخذ بيد علي رضي الله عنه فقال: "من كنت وليه، فهذا وليه، اللهم وال من والاه وعاد من عاداه."**
**أخرجه النسائي في "خصائص علي" (ص. 15) والحاكم (3 / 109) وأحمد (1 / 118) وابن أبي عاصم (1365) والطبراني (4969 - 4970) عن سليمان الأعمش قال: حدثنا حبيب بن أبي ثابت عنه وقال الحاكم: "صحيح على شرط الشيخين."**
**قلت: سكت عنه الذهبي، وهو كما قال لولا أن حبيبا كان مدلسا وقد عنعنه.**
**لكنه لم يتفرد به، فقد تابعه فطر بن خليفة عن أبي الطفيل قال: "جمع علي رضي الله عنه الناس في الرحبة ثم قال لهم: أنشد الله كل امرئ مسلم سمع رسول الله صلى الله عليه وسلم يقول يوم غدير خم ما سمع لما قام، فقام ثلاثون من الناس، (وفي رواية: فقام ناس كثير) فشهدوا حين أخذ بيده فقال للناس: "أتعلمون أني أولى بالمؤمنين من أنفسهم؟" قالوا: نعم يا رسول الله، قال: "من كنت مولاه، فهذا مولاه، اللهم وال من والاه وعاد من عاداه." قال: فخرجت وكأن في نفسي شيئا، فلقيت زيد بن**

---

[1239] Müsnədi-Əhməd, hədis № 21043, 20596; Əhməd bin Hənbəl, Fəzailüs-Səhabə, hədis № 996. Böyük alimlərdən olan Əllamə Əbdürrəuf əl-Münavi qeyd olunan hədis haqqında yazır: "Bu xəbər onu göstərir ki, insanlar hər bir zamanda ta Qiyamətədək pak olan Əhli-Beytdən *(ə)* yapışmalıdırlar. İnsanlar onlara Qurana tərəf yönəldikləri kimi yönəlməlidirlər. Çünki, onlar Yer əhli üçün əmin-amanlıqdırlar. Əgər onlar aradan getsə, Yer əhli məhv olar. Bu hədisin raviləri əl-Heysəmiyə və Əbu Yəlaya görə etibarlıdır (Feyzül-qədir, c. III, səh. 15, məktəbətüt-ticariyyəl-kubra, Misir, 1356 h/q).

**أرقم، فقلت له: إني سمعت عليا يقول كذا وكذا، قال: فما تنكر، قد سمعت رسول الله صلى الله عليه وسلم يقول ذلك له." أخرجه أحمد (4 / 370) وابن حبان في "صحيحه" (2205 - موارد الظمآن) وابن أبي عاصم (1367 و 1368) والطبراني (4968) والضياء في" المختارة" (رقم - 527 بتحقيقي ).**
**قلت: وإسناده صحيح على شرط البخاري. وقال الهيثمي في "المجمع" (9 / 104): "رواه أحمد ورجاله رجال الصحيح غير فطر بن خليفة وهو ثقة." وتابعه سلمة بن كهيل قال: سمعت أبا الطفيل يحدث عن أبي سريحة أو زيد بن أرقم - شك شعبة - عن النبي صلى الله عليه وسلم به مختصرا: "من كنت مولاه، فعلي مولاه." أخرجه الترمذي (2 / 298) وقال: "حديث حسن صحيح ".**
**قلت: وإسناده صحيح على شرط الشيخين.**
**وأخرج عبد الله بن أحمد في "زوائده على المسند" (1 / 118) عن سعيد بن وهب وزيد بن يثيع قالا: نشد علي الناس في الرحبة: من سمع رسول الله صلى الله عليه وسلم يقول يوم غدير (خم) إلا قام، فقام من قبل سعيد ستة، ومن قبل زيد ستة، فشهدوا... الحديث. وقد مضى في الحديث الرابع - الطريق الثانية والثالثة. وإسناده حسن، وأخرجه البزار بنحوه وأتم منه. وللحديث طرق أخرى كثيرة جمع طائفة كبيرة منها الهيثمي في "المجمع" (9 / 103 - 108) وقد ذكرت وخرجت ما تيسر لي منها مما يقطع الواقف عليها بعد تحقيق الكلام على أسانيدها بصحة الحديث يقينا، وإلا فهي كثيرة جدا، وقد استوعبها ابن عقدة في كتاب مفرد، قال الحافظ ابن حجر: منها صحاح ومنها حسان. وجملة القول أن حديث الترجمة حديث صحيح بشطريه، بل الأول منه متواتر عنه صلى الله عليه وسلم كما ظهر لمن تتبع أسانيده وطرقه، وما ذكرت منها كفاية.**
**إذا عرفت هذا، فقد كان الدافع لتحرير الكلام على الحديث وبيان صحته أنني رأيت شيخ الإسلام بن تيمية، قد ضعف الشطر الأول من الحديث، وأما الشطر الآخر، فزعم أنه كذب ! وهذا من مبالغته الناتجة في تقديري من تسرعه في تضعيف الأحاديث قبل أن يجمع طرقها ويدقق النظر فيها. والله المستعان.**

*"Mən hər kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. Ey Rəbbim, ona dost olana dost, düşmən olana düşmən ol!"*

Bu hədis Zeyd bin Ərqəm, Səd bin Əbi Vəqqas, Büreydə bin əl-Husəyb, Əli bin Əbi Talib *(ə)*, Əbu Əyyub əl-Ənsari, Bərra bin Azib, Abdullah bin Abbas, Ənəs bin Malik, Əbu Səid və Əbu Hüreyrədən varid olmuşdur.

1. Zeydin hədisi beş yolla nəql edilmişdir:

Birincisi Əbu ət-Tüfeyl yolu ilə nəql edilir ki, Zeyd dedi: "Peyğəmbər *(s)* Vida həccindən dönərkən Qədir-Xumda ayaq saxladı və hündür ağacların altını süpürüb-təmizləməyi əmr etdi. Ora təmizləndi. Sonra buyurdu: "(Ey insanlar!) *Mən* (haqq dərgahına) *dəvət olunmaq və* (bu dəvəti) *qəbul etmək ərəfəsindəyəm.* (Odur ki,) *sizin aranızda biri digərindən daha böyük olan iki əmanət qoyub gedirəm: Allahın Kitabı və itrətim - Əhli-Beytim. Məndən sonra onlara necə davranacağınıza diqqət yetirin. Çünki, onlar hovuzun başında mənə yetişənədək heç vaxt bir-birindən ayrılmayacaqlar"*. Sonra Peyğəmbər *(s)* buyurdu: *"Allah mənim mövlam, mən də hər bir mömininin vəlisiyəm"*. Daha sonra Əlinin *(ə)* qolundan tutub belə buyurdu: *"Mən kimin*

*vəlisiyəmsə, bu da onun vəlisidir. Ey Rəbbim, ona dost olana dost, düşmən olana düşmən ol!*"

(Bu hədisi) Nəsai "Xəsaisi-Əli" kitabında (səh. 15), Hakim Nişapuri "Müstədrək" kitabında (c. III, səh. 109), Əhməd bin Hənbəl "Müsnəd" kitabında (c. I, səh. 118), İbn Əbi Asim "əl-Ahad vəl-Məsani" kitabında (hədis № 1365), Təbərani "Möcəm" kitabında (hədis № 4969-4970) Süleyman bin əl-Əməşdən, o da Həbib bin Əbi Sabitdən nəql etmişlər. Hakim Nişapuri deyir: "Hədis Buxari və Müslimin şərtlərinə əsasən səhihdir".

Zəhəbi bu barədə sükut etmişdir. Fətr bin Xəlifə də Əbu Tüfeylə istinadən onun belə dediyini nəql edib: "Əli *(ə)* camaatı Rəhbəyə (Rəhbə məscidinə) toplayıb buyurdu: *"Sizi and verirəm Allaha, Allah Rəsulunun Qədir-Xum günü buyurduğu sözləri eşidən hər bir müsəlman kişi ayağa qalxsın!"* (Bu sözü eşidənlərin arasından) 30 nəfər ayağa qalxdı (digər rəvayətə görə: camaatın əksəriyyəti ayağa qalxdı) və həqiqətən o gün (Qədir-Xumda) Allah Rəsulunun *(s)* Əli bin Əbu Talibin *(ə)* əlini qaldıraraq xalqa xitabən belə buyurduğuna şahidlik etdilər: *"Siz bilirsiniz ki, mən möminlərə onların özlərindən daha yaxınam?"* Camaat dedi: "Bəli, ya Rəsulullah *(s)*". Peyğəmbər *(s)* buyurdu: *"Mən hər kimin mövlasıyamsa, bu da onun mövlasıdır. İlahi, Əlinin dostu ilə dost, düşməni ilə düşmən ol!*" (Əbu Tüfeyl) dedi: "Mən oradan qəlbimdə narahatlıqla ayrıldım. Sonra Zeyd bin Ərqəmlə rastlaşdım və dedim: "Mən Əlinin *(ə)* bu cür, bu cür buyurduğunu eşitdim". Zeyd bin Ərqəm dedi: "Orada eşitdiklərini inkar etmə! Çünki, mən (sənin eşitdiklərini) Rəsulullahdan *(s)* onun (Əlinin *(ə)* barəsində eşitmişəm".

Bu rəvayəti Əhməd "Müsnəd"ində (c. IV, səh. 370), İbn Hibban "əs-Səhih"ində (2205 - Məvarid əz-zəman), İbn Əbi Asim (hədis № 1367 və 1368), Təbərani (hədis № 4968), Ziya "əl-Muxtarə"də (hədis № 527) nəql etmişlər.

Mən deyirəm: "Sənədi Buxarinin şərtlərinə əsasən səhihdir". Heysəmi "əl-Məcmə əz-Zəvaid"də (c. IX, səh. 104) dedi: "Əhməd rəvayət etmişdir ki, Fətr bin Xəlifədən başqa digər bütün raviləri "Səhih"in raviləridir, o (Fətr) isə siqədir".

Həmçinin, müvafiq olaraq Sələmə bin Küheyl dedi: "Eşitdim ki, Əbu Tüfeyl Əbi Sərih və ya Zeyd bin Ərqəmdən, o da Peyğəmbərdən *(s)* müxtəsər olaraq rəvayət etdi: *"Mən hər kimin mövlasıyamsa, Əli də onun mövlasıdır!"* Bu hədisi Tirmizi nəql etmiş (c. II, səh. 298) və demişdir: "Hədis həsən-səhihdir".

Mən deyirəm: "Sənədi Buxari və Müslimin şərtlərinə əsasən səhihdir".

Abdullah bin Əhməd "Zəvaid əla əl-Müsnəd"də (c. I, səh. 118) Əbi İshaq Səid bin Vəhəb və Zeyd bin Yəsadan rəvayət edib ki, onlar dedilər: "Əli *(ə)*

Rəhbədə camaatı Allaha and verdi ki, kim Rəsulullahın *(s)* Qədir-Xumda onun haqqında buyurduğunu eşidibsə ayağa qalxsın və şahidlik etsin. Bu zaman altı nəfər Səid bin Vəhəbin və altı nəfər də Zeyd bin Yəsanın yanında oturanlardan ayağa qalxdı və şahidlik etdilər...”.

Dördüncü hədisin təriqi də ikinci və üçüncü kimidir. Onun sənədi həsəndir. əl-Bəzzar da onu kamil şəkildə nəql etmişdir.

Bu rəvayət üçün alimlərin böyüklərindən nəql edilmiş bir çox sənədlər var. Onlardan Heysəmi “Məcmə əz-zəvaid” əsərində (c. IX, səh. 103-108) nəql edib.

Mən də bacardığım qədər rəvayətin sənədlərini təhqiq etdikdən sonra sənədinin səhihliyinə yəqin etdiklərimi qeyd etdim. Yoxsa bu rəvayətin sənədi çoxdur. İbn Üqdə də bir kitabında bunları (sənədləri) ayrıca nəql edibdir.

Hafiz İbn Həcər əl-Əsqəlani deyir: “Nəql olunan rəvayətlərin bəziləri səhih, bəziləri isə həsəndir”.

Xülasə, bu hədis hər iki bölümü (1. *“Mən hər kimin mövlasıyamsa...”*; 2. *“Ey Rəbbim, ona dost olana dost ol...”*) ilə səhihdir. Birinci hissəsi isə Allah Rəsulundan *(s)* mütəvatir şəkildə nəql edilmişdir. Necə ki, rəvayətin sənədlərində təhqiqat aparanlar üçün bu çox açıq bir mətləbdir. Mən də onu kifayət qədər qeyd etdim”.[1240]

Həmçinin, Peyğəmbərdən *(s)* aşağıdakı sənədlə nəql olunur ki, o Həzrət *(s)* buyurmuşdur:

**اخبرنا احمد بن سليمان، قال: حدثنا اسماعيل، عن ابي اسحاق عن حبشي بن جنادة السلولي قال: قال رسول الله صلى الله عليه وسلم: علي مني وانا منه فلا يؤدي عني إلا انا وعلي.**

“Bizə Əhməd bin Süleyman xəbər verdi və dedi, bizə İsmayıl, Əbi İshaqdan, o da Hubşi bin Cunadə əs-Səlulidən belə dediyini rəvayət edir: “Peyğəmbər *(s)* buyurdu: *“Əli məndəndir, mən də ondan. Üzərimdəkini* (vəzifəni) *yalnız mən və Əli yerinə yetirə bilər”*.[1241]

Peyğəmbərdən *(s)* yenə də aşağıdakı sənədlə nəql olunub ki, o Həzrət *(s)* buyurub:

**أخبرنا محمد بن بشار قال حدثنا جعفر قال حدثنا عوف عن ميمون أبي عبد الله عن زيد بن أرقم قال كان لنفر من أصحاب رسول الله أبواب شارعة في المسجد فقال رسول الله سدوا هذه الأبواب إلا باب علي فتكلم في ذلك أناس فقام رسول الله فحمد الله وأثنى عليه ثم قال أما بعد فإني أمرت**

---

[1240] Nasiruddin əl-Albani, Silsilə əhadis əs-səhihə, c. IV, səh. 330-344, Məktəbə əl-Maarif, ər-Riyad, 1415/1995.

[1241] Əhməd bin Şüeyb ən-Nəsai, Xəsais Əmiril-muminin Əli bin Əbu Talib, səh. 70, hədis № 69; İbn Əbi Asim, əs-Sünnə, c. II, səh. 885-886, hədis № 1355, Dar əs-Sunayi, 1419/1998, təhqiq: Basim bin Feysəl əl-Cəvabirə.

**بسد هذه الأبواب غير باب علي فقال فيه قائلكم والله ما سددته ولا فتحته ولكني أمرت بشيء فاتبعته.**

"…Zeyd bin Ərqəm dedi: "Peyğəmbərin *(s)* səhabələrindən bəzilərinin məscidə açılan qapıları vardı. (Bir gün) Peyğəmbər *(s)* belə buyurdu: *"Əlinin qapısından başqa bütün qapıları bağlayın!"* Orada olan insanlar bu mövzuda artıq-əskik danışınca, o Həzərət *(s)* dərhal ayağa qalxıb Allaha həmd-sənadan sonra belə buyurdu: *"*(Bilin ki, Allah tərəfindən) *Əlinin qapısından başqa bu qapıların hamısını bağlamaqla əmr olundum. Bu barədə sözünü söyləyənlər söyləmişdir. Allaha and olsun, bunu özümdən deməmişəm, əksinə yalnız əmr olundum və əmrə tabe oldum!"*[1242]

İmam Əlinin *(ə)* fəzilətlərinə aid nəql olunmuş hədislərdən biri "Nuraniyyət" hədisidir ki, bunu da o Həzrət *(ə)* özü haqqında buyurmuşdur. Həmin hədis belə nəql olunur:

**ما رواه سلمان، وأبو ذر، عن أمير المؤمنين عليه السلام أنه قال: من كان ظاهره في ولايتي أكثر من باطنه خفت موازينه، يا سلمان لا يكمل المؤمن إيمانه حتى يعرفني بالنورانية، وإذا عرفني بذلك فهو مؤمن، امتحن الله قلبه للإيمان، وشرح صدره للإسلام، وصار عارفا بدينه مستبصرا، ومن قصر عن ذاك فهو شاك مرتاب، يا سلمان ويا جندب، إن معرفتي بالنورانية معرفة الله، ومعرفة الله معرفتي، وهو الدين الخالص، بقول الله سبحانه: وما أمروا إلا ليعبدوا الله مخلصين له الدين وهو الإخلاص، وقوله: (حنفاء) وهو الإقرار بنبوة محمد صلى الله عليه وآله، وهو الدين الحنيف، وقوله: (ويقيموا الصلاة)، وهي ولايتي، فمن والاني فقد أقام الصلاة، وهو صعب مستصعب. (ويؤتوا الزكاة)، وهو الإقرار بالأئمة، (وذلك دين القيمة أي) وذلك دين الله القيم. شهد القرآن أن الدين القيم الإخلاص بالتوحيد، والإقرار بالنبوة والولاية، فمن جاء بهذا فقد أتى بالدين. يا سلمان ويا جندب، المؤمن الممتحن الذي لم يرد عليه شئ من أمرنا، إلا شرح الله صدره لقبوله، ولم يشك ولم يرتاب، ومن قال لم وكيف فقد كفر، فسلموا الله أمره، فنحن أمر الله. يا سلمان ويا جندب، إن الله جعلني أمينه على خلقه، وخليفته في أرضه وبلاده وعباده، وأعطاني ما لم يصفه الواصفون، ولا يعرفه العارفون، فإذا عرفتموني هكذا فأنتم مؤمنون. يا سلمان قال الله تعالى: واستعينوا بالصبر والصلاة فالصبر محمد، والصلاة ولايتي، ولذلك قال: وإنها لكبيرة، ولم يقل وإنهما، ثم قال: (إلا على الخاشعين) ، فاستثنى أهل ولايتي الذين استبصروا بنور هدايتي.**

---

[1242] Nəsai, Xəsais, s. 45-46, hədis № 37. Xatırladaq ki, bu hədisi Əhməd bin Hənbəl, Müsnəd, c. IV, səh. 369, hədis № 19306-da və Fəzail əs-Səhabə, c. II, səh. 581-582, hədis № 985-də, Hakim Müstədrək, c. III, səh. 135, hədis № 4631-də rəvayət etmişlər. Nəsainin kitabını təhqiq edən Əbu İshaq əl-Hüveyni hədisdən sonra deyir: **إسناده حسن** - isnadı həsəndir. Həmçinin, hədisi kitabında rəvayət edən Hakim və onun kitabını təhqiq edən əz-Zəhəbi hədis haqqında deyirlər: **صحيح :هذا حديث صحيح الإسناد و لم يخرجاه تعليق الذهبي قي التلخيص** (Hakim): "Bu hədisin isnadı səhihdir, lakin (Buxari və Müslim) nəql etməmişlər". (Hakim, Müstədrək, c. III, səh. 135, hədis № 4631). Yenə də, hədis və rical elmində nüfuz sahibi olan alimlərdən İbn Həcər əl-Əsqəlani Əhməd bin Hənbəl və Nəsainin rəvayət etdikləri hədis haqqında deyir: **أخرجه احمد والنسائي والحاكم ورجاله ثقات** - Əhməd, Nəsai və Hakim rəvayət etmişlər və raviləri etibarlılardandır (İbn Həcər, Fəthül Bari, c. VII, səh. 15).

يا سلمان، نحن سر الله الذي لا يخفى، ونوره الذي لا يطفى، ونعمته التي لا تجزى، أولنا محمد، وأوسطنا محمد، وآخرنا محمد، فمن عرفنا استكمل الدين القيم. يا سلمان ويا جندب، كنت ومحمد نورا نسبح قبل المسبحات، ونشرق قبل المخلوقات، فقسم الله ذلك النور نصفين: نبي مصطفى، ووصي مرتضى، فقال الله عز وجل لذلك النصف: كن محمدا، وللآخر كن عليا، ولذلك قال النبي صلى الله عليه وآله: أنا من علي، وعلي مني، ولا يؤدي عني إلا أنا أو علي وإليه الإشارة بقوله: وأنفسنا وأنفسكم، وهو إشارة إلى اتحادهما في عالم الأرواح والأنوار، ومثله قوله: أفإن مات أو قتل، والمراد هنا مات أو قتل الوصي، لأنهما شئ واحد، ومعنى واحد، ونور واحد، اتحدا بالمعنى والصفة، وافترقا بالجسد والتسمية، فهما شئ واحد في عالم الأرواح (أنت روحي التي بين جنبي) ، وكذا في عالم الأجساد: (أنت مني وأنا منك ترثني وأرثك) ، (أنت مني بمنزلة الروح من الجسد). وإليه الإشارة بقوله: صلوا عليه وسلموا تسليما، ومعناه صلوا على محمد، وسلموا لعلي أمره، فجمعهما في جسد واحد جوهري، وفرق بينهما بالتسمية والصفات في الأمر، فقال: صلوا عليه وسلموا تسليما، فقال: صلوا على النبي، وسلموا على الوصي، ولا تنفعكم صلواتكم على النبي بالرسالة إلا بتسليمكم على علي بالولاية. يا سلمان ويا جندب، وكان محمد الناطق، وأنا الصامت، ولا بد في كل زمان من صامت وناطق، فمحمد صاحب الجمع، وأنا صاحب الحشر، ومحمد المنذر، وأنا الهادي، ومحمد صاحب الجنة، وأنا صاحب الرجعة، محمد صاحب الحوض، وأنا صاحب اللواء، محمد صاحب المفاتيح، وأنا صاحب الجنة والنار، ومحمد صاحب الوحي، وأنا صاحب الإلهام، محمد صاحب الدلالات، وأنا صاحب المعجزات، محمد خاتم النبيين، وأنا خاتم الوصيين، محمد صاحب الدعوة، وأنا صاحب السيف والسطوة، محمد النبي الكريم، وأنا الصراط المستقيم، محمد الرؤوف الرحيم، وأنا العلي العظيم. يا سلمان، قال الله سبحانه: يلقي الروح من أمره على من يشاء من عباده)، ولا يعطي هذا الروح إلا من فوض إليه الأمر والقدر، وأنا أحيي الموتى، وأعلم ما في السماوات والأرض، وأنا ، الكتاب المبين، يا سلمان، محمد مقيم الحجة، وأنا حجة الحق على الخلق، وبذلك الروح عرج به إلى السماء، أنا حملت نوحا في السفينة، أنا صاحب يونس في بطن الحوت، وأنا الذي حاورت موسى في البحر، وأهلكت القرون الأولى، أعطيت علم الأنبياء والأوصياء، وفصل الخطاب، وبي تمت نبوة محمد، أنا أجريت الأنهار والبحار، وفجرت الأرض عيونا، أنا كأب الدنيا لوجهها، أنا عذاب يوم الظلة، أنا الخضر معلم موسى، أنا معلم داود وسليمان، أنا ذو القرنين، أنا الذي دفعت سمكها بإذن الله عز وجل، أنا دحوت أرضها، أنا عذاب يوم الظلة، أنا المنادي من مكان بعيد، أنا دابة الأرض، أنا كما يقول لي رسول الله صلى الله عليه وآله: أنت يا علي ذو قرنيها، وكلا طرفيها، ولك الآخرة والأولى، يا سلمان إن ميتنا إذا مات لم يمت، ومقتولنا لم يقتل، وغائبنا إذا غاب لم يغب، ولا نلد ولا نولد في البطون، ولا يقاس بنا أحد من الناس، أنا تكلمت على لسان عيسى في المهد، أنا نوح، أنا إبراهيم، أنا صاحب الناقة، أنا صاحب الراجفة، أنا صاحب الزلزلة. أنا اللوح المحفوظ، إلي انتهى علم ما فيه، أنا أنقلب في الصور كيف شاء الله، من رآهم فقد رآني، ومن رآني فقد رآهم، ونحن في الحقيقة نور الله الذي لا يزول ولا يتغير. يا سلمان، بنا شرف كل مبعوث، فلا تدعونا أربابا، وقولوا فينا ما شئتم، ففينا هلك وبنا نجي. يا سلمان، من آمن بما قلت وشرحت فهو مؤمن، امتحن الله قلبه للإيمان، ورضي عنه، ومن شك وارتاب فهو ناصب، وإن ادعى ولايتي فهو كاذب. يا سلمان أنا والهداة من أهل بيتي سر الله المكنون، وأولياؤه المقربون، كلنا واحد، وسرنا واحد، فلا تفرقوا فينا فتهلكوا، فإنا نظهر في كل زمان بما شاء الرحمن، فالويل كل الويل لمن أنكر ما قلت،

**ولا ينكره إلا أهل الغباوة، ومن ختم على قلبه وسمعه وجعل على بصره غشاوة، يا سلمان، أنا أبو كل مؤمن ومؤمنة، يا سلمان، أنا الطامة الكبرى، أنا الآزفة إذا أزفت، أنا الحاقة، أنا القارعة، أنا الغاشية، أنا الصاخة، أنا المحنة النازلة، ونحن الآيات والدلالات والحجب ووجه الله، أنا كتب اسمي على العرش فاستقر، وعلى السماوات فقامت، وعلى الأرض ففرشت، وعلى الريح فذرت، وعلى البرق فلمع، وعلى الوادي فهمع، وعلى النور فقطع، وعلى السحاب فدمع، وعلى الرعد فخشع، وعلى الليل فدجى وأظلم، وعلى النهار فأنار وتبسم.**

Salman və Əbuzər rəvayət etmişlər ki, möminlərin Əmiri İmam Əli *(ə)* belə buyurmuşdur: *"Mənim vilayətimə hər kimin zahiri imanı batini imanından daha çoxdursa, onun tərəzidəki ağırlığı yüngül gələr.*

*Ey Salman, mömin məni nuraniyyətlə tanımasa, imanı kamil olmaz, məni nuraniyyətlə tanıyarsa, mömin olar! Allah onun qəlbini iman üçün imtahan etmiş, onun sinəsini İslam üçün açmışdır. O, dinində arif və bəsirətli bir hala gəlmişdir. Hər kim bu xüsusda əskiklik göstərsə, şəkk və şübhə içərisindədir.*

*Ey Salman, ey Cündəb, məni nuraniyyətlə tanımaq Allahı tanımaqdır! Allahı tanımaq məni tanımaqdır! Məhz budur xalis olan din! Sübhan olan Allah buyurmuşdur:* ***"Halbuki onlara əmr edilmişdi ki, Allaha - dini yalnız Ona xas edərək, batildən haqqa*** (İslama) ***dönərək - ibadət etsinlər, namaz qılıb zəkat versinlər. Doğru-düzgün din budur!"***[1243] *O tövhid ixlasın özüdür. Allahın* ***"həniflər"*** *sözünün anlamı "Həzrət Muhəmmədin nübüvvətinə iqrar etmək"dir. Budur hənif olan din!* ***"Namaz qılıb"*** *sözündəki namaz mənim vilayətimdir. Hər kim məni sevərsə, şübhəsiz o namazı qılmışdır. O* (vilayətin əmri) *çətindən də çətindir.* ***"Zəkat versinlər"****, yəni imamlar iman və iqrar edərlər. Odur Allahın Qəyyim* (hər şeyi diri tutan) *dini! Quran şəhadət edir ki, Qəyyim olan din tövhiddə ixlas, nübuvvət və vilayətə iqrardır. Hər kim belə gəlmişsə, o, həqiqətən dinə girmişdir.*

*Ey Salman, ey Cündəb, qəlbi imtahan olmuş mömină bizim əmrimizdən bir şey gələndə Allah onun sinəsini o şeyi qəbul etməsi üçün açar! Beləcə o, əsla şəkk və şübhə etməz. Hər kim bizim əmrimizdə "nə üçün" və "necə" deyərsə, şübhəsiz ki, kafirdir. Allahın əmrini Ona buraxın. Bizik Allahın əmri!*

*Ey Salman, ey Cündəb, Allah məni yaratdıqları üzərindəki əmini qərar verdi! Onun Yer üzündə, şəhərlərində və bəndələri üzərindəki xəlifəsi mənəm! Vəsf edənlərin vəsf edə bilməyəcəyi, ariflərin tanıya bilməyəcəyi şeyləri mənə əta etdi. Məni tanısanız, bax o zaman sizlər mömin olarsınız.*

*Ey Salman! Allah buyurur:* **"**(Müsibət vaxtında) ***səbr etmək və namaz qılmaqla*** (Allahdan) ***kömək diləyin! Bu ağır iş olsa da,*** (Allaha) ***itaət edən-***

[1243] "əl-Bəyyinə", 5.

***lər üçün ağır deyildir”***[1244] *Səbr Həzrət Muhəmməddir. Namaz isə mənim vilayətimdir. Bu üzdən Allah buyurdu:* ***“Namaz qılmaqla*** (Allahdan) ***kömək diləyin”****. Sonra buyurdu:* ***“Bu ağır iş olsa da,*** (Allaha) ***itaət edənlər üçün ağır deyildir”****. Beləcə, mənim vilayətimin əhlini istisna etmişdir. Çünki, onlar mənim hidayət nurumla bəsirətli hala gəlmişlər.*

*Ey Salman, Allahın gizli qalmayan sirri bizik! Onun sönməyən nuru, Onun qarşılığı ödənilməz neməti bizik! Əvvəlimiz Muhəmməd, ortancılımız Muhəmməd, sonuncumuz Muhəmməddir! Beləcə, hər kim bizi tanıyarsa, şübhəsiz ki, Qəyyim olan dinini kamala çatdırmışdır.*

*Ey Salman, ey Cündəb, mən və Muhəmməd bir nurduq! Təsbih edənlər yox ikən biz təsbih edərdik. Məxluqatdan öncə biz vardıq. Sonra Allah bu nuru Nəbiyyun-Mustafa və Vəsiyyun-Mürtəza olaraq iki qismə böldü. Sonra Allah bu qismə “Muhəmməd ol!”, digər qismə isə “Əli ol!” - deyə buyurdu. Buna görə də Peyğəmbər buyurmuşdur: “Mən Əlidənəm, Əli də məndəndir! Mənim haqqımı məndən və Əlidən başqası əda edə bilməz. Məndən sadəcə Əli və mən çıxar. Allah buna* ***“özümüzü və özünüzü çağıraq”***[1245] *sözü ilə işarə etmişdir. Bu söz ikimizin nurlar və ruhlar aləmindəki bir olmasına işarə edir. Digər bir işarədə Allah buyurur:* ***“Əgər ö ölsə və ya öldürülsə”***[1246] *Buradakı ölən və öldürüləndən məqsəd vəsidir. Çünki, ikimiz də bir şeyik, bir mənayıq, bir nuruq, məna və sifətdə ittihad* (birləşmək, birlik) *etmişik”. Yenə, Peyğəmbər buyurmuşdur: “Sən mənim ruhumsan, bədən aləmində də bu belədir”. Yenə də, buyurmuşdur: “Sən məndən, mən də səndənəm! Sən mənim, mən də sənin varisinəm!” Yenə, belə buyurmuşdur: “Ruhun və bədənin bir-birinə olan nisbəti dərəcəsində sən məndənsən!” Allahın* ***“...Ey iman gətirənlər! Siz də ona salavat göndərib*** (onun üçün salavat deyib) ***layiqincə salamlayın!*** (Allahummə səlli əla Muhəmmədin və ali Muhəmməd; əssəlamu əleykə əyyuhənnəbi və rəhmətullahi və bərəkətuhu - deyin!)***”***[1247] *ayəsinin anlamı budur: “Muhəmmədə salavat göndərin, Əliyə salam verib təslim olun! Bu, Allahın əmridir və o ikisini - vahid, tək olan cövhəri bir bədəndə cəm etmişdir. Zahiri dünyada o ikisi arasında isim və sifət fərqi qoymuşdur. Peyğəmbərə salavat göndərin və hamınız ona təslim olun! Nəbiyə salavat göndərin və vəsiyə təslim olun! Əgər vilayət xüsusunda Əliyə təslim olmasanız, Peyğəmbərin risalətinə iman edib salavat etməyiniz sizə fayda verməyəcək”.*

*Ey Salman, ey Cündəb, Muhəmməd natiq, mən isə samit* (susqun) *idim! Çünki, hər bir zaman üçün bir natiq, bir də samit qaçılmazdır. Muhəmməd*

---

[1244] “əl-Bəqərə”, 45.
[1245] “Ali-İmran”, 61.
[1246] “Ali-İmran”, 144.
[1247] “əl-Əhzab”, 56.

*cəmin* (Qiyamətdəki bir araya toplanma) *sahibi, mən isə həşrin sahibiyəm! Muhəmməd münzir* (qorxudan) *mən hadiyəm* (hidayət edən)*! Muhəmməd Cənnətin, mən rəcətin* (dünyaya dönüş) *sahibiyəm! Muhəmməd hovuzun, mən bayrağın sahibiyəm! Muhəmməd açarların, mən isə Cənnət və Cəhənnəmin sahibiyəm! Muhəmməd vəhyin, mən ilhamın sahibiyəm! Muhəmməd dəlil və nişanələrin, mən möcüzələrin sahibiyəm! Muhəmməd nəbilərin xatəmi, mən vəsilərin xatəmiyəm! Muhəmməd dəvətin, mən qılıncın, qürur və qüdrətin sahibiyəm! Muhəmməd kərim olan nəbidir, mən Siratəl-müstəqiməm! Muhəmməd rauf və rəhimdir, mən Əliyyun-Əziməm!*

*Ey Salman! Subhan olan Allah belə buyurmuşdur:* ***"Dərəcələri yüksəldən*** (mələklərin, peyğəmbərlərin, övliyaların və möminlərin mərtəbələrini ucaldan, yaxud hər şeydən uca)***, Ərşin sahibi Allah Öz əmrindən olan vəhyi bəndələrindən istədiyinə nazil edir ki,*** (o, insanları) ***görüş günü*** (Yer və Göy əhlinin, ibadət edənlə ibadət olunanın, zalımla məzlumun bir-birilə görüşəcəyi, ruhla bədənin qovuşacağı Qiyamət günü) ***ilə qorxutsun!"***[1248] *Bu ruhu, qədəri və əmri həvalə etdiyi kişidən başqasına verməz. Mənəm ölüləri dirildən! Göylərdə və Yerdə olan hər şeyi bilirəm. Mənəm Kitabülmubin!*

*Ey Salman, Muhəmməd haqqın höccətinin qaim edəni, mən haqqın məxluqata olan höccətiyəm! O, eyni ruhla Meraca yüksəlmişdir. Mənəm Nuhu gəmidə daşıyan, mənəm balığın qarnındakı Yunusun sahibi! Mənəm Musanı dənizdən keçirən! Öncəki dönəmləri mən həlak etdim. Peyğəmbərlərə və vəsilərə elmi və fəslul-xitabı* (haqla batili ayıran kəlmə) *bağışlayan mənəm! Muhəmmədin peyğəmbərliyi mənimlə tamamlandı. Çayları, dənizləri və Yer üzündəki çeşmələri coşdurub axıdan mənəm! Dünyanın sahibi mənəm! Zülmət gününün əzabı mənəm! Musanın ustadı olan Xızır mənəm! Mənəm Davud və Süleymanın müəllimi, mənəm Zülqərneyn! Allahın izniylə Göyün tavanını yerinə oturdan mənəm! Yer üzünü açıb-yayan mənəm! Zülmət gününün əzabı mənəm! Mənəm uzaq məkandan nida edən! Mənəm dabbətülərz! Peyğəmbər belə buyurmuşdur: "Ya Əli, sənsən Onun iki əsrinin və iki tərəfinin sahibi! Axirət və rəcət günü sənin üçündür".*

*Ey Salman, bizim ölümüz öldüyündə əsla ölməmişdir, öldürülənimiz əsla öldürülməmişdir, Qaibimiz qeyb olduğunda əsla qaib olmamışdır! Bizlər doğmayıb, qarınlardan doğulmamışıq. İnsanlardan heç kimsə bizimlə müqayisə edilə bilməz. Mənəm beşikdəki İsanın dili ilə danışan! Mənəm Nuh! Mənəm İbrahim! Mənəm Salehin dəvəsinin sahibi! Mənəm sarsıntının sahibi! Mənəm zəlzələnin sahibi! Mənəm Lövhul-məhfuz! Orda olan elmin ta-*

[1248] "əl-Mumin", 15.

*mamı mənə dönər. Allahın istədiyi surətlərə girib dəyişən mənəm! O surətləri görən məni görmüşdür. Məni görən onları görmüşdür. Bizik Allahın həqiqətdəki əzəli və dəyişməyən nuru!*

*Ey Salman, bütün göndərilənlər* (peyğəmbərlər) *bizimlə şərəf tapmışlar! Bizi rəblər olaraq çağırmayın və bizim haqqımızda istədiyinizi söyləyin. Həlak olan bizə görə həlak olur! Qurtuluşa çatan ancaq bizimlə çatar!*

*Ey Salman, deyib-açıqladığım şeylərə iman edən ancaq mömindir! Allah onun qəlbini iman üçün imtahan etmişdir. Ondan razı olmuşdur. Hər kim şəkk və şübhə edərsə, o, nasibidir. Əgər mənim vilayətimdə olduğunu iddia edərsə, o, yalançıdır.*

*Ey Salman, mən və Əhli-Beytimdən olan hidayətçilər Allahın örtülü, gizli sirri və müqərrəb vəliləridir! Bizim hamımız vahid və birik, sirrimiz birdir. Aramızda fərq qoymayın, yoxsa həlak olarsınız. Biz hər zaman Rəhmanın istədiyi şəkildə zühur edərik. Dediklərimi inkar edənlərin vay halına! Bütün bunları axmaq və nadanlardan başqası inkar etməz. Qəlbi, qulağı və bəsirəti möhürlənib örtülmüş adamdan başqası inkar etməz.*

Ey Salman, bütün mömin və möminələrin atasıyam! Ey Salman, mənəm Tamətul-Kubra (qorxunc günün)! Mənəm vaxtı çatmış Qiyamət günü! Mənəm haqqə (Qiyamət müsibətindən birisi)! Mənəm qaria (Qiyamət əzablarından birisi)! Mənəm ğaşiyə (Cəhənnəm əzabı)! Mənəm sahə (böyük əzablardan birisi)! Mənəm nazil olan mihnə (böyük əzab)! Mənəm Allahın Yer üzündəki əlamətləri, dəlilləri, hicabları və Allahın rizası! Mənim adım Ərşə yazılınca Ərş qərar tapdı. Göylərə yazıldı, göylər qaim oldu. Yerə yazıldı, Yer yayılıb-sərildi. Küləklərə yazıldı, əsməyə başladı. Şimşəyə yazıldı, işıq saçmağa başladı. Vadilərə yazıldı, oradakı çaylar gurlayıb-axmağa başladı. Nura yazıldı, nur işıldadı. Buludlara yazılınca, damla-damla yağmağa başladı. İldırıma (Göy gurultusu) yazılınca, itaətkar oldu. Gecəyə yazılınca, qaranlığa gömüldü. Gündüzə yazılınca, aydınlanıb işıq verdi”.[1249]

---

1249 الحافظ رجب البرسي في مشارق أنوار اليقين في أسرار أمير المؤمنين ص: 160-162 / يونس رمضان في بغية الطالب في معرفة علي بن ابي طالب ص: 444 - Əllamə Məclisinin “Biharül-ənvar” kitabında bu hədisi nəql edən Hafiz Rəcəb əl-Bursi haqqında bu ifadələr var: **و لا أعتمد على ما يتفرد بنقله لاشتمال كتابيه على ما يوهم الخبط و الخلط و الارتفاع و إنما أخرجنا منهما ما يوافق الأخبار المأخوذة من الأصول المعتبرة -** “onun kitabında sapqınlıq, yanlışlıq və quluv olduğuna görə, rəvayət etməkdə tək qaldığı şeylərə güvənmirəm. Onun kitabından ancaq mötəbər qaynaqlarda mövcud olanlara uyğun olanları rəvayət edirəm” (Əllamə Məclisi, Biharul-ənvar, c. I, səh. 10). Həmçinin, qeyd olunan bu hədis mötəbər mənbələrdə nəql edilmədiyindən və müəllifin də sənədi qeyd etmədən rəvayət etməsi bəzi tədqiqatçıların bu hədisə zəif demələrinə səbəb olmuşdur. Lakin bütün bu deyilənlərə baxmayaraq, bəzi alimlər bu hədisi müstəqil şəkildə şərh etmiş, oradakı zahirən çətin anlaşılan ifadələri izah etmiş və onun doğru olduğunu açıqlamışlar.

## 5.2. İMAM ƏLİ (Ə) ÖZÜNDƏN ƏVVƏLKİ XƏLİFƏLƏRİN DİLİNDƏ

Həzrət Əli *(ə)* Allahın və Peyğəmbərin *(s)* kəlamlarında təriflәndiyi kimi, o Həzrətdən *(ə)* əvvəlki xəlifələr də barəsində təqdirəlayiq sözlər demişlər. Bu haqda mənbələrdə çoxlu sayda rəvayət vardır. Həmin rəvayətlərin bir hissəsi o xəlifələrin İmam Əli *(ə)* haqqında Peyğəmbərdən *(s)* eşitdikləri hədisləri etdikləri rəvayətlər, digər bir hissəsi isə özlərinin sözləridir. Əsərin bu hissəsində onların İmam Əli *(ə)* haqqında rəvayət etdikləri və dedikləri sözlərdən bir neçəsinə diqqət yetirməklə həmin xəlifələrin İmam Əli *(ə)* barəsində həmişə yüksək fikirdə olmalarının şahidi olacağıq.[1250]

I Xəlifə Əbu Bəkr bin Əbu Quhafə Peyğəmbərdən *(s)* rəvayət edir:

*"Hər kəsin rəhbəri mənəmsə, onun rəhbəri Əlidir!*";[1251]

*"Hər kəsin rəhbəri mənəmsə, onun rəhbəri Əlidir! Ey Rəbbim, onu dost tutana dost, onu düşmən tutana düşmən ol! Onu sevəni sev, ona nifrət edənə nifrət et! Ona kömək edənə kömək ol, onu tək buraxanı öz başına burax və harada olsa belə, haqqı onunla et!"*;[1252]

*"Sizə Əbu Talib oğlu Əlini tapşırıram. Əli məndən sonra Günəşin üzərinə çıxdığı və batdığı hər bir şeydən xeyirlidir"*;[1253]

"*Əli mənə mənim məqamım kimidir"*;[1254]

*"Əlinin icazə vermədiyi şəxs Sirat körpüsündən keçə bilməz!*;*"*[1255]

*"Əlinin üzünə baxmaq ibadətdir!"*;[1256]

---

[1250] Bax: İbrahim Quliyev, Hədisi-Şəriflərdə Müqəddəs şəhərlərin Tarixi, Bakı, Nurlar nəşriyyatı, 2012, səh. 254-258.

[1251] Hafiz Əhməd bin Əli bin Həcər əl-Əsqəlani, əl-İsabə fi təmyizis-Səhabə, cild IV, səh-226; İbn Əsir əş-Şafei, Üsdül-qabə fi mərifətis-Səhabə, cild III, səh. 274.

[1252] Zeyni Dehlan, əs-Sirətün-Nəbəviyyə, cild II, səh. 161.

[1253] İbn Həcər əl-Əsqəlani, Lisanül-mizan, müəssisətu-ələmi, Beyrut, cild VI, səh. 78.

[1254] Hafiz Mühibəddin Təbəri əş-Şafei, Zəxairül-Üqba, intişarati-cahan, Tehran, səh. 64; İbn Həcər əl-Heysəmi əş-Şafei, əs-Səvaiqül-mühriqə, Qahirə, səh. 177; Əhməd bin Abdullah Mühibəddin ət-Təbəri, ər-Riyazun-Nəzrə, darul-kutubil-ilmiyyə, Beyrut, c. III, səh. 118; Mərəşi Nəcəfi, Şərhu-Ehqaqil-həqq, c. XVII, səh. 194.

[1255] Hafiz Mühibəddin Təbəri əş-Şafei, Zəxairül-Üqba, intişarati-cahan, Tehran, səh. 71; Əhməd bin Abdullah Mühibəddin ət-Təbəri, ər-Riyazun-Nəzrə, darul-kutubil-ilmiyyə, Beyrut, c. III, səh. 137; İbn Həcər əl-Heysəmi əş-Şafei, əs-Səvaiqül-mühriqə, Qahirə, səh. 161; Əllamə əl-Ayni əl-Hənəfi, Mənaqibu-Seyyidina Əli *(ə)*, Pakistan, Heydarabad, səh. 45; Hafiz Süleyman əl-Qunduzi əl-Hənəfi, Yənabiül-məvəddə, Qum, səh. 419, fəsil 70.

[1256] İbn Məğazili əş-Şafei, Mənaqibu-Əli bin Əbi Talib, Tehran-1394 h. səh. 210, hədis № 252; Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi, Mənaqibu-Xarəzmi, müəssisətu nəşril-islami, Qum, səh. 362, fəsil 23, hədis № 375.

*"Əlinin ədaləti Peyğəmbərin ədalətinə bərabərdir"*.[1257]

Əbu Bəkr özü İmam Əli *(ə)* haqqında demişdir:

"Mən sizdən üstün və fəzilətli olduğuma görə mənə beyət etmisinizsə, beyətinizi geri götürün. Çünki, mən belə bir fəzilətə sahib deyiləm. Əli sizin içinizdə ola-ola mən sizin üstününüz və fəzilətliniz ola bilmərəm".[1258]

Ömər bin Xəttab Peyğəmbərdən *(s)* rəvayət edir:

*"...Əliyə əziyyət verən mənə əziyyət vermişdir"*;[1259]

*"Əgər insanlar Əlini sevməkdə bir olsaydılar o zaman Allah Cəhənnəmi yaratmazdı"*;[1260]

*"Yeddi qat Göyü və yeddi qat Yeri tərəzinin bir gözünə, Əlinin də imanını digər gözünə qoysalar, Əlinin imanı ağır gələr"*;[1261]

*"Ey Əli! Hər kəs səni sevərək ölsə, Qiyamət günü peyğəmbərlərlə bir dərəcədə olacaqdır. Hər kəs sənə nifrət edərək ölsə, yəhudi və xristian kimi ölər"*.[1262]

Ömər bin Xəttabın özü İmam Əliyə *(ə)* dedi:

"Ey Əli! İçində olmadığın camaatdan Allaha sığınıram";[1263]

"Atam sənə fəda olsun! Allah sizinlə bizi hidayət etdi və sizinlə bizi zülmətlərdən çıxarıb nura qərq etdi;"[1264]

"Ey Əli! Allah səndən sonra məni salamat saxlamasın".[1265]

Osman bin Əffan Peyğəmbərdən *(s)* rəvayət edir:

---

[1257] İbn Məğazili əş-Şafei, Mənaqibu-Əli bin Əbi Talib, Tehran-1394 h/q. səh. 129, hədis № 170; Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi, Mənaqibu-Xarəzmi, müəssisətu nəşril-islami, Qum, səh. 296, fəsil 19, hədis № 290; Xətib əl-Bağdadi, Tarixi-Bağdad, məktəbətus-sələfiyyə, Mədinətül-münəvvərə, c. V, səh. 37 və c. VIII, səh. 76.

[1258] Əllamə Məclisi, Biharül-ənvar, cild XXVIII, səh-201; Əbu Hamid əl-Qəzali, Sirrul-Aləmin, İbn Ruzbəhan, İbtalül-İbtal əsərlərinə istinadən nəql edilib.

[1259] Əbdülkərim Rafii əl-Qəzvini, ət-Tədvin fi əxbari-Qəzvin, Rəngin mətbəsi, c. III, səh. 390.

[1260] Hafiz Süleyman əl-Qunduzi əl-Hənəfi, Yənabiül-məvəddə, Qum, səh. 251; Məhəmməd Salih Kəşəfi Tirmizi əl-Hənəfi, əl-Kovkəbüd-Dürri, Pakistan çapı, səh. 122.

[1261] İbn Əsakir, Tarixu-mədinəti-Diməşq, darul-fikir, Beyrut, İmam Əlinin həyatı fəsli, c. 42, səh. 340-341; İbn Məğazili əş-Şafei, Mənaqibu-Əli bin Əbi Talib, Tehran-1394 h. səh. 289, hədis № 330; Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi, Mənaqibu-Xarəzmi, müəssisətu nəşril-islami, Qum, səh. 130, hədis № 145-146.

[1262] Məhəmməd Salih Kəşəfi Tirmizi əl-Hənəfi, əl-Kovkəbud-Durri, Pakistan çapı, səh. 125.

[1263] Hakim Nisaburi, əl-Müstədrək alə Səhiheyn, darul-mərifə, Beyrut, c. I, səh. 457; Məhəmməd bin Abdullah bin Əhməd əl-Əzrəqi, Əxbaru-Məkkə, darus-səqafə, Məkkətül-Mükərrəmə, c. I, səh. 323; Hafiz Mühibəddin Təbəri əş-Şafei, Zəxairül-Üqba, intişarati-cahan, Tehran, səh. 82; Əllamə Əli əl-Muttəqi əl-Hindi, Kənzül-ümmal, c. VI, səh. 177, hədis № 12521.

[1264] Carullah əz-Zəməxşəri, Rəbiül-əbrar, mətbəətul-ani, Bağdad, c. III, səh. 595; Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi, Mənaqibu-Xarəzmi, müəssisətu nəşril-islami, Qum, səh. 97, fəsil 7, hədis № 99.

[1265] Əbu Müəyyəd Müvəffəq bin Əhməd əl-Hənəfi Xarəzmi, Mənaqibu-Xarəzmi, müəssisətu nəşril-islami, Qum, səh. 101, fəsil 7, hədis № 104; Hafiz Mühibəddin Təbəri əş-Şafei, Zəxairül-Üqba, intişarati-cahan, Tehran, səh. 82.

*"Allah Adəmi yaratmamışdan on dörd min il əvvəl mən və Əlini eyni nurdan yaratmışdır. Allah Adəmi yaratdıqdan sonra həmin nuru onun sülbünə daxil etmiş və bu nur Əbdül-Müttəlibə qədər bir şəkildə gəlmişdir. Bu nur məndə nübuvvət, Əlidə isə vəsi şəklində özünü göstərmişdir".*[1266]

Osman bin Əffan deyir: "Əgər Əli olmasaydı, Osman həlak olardı".[1267]

## *5.3. İMAM ƏLİ (Ə) TƏRƏFDARLARININ XÜSUSİYYƏTLƏRİ*

**علي بن إبراهيم، عن أبيه، عن أحمد بن محمد بن أبي نصر، عن محمد أخي عارب، عن محمد بن مسلم، عن أبي جعفر (عليه السلام) قال: لا تذهب بكم المذاهب، فوالله ما شيعتنا إلا من أطاع الله عز وجل.**

Əli bin İbrahim mənə atasından, o, Əhməd bin Məhəmməd bin Əbu Nəsrdən, o, Aribin qardaşı Məhəmməddən, o, Məhəmməd bin Müslimdən, o da Əbu Cəfərdən *(ə)* - İmam Məhəmməd Baqir *(ə)* - nəql edib dedi: *"Fərqli məzhəblər sizi aldatmasın, and olsun Allaha, itaət edənlər tək bizim tərəfdarlarımızdır!"*[1268]

**أبوعلي الاشعري، عن محمد بن سالم ; وأحمد بن أبي عبدالله، عن أبيه، جميعا عن أحمد بن النضر، عن عمر وبن شمر، عن جابر، عن أبي جعفر (عليه السلام) قال: قال لي: يا جابر أيكتفي من ينتحل التشيع أن يقول بحبنا أهل البيت، فو الله ما شيعتنا إلا من اتقى الله وأطاعه وما كانوا يعرفون يا جابر إلا بالتواضع والتخشع والا مانة وكثرة ذكر الله والصوم والصلاة والبر بالوالدين والتعاهد للجيران من الفقراء وأهل المسكنة والغارمين والايتام وصدق الحديث وتلاوة القرآن وكف الالسن عن الناس إلا من خير ; وكانوا امناء عشائرهم في الاشياء. قال جابر: فقلت: يا ابن رسول الله ما نعرف اليوم أحدا بهذه الصفة، فقال: يا جابر لا تذهبن بك المذاهب حسب الرجل أن يقول: احب عليا وأتولاه ثم لايكون مع ذلك فعالا؟ فلو قال: إني احب رسول الله فرسول الله (صلى الله عليه وآله) خير من علي (عليه السلام) ثم لايتبع سيرته ولا يعمل بسنته ما نفعه حبه إياه شيئا، فاتقوا الله واعملوا لما عند الله، ليس بين الله وبين أحد قرابة، أحب العباد إلى الله عزوجل [وأكرمهم عليه] أتقاهم وأعملهم بطاعته، ياجابر والله مايتقرب إلى الله تبارك وتعالى إلا بالطاعة وما معنا براءة من النار ولا على الله لاحد من حجة من كان لله مطيعا فهو لنا ولي ومن كان لله عاصيا فهو لنا عدو ; وما تنال ويتنا إلا بالعمل والورع.**

Əbu Əli əl-Əşəri mənə Məhəmməd bin Salimdən və Əhməd bin Əbu Abullah mənə atasından bunların hamısı Əhməd bin Nəzrdən, o, Əmr bin Şimrdən, o da Cabirdən nəql edib dedi: "Əbu Cəfər *(ə)* - İmam Məhəmməd

[1266] Hafiz Süleyman əl-Qunduzi əl-Hənəfi, Yənabiül-məvəddə, Qum çapı, səh. 256.

[1267] Əllamə Əbdülhüseyn Əhməd əl-Əmini, əl-Qədir, darul-kitabil-ərəbi, c. VIII, səh. 214.

[1268] Küleyni, əl-Kafi, c. II,səh. 48; İman və küfr kitabı, bab 36, hədis № 1.

Baqir *(ə)* - mənə buyurdu: *"Ey Cabir, bir kimsənin Əhli-Beyt tərəfdarı libasına bürünməsi və biz Əhli-Beyti sevdiyini söyləməsi kifayətdirmi?! Vallahi, bizim tərəfdarlarımız yalnız Allahdan çəkinən və yalnız Allaha itaət edənlərdir! Ey Cabir, onlar təvazökarlıqla, xüşu ilə, əmanətə riayət etmələriylə, Allahı çox zikr etmələriylə, oruc tutmalarıyla, namaz qılmalarıyla, ana və ataya yaxşılıq etmələriylə, yoxsul qonşularına, miskinlərə, borclulara, yetimlərə kömək etmələriylə, doğru sözlü olmalarıyla, Quran oxumalarıyla, insanlar haqqında xeyirdən başqa bir söz söyləməmələriylə tanınarlar! Tayfaları içərisində hər kəsin əşyalarını əmanət etdiyi kəslər də onlardır"*. Dedim: "Ey Peyğəmbərin *(s)* oğlu! Bu zamanda bu xüsusiyyətlərə sahib bir adam tanımırıq". İmam *(ə)* buyurdu: *"Ey Cabir, bir şəxsin sırf "mən Əlini (ə) sevirəm, onun vilayətini qəbul edirəm" deməsi, bunun müqabilində bu sözünün üstündə durmaması səni səhv düşüncəyə sövq etməsin! Bu şəxs "mən Peyğəmbəri (s) sevirəm", "Peyğəmbər (s) Əlidən (ə) üstündür" desə, sonra Peyğəmbərin həyatı kimi yaşamasa, Peyğəmbərin Sünnəsinə əməl etməsə, bu sevgisi ona heç bir fayda verməz. Allahdan çəkinin və Allah yanında olanlar üçün əməl edin. Allahla bəndələr arasında bir qohumluq yoxdur. Allah yanında ən sevimli və ən çox hörmətə layiq olan bəndə, Ondan ən çox çəkinən və Ona ən çox ibadət edən kimsədir. Ey Cabir, and olsun Allaha, Ona yalnız itaət etməklə yaxınlaşmaq olar! İnsanların Cəhənnəmdən xilas olmalarının səlahiyyəti bizim əlimizdə deyil. Heç kimin Allaha qarşı irəli sürə biləcəyi bir səbəbi də yoxdur. Kim Allaha itaət edirsə, bizim dostumuz, kim də Allaha qarşı üsyan edirsə, bizim düşmənimizdir. Bizim vilayətimiz ancaq əməl və təqva ilə əldə edilər"*.[1269]

**أبو علي الأشعري، عن محمد بن عبد الجبار، عن صفوان بن يحيى، عن يزيد بن خليفة قال: وعظنا أبو عبد الله (عليه السلام) فأمر وزهد، ثم قال: عليكم بالورع، فإنه لا ينال ما عند الله إلا بالورع.**

Əbu Əli əl-Əşəri mənə Məhəmməd bin Əbdülcəbbardan, o, Səfvan bin Yəhyadan, o da Yezid bin Xəlifədən nəql edib dedi: "Əbu Abdullah *(ə)* - İmam Cəfər Sadiq *(ə)* - bizə nəsihət etdi, zahidliyi əmr etdi və buyurdu: *"Sizə günahdan uzaq olmağı tövsiyə edirəm. Çünki, Allah yanında olanları yalnız günahdan uzaq olmaqla əldə etmək olar"*.[1270]

---

[1269] Küleyni, əl-Kafi, c. II; İman və küfr kitabı, bab 36, hədis № 3. Hədisi Şeyx Tusi "Əmali" əsərində (səh. 735, 46-cı bab, hədis № 1535) iki sənədlə rəvayət etmişdir. Küleyninin və Tusinin bir sənədində Əmr bin Şimr adlı ravi vardır ki, o, çox zəif bir ravidir. Məhz bu üzdən Əllamə Məclisi "əl-Kafi"nin şərhində hədis haqqında yazır ki, "**الحديث الثالث: ضعيف** - 3-cü hədis: zəifdir" (Bax: Əllamə Məclisi, "Miratül-üqul", c. VIII, səh. 50). Ancaq Tusinin 2-ci sənədi müttəsil (bitişik) və bütün raviləri siqədir (etibarlıdır). Buna görə də hədis səhihdir.

[1270] Küleyni, əl-Kafi, c. II, səh. 50, İman və küfr kitabı, bab 37, hədis № 3.

**محمد بن يحيى، عن أحمد بن محمد بن عيسى، عن محمد بن إسماعيل بن بزيع، عن حنان بن سدير قال: قال أبو الصباح الكناني لأبي عبد الله (عليه السلام): ما نلقى من الناس فيك؟! فقال أبو عبد الله (عليه السلام): وما الذي تلقى من الناس في؟ فقال: لا يزال يكون بيننا وبين الرجل الكلام فيقول: جعفري خبيث، فقال: يعيركم الناس بي؟ فقال له أبو الصباح: نعم قال: فقال: ما أقل والله من يتبع جعفرا منكم، إنما أصحابي من اشتد ورعه، وعمل لخالقه، ورجا ثوابه، فهؤلاء أصحابي.**

Məhəmməd bin Yəhya mənə Əhməd bin Məhəmməd bin İsadan, o, Məhəmməd bin İsmayıl bin Beziyədən, o da Hannan bin Sidrdən nəql edib dedi: "Əbu Sabbah əl-Kinani Əbu Abdullaha *(ə)* - İmam Cəfər Sadiq *(ə)* - dedi: "Sənin üzündən insanlardan nələr çəkirik?!" İmam *(ə)* buyurdu: *"İnsanlar sizə nə deyir?"* Əbu Sabbah dedi: "Biriylə danışmağa başladıqmı, dərhal "Cəfəridir, murdardır" - deyirlər". İmam *(ə)* buyurdu: *"İnsanlar sizi mənimləmi ayıblayırlar?"* Əbu Sabbah dedi: "Bəli." Bunun üzərinə İmam *(ə)* buyurdu: *"Vallahi, aranızda Cəfərə itaət edən çox az adam var! Mənim səhabələrim günahdan çox çəkinən, Yaradanına qarşı saleh əməl işləyən, Onun savabını ümid edən kəslərdir. Mənim səhabələrim məhz onlardır".*[1271]

**علي بن إبراهيم، عن أبيه، عن ابن محبوب، عن ابن رئاب، عن أبي عبد الله (عليه السلام) قال: إنا لا نعد الرجل مؤمنا حتى يكون بجميع أمرنا متبعا مريدا، ألا وإن من اتباع أمرنا وإرادته الورع، فتزينوا به، يرحمكم الله وكبدوا أعدائنا [به] ينعشكم الله.**

Əli bin İbrahim mənə atasından, o, İbn Məhbubdan, o, İbn Riabdan, o da Əbu Abdullahdan *(ə)* - İmam Cəfər Sadiq *(ə)* - nəql edib dedi: *"Bütün əmrlərimizə itaət edən və itaət etməyi istəyən olmadıqca biz bir adamı mömin saymarıq. Xəbəriniz olsun, bizim əmrimizə itaət etmək və itaət etməyi istəmək təqvanın bir parçasıdır! O halda bu təqva ilə bəzənin ki, Allah sizə rəhmət etsin! Təqvaya sahib olmaqla bizim düşmənlərimizi üzün ki, Allah sizi ucaltsın!"*[1272]

**عنه، عن علي بن النعمان، عن ابن مسكان، عن خثيمة قال: دخلت على أبي جعفر (عليه السلام) أودعه فقال: يا خثيمة أبلغ من ترى من موالينا السلام وأوصهم بتقوى الله العظيم وأن يعود غنيهم على فقيرهم وقويهم على ضعيفهم وأن يشهد حيهم جنازة ميتهم وأن يتلاقوا في بيوتهم، فإن لقيا بعضهم بعضا حياة لامرنا، رحم الله عبدا أحيا أمرنا، يا خثيمة أبلغ موالينا أنا لا نغني عنهم من الله شيئا إلا بعمل وأنهم لن ينالوا ولايتنا إلا بالورع وأن أشد الناس حسرة يوم القيامة من وصف عدلا ثم خالفه إلى غيره.**

---

[1271] Küleyni, əl-Kafi, c. II, səh. 50; İman və küfr kitabı, bab 37, hədis № 6. Bu hədislərdən ikincisinin sənədi müttəsil və qalan raviləri siqədir (etibarlıdır). Ancaq ravilərdən Hənnan bin Sədir Vaqifi məzhəbinə mənsubdur ki, bu da hədisi "müvəssəq" dərəcəsinə düşürməkdədir. Əllamə Məclisi də "əl-Kafi"yə yazdığı "Miratül-üqul" adlı şərhində hədis haqqında yazır: **الحديث السادس: موثق** - 6-cı hədis (mötəbərdir) müvəssəqdir (Bax: Əllamə Məclisi, "Miratül-Üqul", c. VIII, səh. 60).

[1272] Küleyni, əl-Kafi, c. II, səh. 51; İman və küfr kitabı, bab 37, hədis № 13. Bu hədis də mötəbərdir. Əllamə Məclisi hədis haqqında yazır: **الحديث الثالث عشر: حسن** - on üçüncü hədis (gözəldir) həsəndir (Bax: Əllamə Məclisi, "Miratül-üqul", c. VIII, səh. 64).

Əli bin Numan, İbn Miskandan, o da Xeysəmədən nəql edib dedi: “Vidalaşmaq üçün Əbu Cəfərin *(ə)* - İmam Baqir *(ə)* - yanına getdim. İmam *(ə)* buyurdu: *“Ey Xeysəmə! Bizim vilayətimizi qəbul edənlərdən kimi görsən salam de. Onlara əzəmətli Allahdan çəkinməyi tövsiyə et. Zənginləri kasıblarına, güclüləri zəiflərinə kömək etsinlər. Sağ olanları ölənlərin cənazələrinə qatılsın, evlərində görüşsünlər. Çünki, onların görüşməsi bizim əmrlərimizin canlanmasına vasitə olar. Allah bizim əmrlərimizi canlandıran bəndəyə rəhmət etsin! Ey Xeysəmə! Bizim vilayətimizi qəbul edənlərə çatdır ki, onların əməlləri olmadan bizim onlar üçün edəcək bir şeyimiz yoxdur. Onlar günahlardan uzaq durmadıqca, bizim vilayətimizi əldə etmək qüruruna çata bilməzlər. Qiyamət günü ən şiddətli həsrəti başqalarına ədaləti tövsiyə edib özü ona əməl etməyən kimsə çəkər”*.[1273]

**محمد بن يحيى، عن أحمد بن محمد بن عيسى، عن محمد بن إسماعيل، عن منصور بزرج، عن مفضل قال: قال أبو عبد الله (عليه السلام): إياك والسفلة، فإنما شيعة علي من عف بطنه وفرجه، واشتد جهاده، وعمل لخالقه، ورجا ثوابه، وخاف عقابه، فإذا رأيت أولئك فأولئك شيعة جعفر.**

Məhəmməd bin Yəhya mənə Əhməd bin Məhəmməd bin İsadan, o, Məhəmməd bin İsmayıldan, o, Mənsur bin Bozorcdan, o da Müfəzzəldən nəql edib dedi: “Əbu Abdullah *(ə)* - İmam Cəfər Sadiq *(ə)* - buyurdu: *“Alçaqlardan uzaq durun. Çünki, Əlinin tərəfdarları mədəsi və şəhvəti barəsində iffətli davranan, buna qarşı amansız bir cihad edən, Yaradanı üçün əməl edən,* (Rəbbinin) *savabını ümid edən, əzabından qorxan kəslərdən meydana gəlirdi. Əgər onları görsən, bil ki, Cəfərin tərəfdarları onlardır”*.[1274]

**محمد بن يحيى، عن أحمد بن محمد بن عيسى، عن ابن أبي عمير، عن علي بن عطية، عن خثيمة قال: قال لي أبو جعفر (عليه السلام): أبلغ شيعتنا أنه لن ينال ما عند الله إلا بعمل وأبلغ شيعتنا أن أعظم الناس حسرة يوم القيامة من وصف عدلا ثم يخالفه إلى غيره.**

---

[1273] Küleyni, əl-Kafi, c. II, səh. 109; İman və küfr kitabı, bab 77, hədis № 2. Hədisin sənədindəki ravilərdən Xeysəmədən başqa hamısının etibarlı olması ittifaq ilə sabitdir. Xeysəməyə gəlincə, onun rəvayət etdiyi iki hədis İmam Cafər Sadiqə *(ə)* ərz edilmiş və İmam *(ə)* *“Xeysəmə doğru söyləyir”* deyə buyuraraq onun rəvayətini üstün bilmişdir. Eyni şəkildə rical alimlərindən Nəcaşi də Xeysəmənin əshabımızın doğru olanlardan olduğunu söyləmişdir ki, bu qədəri ən azından hədisi “həsən” saymaq üçün yetərlidir. Əllamə Məclisi “əl-Kafi”yə yazdığı “Miratül-üqul” adlı şərhində hədisi məchul saymasına baxmayaraq, bizim dediyimiz kimi, hədisi həsən saymağın mümkün ola biləcəyini bildirməkdədir.

**الحديث الثاني: مجهول. و يمكن عده حسنا لأن خثيمة في هذه المرتبة مردد بين ممدوح**

İkincici hədis məchuldur, amma həsən saymaq da mümkündür. Çünki, Xeysəmə haqqında mədh (tərif) varid olmuşdur (Bax: Əllamə Məclisi, “Miratül-üqul”, c. IX, səh. 53).

[1274] Küleyni, əl-Kafi, c. II, səh. 142; İman və küfr kitabı, bab 99, hədis № 9. Bu hədisin bütün raviləri də siqədir (etibarlıdır), sadəcə ravilərdən Mənsur bin Bizrac Vaqifi məzhəbinə mənsubdur ki, bu da hədisi müvəssəq dərəcəsinə düşürməkdədir. **الحديث التاسع: مختلف فيه و معتبر عندي** - doqquzuncu hədis “mənim nəzdimdə mötəbərdir” (Əllamə Məclisi, “Miratül-üqul”, c. IX, səh. 239).

Məhəmməd bin Yəhya mənə Əhməd bin Məhəmməd bin İsadan, o, İbn Əbi Ümeyrdən, o, Əli bin Ətiyyədən, o da Heysəmədən nəql edib dedi: "Əbu Cəfər *(ə)* - İmam Baqir *(ə)* - mənə buyurdu: *"Tərəfdarlarımıza bunu çatdır ki, Allah yanında olanlara ancaq əməllə çatılar. Tərəfdarlarımıza bunu çatdır ki, Qiyamət günü ən böyük həsrəti ədaləti dilindən salmadığı halda başqalarıyla ona zidd* (ədalətsiz) *davranan kəslər çəkər".*[1275]

**أبو علي الأشعري، عن محمد بن عبد الجبار، ومحمد بن إسماعيل، عن الفضل ابن شاذان، جميعا، عن صفوان بن يحيى، عن أبي أسامة زيد الشحام قال: قال لي أبو عبد الله (عليه السلام): اقرأ على من ترى أنه يطيعني منهم ويأخذ بقولي السلام و أوصيكم بتقوى الله عز وجل والورع في دينكم والاجتهاد لله وصدق الحديث وأداء الأمانة وطول السجود وحسن الجوار فبهذا جاء محمد (صلى الله عليه وآله)، أدوا الأمانة إلى من ائتمنكم عليها برا أو فاجرا، فان رسول الله (صلى الله عليه وآله) كان يأمر بأداء الخيط والمخيط صلوا عشائركم واشهدوا جنائزهم وعودوا مرضاهم وأدوا حقوقهم فإن الرجل منكم إذا ورع في دينه وصدق الحديث وأدى الأمانة وحسن خلقه مع الناس قيل: هذا جعفري فيسرني ذلك ويدخل علي منه السرور وقيل: هذا أدب جعفر وإذا كان على غير ذلك دخل علي بلاؤه وعاره وقيل: هذا أدب جعفر، فوالله لحدثني أبي (عليه السلام) أن الرجل كان يكون في القبيلة من شيعه علي (عليه السلام) فيكون زينها آداهم للأمانة وأقضاهم للحقوق وأصدقهم للحديث، إليه وصاياهم وودائعهم، تسأل العشيرة عنه فتقول: من مثل فلان إنه لآدانا للأمانة وأصدقنا للحديث.**

Əbu Əli əl-Əşəri mənə Məhəmməd bin Əbdülcəbbardan, Məhəmməd bin İsmayıl mənə Fəzl bin Şazandan, bunların hamısı birlikdə Səfvan bin Yəhyadan, o da Əbu Üsamə Zeyd bin Şəhhamdan nəql edib dedi: "Əbu Abdullah *(ə)* - İmam Cəfər Sadiq *(ə)* - mənə buyurdu: *"Onlardan mənə itaət etdiyini və mənim sözümü dinlədiyini bildiyin kəslərə salam de. Ey Əbu Üsamə! Mənim adımdan de: Sizə Allahdan qorxmağı, dininiz barəsində vəra sahibi olmağı, Allah üçün işi, doğru söz söyləməyi, əmanəti əda etməyi, uzun-uzun səcdə etməyi, yaxşı qonşuluq etməyi tövsiyə edirəm. Muhəmməd peyğəmbər bu məqsədlə gəlmişdir, istər yaxşı, istərsə pis kimsə olsun, əmanəti götürdüyünüz kimsəyə qaytarın. Şübhəsiz ki, Peyğəmbər, sap və iynə olsa belə, əmanətin sahibinə verilməsini əmr edərdi. Qohum-əqrəbanızı ziyarət edin, cənazələrinə qatılın, xəstələrinizi ziyarət edin, haqlarını verin. Çünki, sizdən bir adam din barəsində vəra sahibi olduğunda, doğru söz söylədiyində, əmanəti sahibinə qaytardığında, insanlarla əlaqələrində gözəl əxlaq üzərinə davranış etdiyində "bu adam Cəfəridir" deyirlər. Bu da*

[1275] Küleyni, əl-Kafi, c. II, səh. 174; İman və küfr kitabı, bab 119, hədis № 5. Bu hədisin sənədindəki ravilərin də hamısı siqədir (etibarlıdır). Ravilərdən Xeysəmə haqqında da yuxarıda məlumat verilib. Şeyx Hadi ən-Nəcəfi hədis haqqında deyir: **الرواية معتبرة الإسناد** - rəvayətin sənədi mötəbərdir (Şeyx Hadi ən-Nəcəfi "Məvsuat əhadisi Əhli-Beyt *(ə)*", c. VII, səh. 114, hədis № 8172).

*məni sevindirir və mən buna görə sevinc duyuram ki, desinlər: "bu Cəfərin ədəbidir". Amma bundan başqa bir iş gördükdə, bəlası və xəcaləti mənə gələr və insanlar "bu Cəfərin ədəbidir" deyərlər. Vallahi, mənə atam* - İmam Məhəmməd Baqir *(ə) - nəql edib buyurdu: "Bir adam bir qəbilə içində Əlinin tərəfdarlarından olanda o qövmün bəzəyi olardı. Qəbilənin içində əmanəti ən yaxşı əda edənləri, ən yaxşı haqqı ödəyənləri və ən doğru söyləyənləri o, olardı. Onun tövsiyələrinə qulaq asar və mallarını ona əmanət edərdilər. Tayfasından onu soruşduqlarında "filan adam kimisi tapılmaz. O, içimizdə ən sadiq, ən doğru sözlü kimsədir" - deyə cavab verilərdi".*[1276]

Bu hədislərdən belə başa düşülür ki, həqiqi Əli *(ə)* tərəfdarları Allahdan ən çox qorxanlar, Allaha ən çox ibadət edənlər, irili-xırdalı bütün günah və haramlardan çəkinən, əmanətə xəyanət etməyən, sözlərində və verdikləri vədələrində doğru olanlar, qohum-qonşu haqlarına riayət edənlər və digər ali-əxlaqi keyfiyyətləri daşıyan kimsələrdir. Yoxsa özünü Əhli-Beyt tərəfdarı adlandırıb halalı-haramı bir-birinə qatanlar, qohum-qonşu hüquqlarına riayət etməyənlər, namazı və digər Allahın vacib əmrlərini tərk edənlərin heç bir Əhli-Beyt tərəfdarı olma xüsusiyyətləri yoxdur və onların Əhli-Beyt *(ə)* sevgisi yalandan başqa bir şey deyildir. Həmçinin, bu tip insanlar Əhli-Beytə *(ə)* xəcalət gətirən insanlardır. Çünki, Əhli-Beyt *(ə)* öz tərəfdarlarını təqvada ən üstün olan şəxs kimi görmək istəmiş və tərəfdarlarına da həmişə bunu tövsiyə etmişdir.

---

[1276] Küleyni, əl-Kafi, c. II, səh. 352-353; Müaşərət kitabı, bab 1, hədis № 5. Əllamə Məclisi "əl-Kafi"yə yazdığı "Miratül-üqul" adlı şərhində hədisin durumu haqqında deyir الحديث الخام: صحيح - beşinci hədis səhihdir (Bax: Əllamə Məclisi, "Miratül-üqul", c. XII, səh. 528).

VI FƏSİL

# İMAM ƏLİNİN (Ə) "NƏHCÜL-BƏLAĞƏ" ƏSƏRİ

## *6.1. "NƏHCÜL-BƏLAĞƏ" HAQQINDA ELMİ TƏDQİQATLAR*

Əli bin Əbu Talibin *(ə)* bəlağət və fəsahətdə misli-bərabəri olmayan xütbələri, hikmətli kəlamları və məktublarının toplusu olan "Nəhcül-bəlağə" İslam və bütün dünya mədəniyyəti inciləri sırasına ölməz bir əsər kimi daxil olmuşdur.

İmam Əlinin *(ə)* əshabı İmamın *(ə)* xütbə, moizə, məktub və hikmətli kəlamlarını o Həzrət *(ə)* hələ həyatda ikən cəm etməyə və yazıya almağa başlamışlar. Daha sonralar Əhli-Beyt *(ə)* imamlarının *(ə)* hafizələrində həkk olunan və müqəddəs əmanət kimi nəsildən-nəsilə ötürülən bu əlçatmaz-ünyetməz bəlağət və fəsahət nümunələri həm də xüsusi katiblər tərəfindən qələmə alınmışdır.

Həzrət Əlinin *(ə)* hikmətli kəlamlarını ilk dəfə o Həzrəti *(ə)* Nəhrəvan səfərində müşayiət edən kufəli Zeyd bin Vəhab əl-Cüheyni yazmağa başlamışdır. Sonralar bir çox yazıçılar bu xütbələri öz kitablarına daxil etmiş, Həzrət Əlinin *(ə)* hikmət dolu xütbə, kəlam və moizələrinə geniş şərhlər yazmışlar ki, onların da ən məşhuru İbn Əbil Hədid Əbdülhəmidin şərhi sayılır.

Böyük alim Seyid Rəzi Məhəmməd bin Əhməd Hicri-qəməri tarixlə 400-cü ildə (1000-ci il) İmam Əlinin *(ə)* xütbə, kəlam və məktublarını toplayıb adını "Nəhcül-bəlağə" qoymuşdur. O, bu kitabı "Nəhcül-bəlağə" adlandırmasının səbəbini belə açıqlayır: "Yaxşı olar ki, mən bu kitaba "Nəhcül-bəlağə" adını verim. Çünki, bu qiymətli, gövhər kəlamlar bəlağətin yolunu oxucuların üzünə açır və bu məharəti, hünəri axtaranları özünə yaxınlaşdırır, habelə müəllim, şagird və zahidlərin istək və arzularını yerinə yetirir". Seyid Rəzi bu kəlamları toplayarkən İmamın *(ə)* bəzi kəlamlarını, hətta gətirdiyi xütbə, məktub və kəlamlarındakı sənəd və mənbələri də qeyd etməmişdir. Lakin digər alimlərin səyi nəticəsində bu çatışmazlıq aradan götürülmüşdür. Belə ki, Hadi Kaşiful-Ğita "Müstədrəkun-Nəhcül-bəlağə" və Rza Ustadi "Mədarike-Nəhcül-bəlağə" əsərlərində bu kitabın sənədlərini yazmışlar. Buna misal kimi, "Nəhcül-bəlağə"nin 3-cü xütbəsi - "Şiqşiqiyyə" xütbəsini Seyid Rəzi öz kitabında gətirmiş, lakin haradan nəql etdiyini qeyd etməmişdir. Necə ki, başqa mənbələrə əsasən, Seyid Rəzidən əvvəl yaşayan Şeyx Səduqun "İləluşşəraye" və "əl-Cəməl" adlı əsərlərində bu xütbə vardır.

Bunu da qeyd etmək lazımdır ki, İmam Əlinin *(ə)* mübarək kəlamlarını hələ Seyid Rəzidən öncə İmamın *(ə)* öz səhabə və silahdaşı olan Zeyd bin Vəhab cəmləmişdir. Habelə, Əbu Süleyman Zeyd bin Vəhab, İsmayıl bin

Mehran Səkuni, Əbul Qasim Əbdül Əzim Həsəni, İmam Əlinin *(ə)* bir çox xütbələrini toplayaraq "Xütəbu-Əmirəl-Möminin" adlı kitab yazmışlar.

"Nəhcül-bəlağə"nin məzmun və mətni üç hissədən ibarətdir:

1-ci hissə 241-242 xütbədir. Bu xütbələr İmam Əlinin *(ə)* müxtəlif hadisə və şəraitlə bağlı etdiyi söhbətlərdir. O cümlədən, birinci xütbə Yer, Göy, mələklər və Həzrət Adəmin *(ə)* xilqəti, 184-cü xütbə "Müttəqin", yaxud "Həmmam" xütbəsi ilə məşhur olub möminlərin xüsusiyyətlərindən bəhs edir.

2-ci hissə 78-79 məktubdan ibarətdir. İmam Əli *(ə)* bu məktubları müxtəlif şəxslərə yazmış, onlara düzgün yolu, əmanətə xəyanət etməməyi və gözəl işləri tövsiyə etmişdir.

3-cü hissə 480-489 hikmətamiz sözdən ibarətdir. Burada İmamın *(ə)* müxtəlif yerlərdə söylədiyi əxlaqi, elmi, siyasi-ictimai, psixoloji və digər hədislər yığılmışdır.

"Nəhcül-bəlağə" İmam Əlinin *(ə)* qiymətli bir kitabı olaraq bizi müxtəlif elmlərdən agah edir. Bu kitabda üsulid-din, firuid-din, Quran, Sünnə, şəri hökmlər, kainat və məxluqatın sirləri, fəlsəfə, astronomiya, coğrafiya, siyasət, peyğəmbərlər *(ə)* və İslam tarixi, əxlaq, adət-ənənələr və başqa mövzular haqqında danışılır.

Əlbəttə, İmam Əlinin *(ə)* bütün nəzəri irsini, dediklərini və yazdıqlarını tək-tək toplayıb tam dəqiqliyi ilə külliyyat şəklində yazıya almaq çətin və bəlkə də qeyri-mümkün bir işdir. Hər halda tam qətiyyətlə deyə bilərik ki, bu gün İmam Əlinin *(ə)* bizə gəlib çatan kəlamları çatmayanlardan qat-qat azdır.

Digər tərəfdən, qeyd edilməlidir ki, ayrı-ayrı müəlliflərin tarixi şəraitdən, dövrün əhval-ruhiyyəsindən, sosial-siyasi hadisələrin xarakterindən asılı olaraq İmam Əlinin *(ə)* xütbə, kəlam, məktub və moizələrini bir-birindən fərqli deyim və mənalarda yazıya alması da sonralar bu mübarək yazıların düzgün tərtibatını xeyli çətinləşdirən amillərdən olmuşdur. Bunların hamısını araşdırmaq, tədqiq etmək, hər bir sözü artırıb-əskiltmədən, rəvayət edildiyi şəkildə yazıya almaq xüsusi səriştə, hazırlıq tələb edir.

"Nəhcül-bəlağə"nin tərtibçisi Şərif Rəzinin ən böyük xidməti onda olmuşdur ki, o, təqribən min il bundan qabaq ayrı-ayrı qaynaqları diqqətlə öyrənmiş, bu qaynaqlardakı məlumatları bir-birilə diqqətlə tutuşdurmuş, heç bir şübhə yeri qoymadan İmam Əliyə *(ə)* aid olan kəlamları bu kitabda toplamışdır.[1277]

Topladığı materialın xütbə və əmrlərdən, yazı və məktublardan, hikmətli kəlam və ibrətamiz moizələrdən ibarət olduğunu görən Seyid Rəzi kitabı-

[1277] Seyid Rəzi, Nəhcül-bəlağə, üçüncü nəşr, Bakı-2009, səh. V.

nı həmin mövzular üzrə tərtib etmək qərarına gəlmişdir. İmam Əlinin *(ə)* tövhid və ilahi ədllə, qəzavü-qədərlə, Allahı Ona xas olmayan sifətlərdən uca tutmaq məsələlərinə dair bəlağət və fəsahətlə dolu kəlamlarının həm bilik sahibləri, bilik sorağında, gözəl danışıq qabiliyyətinə malik olanlar, həm də ifadəli nitqə can atanlar üçün maraqlı olduğunu görəndə isə kitabını "Nəhcül-bəlağə" (Bəlağət yolu) adlandırmışdır.[1278]

Bu gün əlimizdə olan "Nəhcül-bəlağə" bu yolla ərsəyə gəlmişdir. Sonralar bu kitab İmam Əlini *(ə)* sevənlər, İmamın *(ə)* bəlağət dolu kəlamlarına, ibrətamiz moizələrinə maraq göstərənlər üçün əvəzedilməz qaynaq rolunu oynamışdır. Bir çox bəlağət və fəsahət sahibləri ifadəli nitqə, natiqlik sənətinə və aydın danışma qabiliyyətinə məhz İmam Əlinin *(ə)* xütbə və kəlamlarını öyrənməklə yiyələnmişdirlər.

"Nəhcül-bəlağə" ayrı-ayrı xalqların dillərinə tərcümə edilmişdir. Şərhli tərcümələr daha uğurlu olmuşdur. Belə şərhli tərcümələrdən biri, deyərdik ki, ən uğurlusu və mükəmməli Ağa Seyyid Əliyyənnəqi Feyzul İslamın fars dilində hazırladığı tərcümədir.[1279]Bu tərcüməni digərlərindən fərqləndirən əsas xüsusiyyət filoloji dəqiqliklə, ərəb dilindəki çətin söz və ifadələrin fars dilində stilistik qarşılığını seçmək qabiliyyətilə izah edilə bilər. Məhz bu səbəbdən "Nəhcül-bəlağə"nin bu gün Azərbaycan oxuyucusunun ixtiyarına verilən tərcüməsi Ağa Seyyid Əliyyənnəqinin həmin əsəri əsasında hazırlanmışdır.

Həqiqətən, İmam Əlinin *(ə)* xütbə, məktub və hikmətli kəlamlarında hər bir müsəlmanı maraqlandıran ən ümdə, ən vacib dini məsələlərə dair dolğun məlumatlar vardır. Digər tərəfdən, "Nəhcül-bəlağə" İmamın *(ə)* mübarək şəxsiyyəti, fəzilətləri, bəlağət və fəsahəti, elmi barədə biliklərimizi zənginləşdirməyə, daha dolğun bilik hasil etməyə imkan verən fundamental bir əsərdir. Buna görə də natiqlik məharətinə nə dərəcədə malik olursansa ol, nə səviyyədə elmi, dini, fəlsəfi təhsil alırsansa al, İmam Əlinin *(ə)* fəzilət və üstünlüklərindən söz açmaq çox çətindir. Çünki, belə bir nəhəng fikir dühası haqqında danışmaq kimi böyük cəsarət tələb edən bir işdə dil acizlik göstərir, bilik naqislik nümayiş etdirir. İslam fikri tarixinin yüksək məqam sahibi sayılan İbrahim Səyyar ən-Nəzzam İmam Əlinin *(ə)* şəxsiyyəti haqqında bir söz deməyi insan üçün imtahan kimi bir şey hesab etmişdir.[1280]

Belə olan halda biz ancaq bu əzəmətli şəxsiyyətin bəlağəti, elmi, fikri, dilinin zənginliyi, nitqinin yığcamlığı, səlisliyi, anlaşıqlığı, təmizliyi haq-

[1278] Həmin mənbə, səh. V.
[1279] Həmin mənbə, səh. VI.
[1280] Həmin mənbə, səh. VII.

qında ən gözəl biliyi onun xütbələrindən, məktub və kəlam toplusu olan "Nəhcül-bəlağə"dən ala bilərik. "Nəhcül-bəlağə" bir daha sübut edir ki, Peyğəmbər *(s)* İmam Əlinin *(ə)* Quran elmlərinə və şəriətə dair biliklərini yüksək qiymətləndirəndə, İmamı *(ə)* *"bu ümmətin ən çoxbiləni"* adlandıranda nə qədər uzaq görən olmuş, bu uzaqgörənliyi səmadan ilhamlanaraq almışdır. Xəlifəlik kürsüsünə əyləşən İmam Əli *(ə)* Peyğəmbərin *(s)* geyindiyi geyimləri geyinərək minbərə qalxıb buyurmuşdur: *"Ey insanlar! Mən sizin aranızdan getməmişdən qabaq* (Allah Kitabı barəsində bilmədiklərinizi) *məndən soruşun..."*.[1281] İnsan gərək nə qədər bilikli olsun və özünə nə dərəcədə arxayın olsun ki, bu sözləri desin. İmam Əlinin *(ə)* belə bir cəsarətə haqqı var idi. Çünki, özünün də dediyi kimi, Allahdan başqa heç kəsin bilmədiyi qeyb elmindən dolayı bütün elmləri Allah Öz Peyğəmbərinə *(s)* təlim etmiş, Rəsulullah *(s)* da öz növbəsində bunları İmam Əliyə *(ə)* öyrətmiş və dua etmişdi ki, sinəsi bu elmləri qavraya, ehtiva edə bilsin.

İlahi təqdirin sayəsindədir ki, İmam Əli *(ə)* dərin elmə və geniş biliyə malik olmuşdur. Bir hədisdə Peyğəmbər *(s)* buyurur: *"Mən Allahdan nə diləmişəmsə, verib... Ondan diləmişəm ki, səni mənim vəsim, varisim və elmimin xəzinədarı etsin, O da edib"*. Peyğəmbərin *(s)* *"Mən elmin şəhəriyəm, Əli isə onun qapısıdır, şəhərə girmək istəyən qapıya gəlsin"* kimi kəlamları İmam Əlinin *(ə)* Peyğəmbər *(s)* varisliyindən xəbər verir.[1282]

İmam Əli *(ə)* Peyğəmbərdən *(s)* aldığı bilikləri ətrafındakılara öyrətmiş, Qurani-Kərimin ayələrini və bu ayələrin mənasını açıqlamışdır.

İmam Əli *(ə)* Qurani-Kərimə dair biliklərini bilavasitə Peyğəmbərin *(s)* özündən almış, Rəsulullaha *(s)* ən yaxın şəxs olmuş, o Həzrətin *(s)* işlərində yaxından iştirak etmiş, davranış və hərəkətlərinin şahidi olmuşdur.

Peyğəmbər *(s)* aldığı vəhylərin mənasını hamıdan əvvəl İmam Əliyə *(ə)* açıqlamışdır. Məhz buna görə də İmamın *(ə)* *"Allahın Kitabı barəsində məndən soruşun. Çünki, elə bir ayə yoxdur ki, onun gecə və ya gündüz, aranda və ya dağda nazil olduğunu bilməyim"* - deyə buyurmağa tam haqqı vardı. Şeyx Müfidin yazdığına görə, "İmam Əli *(ə)* nazil olan Quranı əvvəlindən axırına kimi cəm etmiş, vacib olduğu şəkildə yazmış, Məkkə ayələrini Mədinə ayələrindən, nəsx edilmiş ayələri nəsx edən ayələrdən qabağa çəkmiş, oradakı hər şeyi öz yerinə qoymuşdur".[1283]

---

[1281] Həmin mənbə, səh. VIII.

[1282] Muxtar Cəfərov, Allah Rəsulundan *(s)* İmam Əliyə *(ə)* tövsiyyələr, Bakı-2011, səh. 11.

[1283] Seyid Rəzi, Nəhcül-bəlağə, səh. X.

## *6.2. "NƏHCÜL-BƏLAĞƏ"DƏ ƏXLAQİ MƏSƏLƏLƏR*

Yuxarıda qeyd etdiyimiz kimi, İmam Əlinin *(ə)* mübarək həyatı, pak şəxsiyyəti və İslam uğrunda göstərdiyi misilsiz fəaliyyətlərilə bağlı cürət edib qələmə aldığımız bu əsərdə tədqiq edib araşdırdığımız mövzulardan biri də İmam Əlinin *(ə)* qiymətli kəlamlar toplusu olan "Nəhcül-bəlağə"dir. Buna görə də bu əsərdə bacardığımız qədər "Nəhcül-bəlağə"dəki ibrətli kəlamlardan nümunələr verməyə çalışacağıq. Həqiqətən də insan zəkası İmam Əli *(ə)* elminin və dühasının qüdrəti qarşısında acizdir. İndi isə bu yüksək dühanın əsas göstəriciləri olan kəlamlardan bir neçəsini qeyd etmək istərdik.

**Allah dostlarının bəzi xislətləri barəsində**

*"Allahın dostları insanlar dünyanın zahiri və bəzəyinə baxanda onun batininə yox, olacağına baxanlar, insanlar dünyanın bu günü ilə məşğul olanda, dünya malı əldə etmək fikrinə düşəndə onun sonu ilə məşğul olanlardır, ölüm səfəri üçün azuqə toplayanlardır. Beləliklə, onlar dünyanın onları öldürməsindən qorxduqları şeyi öldürərlər, ilahi əzab və cəzaya səbəb olan şeydən çəkinərlər, dünyanın onları tərk edəcəyini bildikləri şeyini tərk edərlər, onlardan ayrılacağını bildikləri üçün dünya malına ürək bağlamazlar. Onlar dünyadan başqalarının çox bəhrələnmələrinin Axirət bəhrələrinə nisbətdə az olmasını və dünyanı əldə etmələrinin əbədi səadəti itirmək, əbədi səadəti əldən çıxarmağa səbəb olduğunu görərlər. Onlar insanların barışdığı şeylə düşmən, düşmən olduğu şeyləsə barışıqdadırlar, nəfsi istəklərdən çəkinərək müqavimət göstərərlər. Kitab onların vasitəsi ilə tanındı, xalq Quranın hökmlərini dərk etdi və onlar da həmin Kitabla tanındılar; Kitab onların vasitəsi ilə öz yerində qaldı, dəyişdirilmək, azalıb-çoxaldılmaqdan qorundu və onlar həmin Kitabla qaldılar, malik olduqları bütün şeyləri ondan götürdülər. Öz ümid və arzularında eyib və nöqsan sifətlərindən pak və uzaq Allahın savabından üstün ümid, qorxularından ilahi cəzadan üstün qorxu görmürlər".*[1284]

**Gözəl xasiyyətlərə həvəsləndirmək haqqında**

*"Keçmiş zamanlarda mənim Allah yolunda Əbuzər Qəffar və ya Osman bin Məzun adlı bir qardaş və dindaşım var idi ki, dünyanın onun gözündə kiçik olması onu mənim gözümdə böyüdürdü. Qarnı ona hakim deyildi. Beləliklə, tapmadığı şeyi arzulamır, tapanda isə onu çox işlətmirdi. Günün çoxunu sakit idi, danışmırdı, danışanda isə danışanlara qalib gəlir, başqasının*

[1284] Muxtar Cəfərov, Allahın Rəsulundan *(s)* İmam Əliyə *(ə)* tövsiyyələr, səh. 27.

*danışmasına yer qoymurdu, soruşanların susuzluqlarını elm suyundan olan moizə və öyüd-nəsihətlə yatırırdı. Allaha itaət və bəndəlik, xalqla səbirlilik nəticəsində zəifləmiş, əldən düşmüşdü, onu zəif sanırdılar. Lakin hər hansı bir işdə səy və təlaş etmək zamanı çatanda qəzəbli aslan və çox zəhərli səhra ilanı kimi idi. İşi mütləq yerinə yetirər və ya düşməni məğlub edərdi; biri ilə mübahisə edəndə səbirsizlik etməzdi. Vaxtından qabaq Qazının yanına gedənə kimi dəlil-sübut gətirməzdi, dəlilini Qazının yanına getdikdən sonra açıqlayardı. Bu isə insanın nəzər və düşüncəsinin düzlüyünə bir dəlildir; bənzərində bəhanə yeri tapdığı işlərdə, şəxsin üzr və bəhanəsini eşitməyincə heç kəsi məzəmmət etməzdi və bu üsul ədalət və insafın zərurətlərindəndir; sağalmayınca düçar olduğu xəstəlikdən heç kəsə şikayətlənməzdi, sağalandan sonra da şikayətlənmək üçün deyil, başına gələnlərdən xəbərdar etmək məqsədilə deyərdi. Əbuzər dediyini edər, etməyəcəyini isə deməzdi. Çünki, düzlük və doğruluğu özünə şüar etmişdi. Əgər sözdə ona qalib gəlirdilərsə də sükutda məğlub edə bilmirdilər onu. Yersiz danışıq və söhbətlərdə sakit idi. Danışmaqdansa qulaq asmağı sevərdi, faydalanmağı söyləməkdən üstün tutardı, qəflətən düşünülmədən ona iki iş üz tutsaydı, onların hansının nəfsi istəyə daha yaxın olmasına baxar və onunla müxalifət edərdi. Odur ki, siz də bu sifət və xislətlərə yiyələnin və onlara rəğbət göstərin. Əgər onların hamısına gücünüz çatmırsa, bilin ki, azı əldə etmək çoxu tərk etməkdən daha yaxşıdır. Buna görə də heç olmasa həmin xüsusiyyətlərin bəzilərinə də olsa, yiyələnin”.*

**Günahı tərk etmək barəsində**

*“Əgər Allah insanları peyğəmbərlər vasitəsilə Ona qarşı günah və itaətsizlik etməkdən çəkindirməsəydi də nemətlərinə şükür üçün Ona qarşı günah işlətməmək vacib olardı. Çünki, ağıl baxımından həm söz, həm də əməllə nemətə görə şükür etmək vacibdir. Buna görə də itaət və şükürün zərurət və tələblərindən olan günahın tərk edilməsi də vacib olacaqdır”.*

**Bəzi nalayiq sifətlərin ziyanı barəsində**

*“Dünya malı əldə edə bilmədiyi üçün kədərlənən kəs Allahın qəzavü-qədərinə qəzəblənib. Çünki, insanın dünyadan olan pay və qismətinə razı olmaması onun üçün təqdir edilmiş şeyə razı olmaması deməkdir. Ona üz tutmuş müsibətdən başqasının yanında gileylənən kəs Rəbbindən şikayətlənib. Bu, imanın zəif və süst olmasının nişanəsidir. Çünki, o, səbr və dözümlülüyü əldən verib. Kim varlı şəxsin yanına gedib sərvətinə görə ona təvazökarlıq göstərsə, dininin üçdə ikisi əlindən gedib. Quran oxuyub*

*ölümündən sonra oda düşən kəs də Allahın ayələrinə istehza edəndir. Qəlbi dünya məhəbbətinə məftun olan kəs dünyadan üç şeyə bağlı olar: ondan ayrılmayan qəm-qüssəyə, çünki, tapmayanda kədərlənər, tapanda isə onu artıraraq qorumaq üçün qəm-qüssə yeyər; ondan əl çəkməyən və həmişə onun qəlbini qorxulu çəkişmədə saxlayan hərisliyə; çatmayacağı ümid və arzuya".*

**Dünya və Axirət barəsində**

*"Dünya ilə Axirət bir-birinə zidd iki düşmən və bir-birindən ayrı iki yoldur - Cənnət və Cəhənnəm yoludur. Buna görə də dünyanı sevən, ona ürək bağlayan kəs Axirətə düşmən olaraq onunla düşmənçilik edib, göz yumub. Bu iki şey Şərqlə Qərb kimidir ki, onların ikisinin arasında yol gedən şəxs birinə nə qədər yaxınlaşsa, digərindən də bir o qədər uzaqlaşar. Dünyaya ürək bağlayan ona nə qədər çox bağlansa, Axirətdən bir o qədər qafil qalar. Eləcə də Axirətə ürək bağlamış kəs dünyaya rəğbətsiz olar. Onlar bu ixtilaflarından sonra bir əri olan iki arvada oxşayarlar ki, heç vaxt bir-birləri ilə düz gəlməzlər. Çünki, onların hər birinə yaxınlaşaraq dostluq etmək digərindən uzaqlaşmaq və onunla düşmən olmağa səbəb olar".*

**Allahın hökmlərinə tabe olmaq barəsində**

*"Allah sizə namaz, oruc, xüms, zəkat, Həcc və bu kimi vacibatı əmr edib. Belə isə onları zay etməyin, onların yerinə yetirilməsində səhlənkarlıq etməyin ki, cəzalandırılarsınız. Həmçinin, sizin üçün alver, nikah, boşanma və irs hökmləri kimi hədlər müəyyənləşdirib, onları aşmayın, öz zövqünüzə uyğun hərəkət etməyin ki, biçarə olarsınız. Sizləri zina, livat, qumar, şərab və sələm kimi bəzi şeylərdən çəkindirib, onların hörmət pərdəsini yırtmayın, onları yerinə yetirməyin ki, dünyada ziyan görər, Axirətdə isə əbədi əzaba düçar olarsınız. Axirətə xeyri olmayan elmin öyrənilməsi kimi bəzi şeylərdə isə sizin üçün sükut edib. O, onları unudaraq tərk etməyib. Çünki, Allah unutmaq xislətindən pak və uzaqdır. Buna görə də özünüzü onları əldə etmək üçün çətinliyə salmayın".*

**İnsanın ilahi təqdirə razı olması barəsində**

*"İlahi təqdirə razı olmaq gözəl yoldaşdır. İnsanın yoldaşı onu rifah və əmin-amanlıqda saxladığı kimi, Allahın istədiyi şeyə razı olan şəxs də rifah və əmin-amanlıqda olur. Elm müqəddəs və əziz bir mirasdır ki, belə irs çatmış hər bir kəs səadət və xoşbəxtlik açarını əldə edib. Gözəl xasiyyətlər heç vaxt köhnəlməyən təzə və yeni zinətlərdir. Hər bir işdə fi-*

*kirləşmək təmiz və pak güzgü kimidir ki, fikirləşən şəxs onunla işin xeyir və ziyanın görür".*

**Sirr saxlamaq, gülərüzlülük və çətinliklərə qatlaşmaq barəsində**

*"Ağıllı adamın sinəsi onun sirlərinin xəzinəsidir. Ağıllı şəxs yadı öz sirrindən xəbərdar etməz. Gülərüzlük və xoşxasiyyətlik dostluq tələsidir. Xoşxasiyyət və gülərüzlə xalqın ürəyini ələ almaq mümkündür. Çətinliklərə dözüb səbir etmək pisliklərin örtüyüdür".*

**Xalqla mehriban davranmağın faydası barəsində**

*"İnsanlarla elə qaynayıb-qarışın, elə rəftar edin ki, ölsəniz, onlardan ayrıldığınız üçün sizə ağlasınlar, sağ qalsanız, sizinlə ünsiyyətdə olmağa can atsınlar".*

**Dostu olmamaq və dostu itirməyin barəsində**

*"İnsanların ən acizi dost tapmaqda aciz olan kəsdir. Ondan da acizi isə qazandığı dostlardan birini itirən kəsdir. Çünki, dost tapmaq onu qoruyub saxlamaqdan daha asandır".*

**Allahın nemətlərinə şükür etməyə həvəsləndirmək barəsində**

*"Nemətlərin nümunələri sizə çatanda şükürün azlığı ilə onun qalan hissəsini də uzaqlaşdırmayın".*

**Allahın köməksizlərə yardım etməsi barəsində**

*"Qardaş, əmi, dayı kimi çox yaxın qohumların tərk etdiyi şəxsin köməyinə çox uzaq olan yad çatar. Allah adamlar göndərər ki, onu tək qoymasınlar".*

**Naşükürlər barəsində**

*"Ey Adəm övladı! Eyib və nöqsan sifətlərdən pak və uzaq olan Rəbbinin ardıcıl olaraq sənə nemətlər əta etməsini, eyni zamanda səninsə Ona qarşı günah və itaətsizlik etdiyini görən zaman Onun əzabından çəkin. Çünki, nankorluq və naşükürlük intiqam alınmasına və cəzalandırmaya səbəb olur".*

**Möminin vaxtı barəsində**

*"Möminin üç saatı var və gecə-gündüz saatlarını üç hissəyə bölməlidir: 1. Rəbbi ilə raz-niyaz etdiyi saat vaxtının səkkiz saatını Allahın işlərinə sərf etməlidir; 2. Məişətini, yaşayış ehtiyacını təmin etdiyi saat - gecə-gündüzünün səkkiz saatını - ticarət, müəyyən peşə və ya digər işlərə sərf et-*

*məlidir; 3. Özüylə halal və gözəl şeylər arasında ləzzət almaq üçün ayırdığı saat. Ağıllı adama əməli ağıla əsasən bu üç şeydən başqası üçün səfər etmək rəva deyil: məişətini düzəltmək, ticarət, alver və iş üçün, yaxud məad işində addımlamaq üçün, yaxud da ab-havanı dəyişmək və sağlamlıq üçün edilən səfərlər kimi haram olmayan şeylərdən ləzzət almağa görə".*

**Özündən razılıq barəsində**

*"Allah yanında səni qəmləndirən pis iş, məsələn yalan danışıb sonra ondan peşman olmağın məğrurluq və öyünməyə vadar edən yaxşılığından, məsələn namaz qılmaq və ya oruc tutmaqdan daha yaxşıdır. Çünki, peşmançılıq günahı aradan aparır. Lakin yaxşı iş görüb məğrur olmaq həmin yaxşılığı məhv edən günahdır".*

**Gözəl sifətlər barəsində**

*"İnsanın qədir-qiyməti onun himməti miqdarındadır. Buna görə də əgər himməti böyük olarsa, hörmətli və əziz, himməti az olarsa, xar və zəlil olar. Adəm övladının düzlüyü comərdliyi miqdarındadır. Həmçinin, insanın şücaət və cəsurluğu şərəfinin qədərində, çirkin və nalayiq işləri ar bilməsi miqdarındadır, çirkin işi hər nə qədər çox ar bilsə, şücaət və cəsurluğu da bir o qədər çoxdur. İnsanın namus və isməti də qeyrəti qədərdir".*

**Varlıq və yoxsulluq barəsində**

*"Varlıq insan üçün qürbətdə vətəndir. Çünki, ona görə hamı adamla dostluq və tanışlıq edir. Yoxsulluq isə vətəndə də qürbətdir. Çünki, onun nəticəsində hamı adamdan uzaqlaşır".*

**İffətlilik və şükür etmək barəsində**

*"İffət yoxsul və kasıbın zinət və bəzəyi, Allahın nemətlərinə şükür etmək isə varlının yaraşığıdır".*

**Dünya barəsində**

*"Dünya bədənləri köhnəldir, qocaldır, rahatlığın azlığı ilə arzuları yeniləşdirir, öz gərdişi ilə ölümü yaxınlaşdırır və ölümün yaxınlaşması ilə arzuları uzaqlaşdırır. Dünyaya qalib gələn, onun malını əldə edən onları qoruyaraq artırmaq üçün əziyyətə düşdü, onu tapmayan isə malik olmadığı üçün çətinliyə düçar oldu. Xülasə, dünya həm kamına çatan, həm də çatmayan üçün əzab-əziyyət diyarıdır. Buna görə də ağıllı adam ona ürək bağlamaz və aldanmaz".*

**Başçı və rəhbərlər barəsində**

*"Özünü xalqın rəhbəri etmiş şəxs başqasına öyrətməkdən əvvəl öz nəfsinin təliminə başlamalıdır. Xalqın rəhbəri olan şəxs başqasını öz dililə ədəbləndirərək zinətləndirməmişdən öncə gərəkdir ki, onu öz əməlilə ədəbləndirərək gözəlləşdirsin. Məsələn, başqasına "namaz qıl ki, nicat tapasan" deməmişdən qabaq gərək özü namaz qılsın. Öz nəfsini öyrədən və ədəbləndirən, xalqı öyrədərək ədəbləndirəndən təzim və ehtirama daha layiqdir. Çünki, o, nəfsi istəklərinə tabe deyildir".*

**Dünya barəsində**

*"Ey dünya, ey dünya, məndən gözünü çək! Aldatmaq qəsdi ilə özünü mənə təqdim edir, göstərirsən? Yoxsa mənə meyl salıb məni istəyirsən? Yaxınlaşmasın sənin aldatma vaxtın! Sənin arzun nə qədər də uzaqdır! Başqasını aldat ki, mənim sənə ehtiyacım yoxdur. Sənin talağını üç dəfə vermişəm, sənə göz yummuşam ki, onda qayıdış yoxdur. Beləliklə, sənin həyatın qısa, əhəmiyyətin az, arzun isə alçaqdır. Əfsus ki, azuqə, ibadət və bəndəlik az, yol uzun, səfər Axirət səfəri, uzaq və daxil olunacaq yer qəbir, Bərzəx və Qiyamət isə çətindir".*

**Nəsihət vermək barəsində**

*"Sizə beş şey vəsiyyət edirəm ki, onları əldə etmək üçün dabanlarınızla dəvələrin qarnının altına vurmağınıza, sürətlə gedərək əzab-əziyyəti özünüzə rəva bilməyinizə dəyər: Birinci: heç biriniz öz Rəbbindən başqa birisinə ümidvar olmamalıdır. İkinci: öz günahından başqa bir şeydən qorxmamalıdır. Üçüncü: ondan bilmədiyi bir şey soruşulanda "bilmirəm" deməkdən utanmamalıdır. Dördüncü: bilmədiyi bir şeyi öyrənməkdən utanmamalıdır. Çünki, utansa cəhalət və nadanlıqda qalar, bədbəxt olar. Beşinci: səbirli və təmkinli olun. Çünki, səbr fəzilət və kamilliklərin hamısında mövcuddur və səbrin imana nisbəti, başın bədənə nisbəti kimidir. Başsız bədəndə, eləcə də səbirsiz imanda xeyir yoxdur".*

**"Bilmirəm" deməməyin ziyanı barəsində**

*"Bilmədiyi bir şey soruşulanda "bilmirəm" deməyən şəxsin ölüm yeri, həlak olacağı yer ona çatacaq, o, rüsvay və məhv olacaq".*

**İstiğfar, bağışlanma barəsində**

*"Günahları üçün istiğfar və bağışlanma istəmək imkanının olmasına baxmayaraq, Allahın onu bağışlamasından naümid olan kəsə təəccüb edi-*

*rəm"*. Lakin istiğfar bu kitabın ("Nəhcül-Bəlağə") sonundakı 409-cu kəlamda buyurulduğu şərtlərlə olmalıdır.

**Xeyir və yaxşılıq haqqında**

*"Xeyir və yaxşılıq var-dövlət və övladın çox olması deyil. Bəlkə xeyir odur ki, elmin artsın, həlimlik və səbirliliyin böyüsün, Rəbbinə itaət və bəndəlik etməyin nəticəsində xalq arasında başıuca olasan. Beləliklə, yaxşılıq edəndə Allaha şükür edəsən, pis iş görəndə Allahdan bağışlanmaq istəyəsən. Dünyada iki şəxsdən - etdiyi günahların əvəzini tövbə etməklə çıxan və az olsa da Allahın bəyəndiyi işləri yerinə yetirməyə tələsən - başqa heç kəs üçün xeyir və yaxşılıq yoxdur. Təqva və pəhrizkarlıqla yerinə yetirilən iş az deyil. Qəbul edilən əməl necə az ola bilər?"*

**Qarşıya çıxacaq bəzi hadisələr barəsində**

*"İnsanlar üçün elə bir dövran gələcək ki, onda şaha söz gəzdirəndən başqa heç kəs yaxın olmayacaq, pis əməlli yalançıdan başqa heç kəs zirək adlandırılmayacaq və əməli düz olan insaflıdan başqa heç kəs zəif və aciz sayılmayacaq. O zaman Allah yolunda sədəqə vermək və mal sərf etməyi cərimə, məcburi verilən mal sayarlar, qohumlarla get-gəl edərək əlaqə saxlamağa minnət qoyarlar, məsələn deyərlər ki, "filan-bəhmən edən mənəm" və Allaha bəndəlik etməyi xalqdan üstünlük amili hesab edərlər! Belə pis əməllərin nəticəsində həmin dövrdə padşahlıq, hökmranlıq kənizlərin, səfil və avara qadınların məsləhət və məşvərəti, uşaqların, təcrübəsiz, şəhvətpərəst gənclərin hökmdarlığı, xadimlərin, nalayiq və alçaq kişilərin tədbiri ilə olacaq"*. İbn Əbil Hədid öz şərhinin bu yerində belə yazır: İmam Əlinin *(ə)* bu buyuruğu qeyb xəbərlərindən və İmama *(ə)* məxsus möcüzələrdən biridir.

**Bəndələrin imtahan edilmələri barəsində**

*"Bir çox adam var ki, ona edilən ehsan və yaxşılıqla, Allahın verdiyi nemətlərlə əzab və cəzaya yaxınlaşıb, Allah ona yaxşılıq etdikcə o da itaətsizliyini artıraraq nankorluq edib. Bir çox adam var ki, pisliklərinin gizli qalması ilə aldanıb. Çünki, hər nə qədər çirkin iş görübsə, rüsvay olmayıb. Bir çox adam da var ki, onun barəsindəki xoş sözlər, xalqın onun haqqında yaxşı danışması nəticəsində fitnə və çətinliyə düşüb. Allah heç kəsi ona dünyada möhlət vermək kimi başqa bir şeylə imtahan etməyib. Çünki, həyat və yaşamaq neməti bəndənin imtahan edildiyi ən böyük nemətdir"*.

**Fürsəti əldən vermək barəsində**

*"Fürsəti əldən vermək işə münasib vaxtında başlamamaq, qəm-qüssədir. Bu, qəm və kədərə səbəb olar".*

**Dünya barəsində**

*"Dünyanın misalı əl vuranda yumşaq, qarnında isə öldürücü zəhər olan ilan kimidir. Aldanmış nadan ona tərəf gedir, uzaqgörən ağıllı isə ondan uzaqlaşır".*

**Qeyrət barəsində**

*"Qadının kişiyə qeyrəti küfrdür. Çünki, onun belə bir qeyrətə malik olması kişinin iki və ya daha artıq arvad almasını haram bilməyə səbəb olur. Halbuki, Allah onu halal edib. Kişinin qadına qeyrəti isə imandır. Çünki, bu, iki kişinin bir arvadda şərik olmalarını haram bilməyə səbəb olur ki, bunu Allah da haram edib".*

**Çirkin xasiyyət və nalayiq əməllər barəsində**

*"Xəsis və simic şəxsə təəccüb edirəm ki, yoxsulluq və kasıblığa doğru tələsir. Çünki, əlində olandan bəhrələnmir. Buna görə də yoxsullarla birdir, axtardığı varlılığı əldən çıxarır, ona görə ki, mal və sərvətindən istifadə etmir. Beləliklə, dünyada yoxsullar kimi yaşayır, Axirətdə isə onunla varlılar kimi hesab çəkəcəklər. Çünki, yığılanların hesabını vermək lazımdır. Dünən nütfə olmuş, sabah isə leş olacaq və əgər cəsədinin üstündən torpağı götürsələr üfunətindən hamı qaçan təkəbbürlü adama təəccüb edirəm. Allahın yaratdıqlarını görməsinə baxmayaraq, Allah barəsində şəkk və tərəddüddə olan kəsə təəccüb edirəm. Axı yaradansız yaranmış necə ola bilər?! Təəccüb edirəm o kəsə ki, ölənləri görə-görə ölümü unudur. Nütfədən yaranmanı görməsinə baxmayaraq, məadın olması və Qiyamətdə təkrar qayıdış olacağını inkar edən şəxsə təəccüb edirəm. Yoxluq evini abadlaşdıran, dünya üçün çalışan, varlıq evini, Axirəti isə buraxan, onun üçün azuqə tədarük görmək fikrində olmayan kəsə təəccüb edirəm".*

**Dostluğun şərtləri barəsində**

*"Dost öz qardaşına, dostuna üç vaxtda qayğı göstərməyincə həqiqi dost deyil: onun çətinlik və narahatlıqlarında canı və malı ilə yanında olmalıdır; o özü olmayanda barəsində xoşagəlməz sözlər deyilməsi və eşidilməsinə mane olmalıdır; vəfat edərək həyatla vidalaşanda dua və istiğfar etməklə onu yad etməlidir".*

**Səbr barəsində**

*"Səbr qəm-qüssə miqdarında verilir. Müsibət hər nə qədər böyük olsa, Allah onun miqdarında səbir əta edir. Müsibət zamanı əlini dizinə vuran, dözümsüzlük edən şəxsin həmin müsibət üçün nəzərdə tutulmuş savabı məhv olar".*

**Başqasının haqqına toxunmaq barəsində**

*"Öz haqqı barəsində səhlənkarlıq edən kəs məzəmmət edilməz. Məzəmmət və qınaq o kəs üçündür ki, başqasının haqqına toxunub. Çünki, başqasının haqqına əl uzadan kəs zülm edib, zülm isə çirkinliklərin ən pisidir və zalım məzəmmətə layiqdir".*

**Öyüd-nəsihət barəsində**

*"İnsan dünyada ölümlərin, ölüm amillərinin ox atdığı hədəf, bəla və dərdlərin ona tərəf tələsdiyi qarət edilmiş qənimətdir. Hər içməyində boğaz tutulması, hər loxmasında kədərlər var. Hər bir ləzzət və kefi qəm-qüssəylədir. Bəndə bir nemətə ancaq digər bir nemətdən ayrılmaqla çatar; həyatının yeni bir gününə ancaq onun üçün təqdir edilmiş öz ömür müddətinin digər bir günündən ayrılmaqla üz tutar. Buna görə də biz ölümün yardımçılarıyıq ki, hər gün ona yaxınlaşırıq, çəkdiyimiz hər nəfəslə ona tərəf bir addım atmış oluruq. Deməli, bu, məhv olmaq və ölümlərə hədəfdir. Belə isə əbədiliyə necə ümidvar ola bilərik? Halbuki, gecəylə gündüz nəyə şərafət və böyüklük veribsə, ona tərəf dönərək qurduqlarını viran, topladıqlarını isə darmadağın edib!"*

**Mal toplamaq üçün çalışmaq barəsində**

*"Ey Adəm övladı! Öz azuqə və ruzindən artıq qazandığın şeydə, var-dövlətdə başqa varislər və ya digərləri üçün xəzinədarsan ki, onu onlara verəcəksən və onun sənə heç bir xeyri olmayacaq".*

**Ədalət və yaxşılıq barəsində**

*"Allahın buyruğu belədir:* ***"Həqiqətən, Allah*** (Quranda insanlara) ***ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara*** (haqqını) ***verməyi*** (kasıb qohum-əqrəbaya şəriətin vacib bildiyi tərzdə əl tutmağı) ***buyurar..."*** ("ən-Nəhl", 90)*".*

**Başqalarına əl tutmağın xeyiri barəsində**

*"Qısa əl ilə öz mal və sərvətindən, hətta az olsa da Allah yolunda bağışlayan kəs Allah tərəfindən uzun əl ilə bəxşiş tapar".* Seyyid Rəzi deyir: "Bu kəlamın mənası budur ki, Allah öz mal və sərvətindən hətta az olsa belə,

xeyir yollarda xərcləyən şəxsin mükafat və əvəzini böyük və çox edər. Burada iki əldən məqsəd iki nemətdir, biri bəndənin verdiyi, digəri isə Allahın bağışladığı nemət. Beləliklə, İmam *(ə)* bəndənin neməti ilə Allahın nemətini "qısa" və "uzun" sözlərilə bir-birindən ayırıb; bəndənin nemətini qısa, Allahın nemətini isə uzun adlandırıb. Çünki, Allahın nemətləri həmişə məxluqun nemətlərindən daha çox və artıqdır. Ona görə ki, Allahın nemətləri bütün nemətlərin özəl və təməlidir, hər bir nemət onlara qayıdır, onlardan yaranır və meydana çıxır".

**Qadının bəzi gözəl xasiyyətləri barəsində**

*"Qadınların ən yaxşı xasiyyətləri kişilərin ən pis xasiyyətləridir: təkəbbürlülük, qorxaqlıq və xəsislik. Beləliklə, əgər qadın təkəbbürlü olsa, ərindən başqa heç kəsə baş əyməz; xəsis və simic olsa, özünün və ərinin malını qoruyar; əgər qorxaq olsa, qarşısına çıxan, adının pisliyi və ərinin qəzəbinə səbəb olan hər bir şeydən qorxar və ondan uzaqlaşar*".

**Həsəd aparmamağın xeyri barəsində**

*"Bədənin sağlamlığı həsədin azlığındadır. Çünki, qəm-kədər xəstəlik gətirir. Paxıl və həsəd aparan adam qəm-qüssəyə çox düçar olar və nəticədə sağlamlıqdan bəhrəsiz qalar".*

**Bəndələrin imtahan edilmələri barəsində**

*"Bir çox adam var ki, ona edilən ehsan və yaxşılıqla, Allahın verdiyi nemətlərlə əzab və cəzaya yaxınlaşıb, Allah ona yaxşılıq etdikcə, o da itaətsizliyini artıraraq nankorluq edib. Bir çox adam var ki, pisliklərinin gizli qalması ilə aldanıb. Çünki, hər nə qədər çirkin iş görübsə, rüsvay olmayıb. Bir çox adam var ki, onun barəsindəki xoş sözlər, xalqın onun haqqında yaxşı danışması nəticəsində fitnə və çətinliyə düşüb. Çünki, məğrurluq onu Allahın nemətlərinə və həmin nemətlərdən biri olan xalqın onun barəsində xoş sözlər danışmasına görə şükür etməkdən saxlayır və o, əzab və çətinliyə düçar olur. Allah heç kəsi ona dünyadan möhlət vermək kimi başqa bir şeylə imtahan etməyib. Çünki, həyat və yaşamaq neməti bəndənin imtahan edildiyi ən böyük nemətdir".* Seyyid Rəzi deyir: "Bu kəlam bundan öncə eyni ilə yüz on ikinci kəlamda keçdi. Amma onun burada bir daha bəyan edilməsi gözəl və mənfəətli bir təkrardır. Bəlkə də onun burada bəyan edilməsinin xeyiri yuxarıda *"vəfasızlara vəfasızlıq etmək Allaha vəfa etməkdir"* buyurulan kəlama görədir. Bu, Allahın Öz bəndələrini onun vasitəsi ilə imtahan edərək sınadığı işlərdən biridir".

**İman barəsində**

*"İman qəlbdə ağ nöqtə kimi yaranır, zahir olur. İman artdıqca həmin ağ nöqtə də artır"*. Seyyid Rəzi deyir: Əsas mətndəki *"lumzə"*, nöqtə və ya onun kimi ağ bir şeydir. Aşağı dodağında ağ xal olan ata deyilən *"fərəsun əlməz"* ifadəsi də bu mənadan götürülüb. İmam Əli *(ə)* dünya və Axirət üçün çalışmaq barəsində buyurmuşdur: *"İnsanlar dünyada iki dəstədir. Birinci dəstədən olanlar bu dünya üçün işləyir və dünya onları özünə məşğul edərək Axirətindən, Axirət işlərindən saxlayır. Onlar varislərinin yoxsulluğa düçar olmalarından qorxur, varisləri üçün mal və sərvət toplayırlar ki, varisləri qeyrisinə möhtac olmasınlar, özlərinin yoxsulluğu barəsində isə xatircəmdirlər. Beləliklə, beləəri öz həyatını başqasının xeyrinə sona çatdırır. İkinci dəstədən olanlar isə dünyada Axirət üçün işləyir, dünyadan onlar üçün təqdir edilmiş şey işləmədən ona çatırlar. Beləliklə, onlar hər iki pay və mənfəəti toplayır və hər iki dünyanı əldə edirlər. Həmçinin, onlar Allahın yanında da hörmətli olurlar, Allahdan istədikləri hər bir hacət və diləkləri də rəva olur. Çünki, onların Allah yanında hörmətli olması istəklərinin rəva olmasına səbəb olur"*.

**Tamah və arzudan uzaq olmaq barəsində**

*"Tamah insanı suyun üstünə apararaq geri qaytarmayandır, yəni insanı suyun yanına aparar və onu sudan doydurmadan geri qaytarar. Kim ona düçar olsa, məhv olar, ondan qurtula bilməz və o, öz əhd-peymanına vəfa etməyən zamindir. Nə çox su içən ki, sudan doymamış çeçəyir. Nə çox tamahkar və həris ki, mətləbini əldə etmək yolunda ona çatmamış və bəhrələnməmiş məhv olur. Rəğbət göstərilən şeyin dəyəri hər nə qədər böyük olsa, onu əldə etməmək və tapmamağın kədəri də bir o qədər çox olar. Arzular bəsirət gözlərini kor edir. Təqdir edilmiş pay və qismət ona tərəf getməyən şəxsə tərəf gəlir. İnsan onu əldə etmək üçün çalışmasa və onu arzulamasa da təqdir edilmiş pay və qismət ona çatacaqdır"*.

**Zahirin yaxşı, batinin isə pis olması barəsində**

*"Allahım, zahirimin gözlərin müqabilində, xalqın gözlərinin qarşısında yaxşı, batinimin isə gizlətdiklərim şeylərdə, Sənin yanında çirkin olmasından, özümü insanların yanında Sənin məndən də yaxşı xəbərdar olduğun şeylərlə riyakarcasına qorumağımdan, beləliklə xalqa zahirdə yaxşı görünüb pis əməllərimi Sənə tərəf gətirməyimdən, bəndələrinə yaxınlaşaraq Sənin razılıq və mərhəmətindən uzaqlaşmağımdan Sənə pənah gətirirəm!"*

**Mal və sərvətə bağlılıq barəsində**

*"İnsan övladının ölümü qarşılığında yatar, səbr edər, mal və sərvətinin oğurlanmasında isə yatmaz, dözümsüzlük edərək çalışar!"* Bu kəlamın mənası budur ki, insan övladlarının öldürülməsinə səbr edir, sərvətinin oğurlanmasına isə səbr etmir. Çünki, ölümdən sonra övladın qayıtması mümkün deyil, var-dövlətin qayıtması isə mümkündür.

**Quranı oxumağa və dərk etməyə təşviq barəsində**

*"Sizdən qabaq olanların xəbəri, keçmişlərin əhvalatları, sizdən sonra olacaq şeylərin - qəbir, Bərzəx və Qiyamətin necəliyi xəbəri, sizin aranızda olanların - vacib, haram, müstəhəbb, məkruh və mübah şeylərin hökmü Qurandadır".*

**Günahdan uzaq olmaq barəsində**

*"Sizin, eyib və nöqsan sifətlərdən uzaq və pak olan Allah üçün yerinə yetirməli olduğunuz ən az şey Ona qarşı günah işlədərkən* (qəzəbinə səbəb olmamaq üçün) *Onun nemətlərindən kömək istəməməyinizdir".*

**Möminin vəsfi barəsində**

*"Möminin sevinci üzündə, kədəri isə qəlbindədir. Sinəsi hər şeydən genişdir, çətinliklər zamanı səbri qədərsizdir; nəfsi hər şeydən xardır, təvazökarlığı çoxdur; itaətsizlikdən zəhləsi gedir, riya və gözəgirənliyə nifrət edir. İşin sonu barəsindəki kədəri uzun, layiqli işlərdəki səy və təlaşı yüksəkdir. Fikir və düşüncə nəticəsində dinməzliyi çox, vaxtı itaət və bəndəliyə məşğul, Allahın nemətlərinə şükür edən, bəla və çətinliklərə çox səbirlidir. Fikir və düşüncəsində bəndəlik və işin sonu barəsindəki təfəkkürə qərq olur, istəyində başqasından bir şey istəməkdə simiclik edir, ehtiyacını heç kəsə bildirmir, xasiyyəti yumşaq, təbiəti mülayimdir, təkəbbürlü, məğrur və başqalarını incidən deyil. O, quldar xar hamıya qarşı çox təvazökar olmasına baxmayaraq, nəfsi möhkəm daşdan da bərkdir, din yolunda şücaətlidir".*

**Başqalarının malında gözü olmamaq barəsində**

*"Ən böyük zənginlik xalqın əlində olan şeylərdə, var-dövlətdə gözü olmamaqdır. Çünki, başqalarının malında gözü olmayan kəs varlılar kimi rifah və asayişdədir".*

**Arzu barəsində**

*"Əgər bəndə bəsirət gözü ilə ömrün müddətinə və onun rəftarına, onu yoxluq və faniliyə çəkməsinə baxsa, arzuya və onun aldatmalarına nifrət bəsləyər, ondan uzaqlaşar və fikrini onunla məşğul etməz".*

**Dünyadan uzaq olmaq barəsində**

*"Ey insanlar, Allahdan qorxun, dünyaya və dünya malına ürək bağlamayın! Bir çox adam var ki, çatmayacağı şey arzulayır, yaşamayacağı binanı tikir, tezliklə tərk edəcəyi sərvəti toplayır. Bəlkə də onu əyriliklə, əyri yolla toplayıb və haqqın qarşısını alıb, yəni, ona haram yolla çatıb və ona görə günahların yükü altına girib. Beləliklə, Qiyamətdə onun ağır yükü ilə qayıdacaq, hesab və araşdırma zamanı Rəbbinin hüzuruna həsrət və kədərlə gələcək. Belə bir şəxs Qurani-Kərimin "əl-Həcc" surəsinin 11-ci ayəsində buyurulduğu kimi* ***"...dünyanı da əldən verər, Axirəti də. Aşıq-aşkar ziyan budur, bu!"***

**Yaltaqlıq barəsində**

*"Bir kəsi layiq olduğundan artıq tərifləmək yaltaqlıqdır, ikiüzlülük nişanəsidir. Birini layiq olduğundan az tərifləmək isə acizlik, danışmaqda bacarıqsızlıq və ya ona paxıllıqdır. Deməli, ədalət və bərabərlik hər bir kəsi layiq olduğu qədər tərifləməyimiz, məqam və dərəcəsini həmin miqdarda üzə çıxarmağımızdır".*

**Bəzi xislətlərin xeyir və ziyanı barəsinə**

*"Kim öz eybinə, çatışmazlıqları və pisliklərinə baxsa, başqasının eybini görməz. Çünki, öz pisliklərini düzəltməklə məşğul olar və başqasında eyib axtarmağa növbə çatmaz. Allahın verdiyi ruziyə razı olan kəs əlindən çıxan şey üçün kədərlənməz. Çünki, insanın bir şey tapması və onun şəxsin əlində qalması onun ruzisinin həmin şey olmasının nişanəsidir. Bir şeyi axtarıb tapmırsa, yaxud tapır və sonra əldən çıxarırsa, deməli, o, onun ruzisi deyilmiş. Buna görə də bir şeyi əldə etməmək üçün və ya tapandan sonra əldən çıxarmağa görə kədərlənmək təqdir edilmiş ruziyə razı olmamağa dəlildir. Kim zülm qılıncını qınından çəksə, çox zülm etsə, həmin qılıncla öldürülər, Axirətdən əlavə, dünyada da məhvə düçar olar. Kim alət və vasitəsiz, çətin işlərdə çalışsa və əziyyət çəksə, qəza-qədərdən asılaraq həlak olar. Özünü çətinlik və əziyyət burulğanlarına atan zəif olmasına baxmayaraq, böyük işlərə girişən kəs boğular, məhv olar. Kim pis yerlərə daxil olsa, xalq onun barəsində pis gümanda olar, hətta pis iş görməsə belə. Çox danışan kəs çox*

*səhv edər. Çünki, danışanda fikirləşməz. Çox səhv edən şəxsin həyası az olar. Çünki, çirkin iş onun peşəsi olar. Kimin həyası az olsa, onun pəhrizkarlıq və günahdan uzaqlığı da az olar. Çünki, həyası olmayan kəs heç bir nalayiq işi görməkdən çəkinməz. Pəhrizkarlığı az olanın qəlbi ölər Allahın rəhmindən uzaq olar. Çünki, qəlbin yaşaması günahdan çəkinməkdən asılı, ona bağlıdır. Qəlbi ölmüş şəxs oda daxil olar. Çünki, əbədi Cənnət və Allahın rəhmi qəlbi ölənlər üçün deyil. Kim xalqın eyib və nöqsanlarına baxıb onları bəyənməsə və sonra onları özünə rəva bilsə, özü etsə, deməli, o, elə axmaq və qanmazın özüdür. Çünki, o, düz və doğru bildiyi şeyin əksinə gedib və bu, qanmazlıq və axmaqlıqdır. Qaneçilik öz payına razı olmaq və ya qənaət tükənməz sərvətdir. Ölümü çox yada salan kəs dünyadan aza razı olar. Çünki, ölümdən qafil olmaq insanda dünyaya hərislik gətirir. Kim danışığının əmələ əsaslanmasını, dediyini etməli olduğunu bilsə, barəsində qərara gəldiyi və əhəmiyyət verdiyi şeydən başqa az danışar".*

**Şükür və səbr etmək barəsində**

*"Ey insanlar! Allah gərək sizi Onun əzab və cəzasından qorxan gördüyü kimi, nemət və bəxşişlərindən də qorxan görsün. Gərək həmişə Allahın nemətlərinə şükür etməkdə diqqətli olasınız və naşükürlük etməyəsiniz ki, əzab və cəzaya düçar olmayasınız. Həqiqətən, əlində sərvəti artan və onu əzabın tədricən gəlməsi, gəlmə səbəbi bilməyən və naşükürlük edən kəs qorxuludan xatircəm və arxayın qafil olub. Həmçinin, yoxsullaşan, onu sınaq və imtahan, öz sınağı bilməyən və səbirliliyi əldən verən kəs ümid bəslənilərək arzulanan səbirli şəxs üçün nəzərdə tutulmuş mükafatı zay edib".*

**Nəfsin istəklərindən uzaq olmaq barəsində**

*"Ey nəfsin istəyinin əsirləri, dünyaya tabe olmayın! Çünki, dünyaya ürək bağlayanı müsibət və qəm-qüssənin dişlərinin səsindən, qəzəb və sərtlikdən yaranan ağır dərdləri eşitməkdən başqa bir şey qorxutmur. Necə ki, insan birinə qarşı qəzəblənəndə dişlərini bir-birinə sürtür. Ey insanlar! Nəfslərinizi ədəbləndirmək və islah etməklə özünüz məşğul olun, bəyənilənləri öz şüarınız edin, onları nalayiq xislət və vərdişlərə cürət etməkdən qaytarın ki, Qiyamət cəzasından qurtulasınız".*

**Söz barəsində**

*"Nə qədər ki, danışmamısan, söz sənin əsirindir. Elə ki, dilinə gətirdin, sən onun əsirisən. Əvvəlcə sən ona hakim idin, indi isə o, sənə hakimdir, istəsə sənə xeyir gətirər, istəsə ziyan. Buna görə də qızıl və gümüşü xəzinədə*

*saxladığın kimi dilini də ağız xəzinəsində saxla. Çünki, ola bilər ki, bir kəlmə neməti əldən çıxarsın, qarşıya əzab və çətinlik gətirsin. Buna görə də gərək çox danışılmasın və düşünmədən bir söz deyilməsin".*

**Dünya və dünya malı barəsində**

*"Dünyaya, onun malına rəğbət və meyl göstərmə, ona ürək bağlama ki, Allah sənə onun çirkinliklərini göstərsin. Çünki, vurğun eyibləri görmür və onun görən gözü kor olur. Öz işindən xəbərsiz olma ki, səndən xəbərsiz deyildirlər. Allah sənə və sənin işlərinə baxır".*

**Danışmaq barəsində**

*"Danışın ki, tanınasınız. Çünki, insan dilinin altında gizlənib. Ağıllılar və alimlər danışmayınca malik olduqları məqamları məlum olmaz. Cahil və nadanın danışmaması isə daha yaxşıdır. Çünki, dilin bağlılığı qəbahət və rüsvayçılıqları gizli saxlayır".*

**Təvazökarlıq barəsində**

*"Ey Adəm övladı! Öyünməyini kənara qoy, qürur və lovğalanmağı başından çıxart, hamıya qarşı təvazökar ol, qəbrini yadına sal ki, nalayiq işlərdən çəkinəsən".*

**Dünya malı üçün çalışmaq barəsində**

*"Dünyadan, dünya malından halal yolla sənə tərəf gələni götür və səndən üz çevirəndən, əlin çatmayandan sən də üz çevir. Əgər sən bu işi etməsən, əlin çatmayan şeylərin arxasınca getsən, axtarış və istəyində ifrata varma, haram və günahdan uzaq ol, özünü və ailəni çox çətinliyə salma".*

**Təsiri olan və olmayan şeylər barəsində**

*"Göz dəyməsi, ovsun, cadu, ağzını xeyirliyə açmaq, məsələn xəstənin kimdənsə "ey sağlam" müraciətini eşitməsi və eşitdiyi kimi olacağına inanması haqdır, onların hər biri öz təsirini göstərir. Ağzını pisliyə açmaq və xəstəliyin birindən digərinə keçməsi düz deyil, təsirsizdir. Gözəl iy, təmiz bal, minik minmək, yaşıllığa baxmaq qəm və kədəri aradan aparan ovsunlardır, xəstələr onların vasitəsi ilə sağalarlar".*

**Səbirlilik barəsində**

*"Kim müsibət və qəm-qüssə baş verəndə dünyanın bəzək-düzəyinə bağlı olmayan azad insanlar kimi səbr etsə, səbirlidir və öz savabını alacaqdır.*

*Əgər həmin hadisədə dözümsüzlük edərək səbr etməsə, təcrübəsiz nadanların unudulması kimi yaddan çıxacaqdır. Həmin nadanlar hadisələrlə qarşılaşanda dözümsüzlük edər, sonra isə bir çarə olmamasını görüb susarlar. Onların bu susmağında heç bir savab yoxdur, əksinə dözümsüzlüklərinə görə onlar cəzalandırılacaqlar".*

**İnsanın acizliyi barəsində**

*"Yazıq və aciz Adəm övladı. Əcəli gizlidir, nə vaxt gələcəyini bilmir. Xəstəlik və dərdləri naməlumdur, həmişə acı hadisələr və xəstəliklərə düçar olmaq təhlükəsindədir. Əməli saxlanılır, əməl dəftərində yazılır və əgər özünün yadından çıxsa da unudulmaz. Ağcaqanad onu incidir, suyun boğazda qalması onu öldürür və tər onu iyləndirir. Bütün bunlarla yanaşı, belə bir kəsə lovğalıq və məğrurluq edərək öyünmək yaraşırmı?!"*

**Qadınlara baxmaqdan çəkindirmək haqqında**

*"Bu erkəklərin gözləri kefli və sərxoş dəvə kimi şəhvətə bərəlir. Bu cür baxışlar onlarda şəhvət və ehtirasların həyəcana gəlməsinə, oyanmasına səbəb olur. Buna görə də sizlərdən biri ona xoş gələn qadına baxanda gərək öz arvadı ilə yaxınlıq etsin. Çünki, arvadı digər qadınlar kimi bir qadındır. Qadınlar hamısı ləzzət vermək baxımından birdirlər".* Sonra xəvaricdən biri dedi: "Allah onu kafir öldürsün, necə də alim edib onu?!" Səhabələr sıçrayıb həmin şəxsi öldürmək istədilər. İmam *(ə)* buyurdu: *"Möhlət verin ona, işiniz olmasın. Söyüşün yerinə öldürmək lazım deyil, ya gərək o da söyülsün, ya da günahından keçilsin".*

**Yaxşı və xeyir işi kiçik saymamaq barəsində**

*"Yaxşı iş görün və onun azını kiçik hesab etməyin. Çünki, onun kiçiyi Allah yanında böyük, azının savabı isə çoxdur. Gərək sizlərdən heç kəs "başqası yaxşı iş görməyə məndən daha layiqdir" deməsin. Allaha and olsun ki, başqası daha layiq olar! Çünki, yaxşı ilə pisin hər birinin öz adamı var, siz onlardan hər hansı birini tərk etsəniz həmin adam onu sizin yerinizə yerinə yetirəcək və onu yerinə yetirən daha layiqdir".*

**İnsanları sınayaraq imtahan etmək barəsində**

*"İnsanları sına ki, onları düşmən biləsən. Çünki, zahirdə insanların çoxu pis deyildir. Lakin sınayaraq pislikləri üzə çıxır".* Seyyid Rəzi deyir: "Bəziləri bu kəlamı Peyğəmbərdən *(s)* nəql edib. Lakin bu kəlamın İmam Əlidən *(ə)* olması nəzərinin dəlili Sələbinin bu bəyanıdır: "İbn Ərabi bizə

nəql etdi ki, Məmun dedi: “Əgər Əli *“sına ki, düşmən biləsən”* buyurmuş olmasaydı mən deyərdim ki, “insanları düşmən bil ki, onları sınayasan”.

**Qeybət etməyin məzəmməti barəsində**

*“Qeybət etmək, yaxud birinin arxasınca danışmaq aciz şəxsin öz düşmənindən intiqam ala bildiyi, yaxud da həsəd apardığı şəxsin dalınca pis danışmaq üçün istifadə etdiyi yeganə vasitədir”.*

## *6.3. “NƏHCÜL-BƏLAĞƏ”NİN İSLAM ELMİ-FİKİR TARİXİNDƏ ROLU*

“Nəhcül-bəlağə” əzəmətli və bənzərsiz bir insanın bəşəriyyətə bəxş etdiyi əzəmətli və bənzərsiz bir kitabdır. Bu nəfis və dəniz tək dərin kitab İslam aləmində Qurandan sonra ən mötəbər və sanballı elmi mənbədir. Kitabın içindəkilər kainatın ən şərəfli şəxsiyyəti Həzrət Muhəmməddən *(s)* sonra İslam dünyasında ən şərəfli insana – İmam Əliyə *(ə)* məxsusdur.

“Nəhcül-bəlağə” Hicri-qəməri tarixlə IV əsrdə məşhur alim, mərhum Əllamə Seyyid Rəzi tərəfindən toplanmışdır. Seyyid Rəzi bu kitabı toplamaq üçün iyirmi ildən artıq çalışmışdır. Nəhayət o, yüzlərlə kitabı araşdırdıqdan və keçmişdə yazılmış pərakəndə əsərləri topladıqdan sonra Hicri-qəməri tarixlə 400-cü ildə bu dəyərli və nurani əsəri 241 xütbə, 79 məktub və 480 qısa kəlam olmaqla “Nəhcül-bəlağə” adı ilə elm, təfəkkür və mərifət aləminə təqdim etdi. “Nəhcül-bəlağə”nin toplanması tarixindən keçən 1000 il ərzində böyük alimlər, məşhur xətiblər, bacarıqlı yazıçı və mütəfəkkirlər bu əsər barəsində gözəl sözlər deyib və ya dəyərli mətləblər yazıblar. Bu sözlər və mətləblər pərakəndə halda müxtəlif kitablarda, bəzən də məcmuə şəklində oxucuların və maraqlananların ixtiyarındadır.[1285]

“Nəhcül-bəlağə” İmam Əlinin *(ə)* xütbə, moizə, məktub, hikmətli kəlam və öyüd-nəsihətləri toplusuna onları toplamış böyük İslam alimi Seyyid Rəzi tərəfindən verilmiş addır.[1286]

“Nəhcül-bəlağə” İslam mədəniyyətinin ensiklopediyasıdır. Bu qiymətli əsərdə Allahı tanımaq, mələklər aləmi, dünyanın yaradılışı, insanın təbiəti, ümmətlərin sərgüzəştləri, saleh və ya zalım hökumət və hökmdarlar, dünyanın mahiyyəti, dünyaya bağlılıq, dünyapərəstliyin gətirdiyi bəlalar, Allah övliyalarının mənəvi hərəkət yolu, yaxşı əməl sahiblərinin davranış üsulu, zahidlik, iman və yüzlərlə digər mövzular barəsində söhbətlər edilib.

[1285] Nəhcül-bəlağə Ayətullah əl-Üzma Seyyid Əli Xamenenin baxışlarında.
[1286] Nəhcül-bəlağə, Seyyid Rəzi, üçüncü nəşr, Bakı-2009, səh. XXXVI.

"Nəhcül-bəlağə"nin İslam fikri tarixində nə dərəcədə əhəmiyyətli və böyük rol oynadığını müqəddəs və dəyərli kitabın müasir şərhçilərindən olan böyük Əhli-sünnə alimlərindən biri, Misirin keçmiş müftisi Şeyx Məhəmməd Əbduhun sözlərinin bir hissəsini nəql etməklə kifayətlənmək istəyirik: "Mən "Nəhcül-bəlağə"ni oxuyanda, bir ibarədən digər bir ibarəyə keçəndə düşüncə və bəsirət baxışının dəyişməsini gördüm. Bəzən özümü nurani və hikmətli kəlamlara bürünmüş halda, pak ruhların ziyarətinə gələn və çirkinliklərdən təmizlənmiş qəlblərdə yurd salan çox yüksək mənalar aləmində gördüm... Cümlə və ibarələr bəzən belə olurdu ki, sanki qaşqabaqlı üzlər, bir-birinə qıcanmış dişlər və hücum etməyə hazırlanmış qəzəbli qartallarla üz-üzəyəm. Bəzən də öz cismani qəlibi ilə heç bir oxşarlığı olmayan nurani bir ağılı gördüm ki, ilahi karvandan ayrılaraq insan ruhuna qoşulub, çirkinlik və vəsvəsələrdən təmizləndikdən sonra ona təbiət aləmindən gözəllik verib və daha sonra onu özü ilə uca mələklər aləminə aparıb, ilahi nurun saçdığı məkana kimi çatdırıb və Rəbbin müqəddəs dərgahında məskunlaşdırılıb. Bəzən də ümmətin valilərinə xitab edərək uca səslə onlara təlim verən, doğru və səhv yolu göstərən, ölkə idarəçiliyinin incəliklərini öyrədən və azğınlıq uçurumuna gedib çıxan yolla getməkdən çəkindirən bir xətib görürdüm".[1287]

"Nəhcül-bəlağə" kitabının əhəmiyyəti, müqəddəsliyi və onun yüksək məqamlı sahibi olan İmam Əliyə *(ə)* ehtirama riayət edilməsi məsələyə daha çox diqqət yetirilməsini tələb edirdi. "Nəhcül-bəlağə" hərtərəfli ədəbi bir kitabdır və hər bir ədəbi kitabın təşbih, məcaz, kinayə, təmsil, missal, qafiyə və s. kimi malik olmalı olduğu bütün zəriflik və incəliklər dəryasına baş vurmaq, onun dürr və mirvari kimi mənalarını əldə etmək, qavramaq hər dalğıcın işi deyil. Bu sonsuz dəryanın üzgüçüsü gərək daha çox ustalıq və məharətə malik olsun və ədibcəsinə deyilmiş kəlamın bütün incəliklərini dərindən bilsin.

"Nəhcül-bəlağə" elə bir kitabdır ki, onda bir çox müxtəlif elmlərin əsaslarından və şöbələrindən bəhs olunur. Kitabda irfan, fəlsəfə, kəlam, əxlaq, ictimaiyyət, siyasət, idarəetmə, iqtisadiyyat, fiqh, təfsir, tarix, təbiətşünaslıq və digər elmlərin bir çox ali və dəqiq məsələlərinin irəli sürülməsi onu tərcümə edən şəxsin həmin elmlərin dəqiqlik və incəliklərindən xəbərdar olmasını tələb edir.

"Nəhcül-bəlağə"də İmam Əli *(ə)* mübarək kəlamlarını müxtəlif zamanlarda müxtəlif adamlara, bəzilərini öz zəmanəsində yaşayanlara, bəzilərini isə gələcək nəsillərə xitab olaraq buyurmuşdur. Buna görə də kitabın tərcüməsində diqqət edilməsi lazım olan mühüm məsələlərdən biri xitab olunanların kimliyinə bələd olmaq, başqa sözlə desək, İmamın *(ə)* kəlamının buyurulma səbəbini bilməkdir.

[1287] Nəhcül-bəlağə, Seyyid Rəzi, üçüncü nəşr, Bakı-2009, səh. XXXVII.

Qurani-Kərim əlacsız dərdlərin əlacıdır, "Nəhcül-bəlağə" isə ariflərin yoluna çıraqdır. "Nəhcül-bəlağə" ilə ünsiyyətdə olan arif və İlahi yolun yolçuları üçün bu aydın bir məsələdir ki, bu kitab natiqlik, bəlağət üslubu olmasıyla yanaşı, xəlq olunmuşların kəlamından üstün, Xaliqin kəlamından isə aşağıdır.

Həmçinin, "Nəhcül-bəlağə" səadət yoludur. Kitabda İmam Əlinin *(ə)* insan üslubuna və həyati rəmzlərə diqqətinin şahidi oluruq. İmam *(ə)* bu fikirdə idi ki, müsəlman o kəsdir ki, müsəlmanlıqdan əvvəl insan olsun. Vəzifələrinin həddini və öz hüququnu yaxşı tanısın. Necə ki, öz vəzifələrinə düzgün və səmimi əməl edir, eləcə də insani hüquqlarını da qoruya bilsin. Necə ki, başqalarının hüququna təcavüz etmir, eləcə də hər təcavüzkar qarşısında dayana bilsin. Buna görə də "Nəhcül-bəlağə"ni ruhi, ictimai və fərdi baxımdan nəzərdən keçirsək cəmiyyətin səadət yolunu aşkarcasına görə bilərik. Böyük İslam alimi Şəhid Mürtəza Mütəhhərinin sözləri ilə desək "İmam Əli *(ə)* qeyri-adi bir kitab yadigar qoymuşdur". Bu kitab həqiqətən insan səadətinin zaminidir. Elə bu səbəbdən də Əllamə Muhəmmədtəqi Cəfəri insanlıq ünsürünü "Nəhcül-bəlağə"nin təqdimatında əsas mövzu götürür, insanların səadətinin zamini olan "Nəhcül-bəlağə"dəki lətif düşüncələri tədqiq edir, "Nəhcül-bəlağə"nin səhifələri arasında ruhi səadət kimi göstərilən pərəstiş eşqini üzə çıxarır və İmam Əlini *(ə)* bu risalətin nümayəndəsi kimi tanıdır. Əllamə Muhəmmədtəqi Cəfəri İmama *(ə)* varlıq aləminin xoşbəxt insanı kimi baxır və başqalarına da bu səadətdən pay nəsib edir.

Burada başqa bir məsələ də var. Bu da ondan ibarətdir ki, İlahi əzəməti, Haqqın ürəklərdə təcəllasını müşahidə etmədən heç bir insan İlahi məhəbbətə malik ola bilməz, ibadət və əqidəsini heç nədən üstün tuta bilməz. Bu həqiqəti nəzərə alaraq İmam Əlinin *(ə)* gerçək aşiqi kimi mən, möhürü İmam *(ə)* tərəfindən vurulan söz dünyasına baş vurmaq, İmam Əlinin *(ə)* dəyərli və əzəmətli kitabı olan "Nəhcül-bəlağə"ni, eləcə də İmamın *(ə)* mübarək həyatını kiçik bir tədqiqat işində araşdırmaq üçün özümdə cəsarət tapdım. Çünki, söz dünyasına baş vuran digərləri kimi, mən də İmam Əli *(ə)* dühasını, İmam Əli *(ə)* elmini araşdırmağı özümə böyük bir sınaq, çətin bir imtahan, həm də zəruri bir vəzifə hesab edirəm.

"Nəhcül-bəlağə" həyatın keşməkeşləri və həqiqətlərindən, yaxud hər hansı bir cəmiyyətdə baş verə biləcək mümkün problemlərindən uzaq olub İslam maarifini bəyan edən bir alimin kəlamları deyil. Əksinə, bu əsərdə qeyd olunanlar böyük bir cəmiyyətin məsuliyyətini öz çiyinlərində daşıyan, dini yaxşı bilən, İslam və Quran maarifinə yaxından bələd olan, mərifət və təqva dolu geniş bir qəlblə, böyük nurani ruhla insanlarla ünsiyyətdə olan, onlarla

söhbət edən və suallarına cavab verən bir insanın kəlamlarıdır. Budur “Nəhcül-bəlağə”nin əsl mövqeyi.[1288] Təəssüflər olsun ki, bəzi şəxslər “Qərb mədəniyyətinin” təsiri altına düşərək bu bəşəri, ictimai, tarixi və incəsənət əsərinə diqqət yetirmək əvəzinə, başqalarının yazdıqlarına və dediklərinə uyur və bundan  dolayı öz fikirlərini bizə təlqin etməyə çalışırlar. Lakin beləlləri bilməlidir ki, “Nəhcül-bəlağə” ilə azacıq tanış olsalar gerçək İslamı dərk edər, daşlaşmış qəlbləri bu dəyərli kəlamlar vasitəsilə təqva nuruna boyana bilər.

İslam tarixindən bəllidir ki, bütün məsum imamlar *(ə)* özlərinin məqbul hesab etmədikləri hakimiyyət və hərc-mərclik dövründə yaşayıblar. İmam Əli *(ə)* də bu məsumlar *(ə)* sülaləsinin öndə gələni kimi və bu imamlardan *(ə)* əvvəl cahil bir cəmiyyətlə, haqsızlıq və ədalətsizliklə üzləşmiş, lakin hər zaman haqq söyləmiş, həqiqətin tərəfdarı olmuş, Peyğəmbərdən *(s)* özünə çatan İslam maarifçiliyi işini layiqincə davam etdirmiş və bu ənənəni özündən sonrakı Əhli-Beytinə *(ə)* müqəddəs bir irs kimi buraxmışdır. Elə “Nəhcül-bəlağə”nin böyük bir hissəsi də İmam Əlinin *(ə)* öz hakimiyyəti - xəlifəliyi  dövründə buyurduğu bəyanat, xütbə və kəlamlardan ibarətdir. Lakin burada bəzi kəlamlar vardır ki, İmam *(ə)* onları hakimiyyətdə olmadığı vaxtlarda buyurub.

“Nəhcül-bəlağə” sanki keçmiş, müasir dövr və gələcək üçün yazılmış, zaman keçdikcə köhnəlmək bilməyən, əksinə günbəgün təzələnən bir kitabdır. Əsərdə bütün bəşəri biliklər, dünyaya baxış üsulları özünəməxsus şəkildə yer tutur. Yaxşı olardı ki, dini siyasətdən ayıranlar “Nəhcül-bəlağ”ni mütaliə edib yanlış təsəvvürləri özlərindən uzaqlaşdırsınlar.

Qeyd etmək yerinə düşərdi ki, bu təriflərin ən yaxşısı “Nəhcül-bəlağə” – “Əxul-Quran” (Quranın qardaşı) adlığıdır. İslamda Qurandan sonra heç bir kitab öz əzəmət və dəyərinə görə “Nəhcül-bəlağə” kimi qiymətli hesab olunmamışdır. Ədiblərə ədəbi örnək, siyasətçilərə siyasi təlim, əxlaq sahiblərinə əxlaqi, etiqadi, fəlsəfi və irfani mühəqqiq, arif və nicat axtaranlara, eləcə də digər insanlara Quranın bətni və beyni sayılan “Nəhcül-bəlağə”, sanki Allah tərəfindən nazil olan asimani bir vəhydir ki, Cəbrail *(ə)* onu kəlmə-kəlmə İmam Əliyə *(ə)* çatdırmışdır. Sanki, bu vəhylər nübüvvət ağacı və insani dəyərlər məxzərindən faydalanan İmam Əli *(ə)* üçün göndərilibdir.

“Nəhcül-bəlağə” Qurandan sonra ən böyük kəşf mənbəyi sayılaraq insana kamilliyin ən uca, əlçatmaz və ünyetməz zirvələrinə yiyələnmək üsulunu öyrədir. Bu kitab Quranın güzgüsüdür və öz nurunu Qurandan əxz edibdir.

“Nəhcül-bəlağə” hər bir müsəlmana və İslam cəmiyyətinə lazım olan dinin ən əsas və mühüm prinsiplərini özündə birləşdirən bir məcmuədir. Bu-

[1288] Nəhcül-bəlağə, Ayətullah əl-Üzma Seyyid Xamenenin baxışlarında.

rada bu prinsiplər barəsində bir söz, bir kəlam, bir işarə, bir bəhs və ya tövsiyə vardır. "Nəhcül-bəlağə"də tövhid, İslam əqidələri və üsulid-dindən tutmuş əxlaq, pəhrizkarlıq, nəfsi paklıq, idarəetmə siyasəti, böyük ictimai fəaliyyətlərin və ailə münasibətlərinin tənzimlənməsi, müharibə, siyasət, hikmət və elm məsələlərinə qədər hər şey haqqında məlumat vardır.

## *6.4. "NƏHCÜL-BƏLAĞƏ"NİN ELMİ BAXIMINDAN TƏHLİLİ*

"Nəhc" "yol və üslub", "bəlağə" isə "sözü çatdırmaq" mənasındadır. Ədəbiyyat terminologiyasında "bəlağət fəsahətli sözün şəriətə uyğun olması" deməkdir. Yəni, "dinləyici və ya oxucunun vəziyyətini onun idrak və əqli məlumatının səviyyəsi baxımından nəzərə almaq, söz və ya yazının dinləyici və ya oxucuya istənilən təsir göstərməsi üçün zaman, məkan və digər xüsusiyyətlərə riayət etməkdir".

"Nəhcül-bəlağə"də yer alan mövzular haqq, həqiqət, yəqinlik və inamın son həddinin dayaq nöqtəsi olan bir kəsin dilindən bəyan edilir. Buna görə də onun bəyan, nəzər və düşüncəsi həqiqət axtarışında olan sərgərdan şəxs üçün arxalanmalı yerdir.

Bəşəriyyət tarixinin ən qüdrətli simalarından biri olan İmam Əli *(ə)* həm kamil bir insan kimi ictimai, həm humanist bir düha sahibi kimi mədəniyyət, həm də adil bir siyasətçi kimi dövlət və idarəçilik işləri ilə dərindən məşğul olmuşdur. İmam *(ə)* beş illik xəlifəliyi dövründə dəyərli idarəçilik və hökumət təcrübələrini möminlərə, haqq aşiqlərinə qiymətli miras qoyub getmişdir. Bu baxımdan "Nəhcül-bəlağə" həm də siyasi zəmində təqdim edilən əməli və nəzəri biliklər toplusudur. Bu dəyərli kitabda hər cür siyasət və idarəçilik məsələləri tədqiq edilmiş və cəmiyyəti ədalətli şəkildə idarəetmənin yolları göstərilmişdir.

Bildiyiniz kimi, islami-siyasi miraslara əməli və nəzəri qayıdış müsəlman dünyasında yeni düşüncə və təfəkkürün formalaşmasında böyük rol oynayır. Bu miras toplusunun ən mühüm mənşəyi isə məsum imamların *(ə)*, xüsusilə də İmam Əlinin *(ə)* əxlaqi nümunəvi davranışlarıdır ki, onların da barəsində "Nəhcül-bəlağə"də çoxlu sayda geniş məlumat vardır. Həmin məlumatlardan məlum olur ki, xəlifəliyi dönəmində İmam Əlinin *(ə)* rəhbərliyinin əsas xəttini islami vəhdət və mədəniyyət, eləcə də nizam-intizam və təhlükəsizlik qaydalarına riayət edən islami cəmiyyət, həmçinin insanların rifahını təmin edəcək və ehtiyaclarını qarşılayacaq islami dövlət yaratmaq, bununla da ilahi ədaləti bərqərar etmək təşkil etmişdir.

Bundan başqa, “Nəhcül-bəlağə”ki mövzular baxımından demək olar ki, bu əsər insan hüquqları və azadlıqlarının fəlsəfi düsturunu təqdim edən vücudi dirilik mənbəyidir.

Göründüyü kimi, tədqiqat işinin mühüm bir hissəsi belə aktual və əhəmiyyətli mövzuları əhatə edən “Nəhcül-bəlağə”dən bəhs edir ki, onun da İslam tarixi fikrinin inkişafında tutduğu önəmli mövqeyi oxucuların diqqətinə çatdırmağa çalışmışıq.

Həmçinin, tədqiqat işində ən məşhur mənbələri və mütəfəkkirlərin “Nəhcül-bəlağə”ylə bağlı fikirlərini tədqiq edərək ədalətli bir araşdırma materialı ortaya çıxarmağa, bacardığımız qədər mübahisəli məsələlərdən uzaq durmağa səy etmişik. Çünki, mübahisəli məsələlər uzun müddət müsəlmanların vəhdətinə və birliyinə mane olmuşdur. Məhz bu baxımdan əsərdə “Nəhcül-bəlağə”dən müsəlmanlar üçün ən ibrətli və əxlaqi cəhətdən vacib hissələri vermişik ki, bu işimizlə az da olsa arzusunda olduğumuz müsəlmanların birliyinə, vəhdətinə nail olaq.

## *6.5. İMAM ƏLİNİN (Ə) “DİVANÜŞ-ŞER” ƏSƏRİ*

Ötən fəsillərdə İmam Əlinin *(ə)* mübarək şəxsiyyəti, İslamdakı fəzilət və üstünlükləri, o cümlədən elm aləmindəki xidmət və kəşfləri, ədəbiyyat elmlərindəki fəsahət və bəlağəti ilə tanış olduq. Burada isə İmamdan *(ə)* yadigar qalmış şeirlər divanından bəhs edəcəyik.

Xatırladaq ki, İmam Əlinin *(ə)* şeirlər divanı “Divani-Əmirəl-möminin *(ə)*” adı altında müxtəlif vaxtlarda çap olunmuş, böyük ədiblər, alim və filosoflar ona şərhlər yazmışlar. Əsərə diqqət göstərən hər bir elm əhli onu yüksək səviyyədə qiymətləndirmiş və belə dürlü kəlamların yalnız İmam Əli *(ə)* tərəfindən deyilə biləcəyini, İmamdan *(ə)* başqa kiminsə belə yüksək fəsahət və bəlağətli, belə incə məna düzümlü söz söyləyə bilmədiyini dəfələrlə etiraf etmişlər. Əbəs deyildir ki, görkəmli ərəb mütəfəkkiri əl-Cahiz demişdir: “Əlinin *(ə)* sözləri Xaliqin sözlərinin altında, bəşərin sözlərinin isə üstündədir”.

Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bəzi qərəzli şəxslər İmam Əlinin *(ə)* heç vaxt şeir demədiyini, guya şeir deməyin də İmama *(ə)* yaraşmadığını iddia etmiş, nəticədə özlərinin o Həzrətə *(ə)* qarşı qərəzli duyğularını, yersiz təəssübkeşliklərini ortaya qoymuşlar. Belə düşüncə sahibləri güman etmişlər ki, guya şeir demək məsumiyyət sifəti ilə düz gəlmir. Hətta nlar bir az da qabağa gedərək Qurani-Kərimin “əş-Şüəra” surəsinin 224-cü ayəsini dəlil gətirmişlər ki, həmin ayədə də belə buyurulur: **“**(Müşrik və kafir) ***şair-***

***lərə gəlincə, onlara yalnız azğınlar uyar!”*** İlk baxışdan belə görünə bilər ki, İslam dini şeir və şairlə müxalifdir. Lakin adıçəkilən surənin 227-ci ayəsində bəyan olunur: ***“Ancaq iman gətirib yaxşı işlər görən, Allahı çox zikr edən, zülmə uğradıqdan sonra intiqamını alanlardan başqa!...”***

Bundan başqa, mənbələr obyektiv şəkildə araşdırılıb təhlil edildikdə, məlum olmuşdur ki, İmam Əlinin *(ə)* şeir sənətinə verdiyi yüksək dəyərlər, İmamın *(ə)* bu sahədə söylədiyi şeirlər ən qədim qaynaqlardan tutmuş müasir dövrümüzə qədər yazılmış bütün mənbələrdə öz əksini tapmışdır.

Bu arada, bilmək lazımdır ki, ümumiyyətlə şeir iki qismdir. Birincisi, yalan və mübaliğədən ibarət olan qafiyələr toplusudur ki, burada şair halal-haramı gözləmədən zehninə gələni söyləyir. Şübhəsiz ki, belə şeirlər məsum bir şəxsə yaraşmır və bu tipdən olan şeirlər də batildir, haramdır. İkincisi isə, həqiqətlər və doğruluqlar üzərində, əxlaq, nəsihət və yaxşı əməllərin təbliğində, Peyğəmbərin *(s)* Əhli-Beytinin *(ə)* şənində deyilmiş şeirlərdir. Bu baxımdan Peyğəmbər *(s)* buyurmuşdur: *“Şeirin bəzisi hikmət, bəzisi isə sehrdir”.*[1289] Bu deyilənlərdən belə bir fikir hasil olur ki, bu cür qərəzli yanaşmalar nə qədər əhəmiyyətsiz və əsassızdır.

İmam Əlinin *(ə)* şeiriyyəti haqqında təkcə İslam Şərqinin deyil, Qərb dünyasının da görkəmli elm və sənət alimləri, söz və fikir sahibləri ağızdolusu danışmış, yazdıqları əsərlərdə bu haqda geniş məlumatlar vermişlər. Fikrimizcə, “History of the Arabic” adlı mənbələrə müraciət etmək bu baxımdan yetərli sayıla bilər. Görkəmli alim Nikolsunun eyniadlı əsəri isə bu baxımdan daha diqqətəlayiqdir.

İmam Əlinin *(ə)* divanının toplanmasına gəldikdə qeyd etmək lazımdır ki, bunu Qütbəddin əl-Keyzəri əl-Beyhəqi üç divandan toplamışdır. Həmin divanlar aşağıdakılardır:

1. İmama *(ə)* məxsus şeirlərdən ibarət olan “Şeri-Əli *(ə)*” əsəri.

Xatırladaq ki, bu əsəri Əbu Əhməd Əbdüləziz əl-Cəludu (öl. 945) toplamışdır. O, divanı toplayan ən qədim alim hesab olunur.

2. “Divanüş-şer” əsəri.

Bu əsərin müəllifi isə İbn Şəcəri adıyla məşhur olan Əbu Saadat Hibətullahdır (öl. 1055).

1. “Səlvətüş-İmamiyyə və tacüş-şer” əsəri.

Bu əsəri də toplayan Əbu Cəfər əl-Fəncəkridir (öl. 1045).

Bütün bu deyilənləri Əllamə Ağa Bozorg ət-Tehrani özünün məşhur “əz-Zəriə ila təsanifiş-İmamiyyə” əsərində qeyd etmişdir.

---

[1289] Əllamə Əmini, əl-Qədir, c. II, səh. 9.

Qeyd etmək lazımdır ki, İmam Əlinin *(ə)* şeirlərini toplayan ən görkəmli alimlərdən biri də Əllamə Seyyid Möhsün əl-Əmindir (1953). Onun bu əsəri "Divani-Əmirəl-möminin *(ə)*" adı altında hicri 1366-cı ildə Dəməşqdə çap olunmuşdur. Əsər 149 səhifədən ibarətdir.

Bütün bu deyilənlərdən əlavə, xatırlamaq lazımdır ki, İmam Əlinin *(ə)* müxtəlif mövzuları əhatə edən və bir çox dillərə tərcümə olunan şeirləri "Divani-Əmirəl-mömininin Əli *(ə)*", "Divani-İmam Əli *(ə)*", "Kitabi-şeiri-Əli *(ə)*", "Divani-Əmir", "Divani-İmam Əli bin Əbu Talib Əmirəl-möminin *(ə)* və seyyidil-bəlağə vəl-mütəkəllimin", "Divani-seyyidina Əli *(ə)*", "Divani-əşari mövlana Əli bin Əbutalib *(ə)*", "İmam Əlinin *(ə)* mənzumə nəsihətləri", "İmam Əli *(ə)* səd kəlmə" və s. başlıqlar altında dəfələrlə çap olunub oxucuların ixtiyarına verilmişdir.

İmam Əlini *(ə)* vəsf edən bir şair İmamın *(ə)* haqqında yazırdı:

**إنّ عليّاً لَمَيمونٌ نَقيبتُهُ  بالصالحاتِ من الأفعالِ مشهورُ**
**صِهرُ النبيِّ وخيرُ الناسِ مُفتَخَراً  فكلُّ مَن رامه بالفخرِ مفخورُ**
**صلَّى الطَّهورُ مع الأُمّيِّ أوّلَهُم  قبلَ المَعاد، وربُّ الناسِ مَكْفورُ**
**مُقاوِمٌ لطغاةِ الشركِ يَضربُهم  حتّى آستقاموا ودينُ اللهِ منصورُ**
**بالعدلِ قمتَ أميناً حين خالفَهُ  أهلُ الهوى وذَوو الأهواءِ والزُّورُ**
**يا خيرَ مَن حمَلَت نعلاً له قَدَمٌ  بعدَ النبيِّ لديهِ البغيُ مَهجورُ**
**أعطاك ربُّك فضلاً لا زوالَ لهُ  مِن أين أنّى له الأيامَ تَغيِيرُ!**

*Şübhəsiz, Əli müqəddəsdir.*
*Əməlisaleh bir şəxsiyyətdir.*
*Peyğəmbərin kürəkəni,*
*İnsanların ən xeyirlisi,*
*Bir qürur mənbəyidir.*
*Onunla fəxr edən kəs fəxr olunar.*
*O, pak namaz qılmış Ümmi-Peyğəmbərlə,*
*İnsanların Rəbbinə küfr edilən yerdə.*
*Şirk azğınlarına qarşı mübarizə apardı.*
*Şirkə uğrayanları Zülfüqarla vurardı.*
*Ta ki, haqqa gəldilər, Allahın dini qələbə çaldı.*
*Haqq-ədalətlə, əmin şəkildə möhkəm durdun,*
*Eyş-işrət və yalan əhli-dinə müxalif olduğu zaman.*
*Peyğəmbərdən sonra ayağı çarıqlı ən xeyirli insan!*
*Haqsızlıq və zülm onu tərk etmiş.*
*Allah sənə yox olmaz fəzilət vermiş.*
*Bəs, necə oldu dövran dəyişdi?!*

İmam Əlinin *(ə)* divanı çox gözəl şəkildə tərtib edilmişdir. Əsər şeirlərin qafiyəsinə uyğun olaraq əlifbada olan hər bir hərf əsasında tərtiblənmişdir. Həmin tərtibat aşağıdakı kimidir:

**قـافيـة الهمزة.**
**قـافيـة الألف.**
**قـافيـة الـبـاء.**
**قـافيـة التـاء.**
**قـافيـة الجيم.**
**قـافيـة الـحاء.**
**قـافيـة الـدال.**
**قـافيـة الـراء.**
**قـافيـة الـزاي.**
**قـافيـة السين.**
**قـافيـة الـصاد.**
**قـافيـة الـضاد.**
**قـافيـة الـطاء.**
**قـافيـة الـظاء.**
**قـافيـة الـعين.**
**قـافيـة الـغين.**
**قـافيـة الـفاء .**
**قـافيـة الـقاف.**
**قـافيـة الـكاف.**
**قـافيـة الـلام.**
**قـافيـة الـميم.**
**قـافيـة الـنون.**
**قـافيـة الـهاء.**
**قـافيـة الـياء[1290].**

Doktor ət-Təbba Feydəlinin İmam Əlini *(ə)* şeirin, şeiriyyətin banisi kimi vurğulaması diqqətçəkən məqamlardandır. Əlbəttə ki, İmamdan *(ə)* əvvəl də şeir deyənlər, şeiriyyətlə məşğul olanlar çox olmuşdur. Lakin Feydəlinin məqsədi özünün də açıqladığı kimi, İmam Əlinin *(ə)* şeirin ən gözəl biçimdə, ən mənalı şəkildə deyilməsinin əsasını qoymasıdır.

İmam Əlinin *(ə)* şeirlərinin əsasında yüksək humanist hislər, İlahi eşq, əxlaq fəlsəfəsi durur. İmam *(ə)* heç vaxt şeirlərində məddahlıq etməmiş, daha çox mənəvi problemlərdən, insanı günahdan uzaqlaşdıran, ona dünya və Axirət faydaları bəxş edən amillərdən söz açmışdır. İmam Əlinin *(ə)* divanı ilk olaraq أهل العلم أحياءُ – *"Elm əhli diridir"* başlığı ilə başlayır ki, bu da

[1290] كتاب ديوان الإمام علي بن أبي طالب عليه السلام , جمعه وضبطه وقدّم له : حسين الأعلمي , الناشر : مؤسسة الأعلمي للمطبوعات.

İmamın *(ə)* bütün İslamın simasında elmə, elm əhlinə verdiyi dəyərin nəticəsidir. İmam Əli *(ə)* adı çəkilən bölümdə buyurmuşdur:

**ألناسُ مِن جهةِ الآبـاءِ أكْفـاءُ  أبـوهـمُ آدمٌ والأمُّ حَـوّاءُ**
**ما الفضلُ إلا لأهل العلمِ، إنّهمُ  على الهدى لِمَنِ آستهدى أدِلاّءُ**
**وقَدْرُ كلِّ آمرئٍ ما كان يُحْسِنُهُ  وللرجال على الأفعالِ أسمـاءُ**
**فَفُزْ بعلمٍ ولا تطلب بـه بَدلاً  فالناسُ موتى، وأهلُ العلم أحياءُ**

**Tərcüməsi:**

*İnsanlar ata-baba baxımından bərabərdirlər.*
*Onların atası Adəm, anası isə Həvvadır.*
*Elm əhlindən başqa fəziləti olan yoxdur.*
*Çünki, onlar hidayət üzərindədirlər.*
*Onlar dəlillərlə hidayətə səslərlər.*
*Hər bir insanın qədir-qiyməti etdiyi yaxşılıqladır.*
*İnsanlar etdikləri işlərə görə ad qazanarlar.*
*Elmi əldə et, onu heç bir şeylə əvəz etmə.*
*İnsanlar ölüdürlər, yalnız elm əhli diridir.*

İmam Əlinin *(ə)* şeirləri içərisində diqqəti cəlb edən məqamlardan biri də İmamın *(ə)* Müaviyə bin Əbu Süfyana ünvanladığı şeirdir. İmam Əlinin *(ə)* bu şeiri أوصاني النبيّ - *"Peyğəmbərin mənə vəsiyyəti"* adlanır. Divanı şərh edən alimlər yazırlar ki, Müaviyə İmama *(ə)* belə bir məktub göndərmişdir:

**يا أبا الحسن، إنّ لي فضائل كثيرة، وكان أبي سيّداً في الجاهليّة، وصرتُ ملكاً في الإسلام، وأنا كاتب الوحي.**

"Ey Əbəlhəsən! Mənim çoxlu fəzilətim vardır. Atam Cahiliyyə dövründə rəhbər olub. İslamda da mülk sahibi olmuşam. Mən vəhyin kaitibiyəm".

İmam Əli *(ə)* Müaviyənin bu cahilanə sözlərinə aşağıdakı məzmunda belə bir şeir yazmış və ona göndərmişdir:

**محمّدٌ النبيُّ أخي وصِهْري  وحمزةُ سيّدُ الشهداءِ عمّـي**
**وجعفرٌ الذي يُضْحي ويُمْسي  يطيرُ مع الملائكةِ آبنُ أُمّـي**
**وبنتُ محمّدٍ سَكَني وعِرسي  مَشُوبٌ لحمُها بدمي ولحمي**
**وسِبطا أحمدٍ وَلَـدايَ منهـا  فَمَن منكُم له سَهمٌ كسهمي ؟!**
**سبقتُكمُ إلى الإسلام طُرّاً  غلاماً ما بلغتُ أوانَ حُلمـي**
**وأوجَبَ لي ولايتَـه عليكـم  رسولُ الله يومَ غديـر خُـمِّ**
**وأوصاني النبيُّ علَى اختيارٍ  ببيعتـهِ غَداةَ غدٍ برَحْـمِ**
**فويلٌ، ثمّ ويـلٌ، ثـمّ ويـلٌ  لجاحدِ طاعتي مِن غير جُرمِ.**[1291]

---

[1291] معجم الأدباء لياقوت الحموي 14:48 - دار المستشرق.

**Tərcüməsi:**

*Məhəmməd peyğəmbər mənim,*
*Qardaşım və qaynatamdır.*
*Seyyidüş-şühəda Həmzə,*
*Mənim güclü bir əmimdir.*
*Məhəmmədin qızı mənim zövcəmdir,*
*Onun əti və qanı ətim və qanımdandır.*
*Əhmədin nəvələri mənim övladlarımdır.*
*Mənim səhmim kimi kimin səhmi vardır?*
*Sizdən əvvəl İslamda olmuşam.*
*O zaman hələ yeniyetməydim,*
*Həddi-buluğ olmamışdım.*
*Allahın Rəsulu vacib etdi,*
*Mənim vilayətimi sizlərə Qədir-Xumda.*
*Vay olsun, vay olsun, yenə də vay olsun,*
*Mənə qarşı itaətsizlik göstərənlərə!*

İmam Əlinin *(ə)* bəlağətli şeirlərindən biri də كنتَ خيرَ عمّ - *"Sən xeyirli əmi oldun"* adlı şeiridir. İmam *(ə)* bu şeirini atası və Peyğəmbərimizin *(s)* əmisi Əbu Talibə həsr etmiş, onu mədh edərək iman əhli və Peyğəmbərimiz *(s)* üçün xeyirli birisi olduğunu bildirmişdir. İmam Əli *(ə)* həmin şeirində belə bəyan edir:

**أبا طالبِ عصمةَ المستجير   وغيثَ المُحولِ ونورَ الظُّلَمْ**
**لقد هَدّ فَقْدُك أهلَ الحِفاظ   فصلّى عليك وليُّ النِّعَمْ**
**ولَقّاك ربُّك رِضوانَهُ   فقد كنتَ للمصطفى خيرَ عَمّ**[1292].

İmam *(ə)* zamanənin bəzi dost-tanışlarından giley-güzar edərək buyururdu:

**تغيرت المودة والإخاء   وقلّ الصدق , وانقطع الرجاءُ**
**وأسلمني الزمان إلى صديق   كثير الغدر , ليس له رعاءُ**
**ورُبّ أخ وفيت له بحق   ولكن لا يدوم له وفاء**
**أخلاء إذا استغنيت عنهم   وأعداءٌ إذا نزل البلاء.**

**Tərcüməsi:**

*Dostların məhəbbəti dəyişib.*
*Doğruluq azalıb, ümidlər qırılıb.*
*Zəmanə məni dostlara təslim edib.*
*Aldatmalar çoxalıb, ondan çəkinən yoxdur.*

---

[1292] ديوان أمير المؤمنين عليّ بن أبي طالب كرّم الله وجهه. الشارح الضابط لنصوصه والمقدِّم: الدكتور عمر الطبّاع. الناشر: دار الأرقم ـ بيروت. الطبعة: الأولى ـ سنة 1416 هـ / 1995 م.

## *6.6. İMAM ƏLİNİN (Ə) "QÜRƏRÜL-HİKƏM" ƏSƏRİNDƏN BƏZİ QISA KƏLAMLAR*

*"Din qoruyur, himayə edir".*[1293]

*****

*"Din ucaldır, şərəfləndirir".*

*****

*"Dünya əzab-əziyyətə təslim edir".*

*****

*"Dünya zəlil və xar edir".*

*****

*"Dünya qısa ömürlüdür".*

*****

*"Axirət əbədidir".*

*****

*"Elm kömək edir".*

*****

*"Hikmət doğru yol göstərir".*

*****

*"Ədalət səmimiyyətdir".*

*****

*"Zülm ədalətsizlikdir".*

*****

*"Doğruluq vəsilədir".*

*****

*"Bağışlamaq üstünlükdür".*

*****

*"Səxavət xarakterdir".*

*****

[1293] Bu paraqrafdakı qısa kəlamlar "Qürərül-hikəm və dürərül-kələm" əsərindən tərcümə edilib.

*“Şərafət imtiyaz və mükəmməllikdir”.*

*****

*“Səbrli və möhkəm olmaq sərmayədir”.*

*****

*“Tənbəllik vaxtın əldən getməsidir”.*

*****

*“Vəfadarlıq böyüklükdür”.*

*****

*“Sevgi yaxınlıqdır”.*

*****

*“Təvazökarlıq ucaldır”.*

*****

*“Təkəbbür alçaldır”.*

*****

*“Ağıl qoruyur”.*

*****

*“Paklıq nemətdir”.*

*****

*“Bəxşiş etmək fəzilətdir”.*

*****

*“Vəfadarlıq alicənablıqdır”.*

*****

*“Ağıl zinətdir*

*****

*“Axmaqlıq şərəfə qüsur gətirir”.*

*****

*“Doğruluq əmanətdir”.*

*****

*“Yalan xəyanətkarlıqdır”.*

*****

*“İnsaf rahatlıqdır”.*

*****

*“Şərr arsızlıqdır”.*

*****

*“Comərdlik ağalıqdır”.*

*****

*“Əmanətdarlıq imandandır”.*

*****

*“Təbəssüm etmək yaxşılıqdır”.*

*****

*“Bəxşiş verən canlı və parlaqdır”.*

*****

*“Danlaq zülmdür”.*

*****

*“Fikirləşmək hidayət edir”.*

*****

*“Doğruluq nicat verir”.*

*****

*“Yalan həlak edir, alçaldır”.*

*****

*“Qənaət zənginləşdirir”.*

*****

*“Zənginlik tüğyana səbəb olur”.*

*****

*“Fəqirlik unutdurur”.*

*****

*“Dünya doğru yoldan azdırır”.*

*****

*“Şəhvət pisliklərə sövq edir”.*

*****

*“Yaxşı güzəran tərk edir”.*

*****

*“Arzu həlak edir”.*

*****

*“Həsəd sağlamlığı əldən alır”.*

*****

*“Kin bəsləmək başından rədd etməkdir”.*

*****

*“Yəqin ibadətdir”.*

*****

*“Yaxşılıq ağalıqdır”.*

*****

*“Şükür artma-çoxalmadır”.*

*****

*“Fikir ibadətdir”.*

*****

*“Namuslu olmaq üz çevirib tərk etməkdir”.*

*****

*“İşlər təcrübəyə bağlıdır”.*

*****

*“Əməllər yaxşı bilgiyə bağlıdır”.*

*****

*“Elm anlamağa bağlıdır”.*

*****

*“Başa düşmək zirək olmağa dəlalət edir”.*

*****

*“Zirəklik bəsirətli olmağa dəlalət edir”.*

*****

*“Tədbir rəyə bağlıdır”.*

*****

*“Rəy vermək fikrə bağlıdır”.*

*****

*“Qələbə səbirlədir”.*

*****

*“Mətanətli olmaq təcrübəyə bağlıdır”.*

*****

*“Savab məşəqqətdədir”.*

*****

*“Özünü bəyənmək həlakdır”.*

*****

*“Riya* (Allaha) *şərik qoşmaqdır”.*

*****

*“Nadanlıq ölümdür”.*

*****

*“Tənbəllik əldən buraxmaqdır”.*

*****

*“Ehtiraslar bəladır”.*

*****

*“Ləzzətlər yoldan azdırandır”.*

*****

*“Arzular müxtəlifdir”.*

*****

*“Məyusluq (ümidsizlik) azaddır”.*

*****

*“Tamah zərərdir”.*

*****

*“Doğru rəftar kəramətdir”.*

*****

*“Zalım paxıl və kəramətsizdir”.*

*****

*“Səbr etmək əmr sahibi olmaqdır”.*

*****

*“Səbr etməyən həlak olar”.*

*****

*“Dostluq xoşbəxtlik və xeyir-bərəkətdir”.*

*****

*“Səxavət əxlaqdır”.*

*****

*“Özünü bəyənmək axmaqlıqdır”.*

*****

*“Səfehlik nadanlıqdır”.*

*****

*“Elm xəzinədir”.*

*****

*“İbadət üstünlükdür”.*

*****

*“Qənaət izzətdir”.*

*****

*“Din sevindirir və nemətləndirir”.*

*****

“(Allaha) *Yəqinlik nurdur”.*

*****

*“İman əmin-amanlıqdır”.*

*****

*“Küfr köməkdən üz çevirməkdir”.*

*****

“(Müsibətlərə) *Razılıq fayda və var dövlətdir”.*

*****

*“Əsəbləşmək şənə yaraşmaz şeydir”.*

*****

“(Allaha) *Təvəkkül etmək kifayətdir”*.

*****

*“Müvəffəqiyyət* (Allahın) *inayətidir”*.

*****

*“İxlas kamillikdir”*.

*****

“(Allahdan) *Qorxu əminlikdir”*.

*****

*“Eşq sərxoşluğu təsəllidir”*.

*****

*“Fəqirlik qəm-qüssədir”*.

*****

*“Borc qul olmaqdır”*.

*****

*“Borcu ödəmək azadlıqdır”*.

*****

*“Doğruluq fəzilət və üstünlükdür”*.

*****

*“Yalan rəzillik və alçaqlıqdır”*.

*****

*“Yaxşılıq şərafətdir”*.

*****

*“Möhkəm dostluq qohumluqdur”*.

*****

*“Susmaq ağır və ciddi olmaqdır”*.

*****

*“Düşünmədən danışmaq ardır”*.

*****

*“Çətinlik danlaqdır”*.

*****

*“Söz eşitməmək* (dikbaşlıq) *uğursuzluqdur”.*

*****

*“Fikir doğru yol göstəricisidir”.*

*****

*“Qəflətdə olmaq itirməkdir”.*

*****

*“Vəra haramdan çəkinməkdir”.*

*****

*“Tərəddüd və şəkk-şübhə iztirabdir”.*

*****

*“İtaətkarlıq nicat tapmaqdır”.*

*****

*“Günahkarlıq həlak olmaqdır”.*

*****

*“Qorxu bəladır”.*

*****

*“Acizlik alçaq olmaqdır”.*

*****

*“Doğru düşüncəli olmaq var-dövlətdir”.*

*****

*“Xətakarlıq itirməkdir”.*

*****

*“Doğruluq nicat tapmaqdır”.*

*****

*“Yalan eyibli şeyləri ifşa edəndir”.*

*****

*“Elm güc-qüvvətdir”.*

*****

“(Allahın əmrlərinə) *İtaət sığınacaqdır”.*

*****

*“Səbr ucalıqdır”.*

*****

*“Səbirsiz olmaq naqislikdir”.*

*****

*“Şücaət zinətdir”.*

*****

*“Qorxu eyib gətirəndir”.*

*****

*“Doğru rəftar salamatlıqdır”.*

*****

*“Xətakarlıq danlaqdır”.*

*****

*“Tələskənlik peşmanlıqdır”.*

*****

*“Ruzi bölüşdürülmüşdür”.*

*****

*“Həris* (adam) *məhrumdur”.*

*****

*“Paxıl məzəmmət olunmuşdur”.*

*****

*“Həsədli kədərlidir”.*

*****

*“Zalım danlanılmışdır”.*

*****

*“Cəfakeşlik etibarı ləkələməkdir”.*

*****

*“Günahkarlıq* (Allaha qarşı) *yox olmaqdır”.*

*****

*“Mətin olmaq ayıqlıq və çeviklikdir”.*

*****

*"Qafil yuxu tutmuşdur".*

*****

*"Oğru xar olunacaqdır".*

*****

*"Sərvət toplamaq qəm-qüssədir".*

*****

*"Ayıqlıq nurdur".*

*****

*"Qəflətdə olmaq aldatmadır".*

*****

*"Məkr və hiylə danlaqdır".*

*****

*"Aldatmaq uğursuzluqdur".*

*****

*"Paxıl fəqirdir".*

*****

*"Xəyanətkarlıq sədaqətsizlikdir".*

*****

"(Dində) *şəkk etmək küfrdür".*

*****

*"Ehsan vermək məhəbbətdir".*

*****

*"Xəsislik və tamahkarlıq söyüşdür".*

*****

*"Ağıl yaxınlıqdır".*

*****

*"Axmaqlıq tənhalıqdır".*

*****

*"Sevgi göstərmək fəzilətdir".*

*****

“*Möhtəkirlik alçaqlıqdır*”.

*****

“*Əmanətkarlıq qoruyucudur*”.

*****

“*İfşa etmək xəyanətkarlıqdır*”.

*****

“*Təqiyyə dindarlıqdır*”.

*****

“*Təqva* (insanı) *izzətli edər*”.

*****

“*Pozğunluq insanı rüsvay edər*”.

*****

“*Səbirli və qərarlı olmaq hünərdir*”.

*****

“*Acizlik alçaqlıq və sıxıntılıqdır*”.

*****

“*Vəra (*şübhəli şeylərdən çəkinmək*) qalxandır*”.

*****

“*Tamahkarlıq möhnətdir*”.

*****

“*Tacir ziyan içərisindədir*”.

*****

“*Pozğun rüsvay olandır*”.

*****

“*Elm dəlil və doğru yol göstərəndir*”.

*****

“*Həya gözəldir*”.

*****

“*Tamahkarlıq qul olmaqdır*”.

*****

*“Məyusluq sərbəstlikdir”.*

*****

*“Helm savabdır”.*

*****

*“İtaət cavab verməkdir”.*

*****

*“Aldatmaq xəbislik və xoşa gəlməz bir əməldir”.*

*****

*“Susmaq sığınacaqdır”.*

*****

*“İşlər bir-birinə oxşardır”.*

*****

*“Yaxşılıq borcdur”.*

*****

*“Şükür-Səna vacibdir”.*

*****

*“Zirək və qavrayışlı olmaq hidayətdir”.*

*****

*“Cahillik doğru yoldan sapmaqdır”.*

*****

*“Tamahkarlıq fəqirlikdir”.*

*****

“(Allaha) *şərik qoşmaq küfrdür”.*

*****

*“Həya məhrum olmaqdır”.*

*****

*“Savabdan uzaq olmaq peşmançılıqdır”.*

*****

*“Zöhd sərvətdir”.*

*****

*“Arzu meyilli olmaqdır”.*

*****

*“Helm yaxın qohumdur”.*

*****

*“Xəyanətkarlıq günahdır”.*

*****

*“Arzular* (insanı) *aldadır”.*

*****

*“Əcəl tələsir”.*

*****

*“Dünya ziyana salır”.*

*****

*“Axirət sevindirir”.*

*****

*“Arzular aldadır və təkəbbürlü edir”.*

*****

*“Həyat ötüb keçir”.*

*****

*“Köç çox yaxındır”.*

*****

*“Elm sənə nicat verir”.*

*****

*“Cəhalət səni həlak edir”.*

*****

*“Ölüm rahatlıqdır”.*

*****

*“Günahsız doğru-dürüstdür”.*

*****

*“Qiyamət çox yaxındır”.*

*****

*“İkiüzlü* (münafiq) *şəkk-şübhədədir”*.

*****

*“Dəstəkləmək mətanət və dözümdür”*.

*****

*“Ehsan vermək qənimətdir”*.

*****

*“Ədalət dinin yarısıdır”*.

*****

*“Qənaət paklıqdır”*.

*****

*“Təslim olmaq qorunmaqdır”*.

*****

*“Əcəl qalxandır”*.

*****

*“Müvəffəqiyyət rəhmətdir”*.

*****

*“Elm böyüklükdür”*.

*****

*“Nadanlıq zəlalətdir”*.

*****

*“Fürsət faydalı və əlverişlidir”*.

*****

*“Əldən buraxmaq* (fövtə vermək) *şiddətli əziyyətdir”*.

*****

*“Qorxmaq ziyana uğramaqdır”*.

*****

*“Doğru olmaq yüksəlməkdir”*.

*****

*“Acizlik* (fürsəti) *əldən buraxmaqdır”*.

*****

*“Qənaət nemətdir”.*

*****

*“Ümidsizlik naqislikdir”.*

*****

“(Allahdan) *qorxu yardım istəməkdir”.*

*****

*“Hadisə baş verməmişdən qabaq xəbərdar edib qorxutmaq üzr istəməkdir* (üzürlü olmaqdır)*”.*

*****

*“(Günahdan) peşman olmaq tövbədir”.*

*****

*“Malın çoxluğu canın sıxıntısıdır”.*

*****

*“Məşvərət dəstəklənməkdir”.*

*****

*“Var-dövlət haqq-hesabdır”.*

*****

*“Zülm cəzadır”.*

*****

*“Arzu və ehtiraslar qatillərdir”.*

*****

*“Elm həyatdır”.*

*****

*“İman nicatdır”.*

*****

*“Təqva günahdan çəkinməkdir”.*

*****

*“Zənn şəkk-şübhə və iztirabdır”.*

*****

*“Tamah xar edəndir”.*

*****

*"Vəra böyüklükdür".*

*****

*"Ehsan verib yaxşılıq etmək kömək olunmuşdur".*

*****

*"Məkr etmək şeytandır".*

*****

*"Tələsməmək səbirdir".*

*****

*"Fürsət qənimətdir".*

*****

*"Dostluq fəzilətdir".*

*****

*"Ehsan böyüklükdür".*

*****

*"Qəflət zəlalətdir".*

*****

*"Özünü bəyənmək cəhalətdir".*

*****

*"Ümid* (digərlərinə) *xəyanət etməkdir".*

*****

*"Cahil sərgərdandır".*

*****

*"Arzu aldadır".*

*****

*"Haqsızlıq (insanı) yerə çırpır".*

*****

*"Dünya xəsarətdir".*

*****

*"Zülm və cövrü-cəfa aqibət və nəticədir".*

*****

*“Ləzzətlər bəladır”.*

*****

*“Elm gözəllikdir”.*

*****

*“Nadanlıq zəlalətdir”.*

*****

*“Son dərəcə tamahkarlıq və hərislik zəlillikdir”.*

*****

*“Ağıl şəfadır”.*

*****

*“Axmaqlıq bədbəxtlikdir”.*

*****

*“Sədəqə vermək xəzinədir”.*

*****

*“İxlas* (səmimiyyət, paklıq) *üstünlükdür”.*

*****

*“Günahsız olmaq paklıqdır”.*

*****

*“Sədəqə vermək qorunmaqdır”.*

*****

*“Din nurdur”.*

*****

*“Yəqin sevindirməkdir”.*

*****

*“Doğru yoldan çıxmaq arsızlıqdır”.*

*****

*“Gücsüzlük canın sıxılmasıdır”.*

*****

*“Ədalət padşahlıqdır”.*

*****

*“Cövr etmək həlakdır”.*

*****

*“Elm pənahdır”.*

*****

*“Qənaət izzətdir”.*

*****

*“Yaxşılıq xəzinədir”.*

*****

*“Qəflətdə olmaq boş vaxt və əyləncə içində olmaqdır”.*

*****

*“Rəhbərlik məhv olmaqdır”.*

*****

*“Şəhvət həlak olmaqdır”.*

*****

*“Şükr-səna qənimətdir”.*

*****

*“Küfr ziyana düşməkdir”.*

*****

*“Aqillik Allah vergisi və hədiyyədir”.*

*****

*“Ədəb-ərkan qazanılmış var-dövlətdir”.*

*****

*“Dünya təsadüflər içərisindədir”.*

*****

*“Axirət haqq iddiasında olan üçündür”.*

*****

*“Mömin əməlinə görədir”.*

*****

*“İnsan ağlına görədir”.*

*****

*“İnsan niyyət və məqsədinə görədir”.*

*****

*“Kişi dilavərliyinə görədir”.*

*****

*“İnsan imanına görədir”.*

*****

*“Elm əmələ bağlıdır”.*

*****

*“Dünya arzuya bağlıdır”.*

*****

*“Sevinc yaxşılığa bağlıdır”.*

*****

*“Rahatsızlıq utancaqlıqdır”.*

*****

*“Nadanlıq vəbadır”.*

*****

*“Həmfikir olmaq irəliləyişdir”.*

*****

*“Haram qanunsuzluqdur”.*

*****

*“Ölüm* (fürsəti) *fövtə verməkdir”.*

*****

*“Həris yorğundur”.*

*****

*“Sərvət* (mal toplamaq) *oğurluqdur”.*

*****

*“İstiqamət salamatlıqdır”.*

*****

*“Şərr peşmançılıqdır”.*

*****

*“Ədalət həyatdır”.*

*****

*“Zülm və cövrü-cəfa məhvedicidir”.*

*****

*“Ədalət insanın üstünlüyüdür”.*

*****

*“Doğruluq dilin əmanətidir”.*

*****

*“Səbirsizlik zəmanənin giriftarçılığıdır”.*

*****

*“Möhtəkirlik məhrumiyyətin səbəbidir”.*

*****

*“Səbr imanın başıdır”.*

*****

*“Səxavətli olmaq insanın zinətidir”.*

*****

*“Bağışlamaq insanın yaxşılığıdır”.*

*****

*“Fəqirlik imanın zinətidir”.*

*****

*“Qəlb dilin xəzinəsidir”.*

*****

*“Dil gizli işlərin tərcüməçisidir* (ifşa edənidir)*”*

*****

*“Doğruluq ədalətin qardaşıdır”.*

*****

*“Həvayi-həvəs ağlın düşmənidir”.*

*****

*“Əylənib vaxtı boşa keçirmən nadanların nişanəsidir”.*

*****

*“Cövri-cəfa ədalətin ziddidir”.*

*****

*“Ciddi və ağır olmaq ağılın gözəlliyidir”.*

*****

*“Vəfa doğruluğun həmtayıdır”.*

*****

*“Ağıl haqqın peyğəmbəridir”.*

*****

*“Müvəffəqiyyət mehribanlığın açarıdır”.*

*****

*“Həya* (utancaqlıq) *ruziyə mane olur”.*

*****

*“Doğruluq haqqın dilidir”.*

*****

*“Doğru olmayan şey* (batil) *haqqın ziddidir”.*

*****

*“Helm əxlaqın zinətidir”.*

*****

*“Xəyanətkarlıq yalanın qardaşıdır”.*

*****

*“Hərislik yorğunluğun miniyidir”.*

*****

*“Arzu və istək çalışqanlığın açarıdır”.*

*****

*“Zəfər günahkarın şəfaətçisidir”.*

*****

*“Susmaq yalan danışmaqdan xeyirlidir”.*

*****

*“Elm əsl-nəcabətli olmağın zinətidir”.*

*****

*“Ədəb tər-təmiz olmaqdan üstündür”.*

*****

*“Dostluq qohumluqdan daha yaxındır”.*

*****

*“Sədəqə vermək* (Allaha) *yaxın olmağın ən üstünüdür”.*

*****

*“İnsanlar bilmədiklərinə düşməndirlər”.*

*****

*“Vəfa kərim insanların xarakteridir”.*

*****

*“Vəfasızlıq qorxaqların adətidir”.*

*****

*“Əməllər niyyətlərin səmərəsidir”.*

*****

*“Sədəqə vermək yaxşılıqların ən üstünüdür”.*

*****

*“Mehribanlıq müvəffəqiyyətlərin açarıdır”.*

*****

*“Müvəffəqiyyət sülhün rəhbəridir”.*

*****

*“Sevindirmək yaxşı işin əvvəlidir”.*

*****

*“Tamah şərrin əvvəlidir”.*

*****

*“Məktub niyyətin tərcüməsidir”.*

*****

*“Əməl niyyətin ünvanıdır”.*

*****

*“Dözümlülük* (vüqar) *helmin nəticəsidir”.*

*****

*“Təvazökarlıq elmin səmərəsidir”.*

*****

*“Ədalət hökmlərin xeyirlisidir”.*

*****

*“Doğruluq sözün ən xeyirlisidir”.*

*****

*“Tamah və xəsislik söyüş qazandırar”.*

*****

*“Səxavət məhəbbət əkir”.*

*****

*“Tamah narahat edən fəqirlikdir”.*

*****

*“Ümidsizlik yaşanan çətinlikdir”.*

*****

*“Təkəbbür böyük şəxsləri alçaldır”.*

*****

*“Təvazökarlıq kiçik şəxsləri yüksəldir”.*

*****

*“Mehribanlıq doğruluğun açarıdır”.*

*****

*“Axmaqlıq söyüşün açarıdır”.*

*****

*“Arzular seçilmiş şəxslərin bəlasıdır”.*

*****

*“Danlaq dostların həyatıdır”.*

*****

*“Hədiyyə məhəbbət gətirər”.*

*****

*“Ölüm gizli düşməndir”.*

*****

*“Dünya məhv olub aradan gedən kölgədir”.*

*****

*“Ölüm Axirətin qapısıdır”.*

*****

*“Bəzənmək cavanların zahiridir”.*

*****

*“Gözəl nəsihətlər qəlblərin həyatıdır”.*

*****

“(Allahı) *Zikr etmək məhbubların öz dostları ilə oturmalarıdır”.*

*****

*“Din tələb edilən şeylərin ən üstünüdür”.*

*****

*“Ağıl tərk edilmiş dostdur”.*

*****

*“Arzu tabe olunmuş düşməndir”.*

*****

*“Ağıllı özü kimisi ilə dost olar”.*

*****

*“Nadan öz şəklinə* (özü kimisinə) *meyl edər”.*

*****

*“Salamatlıq tənhalıqladır”.*

*****

*“Rahatlıq zöhddədir”.*

*****

*“Yaxşılıq həmişəlik izzətdir”.*

*****

*“İnsan yaxşılığın quludur”.*

*****

*“Səbr giriftarçılıqla mübarizə aparır”.*

*****

*“Qorxmaq ziyana uğramağa çox yaxındır”.*

*****

*“Kamillik dünyada itirilmişdir”.*

*****

*“Həsəd xəstəliklərin ən pisidir”.*

*****

*“Yaxşılıq edib səxavət göstərmək etibar və şərəfi qoruyar”.*

*****

*“Ortabablıq azın çoxalmasıdır”.*

*****

*“İsrafçılıq bolluq və bərəkətin fəna edilməsidir”.*

*****

*“Vaxt* (saatlar) *bəlaların pusqusudur”.*

*****

*“Ömür çox qısa bir vaxtda fəna olur”.*

*****

*“Doğruluq əziz və qiymətlidir”.*

*****

*“Yalançı pis işləri görən zəlildir”.*

*****

*“Həya bütün xeyrin açarıdır”.*

*****

*“*(Allahdan) *bağışlanma diləmək günahları məhv edir”.*

*****

*“İsrafçılıq pozğunların təbiətidir”.*

*****

*“Vaxt* (saatlar) *ömrü zorla alır”.*

*****

*“Həddən artıq çox yemək zəka və qavrayışa mane olur”.*

*****

*“Bədgümanlıq ürəyin qeyri-səmimiliyinə səbəb olur”.*

*****

*“Səbr yoxsulluq və ehtiyacın qalxanıdır”.*

*****

*“Özünü sevmək axmaqlığın başıdır”.*

*****

*“Həya ehtiyac və sıxıntıya yaxındır”.*

*****

“(Allaha və Qiyamətə) *Yəqinlik imanın ünvanıdır”.*

*****

*“Hərislik fəqirliyin nişanəsidir”.*

*****

*“Acgözlük şərri tələb etməkdir”.*

*****

*“Doğruluq təqvanın həyatıdır”.*

*****

*“Gizlətmək gizli danışmağın həyatıdır”.*

*****

*“Ədalət şəhadətin ruhudur”.*

*****

*“Fəzilət adətə üstün gəlməkdir”.*

*****

*“Bağışlamaq zəfərin zəkatıdır”.*

*****

*“İsrafçılıq şərrin toxumudur”*

*****

*“Ölüm naqislik deyil”.*

*****

*“Azlıq xarlıq deyil”.*

*****

*“Mürüvvət qənaət və gözəllikdir”.*

*****

*“Təcrübə sona yetməz”.*

*****

*“Həris kifayətlənməz”.*

*****

*“Göz qəlbin ağasıdır”.*

*****

*“Qəm-kədər bədəni incəldir”.*

*****

*“Göz qəlbin poçtudur”.*

*****

*“Fikirləşmək bəsirəti işıqlandırır”.*

*****

*“Xəstəlik bədənin həbsidir”.*

*****

*“Fitnə-fəsad qəm-kədər gətirər”.*

*****

*“Həsəd ruhun həbsidir”.*

*****

*“Tənə vurub qeybət etmək məzəmmət olunmuş və günah işdir”.*

*****

*“Qəm-kədər ruhun xəstəliyidir”.*

*****

*“Dikbaşlıq və sözə baxmamaq ağıla qüsur gətirər”.*

*****

*“Mal-dövlət soyğunçuluq gətirər”.*

*****

*“Mal-dövlət varisin rahatlığıdır”.*

*****

*“Günlər təcrübələri toplamaq üçün faydalıdır”.*

*****

*“Şəfaət tələb edənin qol-qanadıdır”.*

*****

*“Haqq-hesab cəzadan əvvəldir”.*

*****

*“Savab haqq-hesabdan sonradır”.*

*****

*“Zülm neməti əldən alır”.*

*****

*“Möhkəm sevgi mərhəmətin ən yaxınıdır”.*

*****

*“Şükür neməti çoxaldar”.*

*****

*“Ədalət qanunların həyatıdır”.*

*****

*“Doğruluq kəlmənin ruhudur”.*

*****

*“Ədalət şəhadətin xeyridir”.*

*****

*“Səxavət adətin ən şərəflisidir”.*

*****

*“İxlas və səmimiyyət ibadətin səmərəsidir”.*

*****

*“Yəqin zahidliyin ən üstünüdür”.*

*****

*“Qəbir fəqirlikdən daha xeyirlidir”.*

*****

*“İsrarçılıq ümidsizlik gətirər”.*

*****

*“Dünya ziyan bazarıdır”.*

*****

*“Cənnət əmin-amanlıq yeridir”.*

*****

*“Yəqin imanın sütunudur”.*

*****

*“Eşq ehsanın ən yaxşısıdır”.*

*****

*“Müsibətlər mükafatın açarıdır”.*

*****

*“Dünya şərrin əkin sahəsidir”.*

*****

*“Çarə tapmaq fikrin nəticəsidir”.*

*****

*“Dünya ibrət alıb göz yaşı tökənlər üçün məsxərədir”.*

*****

*“Ağıl hər bir işin düzəldənidir”.*

*****

*“Gözlər qəlblərin xəbərçi və əlamətləridir”.*

*****

*“Dikbaşlıq və inadkarlıq müharibənin ortalığa çıxmasıdır”.*

*****

*“Ürək bədənin qoruyanıdır”.*

*****

*“Əməl möminin şüarıdır”.*

*****

*“Dünya möhnətlər diyarıdır”.*

*****

*“Razılıq qəm-kədəri dəf edir”.*

*****

*“Səbr yəqinin səmərəsidir”.*

*****

*“Zöhd dinin səmərəsidir”.*

*****

*“Bəndə qane olan və azaddır”.*

*****

*“Azad* (insan) *istəklərinin quludur”.*

*****

*“Özünübəyənməzlik nadanlığın başıdır”.*

*****

*“Təvazökarlıq alicənabların ünvanıdır”.*

*****

*“Acizlik israfçılığın səbəbidir”.*

*****

*“Cənnət itaətkarların mükafatıdır”.*

*****

*“Dil öz sahibini azdırandır”.*

*****

*“Şərr ona minəni yerə çırpır”.*

*****

*“Qardaşın çətinliklərdə sənin təsəlli verənindir”.*

*****

*“Aldatmaq şeytansifətlərin xarakteridir”.*

*****

*“Kin-kudurət həsəd aparanların təbiətidir”.*

*****

*“İnsan bilmədiklərinə düşməndir”.*

*****

*“İnsan bildiklərinə dostdur”.*

*****

*“Dikbaşlıq ona minənləri yerə çırpır”.*

*****

*“Paxıllıq paxılı rüsvay edər”.*

*****

*“Ağıl heç vaxt aldatmaz”.*

*****

*“Cahil heç vaxt dost olmaz”.*

*****

*“Zülmün aqibəti dağıdıcıdır”.*

*****

*“Hərisliyin sonu xoşa gəlməzdir”.*

*****

*“Üzür istəmək bağışlanmağa səbəb olar”.*

*****

VII FƏSİL

# İMAM ƏLİNİN (Ə) QƏZAVƏTLƏRİ

## *7.1. İMAM ƏLİNİN (Ə) ELMİ ÜSTÜNLÜYÜ*

Peyğəmbər *(s)* buyurmuşdur: *"Mən elmin şəhəri, Əli isə onun qapısıdır"*. Bu barədə İmam Əli *(ə)* özü belə buyurmuşdur: *"Peyğəmbər məni elmin qapısı kimi yad etmişdir, bu qapıların hər birindən min qapı açılır"*. İbn Abbasdan nəql edildiyinə görə, Peyğəmbər *(s)* belə buyurmuşdur: *"Əli bin Əbu Talib mənim ümmətimin ən alim şəxsidir. Məndən sonra mübahisəli məsələlərdə ən biliklisi odur"*.

Süleyman Bəlxi "Yənabiul-məvəddət" kitabında yazır: "Peyğəmbər *(s)* buyurmuşdur: *"Elm və hikmət on hissəyə bölünmüşdür. Onun doqquzu Əliyə, bir hissəsi isə qalan xalqa əta olunmuşdur. Əli həmin bir hissə elmdə də başqalarından alimdir"*.

Peyğəmbərlər *(ə)* və onların vəsilərinə aid olan bir elm də var. Bu elm "lədunni" - ilham olunmuş elm adlanır. Bu elm Allah tərəfindən peyğəmbərlərə *(ə)* və onların canişinlərinə ilham olunur. Bu adamlar Allahın izni ilə keçmişdə baş vermiş və gələcəkdə baş verəcək hadisələrdən xəbər tutarlar. İmam Əli *(ə)* belə buyurmuşdur: *"Məndən qeybin sirləri haqqında soruşun. Mən peyğəmbərlərin və mürsəllərin varisiyəm"*.[1294]

İbn Əbil-Hədid "Nəhcül-bəlağə"ni şərh edərkən deyir: "İslam elmləri külli şəkildə Həzrət Əlidən *(ə)* qaynaqlanmışdır. O Həzrət *(ə)* İslam maarifini öz nitqlərində aşkar və dəqiq şəkildə bəyan etmişdir".

İmam Əli *(ə)* bir neçə elmlərin banisidir. Həmin elmlərdən biri təfsir elmidir. Bu elmdə hər nə varsa, İmamdandır *(ə)*. Təfsirin əsas kökləri İmam Əlidən *(ə)* və Abdullah bin Abbasdan nəql edilib. Abdullah bin Abbas da öz növbəsində o Həzrətin *(ə)* şagirdidir. İbn Abbasa sual edilib: "Sənin elminin miqdarı əmin oğlu Əlinin *(ə)* elmi ilə müqayisədə nə qədərdir?" O, belə cavab verib: "Sahilsiz dənizə düşən yağışın bir damcısı qədər".

Elmlərdən biri ərəb dilinin kökləri və sintaksisidir. Hamı bilir ki, ərəb dilinin qaydalarını Həzrət Əli *(ə)* açıqlayıb və onları Əbul Əsvəd Duəliyə diktə edib. O Həzrətin *(ə)* Quranı qiraət etməsi və Müqəddəs kitabla məşğul olmasını bütün İslam firqələri yekdilliklə təsdiq edirlər. Qiraət elminin başçılarından olmuş Əbu Əmr bin Əla, Asim bin Əbu Nəcud və başqalarının qiraəti Əbu Əbdürrəhman Sulənudən götürülüb. O, isə İmam Əlinin *(ə)* şagirdi olub, Quranı İmamdan *(ə)* öyrənib. Süleyman bin İbrahim Qunduzinin "Yənabiul-məvəddət" kitabında və Cəlaləddin Suyutinin "əd-Durrul

[1294] İbn Məğazi, Mənaqib, səh. 80.

Mənsur" əsərində "əl-Fatihə" surəsinin birinci ayəsi olan ***"Bismillahir-rəhmanir-rəhim"***in bəyanında İmam Əlinin *(ə)* adından belə buyurulur: *"Bilin ki, bütün səmavi kitabların sirləri Quranda, Quranda olan bütün sirlər "Fatihə"də, "Fatihə"də olan bütün sirlər **"Bismillah"**dadır. **"Bismillah"**dakı bütün sirlər ondakı **"bə"** hərfində, **"bə"**də olan sirlər də onun altındakı nöqtədədir. Mən isə **"bə"**nin altındakı nöqtəyəm"*.

İmam Əli *(ə)* yaranış sirləri haqqında danışmaq, çətin elmi məsələləri açıqlamaq üçün elm əhli axtarırdı. İmam *(ə)* öz köksünə işarə ilə buyurardı: *"Mənim sinəmdə elmin coşqun dəryası təlatümdədir. Əfsus ki, kimsədə bunu dərk etmək istedadı yoxdur!"*[1295]

Alimlər və tarixçilər yazırlar ki, İmam Əli *(ə)* buyurmuşdur: *"Nə qədər ki, aranızdayam, məndən soruşun. And olsun Allaha, əgər fətva kürsüsündə otursam, Tövrat əhlilə Tövratla, İncil əhlilə İncillə, Zəbur əhlilə Zəburla, Quran əhlilə də Quranla mühakimə aparıram! Əgər Allah o kitabları dilə gətirsə, onlar deyərlər ki, Əli düz deyir, o, bizə əsaslanaraq fətva verdi. Nə qədər ki, aranızdayam məndən soruşun. And olsun toxumu cücərdənə və insanı yaradana, əgər məndən Quranın ayələrini bir-bir soruşsanız onların nazil olma vaxtı, nazil olma səbəbləri haqqında danışar, nəsx olmuş, möhkəm və mütəşabeh ayələri haqqında məlumat verərəm!"*

İmam Əli *(ə)* müxtəlif elm sahələrinə aid on bir min qısa kəlamın müəllifidir. Bu kəlamlarda əqli, dini, ictimai və əxlaqi məsələlər bəyan olunmuşdur.

İmam Əli *(ə)* İslamda İlahi fəlsəfə məsələlərini açıqlayan ilk şəxsdir. İmam *(ə)* aydın və dərin dəlillərlə müxtəlif mövzuları sübuta yetirmişdir.

İmam Əlinin *(ə)* iti ağlı elm sahiblərini heyran edərdi. Bir gün Ömər dedi: "Ya Əli, sənin elmi, hüquqi və fiqhi məsələləri bilməyin məni təəccübə gətirir! Ya Əli, bütün məsələlərlə bağlı suallara dərhal cavab verməyin heyranedicidir!" İmam *(ə)* onun cavabında belə buyurdu: *"Ey Ömər, əlində neçə barmağın var?"* Ömər ərz etdi: "Beş". İmam Əli *(ə)* buyurdu: *"Sən nə üçün bu sualın cavabında düşünmədin?"* Ömər ərz etdi: "Bu, aşkar bir məsələdir və düşünməyə ehtiyac yoxdur". İmam *(ə)* buyurdu: *"Sənin üçün beş barmaq necə aydındırsa, mənim üçün də bütün elmi məsələlər eləcə aydındır"*.

---

[1295] İslamda-şiə, səh. 20.

## *7.2. ALLAHIN YEGANƏLİYİ BARƏDƏ İMAM ƏLİNİN (Ə) QƏZAVƏTLƏRİ*

Cəməl müharibəsində İmam Əli *(ə)* müharibə işlərini nizamlamaqla məşğul olarkən çöl ərəblərindən biri qalxıb dedi: "Ya Əli *(ə)*! Allahın yeganə olduğunu deyirsənmi?" Bu zaman camaat hər tərəfdən ona etiraz edib dedi: "Görmürsən ki, Əli *(ə)* hansı vəziyyətdədir, fikri qarışıqdır?!" İmam *(ə)* onlara buyurdu: *"Onunla işiniz olmasın, bizim düşməndən istədiyimiz şeyləri elə bu ərəb soruşdu"*. Sonra ərəbə buyurdu: *"Allaha yeganəlik nisbəti verilməsi dörd qisimdir: Onun ikisi rəvadır, ikisi isə rəva deyildir. Rəva olmayanların biri ikinin müqabilində olan biri - I nəzərdə tutmaqdır. Rəva olmamasının səbəbi də budur ki, Allaha iki yoxdur. Ədədlər bölməsində "iki"-si olmayan bir ədədlərin sırasına daxil olmur və ona bir deyilmir. Rəva olmayan digər qismi isə "bir" deyib cinsdən olan bir növü nəzərdə tutmaqdır. Bu da rəva deyildir. Çünki, bu Onun məxluqata oxşadılmasıdır. Halbuki, Allah belə şeylərdən pakdır. Allah barəsində rəva olan iki qismin birincisi budur ki, Allaha yeganəlik nisbəti verməklə Onun məxluqatda, əşyalarda oxşar və mislinin olmaması nəzərdə tutulsun. Digəri də "Allahın əhədiyyul-məna olmasıdır" - məqsəd vücudda, təfəkkürdə və xəyalda bölgüyə məruz qalmamasıdır. Bizim Pərvərdigarımız belədir!"*[1296]

## *7.3. ALLAHIN NİŞANƏSİ*

Bir nəfər Həzrət Əlinin *(ə)* yanına gəlib dedi: "Ya Əmirəl-möminin *(ə)*! Allahı nə ilə tanıdın?" O Həzrət *(ə)* buyurdu: *"Mənim əzm və qərarlarımı pozması ilə. Mən bir iş görməyə dair iradə və əzm etdim, maneələr və qəzavüqədər onunla məqsədlərim arasında fasilə salaraq onun həyata keçməsinə mane oldu. Başa düşdüm ki, bu işi tədbir edən və onun axırını fikirləşən başqa bir kəsdir"*.

Həmin şəxs yenidən soruşdu: "Hansı səbəbə görə, Allaha həmd edirsən?" Həzrət Əli *(ə)* buyurdu: *"Məndən necə böyük bəlaları dəf etdiyini, həmçinin başqalarına bəlalar varid etdiyini gördükdə başa düşdüm ki, O, mənə minnət qoymuşdur. Mən də Ona şükür etdim"*.

Həmin şəxs yenə soruşdu: "Nəyə görə Onunla görüşəcəyinə bu qədər şövq bəsləyirsən?"

[1296] Şeyx Səduq, Tövhid, III bab, hədis 2.

O Həzrət *(ə)* buyurdu: *“Öz mələkləri və peyğəmbərlərinin ayinini mənimlə seçdiyini, neməti mənimlə tamamladığını gördükdə bildim ki, məni bu qədər əzizləyən Allah heç vaxt məni unutmaz. Buna görə də Onunla görüşə müştaq oldum”.*[1297]

## 7.4. RAMAZAN AYINDA ŞƏRAB İÇMƏYİN CƏZASI

Şair Nəcaşi Ramazan ayının gündüzündə şərab içmişdi. Onu İmam Əlinin *(ə)* yanına gətirdilər. İmam *(ə)* ona səksən şallaq vurdu, gecə həbs etdi, sübh çağı da çağırıb yenidən iyirmi şallaq vurdu. Nəcaşi dedi: “Ya Əmirəlmöminin *(ə)*! Mənə vurduğun səksən şallaq şərab içməyimə görə idi. Bəs iyirmi şallaq nə üçündür?” İmam Əli *(ə)* buyurdu: *“Ramazan ayına hörmətsizlik etdiyinə və etinasız yanaşdığına görə”.*

## 7.5. ƏDALƏTLİ BÖLGÜ

İki nəfər birlikdə səfərə gedir. Yemək vaxtı gəlib çatanda onlardan biri süfrəyə beş, digəri isə üç çörək qoyur. Bu zaman onların yanından keçən bir nəfəri də yeməyə dəvət edirlər. Hər üçü birlikdə çörəkləri yeyib qurtarırlar. Yoldan ötən üçüncü şəxs qayıtmaq istəyəndə yediyi çörəklərin əvəzində səkkiz dirhəm verir. Pulu bölüşdürmək istəyəndə onların arasında münaqişə yaranır. Üç çörək sahibi beş çörək sahibinə deyir: “Dirhəmləri yarıbayarı bölməliyik”. Beş çörək sahibi isə deyir: “Bu, ədalətli bölgü deyildir. Süfrəyə qoyduğumuz çörəklərə mütənasib olaraq mənə beş dirhəm, sənə üç dirhəm çatmalıdır”. Lakin o birisi razılaşmır. Nəhayət, məsələni Həzrət Əliyə *(ə)* deyirlər. O Həzrət *(ə)* buyurur: *“Gedin bir-birinizlə razılaşın. Bu kimi əhəmiyyətsiz məsələ barəsində bu qədər ixtilaf etməyin”.* Onlar deyirlər: “Hər halda, siz haqqı bizim üçün bəyan edin!” Həzrət Əli *(ə)* dirhəmləri götürüb yeddi dirhəmi beş çörək sahibinə, bir dirhəmi isə üç çörək sahibinə verir və buyurur: *“Məgər sizin hər biriniz iki çörək və çörəyin üçdə-ikisi qədər yeməmisinizmi?”* Onlar “bəli” deyə cavab verdilər. O Həzrət *(ə)* buyurur: *“Deməli, yoldan keçən şəxsin yediyi çörəyin yeddidə üç hissəsi beş çörək sahibinin, üçdə bir hissəsi isə üç çörək sahibinindir. Pullar da bu əsasda bölüşdürülməlidir”.*

---

[1297] Şeyx Səduq, Tövhid, 41-ci bab, hədis 6.

## *7.6. DƏVƏLƏRİN BÖLGÜSÜ*

Üç nəfər on yeddi dəvənin bölüşdürülməsində ixtilafa düşürlər. Birincisi onların yarısını, ikincisi üçdə-birini, üçüncüsü isə doqquzda-birini iddia edir və hər hansı yolla olursa-olsun kəsir qalmamaq şərtilə bölmək istəyirlər. Lakin bunu həyata keçirə bilmədikdə İmam Əlini *(ə)* məsələdən agah edirlər. İmam *(ə)* onlara buyurur: *"İstəməzsinizmi ki, mən öz malımda olan bir dəvəni onlara əlavə edim və onları sizin aranızda bölüm?"* Onlar razı olduqdan sonra İmam Əli *(ə)* bir dəvəni də əlavə edir və onların sayı on səkkiz olur. Bundan sonra İmam *(ə)* onların ikidə-birini birinciyə, üçdə-birini ikinciyə və doqquzda-birini üçüncüyə verir. Qalan bir dəvəni də özünə götürür.

## *7.7. ATMOSFER HAQQINDA*

Həzrət Əli *(ə)* Siffin müharibəsinə getmək istəyəndə asimanların və Yerin necə yaradılmasını, dağların necə inşa edilməsini göstərən bu duanı tilavət etdi: *"Pərvərdigara! Ey uca asimanların Pərvərdigarı! Yayılmaqdan qorunub saxlanan cəvvin* (atmosferin) *Pərvərdigarı! Sən onu* (cəvvi) *gecə və gündüzün gəlib-getmə yeri qərar vermisən"*.[1298]

Şəhristani "Əl-heyətu vəl-İslam" kitabında belə qeyd edir: "Bu duada *"cəvvin məkfuf"* - dedikdə məqsəd budur ki, Yeri əhatə edən hava təbəqəsi özü-özlüyündə pərakəndə olmağı tələb və yayılmağa səy etdiyindən onları müəyyən bir yerdə saxlamaq Allahın qüdrət nişanələrindəndir". Eləcə də *"əlləzi cəəltuhu muğizən lilləyli vən-nəhar"* cümləsinin şərhində belə deyir: "Muğiz" kəlməsi suyu udan və onu özünə cəzb edən Yer mənasındadır. Sanki o Həzrət *(ə)* (istiarə şəklində) gündüzü nur, gecəni isə qaranlıq mənasında bəyan etmiş və belə buyurmuşdur: *"Pərvərdigara! Sən işığı və zülməti hava qatlarında - cəvvdə batırmısan və nurun cəvvdə batması nəticəsində gündüz əmələ gəlir"*. O Həzrət *(ə)* belə fərz etmişdir ki, hava həm nuru, həm də zülməti udur. Hazırda uzun əsrlər keçdikdən sonra astronomlar spektroskop cihazının vasitəsilə kəşf etmişlər ki, atmosfer qatı öz tələbinə uyğun olaraq Günəş şüalarının müəyyən miqdarını udur, qalanını isə bizim üçün buraxır. Bu elmi kəşf fizikada onlar üçün minlərlə elm və sirri açmışdır. Lakin elm şəhərinin qapısı Həzrət Əlidir *(ə)*. Peyğəmbərdən *(s)* nəql olunan səhih

[1298] Nəhcül-bəlağə, xütbə 166.

rəvayətlərə əsasən, Rəsulullah *(s)* Həzrət Əliyə *(ə)* min elm babı öyrətmişdir ki, hər birindən də yenidən min elm babı açılır. Bəlkə də o Həzrətin *(ə)* bu möcüzəli kəlamı həmin elm bablarından biridir ki, mühəqqiqlər və alimlər ondan minlərlə məsələni öyrənirlər. Allaha and olsun! Fəlsəfə fənlərini dərindən mənimsəmiş hər bir kəs o Həzrətin *(ə)* nurani kəlamlarına diqqət yetirsə, onun üçün hikmət və elm çeşmələri axmağa başlayır və Həzrət Əli *(ə)* barəsində deyilən *"Əlinin kəlamı Xaliqin kəlamından aşağı, məxluqun kəlamından isə yuxarıdır"* - deyənlərin sözünün doğruluğunu dərk edər".

## *7.8. YERİN HƏRƏKƏTİ*

İmam Əli *(ə)* "Nəhcül-bəlağə" əsərinin 202-ci xütbəsində dağların yaradılmasının hikməti barəsində buyurur: *"Yer özünün malik olduğu hərəkətlərlə birlikdə - özünün yumşaq və o əşyaların ağır olmasına görə - öz əhlini iztiraba salmadan, yaxud onları udmadan, yaxud da öz mövqelərindən* (orbitindən) *kənara atmadan sakin oldu".*

"Əl-heyətu vəl-İslam" kitabında belə qeyd olunur: "Xütbənin bu iki cümləsi Yerin Günəş ətrafında fırlanma hərəkətinə dair iki aydın dəlildir. Halbuki, birinci cümlədəki *"əla"* kəlməsi *"məə"* mənasındadır! *"Ov təsixə bihəmliha"* cümləsinin mənası budur ki, Yer üzərində ağır dağların mövcud olması onun öz əhlini udmasının qarşısını alır". *"Ov təzulə ən məvazüha"* cümləsinin izahında qeyd belə olunur: "Bu kəlamın zahiri Yerin öz orbiti ətrafında müxtəlif hərəkətlərə malik olduğunu göstərir. Çünki, son əsrin alimlərinin inancına görə, Yer müxtəlif hərəkətlərə malikdir ki, onların hamısı da on ikilik təşkil edən bürclərin qarşısında müəyyən orbitə malikdir. Buna əsasən, *"əla hərəkatiha"* cümləsi Günəş ətrafında illik fırlanma hərəkəti ilə özünə düzgün məna alır. Dağlar və onların kölgələri yerin daxili quruluşunun qorunub saxlanmasına kömək edir, onların parçalanıb dağılmasının, Yerin özünəməxsus orbitində olan xüsusi mövqeyindən çıxmasının qarşısını alır. Bu cümləyə əsasən, İmam *(ə)* Yer üçün müəyyən mövqelər bəyan edir. Aydındır ki, bu hikmətli kəlam Yerin mərkəziyyətinə və sükunətdə olmasına inanan qədim heyətə (astronomiyaya) əsasən, doğru sayılmazdı. Çünki, sükunətdə olan bir şeyin çoxlu orbitləri yox, yalnız bir orbiti və mövqeyi ola bilər".

## *7.9. YERİN HƏRƏKƏTLƏRİ*

Həzrət Əli *(ə)* "Nəhcül-bəlağə"nin 90-cı xütbəsində buyurur: *"Və əddələ hərəkatiha birrasiyati min cəlamidiha - Allah yerin hərəkətlərini dağların və ağır cisimlərin vasitəsi ilə mötədil vəziyyətə salır"*.

Şəhristani bu cümlənin şərhində deyir: "Bu kəlamın zahiri mənası budur ki, ağır dağlar Yerin, müxtəlif hərəkətlər səbəbi ilə titrəyişlərə düşməsinin, eləcə də cazibə və dafiə qüvvələrinin bir-biri ilə çarpışması nəticəsində öz mötədilliyini itirməsinin qarşısını alır". Şəhristani sonra əlavə edərək belə deyir: "Bizim əsrimizin alimləri Yer üçün müxtəlif hərəkətlər olduğuna inanırlar ki, onların ən məşhuru beş hərəkətdir. Fransa alimi Feliks Verne Yerin on bir hərəkətə malik olduğunu demişdir. Mən onların səkkizini burada qeyd edirəm:

1. Gecə-gündüzdə mehvəri (öz oxu ətrafındakı) hərəkət;
2. Yerin Günəş ətrafındakı illik hərəkəti;
3. İqbali hərəkət;
4. Yer kürəsinin həziz və ovc nöqtəsinin hərəkəti;
5. Payızda və yazdakı etidal təqdim hərəkəti;
6. Ayın irtiaşi (titrəşimli) hərəkəti;
7. Günəşin irtiaşi (titrəşimli) hərəkəti;
8. Təbi hərəkət.[1299]

## *7.10. AY, GÜNƏŞ VƏ FƏLƏK*

İmam Əli *(ə)* "Əşbah" xütbəsində Günəşin və Ayın yaradılışının hikməti barəsində buyurur: *"Allah asimandakı Günəşi gündüzün aydınlıq gətirən bir nişanəsi, Ayı da* (gecədəki zülmətli qaranlığı aradan aparmaq üçün) *kəmrəng bir nur qərar verdi"*.[1300]

İmam Cəfər Sadiq *(ə)* Müfəzzələ buyurdu: *"Ey Müfəzzəl! Günəşin gecə-gündüzü əmələ gətirməsi üçün doğub-batması barədə yaxşı fikirləş. Əgər Günəş saçmasaydı, aləmin bütün işləri batil və əbəs olar, insanlar kəsb-ticarətlə məşğul ola, işgüzar fəaliyyət edərək özlərinin məişət-həyat ehtiyaclarını təmin edə bilməzdilər, dünya başdan-başa zülmətə qərq olardı. İnsanlar nurun şəfa və gözəlliyindən istifadə etmədiklərinə görə həyatdan ləzzət almazdılar. Bu məsələ hamıya gün kimi aydındır. İndi Günəşin qürub etməsində də diqqətlə fikirləş: əgər bu iş olmasaydı, insanların bədənlərinin*

[1299] Əl-heyətu vəl-islam, səh. 83.
[1300] Biharul-ənvar, III cild, səh. 112-113.

*istirahətə olan şiddətli ehtiyacı aradan qalxmaz, bədənlərinin yorğunluğunu almaq, qüvvələrini yeniləşdirmək, həzm orqanlarını gücləndirmək, qidanı həzm etmək və həzm olunduqdan sonra da bədən üzvlərinə çatdırılması üçün asudəliyi, asayişi və rahatlığı olmazdı. Bundan əlavə, Yer Günəşin ardıcıl saçması nəticəsində şiddətlə qızar, onun üzərində olan heyvanlar və bitkilər məhv olub aradan gedərdi"*. Nəhayət, İmam Sadiq *(ə)* buyurdu: *"Qaranlıq gecədə Ayın saçmasında dərindən fikirləş və bunun ardınca gələn mənfəətləri gözlərin önündə canlandır. O cümlədən, insanlar Yeri əkib-şumlamaq, ağac kəsmək və s. kimi bəzi işləri və məşğələləri vaxtın azlığı, günün qızmar olması və sair səbəblərə görə gündüz görə bilmədiyi işləri gecələr görürlər. Eləcə də, Allah Ayın saçmasını gecədə, işığını da Günəşin işığından az qərar verdi ki, gecənin yaranması üçün nəzərdə tutulan hikmət qorunub saxlansın. Xüsusilə, Ayın təsərrüfündə* (vəziyyətin dəyişməsində)*, hilallarında, muhaqında, artıb-azalmasında və tutulmasında insanlar üçün Allah qüdrətinə dair qəflət yuxusundan bir növ ayıltma vardır. Belə ki, dünya işlərinin islah olunması* (sahmana salınıb tənzim edilməsi) *məqsədi ilə ona belə təsərrüflər vermişdir. Onda elə dəlalətlər vardır ki,* (yalnız) *ibrət əhli ondan ibrət alarlar"*.

## *7.11. NÜCUM (ASTRONOMİYA) ÖYRƏNMƏK*

Mərhum Seyid Rəzi "Nəhcül-bəlağə"nin 76-cı xütbəsində belə qeyd edir: "Həzrət Əli *(ə)* xəvariclərlə müharibəyə gedəndə o Həzrətin *(ə)* dostlarından biri gəlib dedi: "Ulduzlar vəziyyəti pis göstərir. Sənin üçün bu vaxt hərəkət etməyindən qorxuram. Əgər bu gün hərəkət etsən, öz məqsədinə çataraq düşmənə qələbə çala bilməzsən!" Həzrət Əli *(ə)* onu tənbeh edərək buyurdu: *"Yoxsa sən güman edirsən ki, yaxşı və pisi bilirsən və nəticədə camaatı yaxşılıqlara və pisliklərə doğru hidayət edirsən? Hər kəs bu puç təsəvvüründə səni təsdiq etsə, Quranı təkzib etmiş olar, istənilən şeylərə çatmaq və xoşagəlməz şeyləri dəf etmək yolunda Allahdan kömək istəməkdən ehtiyacsız olar! Yaxşı olar ki, sənin sözünə əməl edənlər Allaha yox, sənə həmd-səna edələr! Çünki, onları yaxşılıqlara və xoşluqlara çatdıran sənsən, onları xəsarətlərdən və ziyanlardan sən amanda saxlamısan!"* Sonra o Həzrət *(ə)* camaata üz tutub buyurdu: *"Nücumu belə məqsədlər üçün öyrənməkdən həzər edin! Onu yalnız quru və dərya yollarında istifadə etmək üçün öyrənin. Çünki, bundan qeyri hallarda onun öyrənilməsi insanı kahinliyə tərəf çəkir. Münəccim kahin kimidir, kahin də sehrkar kimidir, sehrkar da*

*kafir kimidir, kafir də Cəhənnəm odundadır”.* Sonra Həzrət Əli *(ə)* buyurdu: *“Ey insanlar! Allahın adı ilə məqsədə doğru hərəkət edin!”*

Həzrət Əlinin *(ə)*, eləcə də məsum Əhli-Beytin *(ə)* sözlərindən məlum olur ki, ulduzlar bəzi hadisələr və fenomenlər üçün əlamətdir, onlar müəyyən hadisələrin baş verməsində heç də müstəqil olaraq təsirli deyildirlər. Əlbəttə, onların pis təsirlərini sədəqə vermək, dua etmək və Allaha yalvarmaqla aradan qaldırmaq olar. Belə ki, İbn Əsbat İmam Sadiqin *(ə)* belə dediyini nəql edir: *“Mən münəccim bir şəxslə bir torpaq sahəsində şərik idim. O, torpaq sahəsini bölməyi təxirə saldı, öz gümanına əsasən, yaxşı bir saatda xaric oldu və məni pis bir saatda çölə apardı ki, yaxşı pay ona düşsün. Sonra onun gümanı ilə belə bir saatda xaric olduq və yeri böldük. Təsadüfən torpağın yaxşı hissəsi mənə qismət oldu. Münəccim heyrətlə başına vurub deyirdi: “Mən indiyə qədər belə bir gün görməmişəm! Mən münəcciməm, səni pis saatda, özümü isə yaxşı saatda çıxartmışam. İndi görürəm ki, torpağın yaxşı hissəsi sənə qismət oldu!”* İmam Sadiq *(ə)* ona buyurdu: *“İndi sənin üçün bir hədis nəql edim. Atam Peyğəmbərin (s) belə buyurduğunu rəvayət edir: “Hər kəs Allahın gündüz pisliklərini ondan uzaqlaşdırmasını istəyirsə, günün əvvəlində fəqirlərə sədəqə versin. Hər kəs Allahın gecə pisliklərini ondan uzaqlaşdırmasını istəyirsə, gecənin əvvəlində sədəqə versin”. Mən evdən çıxmaq istəyəndə sədəqə verdim. Bil ki, mənim bu hədisim sənin münəccimliyindən qat-qat yaxşı və faydalıdır”.*[1301]

Bəli, əgər Allah bir kəsin barəsində müəyyən bir şeyi təqdir edibsə, münəccimin xəbər verməsi o xətərin özündən dəf etməsi üçün gördüyü tədbirlər ona heç bir fayda və müsbət nəticə verməyəcəkdir. Bu xüsusda Firon və Nəmrudun hadisəsini qeyd edirik: Fironun xüsusi münəccimləri ona xəbər vermişdilər ki, Bəni-İsraildə dünyaya gələcək bir körpə sənin taxt-tacını məhv edəcəkdir. Firon bu təhlükənin qarşısını almaq üçün günahsız körpələrin başını kəsir, cinayətdə ifrata varırdı. Lakin görəsən, kim və hansı düşüncə Allahın qüdrətli tədbirinin qarşısını ala bilər? Elə oldu ki, ona vədə verilən yeganə düşməni onun öz evində böyüyüb boya-başa çatdı: **“**(...Suyun üzündə bir sandığın üzdüyünü görən Firon xidmətçilərə onu tutub gətirməyi əmr etdi)**. *Fironun adamları axırda özlərinə düşmən kəsiləcək və başlarına bəla olacaq Musanı*** (içində olduğu sandıqla birlikdə) ***götürüb gəldilər. Həqiqətən, Firon, Haman və onların əsgərləri*** (küfr etdiklərinə, məsum uşaqları öldürdüklərinə görə) ***günahkar idilər”.***[1302]

Tarixdə bu xüsusda çoxlu qəribə hadisələr qeyd olunmuşdur, lakin onların hamısını burada qeyd etmək mümkün deyildir.

---

[1301] Vəsailuş-şiə, VI cild, 12-ci bab; Əbrabu sədəqə, hədis 1.
[1302] “əl-Qəsəs”, 8.

## *7.12. TƏBABƏT VƏ SAĞLAMLIQ*

İmam Əlinin *(ə)* tiblə, təbabətlə və insan sağlamlığıyla əlaqədar da qiymətli kəlamları var. Mövzu ilə əlaqədar aşağıda onlardan bəzilərini qeyd edirik:

*"Əl-elmu elmani: elmul-ədyan və elmul-əbdan - Elm iki cürdür: Din elmi və bədən elmi* (yəni tibb)*".*

*"Balıq əti yeməyə müqavimət etməyin. Çünki, bu bədəni zəiflədib arıqladır".*[1303]

*"Qızmar havada qoz yemək bədəndaxili hərarəti qaldırır, bədəndə çiban əmələ gətirir. Onu qışda yemək böyrəkləri isidir və soyuqluğu dəf edir"*;

*"Müsəlman hər vaxt zəif olsa, ət və süd yesin"*;

*"Bənövşə yeməklə qızdırmanın hərarətini aşağı salın"*;

*"Axşam yeməyi yeməmək bədənin zəifləməsinə və xarab olmasına səbəb olur"*;

*"İnək südü dərmandır"*;

*"İnəyin piyi dərd-bəla gətirən, onun* (südündən alınan) *yağı və südü isə şəfa bəxş edəndir"*;

*"Hər kəs günün əvvəlində iyirmi bir dənə kişmiş yesə, heç vaxt xəstə olmaz"*;

*"Alma yeyin, bu bədəni cilalayır"*;

*"Armud yemək zəif qəlbi güclü, mədəni də pakizə edər"*;

*"Sətər* (mərzə, kəklikotu) *mədə üçün kürk olur, dəsmalın kürkləri kimi"*;

*"Hamamda arxası üstə uzanmayın. Çünki, bu iş böyrəklərin piyini əridir. Ayaqlarınızın dərisini kuzə ilə qaşımayın. Çünki, bu, cüzam damarlarını təhrik edir"*;

*"Yeməkdən qabaq azacıq duz yeyin. Əgər insanlar duzun xasiyyətini* (xeyrini) *bilsəydilər onu sınaqdan keçirilmiş təryakdan* (zəhərin qarşısını alan maddədən) *önə salardılar"*;

*"Təxəlli vaxtı çox oturmaq babasil yaradır"*;

*"Vəziləri ətin içindən çıxardın. Çünki, onları yemək cüzam damarını təhrik edər"*;

*"Günəşin qarşısında* (həddindən artıq) *qalmayın. Çünki, sizin bədəninizin dərisini dəyişər, lilası çürüdər və gizli xəstəlikləri süstləşdirər"*;

---

[1303] Fürui-kafi, Kitabul-ətimə, Səmək babı, hədis 5.

*"Rəngarəng və növbənöv yeməklər yemək qarını böyüdər, xayaları süstləşdirər";*[1304]

İmam Sadiq *(ə)* qabaq dişləri düşdüyünə görə düzgün danışa bilməyən qoca bir kişiyə buyurdu: *"Çox tirid* (sulu yemək) *yemək ye. O, çox yaxşıdır. Yağlı yeməkdən də uzaq ol. Çünki, bu, qocalıqla uyğun gəlməz".*

## *7.13. SƏRF VƏ NƏHV (MORFOLOGİYA VƏ SİNTAKSİS)*

Əbul Əsvəd Duəli deyir: "Bir gün Həzrət Əlinin *(ə)* hüzuruna getdim. O Həzrətin *(ə)* dərin fikrə daldığını gördükdə soruşdum: "Ya Əmirəl-möminin *(ə)*! Nə barədə fikirləşirsiniz?" Həzrət Əli *(ə)* buyurdu: *"Sizin lüğətinizdə səhvlər və xətalar görmüşəm. Bu barədə müəyyən qayda-qanunlar düzəltmək istəyirəm ki, həmin səhvləri bərpa etsin".* Dedim: "Əgər belə etsəniz, bizi diriltmiş olarsınız. Bu lüğət də bizim aramızda qalar". Bir neçə gün sonra o Həzrətin *(ə)* yanına getdim. Üzərində aşağıdakı kəlmələr yazılmış bir vərəqi mənim qarşıma qoydu: ***"Bismillahir-rəhmanir-rəhim****. Bütün kəlmələr ya isimdir, ya feldir, ya da hərf. İsim odur ki, öz müsəmmasını aydınlaşdırsın. Fel odur ki, müsəmmanın hərəkətini göstərsin, hərfin də elə mənaları vardır ki, nə isimdir, nə də fel".* Sonra Həzrət Əli *(ə)* mənə buyurdu: *"Bu barədə dəqiq axtarış aparıb nəzərinə çarpanları onlara artır. Bil ki, başqa baxımdan da kəlmələr üç cürdür: 1. Zahir* (adi isim)*, 2. Zəmir* (əvəzlik)*, 3. Nə zahir, nə də zəmir olmayanlar".*

Əbul Əsvəd deyir: "Bir qədər ədəbi mətləbi toplayıb Həzrə Əlinin *(ə)* hüzuruna apardım. Onlardan biri də kəlməyə nəsb verən (felə oxşayan) hərflər idi: "İnnə", "ənnə", "leytə", "ləəllə", "kəənnə". Lakin "lakinnə" kəlməsini qeyd etməmişdim. O Həzrət *(ə)* mənə buyurdu: *"Nə üçün "lakinnə"ni onların biri kimi qeyd etməmisən?"* Dedim: "Mənə belə gəlir ki, "lakinnə" onlardan deyildir". Həzrət Əli *(ə)* buyurdu: *"Xeyr, onlardandır. Onu da yaz".*

Nəhv alimlərindən olan Zəccac qeyd olunan qaydalara belə misal gətirir: "Zahir dedikdə "rəcul" (kişi), "Zeyd", "Əmr" və s. kimi kəlmələrdir. Zəmir dedikdə "ənə" (mən), "əntə" (sən) və "fəəltə" kəlməsindəki "ta" və xitab kafi: məsələn, sovbukə və s-dir. Amma nə zahir, nə də zəmir olmayanlar mübhəm kəlmələrdir. "Haza", "hazihi", "ta" (bunlar ismi işarədir); "mən" (o kəs ki...), "ma" (o şey ki...), "əlləzi" (o kəs ki...), ey (bunlar mosul isimlərdir); "kəm" (nə qədər), "məta" (harada), "əynə" (harada) (sual isimləridir) və s.".[1305]

[1304] Fürui-kafi, VI cild, hədis 1, 2, 4, 5, 8, 11, 19.
[1305] Möcəmul-ubadə, XIV cild, səh. 48.

## *7.14. LÜĞƏTŞÜNASLIQ*

Bir nəfər Əbu Bəkrdən ***"və fakihətən və əbba"*** ayəsinin tərcüməsini soruşdu, lakin o, ***"əbb"*** sözünün mənasını bilmədi və dedi: "Hansı asiman mənə kölgə salsın, hansı Yer məni üzərində götürsün, axı mən nə edim?! Əgər Allahın Kitabı barəsində bir söz desəm, özümün də inanmadığım bir söz demiş olaram. Mən ***"fakihə"***nin mənasını bilirəm. Lakin ***"əbb"***in mənasını Allah daha yaxşı bilər!"

İmam Əli *(ə)* bu sözlərdən agah olduqda buyurdu: *"Sübhanəllah! Məgər o bilmir ki,* ***"əbb"*** *kəlməsi çoxlu otu-ələfi olan otlaq mənasındadır?! Allah bu şərif ayədə insanları özlərinə və onların heyvanlarına əta etdiyi nemətləri sadalamaq istəyir. Belə ki, onları həmin nemətlərin vasitəsi ilə qidalandırır, həyatlarına sabitlik və möhkəmlik bağışlayır"*.[1306]

Həmçinin, Əbu Bəkrdən ***"kəlalə"*** sözü barəsində soruşduqda, dedi: "Bu barədə öz nəzərimi deyirəm. Əgər düzgün olsa, Allahdandır, əgər səhv olsa, Şeytandan və özümdəndir". Bu sözlər İmam Əliyə *(ə)* çatdıqda İmam *(ə)* buyurdu: *"Özünün ehtimal nəzəriyyəsini işlətməsi necə də yersizdir! Məgər bilmir ki,* ***"kəlalə"*** *kəlməsi ata-anadan bir olan bacı-qardaşlar, həmçinin təkcə ata tərəfdən və təkcə ana tərəfdən olan bacı-qardaşlar mənasına gəlib?! Belə ki, Allah buyurur:* **"**(Ya Muhəmməd!) ***Səndən fətva istəyirlər. De: "Atası və övladı olmayan şəxs*** (şəxsin mirası) ***haqqında Allah sizə belə fətva verir: Övladı*** (və atası) ***olmayan bir şəxs vəfat etdikdə onun*** (atabir-anabir və ya yalnız atabir) ***bir bacısı varsa, qoyub getdiyi malın yarısı bacıya çatır. Övladı*** (və atası) ***olmayan bir qadın vəfat etdikdə qardaşı onun varisidir*** (malın hamısı onun payına düşür)***. Əgər vəfat edən şəxsin iki*** (və ya daha artıq) ***bacısı varsa, mirasın üçdə ikisi onlara çatır. Əgər varislər qardaş və bacılardan*** (bir qardaş, bir bacı və ya bir neçə bacı-qardaşdan) ***ibarət olarsa, kişiyə*** (qardaşa) ***qadına*** (bacıya) ***düşən payın iki misli verilir". Allah bunu sizə doğru yoldan çıxmamağınız üçün aydınlaşdırır. Allah hər şeyi biləndir"***.[1307]

Bu ayədə "bacı" dedikdə məqsəd həm ata-anadan, həm də təkcə ata tərəfdən olan bir bacıdır. Çünki, fəqihlərin nəzərinə əsasən, bacı o zaman tərəkənin (mirasın) yarısını irs aparır ki, (ölən şəxslə) ya ata-ana tərəfdən, ya da yalnız ata tərəfdən bir olsun. Bu barədə Qurani-Kərimdə buyurulur:

---

[1306] Şeyx Müfid, İrşad, səh. 107.
[1307] "ən-Nisa", 176.

***“Allah övladlarınız haqqında sizə tövsiyə buyurur ki, oğula iki qız hissəsi qədər pay düşür. Əgər*** (ölən şəxsin) ***qızlarının sayı ikidən artıqdırsa, mirasın üçdə iki hissəsi onlara çatır. Əgər təkcə bir nəfər qızdırsa, mirasın yarısı onundur. Övladı olduğu təqdirdə vəfat edənin ata və anasının hər birinə mirasın altıda bir hissəsi verilir. Əgər onun övladı olmayıb, varisi yalnız ata və anadan ibarətdirsə,*** (malın) ***üçdə bir hissəsi anaya aiddir.*** (Qalan hissə tamamilə ataya çatır)***. Əgər ölmüş şəxsin qardaşları və bacıları varsa, ananın hissəsi altıda birdir.*** (Yerdə qalan hissə yenə atanın payına düşür)***. Bu bölgü ölən şəxsin vəsiyyəti yerinə yetirildikdən və ya borcu ödənildikdən sonra aparılır. Valideynlərinizdən və övladlarınızdan hansı birinin*** (xeyir və) ***mənfəət cəhətdən sizə daha yaxın olduğunu bilmədiyiniz üçün bu*** (bölgü) ***Allah tərəfindən müəyyən edilmişdir. Həqiqətən, Allah*** (hər şeyi) ***biləndir, hikmət sahibidir!”***[1308]

İmamiyyə fəqihlərinin fikir birliyinə əsasən, ana tərəfdən bir olan bacı və qardaşa tək olduqda irsdən altıda bir, çox olduqda isə üçdə bir qədər verilir.[1309] Deməli, Qurani-Kərimdəki ***“kəlalə”*** sözü aşkar şəkildə ya ata-ana tərəfdən, ya da yalnız ata, yaxud ana tərəfdən bir olan bacı-qardaş barəsində işlədilir. Şəxsi rəy də o zaman işlədilir ki, bu barədə şəri bir dəlil olmasın. Buna görə də İmam Əli *(ə)* buyurdu: *“Özünün ehtimal nəzəriyyəsini işlətməsi necə də yersizdir!”*

Əbu Bəkr ***“əbb”*** və ***“kəlalə”*** sözlərinin mənasını bilmədiyi kimi “biz” kəlməsinin də mənasını bilməmişdir. “Tarixi-Təbəri” də qeyd olunur: “Əzruat” günündə romalılarla farslar arasında “ədnəl-əz”də (Samın, yaxud Ərəbistan yarımadasının ətrafında) müharibə baş verdi və romalılar məğlubiyyətə uğradılar. Bu xəbər Peyğəmbərə *(s)* və Məkkədə olan səhabələrə çatdıqda çox qəmgin oldular. Çünki, kafir məcusilərin kitab əhlindən olan romalılara qalib gəlməsi Peyğəmbər *(s)* üçün xoşagələn deyildi. Digər tərəfdən, Məkkə kafirləri bu hadisədən sevinərək müsəlmanlara tənə vurub deyirdilər: “Məcusilər sizin kitab əhlindən olan qardaşlarınıza qalib gəldilər. Əgər siz də bizimlə müharibə etsəniz, sizə qalib gələcəyik!” Bundan sonra bu ayələr nazil oldu: ***“Rumlular*** (bizanslılar iranlılara) ***məğlub oldular”***; ***“***(Ərəbistana) ***ən yaxın bir yerdə*** (Şamda və ya Urdunda)***. Lakin onlar*** (bu) ***məğlubiyyətlərindən sonra qalib gələcəklər”***; ***“Bir neçə ilin içində (üç illə doqquz, yaxud on il arasında). Əvvəl də, sonra da hökm Allahındır. O gün möminlər sevinəcəklər”***.[1310] Bu zaman Əbu Bəkr kafirlərə tərəf ge-

[1308] “ən-Nisa”, 11.
[1309] Şeyx Müfid, İrşad, səh. 107-108.
[1310] “ər-Rum”, 2-4.

dərək dedi: "Bu hadisədən çox da sevinməyin. Allah bizim Rəsulumuza xəbər veribdir ki, əlbəttə, romalılar farslara qalib gələcəklər". Müşriklərdən olan Ubeyy bin Xələf ayağa qalxıb "sən yalançısan!" - deyə Əbu Bəkrin sözünü təkzib etdi. Əbu Bəkr ona dedi: "Ey Allahın düşməni! Sən məndən də yalaçısan! İndi səninlə şərt etməyə hazıram: mən on dəvə gətirərəm, sən də on dəvə gətir. Əgər üç il müddətində farslar romalılara qələbə çalsalar, dəvələr sənin olsun. Əgər romalılar farslara qalib gəlsələr, dəvələr mənim olsun". Ubeyy bin Xələf bu şərtlə razılaşdı. Sonra Əbu Bəkr Peyğəmbərin *(s)* yanına gəlib hadisəni bəyan etdikdə Rəsulullah *(s)* buyurdu: *"Gərək belə deməyəydin. Çünki, "biz" kəlməsinin mənası üç ildən on ilə qədər müddəti əhatə edir. İndi get, həm malın miqdarını, həm də müddəti artır"*. Əbu Bəkr gəlib Ubeyylə görüşdükdə Ubeyy dedi: "Deyəsən, peşman olmusan?!" Əbu Bəkr dedi: "Xeyr. Həm malın miqdarını, həm də bu müddəti artırıram. Malı yüz dəvə qərar ver, müddəti isə doqquz il". Ubeyy də bunu qəbul etdi.[1311]

## *7.15. FƏSAHƏT VƏ BƏLAĞƏT*

Həzrət Əli *(ə)* bir dəfə əlifi olmayan, bir dəfə də nöqtəsi olmayan, lakin çox dəyərli və yüksək məzmunlu moizələri əhatə edən xütbə buyurmuşdur. Halbuki, əlif hərfi ərəb dilinin tərkib kəlmələrində başqa hərflərlə nisbətən daha çox işlənir. Eləcə də ərəb ədəbiyyatında nöqtəli hərflərin işlənməsi çox zəruri və lazımdır. Qeyd olunanlardan məlum olur ki, Həzrət Əli *(ə)* bütün ərəb dili ədəbiyyatının ixtiraçısı olmuşdur. Deyirlər ki, nəinki bir elmi özündən ixtira edənlər, hətta müəyyən bir mətləbi deməkdə başqalarından qabağa keçənlər belə, imtiyazlı hesab olunur!

## *7.16. BƏSRƏ DİYARI*

Mərhum Seyyid Rəzi "Nəhcül-bəlağə"də qeyd edir ki, İmam Əli *(ə)* Bəsrə əhlini məzəmmət edərək buyurdu: *"Sizin torpağınız suya yaxın, Asimandan uzaqdır"*.[1312]

İbn Əbil Hədid birinci cümlənin təfsirində demişdir ki, Bəsrənin yeri dəryanın suyuna çox yaxın olduğuna görə Fars körfəzinin sularının tüğyan

[1311] Tarixi-Təbəri, I cild, səh. 594.
[1312] Nəhcül-bəlağə, 13-cü xütbə.

etməsi nəticəsində iki dəfə - birincisi əl-Qadir Billahın, ikincisi isə əl-Qaim Biəmrillahın dövründə suya qərq olmuşdur. İmamın *(ə)* qeybdən verdiyi xəbərlərdən biri kimi bunu qeyd edirik: *"Bəsrə şəhəri qərq olacaq, onun məscidi gəminin göyərtəsi kimi qalxacaqdır"*. Elə İmam Əlinin *(ə)* buyurduğu kimi də olmuşdur. İbn Əbil Hədid sonra qeyd edir ki, Bəsrənin asimandan uzaq olmasının mənası budur ki, rəsədxana və astronomik vasitələrlə məlum edildiyi kimi, Yer üzərində nisfun-nəhar dairəsindən ən uzaqda olan abad nöqtə Bəsrə nahiyəsində yerləşən Əblə diyarıdır. Sonra deyir: "Bu dəqiq və incə mətləbləri yalnız Əmirəl-möminin Əli *(ə)* bəyan edə bilər. Çünki, İmam *(ə)* elə məsələlərdən xəbər vermişdir ki, ərəblər ümumiyyətlə, o barədə məlumatsız olmuşlar, tədqiqatçılar və alimlərdən başqa bir kəs də onu dərk edə bilməzdi. Bu da İmam Əlinin *(ə)* bədii və sirli elm xəzinəsini göstərir".[1313]

## *7.17. BEYTÜL-MALIN BÖLÜŞDÜRÜLMƏSİ*

Həzrət Əli *(ə)* Cəməl müharibəsində düşmələrə qalib gəldikdən sonra özünün mühacir və ənsardan olan köməkçiləri ilə Bəsrədəki beytul-mal saxlanan anbara daxil oldu, dinar və dirhəmlərin kənarında dayanıb onlara xitabən buyurdu: *"Ey ağ dirhəmlər! Ey sarı qızıllar! Məndən başqasını aldadın!"* Bir neçə an sükut etdikdən sonra dostlarına buyurdu: *"Bunları mənim səhabələrimin və mənimlə birgə olanların arasında 500-500 bölüşdürün"*. Bu göstərişi icra etdikdən sonra bir dirhəm belə, az gəlmir. Halbuki, o Həzrətin *(ə)* köməkçilərinin sayı on iki min nəfər idi.[1314] Aydındır ki, bu hadisə o zaman bu fəsildən hesab olunar ki, altı milyona qədər olan sikkələrin miqdarı Həzrət Əliyə *(ə)* məlum olsun. Əks halda, o Həzrətin *(ə)* möcüzəli və qeybi xəbərlindən hesab olunmalıdır.

Bunun oxşarını Sərvi "Mənaqib" kitabında belə qeyd edir: "Həzrət Əli *(ə)* xilafətinin əvvəllərində Mədinədə minbərə çıxıb öz köməkçilərinə və dostlarına xitabən belə buyurdu: *"Cərgələrin arasında gəzin və camaata deyin: bir kəs mənim xilafətimdən narazıdırmı?"* Bu zaman camaatın səsi ucaldı, hamı bir səslə dedi: "Pərvərdigara! Biz Sənin Peyğəmbərindən *(s)* və onun əmisi oğlundan razıyıq, onun fərmanını cani-dildən qəbul edirik!" O Həzrət *(ə)* Əmmara buyurdu: *"Ey Əmmar, qalx ayağa! Beytul-malın saxlandığı yerin qapısına və hər tərəfə üç dinar* (qızıl pul) *ver. Mənim üçün də*

[1313] Nəhcül-bəlağənin şərhi, I cild, səh. 89.
[1314] Murucuz-zəhəb, II cild, səh. 371.

*üç dinar gətir"*. Həzrət Əli *(ə)* də minbərdən enərək Quba məscidinə yollandı. Orada namaz qılıb dua etməyə başladı. Əmmar öz yoldaşları ilə beytul-mala daxil olduqda orada üç yüz min dinar olduğunu gördülər. Camaatın da sayı elə yüz min nəfər idi (hər adama üç dinar düşürdü). Bu zaman Əmmar orada olanlara dedi: "Allaha and olsun! O Həzrət *(ə)* nə camaatın sayını bilirdi, nə də dinarların miqdarını. Bunun özü də onun haqq olmağına bir sübutdur. Sizə vacibdir ki, onun əmrlərinə itaət edəsiniz". Onların içində Təlhə bin Ubeydullah və Zübeyr bin Əvvam dinarı almaqdan imtina etdilər.

## *7.18. TÖVHİD VƏ ƏDLİN MƏNASI*

İmam Əlidən *(ə)* tövhid və ədlin mənası barədə soruşduqda buyurdu: *"Tövhid odur ki, Allahı öz nəzərində təcəssüm etdirməyəsən. Çünki, insanın zehni yalnız məhdud şeyləri təsəvvür edir. Halbuki, onlar məxluqat növündəndir. Ədalət də odur ki, Allahı zülm etməklə müttəhim etməyəsən"*.[1315]

## *7.19. QİYAMƏTDƏ CƏNNƏTİN YERİ*

Üç yəhudi Kəb bin Əşrəf, Malik bin Seyfi və Həyy bin Əxtab Ömərin yanına gəlib dedilər: "Sizin Quranınızda deyilir: ***"Və Cənnətin ərzuhəssəmavati vəl-ərz – Rəbbinizin məğfirətinə və genişliyi göylərlə Yer üzü qədər olan, müttəqilər üçün hazırlanmış Cənnətə tələsin"***[1316] Əgər Qiyamətdə bir Cənnət bütün yeddi Səmanı və yeddi Yeri əhatə etsə, onda sair cənnətlər harada olcaq?" Ömər "bilmirəm" - deyə cavab verdi. Bu zaman Həzrət Əli *(ə)* gəlib onlara buyurdu: *"Deyin görüm, gecə olanda gündüz hara gedir?"* Dedilər: "Allah bilir". O Həzrət *(ə)* buyurdu: *"Elə cənnətlərin yerini də Allah bilir"*. Sonra Həzrət Əli *(ə)* Peyğəmbərin *(s)* yanına gəlib hadisəni Rəsulullaha *(s)* danışdı. Bu zaman bu ayə nazil oldu: **"**(Ya Rəsulum!) ***Biz səndən əvvəl də özlərinə vəhy etdiyimiz kişilərdən başqasını peyğəmbər göndərmədik. Əgər*** (bunu) ***bilmirsinizsə, zikr*** (kitab, elm) ***əhlindən soruşun!..."***.[1317]

---

[1315] Nəhcül-bəlağə, 462-ci hikmət.
[1316] "Ali-İmran", 133.
[1317] "ən-Nəhl", 43.

## *7.20. QƏZAVÜ-QƏDƏR*

Bir gün İmam Əli *(ə)* başqa bir divara tərəf meyl edən və uçmaq ərəfəsində olan bir divarın yanından keçirdi. Bu zaman həmin divarı görüb öz yolunu dəyişdi və başqa tərəfdən getməyə başladı. Bunu görən bir kişi soruşdu: "Ya Əmirəl-möminin *(ə)*! Allahın qəzasından qaçırsan?!" İmam *(ə)* buyurdu: *"Allahın qəzasından qədərinə qaçıram...* (Yəni, bu əməl Allahın qəzasından qaçmaq üçün deyildi, əksinə dini vəzifə bunu tələb edirdi)*"*.[1318]

Həccac bin Yusuf öz dövrünün alimlərindən bir neçəsinə - Həsən Bəsriyə, Əmr bin Ubeydə, Vasil bin Ətaya və Amil Şəbiyə məktub yazdı ki, qəzavü-qədər barəsində öz nəzərlərini yazıb göndərsinlər. Həsən Bəsri cavab yazdı: "Bu barədə bizə çatan ən yaxşı söz İmam Əlinin *(ə)* sözüdür ki, buyurur: *"Səni puç edən yeganə şey sənin yuxarın və aşağındır* (övrətlə ağıza işarədir). *Allah da bu kimi şeylərdən bizardır"*. Əmr bin Ubeyd cavabını belə yazdı: "Qəza və qədər barəsində eşitdiyim ən yaxşı şey Əli bin Əbu Talibin sözüdür ki, buyurur: *"Əgər günah və məsiyət insanın öz ixtiyarı ilə olmasaydı ona cinayətkar şəxsin barəsində qisas hökmü yersiz və o, qisas hökmündə məzlum olardı"*. Vasil bin Əta da öz cavabını yazdı: "Bu barədə eşitdiyim ən gözəl söz İmam Əlinin *(ə)* sözüdür ki, buyurur: *"Mümkün ola bilərmi ki, sənin ixtiyarın olmadan Allah səni düz yola hidayət etsin və yenidən Onun Özü səni azdırsın?!"* Şəbi bin Amil isə belə yazdı: "Qəzavü-qədər barəsində ən gözəl kəlam Əli bin Əbu Talibin sözüdür ki, buyurur: *"Hər əməldən ki, tövbə edib Allah tərəfinə qayıdırsan, o əməl sənin özündəndir və hər əməl ki, onun şükrünü yerinə yetirmək üçün Allaha həmd-səna deyirsən, o, Allah tərəfindəndir"*. Bu məktublar Həccac bin Yusuf əs-Səqəfiyə çatdıqda onları oxuyub dedi: "Bu kəlamlar, əlbəttə ki, zülal çeşməsindən əxz olunmuşdur".

## *7.21. XƏLİFƏ ÖMƏR BİN XƏTTAB İMAM ƏLİYƏ (Ə) İŞARƏ EDİR*

Xəlifə Ömər bin Xəttab xilafəti dövründə bir gün Məscidul-Həramda idi, bir neçə nəfər də onun ətrafında dayanmışdı. Bir cavan yəhudi onun yanına gəlib dedi: "Məni Allah, peyğəmbər və Allahın Kitabı barəsində ən bilikli olan şəxsə tərəf göndər". Xəlifə Ömər əli ilə Həzrət Əliyə *(ə)* işarə

---

[1318] Nəhcül-bəlağənin şərhi, IV cild, səh. 546.

etdi. Cavan o Həzrətə *(ə)* yaxınlaşdı və öz suallarını dedi: "Ya Əli! Mənə Yer üzündə bitən ilk ağacdan, Yer üzündə çıxan ilk çeşmədən və Yer üzündə qərarlaşan ilk daşdan xəbər ver". Həzrət Əli *(ə)* buyurdu: *"İlk ağac barədə soruşduğun sualına cavabında yəhudilər deyirlər ki, o, zeytun ağacıdır, lakin onlar düz demirlər. İlk ağac bir növ xurma idi ki, Adəm onu Behiştdən gətirmiş və Yerdə əkmişdi. Yer üzərindəki bütün xurma ağacları da ondan əmələ gəlmişdir. İlk çeşmə barəsində olan sualına gəldikdə yəhudilər deyirlər ki, o, Beytul-müqəddəsdə bir daşın altındadır, lakin yalan deyirlər. İlk çeşmə həyat* (dirilik) *suyu idi ki, hər kəs ondan içsəydi, əbədi həyata nail olardı. Zülqərneynin qabağınca gedən Xızır onu tapıb suyundan içmişdi. Lakin Zülqərneyn onu tapa bilməmişdi. Üçüncü sualın cavabında isə yəhudilər deyirlər ki, Beytul-müqəddəsdə olan bir daşdır, lakin belə deyildir. İlk daş Həcərül-əsvəddir ki, Adəm onu özü ilə Behiştdən gətirib Rükmə qoymuşdur. Camaat onu ziyarət edir. O əvvəllər qardan da ağ idi, lakin insanların günahları sayəsində belə qaralmışdır".*

## *7.22. HƏR TƏRƏF ALLAHIN ÜZÜDÜR*

Peyğəmbərin *(s)* vəfatından sonra məsihi alimlərinin böyüyü yüz nəfərlə birlikdə Mədinəyə gəlib Əbu Bəkrdən müəyyən suallar soruşdu. Əbu Bəkr o suallara cavab verə bilmədi və onları İmam Əlinin *(ə)* yanına göndərdi. Onlar da İmamın *(ə)* yanına gələn kimi öz suallarını dedilər və qaneedici cavablar aldılar. Burada onların suallarının birini qeyd edirik. Məsihi alimi soruşdu: "Ya Əli! De görək Allahın üzü (vəchullah) hansı tərəfdədir?" İmam Əli *(ə)* bir qədər odun yığıb yandırdı və məsihi aliminə buyurdu: *"Bu odun üzü hansı tərəfədir?"* Məsihi dedi: "Hər tərəfi onun üzüdür". İmam *(ə)* buyurdu: *"Allahın yaratdıqlarından biri olan bu odun müəyyən bir üzü olmadığı halda, onu Yaradanın necə üzü ola bilər? Halbuki odun Allaha heç bir oxşarlığı yoxdur və Onunla əsla müqayisə olunası deyildir!* Sonra buyurdu: ***"Şərq də, Qərb də Allahındır: hansı tərəfə yönəlsəniz*** (üz tutsanız) ***Allah oradadır. Şübhəsiz ki, Allah*** (Öz mərhəməti ilə) ***genişdir,*** (O, hər şeyi) ***biləndir!"***[1319]

[1319] "əl-Bəqərə", 115.

## *7.23. SƏN BİZİM AXTARDIĞIMIZ ADAMSAN*

İki yəhudi alimi Peyğəmbərə *(s)* çox məhəbbət və hörmət bəsləyir, əksər hallarda Rəsulullahın *(s)* yanına gəlib sözlərinə qulaq asırdılar. Peyğəmbərin *(s)* vəfatından sonra vaxtaşırı Rəsulullahın *(s)* canişini barəsində soruşub deyirdilər: “Elə bir peyğəmbər olmayıb ki, dünyadan getdikdə öz Əhlibeytindən və onlarla yaxın qohumluğu olan, yüksək məqam və mənzilətə sahib olan, onun gətirdiyi qayda-qanunları və proqramları ümməti arasında bərqərar edən bir şəxsi öz yerinə təyin etməmiş olsun”. Bir gün onlardan biri digərinə dedi: “Sən bu Peyğəmbərin (Həzrət Muhəmməd *(s)* özündən sonra təyin etdiyi xəlifəni tanıyırsanmı”: Digəri dedi: “Xeyr. Lakin mən Tövratda onun əlamət və nişanələrini oxumuşam. Onun alın tərəfdən başı tüksüz və sarıdır, camaat içərisində Peyğəmbərə (Həzrət Muhəmmədə *(s)* ən yaxın adamdır”. Yəhudi alimlər Mədinəyə gəlib Peyğəmbərin *(s)* canişinini axtardıqda onları Xəlifə Əbu Bəkrin yanına apardılar. Onlardan biri digərinə dedi: “Bu bizim axtardığımız adam deyil”. Sonra Əbu Bəkrdən soruşdular: “Sənin Peyğəmbərlə nə qohumluğun var?” Əbu Bəkr dedi: “Mən onun qəbiləsindənəm, qızım Aişə də onun zövcəsidir”. Dedilər: “Bundan başqa qohumluğun varmı?” Əbu Bəkr “xeyr” - deyə cavab verdi. Dedilər: “Bizi elə bir şəxsin yanına göndər ki, səndən daha bilikli olsun. Çünki, biz bu Peyğəmbərin canişini üçün Tövratda oxuduğumuz nişanələri səndə görmürük”. Əbu Bəkr bu sözləri eşitdikdə çox qəzəbləndi, sonra onları Ömərin yanına göndərdi. Çünki, bilirdi ki, əgər onlar Ömərlə müxalifət etsələr Ömər buna dözməyərək onları cəzalandıracaq. Onlar Ömərin yanına gəlib soruşdular: “Sənin Peyğəmbərlə nə kimi qohumluğun var?” Ömər dedi: “Mən onun qəbiləsindənəm, qızım Həfsə də onun zövcəsidir”. Dedilər: “Bundan başqa da qohumluğunuz varmı?” Ömər “xeyr” - deyə cavab verdi. Dedilər: “Sən bizim axtardığımız adam deyilsən”. Sonra soruşdular: “Sənin Pərvərdigarın haradadır?” Ömər dedi: “Yeddi Asimanın yuxarısında”. Dedilər: “Ayrı yerdə yoxdurmu?” Ömər dedi: “Yox!” Dedilər: “Bizi elə bir adamın yanına göndər ki, səndən daha bilikli olsun”. Ömər onları Həzrət Əlinin *(ə)* yanına göndərdi. Yəhudu alimlər o Həzrətin *(ə)* hüzuruna çatdıqları zaman ilk baxışda bir-birinə dedilər: “Bu şəxs nişanələrini Tövratda oxuduğumuz şəxsdir, Peyğəmbərin xəlifəsi və canişinidir, Həsənlə Hüseynin atasıdır, Peyğəmbərin qızının əridir. O həmin şəxsdir ki, haqq ona bağlıdır”. Sonra Həzrət Əlidən *(ə)* soruşdular: “Səninlə Peyğəmbərin

nə kimi qohumluğu var?" O Həzrət *(ə)* buyurdu: *"Peyğəmbər mənim qardaşım, mən də onun vəsisi və canişiniyəm. Ona iman gətirən ilk adamam, onun qızı Fatimənin əriyəm"*. Dedilər: "Bu çox iftixarlı, böyük bir qohumluqdur, bizim Tövratda oxuduğumuz nişanə ilə eynidir". Sonra soruşdular: "Sənin Pərvərdigarın haradadır?" Həzrət Əli *(ə)* buyurdu: *"Əgər istəsəniz, sizə o şeylərdən xəbər verərəm ki, sizin Peyğəmbəriniz Musanın dövründə baş vermişdi və bu da sizin çətinliyinizi həll edər. Əgər istəsəniz, sizi bizim Peyğəmbərimiz Muhəmmədin dövründə baş verən hadisələrdən agah edərəm ki, sizin sualınıza cavab olar"*. Dedilər: "Bizə öz Peyğəmbərimiz Musanın dövründə baş verən hadisələrdən xəbər ver". O Həzrət *(ə)* buyurdu: *"Dünyanın hər bir tərəfindən bir mələk olmaqla dörd mələk gəlib bir-birinə çatdılar. Biri Şərqdən, biri Qərbdən, biri Asimandan, dördüncüsü isə Yerdən. Şərqdən gələn mələk Qərbdən gələn mələyə buyurdu: "Haradan gəlirsən?" O mələk ərz etdi: "Pərvərdigarımın yanından". Şərqdən gələn mələk o biri mələyə də buyurdu: "Sən haradan gəlirsən?" O da "Pərvərdigarımın yanından" - deyə cavab verdi. Asimandan gələn mələk Yerdən gələn mələyə buyurdu: "Haradan gəlirsən?" O da "Pərvərdigarın yanından" - deyə cavab verdi. Yerdən gələn mələk də Göydən gələn mələkdən soruşdu: "Haradan gəlirsən?" O da "Pərvərdigarımın yanından" - deyə cavab verdi. Bu, sizin Peyğəmbəriniz Musanın dövründə baş verən bir hadisə idi ki, sizin də sualınıza cavabdır, yəni Allah hər bir yerdə mövcuddur. Amma bizim Peyğəmbərin dövründə baş verən hadisə söyləyəcəyim bu Quran ayəsidir:* **"**(Ya Peyğəmbər!) ***Məgər görmürsənmi ki, Allah göylərdə və Yerdə nə varsa,*** (hamısını) ***bilir. Aralarında gizli söhbət gedən üç adamın dördüncüsü, beş adamın altıncısı Odur. Onlar bundan az da, çox da olsalar və harada olsalar,*** (Allah) ***yenə onların yanındadır. Sonra Qiyamət günü*** (Allah) ***onlara etdikləri əməlləri*** (bir-bir) ***xəbər verəcəkdir. Allah hər şeyi biləndir!"***[1320] Yəhudilər dedilər: "Ya Əli! Nə oldu ki, sənin iki dostun olan Əbu Bəkrlə Ömər səni sənə məxsus olan bu məqamdan çəkindirdilər?! Tövratı Musaya nazil edən Allaha and olsun ki, sən haqq xəlifəsən! Biz sənin xüsusiyyət və nişanələrini öz kitablarımızda oxumuşuq, öz məbədlərimizdə görmüşük. Sən bu məqama, hazırda onda olanlardan daha artıq layiqsən". Həzrət Əli *(ə)* buyurdu: *"Onlar irəli keçdilər və başqalarını arxada qoydular. Onların hesab-kitabı Allahın öhdəsindədir. Allah Qiyamət günü onları saxlayaraq sorğu-suala çəkəcəkdir"*.

---

[1320] "əl-Mucadələ", 7.

## *7.24. RUHUN MƏNASI*

Qeysər bir neçə dini və elmi sualları əhatə edən məktub yazıb Xəlifə Ömər bin Xəttaba göndərdi. Lakin Xəlifə Ömər sualların cavabını verə bilməyib İmam Əlidən *(ə)* kömək istədi. Xəlifə Ömər İmamın *(ə)* verdiyi cavabarı bir məktuba yazaraq göndərdi. Qeysər məktubu alıb oxuduqdan sonra cavab verənin İmam Əli *(ə)* olduğunu başa düşdü. Buna görə də İmama *(ə)* belə bir məzmunda məktub yazdı: "Sənin verdiyin cavablardan agah oldum və bildim ki, sən risalət xanədanındansan, elm və şücaətlə zinətlənmisən. İndi mənim üçün Quranda buyurulan **"**(Ya Rəsulum!) ***Səndən ruh*** (ruhun mahiyyəti və keyfiyyəti) ***haqqında soruşarlar. De: "Ruh Rəbbimin əmrindəndir.*** (Allahın əmri ilə yaradılmışdır)**.** ***Sizə*** (bu barədə) ***yalnız cüzi*** (az) ***bir bilik verilmişdir!"***[1321] ayəsindəki ***"ruh"***un mənasını izah et". İmam Əli *(ə)* cavab olaraq belə yazdı: *"Amma bəd. Ruh lətif bir nöqtə, şərif bir nur, Allahın insanı heyrana gətirən əsrarəngiz varlıqlarındandır. Ruhu Allah Özünün dəyərli xəzinələrindən çıxartmış, onu insanın daxilində və zatında qərar vermişdir. Ruh səninlə Allah arasında rabitə vasitəsi, Allah tərəfindən sənə həvalə olunmuş bir əmanətdir. Hər vaxt əcəlin çatsa, ruhu səndən alacaqdır".*

## *7.25. ŞAHİD GƏTİRİLMƏSİ MÜMKÜN OLMAYAN HALLAR*

Bir nəfər böyük bir sümük parçasını başqasının qulağına çırpdı. Bu zaman vurulan şəxs zərbə nəticəsində eşitmə qabiliyyətini itirdiyini iddia etdi. Həzrət Əli *(ə)* buyurdu: *"Bir il ərzində onu nəzarət altında saxlayın və bəzən ona qəflətən bir şey deyin. Əgər eşitməsi sübuta yetərsə, yaxud iki adil buna şəhadət verərsə, diyə ala bilməz, əks halda eşitməməyinə dair and içərək qulağının diyəsini almalıdır"*. Bəziləri dedilər: "Ya Əmirəl-möminin *(ə)*! Əgər karlığından bir il keçdikdən sonra onun eşitməsi sübut olunarsa, hökmü nədir?" O Həzrət *(ə)* buyurdu: *"Bunun heç bir təsiri yoxdur. Ola bilsin ki, Allah eşitmə qabiliyyətini bir ildən sonra yenidən ona mərhəmət etsin"*.[1322] İmam Rzanın *(ə)* Həzrət Əlidən *(ə)* nəql etdiyi rəvayətin davamında buyurulur: *"Əgər iddia olunan şey bütün eşitmə duyğularının əldən verilməsi olarsa... ağır yuxuya gedənə qədər bir müddət gözləyər və bu zaman onun üstünə çığırarlar"*.[1323]

---

[1321] "əl-İsra", 85.
[1322] Fürui-kafi, VII cild, səh. 322, hədis 3.
[1323] Fürui-kafi, VII cild, səh. 324, hədis 9.

## *7.26. GÖRMƏ, İYBİLMƏ VƏ DANIŞIQ QABİLİYYƏTİNİN YOXLANMASI*

İmam Əlidən *(ə)* soruşurlar: "Bir nəfər başqasının başına zərbə vurmuşdur, vurulan iddia edir ki, görmə, iybilmə və danışıq qabiliyyətini itirmişdir. Bunun cəzası nədir?" İmam *(ə)* buyurdu: *"Əgər o, düz deyirsə, ona üç diyə verilməlidir"*. Soruşdular: "Bunu necə bilmək olar?" İmam Əli *(ə)* buyurdu: *"İybilmə qabiliyyətini belə yoxlamaq: yarıyanmış vəziyyətdə olan bir parçanı onun burnunun altına qoyarlar, əgər o şəxs yerində dayanıb hərəkət etmirsə, düz demişdir, əgər başını uzaqlaşdırsa və gözlərindən yaş axsa, yalan demişdir. Görmə qabiliyyətini belə yoxlamaq olar: gözlərini Günəşin altında açıq saxlayın, əgər ixtiyarsız olaraq gözlərini qırpsa, yalan demişdir, əks halda düz demişdir. Danışıq qabiliyyətini də belə yoxlamaq olar: dilinə bir iynə batırsınlar, əgər qırmızı qan çıxsa, yalan demişdir, əgər qara qan çıxsa, düz demişdir"*.[1324]

## *7.27. GÖRMƏ QABİLİYYƏTİNİN ZƏİFLİYİ*

Bir nəfər başqasının gözünə zərbə vurmuş, nəticədə onun görmə qabiliyyəti zəifləmişdir, lakin gözünün quruluşuna xəsarət dəyməmişdir. Həzrət Əli *(ə)* yoxlamaq üçün bir parça ilə onun sağlam gözünü bağladı, bir nəfərə də göstəriş verdi ki, yumurtanı eyibli gözünün müqabilində tutub yavaş-yavaş ondan aralansın. Nəhayət, müəyyən qədər aralandıqda vurulan şəxs iddia etdi ki, onu görmür. Həmin nöqtəyə işarə qoyub sağlam gözünü də həmin qaydada yoxladı. Sonra bu iki məsafənin arasındakı fərqi aydınlaşdırdı və həmin miqdarda ona cinayət ərşi verdi.[1325] Bu xəbərin zahiri mübhəmsiz deyildir və Müaviyə bin Əmmarın İmam Sadiqdən *(ə)* nəql etdiyi bir rəvayəti mülahizə etdikdə aydın olur ki, Həzrət Əli *(ə)* bu kimi hadisələrdə buyurur: *"Əvvəlcə şəxsin bir gözünü parça ilə bağlayın və yumurtanı o biri gözünün qarşısında saxlayıb görməyəcəyi miqdarda uzaqlaşdırın. Sonra həmin nöqtəni müəyyən edib, qalan üç tərəfdən də həmin gözün görmə qabiliyyətini nişanlayın, daha sonra onları bir-biri ilə müqayisə edin. Əgər onların arasında heç bir fərq olmazsa, iddiasında doğrudur. Digər gözünün görmə qabiliyyətini də həmin qaydada yoxlayın, sonra iki gözün görmə qabiliyyəti arasındakı fərqi müəyyənləşdirin. Həmin miqdarda ona cinayət ərşi verin"*.

---
[1324] Fürui-kafi, VII cild, səh. 323, hədis 7.
[1325] Fürui-kafi, VII cild, səh. 323, hədis 7.

## *7.28. HƏR İKİ GÖZÜN ZƏİFLİYİ*

Bir nəfərin başına zərbə vurmuşdular. O, İmam Əlinin *(ə)* yanına gəlib bu zərbə nəticəsində hər iki gözünün zəiflədiyini iddia etdi. İmam *(ə)* onu bir yerdə oturtdu, bir yumurta ilə görmə qabiliyyətini dörd tərəfdən yoxladı, hər dörd tərəf də bərabər olduğu halda onun iddiasında düzgün olduğunu bildi və qəbul etdi. Sonra onunla eyni yaşda olan bir kişini çağırıb onun yanında oturtdu. Əvvəlcə onun gözünün görmə qabiliyyətini yoxladı, sonra iki məsafənin fərqini təyin etdi və vurulan şəxsə həmin miqdarda diyə verdi.[1326]

## *7.29. LAL ADAMIN AND İÇDİRİLMƏSİ*

Həzrət Əlidən *(ə)* lal adamın necə and içdirilməsi haqda soruşduqda buyurdu: *“And olsun o Allaha ki, camaatın ehtiyaclarının hamısını aradan qaldırmayınca, məni dünyadan aparmadı!”* Sonra buyurdu: *“Mənim üçün bir Quran gətirin!”* Quranı gətirdilər. O Həzrət *(ə)* lal şəxsə üz tutub buyurdu: *“Bu nədir?”* Lal kişi başını göyə qaldırıb Quran (səmavi Kitab) olduğunu başa saldı. Həzrət Əli *(ə)* buyurdu: *“Onun qəyyumunu bura çağırın!”* Qardaşını gətirdilər. O Həzrət *(ə)* gətirilən kişini lal qardaşının kənarında oturtdu və buyurdu: *“Ey Qənbər! Mənim üçün qələm-kağız gətir”*. Qənbər qələm-kağız gətirdi. Həzrət Əli *(ə)* lal kişinin qardaşına buyurdu: *“Qardaşına de ki, səninlə düşmənin arasında qazi Əlidir”*. O kişi məsələni qardaşına başa saldı. O Həzrət *(ə)* lalın boynundan vizrü-vəbalı götürən bir dua yazdı və onu suya salıb buyurdu ki, bu suyu içsin. Lakin lal kişi suyu içməkdən imtina etdi. Bu zaman Həzrət Əli *(ə)* onu öz borcunu qaytarmağa iltizamlı etdi.[1327]

---

[1326] Qummi, Əcaibul-qəzaya, səh. 93, hədis 48.
[1327] Təhzib, VI cild, səh. 319, hədis 86.

VIII FƏSİL

# İMAM ƏLİNİN (Ə) HİKMƏTLİ KƏLAMLARI

Kəlam elmində deyildiyi kimi, peyğəmbərlərin *(ə)* vücudlarının nişanələri nübüvvət və risaləti isbat edən dəlillərdən biridir. Nübüvvət və peyğəmbərlik iddiasında olan şəxsin danışıq, davranış və digər cəhətləri onun peyğəmbərliyini isbat edən ən böyük dəlildir. Bu məsələ eyni ilə imamət barəsində də mövcuddur. İmam *(ə)* və peyğəmbərlərin *(ə)* canişini danışıq, davranış, elm, əxlaq və digər cəhətlərdə peyğəmbərlər *(ə)* kimi olmalıdır. Buradan çıxış edib demək olar ki, Həzrət Əlinin *(ə)* kəlamları o Həzrətin *(ə)* İmam və Peyğəmbərin *(s)* canişini olmasına qəti və tutarlı dəlildir. Çünki, Həzrət Əlinin *(ə)* kəlamları onları deyənin hədsiz əzəmət və böyüklüyünü göstərir. Bu da o Həzrətdən *(ə)* başqa heç bir mütəfəkkirin kəlam sahəsinin ən uca zirvəsinə qalxmağa qüdrətinin olmamasını sübuta yetirir. Məhz bu səbəbdən Həzrət Əl *(ə)* ilahi elm və maarif çeşməsinin kükrədiyi, qaynadığı dərin bir dəryadır ki, bu dəryanın da adı Kəlam elmidir. Bu həqiqət isə bütün İslam alimləri və tədqiqatçıları arasında məşhur və hamı tərəfindən qəbul olunandır.

Həzrət Əlinin *(ə)* sözlərinə vurğunluq o Həzrətin *(ə)* öz zamanından başlanıb, hətta düşmənləri də bu məsələni etiraf ediblər. Müaviyə bin Əbu Süfyan dəfələrlə belə deyib: "And olsun Allaha, fəsahəti Qüreyşə Əlidən başqası gətirməyib, gözəlləşdirməyib və uca zirvəyə çatdırmayıb!" O Həzrətin *(ə)* mübarək həyatının başa çatmasından sonra da bu heyranlıq davam edib, İslamın ilkin dövrlərindən xətiblər, yazıçı və şairlər Həzrət Əlini *(ə)* xütbə söyləmək və natiqlikdə özlərinə örnək və nümunə seçiblər, o Həzrətin *(ə)* kəlamının heyranediciliyi və gözəlliyini açıqlayıblar.

Zəmanəsinin ən məşhur, böyük yazıçı və natiqlərindən olmuş, hicrətin 132-ci ilində (Miladi 749-750) öldürülmüş son əməvi xəlifəsi II Mərvan bin Məhəmmədin katibi olmuş və barəsində "yazı yazmaq sənəti Əbdülhəmidlə başladı" deyilən Əbdülhəmid bin Yəhya deyir: "Əlinin xütbələrinin yetmişini əzbərlədim və həmin xəbərlər mənim zehnimdə dayanmadan qaynayırdı".

Cahiz ləqəbilə tanınmış, Hicri 255-də (Miladi 869) vəfat etmiş və ərəb ədəbiyyatının atası sayılan Məsudinin keçmiş yazıçıların ən fəsahətlisi adlandırdığı Əbu Osman bin Bəhr Həzrət Əlinin *(ə)* *"Hər bir insanın qiyməti onun sevdiyi şey miqdarındadır"* kəlamını nəql etdikdən sonra yazır: "Əgər Əlinin kəlamlarından əlimizdə bundan başqa heç nə olmasaydı, təkcə o, dərdimizə çarə üçün bəs edər və ehtiyaclarımızı ödəyərdi".

İslam alimləri arasında "Nəhcül-bəlağə"nin ən böyük şərhçilərindən olmuş İbn Əbil Hədid Mötəzili onun 216-cı xütbəsini şərh edərkən Həzrət Əlinin *(ə)* hikmətli kəlamlarının gözəlliyi və fövqəladə təsiri barəsində bəzi mətləblər bəyan etdikdən sonra deyir: "Həqiqətən mən bu şəxsə təəccüb edirəm ki, müharibədə şir kimi xütbə oxuyur. Elə həmin vaxt moizə etmək istəsə, elə moizə edir ki, elə bil tam guşənişinlikdə olub, heç vaxt ət (isti yemək) yeməyən, qan tökməyən rahib və zahidlərdəndir. O Həzrət *(ə)* bəzən ərəbin

məşhur qəhrəman və cəsurları kimidir, bəzən böyük yunan filosof və alimi Sokrat kimi, bəzən də Bəni-İsrail abidləri Yuhənna və Məsih bin Məryəm kimi, ilahi şəxsiyyətlər kimi! Bütün ümmətlərin and içdiyi Allaha and içirəm ki, mən əlli il bundan əvvəldən indiyə kimi bu xütbəni min dəfədən çox oxumuşam! Onu nə vaxt oxumuşamsa, hər dəfə canımda vahimə və moizə qəbul etmək hissi yaranıb, qəlbimə qorxu və titrəmə salıb. Ona nə vaxt baxmışamsa, qohumlardan, yaxın dostlardan dünyasını dəyişənləri yadıma salmışam və belə zənn etmişəm ki, Əli *(ə)* kimi bu xütbədə çox xətiblər, moizə edən və fəsahət sahibləri sözlər deyiblər, çoxlarının sözlərini dəfələrlə eşitmiş və oxumuşam. Onların heç birinin mənə bu cür təsir etməsini görməmişəm".

İslam alimlərinin son sözü budur: "Həzrət Əlinin *(ə)* kəlamı insan kəlamından üstün, Allah kəlamından aşağıdır".

Həzrət Əli *(ə)* insanları ifrata varmaq və təfritə düçar olmaqdan çəkindirərək buyurmuşdur: *"Bəxşiş edən ol, amma israf və yersiz həddə yox ki, ifrat və həddi aşmaq olsun! Mötədil ol və xəsis olma ki, o təfrit-hədd və əndazədən aşağı haldır!"*

Arzulara ürək bağlamamaq barəsində o Həzrət *(ə)* belə buyurmuşdur: *"Varlılıq və zənginliyin ən üstünü arzuları qəlbə buraxmamaqdır. Çünki, arzu insanı möhtac edir".*

Həzrət Əli *(ə)* başqasını incitməyin ziyanı barəsində buyurmuşdur: *"Kim xalqın incimәsinə səbəb olan şeyə tələssə* (düşünmədən danışsa və ya onların meyl və istəyinə zidd bir iş görsə)*, onun barəsində bilmədikləri şeyi danışarlar. Çünki, insan birindən inciyəndə təbii olaraq onun barəsində eşitdiyini və ya yalan deməkdən çəkinmir".*

Uzun arzuların ziyanı barəsində o Həzrət *(ə)* buyurmuşdur: *"Arzusunu uzadan kəs əməlini pisləşdirib. Çünki, uzun arzu Axirətdən qafil olmağa və əbədi həyat səadətindən məhrumluğa səbəb olur. Amma miqdarında olan arzu və ümidvarlıq bəyənilәndir".*

Əmirəl-möminin *(ə)* fitnəkarlarla rəftar barəsində buyurmuşdur: *"Fitnə-fəsad zamanı nə minilməli bel* (gücü)*, nə də süd sağılmalı əmcəyi olan* (iki yaşı tamam olmuş və anası ondan sonra doğduğu balasına süd verən) *erkək dəvə balası kimi ol".*

Tamah, hərislik, çətinlik, yoxsulluğu başqalarına bildirmək və düşməndən danışmağın məzəmməti barəsində o Həzrət *(ə)* buyurmuşdur: *"Tamah və hərisliyi öz şüarı etmiş kəs özünü kiçildib. Çünki, tamah möhtaclığa və insanın özünü əyməsinə səbəb olur. Möhtaclıq və özünü əymək isə alçaqlıq və kiçikliyə səbəb olur. Öz çətinlik və pərişanlığını başqasının yanında bildirən kəs zillət və xarlığa qol qoyub. Çünki, çətinlik və pərişanlığı aşkar etmək həqirlik və xarlıqdır. Dilini özünə hakim edən* (fikirləşib düşünmədən dilinə gələni danışan kəs) *öz yanında da xar və zəlildir".*

Həzrət Əli *(ə)* xəsislik, qorxaqlıq, kasıblıq, yoxsulluq və acizliyin məzəmməti, həmçinin səbirsizlik, zahidlik və günahlardan uzaq olmağın mədhində belə buyurmuşdur: *“Xəsislik ardır. Çünki, xalq xəsis adamı dünya malına bağlılığına görə məzəmmət edir. Qorxaqlıq nöqsan və çatışmazlıqdır. Ona görə ki, hər hansı bir məqam və dərəcəyə çatmaq şücaət və cəsurluqdan sonra mümkün ola bilər. Kasıblıq zirək şəxsi dəlil və sübutunu bəyan etməkdə lal və dilsiz edir. Necə ki, varlılıq alçaq və nadanı natiqləşdirir. Yoxsul öz şəhərində qəribdir, heç kəs onunla get-gəl etmir. Acizlik insanı əldən salan bəla və biçarəlikdir. Şəbr şücaətdir. Zahidlik sərvətdir. Çünki, zahid, heç kəsə ehtiyacı olmayan varlı şəxs kimi dünyaya və dünya malına möhtac deyil. Günahlardan uzaqlıq ilahi əzab müqabilində qalxandır. Qalxan insanı qılıncdan qoruduğu kimi, pəhrizkarlıq da onu dünya və Axirət çətinliklərindən xilas edər”.*

İnsanın ilahi təqdirə razı olması, elm, gözəl xasiyyət və təfəkkürün mədhində o Həzrət *(ə)* belə buyurmuşdur: *“İlahi təqdirə razı olmaq gözəl yoldaşdır. İnsanın yoldaşı onu rifah və əmin-amanlıqda saxladığı kimi, Allahın istədiyi şeyə razı olan şəxs də rifah və əmin-amanlıqda olur. Elm müqəddəs və əziz bir mirasdır ki, belə bir irs çatmış hər bir kəs səadət və xoşbəxtlik açarını əldə edib. Gözəl xasiyyətlər heç vaxt köhnəlməyən təzə və yeni zinətlərdir. Hər bir işdə fikirləşmək təmiz və pak güzgüdür”.*

Həzrət Əli *(ə)* sirr saxlamaq, gülərüzlük və çətinliklərə qatlaşmağın mədhində buyurmuşdur: *“Ağıllı adamın sinəsi onun sirlərinin xəzinəsidir. Ağıllı şəxs yadı öz sirrindən xəbərdar etməz. Gülərüzlü və xoşxasiyyət olmaq dostluq tələsidir. Gözəl xasiyyət və gülərüzlüklə xalqın ürəyini ələ almaq mümkündür. Çətinliklərə dözüb səbr etmək pisliklərin örtüyüdür. Çünki, əgər şəxs çətinliklər müqabilində səbirli olsa, xalq ondan razı qalaraq eyib və pisliklərinə göz yumar. Yaxud, onun təmkinliyi ilə eyibləri aşkar, nadanlıqları faş olmaz”.*

Özündən razı qalmağın məzəmməti, yoxsullara sədəqə vermək və bəxşiş etməyin faydaları, hər kəsin öz əməlinin savab və cəzasına çatacağı barəsində o Həzrət *(ə)* buyurmuşdur: *“Özündən razı kimsəyə qəzəb edən çox olar. Çünki, özündən razı olan kimsə xalqı xar sayar və buna görə də hamı ona qəzəb edər. Sədəqə xeyirli və şəfaverici dərmandır. Sədəqə insanın qəlbini onu verənə yönəldir və Allahın dərdini ondan uzaqlaşdırmasına səbəb olur. Buna görə də Peyğəmbər buyurmuşdur: “Xəstələrinizi sədəqə verməklə müalicə edin”. Bəndələrin dünyadakı əməlləri Axirətdə gözləri önündə olacaqdır”.*

Həzrət Əli *(ə)* insan yaradılışının heyrətamizliyi barəsində belə buyurmuşdur: *“Bu insana* (onun yaradılışına) *heyrətlənin. Onun xilqəti barəsində düşünün ki, onu yaradanın qüdrət və bacarığını dərk edəsiniz. Yaradan onu elə yaradıb ki, piylə* (gözlə) *görür, ətlə* (dillə) *danışır, sümüklə* (qulaqla) *eşidir və dəlikdən* (burundan) *nəfəs alır”.*

Dünya məzəmməti barəsində o Həzrət *(ə)* buyurmuşdur: *"Dünya bir dəstəyə üz tutan zaman başqalarının yaxşılıqlarını müvəqqəti olaraq onlara nisbət verər. Onlara arxa çevirəndə isə onların öz yoldaşlıqlarını da alar. Biri imkanlı olanda və məqama çatanda dünyapərəstlər onun üçün yaxşılıqlar uydurarlar. Yoxsul və imkansız olanda isə onun öz kamilliklərini də yaddan çıxararlar".*

*Peyğəmbərdən (s) rəvayət edilir ki: Qiyamət günü bir carçı uca səslə car çəkəcək ki, kimin Allahın öhdəsində savab və mükafatı varsa, ayağa dursun. Həmin vaxt başqasının təqsirindən keçənlərdən başqa heç kəs ayağa durmayacaq. Məgər Allahın belə buyurduğunu eşitməmisiniz:* ***"...Bununla belə hər kəs*** (pislik edəni) ***bağışlasa və*** (onunla) ***barışsa, onun mükafatı Allaha aiddir...".***[1328]

Həzrət Əli *(ə)* onunla birlikdə düşmənə qarşı vuruşmaqdan kənara çəkilmiş şəxslər barəsində belə buyurmuşdur: *"Haqla* (Həzrət Əlinin *(ə)* özü nəzərdə tutulur) *yoldaşlıq etmədilər və batilə* (Müaviyyəyə) *kömək göstərdilər".*[1329]

Fitnə və bəlaya düçar olmuş kəslər barəsində o Həzrət *(ə)* belə buyurmuşdur: *"Fitnə və bəlaya düçar olmuş hər bir kəsi məzəmmət etmək olmaz".*

Həzrət Əlinin *(ə)* xilafəti dövründə Peyğəmbərin *(s) "saqqalınızı rəngləyin və özünüzü yəhudilərə oxşatmayın"* hədisini əsas gətirərək o Həzrətdən *(ə)* saqqalını rəngləməməsinin səbəbini soruşdular. Həzrət Əli *(ə)* buyurdu: *"Peyğəmbər bu sözü din əhli az olan zaman buyurub. Buna görə də müsəlmanlara əmr etdi ki, saqqallarını rəngləsinlər və yəhudilər kimi olmasınlar. Çünki, yəhudilər saqqallarına rəng qoymurdular. İndiki zamanda dinin qayışı genişlənib* (İslam hər yerə yayılıb) *və öz sinəsini Yerə qoyub* (qərar tutaraq möhkəmlənib)*, hər bir kişi öz ixtiyarındadır. İstəyir saqqalını rəngləsin, istəyir rəngləməsin. Xülasə, bu mübah, yəni izn verilmiş bir işdir, vacib və ya müstəhəbb deyil".*

O Həzrət *(ə)* comərdlər barəsində buyurmuşdur: *"Comərdlərin səhv və xətalarından keçin. Çünki, onlardan birinin ayağı sürüşən kimi Allahın mərhəmət əli onun əlində olur və onu* (həmin sürüşkənlikdən) *qaldırır. Allah onu həmin səhv və pisliklərdən qayıtmağa nail edir. Xülasə, Allah yaxşı əməl sahiblərinə öz səhvlərini düzəltmək istiqamətində çalışmaq üçün kömək əta edir".*

Qorxu, yersiz utancaqlıq və fürsəti əldən verməyin məzəmməti barəsində Həzrət Əli *(ə)* belə buyurmuşdur: *"Qorxu ziyanla yoldaşdır və utancaqlıq ümidsizliyə birləşikdir. Fürsət ötəri bulud kimi keçir. Buna görə də gözəl fürsətləri əldən çıxarmayın".*

---

[1328] "əş-Şura", 40.

[1329] (Burada Abdullah bin Ömər bin Xəttab, Səd bin Əbu Vəqqas, Səid bin Əmr bin Nəfil, Usamə bin Zeyd, Məhəmməd bin Mələmə, Ənəs bin Malik, Əbu Musa Əşəri, Əxnəf bin Qeys və onlar kimilər nəzərdə tutulmuşdur).

O Həzrət *(ə)* xilafətinin qəsb edilməsi barəsində buyurmuşdur: *"Bizim bir haqqımız* (xilafətimiz) *vardır ki,* (onu Peyğəmbər *(s)* müəyyənləşdirib). *Buna görə də əgər onu bizə versələr alacağıq və əgər verməsələr bu seyr və gecə səfəri uzun olsa da dəvələrin tərkinə minəcəyik"*.

Gözəl əməllərə təşviq etməklə bağlı Həzrət Əli *(ə)* belə buyurmuşdur: *"Əməlinin ağırlaşdırdığı* (ibadət və bəndəlik etməyərək yaxşı işlər görməyən tənbəl) *kəsi məqam və dərəcəsi qoçaq etməz. Zahiri ad-san və böyüklük ona dünya və Axirət məqamı verməz. Çünki, məqam və dərəcə sonradan əmələ gələn bir şeydir. Gözəl əməlin təsiri isə zatidir və heç vaxt yox olmur"*.

O Həzrət *(ə)* zülmə məruz qalanlar və qəmgin insanlar haqqında belə buyurmuşdur: *"Zülmə məruz qalanın dadına çatmaq və qəlbini şad etmək böyük günahların kəffarələrindəndir"*.

Ölümü yada salmaq barəsində Həzrət Əli *(ə)* buyurmuşdur: *"Sən dünyaya arxa çevirəndə və ölüm* (sənə) *üz tutanda* (səninlə ölüm arasında) *görüş və qovuşma necə də tez baş verəcək"*.

Həzrət Əlidən *(ə)* iman haqqında soruşduqda o Həzrət *(ə)* imanın, onun ziddi olan küfr və şəkkin əlamət və nişanələri barəsində buyurmuşdur: *"İman dörd dirək üzərində möhkəmlənib: Səbr və dözümlülük, yəqinlik və inam, ədalət və insaf, din yolunda cihad və çalışqanlıq.*

*Səbr dörd növdür: arzu, qorxu, pəhrizkarlıq və intizar çəkmə. Buna görə də Cənnət arzusu olan kəs nəfsi istəkləri unudar və onlara göz yumar. Oddan qorxan haram və xoşagəlməz işlərdən uzaqlaşar. Dünyada pəhrizkar olan kəs yaxşı və xeyirxah işlərə tələsər.*

*Yəqin də dörd növdür: Zirəkcəsinə gözüaçıqlıq, həqiqətlərə çatmaq, başqalarından ibrət götürmək və keçmişlərin yolu. Zirəkcəsinə gözüaçıq olana* (elm və əməldə) *düz yol aşkar olar. Hikmət və düz yol aşkar olan kimsə müxtəlif hadisələrdən ibrət götürməyi öyrənər. İbrət götürməyi öyrənən şəxs keçmişlərin arasında olmuş, onların vəziyyətini görmüş, işlərin sonunu sınaqdan keçirmiş və nəticədə varlıqların başlanğıc və sonu barəsində yəqinlik və inama malik şəxsə bənzəyir.*

*Ədalət də dörd növdür: Düzgün anlamaq üçün diqqətlilik, elmin həqiqətinə çatmaq, yaxşı hökm çıxarmaq və dözümlülüyü möhkəm saxlamaq. Buna görə də şəxs diqqət edərək düzgün başa düşsə elmin həqiqətini əldə edər. Elmin həqiqətini əldə edən kəs din qaydaları əsasında hökm çıxarar. Səbirli və dözümlü olan kəs isə öz işində səhlənkarlıq etməz və xalq arasında yaxşı adla yaşayar.*

*Cihad da dörd növdür: Yaxşılıqlara əmr etmək, pisliklərdən çəkindirmək, danışıqda düzlük və pis əməl sahiblərilə düşmənçilik. Beləliklə hər kim yaxşı işlərə əmr etsə, möminlərə qoşularaq onları gücləndirib. Pis* (nalayiq) *işləri qadağan edən kəs münafiq və ikiüzlülərin burunlarını torpağa sürtüb.*

*Danışığında düz olan kəs boynunda olan şeyi yerinə yetirib. Kim pis əməl sahiblərilə düşmənçilik etsə və Allaha görə qəzəblənsə, Allah da ona görə* (onlara) *qəzəblənər və Qiyamət günü onu şad edər* (rəhmətindən bəhrləndirər).

*Küfr də dörd sütun üzərində dayanıb:* (Mənşəyi əsassız şübhə və tərəddüd olan, ağıl və dərrakədən kənar, yersiz) *Dərinə getmək, inadkarlıq və çəkişmə etmək* (ifrat-yəni haqqı aşmaqdır) *haqdan əl çəkmək* (ki, o, təfrit, yəni haqq barəsində başısoyuqluqdur)*, düşmənçilik və haqqa tabe olmamaq. Yersiz dərinə gedən kəs düz yola ayaq basmayıb. Nadanlıq üzündən çox inadkarlıq göstərib çəkişməyə düşən şəxsin haqqa qarşı kor olması həmişəlikdir. Haqdan əl götürən şəxsin yanında yaxşılıq pislik, pislik isə yaxşılıq olar və o, azğınlıq sərxoşluğu ilə məst olar. Düşmənçilik edərək haqqa tabe olmayan kəsin yolları çətinləşər, işi ağırlaşar və* (azğınlıq və zəlalətdən) *çıxmaq yolu daralar.*

*Şəkk və tərəddüd də dörd növdür: Boş və nahaq yerə söz güləşdirmək, haqqın icrasından qorxmaq, sərgərdanlıq və azğınlığa təslim olmaq, nicat yolu istiqamətində çalışmamaq. Mübahisə və söz güləşdirməyi özünün adəti etmiş kəsin gecəsi gündüz olmaz* (şəkk və tərəddüd zülmətindən yəqinlik və inam işıqlığına çıxmaz). *Qarşısındakı şeyin* (cihad və haqq yolunda çalışmağın) *qorxutduğu kəs arxaya qayıdar* (öz işlərində bir yerə çatmaz). *Kim şübhə içərisində avara və sərgərdan qalsa* (və özünü yəqinlik və inamın təhlükəsiz və rahat yerinə çatdırması) *şeytanların ayaqları onu tapdaq edərlər* (şeytanlar ona hakim olaraq onu məhv edərlər). *Dünya və Axirəti məhv etməyə təslim olan kəs dünya və Axirətdə məhv olar".*

Səbəbin nəticədən üstün olması barəsində o Həzrət *(ə)* buyurmuşdur: *"Yaxşı işin sahibi yaxşılıqdan daha yaxşıdır və pis işin sahibi pislikdən daha pisdir. Çünki, iş onu görəndən asılıdır. Buna görə də onu görən işin özündən üstündür".*

Həzrət Əli *(ə)* Şama gedəndə İraq şəhərlərindən olan Ənbarın kəndxuda və böyükləri o Həzrətlə *(ə)* rastlaşdılar, Həzrət Əliyə *(ə)* təzim və ehtiram əlaməti olaraq atlarından düşüb miniyin qabağında qaçmağa başladılar. Bu zaman o Həzrət *(ə)* buyurdu: *"Bu nə iş idi ki, siz gördünüz?"* Dedilər: "Bu bizim adətimizdir, öz əmir və hakimlərimizə belə ehtiram göstəririk". Sonra Həzrət Əli *(ə)* Allahdan başqası üçün əyilməyin məzəmmətində buyurdu: *"Allaha and olsun ki, siz və hökmdarlarınız bu işdən heç bir xeyir görmürsünüz. Bu işinizlə özünüzü dünyada əziyyətə, Axirətdə isə bədbəxtliyə düçar edirsiniz. Çünki, Allahdan başqasının müqabilində əyilmək günahdır və əzaba səbəb olur. Arxasınca cəza olan əziyyət* (Allahdan başqası üçün əyilmək) *necə də çox ziyandır! Kənarında oddan* (Cəhənnəmdən) *xatircəmlik olan rahatlıq* (məxluqa xoş gəlmək üçün əziyyət çəkməmək) *nə qədər çox xeyirlidir!"*

Oğlu Həzrət Həsənə *(ə)* öyüd verərkən Həzrət Əli *(ə)* buyurmuşdur: *"Oğulcanım, məndən dörd və dörd şeyi yadında saxla ki, onlarla gördüyün*

*heç bir iş sənə zərər gətirməsin.*[1330] *Şəxsin özünə aid olan dörd şeydən birincisi belədir: Var-dövlətin ən üstünü ağıldır ki, şəxs onun vasitəsilə dünya və Axirət səadətini, xoşbəxtliyini əldə edir. İkincisi: Ən böyük yoxsulluq ağılsızlıqdır ki, iki dünyada da bədbəxtliyə səbəb olur. Ücüncüsü: Ən böyük qorxu xudpəsəndlikdir ki, belə olan şəxs heç kəslə ünsiyyətdə olmur, bu səbəbdən hamı onunla düşmən olur və o, həmişə qorxu içində olur. Dördüncüsü: Ən üstün böyüklük xoşxasiyyətlikdir. Çünki, xoşxasiyyət olan kəs hamının yanında yüksək məqama malik olur.*

*Oğulcanım, başqaları ilə davranış barəsində olan dörd şeydən birincisi budur: Axmaqla dostluq etməkdən çəkin. Çünki, o, sənə xeyir vermək istəyər, amma sənə ziyan vurar. Çünki, axmaq xeyirlə-ziyanın yerlərini bir-birindən ayıra bilmir. İkincisi: Xəsis adamla dostluq etməkdən çəkin. Çünki, o, xəsislik və simicliyə görə çox ehtiyacın olan şeyi səndən əsirgəyər. Üçüncüsü: Pis əməl sahibi ilə dostluq etməkdən çəkin ki, o, səni lap az şeyə satar. Çünki, öz səadətini az şeyə görə əldən vermiş kəs, səni əlbəttə ki, daha az qiymətə satacaqdır. Dördüncüsü: Çox yalan danışan adamla dostluq etməkdən çəkin ki, o, uzağı yaxın və yaxını uzaq edən ilğım* (hamar yerdə su kimi nəzərə çarpan suya bənzər görüntü) *kimidir. Öz nadürst məqsədlərini həyata keçirmək üçün çətin işi asanlaşdırar, asan işi isə çətinləşdirər".*

O Həzrət *(ə)* vacib əməllərə əhəmiyyət vermək barəsində belə buyurmuşdur: *"Müstəhəbbi əməllər vacibata zərər yetirəndə onların vasitəsi ilə Allahın rəhmətinə yaxınlaşmaq rəva deyil. Çünki, vacibi əməllərin yerinə yetirilməsində səhlənkarlıq edən kəs itaətsizlik edib və buna görə cəzalandırılacaqdır. İtaətsizlik edən kəs əslində Allaha yaxınlaşmayıb. Çünki, yaxınlaşmaq itaətsizliklə bir araya sığmır".*

Axmağın məzəmməti barəsində Həzrət Əli *(ə)* buyurmuşdur: *"Ağıllı adamın dili qəlbinin arxasındadır. Ağıllı adam əvvəl deyəcəyi şeyin yaxşı və pis cəhətlərini öz ağlı ilə ölçür və sonra deyir. Axmağın isə qəlbi dilinin arxasındadır. Ağılsız adam başa düşmədən istədiyini deyər və onun düz və ya səhv, xeyirli və ziyanlı olması barəsində sonra fikirləşər".* Seyyid Rəzi deyir: "Bu kəlam gözəl və ürəyəyatan mənalardandır. Məqsəd budur ki, ağıllı adam düşüncəsilə məsləhətləşmə aparıb onun müsbət rətini almadan söz danışmır. Ağılsızın dilinin çölə ötürdükləri və düşünülməmiş danışıqları isə işin aqibəti barəsində fikrə və dərin düşüncəyə müraciət etməyi götürür. Buna görə də ağıllı adamın dili qəlbinə, ağılsız adamın isə qəlbi dilinə tabedir. Bu məna o Həzrətdən *(ə)* başqa sözlə də nəql edilib və həmin kəlam belədir: *"Axmağın qəlbi ağzında, ağıllı adamın dili qəlbindədir".* Hər iki kəlamın mənası eynidir".

[1330] Deyirlər ki, Həzrət Əli *(ə)* ona görə "dörd və dörd" buyurub ki, birinci dörd şey şəxsin özünə aiddir, ikincisi isə başqaları ilə davranış barəsindədir.

